# HEYDƏR ƏLİYEV

MÜSTƏQİLLİYİMİZ
ƏBƏDİDİR

***Y e d d i n c i   k i t a b***

***iyun, 1996 - noyabr, 1996***

*çıxışlar*
*nitqlər*
*bəyanatlar*
*məktublar*
*müsahibələr*

**AZƏRNƏŞR**
**BAKI-1998**

**BBK 66.3(5Aze)8**
**Ə – 65**

Buraxılışına məsul
**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 65 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 1998, 520 səh.

Kitabda Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin 1996-cı il iyunun sonundan noyabrın əvvəllərinədək olan dövrdəki çıxış, nitq, müraciət, bəyanat, müsahibə və məktubları toplanmışdır. Cildə daxil edilmiş materiallarda Azərbaycan Prezidentinin Dünya Birliyi ölkələri və beynəlxalq təşkilatlarla Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsi, xarici dövlətlərə rəsmi səfərləri, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması, Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsinin sürətləndirilməsi, həmçinin respublikada elm, təhsil, mədəniyyət və idmanın inkişafına qayğı və sosial iqtisadi həyatın digər vacib məsələləri öz parlaq əksini tapmışdır.

**BBK – 66.3(5Aze)8**

Ə $\frac{0801000000}{M – 651(07) – 98}$

**© Azərnəşr, 1998**

## KİTABIN İÇİNDƏKİLƏR


XXVI YAY OLİMPİADASINDA (ATLANTA, ABŞ) İŞTİRAK EDƏCƏK AZƏRBAYCAN İDMANÇILARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*29 iyun 1996-cı il*........................................ 10

ALMANİYA FEDERATİV RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*1 iyul 1996-cı il*........................................ 13

ALMANİYADAKI AZƏRBAYCAN CƏMİYYƏTLƏRİNİN SƏDRLƏRİ VƏ AZƏRBAYCAN CƏMİYYƏTLƏRİ FEDERASİYASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*1 iyul 1996-cı il*........................................ 14

ALMANİYADAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*1 iyul 1996-cı il*........................................ 18

ALMANİYA-AZƏRBAYCAN FORUMU İDARƏ HEYƏTİNİN VƏ RƏYASƏT HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*1 iyul 1996-cı il*........................................ 19

ALMANİYANIN FEDERAL PREZİDENTİ ROMAN HERSOQUN ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ ÇIXIŞ
*2 iyul 1996-cı il*........................................ 22

ALMANİYANIN İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*3 iyul 1996-cı il*........................................ 24

ALMANİYA FEDERATİV RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*3 iyul 1996-cı il*........................................ 32

ALMANİYANIN "DÖYÇE BANK" İDARƏ HEYƏTİ ADINDAN AZƏRBAYCAN PREZİDENTİ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ NİTQ
*3 iyul 1996-cı il*........................................ 36

ALMANİYANIN "MERSEDES-BENTS" FİRMASININ İDARƏ HEYƏTİ ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ NİTQ
*4 iyul 1996-cı il*........................................ 38

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ BORİS NİKOLAYEVİÇ YELTSİN CƏNABLARINA
*5 iyul 1996-cı il*........................................ 39

BAKIDA YENİ TELEQÜLLƏNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*6 iyul 1996-cı il*........................................ 40

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ NƏCMƏDDİN ƏRBAKAN CƏNABLARINA
*9 iyul 1996-cı il*........................................ 43

"ULUSLARARASI QAYNAQLARDA NAXÇIVAN" BEYNƏLXALQ SİMPOZİUMUNUN İŞTİRAKÇILARINA
*10 iyul 1996-cı il*........................................ 44

"AVROPA ŞURASI VƏ AZƏRBAYCAN RESPUBLİKASI ARASINDA ƏMƏKDAŞLIQ PROQRAMININ HƏYATA KEÇİRİLMƏSİ TƏDBİRLƏRİ HAQQINDA" RESPUBLİKA PREZİDENTİNİN SƏRƏNCAMININ YERİNƏ YETİRİLMƏSİ MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ
*10 iyul 1996-cı il*........................................................................................................ 45
YEKUN SÖZÜ
*10 iyul 1996-cı il*........................................................................................................ 45

"TORPAQ İSLAHATI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNU LAYİHƏSİNİN MÜZAKİRƏSİNƏ HƏSR EDİLMİŞ İCLASDA GİRİŞ SÖZÜ
*12 iyul 1996-cı il*........................................................................................................ 47
YEKUN NİTQİ
*12 iyul 1996-cı il*........................................................................................................ 48

AVROPA ŞURASININ YÜKSƏK SƏVİYYƏLİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏN SONRA MƏTBUAT KONFRANSINDA ÇIXIŞ
*13 iyul 1996-cı il*........................................................................................................ 54

FRANSA RESPUBLİKASININ MİLLİ BAYRAMI MÜNASİBƏTİLƏ FRANSANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*14 iyul 1996-cı il*........................................................................................................ 57

DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİYİ MÜNASİBƏTİLƏ DƏRBƏND ŞƏHƏRİNDƏ KEÇİRİLƏN BEYNƏLXALQ ELMİ KONFRANSIN İŞTİRAKÇILARINA
*15 iyul 1996-cı il*........................................................................................................ 59

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN RESPUBLİKADA SOSİAL-İQTİSADİ SAHƏNİN İNKİŞAFINA HƏSR OLUNMUŞ GENİŞ İCLASINDA GİRİŞ SÖZÜ
*18-19 iyul 1996-cı il*.................................................................................................. 60
YEKUN NİTQİ
*18-19 iyul 1996-cı il*.................................................................................................. 62

22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK 80

XALQ RƏSSAMI MARAL XANIM RƏHMANZADƏYƏ
*22 iyul 1996-cı il*........................................................................................................ 81

DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ MƏHƏMMƏD FÜZULİNİN 500 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ NÖVBƏTİ İCLASINDA ÇIXIŞ
*23 iyul 1996-cı il*........................................................................................................ 82
YEKUN SÖZÜ
*23 iyul 1996-cı il*........................................................................................................ 84

"ŞƏFƏQ" QƏZETİNİN 75 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏBRİK
*29 iyul 1996-cı il*........................................................................................................ 89

AĞDAM RAYONUNUN ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞALININ ÜÇÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AĞDAM RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ
*2 avqust 1996-cı il*..................................................................................................... 90
YEKUN NİTQİ
*2 avqust 1996-cı il*..................................................................................................... 91

XALQ RƏSSAMI MARAL RƏHMANZADƏNİN ƏSƏRLƏRİNDƏN İBARƏT

YUBİLEY SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*3 avqust 1996-cı il*............................................................................................................ 98

RUSİYA FEDERASİYASININ PREZİDENTİ B. N. YELTSİNİN TƏNTƏNƏLİ ANDİÇMƏ MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA SƏFƏRİ ZAMANI RUSİYANIN MÜDAFİƏ NAZİRİ İ. RODİONOVLA GÖRÜŞDƏN SONRA AZƏRBAYCAN JURNALİSTLƏRİNƏ BƏYANAT
*9 avqust 1996-cı il*............................................................................................................ 99

XXVI YAY OLİMPİADASINDA (ATLANTA, ABŞ) İŞTİRAK ETMİŞ AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*14 avqust 1996-cı il*.......................................................................................................... 101

XALQ ŞAİRİ QABİLƏ
*15 avqust 1996-cı il*.......................................................................................................... 104

BAKIDA BRİTANİYA ŞƏRQ BANKI FİLİALININ RƏSMİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQİ
*15 avqust 1996-cı il*.......................................................................................................... 105

AZƏRBAYCAN-BELARUS "SƏNAYE-TƏRƏFDAŞLIQ VƏ KOOPERASİYA" SATIŞ-SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*15 avqust 1996-cı il*.......................................................................................................... 106

AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRƏN SAHİBKARLARLA GÖRÜŞDƏ GİRİŞ SÖZÜ
*16 avqust 1996-cı il*.......................................................................................................... 109
YEKUN NİTQİ
*16 avqust 1996-cı il*.......................................................................................................... 110

FRANSANIN AZƏRBAYCANDA YENİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ JAN PYER KİNYUTUN ETİMADNAMƏSİNİN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*17 avqust 1996-cı il*.......................................................................................................... 117

MİSİRİN AZƏRBAYCANDA YENİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ HƏSƏN MƏHƏMMƏD ƏL-İNANİNİN ETİMADNAMƏSİNİN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*17 avqust 1996-cı il*.......................................................................................................... 118

"DƏDƏ QORQUD" QAZMA QURĞUSUNUN FƏALİYYƏTƏ BAŞLAMASINA HƏSR OLUNMUŞ MİTİNQDƏ NİTQ
*24 avqust 1996-cı il*.......................................................................................................... 119

AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN (ABƏŞ) OFİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*24 avqust 1996-cı il*.......................................................................................................... 122

DÜNYA ENERGETİKA ŞƏHƏRLƏRİ NÜMAYƏNDƏLƏRİNİN GÖRÜŞÜ İŞTİRAKÇILARINA
*27 avqust 1996-cı il*.......................................................................................................... 124

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ BORİS NİKOLAYEVİÇ YELTSİN CƏNABLARINA
*30 avqust 1996-cı il*.......................................................................................................... 125

"LUKoyl" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN PREZİDENTİ VAHİD YUSİF

OĞLU ƏLƏKBƏROV CƏNABLARINA
*30 avqust 1996-cı il*............................................................ 126

GÖRKƏMLİ AZƏRBAYCAN ŞAİRİ ƏLİAĞA VAHİDİN ANADAN OLMASININ 100 İLLİK YUBİLEY GECƏSİ BAŞA ÇATDIQDAN SONRA MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*30 avqust 1996-cı il*............................................................ 127

BAKININ NƏRİMANOV RAYONUNDA YENİ ORTA ÜMUMTƏHSİL MƏKTƏBİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*2 sentyabr 1996-cı il*............................................................ 129

AZƏRBAYCANDA İKİNCİ BEYNƏLXALQ TİCARƏT SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*3 sentyabr 1996-cı il*............................................................ 133

FÜZULİ, CƏBRAYIL VƏ QUBADLI RAYONLARININ İŞĞALININ ÜÇÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR HƏMİN BÖLGƏLƏRİN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ
*7 sentyabr 1996-cı il*............................................................ 135
YEKUN NİTQİ
*7 sentyabr 1996-cı il*............................................................ 135

HİNDİSTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ RASENDRA MADNUKAR ABHUANKARIN ETİMADNAMƏSİNİN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*9 sentyabr 1996-cı il*............................................................ 143

AKADEMİK YUSİF MƏMMƏDƏLİYEVİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ GECƏDƏ NİTQ
*10 sentyabr 1996-cı il*............................................................ 144

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN NÖVBƏDƏNKƏNAR SESSİYASINDA NİTQ
*11 sentyabr 1996-cı il*............................................................ 148

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA
*12 sentyabr 1996-cı il*............................................................ 149

BAKIDA "İMPROŞOP" TİCARƏT MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*14 sentyabr 1996-cı il*............................................................ 150

AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLMİŞ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN BİNƏ HAVA LİMANINDA RƏSMİ QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT
*16 sentyabr 1996-cı il*............................................................ 152

AZƏRBAYCAN VƏ QAZAXISTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ
*16 sentyabr 1996-cı il*............................................................ 153

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ AZƏRBAYCAN MİLLİ MƏCLİSİ ÜZVLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ
*16 sentyabr 1996-cı il*............................................................ 155

AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*16 sentyabr 1996-cı il*............................................................ 158

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN H. RƏSULBƏYOV ADINA RABİTƏ KOLLECİNİN YATAQXANASINDA MÜVƏQQƏTİ MƏSKUNLAŞMIŞ QAÇQINLARLA GÖRÜŞÜNDƏ ÇIXIŞ
*16 sentyabr 1996-cı il*........................................................................................................ 163

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ NİTQ
*16 sentyabr 1996-cı il*........................................................................................................ 165

GÖRKƏMLİ AZƏRBAYCAN BƏSTƏKARI MÜSLÜM MAQOMAYEVİN ANADAN OLMASININ 110 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİ BAŞA ÇATDIQDAN SONRA MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*18 sentyabr 1996-cı il*........................................................................................................ 167

ARGENTİNA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ
*20 sentyabr 1996-cı il*........................................................................................................ 169

"TORPAQ İSLAHATI HAQQINDA" QANUNUN HƏYATA KEÇİRİLMƏSİ VƏ KƏND TƏSƏRRÜFATINDA CARİ İŞLƏRİN GEDİŞİ VƏZİYYƏTİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ
*21 sentyabr 1996-cı il*........................................................................................................ 170
YEKUN NİTQİ
*21 sentyabr 1996-cı il*........................................................................................................ 171

İSLAM İNKİŞAF BANKININ BEYNƏLXALQ İNVESTİSİYA KONFRANSINDA NİTQ
*21 sentyabr 1996-cı il*........................................................................................................ 176

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS AKADEMİYASININ KOLLEKTİVİNƏ
*27 sentyabr 1996-cı il*........................................................................................................ 180

ÇİN XALQ RESPUBLİKASI ELAN OLUNMASININ 47-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ ÇXR-in AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*30 sentyabr 1996-cı il*........................................................................................................ 181

ALMANİYANIN YENİDƏN BİRLƏŞMƏSİNİN 6-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ AFR-in AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*3 oktyabr 1996-cı il*........................................................................................................ 183

AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN YARANMASININ 5-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ
*7 oktyabr 1996-cı il*........................................................................................................ 185

AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN YARANMASININ 5-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ ÇIXIŞ
*9 oktyabr 1996-cı il*........................................................................................................ 188

QOBUSTAN RAYONU CƏMCƏMLİ KƏNDİNİN SAKİNİ BAXŞƏLİYEV ELMXAN MÜƏLLİMƏ
*9 oktyabr 1996-cı il*........................................................................................................ 189

GÖYÇAY RAYONUNUN BIĞIR KƏNDİ ƏRAZİSİNDƏ AVTOMOBİL

**QƏZASINDA HƏLAK OLANLARIN AİLƏLƏRİNƏ**
*9 oktyabr 1996-cı il*............................................................................................................ **190**

**"ƏSRİN MÜQAVİLƏSİ"-Nİ HƏYATA KEÇİRMƏK ÜÇÜN YARADILMIŞ AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN İKİ İLLİK FƏALİYYƏTİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ**
*10 oktyabr 1996-cı il*.......................................................................................................... **191**
**YEKUN SÖZÜ**
*10 oktyabr 1996-cı il*.......................................................................................................... **191**

**AZƏRBAYCAN ELMİ-TƏDQİQAT OFTALMOLOGİYA İNSTİTUTUNA**
*11 oktyabr 1996-cı il*.......................................................................................................... **196**

**BAKIDA AZƏRBAYCAN-FRANSA DANIŞIQLARINDAN SONRA FRANSANIN XARİCİ İŞLƏR NAZİRİ ERVE DE ŞARETT İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*11 oktyabr 1996-cı il*.......................................................................................................... **197**

**BAKIDA FRANSA SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
*11 oktyabr 1996-cı il*.......................................................................................................... **198**

**FRANSANIN XARİCİ İŞLƏR NAZİRİ ERVE DE ŞARETTİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA ÇIXIŞ**
*11 oktyabr 1996-cı il*.......................................................................................................... **199**

**AZƏRBAYCANDA QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ KONFRANSDA NİTQ**
*16 oktyabr 1996-cı il*.......................................................................................................... **201**

**AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ MÜNASİBƏTİLƏ XALQA MÜRACİƏT**
*18 oktyabr 1996-cı il*.......................................................................................................... **204**

**AZƏRBAYCAN, RUSİYA VƏ XARİCİ ÖLKƏ JURNALİSTLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*19 oktyabr 1996-cı il*.......................................................................................................... **206**

**TÜRKDİLLİ DÖVLƏTLƏR BAŞÇILARININ IV FORUMUNDA VƏ GÖRKƏMLİ DÖVLƏT XADİMİ ƏMİR TEYMURUN 660 İLLİK YUBİLEYİ MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN DAŞKƏNDƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ BƏYANAT**
*21 oktyabr 1996-cı il*.......................................................................................................... **212**

**TÜRKDİLLİ DÖVLƏTLƏR BAŞÇILARININ IV FORUMUNDA NİTQ**
*21 oktyabr 1996-cı il*.......................................................................................................... **213**

**TÜRKDİLLİ DÖVLƏTLƏR BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSINDA JURNALİSTİN SUALINA CAVAB**
*21 oktyabr 1996-cı il*.......................................................................................................... **215**

**TÜRKDİLLİ DÖVLƏTLƏR BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ ZİYAFƏTDƏ NİTQ**
*21 oktyabr 1996-cı il*.......................................................................................................... **216**

**ÖZBƏKİSTAN TELEVİZİYASI MÜXBİRİNİN SUALINA CAVAB**
*22 oktyabr 1996-cı il*.......................................................................................................... **217**

**TÜRKDİLLİ ÖLKƏLƏRİN VƏ TACİKİSTANIN DÖVLƏT BAŞÇILARI ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ NİTQ**
*22 oktyabr 1996-cı il*............................................................................................................ **218**

**MDB VƏ BALTİYA ÖLKƏLƏRİNİN "FİLMFEST-96" FESTİVALLAR FESTİVALININ AÇILIŞ MƏRASİMİNDƏN SONRA FESTİVAL İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*23 oktyabr 1996-cı il*............................................................................................................ **219**

**QAZAXISTAN RESPUBLİKASININ MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ QAZAXISTANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**
*23 oktyabr 1996-cı il*............................................................................................................ **222**

**TÜRKİYƏ RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ OSMAN FARUQ LOĞOĞLUNUN ETİMADNAMƏSİNİN TƏQDİMATINDA ÇIXIŞ**
*24 oktyabr 1996-cı il*............................................................................................................ **224**

**QARA DƏNİZ HÖVZƏSİ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ**
*24 oktyabr 1996-cı il*............................................................................................................ **226**

**QARA DƏNİZ HÖVZƏSİ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ**
*25 oktyabr 1996-cı il*............................................................................................................ **227**

**BAKIDA DÖVLƏTLƏRARASI "MİR" TELERADİO ŞİRKƏTİNİN AZƏRBAYCAN MİLLİ NÜMAYƏNDƏLİYİNİN OFİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ**
*28 oktyabr 1996-cı il*............................................................................................................ **229**

**AZƏRBAYCAN ŞAİRİ VƏ DRAMATURQU, BÖYÜK ƏDİB HÜSEYN CAVİDİN MƏQBƏRƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**
*29 oktyabr 1996-cı il*............................................................................................................ **231**

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ**
*30 oktyabr 1996-cı il*............................................................................................................ **235**

**NAXÇIVAN HƏRBİ QARNİZONUNUN ƏSGƏR VƏ ZABİTLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ**
*30 oktyabr 1996-cı il*............................................................................................................ **242**

**NAXÇIVANIN SƏRHƏD DƏSTƏSİNİN ƏSGƏR VƏ ZABİTLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*30 oktyabr 1996-cı il*............................................................................................................ **245**

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ**
*31 oktyabr 1996-cı il*............................................................................................................ **247**

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ BORİS YELTSİN CƏNABLARINA**
*5 noyabr 1996-cı il*............................................................................................................ **250**

## XXVI YAY OLİMPİADASINDA (ATLANTA, ABŞ) İŞTİRAK EDƏCƏK AZƏRBAYCAN İDMANÇILARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Zuğulba, "Gənclik" beynəlxalq kompleksi*

*29 iyun 1996-cı il*

Əziz gənclər, idmançılar, XXVI olimpiya oyunlarında Azərbaycan Respublikasını təmsil edəcək komandanın üzvləri!

Dünyanın ən böyük, ən mötəbər idman mərasimi olan XXVI olimpiya oyunlarında Azərbaycanı təmsil etmək üçün sizə göstərilən etimada və əldə etdiyiniz nailiyyətə görə sizi ürəkdən təbrik edir və qarşınızda duran vəzifələrin həyata keçirilməsində uğurlar arzulayıram. Siz idman növləri sahəsində Azərbaycan gənclərinin ən seçilmiş və ən yüksək nailiyyətlər əldə etmiş, ən yüksək səviyyələrə çatmış nümayəndələrisiniz. Sayca az da olsanız, ilk dəfə Azərbaycan xalqını, respublikamızı olimpiya oyunlarında təmsil edərək bütün Azərbaycanı dünyaya tanıtdıracaqsınız.

İdman sahəsində hər birinizin fəaliyyəti, gördüyünüz işlər və əldə etdiyiniz nailiyyətlər Azərbaycan idmanının adını, şanını-şöhrətini yüksəldir. Qədim dövrlərdən indiyə qədər idman insanları həm fiziki, həm də mənəvi cəhətdən yüksəldən bir vasitədir. İdmanla məşğul olan hər bir şəxs həm özünün fiziki sağlamlığını təmin edir, həm də ki, cəmiyyətdə idmanın, bədən tərbiyəsinin insan üçün nə qədər lazım olduğunu sübut edir.

Biz respublikamızda əhalimizin, millətimizin sağlamlığı haqqında – fiziki, mənəvi sağlamlığı haqqında düşünürük. Bu gün də düşünürük, xalqımızın gələcəyi üçün də düşünməliyik. Bu, bizim vəzifələrimizin içərisində ən böyük, ən əhəmiyyətli vəzifədir. [5-6]

Azərbaycan xalqı milli azadlığına nail olubdur, dövlət müstəqilliyini əldə edibdir. Azərbaycan xalqı bu gün üçün də, gələcək üçün də müsbət nümunələr göstərməlidir. Müsbət nümunələri isə biz birinci növbədə hər bir insanın və ümumiyyətlə, xalqımızın, millətimizin fiziki və mənəvi sağlamlığında görürük. Bu, dövlətimiz, ölkəmiz üçün, xalqımız, hər bir vətəndaşımız üçün ən vacib məsələdir. Ona görə də biz idmana, fiziki hazırlığa, bədən tərbiyəsinə xüsusi fikir veririk və bu sahə bundan sonra da Azərbaycan dövlətinin daim diqqət mərkəzində olacaqdır. Gənclərə, gələcək nəsillərə idmanın, bədən tərbiyəsinin nə qədər lazımlı olduğunu göstərmək, sübut etmək üçün sizin kimi görkəmli idman ustalarının, idman sahəsində yüksək nailiyyət əldə etmiş şəxslərin nümunəsi çox gərəklidir.

XXVI olimpiya oyunları dünyanın bütün ölkələrini maraqlandırır, burada cəmləşdirir. Hər bir ölkə çalışır ki, olimpiya oyunlarında təmsil olunsun. Keçmiş dövrlərdə də Azərbaycanın ayrı-ayrı nümayəndələri Ümumdünya olimpiya oyunlarında təmsil olunmuşdur. Bəziləri yüksək nailiyyətlər də əldə etmişlər. Ancaq onlar keçmiş Sovetlər İttifaqını təmsil etmişlər. Eyni zamanda Azərbaycan tam müstəqil olmadığına görə keçmişdə Sovetlər İttifaqının ümumi komandasında Azərbaycanın idman ustalan istənilən qədər, istənilən miqdarda heç vaxt təmsil olunmamışdı.

Müstəqil Azərbaycan dövləti gəncdir. Biz müstəqilliyimizin beşinci ilini yaşayırıq. Amma baxın, XXVI olimpiya oyunlarına bizim 21 nəfər nümayəndəmiz gedir və onlar orada təmsil olunmaq, iştirak etmək hüququ alıblar. Bu, sadəcə bir nümayəndə heyəti deyil ki, neçə nəfər istəyirsən təyin et, müəyyən et, göndər. Dünyada yeganə haldır ki, bu toplantıya, dünya səviyyəli görüşə gedən nümayəndə heyəti nə dövlət, nə də xalq tərəfindən təyin oluna bilməz. Olimpiya oyunlarında iştirak etmək hüququ almaq üçün lazımi göstəricilər əldə etmək gərəkdir. Əgər bunlar olmasa, Azərbaycan dövləti, Azərbaycan prezidenti də nə qədər çalışsa, o nailiyyəti əldə etməyən adam yığma komandanın tərkibinə düşə bilməz. Ona görə də 21 nəfərdən ibarət olan bu nümayəndə heyəti Azərbaycan [6-7] Respublikasının idman sahəsində imkanlarını nümayiş etdirir. Keçmiş, dövrdə olimpiya oyunlarında Sovetlər İttifaqının yığma komandasında heç vaxt Azərbaycandan 21 nəfərdən ibarət komanda iştirak etməmişdir. Nə üçün? Əgər həmin Azərbaycan xalqıdırsa, gəncləridirsə, 15-20-30 il bundan qabaq da bu qədər ola bilərdi. Bu, onu göstərir ki, müstəqillik bütün başqa sahələrlə yanaşı, Azərbaycan xalqının, gənclərimizin idman, fiziki hazırlıq sahəsində də imkanlarını açır, geniş nümayiş etdirir.

İlk dəfədir ki, dünya olimpiya oyunlarında müstəqil Azərbaycanın yığma komandası iştirak edir. Mən heç şübhə etmirəm ki, gələn olimpiya oyunlarında Azərbaycanın yığma komandası sayca bundan da çox, keyfiyyətcə daha yüksək, olacaqdır. Çünki xalqımız, millətimiz genetik xüsusiyyətlərinə görə fiziki cəhətdən sağlam insanlardan ibarət olan xalqdır, millətdir. Fiziki sağlamlıq və fiziki güc, mənəvi sağlamlıqla bərabər Azərbaycan xalqına, millətinə xas olan xüsusiyyətdir. Amma bu xüsusiyyət həmişə bizim daxilimizdə qalıbdır. Keçmiş dövrlərdə də, əsrlərdən-əsrlərə pəhləvanlarımız da, güləşçilərimiz də, oxatanlarımız da, fiziki imkanlarını cürbəcür oyunlarda nümayiş etdirənlərimiz də olubdur. Ancaq məlum olan səbəblərə görə bunlar yalnız öz ölkəmizin çərçivəsində qalıb, dünya miqyasına çıxmayıbdır. İndi isə xalqımızın, millətimizin bu

imkanlarını dünyada nümayiş etdirmək fürsəti almışıq. Bu, böyük hadisə, böyük nailiyyətdir. Şəxsən mən bununla fəxr edirəm. Hesab edirəm ki, Azərbaycanın hər bir vətəndaşının bununla fəxr etməyə haqqı var.

Əziz idmançılar, olimpiya oyunlarına yola düşən Azərbaycan komandasının üzvləri, yenə də deyirəm, bu hüququ, haqqı siz özünüz qazanmısınız. Əminəm, siz çalışacaqsınız ki, əldə etdiyiniz bu nailiyyəti XXVI olimpiya oyunlarında da məharətlə nümayiş etdirəsiniz.

Şübhəsiz ki, sizin, yəni Azərbaycan Respublikası komandasının XXVI olimpiya oyunlarında iştirak etməsi özü əlamətdar bir hadisədir. Siz oradan hansı nailiyyətlə qayıdacaqsınızsa, bu, məsələnin ikinci tərəfidir. Birinci tərəfi ondan ibarətdir ki, siz XXVI olimpiya oyunlarında Azərbaycanı təmsil etmək hüqu[7-8]qu qazanmısınız və Azərbaycan xalqı adından dünya olimpiya oyunlarında iştirak edəcəksiniz. Ancaq hər birimiz, güman edirəm, Azərbaycanın hər bir vətəndaşı sizin orada iştirakınızın nəticələrini gözləyəcəyik.

İdman kütləvi xarakter daşıyır. İnsanlar idmanla məşğul olub-olmamasından asılı olmayaraq ona daim maraq göstərirlər. Təsadüfi deyil ki, cürbəcür idman oyunları minlərlə, on minlərlə, yüz minlərlə adamı stadionlara toplayır. Bu, təbiidir. XXVI olimpiya oyunları da dünyanın televiziya kanalları ilə bütün ölkələrə yayılacaqdır. Güman edirəm, Azərbaycan vətəndaşları da, ümumiyyətlə, həm bu oyunlara maraq göstərərək televiziya verilişlərini daim izləyəcəklər, xüsusən də hər birimiz səbirsizliklə gözləyəcəyik ki, Azərbaycan komandası hansı gün hansı nailiyyət qazanacaqdır.

Ona görə də sizin üzərinizə böyük məsuliyyət düşür. Bu məsuliyyəti də özünüz öz üzərinizə götürmüsünüz. Çünki özünüz çalışmısınız, olimpiya oyunlarında iştirak etmək haqqı qazanmısınız və özünüz də bu işi müvəffəqiyyətlə başa çatdırmalısınız. Güman edirəm, bunu isbat etməyə ehtiyac yoxdur. Bunu özünüz yaxşı dərk edirsiniz və güman edirəm ki, hər birinizin ürəyi hər gün bu fikirlərlə doludur. Ona görə də biz sizi xeyir-dua ilə yola salırıq. Bu gün bütün Azərbaycan xalqı adından sizə xeyir-dua verirəm. Allah sizə kömək etsin, yolunuz uğurlu olsun, sağ-salamat gedib Atlanta şəhərinə çatasınız, orada öz idman məharətinizi nümayiş etdirə və Azərbaycanın bayrağını yüksəklərə qaldıra biləsiniz. Sizin imkanlarınız var və ümidvaram ki, buna nail olacaqsınız.

Bu gün bizim görüşümüz indi Azərbaycan gənclərinə məxsus olan gözəl "Gənclik" mərkəzində keçirilir. Buradakı kompleks uzun illər tikilib, yaranıb, qurulubdur. Xatirimdədir, bunun əsası 60-cı illərdə qoyulmuşdur. 70-80-ci illərdə biz buraya çox vəsait qoyduq, çox səy göstərdik və burada, Azərbaycanın ən gözəl guşələrindən biri olan Xəzər dənizinin sahilində – Abşeronda, Bakıda, Zuğulbada gözəl "Gənclik" kompleksi yarandı. Bu, idman, istirahət kompleksidir, gənclərin öz fiziki-mənəvi istedadlarını nümayiş etdirmələri, hazırlaşmaları, təlim keçmələri üçün şərait yaradan bir kompleksdir. Mən çox məmnunam ki, bu neçə illik fasilədən sonra sizinlə bərabər yenidən bu kompleksdəyəm. Çünki bura mənim üçün doğma yerdir. Bu kompleksin tikilməsi, yaranması, genişlənmə[8-9]si və inkişaf etməsi üçün mən şəxsən çox zəhmət çəkmişəm, çox qərarlar qəbul etmişəm, çox işlər görmüşəm.

Ona görə də mənim üçün çox narahatedici hal idi ki, bu kompleks ayrı-ayrı nadanların əllərinə düşmüşdü və bunu gənclərin tələblərinə həsr etmək əvəzinə, cürbəcür başqa məqsədlər üçün istifadə edirdilər. Xatirinizdədir, bu ilin fevralında Azərbaycan gənclərinin ilk forumunu keçirərkən mən "Gənclik" mərkəzi haqqında öz fikrimi söylədim. O vaxt bəziləri mənə sübut etmək istəyirdilər ki, bilirsiniz, bu bizə məxsus deyil, kim tərəfindənsə özəlləşdirilib, kiməsə, haradasa Moskvada tabedir, filan bəsməkan. Bunlar heç bir çərçivəyə sığışmayan sözlər idi.

Bilirsiniz, insanlar qurulan şeyi dağıtmağa çox mahirdirlər. Bu, çətin bir şey deyildir. Amma bunu tikmək, yaratmaq neçə illər tələb edib, burada nə qədər zəhmət çəkilib, nə qədər vəsait qoyulub, işlər görülübdür. Bunlar hamısı Azərbaycan xalqına, Azərbaycan gənclərinə məxsusdur, onların bu gününə və gələcəyinə məxsusdur. Bunu ayrı-ayrı adamların sərəncamına verib mənfəət mənbəyi etməyə, yaxud cürbəcür çirkin işlər görməyə yol vermək olmaz. Təəssüflər olsun ki, müəyyən dövrdə Azərbaycanda özbaşınalığa, hərc-mərcliyə, deyə bilərəm ki, sahibsizliyə görə ölkənin bu cür sərvətləri ayrı-ayrı nadan adamların əlinə keçmişdir və bəziləri hələ bu gün də onların əlindədir. Bu gün mən sizə bir daha deyirəm: hamısını xalqa qaytaracağıq. Heç kəsə imkan verə bilmərik ki, xalqın sərvəti, vəsaiti, zəhməti ilə, necə deyərlər, xalqın bütün çalışqanlığı ilə yaranmış və xalq üçün olan, xalqa xidmət edən belə obyektlər ayrı-ayrı əllərə keçsin.

İndi burada mənə danışırlar ki, Gənclər və İdman Nazirliyi bu obyekti təhvil alarkən o nə vəziyyətdə idi. İki-üç ay içərisində burada görülmüş işlər nəticəsində indi kompleks gözəl vəziyyətə düşübdür. Mən çox sevinirəm ki, fevral ayında belə qərar qəbul etdim və çox məmnunam ki, bu qərar həyata keçirilibdir. Gənclər və İdman Nazirliyinə, Nazirlər Kabinetinə tapşırıram ki, fevral ayında gənclər forumunda verdiyim göstərişlərin, əmrlərin hamısı axıra qədər yerinə yetirilsin. Bu əmrlər də ancaq və ancaq gənclər üçün yeni imkanlar yaratmağa yönəldilibdir. Gənclər bizim bu günümüz, gələcəyimizdir. Bizim həyatımız, gələcəyimiz bugünkü gənclərlə bağlıdır. Biz müstəqil Azərbaycan Respublikası qurmuşuq, yaradırıq. Azərbaycanda dövlət quruculuğu prosesi gedir, dövlət müstə[9-10]qilliyimizi qoruyuruq, müstəqilliyimizə zərbə vuran halları aradan götürməyə çalışırıq. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə, ölkəmizə edilmiş hərbi təcavüzün qarşısını almağa çalışırıq.

İki ildən artıqdır ki, atəşi dayandırmışıq. Ancaq biz tam, böyük sülhə nail olmaq istəyirik. İşğal olunmuş torpaqlarımızı azad etmək, bu torpaqlardan zorla çıxarılmış vətəndaşlarımızı öz yurdlarına, evlərinə, obalarına qaytarmaq istəyirik. Bunlar qarşımızda duran vəzifələrdir, bizim məqsədimizdir. Bu məqsədə nail olmaq üçün gecə-gündüz çalışırıq. Bu məqsədlərə nail olmaq, Azərbaycanın müstəqilliyini dönməz, yenilməz, əbədi etmək üçün yeni, gənc nəsil yetişməli, böyüməli və Azərbaycanın bayrağını əllərdən əllərə ötürərək irəliyə aparmalıdır. Bu nəsil sizsiniz, gənclərdir, gənclərin içərisindən seçilmiş idman ustalarıdır.

Mən idman haqqında fikrimi dəfələrlə söyləmişəm, bədən tərbiyəsinin xalqımız, millətimiz üçün nə qədər lazımlı olduğunu dəfələrlə demişəm. Bu gün də deyirəm: Azərbaycanın böyük idman ənənələri var. Azərbaycanın idman veteranları, – onların bir çoxu burada iştirak edirlər, – ölkəmizdə idmanın inkişafı üçün çox işlər görüblər, yaxşı ənənələr yaradıblar, gənclərimiz üçün yaxşı yollar açıblar. Mən bu gün idman veteranlarına bir daha təşəkkürümü bildirirəm. Bugünkü gənclərimizin idman sahəsindəki nailiyyətləri veteranların zəhməti sayəsindədir, gənclərin məşqçilərinin, müəllimlərinin, onlara rəhbərlik edən idman ustalarının fəaliyyətinin nəticəsidir. Ona görə bu gün mən idman sahəsində müəllimlik edənlərin, məşqçiliklə məşğul olanların, gənclərimizdən idman ulduzları hazırlayanların hamısına hörmət və ehtiramımı, onlara təşəkkürümü bildirirəm.

İdmanımızın, bədən tərbiyəmizin çox geniş imkanları var. Biz bunu ümumxalq hərəkatına çevirməliyik. Ona nail olmalıyıq ki, bədən tərbiyəsi və idman Azərbaycanın hər bir gənci, hər bir vətəndaşı üçün adi bir adət, ənənə olsun. Azərbaycan gənci bir gün də bədən tərbiyəsi və idmandan kənarda qalmasın. Biz buna nail olmalıyıq. Bu, xalqımızın gələcəyi üçün lazımdır. Müstəqil Azərbaycanı gələcəkdə də yaşatmaq, onu daha da möhkəmləndirmək, dünya miqyasında böyük dövlətə çevirmək üçün gənclərimiz bu gündən hazırlaşmalıdırlar. Həm şüuri, zehni, mənəvi cəhətdən, həm də fiziki cəhətdən hazırlaşmalıdırlar. Ona görə də sizin qarşınızda bu sözləri deməyi [10-11] çox vacib hesab edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, gənclərimiz xalqımızın gözəl ənənələrindən istifadə edərək öz sağlamlığını qoruyacaq, özlərini fiziki cəhətdən möhkəmləndirəcək, mətinləşdirəcəklər, mənəvi sağlamlıqlarını qoruyacaq və möhkəmləndirəcəklər.

Azərbaycanın böyük gələcəyi var. Azərbaycanın bir dövlət kimi, böyük təbii sərvətlərə malik olan bir ölkə kimi böyük gələcəyi var. Amma bu gələcəyi biz sizinlə birlikdə qurmalı, yaratmalıyıq və gənclər Azərbaycanın gələcəyini öz çiyinlərində irəliyə aparmalıdırlar. Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycan gəncləri məhz bu müqəddəs məqsədlərə sadiq olacaqlar və öz həyat tərzləri, istedadları ilə ölkəmizin gözəl gələcəyini təmin edəcəklər.

Əziz idmançılar, əziz idman ustaları, əziz olimpiyaçılar! Siz artıq olimpiyaçılarsınız. Mən sizi bir daha təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzu edir, uğurlar diləyirəm. Əminəm ki, siz qarşınızda qoyulan vəzifələri uğurla yerinə yetirəcəksiniz. Atlanta şəhərində müstəqil Azərbaycanın bayrağını yüksəyə qaldıracaq, Azərbaycan Respublikasının şan-şöhrətini dünyaya yayacaqsınız və böyük nailiyyətlərlə Vətənimizə, ölkəmizə, torpağımıza qayıdacaqsınız. Sizi bir daha təbrik edir, sizə cansağlığı, uğurlar arzulayıram. [11-12]

# ALMANİYA FEDERATİV RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*1 iyul 1996-cı il*

Almaniya ilə ölkəmiz arasında münasibətlər yaxşıdır. Mən Almaniya rəhbərləri ilə – həm prezident Roman Hersoq, həm də federal kansler Helmut Kol ilə beynəlxalq təşkilatlarda, ayrı-ayrı ölkələrdə görüşmüşəm. Almaniyanın xarici işlər naziri cənab Klaus Kinkel ilə xarici ölkələrdə bir neçə dəfə görüşümüz olub. Onun Azərbaycana rəsmi səfəri zamanı bir çox geniş danışıqlar aparmışıq.

Almaniya təkcə Azərbaycana deyil, ümumiyyətlə, regionumuza, keçmiş Sovet İttifaqına mənsub olmuş ölkələrə böyük diqqət yetirir, onların barəsində çox prinsipial mövqe tutur. Xüsusən Ermənistan-Azərbaycan münaqişəsində də Almaniyanın mövqeyi birmənalıdır. Belə ki, onlar Azərbaycanın ərazi bütövlüyünü tanıdıqlarını qəti şəkildə elan ediblər, məsələnin ədalətlə həll olunmasına tərəfdardırlar. İndi Minsk qrupunun həmsədrlərindən biri – Finlandiya nümayəndəsi dəyişdiriləcəkdir. Buna görə də Almaniya həmsədrlərdən biri olmaq istəyir. Bizim bu barədə də söhbətlərimiz olacaqdır.

O ki qaldı Almaniya ilə iqtisadi əlaqələrimizə, bu əlaqələr də inkişaf edir. Bildiyiniz kimi, Almaniyanın 45 şirkət və firmasının Azərbaycanda nümayəndəlikləri var. Güman edirəm ki, mənim səfərim zamanı keçirəcəyimiz görüşlərin əsas mövzusu iqtisadi əlaqələrin genişlənməsi ilə, Almaniyanın Azərbaycana daha çox sərmayə qoyması ilə bağlı olacaqdır. Biz bu məsələlər barəsində həm federal kansler cənab Helmut Kol ilə, həm də ölkənin işgüzar dairələrinin nümayəndələri [12-13] ilə ətraflı söhbət edəcəyik. Buna görə də bu səfər çox əhəmiyyətli səfərdir. İndi Almaniya dünyanın böyük ölkələrindən biridir. Avropada çox mühüm yer tutur. Mən bunları nəzərə alaraq bu səfərə xüsusi qiymət verirəm.

**- Cənab prezident, Almaniya kimi nüfuzlu və güclü bir dövlət tərəfdaşlarını özü müəyyənləşdirir. Bu mənada Azərbaycanla Almaniya arasında iqtisadi əməkdaşlıqda ən çox hansı sahələr üstünlük təşkil edir ?**

- Bilirsinizmi, onlar ən çox energetika, metallurgiya sahələrimizə maraq göstərirlər. İndi onların bizim neft və qaz sahəsinə də marağı artmışdır. Sözlərim eləcə də kimya, maşınqayırma sahələrinə aiddir. Almaniya bu sahələrdə çox yüksək nailiyyətlərə, çox güclü şirkətlərə, ümumiyyətlə böyük imkanlara malikdir. Əgər həmin sahələrdə, eləcə də başqa sahələrdə biz onlarla əməkdaşlığı yaxşı qura bilsək, onda hər iki tərəf, yəni həm Almaniya, həm də Azərbaycan mənfəət götürə biləcəkdir. [13-14]

## ALMANİYADAKI AZƏRBAYCAN CƏMİYYƏTLƏRİNİN SƏDRLƏRİ VƏ AZƏRBAYCAN CƏMİYYƏTLƏRİ FEDERASİYASININ NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Bonn*

*1 iyul 1996-cı il*

Mən bu gün sizinlə görüşümdən çox məmnunam. Bilirsiniz ki, mən Almaniyaya iki saat bundan əvvəl gəlmişəm. Bu, mənim Almaniyada ilk görüşümdür. Bu da soydaşlarımızla, həmvətənlərimizlə, Almaniyada, Mərkəzi Avropada yaşayan azərbaycanlıların nümayəndələri ilə görüşdür. Məmnunam ki, siz ayrı-ayrı cəmiyyətləri bir-birinə yaxınlaşdırmısınız, birləşdirmisiniz və bu gün burada bəyan etdiyiniz federasiya artıq təşkil olunub. Hesab edirəm ki, bu çox əlamətdar bir hadisədir, sizin çox mühüm nailiyyətinizdir. Mən bu münasibətlə sizi təbrik edirəm.

Bilirsiniz ki, biz Azərbaycan Respublikasının müstəqilliyinin beşinci ilini yaşayırıq. İlin sonunda dövlətimizin müstəqilliyinin beş ili tamam olacaqdır. Ancaq bu beş il ağır, çətin olmuşdur. Bu gün bizim bir daha görüşümüz olacaq, mən bu barədə orada geniş danışacağam. Ona görə də indi bu mövzuya geniş yer vermək istəmirəm. Sadəcə demək istəyirəm ki, çox çətin, ağır illər idi. Ancaq nailiyyətimiz mövcuddur. Bu da ondan ibarətdir ki, biz Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamışıq. Azərbaycan ölkəsi, respublikası müstəqil dövlət kimi günü-gündən möhkəmlənir. Bu da bizi əmin edir ki, Azərbaycanın müstəqilliyi dönməzdir, əbədidir və biz bundan sonra da müstəqillik yolu ilə gedəcəyik.

Problemlərimiz çoxdur, mən bu barədə sizə məlumat verəcəyəm. Ancaq nailiyyətimiz budur və bu da ən böyük nailiyyətdir. Xalqımızın çoxəsrlik tarixində XX əsrin sonunda Azərbaycanda müstəqil dövlət qurulub ki, bu da böyük nailiyyətdir. Eyni zamanda biz Azərbaycanda vətəndaşlarımızı müstəqillik yolu ilə apararkən respublikamızın hüdudlarından kənarda ya[14-15]şayan soydaşlarımız haqqında da düşünürük. Bu, bizim hüququmuz, vəzifəmizdir. Çünki Azərbaycan indi təkcə respublikamızda yaşayan azərbaycanlılardan ibarət deyil. Azərbaycanlılar dünyanın bir çox ölkələrində, o cümlədən, Avropada, Almaniya da yaşayırlar. Dünyanın hər bir ölkəsində, hər bir şəhərində, guşəsində, kəndində yaşayan soydaşımız müstəqil dövlətimiz üçün, Azərbaycan prezidenti kimi mənim üçün vətəndaşımız, soydaşımız, həmyerlimizdir.

Mən bunu sizə həm Azərbaycanın dövlət siyasəti kimi bildirirəm, ikincisi də bunu deyərkən ona əsaslanıram ki, harada yaşamasından asılı olmayaraq hər bir soydaşımız özünü azərbaycanlı hesab edərək, ölkəmizi heç vaxt unutmamalıdır, öz Vətənini, torpağını, millətini, dilini unutmamalıdır. Ona görə də Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımıza bizim tərəfimizdən bu prinsiplər əsasında doğma münasibət var.

Bilirsiniz ki, indiki Azərbaycan keçmiş Sovetlər İttifaqının tərkibində bir müttəfiq respublika idi. O vaxt da Azərbaycan yaşayırdı. 1918-ci ildə ilk demokratik Azərbaycan Cümhuriyyəti yarandı. Bu cümhuriyyət 23 aydan sonra süquta yetdi. Ondan sonra Azərbaycanda Sovet hakimiyyəti mövcud oldu. Azərbaycanda Sovet Sosialist Respublikası yarandı. Bu Respublika da iki il yaşayandan sonra çar Rusiyasının əvvəlki ərazisində yaranmış respublikaları birləşdirən Sovetlər İttifaqının tərkibinə daxil oldu. Biz bütün bu mərhələləri yaşadıq. Nəhayət, 1991-ci ilə gəlib çatdıq. Azərbaycan XX əsrin sonunda Sovetlər İttifaqının dağılması ilə əlaqədar və dünyada gedən ictimai-siyasi hadisələrdən bəhrələnərək öz dövlət müstəqilliyini bəyan etdi və müstəqil dövlət qurmağa başladı.

Amma bu illərdə, sovet dövlətinin tərkibində, sosialist quruluşunun içində yaşayan respublikamızda biz azərbaycanlılığımızı heç vaxt unutmadıq. Bizim dilimiz də, dinimiz də yaşayıb, elmimiz, təhsilimiz də inkişaf edib. Əgər bunlar olmasaydı, respublikamız 1991-ci ildə özünü müstəqil dövlət kimi bütün dünyaya bəyan edə bilməzdi.

Bu illərdə çox böyük nailiyyətlər əldə olunub. Sovetlər İttifaqı dağılan kimi, məhz bunun nəticəsində biz öz müstəqilliyimizi bəyan etdik və respublikamız beşinci ildir ki, müstəqil dövlət kimi yaşayır.

Ancaq əvvəlki illərdə Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımızla əlaqə saxlamağımız çox çətin idi, [15-16] çox hallarda da mümkün deyildi. Yalnız görkəmli bir şairimiz, yazıçımız, bəstəkarımız xarici ölkəyə səfər edərkən arayıb axtarırdı ki, görsün orada azərbaycanlılardan kim var, onunla görüşsün, danışsın. Bütün bunları da qorxa-qorxa edirdi.

Bu barədə çox danışmaq olar. Yadımdadır, bəlkə də 60-cı illər idi. Biz Türkiyə ilə çox maraqlanırdıq ki, oradakı soydaşlarımız necə yaşayırlar. Bilirdik ki, Türkiyədə vaxtilə Azərbaycandan mühacirət etmiş soydaşlarımız da yaşayırlar. Mərhum bəstəkarımız, görkəmli dirijor, professor Niyazi çox böyük bir sənətkar idi. Bilirsiniz ki, o, dünya miqyasında məşhur bir insan idi. Yəni öz istedadına, yaratdığı əsərlərinə görə məşhur

idi. Ona görə də onu Türkiyəyə dəvət etmişdilər ki, gedib oradakı opera teatrında tamaşalar hazırlasın. O, Türkiyəyə tez-tez gedib-gəlirdi və hər dəfə də mənimlə görüşürdü. Çünki o, mənimlə dost idi. Oturub saatlarla bu barədə söhbət edirdik. Soruşurdum ki, kimi gördün, onlar necə yaşayırlar? O, bütün bunlar haqqında mənə ətraflı danışırdı.

Mən bunları xatırlayaraq onu demək istəyirəm ki, o dövrdə də ürəyimiz Azərbaycandan xaricdə yaşayan soydaşlarımızla bir olub. Ancaq əlaqə saxlamaq imkanımız olmayıb. İndi isə Allaha şükürlər olsun ki, belə imkan yaranıb, var. Respublikamız müstəqil dövlətdir. Hər bir vətəndaşımız hansı ölkəyə getmək istəyirsə, oraya gedə bilər. Respublikamızın sərhədləri açıqdır. Hansı ölkədən kim istəyirsə, Azərbaycana qonaq gələ bilər. O cümlədən, respublikamızdan kənarda yaşayan soydaşlarımız gəlib, Azərbaycanı ziyarət edə bilərlər. İndi biz də hansı ölkəyə istəyiriksə, o ölkəyə gedirik, başqa işlərlə yanaşı, soydaşlarımız ilə görüşməyi özümüz üçün birinci dərəcəli vəzifə hesab edirik. Ona görə də mən bu gün buraya gəlmişəm. Sabah səhərdən mənim rəsmi səfərim başlanacaqdır. Almaniyanın dövlət, hökumət başçıları ilə görüşlərim, danışıqlarım olacaqdır. Ancaq mən bugünkü günü – respublikamızın buradakı səfirinə də bu barədə göstəriş vermişdim – yalnız və yalnız Avropada, Almaniyada yaşayan azərbaycanlılarla, onların nümayəndələri ilə görüşə həsr edirəm.

Mən bu görüşdən məmnun olduğumu bildirmək istəyirəm. Səfirin verdiyi məlumatdan da göründü ki, bir-iki saatdan sonra bizim yeni bir görüşümüz olacaq, orada siz də, başqa soydaşlarımız da olacaqdır. Orada mən sizi maraqlandıran məsələlər barədə geniş məlumat verəcəyəm. Mən istəyirəm ki, respublikamızın bugünkü vəziyyəti haqqında geniş məlu[16-17]matlar alasınız və bütün bunları Azərbaycan prezidentinin dilindən eşidəsiniz. Eyni zamanda, mən bunu ona görə etmək istəyirəm ki, siz Azərbaycanın bugünkü vəziyyətini daha yaxından öyrənərək, burada öz işlərinizi daha da yaxşı qura biləsiniz.

Bilirsiniz, xalqımıza birlik lazımdır. Vətəndə də, respublikamızdan kənarda da birlik lazımdır. Mən dedim ki, xalqımız dünyanın bir çox ölkələrinə səpələnibdir.

Burada çıxış edən dostlarımız dünya ölkələrində 40 milyon azərbaycanlının yaşamasından söhbət açdılar. Bəli, belədir, bu mənə də məlumdur. Həmin rəqəm bəlkə bundan da çoxdur. Amma hər halda, əgər dünyada 40 milyon azərbaycanlı yaşayırsa, onlar azərbaycanlı adı daşıyırlarsa, onlarda azərbaycanlı qəlbi, qanı varsa, bu, hamımızın fəxridir. Mən demirəm ki, bu 40 milyon azərbaycanlının hamısı bir yerə yığışsın, bu heç də lazım deyil. Ancaq hamısının qəlbi, fikri, gələcəyə baxışı və Azərbaycan haqqında fikirləri bir olsa, əlbəttə ki, respublikamız da öz müstəqilliyini bundan sonra da möhkəmləndirər, inkişaf yolunu məharətlə keçə bilər və ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımız bundan da yaxşı həm yaşaya, həm işləyə, həm də Vətənimiz, xalqımız üçün çox işlər görə bilərlər.

Ona görə də birlik adi bir şey deyil. Bəzən bu "birlik" sözünü o qədər işlədirlər ki, o, hörmətdən düşür. Çünki elə hər bir adam deyir ki, birlik olsun. Bilirsiniz, bir var ki, bu şüarı ayrı-ayrı məqsədlər üçün desinlər, bir də var ki, bu, həyatımızın tələbindən doğan sözlər olsun. Mən Azərbaycanın prezidenti kimi, xalqımızın mənə göstərdiyi etimada güvənərək respublikamıza başçılıq edən bir şəxs kimi bu gün deyirəm: Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti, rəhni birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir.

Əlbəttə, bu, asan məsələ deyil. İnsanlar bir-birindən çox fərqlidir. Dünyada eyni xüsusiyyətə malik iki insan tapmaq çətindir. Hətta qardaş-qardaşla eyni xasiyyətdə deyil. Bəzən görürsən, əkiz qardaş, bacı da bir-biri ilə eyni xasiyyətdə olmur. Bu, təbiidir. Biz təbiətə qarşı heç bir zor işlədə bilmərik. Təbiətin yaratdığı təbii qanunlar heç kəsin istəyindən, yaxud səyindən asılı olmayaraq işləyir. Amma bu təbii qanunlar içərisində də bir olmaq, daha da sıx olmaq, bir-birinə dayaq [17-18] olmaq, əl uzatmaq üçün imkanlar çoxdur. Biz çalışmalıyıq ki, bu imkanlardan istifadə edək. Mən bu sözləri məhz sizin hüzurunuzda ona görə deyirəm ki, məlumat verdiniz ki, buradakı cəmiyyətlər birləşib bir federasiya yaratmışlar. Bu, çox gərəkli bir işdir.

Mən arzu edirəm ki, bu federasiyanız səmərəli işləsin, günü-gündən möhkəmlənsin və öz təsirini başqa ölkələrə də yaysın, göstərsin. Biz də çalışacağıq ki, yaranmış belə federasiyalarla bilavasitə əlaqə saxlayaq və sizə əlimizdən gələn köməyi edək, Azərbaycan həqiqətini dünyaya sizinlə birlikdə bəyan edək.

Azərbaycanın müstəqilliyini yaşatmaq, inkişaf etdirmək üçün həm respublikamızın daxilində, həm də ölkəmizdən xaricdə çox iş görmək lazımdır. Respublikanın daxilində görüləsi işlər bizim əlimizdədir. Düzdür, çətinliklər, problemlər də var. Amma xarici ölkələrdə görüləsi işlərin çoxu bizim əlimizdə deyil. Biz dünyanın bütün dövlətləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa çalışırıq və bu əlaqələr yaranmışdır. Artıq iki il yarımdır ki, mən Azərbaycanın prezidentiyəm. Bu iki il yarım içərisində biz dünyanın nə qədər ölkələri ilə əlaqələr qurmuşuq. Dünyanın beynəlxalq təşkilatlarının nəinki adi üzvüyük, həm də bu təşkilatlarda fəaliyyət göstəririk, ölkəmiz orada təmsil olunur. Biz bu təşkilatların imkanlarından istifadə edirik.

Mən Almaniyaya rəsmi səfərə gəlmişəm. Ancaq mənim Fransaya da, İngiltərəyə də, Rumıniyaya da rəsmi səfərim olub. Mən Amerikada iki dəfə Birləşmiş Millətlər Təşkilatının toplantılarında iştirak etmişəm, hər dəfə də ABŞ prezidenti cənab Bill Klintonla görüşmüşəm. Bu yaxınlarda Lüksemburqda oldum, Avropa Birliyi ilə əməkdaşlıq haqqında saziş imzaladıq. Bu, böyük bir hadisədir. Yaxud Azərbaycan bir neçə gün bundan əvvəl Avropa Şurasına üzvlüyə namizəd, qonaq statusu ilə qəbul olundu. Bu, həddindən artıq böyük bir hadisədir. Bu o deməkdir ki, birincisi, Azərbaycan Avropa ölkəsi kimi qəbul edilir; ikincisi, Azərbaycanın bugünkü dövlət

quruluşu və onun cəmiyyətinin vəziyyəti Avropa standartlarına uyğun və yaxud yaxın olduğuna görə ölkəmiz Avropa Şurası[18-19]nın üzvlüyünə namizəd kimi qəbul edilir. Bilirsiniz ki, Avropa Şurası Parlament Məclisinin Strasburq şəhərində keçirilən büro iclasında bu məsələni müzakirə etdilər və Azərbaycanı bu şuraya namizəd şəklində qəbul etdilər. Güman edirəm və tam əminəm ki, Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvü olacaqdır.

Başqa faktlar da gətirə bilərəm. Məsələn, Çin kimi böyük bir ölkə ilə sıx əlaqələrimiz var. Mən orada rəsmi səfərdə olmuşam. Qonşularımız Türkiyə, İran ilə şübhəsiz ki, bizim dostluq əlaqələrimiz günü-gündən inkişaf edir. Mən Avropanın Rumıniya, Bolqarıstan kimi ölkələrində rəsmi səfərdə olmuşam. Bir çox ölkələr məni rəsmi səfərə dəvət ediblər, hələ getməyə imkanım yoxdur. Norveç Avropanın böyük ölkələrindən biridir. Məni oraya da dəvət etmişdilər, orada rəsmi səfərdə olmuşam. Bu yaxınlarda mən Fransanın prezidenti cənab Jak Şirakla telefonla danışırdım, o məni öz ölkəsinə rəsmi səfərə dəvət etdi. Bu telefon danışığımızdan əvvəl o, Fransaya rəsmi səfər barədə mənə dəvət göndərmişdi. Telefon danışığımız zamanı o, məni bir daha rəsmi səfərə dəvət etdi.

Ərəb ölkələri ilə bizim əlaqələrimiz çox sıxdır. Məsələn, mən Misirdə olmuşam və prezident Hüsni Mübarək ilə bizim çox yaxın dostluq əlaqələrimiz var. İki il bundan əvvəl biz Mərakeşdə İslam Konfransı Təşkilatının toplantısında iştirak etdik. Mən orada nitq söylədim və ərəb, islam ölkələrinin başçıları ilə görüşlər keçirdim, danışıqlar apardım.

Bilirsiniz, qısa vaxtda görülən bütün bu işlər onu nümayiş etdirir ki, biz xarici ölkələrdə Azərbaycanın müstəqilliyini tanıtmaq, möhkəmləndirmək işini aparırıq və bundan sonra da aparacağıq. Amma yenə də deyirəm, xarici ölkələrdə görülən işlərin hamısı bizim ixtiyarımızda deyil.

Bilirsiniz ki, Azərbaycanın müstəqilliyinə zidd olan ölkələr, qüvvələr, cəmiyyətlər var. Bəli, dünyada elə qüvvələr var ki, Azərbaycanın müstəqil dövlət olmasını istəmirlər. Dünya da görür ki, səkkiz ildir Ermənistan Azərbaycana təcavüz edir. Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. İşğal altında olan torpaqlarımızdan bir milyondan çox vətəndaşımız yerindən-yurdundan [19-20] zorla çıxarılıbdır, əksəriyyəti çadırlarda ağır vəziyyətdə yaşayır. Bu, dünyada nadir haldır.

Dünya statistikasının məlumatına görə yer üzərində iyirmi milyon qaçqın var. Bunun bir milyonu Azərbaycandadır. Yeddi milyon əhalisi olan ölkənin bir milyonu qaçqın vəziyyətindədir. Azərbaycana qarşı olan bu təcavüz ədalətsizlikdir. Bu, misli görünməmiş bir şeydir. Ancaq bunu dünyaya sübut etmək ki, Ermənistan Azərbaycana bu cür təcavüz edib və Ermənistan təcavüzkardır – bu, asan məsələ deyildir. Çünki dünyada Ermənistanı dəstəkləyən, ona kömək edən, dayaq duran böyük ölkələr var. Bunların bir çoxu bizimlə də yaxşı əlaqədədir. Amma bunların Ermənistanla əlaqələri bizdən də yaxşıdır. Onların içərisində Ermənistanın dayağı o qədər böyükdür ki, dövlətlərarası əlaqələrin bizimlə yaxşı olmasına baxmayaraq, onlar Ermənistana kömək edirlər. Buna görə də Ermənistanın təcavüzkarlığının qarşısını almaq çətindir. Burada Ermənistan lobbisinin Azərbaycana qarşı fəaliyyəti çox mühüm rol oynayır. Bu lobbi hər yerdə – Amerikada da, Fransada da, Almaniyada da, başqa ölkələrdə də var – hamısında var.

Aydındır ki, erməni lobbisi çox güclüdür. Amerikada onların gücü çox böyükdür, başqa ölkələrdə də çox böyükdür. Amma bu o demək deyil ki, hər şey lobbinin əlindədir, yox. Biz öz siyasətimizi aparırıq, siyasətimizi apararaq Azərbaycanın hüquqlarını dünyanın hər yerində tanıdacağıq və onların qəbul edilməsinə nail olacağıq. Bax bunun üçün, Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək üçün ölkəmizdən kənarda yaşayan soydaşlarımızın fəaliyyətindən də çox şey asılıdır.

Mən ümidvaram ki, sizin yaratdığınız federasiya bu məqsədlərə xidmət edəcəkdir, respublikamızla birlikdə siz Azərbaycanın xaricdə olan problemlərinin həll edilməsində yaxından iştirak edəcəksiniz. Biz sizinlə əlaqə saxlayırıq və bu əlaqələri daha da sıxlaşdırmaq istəyirik. Biz sizinlə bir olmaq istəyirik. Bizi, respublikamızın vətəndaşlarını, bir prezident kimi şəxsən məni ölkəmizdən kənarda yaşayan hər bir azərbaycanlı, onun həyatı, vəziyyəti maraqlandırır. Mən hər bir azərbay[20-21]canlı haqqında düşünürəm. Mən istəyirəm ki, Almaniyada yaşayan hər bir azərbaycanlı həm də yaxşı yaşasın, həm də hörmətli adam olsun, dövlətdə yer tutsun. Mən bunu istəyirəm, çünki bu nə qədər çox olsa, azərbaycanlıların dünya millətləri içərisində elm, bilik, zəka səviyyəsinin bir o qədər yüksək olduğunu göstərəcəkdir.

Şəxsən mən azərbaycanlıların ayrı-ayrı ölkələrdə yaşamasını təbii və lüzumlu hesab edirəm. Hamımız bir yerə yığışsaq nə olacaq? Lazımdır ki, Amerikada da, Almaniyada da, Fransada da, İngiltərədə də, Belçikada da, Hollandiyada da – hər yerdə azərbaycanlılar olsun. Amma azərbaycanlı sadə bir vətəndaş kimi yox, elə olsun ki, onun şəxsində Azərbaycan səslənsin, ölkəmizin bayrağı qalxsın, xalqımızın milli mədəniyyəti, dili, ədəbiyyatı, incəsənəti səslənsin.

Ona görə də şəxsən mən belə hesab edirəm ki, Almaniyada nə qədər çox azərbaycanlı yaşayırsa, bu çox yaxşıdır. Bundan sonra bundan da çox yaşayacaqsa, bu çox gözəl olacaq. Ümumiyyətlə, azərbaycanlılar say artımına görə Avropa millətlərindən üstündürlər. Mən bilmirəm, Almaniyada vəziyyət necədir. Azərbaycanda əhalinin artımı başqa ölkələrə nisbətən yüksəkdir. Son vaxtlar vəziyyətin ağır olmasına görə bu artım bir qədər azalıdır. Amma nə qədər çox artsa, bir o qədər yaxşı olar.

Almaniyada nə qədər azərbaycanlı yaşayır? Yüz əlli min. Nə qədər türk yaşayır? İki milyon. Bilirsiniz, bir millətik, hamımız bir kökdənik. Ona görə də gərək azərbaycanlılar da, türkiyəlilər də bir-birinə dayaq olsun, əl-ələ versinlər. Dünyada bizim üçün, yəni azərbaycanlılar üçün ən birinci dayaq türklərdir. Yenə də deyirəm, biz hamımız bir kökdənik.

Federasiyanızın buradakı nümayəndələrindən biri dedi ki, İqdırdandır. Bu yaxınlarda İqdırın bələdiyyə başqanı və digər nümayəndələri respublikamıza gəlmişdilər. İqdır Türkiyənin çox gözəl bir guşəsidir, İqdırdan olan adamları mən Almaniyada da, İngiltərədə də, Amerikada da, Belçikada da, Fransada da, hər yerdə görmüşəm. Amma İqdır kiçik bir yerdir, o qədər də böyük deyil. İqdır iki il bundan əvvəl vilayət olub. İqdırlılar otuz il idi ki, [21-22] vilayət hüququ almağa çalışırdılar. Vaxtilə mən Naxçıvanda yaşayarkən bu barədə öz fikrimi Türkiyənin prezidenti mərhum Turqut Özala da, əziz dostum, indiki prezident Süleyman Dəmirələ də deyirdim ki, İqdırın vilayət olması məsələsini həll etmək olar və onlar da həll etdilər. İqdırın vilayət olması ilə əlaqədar keçirilən mərasimdə o vaxt mən də iştirak etdim. Nəinki iştirak etdim, orada nitq söylədim. Oraya hörmətli Süleyman Dəmirəl, bir çox nazirlər də gəlmişdilər.

Yenə də deyirəm, türklər də, azərbaycanlılar da birdirlər. İqdırda da, İstanbulda da, digər yerlərdə də yaşayan türklər bizim üçün əzizdirlər.

Siz bir məsələni də bilməlisiniz ki, Azərbaycanda son illər bəzi adamlar deyirlər ki, biz türkük, dilimiz də türk dilidir. Biz bir kökdənik, amma bu bir kökdən neçə budaq gedib. Anadoluda yaşayanlar da, Özbəkistanda da, Qazaxıstanda da, Türkmənistanda da, Dağıstanda da, Qırğızıstanda da yaşayanlar türklərdir. Çində yaşayan uyğurlar da türklərdir. Amma onlar bir kökün hərəsi bir şaxəsidir. O şaxəni itirmək lazım deyil. Necə deyərlər, onların hamısını bir rəngdə rəngləmək lazım deyil. Yenə də deyirəm, kök birdir. Respublikamızda demişik, biz azərbaycanlıyıq.

Biz yeni Konstitusiya qəbul etdik. Orada yazıldı ki, biz azərbaycanlıyıq, dövlət dilimiz Azərbaycan dilidir. Azərbaycan dili türk dilləri qrupuna məxsus olan bir dildir. Türk dilləri qrupunun bir qolu Anadolu türklərinin, bir qolu azərbaycanlıların dilidir, biri özbəklərin, biri qırğızların, biri qazaxların və başqalarınındır. Ona görə də bu ümumi kökləri həmişə qorumaq lazımdır. Çünki kökümüz, dilimiz, dinimiz, milli adət-ənənələrimiz bizi bir-birimizə bağlayır və bağlamalıdır. Bunun əsasında da biz bir olmalıyıq. Amma eyni zamanda, bir dili başqasının içərisində əritmək lazım deyil.

Dünyada bir kökdən olan nə qədər millətlər var. Bu, öz rəngarəngliyini nə qədər göstərsə, o qədər də güclü olacaq. Amma bir dili başqa dilin içərisində əritsən, necə deyərlər, horra çıxacaq. Horradan da bir şey çıxmaz.

Dediniz ki, burada iki milyon türk var. Bir-birinizə dayaq olun. Mən bu gün Almaniyada yaşayan iki milyon türkün hamısı ilə görüşmək istərdim. Mən onların hamısını özüm üçün doğma hesab edirəm. Onlar sizin üçün də doğma olmalıdır. Almaniyada 150 min azərbaycanlının yaşaması da yaxşı haldır. [22-23] Çalışın azərbaycanlılığınızı bundan sonra daha da möhkəmləndirin.

Bilirsiniz, Anadoluda, Özbəkistanda, Azərbaycanda yaşayanların hərəsinin özünəməxsus xüsusiyyətləri var. Məsələn, mən fəxr edirəm ki, Azərbaycan dili Sovet hakimiyyəti dövründə çox inkişaf etdi, daha da dərinləşdi. Adətən Sovet hakimiyyəti dövrünü çox tənqid edirlər. Amma olan həqiqətləri də unutmaq, qaralamaq olmaz. Bizim dilimiz məhz o illərdə inkişaf etdi. Dilimizin qrammatikası, qanunları haqqında o dövrdə nə qədər əsərlər yazıldı. Azərbaycan dili haqqında harada belə əsərlər yazılıb? Bəli, belə əsərlər sovet hakimiyyəti dövründə yazıldı. Yenə də deyirəm, tarixi qaralamaq olmaz.

90-cı illərdə Azərbaycanda istiqlal əhval-ruhiyyəsi çox güclü olan zaman bəziləri belə hesab edirdi ki, bundan qabaq nə olubsa, onun üzərindən xətt çəkmək lazımdır. Xalqımız yaşayıb, yaradıb, qurub. Xalqımız öz incəsənətini, mədəniyyətini, ədəbiyyatını inkişaf etdirib və bütün bunların üzərində indi müstəqil Azərbaycan Respublikası var. Müstəqil Azərbaycan deyəndə tək ərazi nəzərdə tutulmur. Dövlət quruluşu təkcə dövlətdən ibarət deyil, onun mədəniyyəti, elmi, ali təhsili böyük iqtisadi potensialı var, hər şeyi var. Mən onu da deyirəm ki, Azərbaycan dünyanın çox-çox ölkələrindən heç də geridə deyil.

Doğrudur, indi respublikamız böhran dövrünü yaşayır. Bu keçib gedəcək. Əgər biz Ermənistanın təcavüzündən qurtara bilsək, bir neçə ildən sonra Azərbaycanın iqtisadi vəziyyəti çox yaxşı olacaqdır. Mən hesab edirəm ki, biz buna da nail olacağıq, torpaqlarımızı da azad edəcəyik, Azərbaycanın ərazi bütövlüyünü də təmin edəcəyik. Azərbaycan müstəqil dövlət kimi bütün ərazisinin sahibi olacaqdır.

Sizinlə görüşümdən mən bir daha məmnun olduğumu bildirirəm. Görüşlərim bu gün davam edəcək. Yaratdığınız federasiyanın bundan sonra da yaşaması, möhkəmlənməsi naminə sizin hamınıza cansağlığı, uğurlar arzulayıram. Sağ olun. [23-24]

## ALMANİYADAKI AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Bonn*

*1 iyul 1996-cı il*

Hörmətli xanımlar və cənablar, hörmətli dostlar!

Mən sizin hamınızı Azərbaycan xalqı adından, Azərbaycan Respublikasının vətəndaşları adından səmimi qəlbdən salamlayıram və sizinlə bugünkü görüşümdən çox məmnun olduğumu bildirirəm. Bir neçə saat bundan öncə Azərbaycandan buraya, Bonn şəhərinə gəlmişəm və sabah mənim Almaniyada rəsmi səfərim başlanır, Almaniyanın dövlət və hökumət başçıları ilə görüşlərim və Almaniya Bundeştaqında, ayrı-ayrı şirkətlərdə çox əhəmiyyətli görüşlərim olacaqdır.

Bizim səfir mənə bildirdi ki, bu axşam bu salona Azərbaycanın dostları toplaşıblar. Onlar bəzi xarici ölkələrin buradakı səfirləri, Almaniyada yaşayan azərbaycanlılar və soydaşlarımızdır. Mən bu görüşdən məmnun olduğumu bildirirəm. Əvvəlcə sizin hamınızı Londonda Avropa futbol çempionatının final görüşündə Almaniya yığma komandasının qalib gəlməsi münasibətilə ürəkdən təbrik edirəm. Bildirmək istəyirəm ki, Azərbaycanın futbol azarkeşləri dünən bu görüşün televiziya ilə yayımını çox diqqətlə izləmişlər və deyə bilərəm ki, Azərbaycanın futbol həvəskarlarının əksəriyyəti Almaniya komandasına azarkeşlik etmişdir. Elə mən özüm də Almaniya futbolçularının qalib gəlməsini istəmişdim. Almaniya komandası çempion adını qazandıqda mən də sizinlə birlikdə sevinmişəm.

Almaniyaya səfərimdən məqsəd Almaniya ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsindən ibarətdir. Azərbaycan gənc müstəqil dövlətdir. Keçmiş Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan müstəqillik əldə etmişdir və dövlət müstəqilliyinin cəmi beşinci ilini yaşayır. Almaniya dünyanın ən böyük dövlətlərindən biridir, iqtisadi cəhətdən ən inkişaf etmiş ölkələrdən biridir. [24-25] Almaniya Avropada və dünyada demokratiya nümunəsi göstərən dövlətlərdən biridir.

Almaniya böyük, Azərbaycan isə gənc və kiçik bir dövlətdir. Almaniya böyük dövlətçilik tarixinə malik olan dövlətdir. Azərbaycan isə dövlət müstəqilliyinə yenicə nail olan bir dövlətdir. Bu fərqlərə baxmayaraq, bizim aramızda yaxşı əməkdaşlıq üçün çox böyük imkanımız var. Bu əməkdaşlığın əsası nədən ibarətdir? Birincisi, ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlətdir və öz müstəqilliyini daim qoruyub saxlayacaqdır. Azərbaycanda demokratik, hüquqi dövlət qurulur. Azərbaycan iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirilir, dünya iqtisadiyyatı ilə birləşir. Azərbaycanın zəngin təbii sərvətləri, zəngin iqtisadi potensialı var. Azərbaycan zəngin elmi potensiala malikdir. Azərbaycanın çox mühüm coğrafi-siyasi və strateji əhəmiyyəti var.

Almanlar Azərbaycanda XIX əsrin əvvəllərindən yaşamışlar. Onlar az olsalar da, ölkəmizdə bu gün də yaşayırlar. Alman kapitalı keçən əsrin axırlarından Azərbaycanda mövcud olmuşdur. Alman kapitalının Azərbaycana bu gün də gəlməsi üçün böyük imkanlar var. Ən əhəmiyyətlisi odur ki, azərbaycanlılar çox vətənpərvər və qonaqpərvərdirlər. Onlar hər bir qonağı çox mehribanlıqla, çox səmimiyyətlə qarşılamağa, qəbul etməyə hazırdır.

Azərbaycanın qarşısında bir çox problemlər durur. Lakin biz bu problemlərin həlli yollarını bilirik və onları həll edəcəyik. Azərbaycanın iqtisadi cəhətdən, dövlətçilik baxımından, demokratiya cəhətdən çox parlaq gələcəyi var. Buna görə də mən Almaniyanı Azərbaycana dəvət edirəm. Mən Almaniyanı Azərbaycanın xarici siyasətində, iqtisadi məqsədlərində strateji bir tərəfdaş kimi qəbul edirəm və hamınızı Azərbaycana çağırıram. Hamınıza cansağlığı və səadət arzulayıram. Alman xalqına xoşbəxtlik və qarşısında duran bütün məqsədlərə çatmasını arzulayıram. Almaniya dövlətinə dünya miqyasında tutduğu yeri daha da möhkəmləndirməyi və inkişaf etdirməyi arzulayıram. Alman-Azərbaycan dostluğuna eşq olsun! [25-26]

## ALMANİYA-AZƏRBAYCAN FORUMU İDARƏ HEYƏTİNİN VƏ RƏYASƏT HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Bonn*

*1 iyul 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Bu gün sizinlə, yenicə yaranmış Almaniya-Azərbaycan forumu idarə heyətinin və rəyasət heyətinin üzvləri ilə görüşməyimdən çox məmnunam və buna çox sevinirəm.

Azərbaycan Respublikası beşinci ildir ki, müstəqil dövlət kimi yaşayır. Sovetlər İttifaqının dağılması dünyada çox böyük dəyişikliklər meydana gətirmişdir. Bu dəyişikliklərdən ən mühümü ondan ibarətdir ki, keçmişdə Sovetlər İttifaqına daxil olan respublikalar öz milli azadlığına, dövlət müstəqilliyinə nail ola bilmişlər. Ümumiyyətlə 80-ci illərin ikinci yarısında və 90-cı illərin əvvəllərində dünyada gedən proseslər həm Almaniya üçün, həm də keçmiş Sovet İttifaqı Respublikaları, o cümlədən Azərbaycan üçün çox əhəmiyyətli və faydalı olmuşdur.

1990-cı ilin oktyabrında nəhayət, Almaniya birləşmiş və ikinci dünya müharibəsindən sonra Almaniyanın parçalanmasına son qoyulmuşdur. Bunun Almaniya və bütün dünya üçün nə qədər böyük, əlamətdar hadisə olduğunu siz də, biz də çox yaxşı dərk edirik. Berlin divarı uçuruldu, Almaniya birləşdi. Almaniya Avropanın mərkəzində vahid bir dövlət, ölkə kimi Dünya Birliyində öz yerini tutubdur və Dünya Birliyində onun özünəməxsus fəaliyyəti var.

Almaniyanın tarixi də, alman xalqının əsrlər boyu keçdiyi yol da və XX əsrdə Almaniyanın başına gəlmiş bəlalar da məlumdur. Eyni zamanda əsrin ikinci yarısında Almaniyanın [26-27] nəhayət, birləşməsi, iqtisadi və demokratiya cəhətdən dünyanın ən səviyyəli ölkələrindən biri olması Almaniyanın hər bir vətəndaşını, hər bir almanı, şübhəsiz ki, sevindirir. Biz də buna sevinirik və mən sizi bu münasibətlə bir daha ürəkdən təbrik edirəm. Ümidvaram ki, Almaniya bundan sonra daha yeni nailiyyətlər əldə edəcəkdir.

Almaniyanın, alman xalqının bəşər tarixindəki xidmətlərinə, əldə etdiyi nailiyyətlərə Azərbaycan xalqı çox böyük hörmət və ehtiramla yanaşır. Alman xalqının böyük nailiyyətləri var, inkişaf etmiş dövlət kimi Almaniyanın çox böyük təcrübəsi var. Müstəqil Azərbaycan Respublikası bu ölkə ilə sıx əlaqə saxlamaq və bunu gündən-günə möhkəmləndirmək üçün bütün səylərini göstərir.

Siz Almaniyada birləşdiyiniz zaman Azərbaycan da öz müstəqilliyini əldə edirdi. Yəni Almaniyanın birləşməsi, iki Almaniyanın bir-birinə qovuşması vaxtı Azərbaycan da öz dövlət müstəqilliyini qazanırdı. Bu baxımdan biz bir-birimizə çox bənzəyirik. Ancaq böyük fərqimiz də var. Fərq ondan ibarətdir ki, İkinci dünya müharibəsindən sonra Qərbi Almaniya çox böyük iqtisadi nailiyyətlər əldə edib və Almaniya birləşərkən Şərqi Almaniyanı öz yedəyinə, öhdəsinə alıbdır, məndə olan məlumata görə, bu beş ildə Şərqi Almaniyanın da iqtisadi vəziyyətini ümumalmaniya səviyyəsinə gətirib çıxarıbdır.

Azərbaycan isə Sovetlər İttifaqı dağıldıqdan sonra öz müstəqilliyini əldə edən zaman Sovetlər İttifaqının dağılması və yaranmış böhran vəziyyəti ilə əlaqədar çox ağır iqtisadi problemlərlə rastlaşdı. Bizim də Qərbi Almaniya kimi bir yarımız olsaydı, şübhəsiz ki, bu beş il müddətində siz keçdiyiniz yolu məharətlə keçə bilərdik. Amma biz bundan məhrumuq. Üstəgəl, Ermənistanın Azərbaycana qarşı təcavüzü və bunun nəticəsində Azərbaycan torpaqlarının iyirmi faizinin işğal edilməsi, işğal olunmuş ərazilərdən bir milyondan artıq vətəndaşımızın yerindən-yurdundan zorla çıxarılması. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycan xalqı dövlət müstəqilliyi əldə etməyi özü üçün tarixi hadisə sayır və biz indi, bu ağır, çətin [27-28] vəziyyətdə müstəqil dövlətimizi qurur, ölkəmizin müstəqilliyini möhkəmləndiririk.

Keçmişdə Sovetlər İttifaqına daxil olan və indi müstəqil dövlət olan ölkələrin hamısı eyni vəziyyətdə deyil və hamısı da dövlət müstəqilliyini eyni vəziyyətdə saxlaya bilmir. Hər bir ölkənin özünə xas olan problemləri var. Bizim də problemlərimiz var. Ancaq bir şey bizim üçün aydındır və istəyirəm siz də bunu biləsiniz ki, bütün bu problemlərə, çətinliklərə baxmayaraq, Azərbaycan öz müstəqilliyini heç vaxt əldən verməyəcək və Azərbaycan Respublikasının Azərbaycan xalqının dövlət müstəqilliyi əbədi olacaqdır.

Azərbaycanın böyük təbii sərvətləri var. Azərbaycan xalqı istedadlı xalqdır. Bizim xalqımızın çoxəsrlik, şərəfli tarixi var. Azərbaycanın yazıçıları, şairləri, bəstəkarları dünya mədəniyyətinə böyük-böyük töhfələr veriblər. Azərbaycan müstəqil dövlət kimi yaşayır və Dünya Birliyində daim özünəməxsus yerini tutmağa qadirdir.

Bizim üçün an ağır problem Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz və onun nəticəsində ölkəmizə vurulmuş zərbələrdir. Azərbaycan sülh siyasəti aparır. Biz istəyirik ki, bölgəmizdə də, bütün Qafqazda da sülh olsun, dünyanın hər yerində sülh olsun. Ona görə də Ermənistanın təcavüzü nəticəsində Azərbaycana

vurulan bütün zərbələrə baxmayaraq, iki il bundan öncə biz Ermənistanla Azərbaycan arasında müharibəni, atəşi dayandırmışıq.

1988-ci ildən Ermənistanın Azərbaycana qarşı başladığı təcavüz nəticəsində biz böyük itkilər vermişik, çox şəhidlər vermişik, gənclərimizin bir çoxu bu müharibədə özlərini qurban veriblər. Bunların nə demək olduğunu siz, almanlar bəlkə də hamıdan yaxşı bilirsiniz. Məsələn, indi mənə tərcüməçilik edən, alman dilini yaxşı bilən Azərbaycan professoru Çərkəz Qurbanlının oğlu 1994-cü ildə torpaqlarımızı müdafiə edərkən 26 yaşında şəhid olubdur.

Ancaq bütün bunlara baxmayaraq biz Ermənistanla sülh yaratmaq, münaqişəni sülh yolu ilə aradan qaldırmaq istəyirik. Bundan ötrü də çox konstruktiv addımlar atırıq. Biz ədalət tələb edir və məsələnin ədalətlə həll olunmasını istəyirik. [28-29]. Ədalət də ondan ibarətdir ki, Azərbaycanın işğal edilmiş bütün torpaqları azad olunmalı, Ermənistanın işğalçı qüvvələri Azərbaycanın ərazisindən qeyd-şərtsiz çıxmalıdır. Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı bərpa olunmalıdır. Bu, adicə beynəlxalq hüquq normalarının tələbidir. Biz heç bir ölkənin torpağına göz dikmirik, amma öz torpağımızın da bir metrini belə heç kəsə verə bilmərik. Biz bu şərtlər daxilində Ermənistanla danışıqlar aparır və münaqişəyə sülh yolu ilə son qoymaq istəyirik.

Amma bütün bu problemlərə baxmayaraq, müstəqil Azərbaycan Respublikası öz müstəqillik yolu ilə çox inamla .gedir. Biz Azərbaycanda hüquqi demokratik dövlət qururuq. İqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında dəyişdirir, mülkiyyətin özəlləşdirilməsi proqramını sürətlə həyata keçirir, sərbəst iqtisadiyyat, təşəbbüskarlıq, azad sahibkarlıq prinsiplərini bərqərar edirik. Bu prinsiplər əsasında dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qururuq. Azərbaycanın təbii sərvətlərindən, böyük iqtisadi potensialından müştərək istifadə olunması üçün dünyanın şirkətləri ilə iş görməyə hazırıq və bu sahədə müəyyən nailiyyətlər əldə etmişik. Azərbaycanın zəngin neft və qaz yataqlarından istifadə olunması üçün dünyanın – Amerikanın, Avropanın iri neft şirkətləri ilə 1994-cü, 1995-ci illərdə və nəhayət, bu il, 1996-cı ildə böyük müqavilələr imzalamışıq və bunlar həyata keçirilir. Azərbaycan iqtisadiyyatının bütün başqa sahələrində də xarici ölkələrlə, şirkətlərlə müştərək iş görmək üçün böyük imkanlar var: biz bunu dünyaya bəyan etmişik və mən bu gün sizə bir daha deyirəm ki, Azərbaycan dünya sərmayəçiləri üçün, müştərək iş görmək üçün açıqdır.

Bu baxımdan biz Almaniya ilə iqtisadi əlaqələri genişləndirməyə çalışırıq və sabah, sonrakı günlərdə ölkənin dövlət, hökumət rəhbərləri, böyük şirkətləri ilə bu barədə konkret danışıqlarım olacaqdır. Biz Almaniyanı özümüz üçün çox dəyərli tərəfdaş hesab edir və bütün sahələrlə əməkdaşlıq etmək istəyirik. Bizim qapılarımız açıqdır.

Bilirsiniz ki, bu ilin aprelində Azərbaycan Avropa Birliyi ilə əməkdaşlıq haqqında saziş imzalayıbdır. Bir həftə bundan öncə Strasburqda Azərbaycan xüsusi qonaq statusu ilə, yəni namizəd şəklində Avropa Şurasına qəbul olunubdur. Bunlar hamısı Azərbaycanın Avropaya mənsub olduğunu, eyni za[29-30]manda Azərbaycanda dövlət quruculuğunun, cəmiyyətimizin artıq Avropa standartlarına uyğun olduğunu göstərir.

Keçən il ümumxalq referendumu vasitəsilə Azərbaycanın ilk konstitusiyasını qəbul etdik, demokratik seçkilər nəticəsində, çoxpartiyalılıq prinsipi əsasında Azərbaycanın ilk parlamentini seçdik. Azərbaycanda 30-dan çox partiya, o cümlədən bir çox müxalifət partiyaları fəaliyyət göstərir. Ölkəmizdə mətbuat azadlığı, siyasi plüralizm tam bərqərar olmuşdur. İnsan hüquqlarının qorunması Azərbaycan dövlətinin əsas prinsiplərindən biridir. Bunlar hamısı onu nümayiş etdirir ki, Azərbaycanın Almaniya ilə sıx əməkdaşlıq etməsi üçün bütün sahələrdə əsaslar yaranıbdır.

Bu baxımdan Almaniya-Azərbaycan forumunun yaranmasını çox əlamətdar hadisə hesab edirəm. Bizim çox ehtiyacımız var, xüsusən Azərbaycan həqiqətlərini dünyanın bilməsinə, o cümlədən Almaniyanın hər yerində bilinməsinə ehtiyacımız var. Təəssüflər olsun ki, Azərbaycan həqiqətləri dünyada hələ ki, olduğu kimi məlum deyildir. Biz çalışırıq ki, özümüzü olduğumuz kimi tanıdaq. Çalışırıq ki, Azərbaycan, xalqımız haqqında, ölkəmizdə gedən demokratik proseslər, iqtisadi dəyişikliklər haqqında bütün ölkələrdə dolğun təsəvvür olsun. Ona görə də Almaniya-Azərbaycan forumunun imkanlarına ehtiyacımız çoxdur. Ümidvaram ki, siz Almaniya ilə Azərbaycan arasında olan əlaqələrin daha da genişlənməsi, inkişaf etməsi və möhkəmlənməsi üçün çox iş görə bilərsiniz və arzu edirəm ki, çox iş də görəsiniz. Biz bunun üçün öz tərəfimizdən əlimizdən gələni edəcəyik. Cənab Keslerin dediyi kimi, istərdik ki, sizin forum Azərbaycan üçün Almaniyada güclü bir lobbiyə çevrilsin. Ümidvaram ki, belə də olacaqdır.

Almaniya komandasının Avropa futbol çempionatında qalib gəlməsi münasibətilə sizi ürəkdən təbrik edirəm. Dünyanın futbol həvəskarları dünən Londonda keçirilən bu futbol matçını çox böyük maraqla izləyirdilər. Azərbaycanda da futbol həvəskarları çoxdur və ölkəmizdə də futbol matçına televiziya ilə çox adam baxıbdır, o cümlədən mən də həmin oyunu televiziya ilə əvvəldən axıradək seyr etmişəm. Matçın birinci yarısında çox narahat idim, çünki ilk qolu çexlər vurdu[30-31]lar. Oyunun sonuna 25 dəqiqə qalanadək vəziyyət belə idi. Mən narahat idim ki, birdən almanlar uduzarlar, sonra da məyus olarlar, bizim də buraya səfərimiz yaxşı olmaz. Ona görə oyunu hər saniyə izləyirdim. Matça oğlumla birlikdə baxırdım. O məni sakit edirdi ki, narahat olma, almanlar udacaqlar. Bu söhbətimizdən bir neçə dəqiqə sonra almanlar birinci qolu vurdular. Biz ikimiz də əl çaldıq. Amma London stadionundakı almanlar o qədər əl çalırdılar ki, bizim əl çalmağımızı heç kəs eşitmirdi.

Nəhayət, matç Almaniyanın qələbəsi ilə bitdi. Mən çox sevindim. Televiziya ilə görürdüm ki, cənab Helmut Kol nə qədər sevinir və könlü şaddır. Sizi bir daha təbrik edir və belə şəraitdə Almaniyaya gəlməyimi çox gözəl hadisə hesab edirəm. Güman edirəm ki, bütün almanlar, o cümlədən dövlət və hökumət başçıları da çox xeyirxah olacaqlar. Eşitdiyimə görə, son 20 ildə ilk dəfədir ki, Almaniya Avropa çempionatında qələbə çalıbdır. Güman edirəm ki, indi hamının kefi yaxşıdır və bu, Almaniya-Azərbaycan forumunun işinə də müsbət təsir göstərəcəkdir. Sizin hamınızı Azərbaycana dəvət edirəm, orada sizinlə görüşməyimdən çox məmnun olacağam. Güman edirəm ki, vaxt tapıb gəlməlisiniz, çünki Azərbaycanı görməsəniz onu istənilən səviyyədə təbliğ də edə bilməzsiniz. Mən sizinlə daim əməkdaşlıq edəcəyəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. [31-32]

**ALMANİYANIN FEDERAL PREZİDENTİ ROMAN HERSOQUN ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ ÇIXIŞ**

*2 iyul 1996-cı il*

*Bonn*

Hörmətli cənab prezident, hörmətli xanımlar və cənablar! Mən sizi Azərbaycan xalqı adından, müstəqil Azərbaycan dövləti adından səmimi qəlbdən salamlayıram.

Azərbaycan gənc müstəqil dövlətdir və dövlət müstəqilliyinin beşinci ilini yaşayır. Məhz bu mərhələdə Azərbaycan ilə Almaniya arasında yaranmış əməkdaşlıq əlaqələri həm bizim üçün, həm də sizin üçün çox əhəmiyyətlidir. Bu əməkdaşlıq əlaqələrinin nəticəsi olaraq ilk dəfədir ki, Azərbaycan Respublikasının dövlət başçısı Almaniyaya rəsmi səfərə gəlibdir. Dünən alman torpağına qədəm qoyduğumuz vaxtdan bizi böyük qonaqpərvərliklə qarşılayıblar və dünəndən bəri Almaniyada, Bonn şəhərində görüşlərimiz dostluq və mehribanlıq şəraitində keçibdir. Bu dostluq və mehribanlıq münasibətinə, qonaqpərvərliyə görə mən bütün Azərbaycan nümayəndə heyəti adından Almaniya dövlətinə, Almaniya hökumətinə, Almaniyanın prezidenti cənab Roman Hersoqa, Almaniyanın federal kansleri cənab Helmut Kola təşəkkür və minnətdarlığımı bildirirəm.

Bu gün səhərdən Almaniyanın prezidenti cənab Roman Hersoq, Almaniyanın federal kansleri cənab Helmut Kol və ölkənin digər rəsmi şəxsləri ilə çox səmərəli, məzmunlu və bizim üçün çox əhəmiyyətli danışıqlarımız və görüşlərimiz olubdur. Bu görüşlər və danışıqlar zamanı Almaniya-Azərbaycan əlaqələri çox ətraflı təhlil olundu və bizim indiyədək etdiyimiz əməkdaşlığı hər iki tərəf yüksək qiymətləndirdi. Biz [32-33] Almaniya ilə Azərbaycan arasında əməkdaşlığın bundan sonra daha da genişlənməsi və inkişaf etməsi üçün tədbirlər haqqında öz fikirlərimizi söylədik və müəyyən qərara gəldik. Bu görüşləri və danışıqları, əldə olunan razılaşmaları mən yüksək qiymətləndirirəm və əmin olduğumu bildirmək istəyirəm ki, onların əsasında Almaniya-Azərbaycan əlaqələri bundan sonra sürətlə inkişaf edəcəkdir.

Almaniya ilə Azərbaycan arasında, alman xalqı ilə Azərbaycan xalqı arasında əlaqələrin böyük tarixi var. Hörmətli prezident məndən öncə çıxış edərkən bu barədə çox dəyərli sözlər dedi. Keçən əsrin əvvəllərində almanlar Azərbaycana ilk dəfə gəliblər. Mən bu gün məmnuniyyət hissi ilə deyə bilərəm ki, Azərbaycana yaşamağa gəlmiş almanları Azərbaycan xalqı öz torpağında, öz vətənində çox mehribanlıqla qəbul edibdir və sonrakı dövrdə Azərbaycanla, azərbaycanlılarla almanlar birgə yaşayıb-yaratmışlar.

İkinci dünya müharibəsi illərində almanların Azərbaycandan uzaqlaşdırılmasına baxmayaraq, onların ölkəmizdə yaşadıqları dövrdə qoyduqları iz və onlardan sonra gələn nəsillərin nümayəndələrinin Azərbaycanda gördükləri işlər Azərbaycan üçün çox qiymətlidir. Keçən əsrin axırlarında və cari əsrin əvvəllərində alman iş badamları, alman kapitalı Azərbaycana gələrək, bir çox işlər görüblər. Onların da gördükləri işlərin izləri indiyədək qalmaqdadır. Almaniyanın "Simens" firması bu son vaxtlarda Azərbaycanda müəyyən araşdırmalar apararkən Bakı şəhərində "Simens"in 1905-ci ildə çəkdirdiyi elektrik xəttinin bir hissəsini tapıb, bir muzey eksponatı kimi Almaniyaya gətiribdir.

Bunlar Almaniya-Azərbaycan əlaqələrinin böyük tarixi olduğunu nümayiş etdirir, xalqlarımız arasında dostluq, əməkdaşlıq əlaqələrinin həm alman xalqına, həm də Azərbaycan xalqına çox fayda gətirdiyini göstərir.

Alman xalqının böyük və zəngin tarixi Azərbaycanda daim maraq və rəğbət hissi oyadıbdır. Alman xalqı bəşər tarixinə, bəşər sivilizasiyasına böyük töhfələr veribdir. Dünyanın hər yerində bunlar yüksək qiymətləndirilir. Azərbaycan xalqı da [33-34] alman xalqının dünyaya, bəşər tarixinə verdiyi töhfələri yaxşı bilir və onları yüksək qiymətləndirir. Alman xalqının dahiləri, alman ədəbiyyatını yüksək zirvələrə qaldırmış Heynenin, Götenin, Şillerin və başqa yazıçıların, ədəbiyyatçıların əsərləri Azərbaycan dilinə tərcümə olunubdur və azərbaycanlılar onları öz dilində sevə-sevə oxuyurlar.

Dünyada öz sənəti ilə məşhur olan alman bəstəkarları Bethovenin, Vaqnerin, Ştrausun və başqalarının əsərləri Azərbaycanda geniş yayılıbdır, azərbaycanlılar onları çox sevir və onların musiqisinin təsiri altında Azərbaycanda klassik musiqinin inkişafı sahəsində nailiyyətlər qazanılıbdır.

Bunlar Almaniyanın və alman xalqının böyük tarixidir. Ancaq bizim yaşadığımız əsrdə, son illərdə alman xalqının əldə etdiyi nailiyyətlər də çox yüksək qiymətə layiqdir. İkinci dünya müharibəsindən sonra alman xalqı böyük və çətin bir tarix yaşayıbdır. Alman xalqı öz istedadı, fədakarlığı, zəkası ilə böyük nailiyyətlər əldə edib və Almaniyanı dünyanın iqtisadi və mədəni cəhətdən ən inkişaf etmiş dövlətlərindən birinə çeviribdir. Alman xalqının ən böyük nailiyyəti beş il bundan öncə Almaniyanın birləşməsidir. Mən bildirmək istəyirəm ki, Almaniyanın birləşməsi Azərbaycanda böyük ruh yüksəkliyi ilə qarşılandı və ədalətin bərpa olunması, alman

xalqının vahid bir dövlət çərçivəsində yaşaması dünyada gedən proseslərin ədalətli bir nəticəsi kimi qəbul edilmişdir.

Almaniya birləşəndən sonra öz imkanlarından daha geniş istifadə etməyə başlamışdır. Almaniyanın bugünkü nailiyyətləri dünyada çox böyük rol oynayır və böyük nüfuza malikdir. Elm və texnikanın, iqtisadiyyatın və mədəniyyətin inkişafında, demokratiyanın və sərbəst iqtisadiyyatın inkişafında Almaniyanın əldə etdiyi nailiyyətlər bütün ölkələr üçün, o cümlədən Azərbaycan üçün böyük təcrübədir. Mən sizi bu nailiyyətlər münasibətilə təbrik edirəm və bildirmək istəyirəm ki, sizin əldə etdiyiniz nailiyyətlərdən və təcrübədən biz müstəqil Azərbaycanda dövlət quruculuğunda, demokratiyanın inkişaf etdirilməsində, iqtisadiyyatda islahatlar aparılmasında səmərəli istifadə edirik. [34-35]

Bütün bunların əsasında Azərbaycanla Almaniya arasındakı əlaqələrə biz xüsusi əhəmiyyət veririk və bunu dostluq əlaqələri kimi Azərbaycan üçün strateji əhəmiyyəti olan əlaqələr hesab edirik. Mən çox məmnunam ki, müstəqil Azərbaycan Respublikasının Dünya Birliyində rolunu və yerini Almaniya layiqincə qiymətləndirir. Cənab prezident Hersoqun indicə söylədiyi nitqdə Azərbaycan haqqında, onun coğrafi-strateji əhəmiyyəti haqqında dediyi sözlər bizdə məmnunluq hissi doğurur.

Mən əminəm ki, Almaniya-Azərbaycan əlaqələrinin çox böyük gələcəyi var. Sizi əmin etmək istəyirəm ki, biz bu əlaqələrin genişlənməsi, inkişaf etməsi üçün öz tərəfimizdən var qüvvə ilə səy göstərəcəyik. Azərbaycanda qarşımızda duran vəzifələr Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirməkdən və onu əbədi etməkdən ibarətdir. Biz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qururuq və bu yolla axıradək gedəcəyik. Dünyada demokratiya sahəsində əldə olunan nailiyyətlərdən və təcrübədən Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi üçün istifadə edilir və biz bu demokratiya yolu ilə axıradək gedəcəyik.

Bütün sahələrdə – iqtisadiyyatda, bazar iqtisadiyyatında bu islahatları və xüsusən mülkiyyətin özəlləşdirilməsini həyata keçirmək bizim əsas məqsədimizdir. Mən çox məmnunam ki, Almaniya prezidenti cənab Roman Hersoqun bugünkü nitqində Azərbaycanda həm demokratiya sahəsində, həm də iqtisadiyyatda dəyişikliklər aparılması sahəsində əldə edilən nailiyyətlər qiymətləndirilir. Keçən ilin noyabr ayında Azərbaycanda ümumxalq səsverməsi yolu ilə ilk demokratik konstitusiya qəbul olundu və demokratik seçkilər nəticəsində ilk parlament seçildi. Bunların hamısı Azərbaycanın bir demokratik dövlət kimi simasını dünyaya nümayiş etdirir.

Aprel ayında Avropa Birliyi ilə imzaladığımız saziş və bu yaxınlarda Avropa Şurasının Parlament Məclisinə Azərbaycanın xüsusi qonaq statusu ilə qəbul edilməsi Azərbaycanın Avropa mənsubiyyətini göstərir və eyni zamanda ölkəmizdə demokratiya sahəsində qazanılan nailiyyətlərə qiymət verilməsi kimi qarşılanır. Biz bütün bu nailiyyətlərimizin, istəklərimizin [35-36] həyata keçirilməsində və Azərbaycanda gedən bu proseslərlə, eləcə də Azərbaycanın ətrafında gedən proseslərlə əlaqədar olaraq Almaniya ilə əməkdaşlıq edirik və bu əməkdaşlığı səmərəli sayırıq.

Ölkəmizin həyatında ən çətin və ağır problem Azərbaycana qarşı Ermənistan tərəfindən edilmiş təcavüzün aradan qaldırılması, işğal olunmuş torpaqların azad edilməsi, bu torpaqlardan didərgin düşmüş bir milyondan artıq Azərbaycan vətəndaşının öz yerlərinə-yurdlarına qaytarılması problemidir. Mən bu gün bir daha bəyan edirəm ki, biz Ermənistanla münaqişəni sülh yolu ilə həll etmək istəyirik və bu yolla da gedəcəyik. Bu sahədə Dünya Birliyinin, Avropa Birliyinin, o cümlədən Almaniyanın yardımına ehtiyacımız var.

Beləliklə, Almaniya ilə Azərbaycan arasında əlaqələrin, əməkdaşlığın çox geniş perspektivləri və imkanları var. Biz çalışacağıq ki, bu imkanlardan səmərəli istifadə edək. Bugünkü danışıqlarımız və görüşlərimiz bizi əmin edir ki, bu yolla müvəffəqiyyətlə gedə bilərik. Almaniyanın əldə etdiyi nailiyyətlər münasibətilə alman xalqını və Almaniya hökumətini bir daha ürəkdən təbrik edirəm. Alman xalqına, bütün Avropaya sülh və əmin-amanlıq arzulayıram. Alman xalqına səadət və xoşbəxtlik diləyirəm.

Rica edirəm, badələri Almaniya Federativ Respublikasının şərəfinə, alman xalqının şərəfinə, Almaniya prezidenti cənab Roman Hersoqun şərəfinə, Almaniyanın federal kansleri cənab Helmut Kolun şərəfinə, Almaniya-Azərbaycan dostluğunun şərəfinə qaldırasınız! [36-37]

## ALMANİYANIN İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*3 iyul 1996-cı il*

*Köln*

Almaniya İqtisadiyyatı Şərq Komitəsinin sədri və Almaniya Sənaye-Ticarət Palataları Birliyinin fəxri prezidenti, hörmətli Otto Volf Fon Amerongen cənabları!

Hörmətli xanımlar və cənablar!

Mən sizi ürəkdən salamlayıram və bu xoş, Azərbaycan Respublikası üçün çox gərəkli görüşdən olduqca məmnunam.

Bildiyiniz kimi, mən Almaniya hökumətinin dəvəti ilə iyulun 1-də Almaniyaya rəsmi səfərə gəlmişəm. Dünən bizim işgüzar görüşlərimiz başlanmışdır. Səhər mən prezident cənab Roman Hersoq ilə, sonra federal kansler cənab Helmut Kol ilə görüşdüm. Bundestaqda oldum, orada Almaniya parlamentinin rəhbərləri, üzvləri ilə, habelə Bundestaqda təmsil olunan partiyaların nümayəndələri ilə görüşdüm.

Xarici işlər naziri cənab Kinkel ilə də görüşüm oldu. Səfər proqramının dünənki günü çox gərgin, eyni zamanda olduqca faydalı keçdi.

Almaniyaya səfərimin məqsədi hər şeydən öncə bütün sahələrdə Almaniya ilə Azərbaycan arasında münasibətləri möhkəmləndirmək və inkişaf etdirməkdir.

1991-ci ildə Azərbaycan Respublikası dövlət müstəqilliyi əldə etdikdən sonra Almaniya dövlətimizin müstəqilliyini tanımış və ölkələrimiz arasında diplomatik münasibətlər yaradılmışdır. Almaniyada Azərbaycanın, Azərbaycanda isə Almaniyanın səfirliyi fəaliyyət göstərir.

Ötən illər ərzində müxtəlif səviyyədə görüşlərimiz olmuşdur. Məsələn, Almaniyanın xarici işlər naziri cənab Kinkel, iqtisadiyyat naziri cənab Şpranger, Almaniya hökumətinin bəzi başqa nümayəndələri Azərbaycanda səfərdə olmuşlar. Bundan əlavə, Almaniya işgüzar dairələrinin nümayəndələri də Azərbaycana gəlmişlər, eyni zamanda Azərbaycanın nüma[37-38]yəndələri Almaniyada olmuşlar. Bunların hamısı Almaniya ilə Azərbaycan arasında dövlətlərarası münasibətləri daha yüksək səviyyəyə qaldırmaq, ən başlıcası isə bütün istiqamətlərdə ölkələrimiz arasında gələcək, daha geniş əməkdaşlıq məsələlərini müzakirə etmək üçün yaxşı zəmin yaratmışdır.

Almaniya hökumətinin rəhbərləri ilə dünənki görüşlərimdə də bu məsələlər müzakirə olundu. Mən keçirdiyim görüşlərdən, Almaniyada olduğumuz ilk dəqiqələrdən mənə və məni müşayiət edən şəxslərə göstərilən qonaqpərvərlikdən, mehribanlıqdan, hörmət və ehtiramdan son dərəcə məmnunam. Bizim dünənki söhbətlərimiz və danışıqlarımız qarşılıqlı anlaşma, xeyirxahlıq, səmimilik və mən deyərdim ki, dostluq şəraitində keçdi. Bu, belə bir nəticəyə gəlməyə əsas verir ki, Almaniya ilə Azərbaycan arasında gələcəkdə daha sıx münasibətlər, ən başlıcası isə həm iqtisadiyyat sahəsində, həm də həyatın bütün başqa sahələrində əməkdaşlıq mövcud ola bilər.

Almaniya nəhəng elmi-texniki və iqtisadi potensialı olan bir ölkədir. O, elmdə, texnikada, təhsildə və şübhəsiz ki, iqtisadiyyatın inkişafında yüksək məqsədlərə, səviyyələrə çatmağa qadir olduğunu keçmişdə də, son 50 ildə də dünyaya nümayiş etdirmişdir. Alman xalqının xüsusi istedadı, Almaniyanın görkəmli adamlarının xüsusi qabiliyyəti, əməksevərliyi, istər keçmiş dövrlərdə, istərsə də indi getdikcə daha çox şeyə nail olmaq səyləri Almaniyanı iqtisadi və sosial baxımdan dünyanın ən inkişaf etmiş, ən böyük ölkələri sırasına çıxarmışdır. Almaniya dünya siyasətində də, dünya iqtisadiyyatında da çox böyük rol oynayır. Ona görə də gənc, müstəqil dövlət olan Azərbaycan üçün Almaniya ilə sıx münasibətlər yaratmaq, əməkdaşlıq etmək şübhəsiz ki, çox mühümdür və biz bunu edirik.

Dünən cənab Roman Hersoq ilə, cənab Helmut Kol ilə və Almaniya hökumətinin digər nümayəndələri ilə danışıqlarımız və söhbətlərimiz zamanı biz belə bir yekdil fikirdəydik ki, əməkdaşlığımızı dərinləşdirmək və genişləndirmək üçün böyük imkanlar var. Azərbaycanın coğrafi-siyasi və coğrafi əhəmiyyətini, onun Avropa ilə Asiyanın qovuşuğunda, məşhur "İpək yolu"nun üstündə yerləşməsini, habelə ölkəmizin zəngin təbii ehtiyatlara, kifayət qədər sanballı iqtisadi, intellektual potensiala, sərbəst işçi qüvvəsinə malik olmasını və əməkdaşlıq üçün bir çox digər imkanları nəzərə alaraq Almaniya ölkəmizə böyük maraq göstərir. Biz Almaniyanı mühüm strateji tə[38-39]rəfdaş hesab edir və bunu əsas götürərək onunla münasibətlərimizi qururuq.

Əlbəttə, hər bir əməkdaşlığın başlıca əsası iqtisadiyyatdır. Qeyd etdiyim kimi, Azərbaycan ilə Almaniya arasında iqtisadi əməkdaşlıq üçün imkanlar var və bunlar kifayət qədər böyükdür. Şübhəsiz ki, dünya əhəmiyyətli çox iri şirkətlərin cəmləşdiyi böyük ölkə olan Almaniyanın əslində dünyanın bütün ölkələri ilə iqtisadi əlaqələri var. Onun şirkətləri dünyanın müxtəlif regionlarında iş görmək, iqtisadi əməkdaşlıq sahəsində böyük təcrübə toplayıblar. Azərbaycan isə müstəqil dövlət kimi dünya iqtisadiyyatına inteqrasiya üçün bu baxımdan ilk addımları atır. Eyni zamanda, qeyd etdiyim amillərə görə Avropanın iqtisadi cəhətdən inkişaf

etmiş bir çox ölkələrinin diqqətini cəlb edir. Biz imkanlarımızı, vəziyyətimizi nəzərə alaraq belə hesab edirik ki, əməkdaşlıq üçün Almaniyadan ötrü də yaxşı tərəfdaş ola bilərik.

Azərbaycanın malik olduğu təbii ehtiyatlardan, sənaye, elmi-texniki, intellektual potensialından əlavə, xüsusən Almaniya kimi bir ölkə ilə əməkdaşlıq etməsi üçün bəzi başqa şərtlər də lazımdır. Hazırda Azərbaycanda bu şərtlər var. Beş il bundan öncə ölkəmiz dövlət müstəqilliyi əldə edibdir. Bütün bu illər Azərbaycan üçün çox mürəkkəb və çətin olubdur. Bilirsiniz ki, keçmişdə Sovetlər İttifaqına mənsub olan bütün ölkələr indi keçid dövrünü yaşayırlar. Onların hamısı, demək olar, eyni problemlərlə qarşılaşırlar, hamısında iqtisadiyyatın, sosial sahənin yenidən qurulması, dövlət quruculuğu prosesləri gedir. Bu proseslər Azərbaycan üçün də xarakterikdir və şübhəsiz ki, bu, bizim iqtisadi və sosial həyatımızı, ölkəmizin bütün başqa sahələrində vəziyyəti çətinləşdirir. Ancaq eyni zamanda, Azərbaycan bəzi başqa mürəkkəb amillərlə də qarşılaşmışdır. Bilirsiniz ki, ölkəmiz Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıb. Bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş, həmin torpaqlardan Azərbaycanın bir milyondan çox sakini zor gücünə qovulmuşdur və onlar respublikamızın digər bölgələrində ağır şəraitdə, əksəriyyəti çadırlarda yaşayır. Şübhəsiz ki, bütün bunlar Azərbaycanda həyatı olduqca mürəkkəbləşdirir. Biz bu problemin də həllinə yaxınlaşırıq. İki il bundan öncə atəşkəs haqqında razılığa gəlmişik və o vaxtdan atəşkəs rejimi şəraitində yaşayırıq. İndi biz sülhə nail olmaq üçün tədbirlər görürük. Şərtlərimiz isə [39-40] bundan ibarətdir ki, Ermənistan silahlı birləşmələri Azərbaycanın işğal olunmuş ərazilərindən tamamilə çıxarılmalı, qaçqın vətəndaşlarımız öz yaşayış yerlərinə qayıtmalı, ölkəmizin ərazi bütövlüyü bərpa olunmalı, Azərbaycanın Dünya Birliyi tərəfindən tanınmış dövlət sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Biz bu istiqamətdə də iş görür, o cümlədən Almaniya ilə əməkdaşlıq edirik. Bu məsələ dünən bizim danışıqlarımızın əsas məsələlərindən biri idi. Ümidvarıq ki, bütün regionumuzda, yəni Zaqafqaziyada tam sülhə və sabitliyə nail olacağıq.

Bundan əlavə, Azərbaycanda bəzi mürəkkəb daxili siyasi proseslər də olmuşdur. Hərbi əməliyyatlar nəticəsində müxtəlif silahlı qruplaşmalar yaranmışdı, onlar qeyri-sabitlik şəraitində hakimiyyət uğrunda mübarizə aparırdılar və bu da ölkəmizdə daxili siyasi vəziyyəti mürəkkəbləşdirirdi. Biz Azərbaycanın həyatındakı bütün bu mənfi halların qarşısını aldıq və bunları aradan qaldırdıq. İndi ölkəmizdə ictimai-siyasi vəziyyət sabitdir. Bu isə həm respublikamızın vətəndaşlarının özlərini rahat və sərbəst hiss edə bilmələri, həm də Azərbaycan iqtisadiyyatının, sosial sahənin problemləri ilə məşğul ola bilməsi və şübhəsiz ki, dünyanın başqa ölkələri ilə lazımi iqtisadi əlaqələr yarada bilməsi üçün çox gərəkli və mühüm şərt idi. Bir də deyirəm, bu baxımdan indi Azərbaycanda normal vəziyyət, ictimai-siyasi həyatda sabitlik mövcuddur. Bu gün Azərbaycana, özü də təkcə paytaxtımıza – Bakıya deyil, həm də ölkənin bütün başqa bölgələrinə gələn hər bir kəs buna əmin ola bilər.

Eyni zamanda son illərdə biz iqtisadiyyatı müasir, ümumdünya tələblərinə uyğun olaraq inkişaf etdirmək, onun dünya iqtisadiyyatına inteqrasiyasını təmin etmək üçün müvafiq hüquq normaları, qanunlar yaratmaq sahəsində də tədbirlər görürük. Bununla əlaqədar, bizim dövlət quruluşumuzun, ictimai-siyasi sistemimizin, hansı iqtisadiyyata doğru getməyimizin sizin üçün yəqin ki, əhəmiyyəti var.

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra qətiyyətlə hüquqi demokratik, sivilizasiyalı dövlət quruculuğu yolu tutmuşdur. Biz demokratik cəmiyyət formalaşdırır, ictimai-siyasi həyatda demokratik təsisatlar yaradır, iqtisadiyyatımızı bazar münasibətləri əsasında yenidən qurur, iqtisadi islahatlar aparırıq. Makroiqtisadiyyatda struktur dəyişikliklərinə dair konkret əməli tədbirlər görülmüşdür. İndi özəlləşdirmə proq[40-41]ramının yerinə yetirilməsi üçün geniş iş görülür. Bütün sahələrdə – sənayedə, infrastrukturda, aqrar bölmədə iqtisadi islahatlar həyata keçirilir. Məqsədimiz və vəzifəmiz Azərbaycanda beynəlxalq standartlara, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə, xüsusən Avropa ölkələrində olan praktikaya, onların əldə etdikləri nəticələrə müvafiq, azaq iqtisadiyyatın, bazar iqtisadiyyatının yaradılmasını və inkişafını təmin etməkdir. Demokratiya təsisatlarının yaradılmasında, demokratik prinsiplərin bərqərar olunmasında, bazar iqtisadiyyatının təşəkkül tapmasında biz Avropaya, Qərb standartlarına, Qərb ölkələrinin təcrübəsinə, onların nailiyyətlərinə əsaslanırıq. Şübhəsiz ki, bununla əlaqədar biz Almaniyanın təcrübəsinə və nailiyyətlərinə böyük əhəmiyyət verir, nəzərə alırıq ki, o, digər Avropa ölkələri ilə müqayisədə bu baxımdan xüsusi yer tutur.

Biz belə bir cəhəti də bilir və ona böyük əhəmiyyət veririk ki, ikinci dünya müharibəsindən sonra Almaniya dağılmış iqtisadiyyatını qısa bir müddətdə bərpa edə və yüksək uğurlara nail ola, iqtisadi cəhətdən ən inkişaf etmiş ölkələr sırasına çıxa bilmişdir. Almaniya beş il bundan öncə, yenidən birləşdikdən sonra ölkənin bütün iqtisadiyyatını vahid səviyyəyə qaldırmaq üçün öz ərazisinin şərq hissəsində iqtisadiyyatın yenidən qurulması istiqamətində çox mühüm addımlar atmışdır. Biz bilirik ki, bu, asan deyildi və ikinci dünya müharibəsindən, habelə ölkənin yenidən birləşməsindən sonra görülmüş məhz həmin əsaslı, qətiyyətli tədbirlər nəticəsində mümkün olmuşdur. Ona görə də sizin ölkənizin təcrübəsi və nailiyyətlərinin bizim üçün xüsusi əhəmiyyəti var. Əgər respublikamızın həyatının indiki mərhələsini götürsək, bu baxımdan burada bizim üçün maraqlı və öz vəziyyətimizə bənzəyən cəhətlər çoxdur.

Biz iqtisadi siyasətimizi bu prinsiplər əsasında qurur, iqtisadiyyat sahəsində konkret tədbirlər görür, iqtisadi islahatların müvəffəqiyyətlə həyata keçirilməsini, xarici şirkətlərlə, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrlə əməkdaşlığı təmin etmək üçün müvafiq qanunvericilik bazası, hüquqi əsas yaradırıq.

Hesab edirəm ki, dövlət quruculuğu sahəsində biz indiyədək çox iş görmüşük. Ölkəmizdə dövlət hakimiyyəti sistemi sabit fəaliyyət göstərir. Ötən il biz ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etmişik. Yeri gəlmişkən qeyd edim ki, biz bu konstitusiyanı hazırlayarkən Qərb ölkələrinin, xüsusən Almaniyanın konstitusiya quruculuğu təcrübəsini diqqətlə öyrənmişik. Biz belə hesab [41-42] edirik ki, konstitusiyamızda demokratik dövlətin, demokratik təsisatların fəaliyyət göstərməsini təmin edən, onların daha da inkişaf etməsi və təkmilləşməsi üçün şərait yaradan müddəalar var. Konstitusiyamızın üçdə bir hissəsi insan hüquqlarına həsr olunubdur və biz belə hesab edirik ki, bu, həyatın bütün sahələrində demokratiya prinsiplərinin bərqərar olması üçün çox mühümdür. Keçən ilin noyabrında biz Azərbaycan Respublikasının ilk parlamentinə demokratik seçkilər keçirdik. Parlament çoxpartiyalılıq əsasında formalaşmışdır, fəaliyyət göstərir və qanun yaradıcılığı, respublikamızın həyatının bütün sahələri üçün hüquqi sənədlər yaradılması ilə fəal məşğul olur.

Bir də deyirəm, biz islahatlar aparırıq. Bütün bu tədbirləri həyata keçirərkən biz bunu əsas tuturuq ki, Azərbaycanın iqtisadiyyatını dünya iqtisadiyyatına sıx qovuşdurmaq lazımdır. Ona görə də biz ölkəmizi xarici investisiyalar üçün, xarici şirkətlərlə əməkdaşlıq üçün açıq elan etmişik və fəal surətdə çalışırıq ki, bütün bunlar reallığa çevrilsin. Hazırda həyata keçirdiyimiz özəlləşdirmə haqqında qanuna əsasən xarici şirkətlər, vətəndaşlar özəlləşdirmədə iştirak edə və hətta müəyyən güzəştlərlə iştirak edə bilərlər. Biz iri sənaye müəssisələrini xarici şirkətlərin idarəsi altına verməyi qərara almışıq və bu istiqamətdə müəyyən konkret tədbirlər görülmüşdür.

Lakin bütün bunlar yalnız başlanğıcdır. Bir də qeyd edirəm, xarici sərmayədarları, şirkətləri Azərbaycana cəlb edən odur ki, ölkəmizin zəngin təbii ehtiyatları var. Bu baxımdan bizim neft və qaz yataqlarımız şübhəsiz ki, mühüm yer tutur. Azərbaycan qədim neft ölkəsidir. Hələ keçən əsrin ortalarında ölkəmizdə sənaye üsulu ilə neft çıxarılmasına başlanmışdı. O vaxtdan etibarən məhz neft xarici kapitalı Azərbaycana cəlb edirdi, XIX əsrin axırı, XX əsrin əvvəlində burada Avropanın bir çox şirkətləri işləyirdi. Bildirmək istəyirəm ki, XX əsrin əvvəlində ölkəmizdə 10 milyon ton neft çıxarılırdı və o zaman Azərbaycan neft hasilatına görə dünyada birinci yer tuturdu. Şübhəsiz ki, o dövrdə Azərbaycan müstəqil dövlət deyildi, çar Rusiyasının tərkibində idi. Ancaq buna baxmayaraq, bu, Azərbaycan nefti idi və Azərbaycanı neft ölkəsi kimi şöhrətləndirmişdi. Sonrakı dövrlərdə bizim neftimiz keçmiş Sovetlər İttifaqının sənayecə inkişafında çox böyük rol oynamışdır. 20-30-cu illərdə burada həyata keçirilən sənayeləşdirmə xeyli dərəcədə Azərbaycan nefti ilə bağlı idi, belə ki, 40-cı illərə qədər Sovet[42-43]lər İttifaqında çıxarılan bütün neftin 70 faizindən çoxu Azərbaycanın payına düşürdü. 40-50-ci illərdə keçmiş Sovetlər İttifaqında kəşf edilmiş və əksəriyyəti indi Rusiyada olan zəngin neft yataqlarının ilkin istismarına da xeyli dərəcədə Azərbaycan alimlərinin və neftçilərinin köməyi ilə başlanmışdı. Bunlar Azərbaycan neftçilərinin işlədikləri Sibirin, Tatarıstanın, Başqırdıstanın, Orenburq və Samara vilayətlərinin zəngin neft yataqları idi. Həmin neftçilərin bir çoxu indi də orada yaşayır və işləyir.

Neftin sayəsində Azərbaycanda neftçıxarma üçün avadanlıq, cihazlar, dəzgahlar istehsal edən neft maşınqayırması da geniş inkişaf etmişdir. Eyni zamanda neftayırma, sonralar isə kimya sənayesi də inkişaf etmişdir. Bizdə indi də neft maşınqayırması və kimya sənayesinin böyük kompleksləri var. Neftayırma sənayemizin istehsal gücü hazırda Azərbaycanda çıxarılan neftin həcmindən xeyli çoxdur.

Bütün bunlara keçmiş illərdə nail olunmuşdur. Ancaq indi də Azərbaycanda həm quruda, həm də Xəzərin Azərbaycan sektorunda zəngin neft və qaz yataqları var. İndi bizim əməkdaşlığımızın obyekti məhz dəniz yataqlarıdır. 1994-cü ilin sentyabrında Xəzər dənizinin Azərbaycan sektorundakı üç neft yatağının birgə işlənməsinə dair dünyanın iri neft şirkətlərindən ibarət konsorsiumla ilk müqavilə imzalanmışdır. Bu şirkətlərin arasında Amerika Birləşmiş Ştatlarının bir neçə şirkəti var. Bunlar "Amoko", "Pennzoyl", "Yunokal", "Eksson", "MakDermott", "Remko" şirkətləridir. Britaniyanın "Britiş Petroleum", Norveçin "Statoyl", Rusiyanın "LUKoyl", Səudiyyə Ərəbistanının "Delta", Türkiyənin "Türk petrolları" kimi iri şirkətləri də bu konsorsiuma daxildir. Müqavilə 30 il müddətinə imzalanmışdır. Kapital qoyuluşunun həcmi 8 milyard dollardır, çox böyük miqdarda neft çıxarılacağı gözlənilir. "Əsrin müqaviləsi" adlanan bu layihə əməli olaraq həyata keçirilir.

Keçən ilin noyabrında biz Amerikanın "Pennzoyl", İtaliyanın "Acip", Rusiyanın "LUKoyl" şirkətləri kimi iri dünya şirkətləri ilə Xəzərdəki digər yatağın işlənməsi haqqında daha bir müqavilə imzalamışıq. Nəhayət, bu il iyunun 4-də Britaniyanın "Britiş Petroleum", Norveçin "Statoyl", Fransanın "Elf Akiten", Rusiyanın "LUKoyl" şirkətləri və İran Neft Şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının işlənməsi barədə üçüncü müqaviləni imzaladıq. Bunlar iri layihələrdir və artıq işləyirlər. Biz çıxarılacaq neftin daşınması [43-44] üçün də tədbirlər görürük. Bununla əlaqədar müvafiq sazişlər imzalayaraq Rusiya ərazisindən keçməklə Bakıdan Novorossiysk limanına Şimal neft kəmərinin, habelə Gürcüstan ərazisindən keçməklə Qara dəniz sahilindəki Supsa limanına Qərb neft kəmərinin tikintisinə başlamışıq. Bizim planlarımızda böyük neftin nəql ediləcəyi iri neft kəmərinin tikintisi də nəzərdə tutulmuşdur. Hələlik onun marşrutunu müəyyənləşdirməmişik, lakin bir neçə variant var. Ancaq bütün hallarda görünür, bu neft kəməri Türkiyə ərazisindən keçərək Aralıq dənizinə çıxacaqdır.

Neft sahəsində bizim başqa böyük nailiyyətlərimiz də var. Bağladığımız müqavilələr dünyanın iri maşınqayırma, nəqliyyat şirkətlərini və digər şirkətləri də Azərbaycana gətirmişdir və onlar layihələrin reallaşdırılmasında iştirak edirlər. Mən çox istərdim ki, Almaniya da Azərbaycana gəlsin. Müqavilələr imzalanarkən, habelə həmin neft yataqlarında onların işlənməsində iştirak edən şirkətlərin mənsub olduqları ölkələrin bayraqları qaldırılmışdır. İstərdim ki, orada Almaniya Federativ Respublikasının da bayrağı dalğalansın. Mən bu barədə dünən federal kansler cənab Helmut Kola fikrimi dedim. Hesab edirəm ki, Almaniya şirkətləri mənim çağırışıma səs verəcəklər.

Lakin Azərbaycanda əməkdaşlıq heç də təkcə bizim neft sənayesini əhatə etmir. Dediyim kimi, biz böyük sənaye potensialına, təbii ehtiyatlara malikik və bir çox digər sahələrdə də əməkdaşlıq edə bilərik. Bizim artıq əlaqələrimiz, müəyyən nəticələrimiz var. Almaniyanın bəzi şirkətləri ilə müəyyən hazırlıq işləri görülmüşdür. Bu barədə dünən dedim, indi də deyirəm ki, məşhur alman firması "Simens" hələ ötən əsrin axırlarında – cari əsrin əvvəllərində Azərbaycanda olmuşdur. Hazırda biz bu şirkətlə elektrik stansiyalarının yenidən qurulması, bəzi digər məsələlər barəsində danışıqlar aparırıq. Onun nümayəndələri Azərbaycanda işləyərkən Bakıda "Simens"in hələ 1905-ci ildə çəkdiyi və indiyədək işləyən elektrik məftili tapmışlar. Dünən mən bunu prezident cənab Hersoqa söylədikdə o dedi ki, təəssüflər olsun, indi Almaniyada elə bir məhsul istehsal edə bilmirlər ki, bu məhsul təxminən yüz il ərzində öz iş qabiliyyətini saxlasın. Belə düşünürəm ki, o, alman şirkətlərinin, eləcə də "Simens"in məhsulları barəsində sadəcə olaraq təvazökarlıq etmişdir. Zənnimcə, bir əsr ərzində böyük müvəffəqiyyətlər qazanan "Simens" kimi iri şirkət indi [44-45] də elə bir kabel və ya elektrik məftili çəkə bilər ki, o, bir yox, bir neçə əsr işləyə bilər.

Gətirilən faktlar hər halda ona dəlalətdir ki, Azərbaycan ilə Almaniya arasında hələ ötən əsrin axırlarında – cari əsrin əvvəllərində əməkdaşlıq edilmişdir. İndi vacibdir ki, bu əməkdaşlıq yenidən inkişaf etdirilsin. Əslinə qalsa, mən sizinlə məhz buna görə görüşürəm. Açığını deyim, biz istəyirik ki, alman kapitalı Azərbaycanda olsun, bizdə alman şirkətləri işləsin, biz əməkdaşlıq edək.

Dünən biz tarixi əlaqələrimizdən də danışdıq. Axı XIX əsrin hələ əvvəllərində almanlar Azərbaycana köçmüş və bizdə tamhüquqlu vətəndaşlar kimi yaşayaraq, dərin iz buraxmışlar. Sonralar, İkinci dünya müharibəsi dövründə onları Azərbaycandan köçürdülər, hərçənd almanların müəyyən hissəsi qaldı və onlar Azərbaycanda bu gün də yaşayırlar. Onu demək istəyirəm ki, biz birlikdə yaşayır və əməkdaşlıq edirdik. Yadımdadır, 39-40-cı illərdə mən Sənaye İnstitutunda oxuyarkən mənimlə bir alman oxuyurdu. O, bakılı idi. O vaxtlar mənim 16-17 yaşım vardı. O da təxminən bu yaşda idi. Biz dostluq edirdik. Yadımdadır ki, İkinci dünya müharibəsi illərindən əvvəl Bakıda bir neçə min alman yaşayırdı. Bir sözlə, almanlar Bakıda, Azərbaycanda yaşayır, işləyirdilər və indi də bu cür imkana malikdirlər. Başlıcası isə Azərbaycana fəal surətdə dəvət etdiyim Almaniya şirkətlərinin də bu cür imkanı var. Biz "Simens", "Tissen", "Altekol", "Şolts", "Ferrosytal", "ABB", "Qrunvald", "Mannesmann", "Bas" kimi şirkətlərlə danışıqlar aparmışıq və aparırıq. Bizim onlarla konkret əlaqələrimiz var. Lakin belə düşünürəm ki, indi, Almaniyanın sənaye və işgüzar dairələrinin nümayəndələri ilə bu görüşdə biz həmin şirkətlərin dairəsini çox genişləndirə bilərik. Əmin ola bilərsiniz ki, siz Azərbaycan ilə əməkdaşlıqdan konkret əməli fayda götürəcəksiniz. Bizdə, məsələn, prokat, polad borular istehsal edən sahə, filiz yataqları var. Biz bütün kompleksdən birlikdə istifadə edə bilərik. Bir vaxtlar almanlar Azərbaycanda mis hasilatı ilə məşğul olurdular. Bizdə Gədəbəy və Daşkəsən mis mədənlərində alman şirkətləri işləyirdilər. Əgər bu, yüz il əvvəl olmuşdursa, bəs nə üçün indi əməkdaşlıq etməyək? Həmin yataqlar öz əhəmiyyətini, potensialını və aktuallığını bu gün də saxlayır.

Dediyim kimi, bizdə böyük neft-kimya kompleksi var və biz burada çox böyük əməkdaşlıq edə bilərik. Bizdə maşınqayırma [45-46] ilə yanaşı, cihazqayırma, elektronika, radiotexnika üzrə iri sənaye müəssisələri var. Bir vaxtlar onlar Sovet İttifaqının böyük sənaye kompleksinin, xüsusən hərbi sənaye kompleksinin bir hissəsi kimi yaradılmışdı. İndi bu inteqrasiya əlaqələri dağılmışdır. Siz bilirsiniz ki, hazırda Rusiyada hərbi sənaye kompleksi böhran keçirir. Təbii ki, bu müəssisələr Sovet İttifaqının digər hissələrində, xüsusən Rusiyada yerləşmiş müxtəlif iri hərbi sənaye müəssisələri ilə sıx inteqrasiyada idi. Lakin Azərbaycanda bu gün də mövcud müəssisələr böyük sahələrə, dəzgah parkına, ixtisaslı işçi qüvvəsinə, zəngin ehtiyatlara malikdir. Onlardan istifadə etmək olar.

Bayaq dedim ki, bizdə neft maşınqayırması, əlvan metallurgiya sənayesi var. Biz alüminium oksidin istehsalı üçün zəngin alunit yatağına malikik. Bu məhsul bizim alüminium zavodunda istehsal edilir. Alüminium istehsal edən müəssisəmiz də var. Bunların hamısı vahid kompleksdir və o da mürəkkəb dövr keçirir. Biz burada da fəal əməkdaşlıq edə bilərik.

Bizdə maşınqayırma sahəsində digər sənaye müəssisələri var. Bilirəm ki, "Ferrostal" şirkəti bizim məişət kondisionerləri zavodunun yenidən qurulması haqqında danışıqlar aparır. Burada da əməkdaşlıq üçün böyük imkan var.

Lakin diqqətinizi konkret problemlər üzərində saxlamaq istəmirəm. Ümumiyyətlə, deyim ki, Azərbaycan əməkdaşlıq üçün böyük imkanlara, bundan ötrü təbii ehtiyatlara, sənaye potensialına, elmi-texniki və intellektual potensiala malikdir.

Azərbaycanda kənd təsərrüfatı olduqca geniş sahəlidir və kənd təsərrüfatı məhsulları istehsalı üçün zəngin təbii imkanlar var.

Yeri gəlmişkən, biz pambıq, taxıl, böyük miqdarda meyvə, habelə tütün, sitrus meyvələri yetişdiririk. Burada da əməkdaşlıq üçün geniş imkanlar var.

Mən başa düşürəm ki, sizin ölkənizlə əməkdaşlıq üçün bazar iqtisadiyyatı, azad sahibkarlıq prinsipləri vacibdir. Odur ki, hazırda həyata keçirdiyimiz və zənnimcə, qısa müddətdə başa çatdıracağımız tədbirlər Azərbaycanda istər bizim, istərsə də xarici ölkələrin özəl biznesinin coşqun fəaliyyəti üçün tam imkan yaradacaqdır. Buna görə də ölkəmiz xarici sərmayələr üçün, əməkdaşlıq üçün açıqdır.

Çıxışımı başa çatdıraraq bir daha nəzərə çarpdırmaq istəyirəm ki, biz Almaniya ilə əməkdaşlığa böyük əhəmiyyət veririk. Başqa ölkələrlə müqayisədə Almaniya Azərbaycanda zəif [46-47] təmsil olunmuşdur. Cənab prezident burada dedi ki, 47 alman şirkəti Azərbaycanda öz nümayəndəliklərinə malikdir. Doğrudur, lakin onların heç də hamısı böyük işlə məşğul olmur. Onlardan bəzilərinin fəaliyyəti hələ təşəkkül mərhələsindədir. Belə düşünürəm ki, Azərbaycanda alman şirkətləri daha çox olmalıdır. Bundan ötrü şərait və imkan var. Ən başlıca şərait bundan ibarətdir ki, Azərbaycan açıq ölkədir, onun iqtisadiyyat sahəsində demokratik prinsipləri var. Bu şərait və hüquqi normalar, artıq yaradılmış olan və indi yaradılan qanunvericilik zəmini xarici şirkətlərə Azərbaycanla fəal əməkdaşlıq etməyə imkan verir.

Əmin ola bilərsiniz ki, bir prezident kimi mən hər bir xarici şirkətin Azərbaycanda səmərəli işləməsi üçün əlverişli şərait yaradılması sahəsində bütün tədbirləri görəcəyəm. Mən sizin qarşınızda Azərbaycanda sabitliyin, ölkəmizdə bizneslə səmərəli məşğul olmaq imkanının, iqtisadiyyat sahəsində əməkdaşlığın təminatçısı kimi çıxış edirəm. Ümid etmək istərdim ki, bizim görüşümüz, mənim çıxışım alman biznesində yeni şərait yaradacaq, Azərbaycanla əməkdaşlığa münasibət yaxşılığa tərəf dəyişəcək və bir müddətdən sonra biz əməkdaşlığımızın əməli nəticələrindən danışmaq imkanına malik olacağıq.

Çıxışımı bununla qurtarmaq istərdim, çünki cənab Volf dedi ki, suallar ola bilər. Belə düşünürəm ki, mən sizə kifayət qədər məlumat verdim. Əgər nəyisə demədimsə, sizin suallarınıza cavab verərək onu deyə bilərəm. Odur ki, suallarınızı gözləyirəm.

**Sual: Mən kənd təsərrüfatı avadanlığı istehsalı ilə məşğul olan firmalar konsorsiumunu təmsil edirəm, biz Azərbaycanla həm texniki, həm də ticarət sahəsində əməkdaşlığa çox maraq göstəririk. Texniki əməkdaşlıq dedikdə mən Azərbaycan ərazisində kənd təsərrüfatı avadanlığının birgə istehsalı sahəsində əməkdaşlığı, ticarət əməkdaşlığı dedikdə isə, belə avadanlığın sizin ölkəyə göndərilməsinin mümkünlüyünü nəzərdə tuturam. Hazırda kənd təsərrüfatı maşınqayırmasının və kənd təsərrüfatı istehsalının inkişafı Azərbaycan üçün aktualdırmı? Əməkdaşlığımızın bu və ya başqa formasına dair danışıqlar aparmaq üçün biz haraya müraciət edə bilərik?** [47-48]

**Heydər Əliyev**: Şübhəsiz ki, kənd təsərrüfatı maşınqayırması bizim üçün aktualdır. Lakin hansı kənd təsərrüfatı maşınlarından söhbət getdiyini konkretləşdirmək lazımdır. Ona görə ki, biz indi böyük miqdarda kənd təsərrüfatı maşınları istehsal edə bilmirik, bunları əvvəllər keçmiş Sovetlər İttifaqının müxtəlif regionlarından alırdıq. Yəni söhbətin nədən getdiyini və bizim nə edə biləcəyimizi konkretləşdirmək gərəkdir.

Kənd təsərrüfatı məhsulları istehsalı da bizim üçün aktualdır. Bundan ötrü bizim böyük imkanlarımız var. Bildiyiniz kimi, Azərbaycan ərazisi 86,5 min kvadratkilometrdir. Sizin əraziniz isə, zənnimcə, təxminən 400 min kavadratkilometrdir. Yəni bizim ərazimiz sizinkindən təxminən dörd dəfə azdır. Lakin dünyada mövcud olan 12 iqlim qurşağından 10-u bizdə var. Azərbaycanda dağlar da, düzən rayonlar da var. Biz çöl bitkiləri, subtropik bitkilər, habelə dağlıq şəraitdə yetişən bitkilər becəririk. Ona görə də kənd təsərrüfatı məhsulları istehsalı bizim üçün çox aktualdır. Biz Azərbaycanın ərzaq cəhətdən müstəqilliyinə nail olmaq, habelə ixrac üçün məhsul istehsalını təmin etmək istəyirik. Ona görə də bu məsələni konkret müzakirə etmək olar. Mənim yanımda baş nazirin birinci müavini Rasizadə əyləşib, siz Azərbaycan Nazirlər Kabinetinə müraciət edə bilərsiniz.

**Sual: Mən "Döyçe vaqon BO" firmasını təmsil edirəm. Biz sizin ölkənizə sərnişin vaqonları göndəririk. Payızda biz sizə vaqon, o cümlədən də Bakı metrosu üçün vaqon istehsalı sahəsində əməkdaşlıq və kooperasiya haqqında təkliflə müraciət etdik. Bu gün biz kooperasiyanın mümkünlüyü barədə sizin mütəxəssislərinizə konkret təkliflər gətirmişik. Əgər siz maraqlanırsınızsa, bu təklifləri sizə verməyə hazırıq.**

**Heydər Əliyev**: Sualınızı başa düşdüm. Bizim əməkdaşlığa, dəmir yolu və metropoliten üçün vaqonlara ehtiyacımız var. Buna görə də təkliflərinizə, şübhəsiz, baxıla bilər. Bu təklifləri bizə verin. Biz onları çox diqqətlə nəzərdən keçirəcəyik. Bizdə böyük dəmiryol şəbəkəsi, Bakıda geniş metropoliten şəbəkəsi var. Əvvəllər onlar üçün vaqonları Rusiyadan, Sovet İttifaqından alırdıq. Buna görə də indi biz vaqonlara böyük ehtiyac duyuruq. Biz sizin təkliflərinizdən istifadə edəcəyik. [48-49]

**Sual: Biz Bakıda 20 ildən çoxdur işləyirik və əgər səhv etmirəmsə, bizim firmanı "Azərneftyağ" və "Azneftyanacaq" müəssisələrində neftin ilkin emalı qurğularının inşasına, cənab prezident, məhz siz cəlb etmisiniz. Biz Yeni Bakı neftayırma zavodunun yenidən qurulması və Bakıda ekologiyanın yaxşılaşması sahəsində, digər istiqamətlərdə bu gün də işləyirik. Azərbaycanın bank sistemi bu layihələrin**

**maliyyələşdirilməsində iştirak edə bilərmi? Əgər iştirak edə bilərsə, onda bu məsələ ilə hansı bank məşğul olur?**

**Heydər Əliyev**: Mən sizin "Krima" firmanızı yaxşı tanıyıram. O, keçmiş Almaniya Demokratik Respublikasının, indi isə Almaniya Federativ Respublikasının firmasıdır. 1975-1976-cı illərdə Sizin firma neftin ilkin emalı üçün birinci "Elou – AVT-6" avadanlığı göndərmişdir. Bu avadanlıq Azərbaycanın neftayırma sənayesinin əsaslı surətdə yenidən qurulmasını təmin etdi. Sonra biz 6 milyon ton gücündə daha bir bu cür qurğu aldıq və onu o vaxtlar XXII partiya qurultayı adlanan zavodda quraşdırdıq. 1981-ci ildə mən özüm həmin zavodu təntənəli şəraitdə açdım və biz ikinci zavodun yaranmasını bayram etdik. Odur ki, biz sizin firma ilə səmərəli əməkdaşlıq edirik. Doğrudur, indi sizin nə istehsal etdiyinizi, sözün düzü, bilmirəm. Əvvəllər siz mənimlə əməkdaşlıq edirdiniz, indi isə nədənsə etmirsiniz. Soruşursunuz ki, bu işdə banklar iştirak edə bilərmi? Əlbəttə, iştirak edə bilərlər. Burada oturan Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevə, habelə Milli Bankın prezidentinə tapşırıram ki, sizi maraqlandıran məsələləri firmanızla müzakirə etsinlər.

**Sual: Mənim xüsusi bir sualım var. Mən bankir deyiləm, amma sabit bank sistemi məndən ötrü son dərəcə mühümdür. Ölkənizin Milli Bankı bizim sistemlə müqayisədə nə dərəcədə müstəqildir, Azərbaycan hökumətinin təsirindən nə dərəcədə azaddır?**

**Heydər Əliyev:** Mən bu suala cavab verəcəyəm, amma ola bilsin ki, Milli Bankın prezidenti əlavə edib nəsə deyəcəkdir. Bilirsinizmi, biz köklü dəyişikliklər mərhələsini keçirik. 20 gün bundan əvvəl Azərbaycanın Milli Bankı haqqında yeni qanun, habelə Azərbaycanda bank fəaliyyəti haqqında qanun qəbul etdik. Onlar əvvəlki qanunlardan nə ilə fərqlənir? Biz birinci qanunla Milli Banka maksimum sərbəst[49-50]lik və müstəqillik vermişik, ikinci qanunla bütün kommersiya banklarını hər cür yoxlamalardan xilas etmişik, onların fəaliyyəti üzərində nəzarət funksiyalarını ancaq Milli Banka tapşırmışıq. Lazım gələrsə kommersiya banklarını yalnız Milli Bank yoxlaya bilər.

Burada deyildi ki, iyunun 17-də mən bütün hüquq-mühafizə və digər nəzarət orqanlarına müəssisələrin, şirkətlərin, özəl biznesin işlərinə qarışmağı qəti şəkildə qadağan edən fərman vermişəm. Fərmanda deyilir ki, yoxlamalar müstəsna hallarda ancaq Maliyyə Nazirliyi və Vergi Müfəttişliyi tərəfindən aparıla bilər. Zənnimcə, sualınıza kifayət qədər cavab verdim.

**Sual: Hörmətli cənab prezident, mən kiçik biznesə aid olan "Xes" firmasını təmsil edirəm. Bizim firma tikinti və inşaat avadanlığı istehsalı ilə məşğul olur. Siz öz nitqinizdə qaçqınlarla bağlı böyük bir problemdən danışdınız. Sizin bu problemin həlli üçün, qaçqınlardan ötrü mənzil tikintisi üçün nə kimi proqramlarınız var? Mövcud evtikmə kombinatlarının yenidən qurulması və ya sizin respublikanızın inşaat materialları ilə təmin edilməsi məsələlərində, o cümlədən də öz qüvvənizlə mənzil tikintisi üçün sizin Tikinti Nazirliyi ilə əməkdaşlıq mümkündürmü?**

**Heydər Əliyev**: Siz Azərbaycanda tikinti ilə məşğul olursunuz?

**Cavab: Hələ yox. Biz bu məsələ ilə keçmiş Sovet İttifaqının başqa respublikalarında məşğul oluruq. Azərbaycanda da işləmək istərdik.**

**Heydər Əliyev**: Bilirsinizmi, bu, tamamilə mümkündür. Mən sizi yenə də Nazirlər Kabinetinə, baş nazirin birinci müavini Rasizadəyə yönəldirəm. Siz bu məsələni onunla konkret surətdə müzakirə edə bilərsiniz. Bizim buna prinsipcə ehtiyacımız var. O ki qaldı tikinti təşkilatlarına, dəmir-beton məmulatı zavoduna, inşaat materialları zavoduna, bütün bu kompleks Azərbaycanda mövcuddur. Bu məsələləri konkret surətdə müzakirə etmək lazımdır.

**Sual: Biz Azərbaycanda "Azəriqaz" Dövlət Şirkəti ilə əməkdaşlıq edirik. Gələcəkdə Azərbaycanın qazla [50-51] təchizatının etibarlılığını yüksəltmək üçün qaz sənayesi sahəsində nə kimi inkişaf planlaşdırılır? Qaz sənayesində nə kimi təşkilati strukturlar gözləmək olar?**

**Heydər Əliyev**: Əvvəla, indi bizdə qaz ötən vaxtlara nisbətən az çıxarılır. Biz ildə təxminən 6 milyard kubmetr qaz istehsal edirik. Halbuki təqribən 10 il əvvəl 15 milyard kubmetr qaz çıxarırdıq ki, bu da nəinki özümüzün qaza olan tələbatımızı ödəməyə, həm də onu ixrac etməyə imkan verirdi. İndi biz öz qazımızı yalnız daxili ehtiyaclar üçün yönəldirik və o da heç də həmişə çatmır. Lakin biz bu yanacaq hasilatını artırmaq üçün böyük imkanlara malikik. Haqqında danışdığım böyük müqavilələrdə həm təbii qaz, həm də qaz hasilatı nəzərdə tutulur. Bunun hesabına sonrakı illərdə biz qaz hasilatını əvvəlcə tədricən, sonra da sürətlə artırmaq fikrindəyik. Bu, bizə qazı həm ixrac etməyə, həm də onu kimya sənayemiz üçün xammal kimi işlətməyə imkan verəcəkdir. Bizdə qazdan istifadə sistemi var və indi bu sistem yenidən qurulur. Qazın bölüşdürülməsi ilə, ondan istifadəyə nəzarət ilə məşğul olan orqan isə səhmləşdirilir.

**Sual: Hörmətli cənab prezident, mənim firmam 1990-cı ildən yollar və avtomagistrallar çəkilməsi ilə məşğul olur. Azərbaycanda elə layihələr varmı ki, onlar yol tikintisinin, avtomagistralların inkişaf etdirilməsinə yönəldilmiş olsun? Siz xatırlatdınız ki, Azərbaycan "Böyük ipək yolu"nun kəsişdiyi mövqedə yerləşir. Dünya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən maliyyələşdirilən layihələr varmı?**

**Heydər Əliyev**: Bəli, Azərbaycanda avtomobil yollarının çəkilməsinə və yenidən qurulmasına böyük tələbat var. Bizdə bu yollar çoxdur və elə etmək lazımdır ki, onlar beynəlxalq standartlara cavab versin. Açığını

deyəcəyəm, bizdə bundan ötrü kifayət miqdarda vəsait yoxdur. Əgər şirkət bu məsələyə maraq göstərirsə, onda biz maliyyə mənbələri barədə də birlikdə düşünməliyik. Biz müvafiq şərtlərlə kreditlərdən istifadə edə bilərik və yolları şirkətlərlə birlikdə çəkə bilərik. Əgər siz bunu edə bilərsinizsə, bu, yaxşı olardı. [51-52]

O ki qaldı, sizin qeyd etdiyiniz kimi, Azərbaycanın "İpək yolu"nun kəsişdiyi mövqedə yerləşməsinə, mən sizə məlumat verməliyəm ki, bu yaxınlarda Özbəkistan prezidenti cənab Kərimov, Türkmənistan prezidenti cənab Niyazov, Gürcüstan prezidenti cənab Şevardnadze və Azərbaycan prezidenti Əliyev Transqafqaz magistralı yaradılması haqqında çox mühüm saziş imzaladılar. Söhbət Mərkəzi Asiyanın nəqliyyat kommunikasiyalarının, indiki halda Özbəkistan, Türkmənistan, habelə Azərbaycan və Gürcüstanın nəqliyyat kommunikasiyalarının birləşdirilməsindən gedir. Yükləri dəmir yolu ilə Türkmənbaşı, keçmiş Krasnovodsk limanınadək, sonra Xəzər vasitəsilə bərə keçidi ilə Bakı limanınadək, oradan isə mövcud dəmir yolu ilə Azərbaycan və Gürcüstan vasitəsilə Qara dəniz sahilindəki Poti limanınadək daşımaq olar. Buradan yükləri Avropaya gəmi və bərələrə nəql etmək mümkündür. Məsələn, nəzərdə tutulur ki, xətlərdən biri Dunay çayı ilə Almaniyayadək gedəcəkdir.

Dünən mən cənab Roman Hersoqla bu barədə danışarkən o mənə dedi ki, bir vaxtlar böyük Karl da bu barədə düşünmüş və müvafiq tədbirlər görmüşdür. Mən ona dedim ki, böyük Karl çox ağıllı adam idi, o vaxtlar bu barədə fikirləşmişdir. İndi biz böyük Karlın planlarını həyata keçiririk. Yeri gəlmişkən, bu məsələyə Almaniyada böyük maraq göstərirlər. Bu məsələ ilə federal kansler cənab Helmut Kol və prezident cənab Roman Hersoq da maraqlanırlar. Almaniyada federal kansler Helmut Kol ilə burada rəsmi səfərdə olmuş Rumınıya prezidenti İon İliyesku arasında həmin məsələ barəsində çox ətraflı söhbət getmişdir. Cənab Roman Hersoq Gürcüstana səfəri zamanı cənab Şevardnadze ilə bu barədə danışmışdır. Yeri gəlmişkən, layihə artıq həyata keçirilir. Dünən mən cənab Helmut Kola məlumat verdim ki, həmin nəqliyyat yolu ilə Özbəkistan Avropaya 10 min ton pambıq mahlıcı göndərmiş və oradan 30 min tondan çox taxıl gətirmişdir. Biz bu sazişi cəmi bir aydır ki, imzalamışıq, o isə artıq həyata keçirilir. Gələcəkdə əgər Bakı, Türkmənbaşı və Poti limanlarını modernləşdirsək, bizim dəmir yolunun nizama salınması sahəsində bəzi tədbirləri görsək, onda "İpək yolu" kimi, həmin yol da yüklərin Avropadan Mərkəzi Asiyaya, oradan da geriyə nəql edilməsində çox böyük rol oynaya bilər. Yeri gəlmişkən, Mərkəzi Asiya ölkələ[52-53]rinin öz yüklərini bu marşrutla daşıması onlar üçün məsafəni 1200 kilometr qısaldır. Bu isə nəqliyyat xərclərini də azaldır.

**Sual: Cənab prezident, Azərbaycan ilə müəssisəmiz arasında əməkdaşlıq barədə səmimi sözlərə görə, icazə verin, sizə "Simens" firması adından təşəkkürümü bildirim. Sizi əmin etmək istəyirəm ki, son bir əsrdə bizim malların keyfiyyəti nəinki aşağı düşməmiş, əksinə, yüksəlmişdir. Siz xatırlatdınız ki, biz infrastrukturun bir çox sahələrində əməkdaşlıq edirik. Mən belə düşünürəm ki, bizim əməkdaşlığımız elektrik enerjisi sahəsində daha çox inkişaf etmişdir. Siz dediniz ki, bu sahə ölkənizin neft sənayesinin, digər sənaye sahələrinin inkişafında xüsusi rol oynayır. Məni belə məsələ maraqlandırır: Siz bu sahənin inkişafını maliyyələşdirmək niyyətində olan potensial Qərb ölkələrinə lazımi şərait yaradılması üçün yaxın illərdə nə kimi tədbirlər görmək fikrindəsiniz?**

**Heydər Əliyev**: Mən artıq dedim, bir daha deyirəm "Simens" şirkəti ilə əməkdaşlığın genişlənməsində bizim marağımız var. İndiyədək görülmüş bütün işləri mən dəstəkləyirəm və onlara ehtiramla yanaşıram. Lakin indi işi daha da genişləndirmək lazımdır. Elektroenergetika kompleksinin prezidenti Müslüm İmanov mənimlə buradadır. Mən ona tapşırmışam ki, Bakıdakı "Şimal" DRES-in yenidən qurulması barədə sizinlə danışıqlar aparsın. Məncə, siz bu layihə üzrə iş görürsünüz, istərdim ki, bu iş konkretləşdirilsin. Yeri gəlmişkən, dünən mən federal kansler Helmut Kol ilə söhbət edərkən bu barədə, öz çıxışımda adlarını çəkdiyim firma və şirkətlərlə əməkdaşlıq barədə ona danışdım. Mən cənab Kola dedim ki, bu layihələrin həyata keçirilməsi üçün bizə kredit gərəkdir. O cavab verib dedi ki, biz həmin məsələlərə dair konkret təkliflər, layihələr təqdim etməliyik ki, o, kredit barədə xahişimizə baxsın. Buna görə də dünən, federal kansler ilə görüşümdən sonra dərhal mən bizimlə birlikdə buraya gələn şəxslərin hamısına tapşırdım ki, mənə konkret təkliflər təqdim etsinlər. Özü də cənab Kol konkret layihələri, habelə bu layihələri birlikdə həyata keçirə biləcəyimiz şirkətlərin adlarını göstərməklə həmin məsələ barəsində bizdən məktub almaq istəyir. O, bizə kredit sarıdan kömək vəd etdi. Mən artıq tapşırıq vermişəm. Xahiş edirəm, bizə konkret layihələr verin. Məsələn, Bakıdakı elektrik stansiyasının yenidən qurulmasının bizim üçün [53-54] böyük əhəmiyyəti var. Gəlin, şərtlər barədə danışaq və federal kanslerdən xahiş edək ki, bizə kredit sarıdan kömək göstərsin.

O ki qaldı Avropa Yenidənqurma və İnkişaf Bankına, biz onun kreditlərindən istifadə edirik və gələcəkdə də edəcəyik. Lakin düşünmək lazımdır, söhbət hansı şərtlərdən gedir.

Dövlət təminatına gəldikdə, deyə bilərəm ki, bu barədə sizinlə təxminən 10 ildən sonra danışa bilərik. Çünki indi maliyyə ehtiyatlarımız məhduddur. Təqribən 5-10 ildən sonra Azərbaycan neft və qaz hasilatı hesabına böyük iqtisadi imkanlara malik olacaqdır. Buna görə də biz sizinlə konkret danışıqları apararkən və təminat barəsində razılığa gələrkən həmin müddətləri nəzərə almalıyıq.

* * *

Mən bu görüşün bütün iştirakçılarına, habelə görüşün təşkilinə görə Almaniya iqtisadiyyatı Şərq Komitəsinin sədri, Almaniya Sənaye-Ticarət Palataları birliyinin fəxri prezidenti cənab Volf Fon Amerongenə təşəkkür edirəm.

Mən bu görüşə gələcək daha geniş əməkdaşlığımızın başlanğıcı kimi baxıram. Bayaq dedim ki, neft şirkətinin prezidenti Natiq Əliyev, kimya şirkətinin prezidenti Fikrət Sadıqov, energetika kompleksinin prezidenti Müslüm İmanov, xarici iqtisadi əlaqələr naziri Qüdrət Quliyev, Milli Bankın prezidenti Elman Rüstəmov, Beynəlxalq Bankın prezidenti Fuad Axundov, iqtisadiyyatla məşğul olan bir çox digər şəxslər mənimlə birlikdə buradadırlar. Mənim nümayəndə heyətimə xarici işlər naziri ilə yanaşı, baş nazirin birinci müavini Artur Rasizadə də daxildir. O, iqtisadiyyatla məşğul olur. Mən nə qədər ki, buradayam, onlar bu gün də, sabah da sizinlə konkret əməli danışıqlar aparmaq və konkret layihələr barəsində razılaşma imkanına malikdirlər. Xahiş edirəm, bunu nəzərə alasınız.

Axırda sizin hamınıza biznes-məlumat kitabına görə təşəkkür etmək istəyirəm. Zənnimcə, mənim belə qısa müddətdə deyə bilmədiyim məsələlər haqqında bu kitabda çox yazılmışdır. Ümidvaram ki, siz bu kitabla tanış olacaqsınız və o, Azərbaycanla əməkdaşlıqda sizin bələdçinizə çevriləcəkdir. Sağ olun. Görüşənədək. [54-55]

## ALMANİYA FEDERATİV RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ HƏSR OLUNMUŞ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Bonn*

*3 iyul 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Bu gün məni buraya, sizin şəhərin mətbuat mərkəzinə, jurnalistlər evinə dəvət etdiyinizə görə təşəkkür edirəm.

Bildiyiniz kimi, mən Almaniya Federativ Respublikası hökumətinin dəvəti ilə iyulun 1-də Almaniyaya rəsmi səfərə gəlmişəm. Bu, müstəqil Azərbaycan Respublikasının dövlət başçısının, prezidentinin Almaniyaya ilk səfəridir.

Dünən səhər tezdən burada, Almaniyada bizim görüşlərimiz başlayıbdır. Mən Almaniyanın federal prezidenti cənab Roman Hersoq, federal kansler cənab Helmut Kol və Almaniyanın digər hökumət nümayəndələri ilə, eyni zamanda Bundestaqın rəhbərliyi və deputatları ilə görüşlər keçirmişəm. Çox ətraflı müzakirələrimiz, danışıqlarımız olubdur. Hesab edirəm ki, bu görüşlər, danışıqlar nəticəsində Azərbaycan-Almaniya əlaqələrinin inkişaf etdirilməsi üçün səmərəli iş görmüşük.

Azərbaycan Respublikası gənc müstəqil dövlətdir, öz müstəqilliyinin beşinci ilini yaşayır və müstəqil dövlət kimi Dünya Birliyində özünə layiq yer tutmaq istəyir. Bu məqsədlə Azərbaycan Respublikası dünyanın bütün ölkələri ilə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr qurur.

Həmin ölkələr içərisində Almaniya Federativ Respublikası Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir. Almaniya iqtisadiyyat sahəsində böyük nailiyyətlər əldə etdiyinə, demokratik ölkə, dövlət və demokratik cəmiyyət olduğuna görə, dünya siyasətində və iqtisadiyyatında görkəmli yer tutduğuna, dünyanın böyük dövlətlərindən biri olduğuna görə Azərbaycan Almaniya ilə münasibətlərinə və əlaqələrinə xüsusi fikir verir. Son illərdə bu əlaqələr yaranıb, biz bunları inkişaf etdirməyə [55-56] çalışmışıq. Almaniyaya səfərimdən məqsədim bu əlaqələri daha yüksək səviyyəyə qaldırmaq və onların daha da dərinləşməsi və genişlənməsi, inkişaf etməsi üçün yeni tədbirlər görməkdir.

Dünən Almaniyanın dövlət, hökumət başçıları və rəsmi dairələri ilə apardığımız söhbətlərdə, hesab edirəm ki, Azərbaycan-Almaniya əlaqələrinin inkişaf etməsi üçün yaxşı əsas yaranıbdır. Mən bu görüşlərdən və danışıqlardan məmnun olduğumu söyləmək və bildirmək istəyirəm ki, bizə – mənə və məni müşayiət edənlərə çox yüksək qonaqpərvərlik, diqqət və qayğı göstərilir. Bunlara görə də alman xalqına, Almaniya hökumətinə təşəkkür edirəm.

Apardığımız danışıqlarda iqtisadi əlaqələrin genişləndirilməsi, iqtisadiyyat sahəsində əməkdaşlığın daha da sürətləndirilməsi problemi mərkəzi yer tutur. Bu sahədə böyük imkanlar var və biz çalışırıq ki, bunlardan səmərəli istifadə edək. Bu gün səhər Köln şəhərində – ölkənin iqtisadiyyat, sənaye mərkəzində Almaniyanın iş adamlarının çoxsaylı nümayəndələri, şirkətlərin rəhbərləri və nümayəndələri ilə görüşmüşəm. Hesab edirəm ki, bu görüş zamanı Azərbaycanın Almaniya ilə əməkdaşlıq etmək imkanlarını geniş açıb söyləyə bilmişəm.

Bilirsiniz ki, Azərbaycan Avropaya daxildir. Avropanın Asiya ilə birləşdiyi bölgədə yerləşir, Azərbaycanın çox əhəmiyyətli coğrafi-siyasi mövqeyi var. Ölkəmizin təbii sərvətləri, Qafqazda tutduğu mövqe, Avropa ilə Asiya arasındakı yolların kəsişdiyi yerdə olması, ümumiyyətlə, Avropa ölkələrinin marağını cəlb edir, o cümlədən bütün bunlar Almaniya üçün də maraqlıdır. Güman edirəm ki, indiyədək keçirdiyimiz görüşlər və bu gün, sabah da nəzərdə tutulan görüşlərimiz Azərbaycan-Almaniya əlaqələrini, xüsusən iqtisadi əlaqələrimizi genişləndirəcək. Biz bu əməkdaşlığın daha da yüksəklərə qaldırılmasına tərəfdarıq.

Mən sizə təşəkkür edirəm və suallarınıza cavab verməyə hazıram.

**Sual: Cənab prezident, siz görüşlərinizdə deyirsiniz ki, Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması çox çətin məsələlərdən biridir və beynəlxalq təşkilatlar, qurumlar bu işdə yardımçı ola bilərlər. Siz həmin yardımı nədə görürsünüz və bu çətin məsələnin həll olunması perspektivinə necə baxırsınız ?** [56-57]

**Heydər Əliyev:** Bəli, Ermənistan-Azərbaycan münaqişənin, Dağlıq Qarabağ ilə əlaqədar olan münaqişənin aradan qaldırılması çətin məsələdir. Bu münaqişə səkkiz il öncə, 1988-ci ildə başlayıbdır və deyə bilərəm ki, dünyada olan bütün münaqişələr arasında həm ən uzun çəkən, həm də çox mürəkkəb münaqişədir. Bu münaqişə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində başlayıbdır. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini ələ keçirmək məqsədi ilə hərbi təcavüz etmiş və bunun nəticəsində döyüşlər başlanmışdır. Həmin döyüşlər nəticəsində müəyyən səbəblərə görə Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikası ərazisinin 20 faizini işğal edə bilibdir. Bu ərazilərdən bir milyondan artıq Azərbaycan vətəndaşı

zorla çıxarılıb, yerindən-yurdundan didərgin düşərək Azərbaycanın başqa bölgələrində ağır vəziyyətdə, qaçqın vəziyyətində, əksəriyyəti çadırlarda yaşayır.

Münaqişə nəticəsində Azərbaycana böyük zərbələr dəyib, ölkəmiz böyük itkilər veribdir, insanlar tələf olubdur. Azərbaycan xalqının indi işğal olunmuş torpaqlarda əsrlər boyu qurduğu, yaratdığı hər şey – yaşayış evləri, tarixi abidələr, istehsal müəssisələri – fabriklər, zavodlar, elektrik stansiyaları, eləcə də xəstəxanalar, məktəblər, mədəniyyət ocaqları dağıdılıb, viran edilibdir. Bütün bu zərbələrə, itkilərə baxmayaraq Azərbaycan Respublikası, onun dövləti məsələnin sülh yolu ilə həll olunmasının tərəfdarıdır. Məhz buna görə də iki il öncə Ermənistan ilə Azərbaycan arasında hərbi əməliyyatların, atəşin dayandırılması haqqında saziş imzalanıbdır. İki ildir ki, atəş yoxdur, biz atəşkəs rejimində yaşayırıq. Ancaq eyni zamanda tam sülh də yoxdur.

Biz sülh istəyirik, yenidən döyüşlərin, atəşin başlanmasının tərəfdarı deyilik. Ona görə də sülhə nail olmaq üçün öz tərəfimizdən çox ciddi və konstruktiv addımlar atırıq. Siz dediniz, mən də təsdiq etdim ki, bu məsələnin həll olunması çətindir. Ancaq məsələni həll etmək üçün sadəcə şərtlər var. Şərtlər də ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmalı, Azərbaycan Respublikasının ərazi bütövlüyü, beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığı təmin edilməlidir. Belə olan şəraitdə Azərbaycan Dağlıq Qarabağda yaşayan ermənilərin, – orada yüz minədək erməni yaşayır, – təhlükəsizliyinin təmin olunmasını öz üzərinə götürür, eyni zamanda Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa müasir dün[57-58]ya təcrübəsində mövcud olan ən yüksək muxtariyyət statusu verməyə hazırdır.

Bu şərtlər sadədir, ədalətlidir. Əgər bu şərtlər mövcud olduğu halda məsələ indiyə qədər həll edilmirsə, buna Ermənistan tərəfi maneçilik törədir. Təəssüf ki, Ermənistan tərəfi məsələnin həllinə ədalətsiz yanaşır. Dağlıq Qarabağı müstəqil etmək, yəni ona "dövlət müstəqilliyi" statusu almaq istəyir. Ona görə də bu şərtlər həyata keçirilmir. Mən isə bəyan edirəm ki, Dağlıq Qarabağa heç vaxt "dövlət müstəqilliyi" statusu verilə bilməz. Azərbaycanın ərazi bütövlüyünün saxlanması beynəlxalq hüquq normalarına uyğun olan tələbdir. Hər bir ölkə öz ərazisinin bütövlüyünü qorumalıdır. İndiki halda isə məsələnin həll edilməsi, şübhəsiz ki, ləngiyir.

Məsələnin həlli ilə ATƏT-in Minsk qrupu məşğuldur. Minsk qrupu çox danışıqlar aparır, görüşlər keçirir. Biz bütün bu təkliflərimizi Minsk qrupuna veririk. Ancaq güman edirəm ki, Minsk qrupu da məsələnin ədalətlə həll olunması üçün hələ lazımi qərar qəbul edə bilməyibdir. Minsk qrupunun fəaliyyətinin gücləndirilməsi lazımdır, biz bunu istəyirik. Eyni zamanda dünyanın böyük dövlətləri – Minsk qrupunun üzvü olan və olmayan dövlətlər də bu məsələnin həlli üçün səylərini artırmalıdır. Minsk qrupuna daxil olan ölkələrdən biri kimi Almaniya da bu məsələnin həll edilməsində çox təsirli iş görə bilər. Ümidvaram ki, bu məsələ sülh yolu ilə həll olunacaqdır. Biz yenə də – yenə də sülh istəyir, məsələnin sülh yolu ilə həll edilməsini istəyirik.

**Sual: Cənab prezident, siz Azərbaycanda hüquqi demokratik dövlətin qurulmasından danışdınız. Lakin seçkiləri müşahidə edən ekspertlərin fikrincə, Azərbaycanda seçkilər demokratik keçirilməyib, müxalifət partiyaları qadağan olunub, qəzetlərin hamısı bağlanıb, jurnalistlər dustaqxanalarda yatırlar. Belə bir ölkədə demokratiyadan necə danışmaq olar ?**

**Heydər Əliyev:** Güman edirəm ki, cənab Manuçaryanın sualı onun Azərbaycana qarşı nə qədər qərəzli olduğunu göstərir. Birincisi, onu demək istəyirəm ki, cənab Manuçaryanın dediyi sözlərin hamısı yalandır, heç biri həqiqətə uyğun deyildir. Güman edirəm ki, o, bunların hamısını özü uydurur.

Həqiqət isə bundan ibarətdir: Azərbaycanda 30-dan çox siyasi partiya rəsmi qeydiyyatdan keçibdir. Bu partiyalar sər[58-59]bəst fəaliyyət göstərir və onların əksəriyyəti müxalifətdə olan partiyalardır. Ötən ilin noyabrındakı parlament seçkiləri həm majoritar, həm də proporsional sistem əsasında keçirilirdi və seçkilərdə 8 siyasi partiya iştirak edirdi. Bu seçkilər nəticəsində parlamentə müxalifət partiyalarından həm proporsional sistem əsasında, yəni partiyaların siyahıları ilə, həm də majoritar sistem əsasında deputatlar seçilibdir. İndi Azərbaycan parlamentində 8 partiyanın nümayəndələri təmsil olunubdur. Bəzi deputatlar barışmaz müxalifət partiyalarının nümayəndələridir.

Azərbaycanda siyasi plüralizm, mətbuat azadlığı tamamilə təmin olunubdur. Mən qəzetlərin sayını-hesabını deyə bilmərəm, bir neçə yüzdən artıq qəzet buraxılır. Budur, deyirlər ki, 560 qəzet çıxır. Bunların böyük əksəriyyəti müxalifət partiyalarına, siyasi təşkilatlara məxsus olan qəzetlərdir. Heç bir senzura yoxdur. Hansı jurnalist nə istəyirsə, onu da yazır. O cümlədən Azərbaycandakı iqtidar da çox ciddi tənqid olunur və məqalələrdə bəzən cənab Manuçaryan kimi, iqtidarın adına yalanlar, uydurmalar da söylənilir. Mən bunların hamısını normal hesab edirəm. Cənab Manuçaryanın sualını da, ümumiyyətlə, sual kimi normal hesab edirəm, əgər yalan danışmasaydı. Mən açıq deyirəm ki, Azərbaycanın həbsxanalarında bir nəfər də olsun jurnalist yoxdur. Bir il bundan öncə bir neçə gənc jurnalist yazılarında Azərbaycan prezidentini təhqir etdiyinə görə həbs olunmuşdu. Bundan sonra onlar mənə müraciət etmişdilər ki, əfv edim. Bu hadisəni biləndən sonra mən onları əfv etdim və həbsxanadan azad oldular.

Aprel ayında Bakıda Türkiyədən gəlmiş bir jurnalist həbs olunmuşdu. O, jurnalistliyinə görə yox, gecə vaxtı cinayətkarlarla birlikdə tutulduğuna görə həbs edilmişdi. Ancaq baxmayaraq ki, o, həqiqətən cinayət

etmişdi, Türkiyənin İqdır vilayəti nümayəndələrinin mənə müraciətindən sonra onu da əfv etdim, həbsxanadan azad olundu, öz vətəninə – Türkiyəyə qayıtdı.

Azərbaycanda həqiqətən demokratik hüquqi dövlət qurulur, insan hüquqları qorunur. Keçən ilin noyabrında qəbul olunmuş ilk demokratik konstitusiyanın maddələrinin üçdə biri insan haqlarının qorunmasına həsr edilibdir. Mən sizin sualınıza ümumi sözlərlə yox, faktlarla cavab verdim. Amma eyni zamanda mənə bu sualı verdiyinizə görə təşəkkür edirəm. Çünki bu, mənə imkan yaratdı ki, Azərbaycanda gedən [59-60] demokratik proseslər haqqında burada olan jurnalistlərə ətraflı məlumat verim.

**Sual: Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə əlaqədar bir neçə vasitəçilik missiyası cəhdləri olmuşdur. Siz Rusiyanın indiki rəhbərliyinin bu işə köməyini necə qiymətləndirirsiniz və vəziyyətin normal hala salınması üçün Moskva daha nə edə bilər ?**

**Heydər Əliyev:** Məsələnin sülh yolu ilə həll edilməsi üçün səkkiz il müddətində vasitəçilik rolu oynayan dövlətlər, ayrı-ayrı siyasi qurumlar həqiqətən olubdur. Şübhəsiz ki, hər bir vasitəçilik təşəbbüsü müəyyən mərhələdə bu məsələnin həll olunmasına müəyyən kömək edibdir. Amma ümumən məsələnin həllinə nail olmaq mümkün olmayıbdır.

Mən dedim ki, artıq dörd ildən çoxdur məsələnin həlli ilə bilavasitə ATƏT-in Minsk qrupu məşğul olur. 1994-cü ilin dekabrından Minsk qrupuna iki ölkə – Rusiya və Finlandiya həmsədrlik edir. Minsk qrupu çərçivəsindən əlavə, Rusiya dövləti müstəqil vasitəçilik təşəbbüsləri də göstəribdir. Eyni zamanda dünyanın böyük ölkələri – Amerika Birləşmiş Ştatları, Türkiyə və başqa ölkələr də müstəqil təşəbbüslər ediblər və vasitəçilik təklifləri veriblər. Rusiya və onun dövlət başçısı cənab Boris Yeltsin bu məsələni mənimlə bir neçə dəfə müzakirə edib və məsələnin həlli üçün bundan sonra da təşəbbüs, lazımi səylər göstərəcəkləri haqqında bəyanatlar veribdir.

Amerika Birləşmiş Ştatları da bu sahədə təşəbbüslər göstərir. Bu barədə ABŞ prezidenti cənab Bill Klintonla da görüşlərim, danışıqlarım olubdur.

Əgər sualınıza konkret cavab istəyirsinizsə ki, Rusiya bu sahədə nə edə bilər, – deyirəm ki, çox şey edə bilər və bu məsələnin həll olunmasına çox güclü təsir göstərə bilər. Prezident seçkilərindən sonra Rusiya bu məsələyə bəlkə daha da fəal qoşulacaqdır.

**"RİA–Novosti":** Mən də sizə bir sual vermək istəyirəm: Rusiyada prezident seçkiləri haqqında nə məlumatınız var ?

**Müxbir: Zənnimcə, seçkilər sakit keçir.**

**Heydər Əliyev:** Sakit keçir ? Çox gözəl.

**Sual: Cənab prezident, deyə bilərdinizmi, Almaniyada görüşləriniz zamanı konkret olaraq hansı müqavilələri imzalamısınız ?** [60-61]

**Heydər Əliyev:** Keçən ilin dekabrında Almaniyanın xarici işlər naziri, federal kanslerin müavini cənab Kinkel Azərbaycanda olarkən Almaniya ilə Azərbaycan arasında bir neçə müqavilə imzalanıbdır. Dünən də Azərbaycanın nümayəndələri cənab Kinkel ilə və iqtisadiyyat naziri ilə bir neçə müqavilə imzalayıblar. Bu müqavilələrin hamısı Azərbaycan ilə Almaniya arasında iqtisadi məsələlərin həllinə həsr olunubdur. Hesab edirəm ki, bu sənədlər iqtisadi sahədə əməkdaşlıq etməyimiz üçün yaxşı hüquqi-müqavilə əsasları yaradır.

**Sual: Cənab prezident, federal kansler ilə görüşünüz zamanı Azərbaycan üçün hansı üstün məsələlər müzakirə olunmuşdur ?**

**Heydər Əliyev:** Dünən cənab Helmut Kol ilə danışıqlarımız əvvəldən axıra qədər üstünlük verdiyimiz məsələlərlə əlaqədar olmuşdur. Çünki danışıqlarda üstünlük daşımayan heç bir məsələ müzakirə edilməyibdir. Şübhəsiz ki, danışıqlarda əsas diqqətimiz və müzakirəmiz iqtisadi əlaqələrin inkişaf etdirilməsinə yönəldilmişdi.

Almaniyanın şirkətləri, konsernləri Azərbaycanda hələlik zəif təmsil olunublar. Eyni zamanda dünən və bu gün də qeyd etdik ki, Almaniyanın "Simens" və "Mannesmann" şirkətləri XX əsrin birinci illərindən Azərbaycanda fəaliyyət göstəriblər. İndi Almaniyanın iş adamlarının, şirkətlərinin Azərbaycanda iş görmələri üçün böyük imkanlar açılıbdır, xüsusən neft sənayesi, metallurgiya, energetika, maşınqayırma, kimya sənayesi sahəsində və bir çox başqa sahələrdə. Biz bu məsələləri cənab Helmut Kol ilə müzakirə etdik və belə fikrə gəldik ki, konkret layihələr təqdim edilərkən federal kansler bunların həyata keçirilməsinə kömək edəcəkdir.

Federal kansler ilə Transqafqaz nəqliyyat magistralı haqqında da çox geniş danışıqlar apardıq. Artıq dörd ölkə – Özbəkistan, Türkmənistan, Gürcüstan və Azərbaycan belə bir magistralın yaranması üçün saziş imzalayıbdır. Transqafqaz magistralı Orta, Mərkəzi Asiyanı Avropa ilə birləşdirir, Orta Asiyadan, Xəzər dənizindən, Azərbaycandan, Gürcüstandan Qara dənizə, oradan isə Avropaya, xüsusən Dunay çayı ilə Almaniyaya qədər uzana biləcək magistraldır. Bu da üstün məsələ kimi müzakirə olunmuşdur.

Şübhəsiz ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması məsələsi danışıqlarımızın mərkə[61-62]zində durmuşdu. Qafqaz regionu, bu regionda olan ölkələr, Almaniyanın onlarla əlaqələri də üstün məsələlər kimi müzakirə edilmişdir. Görürsünüz, üstünlük daşımayan məsələlər yoxdur.

**Sual: Cənab prezident, Rusiya barədə sual vermək istəyirəm. Boris Yeltsinin xəstələnməsi ilə bağlı qayğılarınız varmı ?**

**Heydər Əliyev:** Mən bilmirəm, Boris Yeltsin xəstələnib, yaxud xəstələnməyib. Mənə belə gəlir ki, xəstələnməyib. Əgər xəstələnmiş olsa, Moskvada çox yüksək səviyyəli həkimlər, tibb xidməti var. Vaxtilə Moskvada bir çox illər yaşamış və işləmişəm. Oradakı həkimlərin və tibb xidmətinin çox yüksək səviyyədə olduğunu bilirəm. Əgər Boris Yeltsin xəstələnmiş olsa, ona mütləq lazımi yardım göstərərlər və mənim qayğıma ehtiyac yoxdur.

**Sual: Cənab prezident, biz bilirik ki, Azərbaycanda demokratiya inkişaf edir, ancaq İslam Partiyası adı altında ölkənin müstəqilliyinə qarşı fəaliyyət göstərənlər də var. Siz buna necə baxırsınız ?**

**Heydər Əliyev:** Hesab edirəm ki, bütün ölkələrdə demokratiya bərqərar olmalıdır. Son illərdə dünyada gedən ictimai-siyasi proseslər bunu sübut edir. Bizim müstəqilliyimizi isə heç kəs əlimizdən ala bilməz, bundan narahat olmayın.

Sağ olun, diqqətinizə görə təşəkkür edirəm. [62-63]

## ALMANİYANIN "DÖYÇE BANK" İDARƏ HEYƏTİ ADINDAN AZƏRBAYCAN PREZİDENTİ ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*3 iyul 1996-cı il*

*Düsseldorf*

Hörmətli cənab prezident, hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və dünyanın ən böyük banklarından biri olan "Döyçe Bank"dakı bu görüşümdən çox məmnun qaldığımı bildirirəm. Bugünkü görüşümüz təkcə "Döyçe Bank"ın rəhbərləri deyil, həm də Almaniyanın böyük şirkət, konsern və firma başçılarının iştirakı ilə keçirilir. Bu görüş mənim buraya səfərimin iqtisadi cəhətdən bir hissəsi hesab olunur.

Mənim Almaniyaya rəsmi səfərimdən məqsəd Almaniya-Azərbaycan əlaqələrini daha da sıxlaşdırmaq, genişləndirmək və bu əlaqələrin daha da inkişaf etməsi üçün əlavə tədbirlər görməkdən ibarətdir. Dövlətlərarası münasibətlərlə bağlı olan məsələləri mən hörmətli cənab federal kansler Helmut Kol ilə, hörmətli cənab federal prezident Roman Hersoq ilə və Almaniyanın rəsmi dairələrinin digər nümayəndələri ilə müzakirə etmişəm. Biz bu görüşlərdə ölkələrimiz arasındakı münasibətləri və bu münasibətlərin bütün sahələrini təhlil etdik və bir çox məsələlər barəsində eyni fikirdə olduğumuzu bildirdik. Mən bu görüşlərdən, danışıqlardan çox məmnunam, hesab edirəm ki, bu görüşlər, danışıqlar Almaniya-Azərbaycan əlaqələrini yüksək səviyyəyə qaldırdı.

Bizim görüş və danışıqlarımızda iqtisadi problemlər, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi məsələləri çox böyük yer tutur. Mən çox məmnunam ki, bu danışıqların davamı olaraq bu gün səhər Almaniyanın iş adamları ilə, biznes sahəsində çalışan şəxslərlə görüşdüm və biz çox ətraflı danışıqlar apardıq. Başqa görüşlər də oldu. Mən bir çox şirkət və konsern rəhbərləri ilə təklikdə, ayrı-ayrılıqda görüşdüm. [63-64] Nəhayət, bu gün axşam biz buraya, Düsseldorf şəhərinə, xüsusən "Döyçe bank"ın dəvəti ilə bu görüşə gəlmişik.

Bugünkü görüşümüzün ilk nəticəsi ondan ibarətdir ki, Almaniyanın "Döyçe Bank"ı ilə Azərbaycanı Milli Bankı və Beynəlxalq Bankı arasında çox əhəmiyyətli sazişlər imzalandı. Bu sazişlərin imzalanmasını mən Almaniyanın maliyyə mərkəzləri tərəfindən və xüsusən mötəbər bank olan "Döyçe Bank" tərəfindən Azərbaycan Respublikasının maliyyə-bank işinə göstərilən qayğı və diqqətin nəticəsi kimi qəbul edirəm. Eyni zamanda bu sazişləri Azərbaycan Respublikasının iqtisadiyyatında, onun maliyyə-bank işi sahəsində əldə olunan müsbət nəticələrin, görülmüş müsbət tədbirlərin, müsbət hadisələrin nəticəsi kimi qəbul edirəm. Dünyanın ən böyük banklarından biri olan "Döyçe Bank" ilə Azərbaycan banklarının saziş imzalaması Azərbaycan banklarının dünya miqyasında artıq müəyyən hörmətə malik olduğunu göstərir. Əminəm ki, bu sazişlər həyata keçiriləcək, bizim banklarla "Döyçe Bank" arasında əlaqələr bundan sonra da inkişaf edəcək, bunların hamısı Azərbaycan iqtisadiyyatının inkişafına təkan verəcəkdir.

Mən bu hadisəni yüksək qiymətləndirirəm və "Döyçe Bank"a, onun rəhbərliyinə, prezidentinə öz təşəkkürümü bildirirəm. Biz bu gün "Döyçe Bank"ın Azərbaycan Respublikasına, Azərbaycan iqtisadiyyatına çox böyük diqqətinin bir daha şahidi olduq. Hörmətli prezidentin bugünkü nitqində Azərbaycanın həm qədim tarixi, həm də XIX əsrdə onun sənaye sahəsində keçdiyi yol və əlamətdar hadisələr, Azərbaycanın indiki həyatı haqqında çox geniş məlumatlar verildi.

Bu gün "Döyçe Bank" bizə Azərbaycan haqqında iki kitab təqdim etdi. Bu kitabları bəlkə də biz özümüz hazırlamalı idik. Amma "Döyçe Bank" bizə çox kömək etmiş və bizim əvəzimizdən iqtisadiyyatımızı dünyada tanıtmaq üçün, ona diqqəti cəlb etmək üçün ölkəmiz haqqında bu cür yüksək əhəmiyyətli kitablar hazırlamışdır. Kitabın üstündə Azərbaycanın xəritəsi verilmiş, içində təkcə Azərbaycanın deyil, həm də bütün Zaqafqaziyanın xəritəsini və Xəzər dənizindən Qara dənizədək uzanan dəmiryol xəttini çox gözəl göstərmişlər. Bunların hamısı yeni yaranmış Transqafqaz magistralı haqqında mənim dünən də, bu gün də dediyim sözləri əyani surətdə nümayiş etdirir. Azərbaycana bu qədər qayğı, bu qədər diqqət, bu [64-65] qədər maraq məni çox sevindirir və bunlara görə mən sizə xüsusi təşəkkür edirəm.

Cənab prezident öz nitqində Almaniya-Azərbaycan əlaqələrinin tarixi haqqında bir neçə gözəl fakt gətirdi. Bu faktlar sübut edir ki, bizim ölkələrimiz, xalqlarımız arasında əlaqələr keçmiş zamanlarda da çox sıx olmuşdur. Biz əməkdaşlıq etmişik və hətta bir-birimizlə yan-yana yaşamışıq. XIX əsrin əvvəllərində Almaniyadan Azərbaycan torpağına köçmüş almanlar ölkəmizdə özlərinə ikinci vətən tapmışlar və Azərbaycan torpağında özləri üçün yaxşı həyat qurmuş, yaxşı işlər görmüşlər. Azərbaycanda üzümçülüyün və şərabçılığın inkişafında çox böyük xidmətlər göstərmiş, iqtisadiyyatın başqa sahələrində də çox gərəkli işlər görmüşlər. Əsrimizin əvvəlindən Almaniya şirkətlərinin Azərbaycanda fəaliyyət göstərməsi, "Simens", "Mannesmann" şirkətlərinin, Bekendorf qardaşlarının yaratdıqları şirkətlər və başqa alman nümayəndələrinin Azərbaycanda

fəaliyyət göstərməsi bizim əlaqələrimizin tarixindən xəbər verir. Bunların hamısı bu gün Almaniya ilə müstəqil Azərbaycan Respublikası arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı əsasdır.

İstəyirəm siz biləsiniz ki, biz bu əməkdaşlığa çox yüksək qiymət veririk. Biz Almaniya ilə bundan sonra da geniş miqyasda müştərək işlər görmək istəyirik, Almaniyanın iş adamlarını, şirkətlərini Azərbaycana dəvət edirik.

Bu gün biz Almaniyanın tarixi şəhərlərindən biri olan Düsseldorf şəhərindəyik. Vertolyotla Bonndan buraya uçarkən Köln kilsəsinin üstündən keçdik və mən ona diqqətlə nəzər saldım. Bu, əzəmətli bir memarlıq abidəsidir. XV əsrdən XIX əsrədək, yəni 400 il alman xalqı bu kilsəni tikib-yaradıb və minilliklər boyu bir abidə kimi qalacaqdır. Bunlar alman xalqının dünya mədəniyyətinə nə qədər böyük töhfələr verdiyini göstərir. Alman xalqının görkəmli nümayəndələri dünya elmini, mədəniyyətini zənginləşdirib, dünyanın inkişafı üçün çox xidmətlər göstəriblər. Alman xalqının nümayəndələri olan dahi yazıçılar Şillerin, Heynenin, Götenin və başqalarının əsərləri bütün dünyada oxunur. Bildirmək istəyirəm ki, onların əsərləri Azərbaycanda da Azərbaycan dilində oxunur. Böyük alman bəstəkarları Bethoven, Vaqner, Motsart, Ştraus və başqaları bütün dünya xalqları üçün əziz bəstəkarlar, əziz musiqiçilər kimi tanınıblar. [65-66]

Almaniyanın tarixi, alman xalqının dünyaya bəxş etdiyi misilsiz dəyərlər haqqında çox danışmaq olar. Ancaq bugünkü Almaniya – beş il bundan öncə birləşmiş Almaniya dünyanın həyatında, iqtisadiyyatında, siyasətində, beynəlxalq aləmdə çox mühüm rol oynayır və onun dünyada sülhün, əmin-amanlığın qorunub saxlanması işində böyük xidmətləri var. İndi Almaniya dünyanın ən böyük dövlətlərindən biridir, iqtisadi cəhətdən yüksək zirvələrə qalxıbdır. Almaniya dünyada demokratiyanın inkişaf etdirilməsində böyük xidmətlər göstəribdir. Bunların hamısı başqa ölkələr üçün, o cümlədən gənc müstəqil Azərbaycan Respublikası üçün gözəl təcrübə, örnəkdir.

Almaniyanın bu qədər inkişaf etməsində onun böyük şirkətlərinin, maliyyə mərkəzlərinin, banklarının xüsusi rolu var və bu baxımdan "Döyçe Bank"ın xüsusi rolunu biz yaxşı dərk edirik. Məhz buna görə də bu gün burada, "Döyçe Bank"da görüş bizim üçün çox əhəmiyyətlidir və hesab edirik ki, Almaniya-Azərbaycan iqtisadi əlaqələrinin inkişafında "Döyçe Bank" bundan sonra da çox böyük işlər görə bilər.

Bizə göstərdiyiniz qonaqpərvərliyə görə, diqqət və hörmətə görə mən sizə bir daha təşəkkür edir və sizi əmin edirəm ki, biz Almaniya ilə əməkdaşlığımızı daim davam etdirəcəyik və bu əməkdaşlıqda, xüsusən iqtisadi əməkdaşlıqda biz bundan sonra da yardım və məsləhət üçün "Döyçe Bank"a həmişə müraciət edəcəyik.

Rica edirəm, badələri alman xalqının şərəfinə, Almaniya Federativ Respublikasının çiçəklənməsi naminə, "Döyçe Bank"ın şərəfinə, onun rəhbərlərinin və prezidentinin şərəfinə, Almaniya-Azərbaycan əməkdaşlığının gələcək nailiyyətləri şərəfinə, sizin şərəfinizə qaldıraq. Sağ olun. [66-67]

## ALMANİYANIN "MERSEDES-BENTS" FİRMASININ İDARƏ HEYƏTİ ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*Baden-Vürtemberq*

*4 iyul 1996-cı il*

Hörmətli prezident, möhtərəm xanımlar və cənablar! Mən Almaniyaya rəsmi səfərimi başa çatdırarkən burada, şirkətinizin qərargahında olmağımdan çox məmnunam və səfərim zamanı keçirilən bu görüşü xüsusi bir görüş hesab edirəm. Sizin şirkət dünyada məşhur və ən nəhəng şirkətlərdən biridir, öz işlərinizlə dünyada böyük şöhrət qazanmısınız.

Siz bu gün mənə 1888-ci ildə istehsal etdiyiniz ilk avtomobilin modelini verdiniz. Bu, mənim üçün çox qiymətli hədiyyədir. Buna görə təşəkkür edirəm. Bununla yanaşı, bu gün burada sizinlə birlikdə olduğum zaman gördük ki, siz 1888-ci ildən 1996-cı ilədək nə qədər böyük və müvəffəqiyyətli yol keçmisiniz. Sizin istehsal etdiyiniz avtomobillər, avtobuslar, eləcə də təyyarə və vertolyotlar, digər məhsullarınız dünyanın, demək olar, bütün ölkələrində çox böyük şöhrət qazanmışdır. İndi dünyada avtomobil istehsal edən şirkətlər, ölkələr çoxdur. Amma hamı etiraf edir ki, "Mersedes" kimi keyfiyyətli və gözəl avtomobili hələ heç kəs icad edə bilməyibdir. Ola bilər ki, sizin rəqibləriniz mənim bu fikrimlə razılaşmasınlar. Lakin Azərbaycan vətəndaşlarının ümumi fikri belədir. Şəxsən mən də bu fikirdəyəm. Ona görə də Azərbaycanda mənim minik avtomobilim sizin şirkətin buraxdığı maşındır.

Mən sizi bu nailiyyətləriniz münasibətilə təbrik edirəm. Siz böyük işlərinizlə bütün dünyanı heyran qoyursunuz. Eyni zamanda bu nailiyyətlərə baxmayaraq, qarşınıza çox böyük vəzifələr də qoymusunuz. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz o vəzifələrin hamısını müvəffəqiyyətlə həyata keçirəcəksiniz. Mənim Almaniyaya bu dörd günlük rəsmi səfərimin [67-68] əsas məqsəd və mənası Almaniya-Azərbaycan əməkdaşlığını və xüsusən iqtisadi əməkdaşlığı genişləndirmək və daha yüksək səviyyələrə qaldırmaqdır. Bu baxımdan sizin şirkətlə Azərbaycan arasında əməkdaşlığa da çox böyük yer veririk.

Siz qeyd etdiniz ki, "Mersedes-Bents"in Azərbaycanda nümayəndəliyini açmısınız və əməkdaşlıq edirsiniz, Azərbaycana yeni tipli avtobuslar satılmasına dair təkliflər irəli sürmüsünüz. Şübhəsiz ki, bunların hamısı diqqətəlayiq hallardır. Amma mən bizim əməkdaşlığımızı daha geniş görmək istərdim. Siz dünyanın bir çox ölkələrində öz müəssisələrinizi yaratmısınız. Bu baxımdan Azərbaycan sizin üçün çox əlverişli bir ölkədir və biz bu sahədə əməkdaşlıq edə bilərik. 1981-82-ci illərdə Azərbaycanda böyük bir avtomobil zavodu tikməyə başladıq. Lakin bu müəssisənin tikintisi başa çatdırılmadı və yarımçıq qaldı. Halbuki inşaat işlərinin əksər hissəsi görülmüş, böyük istehsal sahələri yaradılmışdır. Zənnimcə, bu imkandan bizim birlikdə istifadə etməyimiz barədə düşünmək lazımdır. Təklif edirəm ki, öz mütəxəssislərinizi göndərəsiniz və bu məsələnin mümkünlüyünü təhlil və müzakirə edək. İstehsal sahəsindən savayı, başqa imkanlar da var.

Mən istərdim ki, bu gün sizin şəhərinizə, sizin bu böyük müəssisənizə gəlişim turist gəzintisi xarakteri daşımasın. Mən hər bir səfərimi əməli işlə nəticələndirmək istəyirəm. Şübhəsiz ki, bu iş də sizdən yeni bir avtomobil almaqla bitmir. Ondan ötrü buraya gəlmək bəlkə də lazım deyildi. Siz avtomobili hər yerdə satırsınız və onu hər yerdə də almaq olar. Mənim məqsədim sizinlə əməkdaşlığın əsaslarını yaratmaqdır. Ona görə də sizə bu təklifləri verirəm. Əmin ola bilərsiniz ki, biz sizin üçün etibarlı ortaq ola bilərik. Mən qarşınıza qoyduğunuz bütün vəzifələrin həyata keçirilməsini, bütün məsələlərin həll edilməsini arzulayıram. Sizin şirkətinizə, nəhəng istehsal sahələrinizə, işçilərinizin hamısına uğurlar diləyirəm.

Mənə dedilər ki, Baden-Vürtemberq şərabı ən keyfiyyətli şərabdır. Dediniz ki, bu şərabı ancaq özünüz içirsiniz və başqalarına vermirsiniz. Bizə bu şərabdan verdiyinizə görə təşəkkür edirəm. Bu gözəl şərabla doldurulmuş badələri sizin gələcək uğurlarınız şərəfinə qaldırıram. Sağ olun. [68-69]

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ BORİS NİKOLAYEVİÇ YELTSİN CƏNABLARINA**

Hörmətli Boris Nikolayeviç!

Seçkilərdə qəti qələbə çalmağınız və yenidən Rusiyanın prezidenti seçilməyiniz xəbərindən çox məmnun oldum. Şadam ki, rusiyalıların qərarı Moskvadakı və Kislovodskdakı sammitlərdə ifadə etdiyimiz arzular və nümayiş etdirdiyimiz rəğbət hissi ilə tam şəkildə üst-üstə düşmüşdür.

Azərbaycan və Rusiya çoxəsrlik əlaqələrlə bir-birinə bağlıdırlar və Rusiya xalqının hansı inkişaf yolunu seçəcəyinə biz heç də laqeyd deyilik. Sevindirici haldır ki, Rusiya xalqı sizin demokratik, bazar islahatları xəttinizi dəstəklədiyini qəti ifadə etmişdir.

Rusiyalıların qərarı təkcə Sizin böyük ölkəniz üçün deyil, həm də bütün dünyada demokratiyanı, sabitliyi, sülhü və tərəqqini əziz tutanların hamısı üçün çox böyük tarixi əhəmiyyəti olan hadisədir.

Əminəm ki, Rusiyada islahatlar və demokratikləşdirmə prosesləri Sizin rəhbərliyinizlə daha da inkişaf edəcək və keçid dövrünün çətinlikləri müvəffəqiyyətlə aradan qaldırılacaqdır.

Mən bu tarixi qələbə münasibətilə Sizi və Sizin simanızda bütün Rusiya xalqını ürəkdən təbrik edirəm. Sizə və bütün rusiyalılara möhkəm cansağlığı, sülh və firavanlıq arzulayıram.

Əminəm ki, Rusiya ilə Azərbaycan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri hər iki xalqın rifahı naminə, regionumuzda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*5 iyul 1996-cı il* [69-70]

## BAKIDA YENİ TELEQÜLLƏNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*6 iyul 1996-cı il*

Hörmətli həmvətənlər, bacılar, qardaşlar! Hörmətli xanımlar və cənablar!

Bu gün ölkəmizin – Azərbaycanın həyatında əlamətdar bir hadisə baş verir. Ölkəmiz, respublikamız xalqımız üçün çox böyük əhəmiyyəti olan, Azərbaycanın ictimai-siyasi həyatında böyük rol oynaya biləcək, uzun illər ərzində inşa olunan radio-teleötürücü, radio-teleqüllə nəhayət, xalqımızın, millətimizin istifadəsinə verilir. Bu hadisə münasibətilə mən sizi və bütün Azərbaycan xalqını, Azərbaycan vətəndaşlarını ürəkdən təbrik edirəm.

Ölkədə elə tikintilər, qurğular, obyektlər olur ki, onlar müəyyən bir sahəyə xidmət edirlər. Dünya ümumiyyətlə, quruculuqla, tikib-yaratmaqla yaşayıb, inkişaf edibdir. Yer üzərindəki təbii sərvətlər təbiət, ilahi tərəfindən yaradılıbdır. Ancaq, torpağın, yerin, kürreyi-ərzin üzərində yüz illərlə, min illərlə qurulanlar insanların zəhməti, iradəsi, zəkası, onların əlləri ilə yaradılıbdır.

Biz tarixi keçmişimizə nəzər salarkən ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla – yaradılan hər şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı bildiririk. Vaxtilə onlar bəzi binaları elə yaradıblar ki, bunlar əsrlərdən-əsrlərə keçib, keçmişi bugünkü nəsillərə tanıdıbdır, eyni zamanda yüz il, min il bundan öncə olduğu kimi, indi də yaradılanların arasında cürbəcürləri var. İnsanlar özləri üçün ev tikir, yaşayışları üçün müəyyən şərait yaradırlar. Bu, ayrı-ayrı insanlara məxsusdur. Eyni zamanda insanlar yığışıb cə[70-71]miyyət üçün lazım olan ayrı-ayrı binalar, saraylar, istehsal müəssisələri və yollar, son əsrləri götürsək, müasir texnikaya uyğun yüksək səviyyəli qurğular tikirlər. Bunlar da çox vaxt ayrı-ayrı sahələrə xidmət edir, onları inkişaf etdirir.

Ancaq dünyanın hər yerində, o cümlədən bizim Azərbaycanda da elə tikintilər, elə abidələr var ki, onlar bütün xalqa, ölkəyə xidmət edir. Bunlardan biri, ola bilər, ən əhəmiyyətlisi də Azərbaycanın bu gün istifadəyə verilən ilk nəhəng radio-televiziya qülləsi, radio-televiziya ötürücüsüdür. Bunun mahiyyətini bəlkə də hamı olduğu kimi dərk edə bilmir. Mahiyyət ondan ibarətdir ki, bu, ölkəmiz, xalqımız üçün çox lazımlı qurğudur, amma eyni zamanda hər bir insan, vətəndaş üçündür. Bu qurğu bütün xalqa xidmət edir. İndi radio-televiziya elə bir vasitədir ki, onsuz, demək olar, yaşamaq mümkün deyildir.

Azərbaycanda 70 il əvvəl radio verilişləri, 40 il bundan öncə televiziya verilişləri başlanıbdır. Bunlar bütün xalqa xidmət edir və ölkəmizin, cəmiyyətin həyatında elə bir yer tutub ki, onun əvəzini heç bir şey verə bilməz. Çünki radio və televiziya vasitəsilə insanlar dünyada baş verən hadisələri dərhal bilir, öyrənirlər. Radio və televiziya ilə insanlar musiqi və bədii əsərlərlə tanış olurlar. Radio və televiziya onların həyatında şənlik, xoş əhval-ruhiyyə yaradır. Radio və televiziya vasitəsilə ictimai-siyasi proseslər hər bir insana, vətəndaşa çatır. Bunların vasitəsilə insanlar ən yüksək əhəmiyyətə malik olan siyasi məlumatlarla yanaşı, ayrı-ayrı adi məlumatları da alırlar. Radio və televiziya insanları təsirləndirir, onların təkmilləşməsinə, mənəviyyatca inkişafına kömək edir, dünyaya gözünü açır, onları bütün dünya ilə birləşdirir. İnsan öz evində, otağında oturaraq, radio və televiziya ilə bütün dünyanı eşidir, görür, dünyanın, Azərbaycanın hər bir guşəsini hiss edir, ölkəmizin gündəlik, hər saatlıq, hər dəqiqəlik həyatının nəbzini hiss edir.

Belə bir vasitə bəşər tarixində əvəzolunmazdır. Təsadüfi deyil ki, indi dünyada radio və televiziya Yer kürəsinin hər yerini əhatə edibdir. Hər bir ölkə çalışır ki, bu sahəni inkişaf etdirsin, radio və televiziya vasitəsilə insanlara gündən-günə [71-72] daha da çox xidmət etsin. Bu, eyni zamanda hər bir ölkənin, dövlətin mədəni səviyyəsini göstərir. Bax, buna görə də biz Azərbaycanda radio və televiziya yaranan zamandan bəri onun maddi-texniki bazasını inkişaf etdirməyə çalışmışıq. Çünki radio və televiziya elə bir vasitədir ki, onun maddi-texniki imkanları nə qədər zəngin, güclü olsa, verilişlər də o qədər keyfiyyətli, maraqlı, insanlar üçün daha da xoşagəlimli olar. Ona görə də biz radio və televiziyanın maddi-texniki bazasını daim inkişaf etdirərək bu verilişlərin keyfiyyətini artırmağa, eyni zamanda dairəsini genişləndirməyə çalışmışıq.

Əgər ilk vaxtlar, 40 il bundan öncə Azərbaycanda televiziya verilişləri başlanarkən təkcə Bakını, – bəlkə də paytaxtın hər yerini yox, – əhatə edirdisə, indi biz Azərbaycanın hər bir nöqtəsini bu verilişlərlə əhatə edirik. Məsələn, ərazi cəhətdən Azərbaycandan müəyyən qədər aralı düşmüş, Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında son illər baş vermiş hadisələrlə, telekommunikasiya xətlərinin kəsilməsi ilə əlaqədar, televiziya verilişlərinin ötürülməməsi, – mən orada yaşadığım illərdə bunu hiss edirdim, – oranın əhalisini nə qədər şeylərdən məhrum edirdi. Orada yaşayan insanların, – mən bunu öz şəxsi həyatımda hiss etdim, – televiziya verilişlərinə ola bilər ki, çörək, su kimi ehtiyacları var idi. Bu verilişlər günlərlə, aylarla Naxçıvana çatmayanda insanlar elə bil ki, dünyadan ayrılmış vəziyyətdə idilər.

Ona görə də biz çalışırdıq və nail olmuşduq ki, radio kimi, televiziya da Azərbaycanın hər bir nöqtəsini, ən ucqar yerini də əhatə etsin. Yenə də deyirəm, təxminən 1988-ci ildən sonra baş vermiş hadisələr bu

imkanlarımızı pozubdur. Ancaq buna baxmayaraq axırıncı iki-üç ildə yenə çalışırdıq ki, bunu bərpa edək və çoxlarını da bərpa etmişik, bundan sonra da bərpa edəcəyik.

Məhz bu baxımdan da 70-ci illərin axırında belə fikrə gəldik ki, özümüzdə olan bu radio-televiziya ötürücüsü artıq müasir tələblərə cavab vermir. O vaxtlar Sovetlər İttifaqının bir neçə mərkəzi şəhərində, şübhəsiz ki, birinci növbədə paytaxtda – Moskvada çox hündür televiziya qülləsi tikildi. Biz də çalışdıq ki, belə bir radio-televiziya qülləsi Azərbaycanda da [72-73] tikilsin. Şübhəsiz ki, bu, asan deyildi. Bunun üçün vəsait lazım idi, o vaxt o qədər təcrübə də yox idi, lazımi qurğular, cihazlar da gərək idi. Ancaq biz bunlara nail olduq və artıq 70-ci illərin sonunda bir neçə layihəyə baxandan onları müzakirə, təhlil edəndən sonra məhz indi tikintisi başa çatmış radio-televiziya qülləsinin layihəsini qəbul etdik.

Bir də qeyd edirəm, həmin günləri xatırlayıram, – bu, çox mürəkkəb proses idi. Bir tərəfdən, vəsait əldə etmək lazım idi, ikinci tərəfdən yararlı, təkcə 70-ci illərin sonunun – 80-ci illərin əvvəlinin tələblərinə deyil, gələcəkdə də uzun illər tələblərə cavab verən belə bir qurğunun layihəsi lazım idi. Eyni zamanda bunun üçün lazımi avadanlıq, çox həssas cihazlar gərək idi. Bunlar bizdən böyük vaxt, iş, sərvətlər tələb etdi. Biz bunların hamısını etdik və nəhayət, Azərbaycan üçün çox lazımlı olan radio-televiziya qülləsinin tikintisinə başladıq.

O vaxt bizim planımız belə idi ki, bu tikintini ən çoxu 4-5 il içərisində başa çatdıraq. Bu da tamamilə real idi, imkanlarımız var idi. Çünki biz 70-ci illərdə nəinki respublikamızda, eləcə də bütün keçmiş Sovetlər İttifaqında nümayiş etdirmişdik, sübut etmişdik ki, Azərbaycanda nəhəng istehsal müəssisələri, yaşayış binaları, mədəniyyət abidələri, elektrik stansiyaları, yollar, yaxud da başqa böyük, nəhəng qurğular, tikintilər çox qısa müddətdə tikilib başa çatdırıla bilər. Məsələn, indi 20 il sonra da Azərbaycanda böyük şöhrət qazanmış Bakı kondisioner zavodunu biz cəmi iki ilə tikdik. Onun iki ildə inşa edilib başa çatdırılmasına o vaxt Sovetlər İttifaqında heç kəs inanmırdı. Ona görə də təsadüfi deyildi ki, həmin zavod ziyarətgaha çevrilmişdi. Sovet İttifaqının hər yerindən maraq göstərib gəlirdilər ki, görsünlər, həqiqətdirmi ki, belə nəhəng zavod, – Sovetlər İttifaqının başqa yerlərində onu bəlkə də on ilə tikərdilər, – belə az müddətdə tikilmişdir. Biz onun bütün avadanlığını Yaponiyadan almışdıq. Hətta sənaye cəhətdən çox inkişaf etmiş Yaponiya kimi bir ölkə belə zavodu bu cür qısa müddətdə tikə bilməmişdi. Amma biz tikdik. Təkcə bu zavod deyildir. Respublika sarayını götürün. İyirmi beş ildir ki, o, Azərbaycan xalqına xidmət edir. Biz onu cəmi 2 ilə başa çatdırdıq. Başqa binalar, zavodlar – neftayırma, maşınqayırma zavodları da var. Bunların hamısını biz iki, üç, dörd ilə tikib başa çatdırdıq. Vaxtilə nəhəng elektrik stansiyaları tikdik. Bütün bunlar bizdə böyük ənənəyə çevrilmişdi, böyük təcrübə qazanmışdıq. Biz artıq öz imkanlarımızı da bilir, özümüzə [73-74] inanır və bilirdik ki, radio-televiziya qülləsini də qısa müddətdə tikib başa çatdıracağıq.

Ona görə də 1981-ci ildə bu tikintiyə çox inamla başladıq. O vaxtdan 15 il keçibdir. O günləri xatirimə salır və qeyd etmək istəyirəm ki, ola bilər, bütün başqa tikintilərdən – mədəniyyət, elm, təhsil ilə əlaqədar tikintilərdən fərqli olaraq, bu qüllənin tikintisinə xüsusi fikir verirdim. Onu çox əhəmiyyətli hesab edirdim və xüsusi nəzarətə götürmüşdüm. Çox arzusunda idim ki, onu tez tikib qurtarım. Burada artıq deyildi, – təəssüflər olsun ki, sonra tikinti tamamilə dayandırılmışdı. Dayandırılan tikinti də şübhəsiz ki, nəinki gecikir, hətta tikilənlər də get-gedə dağılır, xarab olur, keyfiyyətini itirir.

Allaha şükürlər olsun ki, son iki il müddətində bu tikintiyə böyük təkan verdik və o artıq başa çatdırılıb. Siz də, sizinlə bərabər mən də çox böyük iftixar, məmnuniyyət hissi ilə buraya toplaşmışıq və Azərbaycanın fəxri olan radio-televiziya qülləsinin, ötürücüsünün açılışında iştirak edirik. Bu hadisə münasibətilə sizi bir daha təbrik edir və əmin olduğumu bildirmək istəyirəm ki, bu radio-televiziya qülləsi Azərbaycan xalqına, müstəqil Azərbaycan Respublikasına on illərlə, bəlkə də yüz illərlə xidmət edəcəkdir.

Şübhəsiz ki, bunun tikilməsində çox zəhmət çəkənlər var. Mən bu işi başlayanlardan, təşəbbüskarlardan çoxunun adını bilərəm. Ancaq onlardan biri o illərdə Azərbaycanın rabitə naziri Hüseyn Rəsulbəyov idi. O, bu işə sadəcə olaraq bir nazir kimi başlamışdı. Ancaq şübhəsiz ki, bu iş bir nazirliyin deyil, bütün dövlətin, hökumətin, Azərbaycan Respublikası rəhbərliyinin işi idi. O vaxt biz bir çox inşaat təşkilatlarını bu işə cəlb etdik. İndi vaxt uzanıbdır, əgər qısa bir müddət olsaydı, deyə bilərdik ki, burada kim, hansı mərhələdə nə iş görübdür. Amma o vaxtdan on beş il keçibdir. 1981-ci ildə bu işin təməlini qoyanlar var, biz onları da yad etməliyik. O illərdə bu tikinti ilə məşğul olmuş fəhlələr, quraşdırıcılar, mühəndislər, cürbəcür mütəxəssislər var, onları da yad etməliyik. Xüsusən son iki-üç il müddətində bu işin sürətlənməsində iştirak edənlərin hamısını yada salmalıyıq.

Mən bu tikintinin, bu qüllənin həm təməl daşını qoyanlara, [74-75] həm o gündən indiyə qədər burada çalışmış adamların hamısına, bütün təşkilatlara, inşaatçılara, quraşdırıcılara, bütün mütəxəssislərə, mühəndislərə minnətdarlığımı, təşəkkürümü bildirirəm. Sağ olsunlar! Kim bu qurğunun tikilməsində az da olsa, çox da olsa zəhmət çəkibsə, o, xalqına, millətinə və gələcək nəsillərə xidmət edibdir. Burada iştirak edən hər kəsin öz payı var, heç kəsin payını unutmaq olmaz və burada hər kəsin gördüyü işə layiqli qiymət vermək lazımdır. Burada çalışmış adamlara bir daha təşəkkür edir və Azərbaycan Respublikasının, xalqımızın qarşısında onların xidmətlərini yüksək qiymətləndirirəm.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonra radio-televiziya qülləsi etibarlı əllərdə olacaq və ondan çox səriştəli, səmərəli istifadə ediləcəkdir. Yenə də qeyd edirəm, bütün başqa tikintilərdən fərqli olaraq,

bunun xüsusiyyəti bir də ondan ibarətdir ki, bu qurğu daim işləyir. Yəni bu tikintinin, indi artıq istehsal-rabitə müəssisəsinin, radio-televiziya müəssisəsinin bir dəqiqə də olsun dayanmağa imkanı yoxdur. Yəni dayana bilməz, – bu, adam fəaliyyət göstərən, daim işləyə bilən bir müəssisədir. Ona görə, bir də deyirəm, bu qurğudan istifadə olunması çox səriştəlik tələb edir. Bundan istifadəyə çox ehtiyatla, diqqətlə yanaşmaq lazımdır. Əgər hansısa bir zavod, fabrik, yaxud istehsal müəssisəsi və ya başqa müəssisə nə vaxtsa işləməsə, onu təmir etmək olar, müəyyən vaxt saxlamaq olar. Amma burada bunu etmək mümkün deyildir. Bu qüllə istifadəyə verilirsə, daim işləməli, fəaliyyətdə olmalı, bu obyektə təhkim edilən adamlar daim onun üzərində çalışmalıdırlar.

Ona görə də on beş il müddətində tikilmiş belə dəyərli sərvətimiz bundan sonra etibarlı əllərdə olmalı, etibarlı istifadə edilməlidir və buna çox ehtiyatla, qayğı ilə yanaşmaq lazımdır. Əmin olduğumu bildirmək istəyirəm ki, Rabitə Nazirliyi və Azərbaycan Televiziya və Radio Verilişləri Şirkəti, – bu qurğudan onlar istifadə etməlidirlər, – eyni zamanda qüllənin istifadəsinə cəlb olunan bütün təşkilatlar öz məsuliyyətlərini başa düşəcəklər. Böyük çətinliklə, respublikamızın bu ağır döv[75-76]ründə tikilib qurtarmış və indi istifadəyə verilən radio-televiziya qülləsindən səmərəli istifadə olunacaqdır.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, bugünkü mərasimdən sonra Azərbaycanın bütün vətəndaşları respublikamızda radio-televiziya verilişlərinin keyfiyyətində dəyişikliklər görməlidirlər. Bunu hər bir kəs hər gün izləyəcəkdir. Bir vətəndaş kimi mən də izləyəcəyəm. Ona görə də Rabitə Nazirliyi, Teleradio Verilişləri Şirkəti, başqa təşkilatlar hesab etməsinlər ki, bu gün buraya yığışdıq, təntənə ilə mərasim keçdi, bir-birimizi təbrik etdik, – bununla da qurtardı, radio-televiziya verilişləri əvvəlki keyfiyyətdə olacaqdır. Bilirsiniz, siz cavabdeh olacaqsınız. Cavabdehliyin də məsuliyyəti çox yüksəkdir, onu bilin. Buraya bir belə xərc qoyulub, bir belə zəhmət, əziyyət çəkilibdir, camaat, xalq on beş il bunu gözləyibdir. Biz bunun bəhrəsini, nəticəsini görməliyik. Ona görə də mən heç şübhə etmirəm ki, belə olacaqdır. Ancaq keçmiş təcrübələrə görə eyni zamanda xəbərdarlıq da edirəm ki, hərə öz məsuliyyətini bilsin. Bilsin ki, qüllədən istifadə olunması üçün bundan sonra Rabitə Nazirliyinin, Teleradio Verilişləri Şirkətinin və başqa təşkilatların üzərinə çox böyük məsuliyyət düşür.

Radio-televiziya qülləsi eyni zamanda böyük bir memarlıq abidəsidir. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Bakını əsrlər boyu quranlar, yaradanlar bugünkü və gələcək nəsillər üçün gözəl bir şəhər salıblar. Biz Bakı şəhəri – ölkəmizin paytaxtı ilə haqlı olaraq fəxr edirik. Onun bütün xüsusiyyətlərinə görə fəxr edirik. Eyni zamanda onun təbii gözəlliyinə, memarlıq gözəlliyinə görə fəxr edirik. Bakını quranlar, yaradanlar bu işi doğrudan da ürəklə, namusla görüblər. Şübhəsiz ki, burada pərakəndəlik də, səhvlər də olubdur. Sonrakı nəsillər bunları aradan qaldırır. Hesab edirəm ki, biz də təxminən son iyirmi beş ildə Bakını daha da gözəl etmək, onun zahiri görünüşünü daha da gözəlləşdirmək üçün çox işlər görmüşük. Ancaq hər halda Bakı əsrlərdən-əsrlərə gözəl qurulub, gözəl yaradılıbdır. Bakının yerləşdiyi təbii ərazinin də gözəlliyi var, eyni zamanda burada yaradılmış abidələr, binalar da Bakıya xüsusi gözəllik verir. [76-77] Ona görə də Bakıdakı böyük memarlıq abidələri bizim milli iftixarımızdır.

Bu gün burada, Bakının ən yüksək nöqtələrindən biri olan bir yerdə yaradılmış radio-televiziya qülləsi Bakını daha da gözəlləşdirir. Bu, yeni bir abidə, memarlıq abidəsidir. Güman edirəm ki, gələcək nəsillər indiyə qədər yaranmış abidələr kimi, bu abidəni də qiymətləndirəcəklər. Bu baxımdan radio-televiziya qülləsinin Azərbaycan və onun paytaxtı üçün çox böyük əhəmiyyəti var. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu abidə qorunub saxlanacaq, onun zahiri və daxili görünüşü bundan sonra görülməli tədbirlərlə daha da gözəlləşdiriləcək və o, şəhərimizin həqiqətən ən yüksək nöqtəsində olan bir memarlıq abidəsi kimi daim bizə fərəh verəcəkdir. On beş il bundan öncə təməli qoyulmuş və bu gün istifadəyə verilən bu qüllə bu baxımdan Azərbaycan və Bakı üçün böyük milli sərvətdir.

Mən bu qüllənin tikintisinin nəhayət başa çatmasından həddindən artıq məmnunam. Bilirsiniz, mən bir neçə il Azərbaycandan çox uzaqlarda olduğum zaman o illər ki, Azərbaycanla əlaqəm tamam qırılmışdı və Azərbaycana uzaqdan həsrətlə baxırdım, – çox şey haqqında düşünürdüm. O cümlədən bəzi ayrı-ayrı adamlar Bakıdan Moskvaya gələn zaman onlarla görüşərkən soruşurdum ki, filan tikintinin vəziyyəti nə yerdədir və xüsusən radio-televiziya qülləsinin tikintisi ilə maraqlanırdım. Çox narahat idim ki, bu tikinti niyə yarımçıq qalıbdır. Amma bu gün çox xoşbəxtəm ki, biz bunu başa çatdırmışıq. Bu gün həddindən artıq sevinc içindəyəm, güman edirəm ki, siz də sevinirsiniz, bütün xalqımız da sevinir.

Sizi bir daha təbrik edir, bu qüllənin yaranmasında zəhmət çəkən insanların, təşkilatların hamısına təşəkkür edirəm. Qüllədən uğurla istifadə ediləcəyinə əmin olduğumu bildirmək istəyirəm. Sağ olun, xoşbəxt olun. [77-78]

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ NƏCMƏDDİN ƏRBAKAN CƏNABLARINA**

Hörmətli cənab baş nazir!

Sizi Türkiyə Respublikasının baş naziri seçilməyiniz və qurduğunuz hökumətin Türkiyə Böyük Millət Məclisindən etimad səsi alması münasibətilə səmimi qəlbdən təbrik edirəm. Sizə və qardaş türk xalqına səadət və firavanlıq arzulayıram.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasındakı qardaşlıq və əməkdaşlıq əlaqələri daim genişlənəcək və xalqlarımızın rifahına xidmət edəcəkdir.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*9 iyul 1996-cı il* [78-79]

## "ULUSLARARASI QAYNAQLARDA NAXÇIVAN" BEYNƏLXALQ SİMPOZİUMUNUN İŞTİRAKÇILARINA

Hörmətli simpozium iştirakçıları!

Sizi – "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun iştirakçılarını səmimi qəlbdən salamlayır, sizin bu dəyərli təşəbbüsünüzü ürəkdən alqışlayıram.

Azərbaycanın siyasi, iqtisadi, mədəni və elmi həyatında özünəməxsus mühüm rol oynamış və oynamaqda olan Naxçıvanın qədim və çox zəngin tarixi vardır. Hər daşı, qayası, tarixin canlı şahidi olmuş bu torpaq bir çox dünya şöhrətli alim və mütəfəkkirin, memar və ədibin, dövlət xadimi və sərkərdənin vətəni olmuşdur. Onların fəaliyyəti və irsinin bəşər tarixində əvəzsiz rolu danılmazdır. Naxçıvan memarlıq məktəbi isə uzun əsrlər boyu Şərqin aparıcı məktəblərindən biri olmuşdur.

Öz əlverişli coğrafi mövqeyi, təkrarolunmaz mədəniyyət və incəsənət abidələri, istedadlı alim və ədibləri ilə seçilən bu diyar dünyanın bir çox tarixçi, səyyah və alimlərinin diqqətini cəlb etmiş, onların əsərlərində dərin iz qoymuş və özünəməxsus yer tutmuşdur. Həmin qaynaqların araşdırılması, onlarda Naxçıvan haqqında qeyd olunmuş məlumatların toplanıb tədqiq və nəşr olunması Azərbaycan tarixinin obyektiv elmi şəkildə işlənib hazırlanması üçün misilsiz əhəmiyyət kəsb edir.

Hal-hazırda ağır blokada şəraitində yaşayan Naxçıvanda bu beynəlxalq simpoziumun keçirilməsi onun elmi ictimaiyyətinin, bütün Naxçıvan əhalisinin öz mətanətli, fədakar sələflərinin layiqli davamçıları olduqlarına dəlalət edir. İnanıram ki, sizin zəhmətiniz gözəl bəhrələr verəcək, gənclərdə yüksək vətənpərvərlik hissinin formalaşması, doğma Azərbaycanımızın müstəqilliyinin qorunub möhkəmləndirilməsi, onun Dünya Birliyində layiqli yer tutması işinə xidmət edəcəkdir.

Əziz simpozium iştirakçıları!

Simpoziumun açılışı münasibətilə hamınızı təbrik edir, işinizdə böyük uğurlar, hər birinizə xoşbəxtlik və yeni-yeni nailiyyətlər arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*10 iyul 1996-cı il* [79-80]

## "AVROPA ŞURASI VƏ AZƏRBAYCAN RESPUBLİKASI ARASINDA ƏMƏKDAŞLIQ PROQRAMININ HƏYATA KEÇİRİLMƏSİ TƏDBİRLƏRİ HAQQINDA" RESPUBLİKA PREZİDENTİNİN SƏRƏNCAMININ YERİNƏ YETİRİLMƏSİ MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*10 iyul 1996-cı il*

Məlumdur ki, iyunun 28-də Avropa Şurası Azərbaycan Respublikasına xüsusi qonaq statusu verilməsi haqqında qərar qəbul edibdir. Bu, respublikamızın həyatında böyük bir hadisədir. Bu, bir tərəfdən Azərbaycanın Avropaya mənsub olduğunu təsdiq edir və eyni zamanda müstəqil respublikamızda mövcud olan dövlət sisteminin, respublika ictimaiyyətinin, həyatının, qanunlarının, ölkəmizin tutduğu yolun demokratiya yolu olduğunu və Azərbaycanda gedən proseslərin demokratiya prinsipləri əsasında davam etdiyini təsdiq edir.

Bilirsiniz ki, biz Azərbaycanda dövlət quruculuğunda, cəmiyyətdə, iqtisadiyyatda, həyatımızın bütün sahələrində ölkəmizi demokratiya yolu ilə aparmaq haqqında qərarlar qəbul etmişik, bəyanatlar vermişik. Bu sahədə böyük işlər görülüb və görülür. Bunların hamısının dünya ictimaiyyəti tərəfindən tanınması, xüsusən dünyanın inkişaf etmiş dövlətləri tərəfindən, həm iqtisadi cəhətdən, həm də dövlət quruculuğunda demokratik prinsiplər əsasında inkişaf etmiş dövlətlər tərəfindən tanınması və nəhayət, bu nailiyyətlərin, dəyişikliklərin, proseslərin Avropa Şurası tərəfindən tanınması bizim üçün çox əhəmiyyətlidir.

Yenə də deyirəm, bu, bir tərəfdən, beynəlxalq aləmdə, demokratiya aləmində Azərbaycan Respublikasının nüfuzunu, imicini nümayiş etdirir, ikinci tərəfdən də bu yolla getmək üçün bizə həvəs verir, kömək edir. Ona görə də, təkrar edi[80-81]rəm, mən bunu əlamətdar bir hadisə kimi qeyd edərək, sizin hamınızı, Azərbaycan Respublikasının vətəndaşlarını, xalqımızı təbrik edirəm.

Bu qərar haqqında bizə məlumat gələndən sonra mən iyulun 1-də Almaniyaya səfərə getdim. Ona görə də bu gün keçirdiyimiz müşavirə dərhal olmadı. Ancaq eyni zamanda, səfərdə olarkən mən Almaniyanın prezidenti cənab Roman Hersoq, federal kansler cənab Helmut Kol, federal kanslerin müavini, xarici işlər naziri cənab Klaus Kinkel ilə, Bundestaqda Almaniya-Qafqaz qrupunun sədri cənab Vimmer, Buntestaqın sədr müavini, Bundestaqın başqa üzvləri ilə görüşlərimdə onlar hamısı Azərbaycanın məhz demokratiya, bazar iqtisadiyyatı yolu ilə getdiyinə görə məmnun olduqlarını bildirdilər və bunu məmnuniyyətlə təsdiq etdilər, o cümlədən Azərbaycanın aprel ayında Avropa Birliyi ilə imzaladığı sazişdə, respublikamızın Avropa Şurası tərəfindən qonaq statusu almasına yüksək qiymət verdilər.

Bunu da qeyd etmək istəyirəm ki, federal kansler cənab Kol mənimlə təkbətək danışığı zamanı bu məsələləri xüsusi vurğuladı. Bir daha deyirəm ki, bu, bizim üçün əlamətdar hadisədir, hesab edirəm ki, dövlətçilik işlərimizdə, ictimai-siyasi həyatımızda nailiyyətdir. Eyni zamanda bu, bizim üzərimizə çox böyük vəzifələr qoyur. İndi biz bu istiqamətdə irəliyə gedərək, şübhəsiz, çalışmalıyıq ki, Avropa Şurasına tamhüquqlu üzv olmağa nail olaq. Güman edirəm ki, biz buna da nail ola bilərik. Çünki tutduğumuz strateji yol, gördüyümüz işlər, əməli fəaliyyətimiz buna imkan verir. Şübhəsiz ki, bundan sonra da bu sahədə çox işlər görmək lazımdır.

Avropa Şurasının respublikamız haqqında qəbul etdiyi bu qərarla əlaqədar üzərimizə düşən vəzifələrin həyata keçirilməsi üçün mən iyulun 8-də xüsusi bir sərəncam imzalamışam. Bu sərəncam mətbuatda dərc olunubdur. Sərəncamdan irəli gələn vəzifələrin və ümumiyyətlə, Avropa Şurasının qəbul etdiyi qərarla bağlı üzərimizə düşən vəzifələrin həyata keçirilməsi ilə əlaqədar mən sizi buraya dəvət etmişəm.

Bu barədə xarici işlər naziri qısa bir məlumat versin. Sonra bu sərəncamın mətbuatda dərc olunmasına baxmayaraq, mən istərdim ki, Şahin Əliyev bunu bir daha oxusun ki, biz vəzifələri, kimin hansı işi görməli olduğunu müəyyən edək. [81-82]

### YEKUN SÖZÜ

Hesab edirəm ki, bu sənəd mətbuatda dərc olunandan sonra sərəncamdan irəli gələn vəzifələrin həyata keçirilməsi həvalə olunmuş təşkilatların, orqanların hamısı işə başlayıblar. Ancaq mən bu məsələyə xüsusi fikir verərək sərəncamın mətbuatda dərc olunmasına baxmayaraq onun bu gün burada bir daha oxunmasını lüzumlu hesab etdim. Buraya toplaşanlara bir daha müraciət edirəm ki, bu məsələlərlə təxirə salınmadan çox ciddi və

ardıcıl surətdə məşğul olmaq lazımdır. Ona görə də Nazirlər Kabineti, prezidentin İcra Aparatı, Xarici İşlər Nazirliyi və ayrı-ayrı nazirliklər, Milli Məclisin komissiyaları, bəzi komissiyaların nümayəndələri buraya dəvət olunubdur, – Milli Məclis bu işlərlə ciddi məşğul olmalıdır. Görülən bu işlərin hamısı bir-biri ilə bağlı həyata keçirilməlidir.

Bilirsiniz, biz gərək bu birinci nailiyyətimizi möhkəmləndirməyə çalışaq və Avropa Şurasının tamhüquqlu üzvü olmağa nail olaq. Hesab edirəm, iş təkcə ondan ibarət deyil ki, biz xüsusi qonaq statusu almışıq, sonra da üzv olaq. İş ondadır ki, bunların hamısı respublikamızın siyasi, ictimai, iqtisadi həyatında böyük dəyişikliklər üçün lazımdır. Bu dəyişiklikləri etmək, bu prosesləri gücləndirmək üçün lazımdır, təkcə ona görə yox ki, bir imtahan verdik, o biri imtahanı da verək. Yox, məsələ imtahanda deyil. Bu, birinci növbədə bizim özümüzə lazımdır.

Dərk etməliyik, – bir halda ki, biz tutduğumuz bu yol ilə gedirik, qanunlarımızı dünyanın demokratik qanunlarına uyğunlaşdırırıq, dövlət quruculuğu sistemimizi, cəmiyyətimizi dünyanın demokratik ölkələri və cəmiyyətləri, dövlətləri səviyyəsinə qaldırmaq istəyirik, demək, onları mütləq həyata keçirməliyik. Bunlar da kiminsə xoşuna gəlmək və onun respublikamıza "bəli, siz yaxşı ölkəsiniz" deməsi üçün yox, sadəcə olaraq ölkəmizin həyatını kökündən dəyişdirmək, dövlətimizi istədiyimiz səviyyəli dövlət etmək üçün və iqtisadiyyatımızı, insanların sosial vəziyyətini, rifah halını yaxşılaşdırmaq, iqtisadiyyatımızda ciddi dəyişikliklər aparmaq üçün lazımdır. Bunlar hamısı bir-biri ilə bağlı, kompleks şəkildə olan tədbirlərdir və bunları da kompleks şəkildə aparmalıyıq. [82-83]

## "TORPAQ İSLAHATI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI QANUNU LAYİHƏSİNİN MÜZAKİRƏSİNƏ HƏSR EDİLMİŞ İCLASDA GİRİŞ SÖZÜ

*Prezident Sarayı*

*12 iyul 1996-cı il*

Hörmətli komissiya üzvləri, mətbuat nümayəndələri!

Bu gün respublikada iqtisadi islahatların həyata keçirilməsi prosesində çox mühüm bir mərhələyə gəlib çatmışıq. Torpaq islahatının aparılması üçün qanun layihəsi artıq işlənib hazırlanıb. Buna görə də mən bu gün vaxtilə aqrar islahatların aparılması üçün yaradılmış iki komissiyanın birgə iclasını çağırmışam, yəni həmin iki komissiyanın üzvlərini buraya dəvət etmişəm. Gündəlikdə duran məsələ hazırlanmış qanun layihəsinin müzakirə edilməsidir. Bu məsələnin çox böyük əhəmiyyəti olduğuna görə bizim bugünkü toplantıya, komissiyaların iclasına mətbuat nümayəndələrini də dəvət etmişəm.

Bildiyiniz kimi, respublikanın aqrar sektorunda islahatların aparılması haqqında biz 1993-cü ilin ikinci yarısından ciddi addımlar atmağa başlamışıq və bu məsələ daim bizim diqqətimizdə olubdur, bununla əlaqədar bir çox tədbirlər həyata keçirmişik. İqtisadi islahatların, xüsusən aqrar sahədə islahatların bir tərəfdən mürəkkəb, ikinci tərəfdən çox məsuliyyətli olduğunu nəzərə alaraq biz ardıcıl iş ilə bərabər, dünya təcrübəsini və xüsusən keçid dövründə yaşayan ölkələrin təcrübəsini də öyrənməyə çalışmışıq. Bu islahatları səriştəli aparmaq üçün biz bir neçə eksperimentlər də keçirmişik. Bu islahatların aparılması ilə əlaqədar qanunların hazırlanması üçün vaxtilə komissiyalar yaratmışıq. Uzun müddət aparılan iş nəticəsində 1994-cü ilin dekabrında Arif Rəhimzadənin sədrliyi altında komissiya yaradılıbdır. Bildiyiniz kimi, bu komissiyanın bir il müddətində apardığı işin nəticəsində aqrar sektorda islahatlar və kolxozların, sovxozların islahatı haqqın[83-84]da iki qanun layihəsi hazırlanmışdır. Biz həmin qanun layihələrini vaxtilə ətraflı müzakirə etdik. Mən onları təqdim etdikdən sonra bu layihələr Milli Məclisdə müzakirə edildi və qəbul olundu.

Bu qanunların həyata keçirilməsi üçün 1995-ci ilin martında Abbas Abbasovun sədrliyi altında yeni bir komissiya yaradıldı. Bu komissiya həmin iki qanunun həyata keçirilməsini təmin etmək, eyni zamanda bu iqtisadi islahatların daha da dərinləşdirilməsi, həm də yeni qanunun hazırlanması işində iştirak etmək üçün yaranmışdır. Hər iki qanun qəbul edildikdən sonra onların həyata keçirilməsi ilə əlaqədar aparılan işlər nəticəsində biz belə bir fikrə gəldik ki, əgər torpaq islahatı haqqında qanun olmasa bu qanunların həyata keçirilməsi müvəffəqiyyətli olmayacaq. Ona görə də biz torpaq islahatı haqqında qanun layihəsinin hazırlanması işi ilə ciddi məşğul oluruq.

Məlumdur ki, torpaq islahatı haqqında qanun sadə bir qanun deyil. Bu, çox mürəkkəb, demək olar ki, respublikanın iqtisadiyyatının böyük bir sahəsini əhatə edən bir məsələdir. Odur ki, bu qanun layihəsinin hazırlanması çox ciddi münasibət tələb edir.

Bu müddətdə – 1994, 1995, 1996-cı illərdə kənd təsərrüfatına həsr olunmuş müşavirələrdə, toplantılarda, iclaslarda biz həmin islahatların həyata keçirilməsi ilə əlaqədar məsələləri daim müzakirə etmişik. Nəhayət, torpaq islahatı ilə əlaqədar qanunun layihəsi hazır olubdur. İyunun 24-də mən bu iki komissiyanın birgə iclasını keçirdim və təqdim olunmuş qanun layihəsi müzakirə edildi. Müzakirə zamanı bir neçə çox prinsipial məsələlər diqqət mərkəzində oldu. Bu məsələlər barədə müxtəlif fikirlər var idi. Ona görə də bir daha düşünmək, vəziyyəti təhlil etmək və cəsarətli qərarlar qəbul etmək lazımdır.

Xatirinizdədir ki, iyunun 24-də keçirilən iclasda hər iki komissiya – Arif Rəhimzadənin və Abbas Abbasovun başçılıq etdiyi komissiyalar mənim tapşırığımla layihə hazırlayıb təqdim etmişdilər. O vaxt mən tapşırıq verdim ki, birincisi, bu layihələr birləşdirilsin, hər bir layihədə olan əhəmiyyətli müddəalar vahid bir layihədə əks etdirilsin. Müxtəlif fikir doğuran, qəbul olunması bəzən çətinlik doğuran məsələlər haqqında da mən öz göstərişlərimi verdim. O vaxt biz qərara gəldik ki, [84-85] bu layihə iyulun 5-də mənə təqdim ediləcək və biz də bundan sonra bu layihəyə baxacağıq. Layihə təqdim edildi, iyulun 10-da mən demək olar ki, bütün günümü bu layihə üzərində işə həsr etdim. Biz komissiyanın rəhbərləri və digər şəxslərlə bu layihəni başdan-ayağa bir daha təhlil etdik, mən əlavə göstərişlər verdim. Bu göstərişlər nəticəsində layihə hazırlanıb. Dünən göstəriş vermişəm ki, layihə komissiyanın üzvlərinə paylansın. Mənə dedilər ki, paylanıbdır, biz bugünkü müzakirəmizi bu layihə üzərində aparaq.

Hesab edirəm ki, Arif Rəhimzadə bu layihə haqqında, ümumiyyətlə, bu layihənin hazırlanması prosesi haqqında məlumat versin və bundan sonra müzakirəyə başlayaq.

# YEKUN NİTQİ

Bu gün biz həqiqətən çox tarixi bir addım atırıq. Azərbaycanda köklü surətdə torpaq islahatı aparmaq üçün indiyədək gördüyümüz işləri yekunlaşdırırıq və qanun layihəsinin son variantını müzakirə edib, onun Milli Məclisdə qəbul olunmasından ötrü qərar çıxarırıq.

Bu, tarixi hadisədir. Çünki son illərdə Sovet İttifaqı dağılandan sonra onun yerində yaranmış müstəqil dövlətlər müxtəlif yollarla iqtisadi islahatlar aparırlar. Əlbəttə, bu islahatlar həyatın zərurətindən irəli gəlir, ona görə ki, indi bütün ölkələr, daha doğrusu, keçmiş sovet respublikaları, o cümlədən də Azərbaycan sosialist iqtisadi quruluşundan, sosialist sistemindən yeni iqtisadi-siyasi sistemə keçir və bu keçid də əsla asan deyildir. Ona görə də bu illər axtarış illəridir və ayrı-ayrı ölkələrdə, ayrı-ayrı respublikalarda müxtəlif yollarla islahatlar aparılır.

Hesab edirəm ki, islahatların ən mürəkkəb sahəsi aqrar sektordur. Bəllidir ki, Sovet İttifaqının dağılması nəticəsində dövlətlər müstəqillik əldə etdikdən sonra beş ildir aqrar sektorda islahatlar aparılması yolunda axtarışlar gedir, təcrübə toplanır, müəyyən tədbirlər görülür. Ancaq hələlik ki, köklü tədbirlər heç də hər yerdə görülmür.

Bilirsiniz ki, biz bu məsələyə 1993-cü ilin axırlarından başlamışıq. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra ölkədə bu sahədə lazımi işlər görülməmişdi. 93-cü ilin sonundan biz bu işlərlə bilavasitə məşğul olmağa başladıq. Lakin 94-cü ili yadınıza salsanız görərsiniz ki, həmin il həm [85-86] Azərbaycanın müdafiəsi ilə, Ermənistanın təcavüzünün qarşısının alınması ilə çox məşğul idik, həm də respublikanın daxilində vəziyyət sabit və normal deyildi. 93-cü ilin may və iyun aylarında başlamış vətəndaş müharibəsi, daxili toqquşma və çəkişmələr hələ dayandırılmamışdı. 94-cü ildə bunların hamısı cürbəcür şəkildə özünü büruzə verirdi. Şübhəsiz ki, bunlar da iqtisadiyyat sahəsində lazımi tədbirlər görülməsinə maneçilik törədirdi.

Digər tərəfdən, cəmiyyətimizdə də, dövlət orqanlarında da bu barədə yekdil fikir yox idi. Bəzi qüvvələr, hesab edirdilər ki, islahatlar aparılmamalıdır. Bəziləri də Azərbaycan torpaqlarının işğal olunması problemini öz məqsədləri naminə ortaya ataraq fikirlərini əsaslandırmağa çalışırdılar ki, guya belə bir vəziyyətdə islahatlar aparmaq olmaz, torpaq islahatı aparmaq olmaz, respublika əhalisinin bir qismi öz yerindən-yurdundan olubdur, qaçqındır və onların da halını nəzərə almaq lazımdır. Şübhəsiz ki, onların da vəziyyətini nəzərə almalıyıq. Ancaq həmin fikirləri söyləyən adamlar heç də nə qaçqınlar haqqında düşünürdülər, nə də işğal olunmuş torpaqlar haqqında. Onların hər biri öz şəxsi mənafelərini, öz şəxsi məqsədlərini güdərək respublikanın bu vəziyyətdən çıxmasına mane olurdu.

Ona görə də 94-cü ildə biz bu sahədə çox cəhdlər göstərdik. Amma bu islahatların güclü surətdə aparılmasına bütün şəraiti yarada bilmədik. Bir tərəfdən də həm daxildə fikir müxtəlifliyi, həm də başqa ölkələrin, xüsusən keçmiş Sovet İttifaqına mənsub olmuş indiki müstəqil ölkələrin təcrübəsini öyrənmək zərurəti – bütün bunlar bu məsələlərlə əlaqədar ciddi addımlar atmağı və onlara çox həssas, ehtiyatlı yanaşmağı tələb edirdi. Bu, təbiidir. Çünki əgər tarixə nəzər salsaq görərik ki, yer üzündə insanlar yarandıqları vaxtdan torpaqla məşğul olublar və torpaq da onlara mənsub olubdur. Bunun cürbəcür formaları məlumdur. Lakin torpaq şəxsi mülkiyyət olubdur.

Bizim ərazimizdə, yəni Azərbaycan yerləşən ərazidə, keçmiş Sovet İttifaqının olduğu ərazidə 1917-ci il Oktyabr inqilabından sonra gedən proseslər 1930-cu ildə kollektivləşmə proqramının həyata keçirilməsinə gətirib çıxardı. O vaxtlar, yəni Oktyabr inqilabından sonra bizə məlum olan prinsip belə idi ki, bütün torpaqlar milliləşdirilməli, öz sahiblərinin əlindən alınmalıdır. Oktyabr inqilabının bəyan etdiyi şüarlardan biri bu idi ki, torpaq kəndliyə verilməlidir, kəndli torpağın sahibi [86-87] olmalıdır. Lakin həmin şüarın həyata keçirilməsi ona gətirib çıxardı ki, torpaq onun sahiblərinin, mülkədarların əlindən alındı. Eyni zamanda torpaq kollektivləşdirildi, özü də nəinki torpaq, hətta bütün kənd təsərrüfatı vasitələri, istehsal müəssisələri kollektivləşdirildi.

1917-18-ci illərdə başlanmış olan bu proses 1930-cu ildə kollektivləşmə proqramının geniş surətdə həyata keçirilməsi ilə nəticələndi. Mən bununla onu demək istəyirəm ki, bu məsələnin çox mürəkkəb olduğu bunda da görünür. Çünki həmin Oktyabr inqilabının, sosialist inqilabının proqramını bir ilə, iki-üç ilə həyata keçirmək mümkün olmadı. Bundan ötrü illərlə vaxt lazım idi. Odur ki, illərlə iş aparıldıqdan sonra 1930-cu ildə kollektivləşmə proqramı irəli sürüldü və geniş tətbiq edilməyə başlandı. Bildiyiniz kimi, ondan sonra kollektivləşmə də bir neçə ildə həyata keçirildi və nəhayət, 1936-cı ildə, yəni ilk konstitusiya qəbul edilən zaman bəyan olundu ki, sosializm qalib gəlmiş, torpaqlar kollektivləşdirilmiş və kollektiv təsərrüfatlar yaradılmışdır. Gördüyünüz kimi, buna nə qədər vaxt sərf edilib.

Bütün bu tədbirlər asanlıqla həyata keçirilmədi. Repressiyalar aparıldı, torpaqları əldən verməyən adamlar həbs olundu, yurd-yuvalarından sürgün edildi. Bizim Azərbaycanda nə qədər adam məhz kollektivləşmə prosesinə müqavimət göstərdiyinə görə azadlıqdan məhrum edildi, həbsxanalara salındı, yerlərindən sürgün olundu. Məsələn, indi biz Orta Asiya ölkələrində olarkən, yaxud oradakı soydaşlarımız buraya gələrkən maraqlanırıq, – necə oldu ki, azərbaycanlılar Qazaxıstanda da, Özbəkistanda da, Qırğızıstanda da, Türkmənistanda da yaşayırlar? Onların böyük əksəriyyəti hələ o dövrdə repressiyalar nəticəsində və xüsusən

kənd təsərrüfatının kollektivləşdirilməsi ilə əlaqədar yerlərindən kütləvi surətdə sürgün edilmiş, mal-mülkü əlindən alınmış adamlardır. Bu kollektivləşdirmə proqramı bax, belə böyük itkilərlə, böyük məhrumiyyətlərlə, cəmiyyətə, xalqımıza, millətimizə vurulan ağır zərbələrlə həyata keçirildi və kolxoz-sovxoz sistemi yaradıldı.

Bu kolxoz-sovxoz sistemi o vaxtdan indiyədək hökm sürür. Hələ indi də bizdə kənd təsərrüfatının çox hissəsi kolxoz-sovxoz sistemindədir. Elə bir dövr oldu ki, kolxoz-sovxoz sisteminin inkişaf mərhələsində, şübhəsiz, dövlət tərəfindən verilən müxtəlif dotasiyalar, kömək sayəsində Sovet İttifaqında, o [87-88] cümlədən də Azərbaycanda kənd təsərrüfatı məhsulu artdı və böyük nəticələr əldə edildi.

Mən sizə deyə bilərəm ki, 1970-ci illərin sonunda – 1980-ci illərin əvvəlində kənd təsərrüfatında, onun inkişafında durğunluq yarandığı, inkişaf sürətinin zəiflədiyi, kənd təsərrüfatının daha bu yolla inkişaf etdirilməsinin mümkün olmadığı özünü aydın büruzə verirdi. Yadınızdadır, o vaxtlar Sovet hökuməti kənd təsərrüfatını canlandırmaq, inkişaf etdirmək üçün, kənd təsərrüfatı məhsulları istehsalını artırmaq üçün bir neçə tədbir gördü, qərarlar qəbul etdi. Xatirimdədır, 1978-ci ildə ərzaq proqramı adlı böyük bir proqram qəbul olundu. Bu, sizin də yadınızdadır. Böyük tədbirlər görülür, kənd təsərrüfatının təmərküzləşdirilməsi, ixtisaslaşdırılması kimi cürbəcür metodlar tətbiq edilir, təsərrüfatlararası müəssisələr, təsərrüfatlararası təşkilatlar yaradılır, kooperasiya həyata keçirilirdi və s. Bunların hamısı mənim yadımdadır. Bütün bunlar nədən meydana gəldi? Çünki məsələn, 30-cu, 40-cı illərdə yaradılmış kolxoz və sovxozlar 50-60-cı illərdə və 70-ci illərin sonuna qədər istənilən miqdarda məhsul versələr də, sonralar gözlənilən məhsul əldə olunmadı və nəticədə məhsul artmaq əvəzinə getdikcə azalmağa başladı.

Ona görə də kənd təsərrüfatı sahəsində cürbəcür metodlara əl atılırdı. Xatirimdədir, 1982-ci ilin may ayında yeni böyük bir ərzaq proqramı qəbul edildi. Belə nəzərdə tutulmuşdu ki, bu proqram guya bir neçə ildə kənd təsərrüfatında böyük dönüş yaradacaqdır. Amma yaranmadı. Mən nəinki burada rəhbər kimi, həm də Sovet İttifaqının rəhbərlərindən biri kimi bu proseslərin içində idim. Məsələn, 1983-84-cü illərdə Sovet İttifaqını çörəklə təmin edə bilmədiyimizə görə hər il xaricdən taxıl almağa məcbur idik və taxıl almaq üçün də vəsait tapılmırdı. Yaxşı ki, o vaxtlar Sovet İttifaqında çoxlu neft çıxarılırdı və ildə 20 milyon ton neft artımı olurdu. Bu nefti də, qazı da, – o vaxtlar Qərbdə qaz yox idi, sataraq xaricdən taxıl, buğda alıb ölkəni çörəklə təmin edirdik. Yadınızdadırmı, o vaxtlar çörək çatışmamağa başladı. Əhalini çörəklə, ətlə təmin etmək üçün talonlar meydana çıxdı.

Bütün bunları ona görə yadınıza salıram ki, mən sizə və ümumiyyətlə, cəmiyyətimizə çatdırmaq istəyirəm ki, bu sistemin artıq özünü doğrulda bilməməsi 70-ci illərin sonunda – 80-ci illərin əvvəlində aşkar məlum oldu. Odur ki, cürbəcür axtarışlara başlandı. Bunların hamısı yenə də sosialist iqtisadi [88-89] sistemi çərçivəsində gedirdi. Amma o sistemin çərçivəsində bu axtarışlar, bu tədbirlər və eksperimentlərin əksəriyyəti heç bir nəticə vermirdi. Həmin proseslər çox ağır və çətin olduğu üçün, 30-cu illərdə yaranmış kolxoz-sovxoz quruluşuna insanların əksəriyyəti çox öyrəşdiyi üçün təkcə Azərbaycanda deyil, keçmiş Sovet respublikalarının əksəriyyətində bu islahatların aparılmasında çox çətinliklər meydana çıxdı. Bir də ona görə ki, çoxlarında belə təsəvvür, belə əhval-ruhiyyə yaranmışdı ki, bu kolxoz-sovxoz quruluşu olmasa hər şey dağılacaqdır.

Bu çətinliklər bizdə daha çox, daha ağır olubdur, ona görə ki, bir tərəfdən, respublikamız müharibə şəraitində olubdur, digər tərəfdən isə o dövrdə, yəni 91-93-cü illərdə, eləcə də 94-cü ildə Azərbaycanın daxilində gedən müxtəlif proseslər vəziyyəti gərginləşdirmişdir. Dedim ki, artıq 94-cü ildə bu islahatların aparılması üçün biz ciddi addımlar atmağa başladıq və bu islahatların həyata keçirilməsinin zəruri olduğu dəfələrlə bəyan edildi. Kənd təsərrüfatı məsələlərinə dair bir neçə böyük müşavirədə, müxtəlif səviyyələrdə keçirdiyimiz toplantılarda mən dəfələrlə bəyan etdim ki, bizim bütün iqtisadiyyatın inkişafında tutduğumuz strateji yol iqtisadiyyatı bazar iqtisadiyyatı yolu ilə irəlilətməkdən, iqtisadi islahatlar aparılmasından, o cümlədən də aqrar sektorda islahatlar həyata keçirilməsindən ibarətdir.

Məhz bu tədbirlərin nəticəsində biz 1994-cü ilin sonunda artıq aqrar islahatların aparılması haqqında müəyyən qanun layihələrini hazırlaya bildik. 94-cü ilin dekabr ayında mən bu qanun layihələrinin qəti şəkildə işlənib hazırlanması üçün komissiya yaratdım. Arif Rəhimzadə ona sədr təyin olundu. Əvvəllər və bu komissiya yaradıldıqdan sonra görülmüş işin nəticəsində artıq 95-ci ilin fevral ayında aqrar sektorda islahatlar aparılması haqqında iki çox mühüm qanun qəbul etdik. Bu qanunların icrası üçün, aqrar islahatların həyata keçirilməsini təşkil etmək üçün ikinci komissiya yaradıldı, Abbas Abbasov ona sədr təyin edildi. 95-ci ildə biz aqrar sektorda islahatlar aparılması haqqında fevral ayında qəbul edilmiş iki qanunun icrası ilə, eyni zamanda torpaq islahatının daha köklü surətdə həyata keçirilməsi üçün torpaq islahatı haqqında qanun layihəsi hazırlanması ilə məşğul olduq. Bunların nəticəsində də bu gün müzakirə etdiyimiz qanun layihəsi bir neçə dəfə müzakirə olunduqdan sonra və respublikamızın bir neçə yerində müxtəlif eksperimentlər keçirildikdən sonra, o cümlə[89-90]dən Zaqatala, Xızı rayonlarında eksperimentlərin nəticələri təhlil edildikdən sonra belə bir qanun layihəsinin meydana çıxması vaxtı gəlib çatdı.

Son mərhələdə də bu qanun layihəsində bir neçə mübahisəli məsələ oldu. Onları həll etmək üçün biz nümayəndələrimizi Orta Asiya respublikalarına, Qazaxıstana, Moldovaya, Ukraynaya, Rusiyaya göndərdik ki, onların təcrübəsi ilə tanış olaq. Son mərhələdə mən belə fikrə gəldim ki, bizim nümayəndələr Rusiyanın Oryol, Nijni-Novqorod vilayətlərinə də getsin və onların da təcrübəsini öyrənib gətirsinlər.

Yenə deyirəm, bunların nəticəsində bir neçə məsələ mübahisəli qaldı. Ona görə ki, məsələn, keçmiş Sovet respublikalarının əksəriyyətində torpaq xüsusi mülkiyyətə verilməyib və onların belə bir fikri də yoxdur. Məsələn, Orta Asiya ölkələrində və Qazaxıstanda torpağı uzunmüddətli icarəyə verirlər – əlli ilə və bəlkə də daha çox müddətə. Onlar həyətyanı torpaqları xüsusi mülkiyyətə veriblər. Digər keçmiş Sovet respublikalarına nisbətən Rusiya islahatlar sahəsində daha irəli getsə də, orada vilayətlərin tam əksəriyyətində aqrar sektorda kolxoz və sovxozlar indiyədək yaşayır və torpağın xüsusi mülkiyyətə verilməsi haqqında bu vaxtadək heç bir qanun yoxdur. Bildiyiniz kimi, Dövlət Duması bir neçə ay bundan öncə Torpaq Məcəlləsi haqqında qanun qəbul etdi və burada qəti şəkildə göstərdi ki, Rusiyada torpaq xüsusi mülkiyyətə verilə bilməz. O qanunun əleyhinə olaraq seçkiqabağı mübarizə zamanı Rusiya prezidenti cənab Boris Yeltsin bir fərman verdi ki, həyətyanı torpaqlar vətəndaşların xüsusi mülkiyyətinə verilsin. Ancaq başqa bir qanun hələ yoxdur. Düzdür, həmin Torpaq Məcəlləsi prezident tərəfindən qəbul olunmayıb və Federasiya Şurası onu geri qaytarıbdır. Onu demək istəyirəm ki, kənd təsərrüfatı sahəsində də böyük imkanları və nailiyyətləri, geniş torpaq sahələri olan Rusiya kimi bir ölkədə də belə qanun qəbul edilməyibdir.

Ona görə də Azərbaycanda da cürbəcür fikirlər var ki, torpağı xüsusi mülkiyyətə vermək olar, ya yox, onu bəlkə icarəyə verək? Lakin əvvəldən xəttimiz belə olub ki, əgər biz bazar iqtisadiyyatı yolu ilə gediriksə, deməli, bazar iqtisadiyyatı prinsiplərini də tətbiq etməliyik. Biz bu məsələni, nəhayət, həll etdik və bununla razı olmayanlar da, onu qəbul edə bilməyənlər də artıq bunu qəbul etdilər. Sonra məsələ qalxdı, bu da çox mübahisəli oldu; torpaq kimə verilsin? Kənddə yaşayanla[90-91]rın hamısına, yoxsa, ancaq kolxoz və sovxozda işləyənlərə verilsin? Burada fikir ayrılığı çox böyük rol oynayır. Biz bu məsələni də müzakirə etdik və bu barədə də belə fikrə gəldik ki, kənd yerlərində yaşayanların hamısına torpaq verilsin. Bu, ədalətlidir.

Mən əvvəldən bu fikirdə idim. Bilirsinizmi, bu məsələlər barəsində şəxsən mənim müstəqil fikrim daim olub. Torpağın xüsusi mülkiyyətə verilməsi fikrində mən bu gün yox, lap əvvəldən olmuşam. Lakin eyni zamanda mən bu islahatların aparılması barədə ictimai rəyin də formalaşmasını istəyirəm.

Bilirsiniz, əgər Oktyabr inqilabından, 1920-ci ildən sonra, zorla, inqilabi yolla, repressiyalarla insanları kolxoza girməyə məcbur ediblərsə, torpaqları zorla, repressiyalarla insanların əlindən alıblarsa, indi biz həmin işlərin əksinə apardığımız tədbirlərdə nə zor işlətməliyik, nə də təzyiqlər etməliyik. Biz çalışmalıyıq ki, insanlar dərk etsinlər, anlasınlar. Məsələn, 70-ci illərin sonunda Sovetlər İttifaqında aqrar sektorda yaranmış vəziyyəti, gedən prosesləri və o vaxt görülən tədbirləri yada salın. Ola bilər, adi adamlar bunu bilmirdilər, dərk etmirdilər. Amma bu işlərin içində olan adamlar, o cümlədən mən də o illərdə bilirdim ki, artıq bu sistem işləmir, biz nə isə düşünməliyik, nə isə etməliyik.

Bu gün burada Masallıdan çıxış edən, bizim komissiyanın üzvü, hesab edirəm ki, bir tərəfdən torpaqda işləyən, o biri tərəfdən də artıq bu işlərin nəticəsini görən adam kimi çox dəyərli sözlər dedi. O mənada dəyərli ki, bu şəxs torpaqdan bu cür istifadə edir, onun yollarını görür, üstünlüyünü, müsbət nəticəsini görür. Ona görə də onun çıxışı başqaları üçün, o cümlədən bizim komissiyanın üzvlərinin də bəziləri üçün bəlkə də ən təsirli çıxışdır, nəinki, məsələn, mən deyim ki, prezidentəm, mən bunu belə istəyirəm, belə də olmalıdır. Onun bu sözü mənim əmr kimi sözümdən daha da təsirlidir.

Ona görə siz də bilməlisiniz, ictimaiyyət də bilməlidir ki, bütün bu islahatların keçirilməsində kütlənin bunu qavraması, buna alışması, ictimaiyyətin buna alışması əsasdır. Yenə də deyirəm, bizim komissiyalar elə böyük tərkibdə deyil, iki komissiya bir yerdə cəmi 45 adamdır. Amma bu 45 adamın arasında məsələlərin əksəriyyəti barədə çox müxtəlif fikirlər vardır. Məsələn, ola bilərdi ki, mən öz fikrimi əvvəldən komissiyanın üzvlərinə qəbul etdirəydim və vəzifəmə, eyni zamanda mənə olan hörmətə görə onların bəziləri səsini çıxarmayaydı [91-92] ki, bir halda prezident belə deyib, biz nə edək, prezidentin fikri ilə razılaşmaq lazımdır. Amma mən istəmirəm belə olsun. İstəyirəm ki, hər bir kəs – komissiyanın üzvü də, başqası da bunu dərk etsin.

Təsadüfi deyil ki, mən bir neçə dəfə müraciət etdim ki, fikrinizi, sözünüzü deyin. Çıxış edənlərin əksəriyyəti mənim dəfələrlə təkidimdən sonra danışdı. Hesab edirəm ki, deyilən sözlərdə səmərəli fikirlər var. Düzdür, onlara cavab vermək, onları aydınlaşdırmaq olar, bəlkə bəzi fikirlər haqqında düşünmək lazımdır. Məsələn, Biləsuvarın icra hakimiyyətinin başçısı bir səpkidə, Masallıdan olan fermer isə ona əks səpkidə çıxış etdi. İcra hakimiyyətinin başçısı narahatdır ki, torpaq necə olacaq, onu satmağa icazə vermək olmaz, başqa adamların əlinə keçər. Yaxud bu işin üzərində nəzarət qoymaq lazımdır. Amma fermer, – hansı ki, torpaqda işləyir, xüsusiyyətçiliyi, sahibkarlığı artıq dərk edib, – deyir ki, qorxmaq lazım deyildir.

Bax, mən bunu istəyirəm, ona görə də sizə dəfələrlə dedim ki, çıxış edin. Məsələn, əgər mən Abbas Abbasovun mövqeyində olsaydım ki, hər şey aydındır, – yəqin ki, bu üsulla işləyir, başqalarının fikri ilə hesablaşmır, – mən də deyərdim ki, hər şey aydındır. Əgər səsinizi çıxarmırsınızsa, söz demirsinizsə, demək, sizin üçün aydındır. Bax, buna görə də biz bu məsələləri – kənddə torpağın hamıya verilməsi, yaxud kolxozda, sovxozda işlədilməsi məsələlərini ətraflı müzakirə etdik.

Qəbul edilən qərar da tamamilə doğrudur – hamı torpaq almalıdır. Başqa məsələdir ki, torpaqdan kim necə istifadə edəcək, – bu, ikinci məsələdir. Torpaq hamıya verilməlidir.

Layihədə son günlərə qədər bir fikir var idi, onu son günlərdə çıxardıq. Biləsuvarın icra hakimiyyəti başçısının fikrinə uyğun fikir idi, yazılmışdı ki, üç il müddətində torpağın satılmasına məhdudiyyət qoyulsun.

Mən komissiya üzvlərinə dedim ki, bu məsələni müzakirə edək. Yaxşı, torpağı payladıq, torpağı aldılar, üç il də məhdudiyyət qoyduq ki, sən bunu sata bilməzsən. Nə etsin? Sata bilməyəcək, istifadə edə bilməyəcək, torpağa vergi qoyacaqlar, onu da verə bilməyəcəkdir. Nə etsin – satmağa qoymursan, istifadə də edə bilmir. Bizim torpaq islahatına bunun xeyri nədir? Axı torpaq islahatının əsas məqsədi ondan ibarətdir ki, torpağı xüsusi mülkiyyətə verib, sahibkarlıq hissi yaradıb onun məhsuldarlığını artıraq. Yenə [92-93] də deyirəm, Masallının fermeri bu barədə mənə çox kömək edir, onun dediyi sözlərə dəfələrlə istinad edirəm.

Deyək ki, biri torpağı alıb istifadə etdi. O birisi istifadə etmədi və torpaq istifadəsiz qaldısa, – məhsul gəlmədi. Tutaq ki, torpaq sahibi məhsul almadı, yaşayışını yaxşılaşdıra bilmədi, bu, onun öz işidir. Amma axı, bu, ümumən ölkəmizə, dövlətimizə zərər vuracaqdır. Ona görə də mən qəti mövqe tutdum ki, üçillik qadağanı götürmək lazımdır. Bir halda ki, biz, torpağı veririk, o adam torpağın sahibidir, – nə cür istəyirsə, elə də istifadə etsin. Əgər istifadə edə bilmirsə, sata da bilər. Mənə belə gəlir ki, burada təhlükəli heç bir şey yoxdur.

Burada fikirlər söylənildi ki, ola bilər, sonra torpaq ayrı-ayrı adamların əlinə keçsin, filan olsun. Şübhəsiz ki, bu sözlərdə müəyyən əsas var. Ancaq bunların heç birisi apardığımız islahatların qarşısını almamalı və bizi qorxutmamalıdır.

Burada dəfələrlə deyildi, mən də bu fikirlə razıyam, onu təsdiq etmək istəyirəm ki, bu, radikal torpaq islahatı aparmaq üçün bizim layihəmizdir. Güman edirəm, bir neçə günə qəbul olunar, qanun şəklinə düşər, onun icrasına başlayarıq. Ancaq bu, bir neçə qanunun qəbul olunması üçün yol açacaqdır. Onu icra etmək üçün bir neçə başqa qanun da qəbul olunmalıdır. Şübhəsiz ki, bu qanun qəbul olunandan sonra onun icrası üçün prezident kimi mən geniş fərman verəcəyəm. Fərmanda qanunun icrası ilə əlaqədar bir çox tədbirlər nəzərdə tutulacaqdır. Ancaq əlavə qanunlar da qəbul ediləcəkdir. Eyni zamanda həmin qanunlar da bu məsələlərin hamısını tənzimləməsə, biz cürbəcür əlavələr, dəyişikliklər də edə biləcəyik. Bunlar hamısı bizim gələcək işlərimizdir. Ancaq əsası ondan ibarətdir ki, bu layihəni qanun şəklinə salaq və həyata keçirilməsi ilə məşğul olaq.

Hesab edirəm ki, bu, inqilabi, radikal bir addımdır. Biz respublikamızda bazar iqtisadiyyatından dəfələrlə danışırıq. Bilirsiniz, bunun cürbəcür sahələrdə müxtəlif formaları var. Özəlləşdirmə haqqında proqram qəbul etmişik, o, indi həyata keçirilir, çox ləng gedir. Dövlət Əmlak Komitəsi, onun sədri Tofiq Əzizov da, bu işlərin görülməsində bir neçə səhv buraxıb, işi ləng aparır. Ancaq bu, bir neçə sahədə mülkiyyətin özəlləşdirilməsidir. Məsələn, birinci növbədə ticarət, xidmət sahələri, sonra sənaye, istehsal sahələri, başqa sahələrdir.

Amma respublikamızda ən böyük özəlləşdirmə, mülkiyyət formasında ən böyük dəyişiklik bax, bu qanunlardır. Çünki [93-94] bilirsiniz, mağazanı tikmək də, uçurmaq da olar. Benzindoldurma stansiyaları var, indi onları satırlar, ola bilər, kim isə bu gün alıb istifadə etsin, sabah əlverişli olmasa onu dağıda da, yerində yenisini qura da bilər. Amma torpağı dəyişdirmək mümkün deyildir, torpaq torpaqdır. Şübhəsiz ki, torpağı yaxşılaşdırmaq, münbitləşdirmək, ondan daha səmərəli istifadə etmək olar, amma onu başqa yerə aparmaq, dağıtmaq olmaz. Torpaq ölkənin, millətin, xalqın ən yüksək, ən qiymətli sərvətidir.

İndi biz bu torpağı xalqa paylayırıq, özü də pulsuz paylayırıq. Demək, bu demokratiya sahəsində, iqtisadi islahatların həyata keçirilməsi sahəsində bizim ən yüksək səviyyəli addımımız, tədbirimizdir. Yenə də deyirəm, ətrafımıza baxarkən, – Rusiyanın özünə, Orta Asiyaya, Ukraynaya, Belarusa baxarkən, bu məsələnin onlarda hələ nə qədər aşağı səviyyədə olduğuna baxarkən, respublikamızın ərazisinin 20 faizi işğal olunduğu halda, işğal edilmiş torpaqlardan nə qədər insanın qaçqın vəziyyətində yaşadığı halda, belə ağır şəraitdə yaşayan respublikada bu cür cəsarətli, radikal addım atmağımız onu göstərir ki, biz həqiqətən iqtisadiyyatımızı bazar iqtisadiyyatı, müasir tələblərə uyğun olan sistem prinsipləri əsasında qururuq və quracağıq.

Mən əminəm ki, bu qanun həyata keçiriləndə öz nəticələrini verəcəkdir. Ancaq gərək heç kəs özü üçün illüziya yaratmasın ki, bu dərhal öz nəticələrini verəcək, qanun qəbul ediləndən sonra hər şey dəyişəcəkdir. Birincisi, bu qanunun həyata keçirilməsi çox vaxt tələb edəcəkdir, bunu əvvəlcədən bilmək lazımdır. Heç kəs hesab etməsin ki, qanun qəbul olunandan sonra bir-iki aya hər şey öz yerini tutacaqdır, yox. Bunun həyata keçirilməsi cürbəcür müqavimətlərə, çətinliklərə, yerli təşkilatların bürokratik əngəllərinə rast gələcəkdir. Bunların hamısının mümkünlüyünü gözləmək lazımdır, bunlar hamısı olacaqdır. Biz bunların qarşısını almaq üçün ciddi əməli tədbirlər həyata keçirəcəyik, buna hamınız əmin ola bilərsiniz.

Mən əvvəldən xəbərdarlıq edirəm, əgər qanunun işlənib hazırlanmasına bu qədər vaxt sərf etmişiksə, bu qədər səy qoymuşuqsa, bu qədər təcrübəni tədqiq edərək cəsarətli qanun qəbul olunması haqqında qərar qəbul etmişiksə, bütün vətəndaşlarımız əmin ola bilərlər ki, onun həyata keçirilməsi prosesini bundan güclü edəcəyik. Çünki ən çətini qanunun [94-95] qəbul olunması dərəcəsinə gəlib çıxmaq idi. Artıq bu dərəcəyə gəlib çıxmışıq. Əgər gəlib çıxmışıqsa, nə gecikmək, nə ləngimək, nə də yerində saymaq, geriyə qayıtmaq olmaz. İrəliyə, irəliyə, irəliyə getmək lazımdır.

Yenə də deyirəm, ona görə də çox ciddi tədbirlər həyata keçirəcəyik. Amma bu, asan olmayacaq, mən bunu bilirəm, siz də bilməlisiniz. Ancaq biz istədiyimizə nail olacağıq. Bunlara baxmayaraq, – bu barədə əzmimizin, yəni iradəmizin çox aydın olmasına baxmayaraq, nəzərə almaq lazımdır ki, bu qanunun həyata keçirilməsi vaxt tələb edəcəkdir.

Bizdə özəlləşdirmə gedir, elə bunun özü də özəlləşdirmədir, aqrar sektorda özəlləşdirmədir. Ancaq başqa sahələrdə gedən özəlləşdirmənin sürətindən biz narazıyıq.

Bir neçə gün bundan öncə mən Almaniyada olarkən, Şərqi Almaniyada iqtisadiyyatda mülkiyyətin dəyişdirilməsi prosesləri ilə yaxından tanış oldum. Bizim kimi, Şərqi Almaniya da kommunist quruluşunda idi. Orada dövlət mülkiyyəti hakim idi, Sovetlər İttifaqına nisbətən kənd təsərrüfatında kooperativlər çox idi, ticarətdə, məişət xidmətində və başqa xidmətlərdə bir çox yerlərdə xüsusi mülkiyyət vardı. Hətta 70-ci illərdə Sovetlər ölkəsindən Almaniyaya, eləcə də Şərqi Avropanın başqa ölkələrinə gedən adamlar gəlib deyirdilər ki, bu nədir, onlarda indiyə qədər sosializm qurulmayıb, hələ şəxsi, xüsusi mülkiyyət var, kiminsə şəxsi mağazası, dəlləkxanası, filanı var, – o vaxt Sovetlər İttifaqında belə narazılıq vardı, – amma buna baxmayaraq, mülkiyyət əksərən dövlətin əlində idi.

Qərbi və Şərqi Almaniya birləşdikdən sonra Şərqdə mülkiyyəti dəyişmək üçün beş ildir proses gedir. Buna nə qədər xərc qoyublar. İndiyə qədər Şərqi Almaniyanın və Qərbi Almaniyanın iqtisadiyyatında, insanların həyat tərzində, maddi vəziyyətində fərq hələ aradan götürülməyibdir. Fərq çox böyükdür.

Mən Almaniyanın rəhbərlərinə sual verdim, – məsələn, federal kansler Helmut Kol ilə, prezidentlə, başqaları ilə bu barədə danışıqlarım oldu, – nə qədər xərc qoymusunuz? Dedilər ki, həddindən artıq. Almaniya çox böyük xərc qoyubdur ki, şərq hissədə iqtisadiyyatda dəyişikliklər aparsın, özəlləşdirməni həyata keçirsin və Şərqi Almaniyanın iqtisadiyyatı bazar iqtisadiyyatı sisteminə keçsin. Mən onlardan soruşdum ki, siz bu prosesi qurtardınızmı? Dedilər ki, nə danışırsınız, qurtarmamışıq, hələ görüləsi işlər çoxdur. Ona görə də mən onlarla danı[95-96]şanda, – deyəsən, bizim televiziya ilə vermişdilər, – dedim ki, bilirsiniz, indi Qərbi Almaniya Şərqi Almaniyanı öz himayəsinə, yedəyinə götürdü, ona görə də orada iqtisadi islahatlar aparır və Şərqi Almaniyanı öz səviyyəsinə çatdırmağa nail oldu. Ancaq biz nə edək ki, Qərbi Almaniya kimi iqtisadi cəhətdən güclü, dövlətli Qərbi Azərbaycanımız olmayıb ki, bizi – Azərbaycanı öz yedəyinə, himayəsinə alsın, öz təcrübəsini bizə bilavasitə versin ki, necə edək.

Bilirsiniz, biz öz içərimizdə əlləşib çalışırıq. Əlbəttə ki, dünyada olan hər bir təcrübədən istifadə etməyə çalışırıq, amma eyni zamanda bizim gördüyümüz işlər daxili imkanlarımızın, daxili vəsaitimizin çərçivəsindədir, bunun əsasındadır. Bunlar da çox azdır, məhduddur. Bir tərəfdən müharibənin bizə vurduğu zərbəyə görə, ikincisi, keçid dövründə istehsalımız aşağı düşdüyünə görə, üçüncü tərəfdən, respublikamız blokadaya alındığına, yollarımız kəsildiyinə görə və bir neçə başqa səbəbə görə çətinliklərimiz çoxdur.

Bunlara baxmayaraq, biz bu yolla gedirik. Mən Şərqi Almaniyada gedən prosesləri sizin yadınıza sadəcə olaraq ona görə salıram ki, heç kəsdə illüziya olmasın ki, bunlar tezliklə başa gələcəkdir. Yəni özümüzü ona hazırlamalıyıq ki, bu prosesləri irəli apardıqca nailiyyətlər əldə edəcəyik. Ancaq heç kəs düşünməsin ki, qanun qəbul olunandan bir gün, beş gün, bir ay, yarım il sonra nə isə möcüzə baş verəcəkdir. Möcüzə olacaq, amma bunları ardıcıl surətdə həyata keçirəndən sonra. Mən əminəm ki, olacaqdır. Ancaq heç kəs dərhal möcüzə haqqında düşünməsin.

Bunu ona görə deyirəm ki, birincisi, hər şeyə real münasibət göstərilsin, hər şey real mövqedən qiymətləndirilsin və heç kəs də populizm ilə, yaxud cürbəcür illüziyalarla məşğul olmasın. Bilirsiniz, küçədə, çayxanada oturub, yaxud qəzetdə məqalə yazıb cürbəcür fikirlər söyləmək çətin deyil, indi bu, bizim ölkədə də, başqa ölkələrdə də çox asan peşəyə çevrilibdir. Mətbuat, söz azadlığı var, insanlar azaddır, bu da çox gözəl haldır, – hərə istədiyi kimi düşünür, yazır və öz fikrini istədiyi kimi yaymağa çalışır. Bu, işin bir tərəfidir. Amma əsas tərəfi bu işi necə aparmaqdır və bu işi görənlərin onu necə görmələridir. Kənardan tənqid edənlər var və olacaqdır. Ancaq işi aparmaq lazımdır. Bu iş çox çətin, ağır işdir. Eyni zamanda respublikamızın, həyatımızın gələcəyi üçün çox zəruri, lazımlı işdir və bunu görməliyik. [96-97]

Mən məmnunam ki, Masallıdan olan fermer qeyd etdi ki, biz Azərbaycanın on-iyirmi-otuz il sonrakı vəziyyəti haqqında düşünürük. Bəli, bu qanunun üzərində il yarımdır işləyirik, bir gün də fasilə olmayıbdır, dünyanın bütün təcrübələrini öyrənmişik və nəhayət, bu səviyyəyə gəlib çatmışıq, – yenə deyirəm, qərar da çox cəsarətlidir, – bundan sonra bu işin nəticələrini əldə edəcəyik. Bunların hamısı respublikamızın bu günü və gələcəyi haqqında fikirlərimizi əks etdirir.

Hesab edirəm ki, artıq sizin əlinizdə və mənim əlimdə olan layihə qəbul edilə bilər. Burada çıxış edənlər, məsələn, Abbas Abbasov, İbrahim Məmmədov fikirlər söylədilər, deyəsən Raqib Quliyev də bir fikir söylədi. Ağasəlim Ələsgərov da bəzi sözlər dedi, – mən belə başa düşdüm ki, onun dediklərinin bəziləri prinsipial deyil, redaktə xarakteri daşıyır. Düzdür, deyilən təkliflərə Arif Rəhimzadə, Abbas Abbasov və başqaları cavab verdilər. Amma buna baxmayaraq, biz də müzakirə etdik. Hesab edirəm ki, prinsipial nöqteyi-nəzərdən bu layihədə hər şey öz yerindədir. Bir daha bildirmək istəyirəm ki, mən şəxsən bunun hər bir kəlməsinin, sətrinin, hər bir cümləsinin üzərində işləmişəm. Ona görə də mən tam açıq-aydın, əminliklə deyirəm ki, burada hər şey yerindədir. Amma eyni zamanda hesab edirəm ki, verilən təkliflərə buradan çıxan kimi mənim iş otağımın yanında yığışın, baxın. Harada düzəliş lazımdırsa, fikrinizi mənə deyin, mən baxacağam ki, bu düzəlişi etmək olar, ya olmaz. Çünki layihə son həddə mənim əlimdən çıxmış layihə olmalıdır. Baxaq və ləngitmədən Milli Məclisə təqdim edək ki, orada qəbul olunsun və bundan sonra icrasına başlayaq.

Mən qeyd etdim ki, bu qanun qəbul olunandan sonra bir çox əməli tədbirlər həyata keçirməliyik. Birinci növbədə qanunun icrası ilə əlaqədar mən geniş fərman imzalayacağam, onu da hazırlayırlar. Hazırlanmalıdır və o tədbirlər haqqında əlavə danışacağıq.

Beləliklə, bu qanun layihəsinin hazırlanması ilə əlaqədar komissiyaların işi bitmiş hesab olunur. Gördükləri işə görə komissiyaların üzvlərinə təşəkkür edirəm. Ancaq bununla iş qurtarmır. Mən bu komissiyaları daimi komissiyalar kimi saxlayıram və bundan sonra bu qanundan və əvvəl qəbul etdiyimiz iki qanundan irəli gələn qanunların hazırlanmasını da onlara həvalə edəcəyəm. Ona görə indiyə qədər gördüyünüz işlərə görə sağ olun. Ancaq işiniz bununla bitmir, bu qanun layihəsinin hazırlanması ilə əlaqədar iş bitir. Sağ olun. [97-98]

## AVROPA ŞURASININ YÜKSƏK SƏVİYYƏLİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏN SONRA MƏTBUAT KONFRANSINDA ÇIXIŞ

*Prezident sarayı*

*13 iyul 1996-cı il*

Hörmətli mətbuat nümayəndələri!

Biz sizinlə artıq görüşmüşük. Çünki Avropa Şurasından Azərbaycana gəlmiş nümayəndə heyəti ilə görüşümüzün başlanğıcında siz iştirak etmisiniz. Ona görə də xüsusi bir bəyanat verməyə ehtiyac yoxdur. Qısaca onu deyə bilərəm ki, Azərbaycanın Avropa Şurasında xüsusi qonaq statusu almasından sonra bu Şuranın yüksək səviyyəli və geniş tərkibli nümayəndə heyətinin respublikamıza gəlməsi əməkdaşlığımızın artıq başlandığını göstərir.

Bu gün keçirdiyimiz görüşdən və apardığımız danışıqlardan mən çox razı olduğumu bildirmək istəyirəm. Hesab edirəm ki, bizim aramızda qarşılıqlı anlaşma var. Biz bundan sonra Avropa Şurasının tamhüquqlu üzvü olmaq üçün qarşımızda duran vəzifələri yaxşı bilirik. Mən Avropa Şurasının nümayəndə heyətini bir daha əmin edirəm ki, Azərbaycan Respublikası Avropa Şurasının tamhüquqlu üzvü olmağa əməli işlərlə çalışacaqdır. Mən əminəm ki, biz buna nail olacağıq.

Sözü nümayəndə heyətinin başçılarına verirəm və sizin suallarınıza cavab verməyə hazıram.

**Sual: Mənim sualım cənab baş katibədir. Cənab baş katib, Ermənistan Respublikası Avropa Şurasına üzv olmaq üçün rəsmən müraciət etmiş ölkələrdən biridir. Avropa Şurasının bəyanatlarında, proqramında insan hüquqlarına hörmət, orta mədəni dəyərlərin qorunması ilk sırada dayanır. Azərbaycanın 2000-dək vətəndaşı Ermənistan ərazisində müxtəlif zindanlarda əsir, girov kimi işgəncələrə məruz qalır. Azərbaycanın işğal olunmuş ərazilərindəki mədəni abidələr Ermənistanın işğalçı qoşunları tərəfindən darma**[98-99]**dağın edilib, bir milyona yaxın qaçqın çox ağır, çətin şəraitdə yaşayır, Ermənistan Respublikası Avropa Şurasına qəbul edilərkən bu məsələlər nəzərə alınacaqmı?**

**Cavab:** Mən əminəm ki, bu münaqişə Avropa Şurasının Parlament Assambleyası tərəfindən tamamilə nəzərdə tutulacaqdır və bu, diqqətdən qaçmayacaqdır. Bildirmək istəyirəm ki, ölkələrin Avropa Şurasına qəbul edilməsində həlledici rol oynayan qurum Avropa Şurasının Parlament Assambleyasıdır. Avropa Şurasının Parlament Assambleyası insan hüquqlarının harada olur-olsun pozulmasının əleyhinə çıxır. Şübhəsiz ki, biz Avropada bir sıra belə faciəli hallarla rastlaşmışıq, bəzi yerlər işğal olunubdur və işğal altında qalıbdır. Avropanın özündə də böyük saylı qaçqın ordusu vardır. Bu, elə bir məsələdir ki, Avropa Şurası ona daim diqqət yetirir. Avropa Şurasının xüsusi komissiyaları, komitələri vardır ki, onlar qaçqınların və köçkünlərin işləri ilə yaxından məşğul olurlar.

Mən şübhə etmirəm ki, həm Azərbaycan, həm də Ermənistan Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmaq barədə müraciət edərkən və bu müraciətlər nəzərdən keçirilərkən qeyd etdiyimiz məsələlər diqqətdən yayınmayacaqdır.

**Sual: Cənab prezident, siz Dağlıq Qarabağ probleminin həllini necə təsəvvür edirsiniz?**

**Heydər Əliyev:** Bu problemin həllinin yolu çox dəqiq və aydındır. Biz bunu dəfələrlə demişik. Söhbət bundan gedir ki, Ermənistan silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini, yəni işğal etdikləri ərazilərimizi azad etsinlər, oradan zorla qovulmuş bir milyondan çox Azərbaycan vətəndaşı doğma yerlərinə qayıda bilsin, ölkəmizin ərazi bütövlüyü, onun beynəlxalq miqyasda tanınmış sərhədlərinin pozulmazlığı təmin olunsun və bununla yanaşı, Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyi təmin edilsin, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa hazırda dünya praktikasında mövcud olan ən yüksək muxtariyyət statusu verilsin. Bunlar aydın və ədalətli şərtlərdir. Biz bunu təklif edirik. Erməni tərəfi buna razı olsaydı, məsələ çoxdan həll edilərdi. Təəssüf ki, erməni tərəfi Azərbaycan ərazisinin işğal olunması ilə bağlı bəzi üstünlüklərdən istifadə edərək Azərbaycana təzyiq göstərməyə çalışır və Dağlıq Qarabağa dövlət müstəqilliyi statusu verilməsinə cəhd edir. Şübhəsiz ki, biz buna razı ola bilmərik. Azərbaycan ərazisinin bir hissəsinin zorakılıqla qəsb edilməsi[99-100]nə yol verə bilmərik. Beynəlxalq hüquq normaları da buna yol vermir. Hər bir dövlətin ərazi bütövlüyünün tanınması bütün beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normasıdır. Biz bu prinsiplərə həm öz ölkəmiz barəsində, həm də digər dövlətlər barəsində sadiqik. Məsələnin həlli erməni tərəfindən asılıdır.

**Sual: Mənim sualım Avropa Şurası Nazirlər Komitəsinin sədrinədir. Azərbaycan prezidenti dəfələrlə qeyd edib ki, keçid dövrünün çətinlikləri və Ermənistanın respublikamıza təcavüzü elə bir vəziyyət yaradıb ki, ölkəmiz bu problemi ayrılıqda, beynəlxalq təşkilatların köməyi olmadan həll edə bilməz. Avropa Şurası ölkəmizin bu problemlərinin həllinə konkret olaraq hansı yardımlar edə bilər?**

**Siym Kallas:** Bildiyiniz kimi bu dünyada siyasi mühiti formalaşdıran beynəlxalq təşkilatlardan biri də Avropa Şurasıdır. Bu beynəlxalq təşkilatların hər birinin özünəməxsus xüsusiyyəti var. Avropa Şurasının əsas vəzifəsi ölkələrdə demokratiyanın inkişaf etdirilməsindən, insan hüquqlarının qorunmasından, demokratik və dinamik inkişaf edən dövlətlərin yaradılmasından ibarətdir. Bu baxımdan ölkələrdə demokratiyanın inkişaf etdirilməsi, insan hüquqlarının qorunması üçün hüquqi baza yaradılmasına yardım göstərmək, Avropa Şurasının bu ölkələrlə əməkdaşlığında ən mühüm sahələrdən birini təşkil edir.

Mən sizə bildirmək istəyirəm ki, Estoniyanın Avropa Şurası ilə əməkdaşlığı dövründə bizim gördüyümüz, yaşadığımız təcrübə çox məhsuldar olmuşdur. Sualınıza cavab olaraq bildirirəm ki, Avropa Şurası həm bu şuranın üzvü olan dövlətlərə, həm də üzv olmaq istəyən dövlətlərə çox geniş səpkili əməkdaşlıq təklif edir, yardımlar göstərir və qeyd etdiyim sahələrdə onları hər cür dəstəkləməyə çalışır.

Dövlətlər arasındakı münaqişələrə gəldikdə isə biz bu münaqişələrin daha çox dünyanın digər təşkilatları tərəfindən həll olunmasına üstünlük veririk. Məsələn, biz ATƏT-in bu münaqişənin həll olunmasındakı rolunu qiymətləndiririk və onun Minsk prosesinə hər zaman dəstək veririk. Öz növbəsində Avropa Şurası isə dünyanın müxtəlif bölgələrində formalaşmış muxtar qurumların və onların qarşılaşdığı problemlərin həlli yollarının nədən ibarət olması barədə məlumatları bu ölkələrə çatdıra bilər. [100-101]

Bu gün bizim keçirdiyimiz çoxsaylı görüşlərdə Avropa Şurası tərəfindən belə bir yardımın, köməyin göstərilməsi məsələsi də müzakirə olunmuşdur. Əgər Azərbaycan bu təcrübədən də faydalanmaq arzusunu ifadə etsə, onda Avropa Şurası respublikanıza məmnuniyyətlə kömək edəcəkdir.

**Sual: Cənab prezident, Ermənistan ilə Azərbaycan arasında müharibə bir il əvvəl qurtarmışdır. Bu, ölkənizin iqtisadi həyatına necə təsir edir?**

**Heydər Əliyev:** Ermənistan ilə Azərbaycan arasında müharibə qurtarmamışdır, iki il əvvəl dayandırılmışdır, 1994-cü ilin mayında biz atəşkəs haqqında saziş imzalamışıq, lakin hələlik tam sülh yoxdur. Bu iki il ərzində biz ilk növbədə ATƏT-in Minsk qrupunun imkanlarından istifadə edərək məsələnin sülh yolu ilə həllinə çalışırıq. Şübhəsiz ki, atəşkəs həm Azərbaycanda, yeri gəlmişkən, qeyd etməliyəm ki, həm də Ermənistanda həyata müsbət təsir göstərmişdir.

Əgər müharibə yoxdursa, döyüş əməliyyatları aparılmırsa, qan tökülmürsə, şübhəsiz ki, xalq daha sakit yaşayır. Xalq, cəmiyyət, dövlət sosial-iqtisadi problemlərlə daha fəal məşğul olmaq üçün imkan əldə edir. Biz də bu imkandan çox fəal istifadə edə bilmişik və edirik. Məhz bu müddət ərzində biz qanunlar qəbul edə və iqtisadi islahatların, o cümlədən böyük özəlləşdirmə proqramının, aqrar bölmədə islahatların həyata keçirilməsinə başlaya bilmişik. Məhz bu şəraitdə Azərbaycanın ilk demokratik konstitusiyasını hazırlaya və qəbul edə, Azərbaycan parlamentinə ilk demokratik seçkilər keçirə bilmişik. Ölkəmizdə daxili, siyasi həyatı mürəkkəbləşdirən bir çox mənfi halları aradan qaldıra bilmişik. Təəssüf ki, Avropa ölkələrindən, o cümlədən Estoniyadan fərqli olaraq Azərbaycanda Ermənistanla hərbi münaqişə ilə yanaşı, bir sıra illər ərzində daxili siyasi vəziyyət də çox mürəkkəb olaraq qalırdı. Bu da hakimiyyət uğrunda mübarizə aparan müxtəlif silahlı qrupların qarşıdurması ilə əlaqədar idi. Ermənistanla müharibə ilə yanaşı, 1993-cü ilin yayında Azərbaycanda vətəndaş müharibəsi başlandı. Biz bu ağır hallardan yaxa qurtara bildik. Həm də xeyli dərəcədə ona görə ki, atəşkəs rejimini təmin edə bilmişdik.

Xarici sərmayədarlar Azərbaycana daha fəal maraq göstərməyə, bizimlə əməkdaşlıq etməyə başlamışlar. Biz Avropanın, Amerikanın ən iri neft şirkətləri ilə Azərbaycanda neft hasilatına dair böyük müqavilələr imzalamışıq. Yəni hərbi [101-102] əməliyyatların dayandırılması, Azərbaycanda da ictimai-siyasi vəziyyətin sabitləşməsi şübhəsiz ki, respublikamıza daha fəal surətdə sərmayə qoyulmasına gətirib çıxarır. Zəngin təbii ehtiyatları və böyük iqtisadi, intellektual potensialı olan Azərbaycan dünyanın bir çox ölkələrinin şirkətlərinin diqqətini cəlb edir və biz bu əməkdaşlığa fəal surətdə gedirik. Bütün bunlar xeyli dərəcədə, atəşkəsə nail olunduqdan sonra yaranmış şəraitlə bağlıdır. Lakin biz tam sülhə, Ermənistanla dinc, mehriban qonşuluq münasibətləri yaranmasına, bütün Qafqaz regionunda sülhün bərqərar olunmasına çalışırıq.

**Sual: Hörmətli prezident, hörmətli baş katib, mənim sualım sizədir. Cənab baş katib, görüşdə "Avropa ölkələrinin böyük ailəsi" fikri səsləndi, siz Azərbaycandan sonra, bu ailəyə daxil olmaq istəyən daha iki ölkəyə – Gürcüstana və Ermənistana gedəcəksiniz. Yəqin heç kəs istəməz ki, onun ailəsinin üzvləri dalaşsınlar, müharibə etsinlər. Avropa Şurasına üzvlüyə namizədlik dövründə bu ailə üzvlərinin dalaşmaması, müharibə etməməsi üçün siz hansı konkret addımlar atmaq niyyətindəsiniz?**

**Heydər Əliyev:** Azərbaycan öz sülhsevər siyasətini davam etdirəcək və çalışacaq ki, Ermənistanla Azərbaycan arasında olan bu münaqişə ləğv edilsin və bölgəmizdə tam sülh yaransın.

**Dannel Tarşis:** Avropa Şurası Avropada gərginliyin azaldılması üçün bir çox tədbirlər görməkdədir. Biz Avropa Şurasına üzv olan dövlətləri, Avropanın bütün dövlətlərini ona inandırmağa çalışırıq ki, hansı dövlətlərdə siyasi plüralizm, demokratiya varsa, insan hüquqları qorunursa, onlar daha sabit və çiçəklənən dövlətlər olurlar, nəinki diktator rejimi olan qeyri-demokratik dövlətlər. Hansı dövlətlərdə qanunun aliliyi təmin olunursa, o dövlətlərin inkişafı labüddür.

Bütün bunlardan əlavə biz bir sıra ümumi dəyərlər də işləyib hazırlayırıq. Avropa Şurasına daxil olan bütün dövlətlər məhz o dəyərlərə sadiq olmalı, həmin öhdəlikləri yerinə yetirməlidirlər. Biz işgəncələrin, xaricilərin və

digərlərinin bir-birinə qarşı nifrətinin aradan qaldırılması üçün əlimizdən gələni edirik. Bunun üçün biz hazırda Avropada geniş vüsət almış gənclər hərəkatından istifadə edirik. Biz Avropa dövlətlərini bir-birinin tarixini öyrənməyə sövq edirik. Tarix dərsliklərinin işlənib hazırlanması, onların ideologiyasızlaşdırılması, bu dərs[102-103]liklərin şovinist ruhda olmaması üçün təhsil sahəsində əməkdaşlıq edirik.

Azlıqların hüquqlarının qorunmasına yardım edən hüquqi təkliflərimiz vardır. Biz müxtəlif ölkələr arasında açıq, şəffaf əməkdaşlığın genişləndirilməsinə sövq edən, onun yollarını göstərən mexanizmlər təklif edirik. Biz belə bir ideyanın tərəfdarıyıq ki, Avropada sərhədləri yenidən dəyişdirməyə heç bir ehtiyac yoxdur, bu sərhədləri açmaq və əməkdaşlığı genişləndirmək lazımdır. Milyonlarla insan məhz sərhədlərin dəyişdirilməsi ucbatından yaranmış münaqişələr nəticəsində əzab-əziyyət çəkir və çətinliklərə düçar olub. Məqsədimiz Avropa qitəsində elə bir mühit yaratmaqdır ki, bu qitəyə mənsub olan bütün xalqlar, dövlətlər özlərini bir ailədə hiss etsinlər.

İndiyədək söylədiklərimin hamısı münaqişələr baş verərkən bunların qarşısını almağa yönəldilən cəhətlərdir. Onu da əlavə edirəm ki, bu qəbildən olan münaqişələrin həlli texnikası, qaydaları da bizə bəllidir. Bu işi xüsusilə Avropa Şurasının Parlament Assambleyası həyata keçirir.

Sədrin sözlərinə qayıdaraq mən də təsdiq etmək istəyirəm ki, biz bu qəbildən olan münaqişələri daha çox Avropadakı digər təşkilatların, xüsusilə ATƏT təşkilatının ixtiyarına buraxmağa üstünlük veririk.

**Sual: Mənim sualım prezident Heydər Əliyevədir. Azərbaycanda keçirilmiş son parlament seçkiləri tənqid olundu. Gələcəkdə seçkilərin daha düzgün keçirilməsi üçün hansı tədbirlər görməyi planlaşdırırsınız?**

**Heydər Əliyev:** Mən sizin bu fikrinizlə razı deyiləm. Hesab etmirəm ki, Azərbaycanda parlament seçkiləri azad, sərbəst seçkilər olmayıb. Onlar tam azad, sərbəst seçkilər olubdur. Bu seçkilər çoxpartiyalı sistem əsasında, tam aşkarlıq, siyasi plüralizm şəraitində keçirilibdir. Bütün sahələrdə özlərini seçkilərdə namizəd irəli sürənlərin hamısı informasiya orqanlarından, o cümlədən, radio, televiziyadan sərbəst istifadə edib. Azərbaycanda 30-dan artıq partiya qeydiyyata alınıb və fəaliyyət göstərir, 500-dən artıq qəzet nəşr edilir. Azərbaycanda müxalifətin çoxsaylı qəzetləri çıxır və çox geniş yayılır. Respublikamızda hər bir adam öz fikrini istədiyi kimi ifadə etmək imkanına malikdir. Bunların hamısı da parlament seçkilərində öz əksini tapıbdır.

Azərbaycanın hazırkı parlamentində 8 partiya təmsil olunur. Azərbaycanın parlamentində müxalifətdə duran partiya[103-104]ların nümayəndələri də var. Bunlar hamısı müstəqil Azərbaycanda ilk parlament seçkilərinin tam demokratik şəkildə keçirilməsini nümayiş etdirir. Nəzərə almalısınız ki, Azərbaycan müstəqillik qazanandan sonra respublikamızda dövlət rəhbərliyi üç dəfə dəyişdirilibdir. Mən qeyd etdim, 1993-cü ilin yayında Azərbaycanda vətəndaş müharibəsi başlanmışdı. Müxalifətdə duran ayrı-ayrı partiyaların silahlı dəstələri olubdur. 1994 və 1995-ci illərdə Azərbaycanda hakimiyyəti güclə, silahla ələ almaq cəhdləri olubdur, bir neçə terror aktı həyata keçirilib, dövlət başçısına qarşı bir neçə dəfə terror cəhdi edilibdir və bunların da qarşısı alınıbdır.

Belə bir şəraitdə olan Azərbaycanda son dövrdə, demək olar ki, 1995-ci ildə və artıq 1996-cı ildə daxili ictimai-siyasi sabitlik yaradılıbdır. Əgər Azərbaycana iki il bundan əvvəl gəlsəydiniz, Bakının küçələrində həddindən ziyadə cürbəcür qeyri-qanuni silahlı dəstələr görə bilərdiniz. Təəssüf ki, bunların da bir çoxu özlərini müxalifət adlandıran partiyalara və qruplara mənsub idi. Azərbaycanın bu cinayətkar dəstələrdən qısa müddətdə təmizlənməsi, insanlara sərbəst yaşamaq imkanı verilməsi və parlament seçkilərinin sərbəst şəkildə keçirilməsi Azərbaycanda demokratiyanın bərqərar olduğunu sübut edir.

Ona görə də müstəqil Azərbaycanda ilk parlament seçkilərini mən demokratiya sahəsində atılan ilk addımlar kimi qiymətləndirirəm və əminəm ki, bu demokratik proseslər ilbəil inkişaf edəcək və gələn parlament seçkiləri bundan da yüksək səviyyədə keçiriləcəkdir.

Diqqətinizə görə sağ olun! [104-105]

## FRANSA RESPUBLİKASININ MİLLİ BAYRAMI MÜNASİBƏTİLƏ FRANSANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*"Gülüstan" Sarayı*

*14 iyul 1996-cı il*

Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar!

Fransa Respublikasının milli bayramı – Bastiliya günü, Fransa inqilabının 207-ci ildönümü münasibətilə sizi ürəkdən təbrik edir, Fransa xalqına xoşbəxtlik və səadət arzulayıram.

Fransa inqilabı təkcə fransız xalqının həyatında yox, dünyanın bir çox xalqlarının həyatında böyük dəyişikliklərin başlanğıcı olmuşdur. Fransanın mütəfəkkir insanları, böyük şəxsiyyətləri Jan Jak Russo, Monteskye, Didro və digər dahi insanların yaratdıqları demokratiya prinsipləri, hakimiyyətin demokratiya əsasında bölgü prinsipləri həm Fransada, həm də demokratiyanı qəbul etmiş digər ölkələrdə yayılmış, özünə hüquq qazanmışdır.

Fransız xalqının bəşər sivilizasiyasına verdiyi töhfələr əvəzsizdir. Mədəniyyəti, elmi sevən hər bir insan bunu qiymətləndirir, o cümlədən Azərbaycan xalqı da çox yüksək qiymətləndirir. Fransa inqilabından sonra Fransa Respublikasının yaşadığı dövrdə demokratiyanın inkişafında və dünyada demokratiyanın yayılmasında da fransız xalqının əvəzsiz xidmətləri var.

Fransa dünyanın böyük dövlətlərindən biridir, iqtisadi cəhətdən, mədəni səviyyəsi, demokratiya cəhətdən dünyada özünə layiq görkəmli yer tutmuşdur. Fransa Respublikasının, fransız xalqının dövlət quruculuğu sahəsində, demokratik prinsiplərin yaranması və inkişaf etməsi, cəmiyyətin demokratik prinsiplər əsasında formalaşması sahəsində əldə etdiyi nailiyyətlər və təcrübə dünyanın başqa ölkələri üçün çox faydalı örnək olmuşdur. [105-106]

Ona görə də biz Fransa Respublikasının, Fransa inqilabının ildönümünü Azərbaycanda böyük məmnuniyyətlə qeyd edirik. Bu bayram günü mən Azərbaycan xalqının Fransa Respublikasına, fransız xalqına olan hörmət və ehtiramını bir daha bəyan edirəm. Məmnuniyyət hissi ilə qeyd edirəm ki, Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında çox sıx dostluq və əməkdaşlıq əlaqələri yaranmışdır. 1993-cü ilin dekabrında Azərbaycanın prezidenti kimi mənim Fransaya ilk səfərim zamanı Fransa ilə Azərbaycan arasında dostluq və əməkdaşlığa dair sənədlər imzalanmış və bundan sonra əlaqələrimiz daha da genişlənmiş, inkişaf etmişdir.

Son zamanlar bizim əməkdaşlığımızda çox diqqətəlayiq, müsbət hadisələr baş verir. Fransanın bir çox şirkətləri Azərbaycana böyük maraq göstərirlər və respublikamızla əməkdaşlığa başlayıblar. Bildiyiniz kimi, Fransanın ən böyük şirkətlərindən olan "Elf akiten" şirkəti Azərbaycanda neft-qaz hasilatı sahəsində bizimlə əməkdaşlığa başlayıb və bu il iyunun 4-də "Şahdəniz" yatağının istifadəsi ilə əlaqədar imzalanmış müqavilənin iştirakçısıdır. Azərbaycan iqtisadiyyatının digər sahələrində də Fransa şirkətləri ilə əməkdaşlıq başlanmışdır və əminəm ki, bu əməkdaşlıq gündən-günə genişlənəcək və inkişaf edəcəkdir. Biz Azərbaycan tərəfi bu əməkdaşlığı istəyirik və Fransa ilə bütün sahələrdə – həm iqtisadiyyat, həm də elm, mədəniyyət sahəsində əməkdaşlıq etməyə maraq göstəririk.

Fransa Respublikası ATƏT-in Minsk qrupunun üzvüdür. Biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün Minsk qrupunda Fransa Respublikası ilə əməkdaşlıq edirik. Bu məsələlərlə əlaqədar iyun ayında Fransa Respublikasının prezidenti cənab Jak Şirak ilə telefon danışığımda geniş fikir mübadiləsi apardım və indiki mərhələdə Fransa prezidentinin bu məsələyə böyük marağını hiss etdim. Danışıqlarımız nəticəsində belə razılığa gəldik ki, Fransanın xarici işlər naziri bu yaxın vaxtlarda, payızda Azərbaycana rəsmi səfərə gələcəkdir və biz bu məsələləri daha geniş müzakirə edəcəyik. Beləliklə də Fransa Ermənistan-Azərbaycan münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində sülh yolu ilə aradan qaldırılmasında daha fəal iştirak etmək əzmindədir.

Prezident Jak Şirak məni Fransaya dəvət edibdir, telefon danışığı zamanı bu dəvəti bir daha bəyan etdi. Mən bu dəvəti məmnuniyyətlə qəbul etmişəm, eyni zamanda telefon danışı[106-107]ğımızda prezident cənab Jak Şirakı Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Beləliklə, ölkələrimiz arasında və şəxsən Fransa prezidenti ilə mənim aramda çox sıx əlaqələr yaranıbdır.

Qeyd etmək istəyirəm ki, bu əlaqələrin yaranmasında Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Jan Perrənin xüsusi rolu var. Bu gün bəyan etdiyi kimi, onun Azərbaycanda fəaliyyətini

başa çatdırıb Fransaya qayıtması münasibətilə mən fürsətdən istifadə edib cənab Jan Perrənə çox dəyərli fəaliyyətinə görə Azərbaycan dövləti adından, öz adımdan təşəkkürümü bildirirəm.

Səhv etmirəmsə, dörd ildir cənab Jan Perrən Azərbaycanda Fransanın səfiridir. Fransa Respublikasının ölkəmizdə ilk səfiri, bizim əlaqələrimizin yaranmasının əvvəlindən böyük fəaliyyət göstərmiş bir şəxsdir. Son zamanlar isə Azərbaycanda diplomatik korpusun duayenidir və mən bu sahədə də onun fəaliyyətini müsbət qiymətləndirirəm. Bunların hamısı birlikdə cənab Jan Perrəni Azərbaycanın dostu edibdir və o, bu dostluq hisslərini bu gün burada izah etdi.

Cənab səfir, Azərbaycan haqqında, paytaxtımız Bakı haqqında, Azərbaycanın insanları haqqında dediyiniz xoş sözlərə görə təşəkkür edir və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu hissləriniz, fikirləriniz sizin imkanlarınız çərçivəsində Fransada yayılacaq və gələcəkdə də Fransa-Azərbaycan dostluğunun möhkəmlənməsi və inkişaf etməsi üçün səylərinizi əsirgəməyəcəksiniz.

Bastiliya günü, Fransada Respublika günü, Fransanın milli bayramı münasibətilə sizi bir daha təbrik edir, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, Fransa-Azərbaycan dostluğu gündən-günə möhkəmlənəcək, genişlənəcək və əbədi olacaqdır. Sağ olun. [107-108]

## DAHİ AZƏRBAYCAN ŞAİRİ MƏHƏMMƏD FÜZULİNİN ANADAN OLMASININ 500 İLLİYİ MÜNASİBƏTİLƏ DƏRBƏND ŞƏHƏRİNDƏ KEÇİRİLƏN BEYNƏLXALQ ELMİ KONFRANSIN İŞTİRAKÇILARINA

Möhtərəm konfrans iştirakçıları, əziz dostlar!

Sizi – dahi Azərbaycan şairi Məhəmməd Füzulinin möhtəşəm, ulu poeziyasının işığına yığışmış sənətsevərləri səmimi qəlbdən salamlayır, bu nəcib məramınızı ürəkdən alqışlayıram.

Beş yüz ildir ki, Füzuli sənəti ülvi insani duyğuların, bəşəri dəyərlərin poetik salnaməsi kimi ürəkləri fəth edir. Füzuli təkcə Azərbaycanın, Şərqin deyil, bütün bəşəriyyətin dahi mütəfəkkiridir.

Fitri istedad və yüksək sənətkarlıqla səciyyələnən Füzuli yaradıcılığı milli-coğrafi sərhəd tanımır, dünya mədəniyyətinin incisinə çevrilərək xalqlar arasında mənəvi-mədəni əlaqələrin möhkəmlənməsində, millətlərin bir-birinə yaxınlaşmasında əvəzsiz rol oynayır.

Azərbaycan, ərəb və fars dillərində ölməz sənət nümunələri yaradaraq zəngin ədəbi irs qoyub getmiş Füzulinin yaradıcılığı dünyanın bir çox görkəmli alimləri tərəfindən tədqiq edilmiş, onun həyatı və sənəti barədə dəyərli elmi əsərlər yazılmışdır. Qardaş Dağıstan alimləri öz xalqlarının Füzuli sənətinə olan böyük hörmət və məhəbbətini ifadə edərək dahi şairin yaradıcılığını dərindən öyrənir, sanballı elmi-tədqiqat işləri aparırlar. Dərbənd şəhərində keçirilən beynəlxalq elmi konfrans da Füzuli poeziyasının öyrənilməsində xüsusi əhəmiyyət kəsb edir. [108-109]

Əminəm ki, bu, beynəlxalq elmi konfrans Azərbaycan və Dağıstan xalqlarının dostluq, qardaşlıq münasibətlərinin daha da zənginləşməsinə xidmət edəcəkdir.

Mən bir daha sizi – bütün Dağıstan sənətsevərlərini, füzulişünasları ürəkdən salamlayır, konfransınızın işinə uğurlar diləyirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*15 iyul 1996-cı il* [109-110]

**AZƏRBAYCAN RESPUBLİKASI
NAZİRLƏR KABİNETİNİN RESPUBLİKADA
SOSİAL-İQTİSADİ SAHƏNİN İNKİŞAFINA
HƏSR OLUNMUŞ GENİŞ İCLASINDA
GİRİŞ SÖZÜ**

*Prezident Sarayı*

*18-19 iyul 1996-cı il*

Nazirlər Kabinetinin geniş iclası öz işinə başlayır. Respublika Nazirlər Kabinetinin iclasının bu tərkibdə və indi keçirilməsinin səbəbləri nədir? İlk növbədə, 1996-cı ilin birinci yarısı başa çatıb, ilin birinci yarısında görülən işlər təhlil olunmalıdır və ilin ikinci yarısında görüləcək işlər haqqında lazımi tədbirlərə dair qərarlar qəbul edilməlidir.

Eyni zamanda, Nazirlər Kabinetinin iclasının geniş tərkibdə və prezidentin sədrliyi altında aparılmasının səbəbi ondan ibarətdir ki, Nazirlər Kabinetinin işində indiyədək lazımi mütəşəkkillik olmayıb. Nazirlər Kabineti vaxtlı-vaxtında iclaslar keçirib məsələlərin müzakirə edilməsinə nail ola bilməyibdir. Əgər bunlar olsaydı, prezidentin bu işə müdaxiləsinə və ya bu cür müdaxilə etməsinə ehtiyac olmazdı. Xatirinizdədirsə, il başlayarkən – yanvarın 8-də mən Nazirlər Kabinetinin geniş iclasını keçirdim. O vaxt geniş iclasın keçirilməsinin əsas səbəbi ondan ibarət idi ki, mən ilin başlanğıcında Nazirlər Kabinetinin işində mütəşəkkilliyi təmin etmək üçün kömək etmək istədim. Baxmayaraq ki, mən bu barədə daim görüşlərdə, müşavirələrdə, müzakirələrdə bu məsələlərin nizama salınması üçün Nazirlər Kabinetinin rəhbərliyinə təkliflər vermişəm və tələblər irəli sürmüşəm.

Nazirlər Kabinetinin yanvarın 8-də keçirilən geniş iclasında biz iki mühüm məsələ müzakirə etdik. Bunların ikisi də respublikanın iqtisadiyyatı, həyatı üçün, əhalinin sosial vəziyyətinin, rifah halının yaxşılaşdırılması üçün çox əhəmiyyətli məsələlərdir. Bu məsələlər sizin xatirinizdədir. Biz müvafiq qərarlar da qəbul etdik. Həmin qərarlar respublika mətbuatında dərc olunubdur. Bunların biri "İqtisadiyyatın idarə edilməsinin təkmilləşdirilməsi haqqında" qərar idi. Bu, yanvarın 8-də [110-111] hamımızın iştirakı ilə qəbul edilmişdir. İkinci qərar "Özəlləşdirilmənin həyata keçirilməsi haqqında" idi. Nə üçün məhz bu iki məsələ müzakirə olundu və onlara dair həmin qərarlar qəbul edildi? Çünki bu məsələlər bizim iqtisadiyyatımız üçün, sosial həyat və ümumiyyətlə, respublikamızın həyatının bütün sahələri üçün həlledici məsələlərdir. Həmin qərarlarda konkret tapşırıqlar verilibdir, konkret müddətlər qoyulubdur, Nazirlər Kabinetindən tələb olunmuşdur ki, Nazirlər Kabineti bu işləri aparsın və prezidentə məlumat versin.

Təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, bu qərarların yerinə yetirilməsi tələblərə uyğun səviyyədə aparılmamışdır. Ona görə də biz bu qərarların həyata keçirilməsindən istənilən nəticəni əldə edə bilməmişik. Məhz buna görə də mən yenidən – 1996-cı ilin yarısı başa çatandan sonra bir daha Nazirlər Kabinetinin iclasının geniş tərkibdə keçirilməsini öz üzərimə götürdüm.

Güman edirəm ki, həm Nazirlər Kabinetinin rəhbərliyi, həm Nazirlər Kabinetinin tərkibinə daxil olan bütün şəxslər, eyni zamanda bura dəvət olunmuş rəhbər vəzifəli şəxslər bugünkü iclasın məqsəd və mənasını dərk edəcəklər və biz qarşımızda duran vəzifələri, cari dövrün tələbləri ilə əlaqədar olan məsələləri ətraflı müzakirə edə biləcəyik.

Bugünkü iclasın müzakirəsinə bu məsələlər çıxarılır: birinci məsələ "İqtisadiyyatın idarə edilməsinin təkmilləşdirilməsi haqqında" və "Özəlləşdirilmənin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 8 yanvar tarixli qərarlarının yerinə yetirilməsi barədədir. Mən bunu etməyə məcburam. Amma hesab edirəm ki, bu altı ay ərzində lazımi iş görülməli və bu qərarların yerinə yetirilməsi Nazirlər Kabineti tərəfindən müzakirə olunmalı idi, onların həyata keçirilməsi üçün lazımi tədbirlər görülməli idi. Bu məsələ barədə baş nazir Fuad Quliyev və baş nazirin müavini, Dövlət Əmlak Komitəsinin sədri Tofiq Əzizov məruzə edəcəklər.

İkinci məsələ 1996-cı ilin birinci yarısında ölkənin iqtisadi inkişafının yekunları və struktur dəyişikliklərinin sürətləndirilməsi vəzifələri haqqındadır. Bu da birinci məsələ ilə bağlıdır. Ancaq mən hesab edirəm ki, bu məsələ barədə məruzəni biz ayrıca dinləməli və müzakirə etməliyik. Ümumiyyətlə, mən demək istəyirəm ki, bu məsələlərin hamısı bir-biri ilə bağlıdır və kompleks şəklindədir. [111-112]

Üçüncü məsələ iqtisadiyyatın maliyyə vəziyyəti, ödəmələr və vergi intizamının möhkəmləndirilməsi haqqındadır. Bu da çox mühüm məsələdir. Bu məsələ barədə maliyyə naziri Yusifovun, Milli Bankın idarə heyətinin sədri Rüstəmovun, Baş Dövlət Vergi Müfəttişliyinin rəisi Vəkilovun və Dövlət Gömrük Komitəsinin sədri Heydərovun məruzələri dinləniləcəkdir.

İqtisadi islahatların sosial yönümünün gücləndirilməsi çox mühüm məsələdir. Çünki iqtisadiyyat sahəsində bütün işlərimiz, fəaliyyətimiz yalnız və yalnız xalqımızın rifah halının yaxşılaşdırılmasına, sosial

problemlərin həll edilməsinə həsr olunubdur. Ona görə də biz bu məsələni daim diqqətdə saxlamalıyıq və bu məsələ Nazirlər Kabinetinin həmişə diqqət mərkəzində olmalıdır. Bu məsələ barədə Sosial Təminat nazirinin müavini Rəhimov və Dövlət Sosial Müdafiə Fondunun sədri Ələkbərov məruzə edəcəklər.

Xarici iqtisadi əlaqələrin vəziyyəti və onların səmərəliliyinin artırılması yolları barədə Xarici İqtisadi Əlaqələr nazirinin birinci müavini Qüdrət Quliyev məruzə edəcəkdir.

Bunlar əsas məruzələrdir. Amma bununla yanaşı, bizim bir neçə böyük iqtisadi kompleksin rəhbərlərini də dinləmək nəzərdə tutulur. O cümlədən, məsələn, Dövlət Neft Şirkətinin, "Azərkimya" Dövlət Şirkətinin, "Azərenerji" Dövlət Şirkətinin, "Azneftkimyamaş" Dövlət Şirkətinin prezidentlərini, dəmir yolunun rəisini, Yeyinti Sənayesi Şirkətinin rəhbərini, kənd təsərrüfatı nazirini, əgər vaxt olsa, rabitə nazirini, Xəzər Gəmiçiliyinin və başqa komplekslərin rəhbərlərini də dinləyəcəyik.

Ancaq eyni zamanda, dəvət olunmuş hər bir şəxs müzakirədə iştirak edə bilər və mənim gündəlikdə elan etdiyim çıxışlar onlara maneçilik törətmir və digər komplekslərin rəhbərlərinin çıxışlarına sədd qoymur. Bu gün biz çox ətraflı müzakirə aparmalıyıq. Məsələ çox böyük, əhatəli olduğuna görə nəzərdə tutulur ki, iclas iki gün müddətində keçirilsin bu gün və sabah. Əgər Nazirlər Kabineti vaxtlı-vaxtında ayrı-ayrı məsələlərin müzakirəsi ilə məşğul olsaydı və lazımi tədbirlər görsəydi, bəlkə də bu məsələlərin hamısının birlikdə belə böyük həcmdə müzakirəsinə ehtiyac olmazdı. Yaxud da ola bilərdi ki, bu məsələlərin bir qismi bir vaxt, digər qismi başqa vaxt müzakirə olunardı. Bəlkə də bu, daha səmərəli olardı. Ancaq nə etmək olar ki, yarım il müddətində bu işlər lazımi səviyyədə aparılmayıbdır. [112-113]

Bunların hamısı Nazirlər Kabinetinin iclasının bu tərkibdə, bu gündəlikdə keçirilməsini, bir çox məsələlərin hamısının kompleks halında iki gün müddətində müzakirə edilməsini tələb edir. Güman edirəm ki, bu müzakirə səmərəli olmalıdır. Əvvəlcədən xəbərdarlıq edirəm ki, çıxış edən şəxslər konkret məlumatlar versinlər, konkret təkliflər irəli sürsünlər, konkret sözlər desinlər. Çünki bəzi rəhbər vəzifəli şəxslərimiz ümumi danışıqlarla çox vaxt mənim də vaxtımı alırlar və ümumi müzakirənin də vaxtını aparırlar. Ona görə də mən əvvəlcədən xəbərdarlıq edirəm: konkret təklif vermək, fikir söyləmək istəyən adam üçün hər bir imkan yaradılacaqdır. Ancaq əgər ümumi danışıqlara, ümumi fikirlərə cəhd olacaqdırsa, ona yol verilməyəcəkdir.

Bugünkü iclasımız konkret iqtisadi xarakter daşıyır. Buna görə də çox konkret və əsas iqtisadi məsələlərimizlə əlaqədar həm çıxışlar qurulmalı, həm də təkliflər verilməlidir.

Mən təklif edirəm ki, işi belə quraq. Saat 1-ə qədər işləyək, bir saat fasilə edək, sonra isə axşam saat 7-dək iclası davam etdirək. Sabah da yenə səhər saat 11-dən işə başlayacağıq.

Bilirsiniz ki, Nazirlər Kabinetinin iclaslarında və başqa toplantılarımızda mən bizim rəhbər vəzifəli şəxsləri bir neçə dəfə xəbərdar etmişəm ki, müstəqil Azərbaycan Respublikasında dövlət dilimiz, ana dilimiz, Azərbaycan dili hər yerdə – bütün sənədlərimizdə, bütün iclaslarımızda, bütün yığıncaqlarımızda, toplantılarımızda işlənməlidir. Təəssüflər olsun ki, bəzi rəhbər vəzifəli şəxslərimiz təhsillərini keçmişdə rus dilində aldıqlarına görə və uzun illər öz işlərində yalnız rus dilindən istifadə etdiklərinə görə Azərbaycan dilini zəif bilirlər. Bu, anlaşıla bilər, çünki o dövrdə, əvvəlki illərdə keçmiş Sovetlər İttifaqının başqa yerlərində olduğu kimi, Azərbaycanda da dövlət işlərində əsasən rus dili işlədilirdi. Mən bir daha demək istəyirəm, bu barədə heç kəsə irad tutmaq, yaxud da onları tənqid etmək fikrində deyiləm. Bu, o dövrün tələbləri, o dövrdə yaranmış vəziyyət ilə əlaqədar olan bir haldır. Amma eyni zamanda biz üç ildir ki, yaxud beşinci ildir ki, müstəqil dövlətdə yaşayırıq. Azərbaycan müstəqil dövlətdir. Üç il dedim, çünki üç ildir ki, mən buraya gələndən, Azərbaycanda bu işə başlayandan həmin məsələləri dəfələrlə irəli sürmüşəm. Hesab edirəm ki, [113-114] bu müddət bizim hər bir rəhbər vəzifəli şəxsimiz üçün yetərlidir ki, Azərbaycan dilini öyrənsin, mənimsəsin.

Ancaq nədənsə bəziləri hələ ki, bu barədə istənilən nailiyyəti əldə edə bilməyiblər. Buna görə də təəccüb etmək lazım deyil. Məsələn, Fuad Quliyev də, Səməd Sadıqov da məndən xahiş ediblər, mən də razı olmuşam ki, onlar burada öz məruzələrini rus dilində etsinlər. Bununla rus dilinə heç də hansısa mənfi münasibət bildirilmir. Rus dili bizim üçün çox hörmətli bir dildir, bu dildən xalqımız çox səmərəli istifadə edir və bir xarici ölkənin dili kimi bu dil bizim üçün bu gün də lazımdır. Kim bu dili də bilirsə, onun üstünlüyü var. Ancaq bununla yanaşı, biz ölkəmizdə, respublikamızda dövlət dilimizin, ana dilimizin hər yerdə işlənməsinə nail olmalıyıq.

Mən bu barədə hamıya bir daha müraciət edirəm və xüsusən rəhbər vəzifəli şəxslərdən tələb edirəm ki, onlar dövlət dilini öyrənmək üçün lazımi əlavə tədbirlər görsünlər və buna nail olsunlar. Bunu etmək lazımdır, hətta zəruridir. Heç kəs fikirləşməsin ki, sabah yenə də elə bir vəziyyət yaranacaq ki, Azərbaycan dili lazım olmayacaqdır. Azərbaycan dili həmişə lazım olacaq və onsuz yaşamaq mümkün olmayacaqdır.

Mən bu izahatı birincisi, ona görə verirəm ki, sizdə və – bizim bu iclasımız televiziya vasitəsilə bütün respublikaya yayılır – heç kəsdə bu barədə bir anlaşılmazlıq olmasın. Eyni zamanda bu fürsətdən istifadə edib, bu məsələnin çox zəruri olduğunu bir daha qeyd edirəm.

## YEKUN NİTQİ

Müzakirələrə yekun vurmaq vaxtı gəlib çatıbdır. Dünən və bu gün biz respublikamızın həyatı üçün çox böyük əhəmiyyəti olan məsələləri ətraflı müzakirə etdik. Məsələlərin müzakirəsinin gedişi, çıxışlar və nəhayət, bu gün müzakirə sona çatarkən yaranmış təəssürat onu göstərir ki, biz çox dəyərli və əhəmiyyətli iş görmüşük. Bildiyiniz kimi, bu müzakirələr respublikamızda iqtisadiyyatın vəziyyəti ilə bağlı mövcud olan zərurətdən meydana çıxmışdır.

İyun ayının 28-də mən Nazirlər Kabinetinin rəhbərliyi ilə görüşərkən iqtisadiyyatda olan vəziyyət və bəzi problemlər haqqında, eyni zamanda Nazirlər Kabinetinin işi ilə əlaqədar narazılığımı və narahatçılığımı, xüsusən bu il yanvar ayının 8-də Nazirlər Kabinetinin geniş iclasında qəbul olunmuş iki qə[114-115]rarın həyata keçirilməsi ilə əlaqədar buraxılan səhvlər, yəni bu məsələlərin, bu qərarların həyata keçirilməməsi haqqında öz fikrimi bildirdim. Mən hiss etdim ki, belə bir geniş, ətraflı müzakirə keçirməyə ehtiyac var və qərar qəbul olundu ki, iyul ayının 18-də Nazirlər Kabinetinin geniş iclası keçirilsin, bu iclasa da prezident özü rəhbərlik etsin.

Mən dünən müzakirələrə başlayarkən bildirdim ki, Nazirlər Kabinetinin işində təşkilati nöqteyi-nəzərdən çatışmazlıqlar çoxdur. Əgər onlar olmasaydı, Nazirlər Kabinetinin işi ardıcıl, davamlı olaraq, planlı şəkildə həyata keçirilsəydi bəlkə mənim bu məsələlərə bu qədər müdaxilə etməyimə ehtiyac olmazdı. Çünki Nazirlər Kabinetinin çox böyük səlahiyyəti var və o, həmin səlahiyyətlər çərçivəsində iqtisadiyyata, sosial sahəyə və həyatımızın bütün sahələrinə aid olan məsələləri araşdırıb müzakirə etmək hüququna malikdir və bu səlahiyyətlərindən istifadə etməlidir. Ancaq təəssüflər olsun ki, Nazirlər Kabinetində iş bu cür təşkil edilməyibdir. Ona görə də qəbul olunmuş bir çox qərarların, o cümlədən bu ilin yanvar ayında qəbul edilmiş iki qərarın icrası da lazımi səviyyədə olmamışdır. Məhz bunlara görə iyul ayının 18-də belə müzakirənin başlanmasına ehtiyac vardı. Ancaq indi, müzakirə sona çatarkən, hesab edirəm ki, mən iyun ayının 28-də bu müzakirə haqqında, Nazirlər Kabinetinin geniş iclası haqqında qərarı qəbul edərkən bəlkə də heç təsəvvür etmirdim ki, müzakirə belə ətraflı, prinsipial olacaqdır və eyni zamanda bu müzakirə bizim üçün çox şeyləri açacaqdır. Ona görə də mən hesab edirəm ki, biz səmərəli iş görmüşük və bu müzakirə işdə, bizim gələcək işlərimizdə, xüsusən buraya toplaşanların və onların rəhbərliyi altında işləyən orqanların, təşkilatların əməli fəaliyyətində öz əksini tapmalıdır.

Biz iki gün müddətində respublikamızın həyatının çox mühüm bir sahəsini – sosial-iqtisadi sahəni, demək olar ki, ətraflı təhlil etdik. Burada həm indiki vəziyyətə, 1996-cı ilin birinci yarısının yekunlarına, həm də keçən illərə – 1994-95-ci illərə, hətta ondan əvvəlki illərə də nəzər saldıq. Hesab edirəm ki, iqtisadiyyatımızın vəziyyəti və onun qarşısında duran problemlər bu iki gün müddətində həm bizim üçün, həm də bizi canlı yayım vasitəsilə dinləyən Azərbaycan vətəndaşları üçün daha da aydın oldu. Bizim işimizdə bir prinsip həmişə əsas olmalıdır. Biz hər bir məsələni obyektiv qiymətləndirməli, obyektiv araşdırmalı, obyektiv təhlil etməliyik. Güman edirəm ki, dü[115-116]nən və bugünkü kimi belə bir obyektiv təhlil əldə olunub. Şübhəsiz ki, biz hər məsələnin dərindən, daha ətraflı təhlil olunması səviyyəsinə qalxa bilmədik və bu da bu müddətdə mümkün deyildi. Ancaq hər halda respublikanın sosial-iqtisadi həyatının son illərdəki vəziyyət və xüsusən 1993-94-95-ci illərdə və 1996-cı ilin birinci yarısında olan vəziyyət, mövcud olan problemlər və eyni zamanda nöqsanlar, çatışmazlıqlar və bizi narahat edən başqa məsələlər müzakirə olundu. Hesab edirəm ki, müzakirə belə ümumi bir təsəvvür yaratmaq üçün əsas verir.

Biz bu gün işimizi qiymətləndirərkən və nöqsanlarımızı çox ciddi tənqid edərkən geriyə də baxmalıyıq və qeyd etdiyim kimi, hər bir şeyə obyektiv qiymət verməliyik. Respublikamız, ölkəmiz bir çox obyektiv səbəblərdən son illərdə, demək olar ki, 1988-ci ildən sosial-iqtisadi sahədə get-gedə tənəzzülə uğrayıb və bunun nəticəsində iqtisadi sosial böhran mövcuddur. Bunların obyektiv səbəbləri var və o barədə dünən də, bu gün də danışılıb, deyilib. Ancaq eyni zamanda özümüzün işimizdən asılı olan səbəblər də var. Biz respublikamızın sosial-iqtisadi vəziyyətinin ağır halda olduğunu daim qeyd edərək, eyni zamanda atılan addımları da, görülən işləri də, müsbət nəticələri də, bəzən ümumi işdə xırda da olsa müsbət halları da görməliyik və qeyd etməliyik.

1993-cü ili xatırlamaq lazımdır. Üç il bundan qabaq, 1993-cü ilin iyun-iyul aylarında Azərbaycan nə vəziyyətdə idi? Azərbaycan böyük təhlükə qarşısında idi, fəlakət burulğanında boğulurdu. Azərbaycan artıq parçalanırdı. Azərbaycanda dövlət böhranı baş vermişdi. Bunlar hamısı bir gündə meydana çıxan şey deyildi. Bunlar 1993-cü ildən əvvəl, o illərdə Azərbaycanda gedən sosial-iqtisadi və ictimai-siyasi proseslərin məntiqi nəticəsi idi. Respublika o illərdə o qədər ağır bir vəziyyətə düşmüşdü ki, həm Ermənistanın hərbi təcavüzü, həm də ki, daxildə gedən ictimai-siyasi proseslər, xaricdən Azərbaycana göstərilən cürbəcür təsirlər ölkəmizdə çox gərgin bir vəziyyət yaratmışdı. Belə bir vəziyyətdə iqtisadiyyat haqqında düşünmək şübhəsiz ki, bəlkə də çox çətin idi. Bir tərəfdən müharibə gedirdi və Azərbaycanın daxilində gedən bu çəkişmələr, hakimiyyət mübarizəsi, Azərbaycanı parçalamağa cəhd edən qüvvələrin hərəkətləri nəticəsində təəssüflər olsun ki, müharibə də bizim üçün uğursuz gedirdi. İkinci tərəfdən isə içəridə qarma-qarışıqlıq var idi. [116-117]

Ona görə də 3 il müddətində Azərbaycanın belə ağır vəziyyətdən, fəlakətli bir vəziyyətdən bugünkü vəziyyətə gəlib çıxması, mən hesab edirəm ki, böyük nailiyyətdir, xalqımızın nailiyyətidir, bizim müstəqil

Azərbaycan Respublikasının, dövlətinin nailiyyətidir. Bu, dövlət işləri ilə məşğul olan bütün şəxslərin, orqanların nailiyyətidir. Ona görə də mən Azərbaycanda əvvəlki illəri demirəm, hesab edirəm ki, ciddi iqtisadi məsələlərlə məşğul olmağa o vaxt da imkan yox idi, ancaq kimin hansı vəzifədə olması, kimin hansı vəzifəni tutması üstündə dava gedirdi. Və o illərdə də, 1993-1994-cü illərdə də iqtisadiyyatla ciddi məşğul olmaq və iqtisadiyyatı bu böhran vəziyyətindən çıxarmaq üçün yararlı addımlar atmaq barədə fikirlər daim vardı. Ancaq bu fikirlərin əməli surətdə həyata keçirilməsi həmin vəziyyətlə əlaqədar idi.

Bugünkü vəziyyət ondan ibarətdir ki, artıq respublikamızda ictimai-siyasi sabitlik yaranıbdır. İki ildir ki, müharibə yoxdur. Doğrudur, biz bunu böyük nailiyyət hesab edə bilmərik. Çünki respublikamıza qarşı edilmiş bu təcavüz aradan götürülməyibdir, torpaqlarımızın 20 faizi işğal altındadır və işğal olunmuş torpaqlardan didərgin düşmüş 1 milyondan artıq vətəndaşımız çox ağır vəziyyətdədir, əksəriyyəti çadırlarda yaşayır. Elə iki il bundan öncə də vəziyyət belə idi – torpaqlar da işğal olunmuşdu, qaçqınlar da var idi, vəziyyət də ağır idi. Ancaq eyni zamanda döyüşlər gedirdi, hər gün şəhidlər gəlirdi, hər gün qan tökülürdü. İki ildir ki, müharibə getmir. Əgər iki il bundan öncə biz müharibəni – Ermənistanla gedən müharibəni saxlaya bildiksə, ancaq Azərbaycanın daxilində olan ayrı-ayrı silahlı dəstələrin, silahlı qüvvələrin, terrorçu qrupların, təxribatçı qrupların Azərbaycan dövlətçiliyinə etdiyi xəyanətləri biz, demək olar ki, ancaq 1995-ci ilin ortasından başlayaraq dayandıra bildik. Əgər 1994-cü ilin may ayında biz atəşi dayandıra bildiksə, Ermənistanla Azərbaycan arasında atəşi dayandırdıqsa, daxildə gedən, yenə də deyirəm, daxili müharibəni, terrorçuların, qeyri-qanuni dəstələrin, siyasi müxalifətin, yaxud da ki, hərbi müxalifətin, cürbəcür yaramaz ünsürlərin Azərbaycan dövlətçiliyinə qarşı yönəltdikləri hərəkətlərin qarşısını yalnız 1995-ci ilin ortalarında ala bildik və sabitlik yarada bildik.

Təsəvvür edin, 1993-cü ildə Azərbaycan, Bakı fövqəladə vəziyyət şəraitində idi, heç şəhərə çıxmaq mümkün deyildi. 1994-cü ildə fövqəladə vəziyyət yox idi. Onu biz artıq sentyabr [117-118] ayında götürdük. Ancaq 1994-cü ildə də vəziyyət o qədər gərgin idi ki, insanların bir çoxu qorxurdu. Çünki cürbəcür qruplar, cürbəcür dəstələr hələ mövcud idi, onların bir qismi bizim yüksək səviyyəli dövlət orqanlarında işləyirdi: baş nazir vəzifəsindən tutmuş, milli təhlükəsizlik naziri, kənd təsərrüfatı naziri vəzifələrində, başqa nazirliklərdə, yerlərdə işləyirdilər. Bunların hamısı, şübhəsiz ki, respublikamızda sosial-iqtisadi problemlərimizin həll edilməsini, bu məqsədlə lazımi qərarların qəbul olunmasını və onların həyata keçirilməsini ləngidirdi. Ancaq bütün bunlara baxmayaraq biz elə 1993-cü ildə də həmin bu strategiya ilə, bu strateji prinsiplərlə işimizə başlamışıq. Yəni əgər biz sosial-iqtisadi problemləri bu gün müzakirə ediriksə, onları ictimai-siyasi problemlərdən heç vaxt ayırmaq olmaz. Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz.

İqtisadiyyatda olan problemləri həll etmək üçün, yenə də deyirəm, biz hələ 1994-cü ildə müstəqil Azərbaycan dövlətinin bütün sahələrində, o cümlədən iqtisadiyyat sahəsində, sosial sahədə strateji xəttini müəyyən etmişdik. Xatirinizdədir, mən respublikanın prezidenti seçiləndən sonra andiçmə mərasimində Azərbaycanın müstəqil dövlət kimi, müstəqil respublika kimi siyasi-iqtisadi proqramı haqqında öz fikirlərimi söylədim və dedim ki, Azərbaycanda hüquqi, demokratik, sivilizasiyalı dövlət qurulur, demokratik proseslər gedir və gedəcəkdir, demokratik cəmiyyət yaranır, Azərbaycanda siyasi plüralizm, insan azadlığı, insanlar üçün bütün azadlıqlar bərqərar olur, Azərbaycan dünya iqtisadiyyatına inteqrasiya üçün addımlar atacaqdır, öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirəcəkdir. Azərbaycanda sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı, sahibkarlıq prinsipləri yaranacaq, bərqərar olacaq və inkişaf edəcəkdir.

Bunlar 1993-cü ildə elan olunubdur və o vaxtdan indiyə qədər Azərbaycanda dövlət tərəfindən ardıcıl surətdə həyata keçirilir. Bu baxımdan mən hesab edirəm ki, bizim iqtisadiyyat sahəsində əldə etdiyimiz nailiyyətlər Azərbaycanın ictimai-siyasi sahədə əldə etdiyi nailiyyətlərlə və beynəlxalq aləmdə apardığı siyasətlə və gördüyü tədbirlərlə sıx bağlıdır. Biz müstəqil bir dövlət kimi, dünyadan təcrid olunmuş vəziyyətdə yaşaya bilmərik. Müstəqil dövlət bütün dünya dövlətləri ilə iqti[118-119]sadi əlaqələr qurmalıdır, siyasi əlaqələr qurmalıdır, bütün əlaqələri qurmalıdır. Hesab edirəm ki, bu müddətdə biz bu əlaqələri lazımi səviyyədə qurub yarada bilmişik. Azərbaycanın həm daxili siyasətdə, həm də xarici siyasətdə apardığı tədbirlər nəticəsində beynəlxalq aləmdə Azərbaycanın hörməti, Azərbaycanın adı, Azərbaycanın imici tamamilə dəyişilibdir. Azərbaycan Respublikası tanınır. Azərbaycan dövlətinə böyük dövlətlər və dünyanın bütün dövlətləri hörmətli münasibət göstərir, Azərbaycan beynəlxalq təşkilatların üzvü olaraq bu təşkilatlarda fəaliyyət göstərir və Azərbaycana maraq günü-gündən artır.

Məhz bunun nəticəsidir ki, artıq 1994-cü ilin sentyabr ayında biz "Əsrin müqaviləsi" adlanan böyük neft müqaviləsini imzaladıq. Bu addımı atmaq asan iş deyildi. Məlumdur, indi get-gedə aydınlaşır ki, o müqavilənin bağlanmasına Azərbaycanın həm daxilində, həm xaricində və xüsusən bir çox dairələrdə, bir çox böyük ölkələrdə nə qədər qısqanclıq, eyni zamanda nə qədər mənfi münasibət var idi. Biz bunların hamısının öhdəsindən gələ bildik. Yəni bunlar bizim qarşımızı ala bilmədi. Biz cəsarətli addımlar atdıq, müqaviləni imzaladıq və bu yaxınlarda iki il tamam olacaqdır ki, bu müqavilə imzalanıbdır, əməli surətdə həyata keçirilir. Ondan sonra biz daha iki böyük müqavilə imzaladıq – 1995-ci ilin noyabr ayında və 1996-cı ilin iyun ayının əvvəlində. Bunlar onu göstərdi ki, biz tutduğumuz yol ilə ardıcıl surətdə və cəsarətlə gedirik və bu müqavilələr

dünyanın bir çox ölkələrindən, bir çox böyük şirkətlərindən Azərbaycana çox böyük məbləğdə kapital qoyuluşuna gətirib çıxaracaqdır və şübhəsiz ki, gələcəkdə böyük işlər görmək imkanı yaradacaqdır.

Azərbaycanın elektrik enerjisi ilə əlaqədar bu günlərdə müzakirə zamanı mən dedim, bir də qeyd etmək istəyirəm. Azərbaycan Respublikası müstəqilliyini elan edərkən həm Sovetlər İttifaqında, həm də dünyada, yəni Azərbaycanla maraqlanan dairələrdə, ölkələrdə məlum idi ki, Azərbaycan keçmiş Sovetlər İttifaqı respublikaları içərisində müstəqil yaşamaq üçün ən əlverişli şəraiti olan ölkədir. Azərbaycanın təbii sərvətləri və eyni zamanda iqtisadi potensialı buna imkan verir. Bəli, Azərbaycan bu təbii sərvətlərdən keçmiş zamanlarda da istifadə edibdir. Təkcə Azərbaycan yox, bütün Sovet İttifaqı çox istifadə edibdir. Ancaq eyni zamanda Azərbaycanda böyük iqtisadi potensial, böyük sənaye potensialı yaranmışdır. [119-120]

Məsələn, 1970-ci illərdə və 1980-ci illərin əvvəllərində biz Azərbaycanın energetika müstəqilliyini təmin etmişdik. Burada İmanov dedi, bu fikir çox əhəmiyyətli fikirdir. Mən istəyirəm ki, hamı dərk edə bilsin. Keçmişdə biz Sovetlər İttifaqının tərkibində olanda SSRİ-nin ümumi energetika sistemi var idi və ölkədə belə bir fikir var idi ki, hər bir respublika çalışmamalıdır ki, özü üçün müstəqil energetika sistemi yaratsın. Ölkənin ümumi energetika sistemi var, elektrik enerjisi sistemi var və bu energetika sistemindən hər bir respublika istədiyi qədər istifadə edə bilər. Belə bir sistem yaranmışdı, bu sistem var idi. Bəlkə bir tərəfdən bu, həqiqətən iqtisadi prinsiplər nöqteyi-nəzərindən yaradılmışdı, ikinci tərəfdən də – artıq bunu tam qətiyyətlə demək olar ki, belə bir sistem Sovetlər İttifaqına mənsub olan respublikaları daim bir-birinə bağlı saxlamaq üçün yaradılmışdı.

Ancaq buna baxmayaraq, biz o illərdə, 70-ci illərdə ardıcıl surətdə çalışırdıq ki, Azərbaycanın ərazisində özünü təmin edən miqdarda elektrik enerjisi istehsal etmək üçün elektrik stansiyaları olsun. Bəli, bu, həqiqətdir. Biz bunun üzərində çalışırdıq, mən bunu özümün əsas vəzifələrimdən biri hesab edirdim. Hətta xatirinizdədir ki, atom elektrik stansiyaları dəbə düşəndə biz Azərbaycanda da – Ələt tərəfdə bir atom elektrik stansiyasının tikilməsi haqqında planlar qurduq. İndi bu, keçmişdə qalıb, ona görə mən həqiqəti deyə bilərəm. O vaxt mənim Azərbaycanda atom elektrik stansiyasının tikilməsi barədə fikrim yox idi. Sadəcə olaraq bu, mənim tərəfimdən lazımi bir addım idi. Çünki Gürcüstanın elektrik enerjisi çatmırdı, onlar məsələ qoymuşdular ki, atom elektrik stansiyası tikilsin və təəssüflər olsun ki, cürbəcür yollarla həmin elektrik stansiyası üçün gətirib bizim sərhədimizdə, Mingəçevir su hövzəsindən təxminən 5-6 kilometr uzaqlıqda Gürcüstanın Azərbaycanla lap sərhədində yer seçmişdilər.

Biz buna etiraz etdik. Çünki bu, bizim respublika üçün təhlükə idi. Ancaq gördüm ki, bizim etirazımız nəticə vermir, onda biz məsələ qoyduq ki, atom elektrik stansiyası Gürcüstanda yox, Azərbaycanda tikiləcəkdir. Sübut etdik ki, Azərbaycanda atom elektrik stansiyası daha da ucuz başa gələcəkdir. Xatirimdədir, mən Moskvada işləyəndə yanıma gəlib, yenə də bu atom elektrik stansiyası üçün çox çalışan Gürcüstandan olan dostlarıma Çernobıl hadisəsi başlayandan sonra dedim ki, nə cür edək, indi tikəkmi Gürcüstanda atom-[120-121]elektrik stansiyası, yoxsa yox? Yəni bu barədə də mən müəyyən aydınlıq yaratmaq istəyirəm. Biz respublikanın elektrik enerjisi sahəsində müstəqil təminatına çalışdıq və buna da nail olduq.

Amma bir bu deyil. Respublikamızda yaranmış sənaye potensialı Azərbaycanın müstəqil yaşaması üçün yaxşı əsas verir. Əgər bunlar olmasaydı, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ən ağır və çətin vəziyyətdə qalardı. İndi isə biz neft müqavilələri ilə, – "Əsrin müqaviləsi" – 1995-ci ildə imzalanmış neft müqaviləsi, 1996-cı ilin iyununda imzalanmış neft müqaviləsi ilə Azərbaycan xalqının 30-40 illik gələcəyi üçün çox gözəl bir iqtisadi əsas yaratmışıq. Yəni biz bu müqavilələri bu gün üçün yox, sabah üçün yox, hətta 5 il üçün yox, 10-15-20 il bundan sonra Azərbaycan Respublikasının müstəqil yaşaması üçün və Azərbaycan vətəndaşlarının rifah halının lazımi səviyyədə olması üçün imzalamışıq. Mən əminəm ki, bunlar öz nəticəsini verəcək və Azərbaycanın gələcək nəsilləri bizim gördüyümüz işləri layiqincə qiymətləndirəcəklər.

Bu neft müqavilələrinin imzalanması təkcə neft şirkətləri ilə, yaxud onların mənsub olduqları ölkələrlə iqtisadi əlaqələrimizin inkişaf etməsi demək deyildir. Bu neft müqavilələrinin imzalanması bir çox başqa böyük şirkətlərin də Azərbaycana gəlməsinə səbəb olmuşdur. Bir tərəfdən ona görə ki, o şirkətlər həmin bu neft müqavilələrinin həyata keçirilməsi üçün yaranmış konsorsiumlarla müştərək işlər görürlər, ona görə gəlirlər. İkinci tərəfdən isə bu müqavilələrin imzalanması, böyük neft şirkətlərinin Azərbaycana böyük miqdarda kapital qoyması faktı, demək, başqa şirkətlərə də anladır ki, bəli, Azərbaycana kapital qoymaq olar, Azərbaycanda gəlib iş görmək olar. Geniş mənada, geniş miqyasda bunların mənası bundan ibarətdir.

Neft şirkətləri yenə də gəlirlər Azərbaycana. Bizə yeni-yeni şirkətlər gəlir. Mənə xəbər verdilər ki, Amerikanın ən böyük neft şirkəti olan "Eksson" şirkətinin prezidenti yenə də gəlib sabah mənimlə görüşmək istəyir. Onların burada yeni təklifləri var; mən söz vermişəm, sabah saat 2-də onu qəbul edəcəyəm. Bir neçə gün bundan qabaq Amerikanın ən böyük şirkətlərindən biri olan "Şevron" şirkətinin prezidenti gəlmişdi, mən onu qəbul etdim. Onlar Qazaxıstanda çox böyük işlər görürlər. Rusiyada işlər görürlər. İndi Azərbaycanda da iş gör[121-122]mək istəyirlər və bir neçə çox əhəmiyyətli təklifləri var. Amerikanın böyük "Mobil" şirkətinin prezidenti gəlmişdi, o da müəyyən təkliflər irəli sürmüşdü. Bu təkliflərə də biz baxmışıq, müsbət münasibət bildirmişik. Fransanın "Elf Akiten" şirkəti bizim imzaladığımız son müqavilədə yer alıbdır, ancaq əlavə işlər görmək istəyir, əlavə təklifləri var. Rusiyanın "LUKoyl" şirkəti bizim bütün müqavilələrin üzvüdür, amma eyni zamanda əlavə işlər görmək istəyir, təklifləri var.

Bunların hamısı bir tərəfdən gələcəkdə bizim iqtisadi imkanlarımızı genişləndirir, ikinci tərəfdən də əgər belə böyük şirkətlər Azərbaycana gəlib kapital qoyurlarsa, onlar Azərbaycanla uzunmüddətli əlaqəyə girirlər və uzun müddət bağlı olurlar. Bütün bunların Azərbaycan üçün həm iqtisadi əhəmiyyəti, həm də siyasi əhəmiyyəti var. Bunların hamısı, yenə də deyirəm, Azərbaycana xarici ölkələrin sərmayəsinin gətirilməsinə çox şərait yaratdı.

Bu baxımdan keçən ilin noyabr ayında Londonda Adam Smit İnstitutunun keçirdiyi konfransda bizim iştirakımız və o konfransda Azərbaycanın iqtisadi imkanları haqqında, ölkəmizə sərmayə qoyulması haqqında verilən məlumatlar Azərbaycana olan marağı çox artırıbdır. Ondan sonra Azərbaycana çox şirkətlər gəlmişdir. Bilirsiniz, aprel ayında mən Norveçdə olmuşam. Norveç böyük dövlət deyil, kiçik bir dövlətdir. Bəlkə heç də hamının təsəvvürü yoxdur ki, indi Azərbaycanda Norveçin 45-ə qədər şirkətinin ofisi var. Bilirsiniz bunların hamısının Azərbaycan üçün bütün başqa əhəmiyyətini kənara qoysaq belə, bunlar Azərbaycanın mənzərəsini, Bakının mənzərəsini dəyişdirir.

Məsələn, indi Yaponiya Azərbaycana çox böyük maraq göstərir. Birincisi, Yaponiyanın "İtoçi" şirkəti bizim konsorsiumda "Pennzoyl" şirkətinin payının bir hissəsini alaraq iştirak edir. İkincisi, onlar bilavasitə Azərbaycanda neft sahəsində bizimlə müştərək iş görmək istəyirlər. Şirkətin prezidenti Azərbaycana gəlmişdi, qəbul etdim onları, danışıqlar aparılır və bu yaxınlarda davam etdiriləcəkdir. Hiss olunur ki, Yaponiyanın təkcə "İtoçi" şirkəti yox, bir neçə başqa şirkəti də Azərbaycana çox meyl göstərir. Artıq onlar da nümayəndəliklərini açıblar.

İndi təsəvvür edin, əgər üç il bundan qabaq Azərbaycanda xarici səfirliklərdən savayı heç bir nümayəndəlik yox idisə, gör indi neçə xarici şirkətlərin burada nümayəndəlikləri var, ofisləri var – gəlirlər, gedirlər, iş görürlər. Bunlar hamısı Azərbay[122-123]canın müasir, indiki mənzərəsidir. Bu mənzərə də Azərbaycanın iqtisadiyyatında gedən prosesləri əks etdirir. Azərbaycanın dünya iqtisadiyyatına bağlanmasını, ölkəmizin qapılarının dünya iqtisadiyyatı üçün açıq olmasını və beləliklə, Azərbaycanın qətiyyətlə bazar iqtisadiyyatı yolu ilə, dünyanın sərbəst iqtisadiyyatı yolu ilə getməsini bir daha sübut edir.

Bunlar böyükmiqyaslı işlərdir, ancaq bunlarla yanaşı, hesab edirəm ki, biz Azərbaycanın daxili imkanlarından səmərəli istifadə olunması üçün son illərdə çox əhəmiyyətli işlər görmüşük və bu da öz nəticəsini vermişdir. Bilirsiniz ki, 1994-95-ci illərdə prezidentin bir neçə fərmanı olubdur. O fərmanlarla iqtisadiyyatda liberallaşma proseslərinin aparılması və onun gücləndirilməsi, ixracın, idxalın liberallaşdırılması və ümumiyyətlə, iqtisadiyyatda özəl sektorun inkişaf etməsi üçün çox böyük yollar açmışıq, böyük işlər görmüşük.

Xatirinizdədir. 1993-cü ildə və yaxud 1994-cü ildə biz hər ay müzakirə edirdik ki, filan məhsulun qiyməti nə təhər oldu. İndi Azərbaycanda bütün qiymətlər buraxılıbdır, bütün qiymətlər liberallaşdırılıbdır. Bu özü Azərbaycanda struktur dəyişikliklərinin ən gözəl təzahürüdür. Qiymətlərin liberallaşdırılması nəticəsində də özəl sektor Azərbaycanda artıq çox geniş fəaliyyət göstərir. Biz geniş özəlləşdirmə proqramını qəbul etmişik. Bu barədə mən öz fikirlərimi deyəcəyəm. Ancaq bizim qəbul etdiyimiz qanunlar nəticəsində, – iqtisadiyyatın tənzimlənməsi ilə əlaqədar biz təxminən 100-ə yaxın qanun qəbul etmişik, – prezidentin verdiyi fərmanlar əsasında, Nazirlər Kabinetinin bu prezident fərmanları ilə əlaqədar qəbul etdiyi qərarlar əsasında iqtisadiyyatda sərbəstləşmə, liberallaşma, idxal-ixrac prosesində liberallaşma və bunların sadələşdirilməsi artıq göz qabağındadır. Bunların nəticəsidir ki, indi, yenə də deyirəm, Azərbaycanda qiymətlər sərbəstləşdirilibdir və bu qiymətləri bazar, konyunktura müəyyənləşdirir. Bunlar hamısı iqtisadiyyatda gedən müsbət proseslərdir. Bu proseslər gedir, bəlkə bəziləri bunları müşahidə edə bilmirlər, hiss edə bilmirlər, yaxud da ki, dərk edə bilmirlər. Amma bunlara baxsanız, bir-birinin ardınca atılan bu addımlar Azərbaycanda bugünkü sərbəstlik, iqtisadiyyatda sərbəstlik vəziyyətini yaradıbdır.

İqtisadiyyatda struktur dəyişiklikləri, şübhəsiz ki, bu dediyim tədbirlərlə həyata keçirilir, amma hələ bu barədə çox böyük işlər aparılır. Ona görə də biz dünən də, bu gün də bu [123-124] müzakirənin mərkəzində iqtisadiyyatda struktur dəyişikliklərini bir əsas vəzifə kimi yenidən qarşıda qoyuruq, yenidən diqqət mərkəzinə çəkirik. Bu barədə çox işlər görülməlidir. Qlobal nöqteyi-nəzərdən bu tədbirlər özəlləşdirmə ilə əlaqədardır. Ancaq hər bir sahədə aparılan struktur dəyişiklikləri mövcud imkanlardan səmərəli istifadə etməkdən, bunu bazar iqtisadiyyatına uyğun etməkdən ibarətdir.

Bilirsiniz, bazar iqtisadiyyatı təkcə sərbəst iqtisadiyyat demək deyil, bazar iqtisadiyyatı istehsal ilə bazar arasında olan əlaqədir. İstehsal gərək bazar ilə bağlı olsun, bazarın konyunkturası ilə bağlı olsun. Əgər istehsal bazarın konyunkturasına cavab vermirsə, o, ya istehsal etməməlidir, ya da məhsulun növünü, keyfiyyətini dəyişməlidir, onu bazarın tələblərinə uyğunlaşdırmalıdır. Əgər onu edə bilmirsə, demək, bu istehsal ləğv olunmalıdır, müflisləşməlidir. Bəli, bazar iqtisadiyyatı tək elə bir özəlləşdirmədən, xüsusi mülkiyyət yaratmaqdan ibarət deyil. İndi bu yaranan xüsusi mülkiyyətçilərin də hamısı əgər bazar iqtisadiyyatı yolu ilə gedəcəksə, bunlar gərək işlərini bazarın tələblərinə uyğun qursunlar. Özəlləşdirmə və yaxud da mülkiyyətin xüsusiyyətə verilməsi bir ondan ibarət deyil ki, bu, dövlət mülkiyyətində idi, verdim xüsusi mülkiyyətə. Xüsusi mülkiyyətçi bu əmlakdan nə cür istifadə edəcəkdir? Torpaqdır, yaxud istehsal müəssisəsidir, yaxud ticarət müəssisəsidir, məişət müəssisəsidir – bundan nə cür istifadə edəcək? Əgər bazarın tələblərinə uyğun istifadə eləyə biləcəksə, özü üçün, eyni zamanda bizim iqtisadiyyatımız üçün yaxşı nəticə əldə edəcəkdir. Çünki o,

istehsalı artıracaq, istehsalı artıranda büdcəyə verilən vergilər artacaqdır. Həm bazar təmin olunacaqdır, həm də dövlətin mənafeləri təmin olunacaqdır. Ona görə də bu gün biz, məsələn, mövcud istehsal sahələri haqqında söhbət aparırıq. Bu barədə mən öz fikirlərimi deyəcəm. Əsas vəzifə tək ondan ibarət deyil ki, istehsalı artıraq. İndi hər dəfə deyirlər, istehsal aşağı düşüb. Bəli, düşüb. Amma istehsalın aşağı düşməsi sürəti də artıq 1996-cı ilin birinci yarısında azalıbdır. Əgər 1994-95-ci illərdə istehsalın aşağı düşmə sürəti 27 faiz idisə, indi bu 6 ay müddətində 10 faiz olubdur. İstehsalın aşağı düşməsi sürəti azalıbdır. Bu, müsbət nəticə kimi qiymətləndirilir.

Biz adətən həmişə Rusiyaya nəzər salırıq, Rusiya televiziyasında daim bu məlumatlar verilir. Rusiyanın Nazirlər Kabinetində gedən müzakirələrdə də onlar hər dəfə istehsalın [124-125] aşağıdüşmə sürətinin azalmasını müsbət bir hal kimi qiymətləndirirlər. Amma iş burasında deyil. Təsadüfi deyil ki, bu gün, məsələn, Fikrət Sadıqov çıxış edərkən dedi ki, mən istehsalı 35 faiz qaldıracağam, ancaq mən ondan soruşdum və bu gün bir daha deyirəm, – məsələ istehsalın 35 faiz qaldırılmasında deyil. Əgər istehsal 35 faiz qalxacaqsa, istehsal olunan mal indi istehsal olunmuş mal kimi anbarlarda qalacaq və satılmayacaqsa, istehsalın belə qaldırılmasının heç bir əhəmiyyəti yoxdur.

Ona görə də indi struktur dəyişiklikləri bir çox istiqamətlərdə getməlidir və bu istiqamətlərdən biri də – bu barədə mən öz fikirlərimi yenə də sonra deyəcəyəm, – mövcud istehsal sahələrini bu struktur dəyişiklikləri prinsipləri əsasında təşkil etməkdən ibarətdir.

Ancaq geniş mənada, şübhəsiz ki, söhbət mülkiyyətin, mülkiyyət münasibətlərinin dəyişilməsindən gedir, mülkiyyətin özəlləşdirilməsindən gedir. Biz bu barədə böyük bir proqram qəbul etmişik. Kimsə deyir ki, biz gecikmişik, biz ləngimişik. Bilirsiniz, hər ölkənin özünəməxsus spesifikası var. Bir ölkə o birisinə bənzər deyil. Mən bunu dəfələrlə demişəm, bir də deyirəm. MDB-yə daxil olan ölkələrin heç birində belə deyil. Gürcüstanda bəlkə belədir, bəlkə Tacikistanda da müharibə getdiyinə görə belə ola bilər. Amma başqalarının heç biri Azərbaycanın düşdüyü vəziyyətdəki kimi deyil. Bizim ərazimizin 20 faizi işğal olunub. Bir tərəfdən də ki, Azərbaycanın içərisində gedən ictimai-siyasi proseslər. Əgər üç il bundan öncə Azərbaycan vətəndaş müharibəsi içində idisə, iki il bundan öncə biz dövlət çevrilişlərinin qarşısını alırdıqsa, demək, şübhəsiz ki, bizim respublikamızın özünəməxsus xüsusiyyətləri var, bizim ölkəmizin, həyatımızın, yaşayışımızın özünəməxsus xüsusiyyətləri var. Ona görə də bizim strateji xəttimiz elan olunubdur və xüsusən Azərbaycan prezidenti prezident seçilən və xalq qarşısında and içən zaman bunu elan edibdir. Bunu biz ardıcıl surətdə həyata keçiririk. Proqram qəbul olunubdur, o proqram da həyata keçirilir. Bunun bir az tez, bir az gec olmasının bir o qədər də böyük əhəmiyyəti yoxdur. Əhəmiyyəti odur ki, bunlar həyata keçirilir.

Bu baxımdan özəlləşdirmə haqqında qəbul olunmuş qərarlarımızın çox böyük əhəmiyyəti vardır. Birinci, – xüsusən, lap axırda qəbul edilmiş olsa da, mən bunu xüsusi qeyd etmək istəyirəm, – "Torpaq islahatı haqqında" qanundur. Bu, çox radi[125-126]kal bir addımdır, çox inqilabi bir qanundur. Torpaq islahatı haqqında bizim qəbul etdiyimiz qanun, hesab edirəm ki, bütün dünyaya, o cümlədən Müstəqil Dövlətlər Birliyinə mənsub olan ölkələrə nümayiş etdirir ki, Azərbaycan Respublikası doğrudan da sərbəst iqtisadiyyata keçmək üçün çox cəsarətli və ciddi addımlar atır.

Biz həmişə Rusiyanı özümüz üçün nümunə götürürük. Bu, belə də olmalıdır, çünki doğrudan da Rusiyada islahatlar geniş miqyasda keçirilir və oradan biz çox şeylər öyrənirik. Bir Rusiyadan yox, başqa MDB dövlətlərindən də öyrənirik. Ancaq iki gün bundan öncə mən televiziya ilə Rusiyada torpaq islahatı ilə əlaqədar yenə bir verilişə baxdım. Bilirsiniz ki, Dövlət Duması qanun qəbul edib ki, torpağı şəxsi, xüsusi mülkiyyətə vermək olmaz. Belə bir torpaq məcəlləsi var. Prezident bəyan edib ki, o, bu qanunu imzalamayacaq, geri qaytaracaq. Federasiya Şurası bunu geri qaytarıb ki, yenidən baxsınlar. Duma ona yenidən baxmaq istəmir. Eyni zamanda yüksək vəzifəli şəxslər iki gün bundan öncə belə bəyan ediblər: bəli, torpağın xüsusi mülkiyyətə verilməsi problemi gərək regionlar üzrə həll edilsin. Bu, artıq prezident komandasından olan adamların bəyanatıdır. Regionlar üzrə gərək müəyyən edilsin, – hansı vilayətdə bunu etmək olar, hansı vilayətdə isə etmək olmaz. İkincisi, belə fikir söylənilir ki, bu məsələni referenduma çıxarsınlar, görək xalq bunu istəyir, ya istəmir.

Bu, nəyi göstərir? Onu göstərir ki, ən mürəkkəb məsələ barəsində Rusiyada çox böyük fikir müxtəlifliyi var. Bu, təkcə siyasətçilərin fikir müxtəlifliyi deyil. Kütlə arasında da eyni fikir yoxdur. Prezident seçkilərində kommunist partiyasının nümayəndəsinə səs verənlər kolxozların, sovxozların saxlanmasının tərəfdarıdırlar və şəxsi mülkiyyətin əleyhinədirlər.

Görürsünüz, iqtisadi islahatların keçirilməsində qabaqda gedən Rusiya kimi bir ölkə necə problemlərlə rastlaşır. Amma biz belə bir qanun qəbul etmişik. Belə bir qanunu da müvəffəqiyyətlə qəbul etmək üçün biz il yarımdır ki, iş aparırıq. Bəli, mən bunu dəfələrlə demişdim ki, biz gərək xalqın rəyini öyrənək, biz gərək insanlara anladaq ki, doğrudan da bu yol bizim üçün daha səmərəli yoldur. Gərək insanlar bunu özləri dərk etsinlər, özləri qəbul etsinlər. Zorla, yuxarıdan kiminsə istəyi ilə, – guya hansısa bir adam özünü çox inqilabçı göstərir, – onun rəyi ilə belə şeyləri keçirmək olmaz.

Sizin içərinizdə Azərbaycanın kənd təsərrüfatını bilən [126-127] adamlar var və kənd adamlarının psixologiyasını da yaxşı bilən adamlar var. Amma yəqin bu fikirlə razı olarsınız ki, mən də bunları yaxşı bilirəm. Bəlkə də bunu Azərbaycanda çoxlarından yaxşı bilirəm. Çünki mən Azərbaycana 14 il rəhbərlik etdiyim zaman kənd təsərrüfatı ilə xüsusi məşğul olmuşam. Kənd təsərrüfatı çox həssas bir sahədir. Bu, zavod

deyil, fabrik deyil, torpaqdır, torpağın üzərində işləyən insandır. Zavodda, fabrikdə işçinin cihazı var, avtomatı var, düyməsi var, filanı var – o, düyməni basır, yaxud da ki, aləti işə salır, iş gedir. Amma torpaq canlı bir məfhumdur. Bitki də canlıdır, heyvanlar da canlıdır. Kənd təsərrüfatında insan canlı bir həyata qovuşur.

Mən bunların hamısını hiss edərək işlədiyim müddətdə kənd təsərrüfatı ilə xüsusi məşğul olmuşam. Mən Azərbaycan kəndinin hər bir incəliyini bilirəm, kəndlinin psixologiyasını bilirəm, torpaqla bağlı olan adamların psixologiyasını bilirəm. Ona görə də mən bu qanunun layihəsini müzakirə edərkən demişdim, bu gün təkrar olaraq deyirəm ki, mən bu müddətdə çalışırdım ki, bizim insanlar, xüsusən kənddə yaşayan insanlar özləri inansınlar, bilsinlər ki, bu yol bizim üçün doğrudan da uğurlu yoldur və bu yolla daha yaxşı nailiyyətlər əldə edə bilərik. Bu yol müstəqil Azərbaycanın gələcəyi üçün yeganə yoldur. Buna da biz nail olduq. Amma buna nail olmaq üçün biz nə qədər işlər gördük.

Mən 1992-ci ildə Naxçıvanda işləyərkən, hələ Azərbaycanda bu problemlər heç yaxına qoyulmayan zaman orada, Naxçıvanın Ali Məclisində biz bu sahədə qərar qəbul etdik və bir neçə rayonda ayrı-ayrı kəndlərdə torpaqları camaata payladıq. Nə nəticə verdi? Nəticə çox gözəldir. Naxçıvanın nümayəndəsi bir neçə dəfə bizim komissiyalarda iştirak edərkən alınan müsbət nəticələri dedi. Yaxud da ki, 1992-1993-cü illərdə mən Naxçıvan Muxtar Respublikasında kolxozlarda, sovxozlarda olan heyvanların hamısının kəndlilərə satılması haqqında qərar qəbul etdim. Onda Azərbaycanda belə bir qərar yox idi. Muxtar respublikanın parlamenti belə qərar qəbul etdi, satdıq. İndi Naxçıvanda, məsələn, ət problemi yoxdur. Mal-qara satılıbdır və əvvəlkindən çoxdur. Hər bir kəndli də öz mal-qarasını yaxşı saxlayır, ət problemi də aradan götürülüb. Ancaq mənim yadımdadır ki, Naxçıvana 1990-cı ildə gəlmişdim, hələ işləmirdim, bir il orada belə yaşadım, bilirsiniz. Bir də görürdüm, qohumlarım səhər deyirdilər ki, gedək filan kəndə, tez [127-128] gedək, çünki həmin kənddə bu gün ət kəsiləcəkdir, – orada mal kəsəcəklər, gedək oradan bir-iki kilo ət alaq. Mağazalarda ət yox idi. Bakının özündə də belə idi, Azərbaycanın başqa yerlərində də belə idi. Amma indi ət küçələrdədir.

Bilirsiniz ki, mən hələ özəlləşdirmə haqqında, torpağın xüsusi mülkiyyətə verilməsi haqqında, torpaq islahatı haqqında qanunlar qəbul olunmamış, onların hazırlıq dövründə bir neçə müşavirədə göstəriş verdim ki, Naxçıvanda keçirilən eksperimentin nəticəsi əsasında bütün Azərbaycanda kolxozlarda, sovxozlarda olan mal-qaranın əksəriyyətini çalışın kəndlilər alsınlar. Çox yerlərdə alıblar. Abbasov, elədir, yoxsa yox?

**Abbas Abbasov:** Bəli.

**Heydər Əliyev:** Alıblar. İndi Azərbaycanda, Bakıda ət problemi yoxdur. Amma siz də Bakıda yaşamısınız, mən də Bakıda yaşamışam. Mənim özüm burada işlədiyim vaxtlarda da – 70-ci illərin axırlarında və 80-ci illərin əvvəllərində biz talonla ət satırdıq. Yadınızdan çıxıb? Yağ, ət talonla idi, çünki özümüz ət istehsal edə bilmirdik. Bizə ət Rusiyadan, Ukraynadan dotasiya ilə gəlməli idi, onu da hər il ixtisara salırdılar, ona görə də talona keçdik. İndi talon da yoxdur Azərbaycanda, Bakıda – hər yerdə ət var, elədir, yoxsa yox? Bəlkə mən düz demirəm?

**Yerdən səs:** Elədir.

**Heydər Əliyev:** Doğrudurmu?

**Yerdən səs:** Bəli, bəli.

**Heydər Əliyev:** Hər yerdə ət var, problem götürülübdür. Qiymət də başqa yerlərə nisbətən ucuzdur. Neçəyədir ətin kiloqramı?

**Yerdən səs:** 7-10 min manat.

**Heydər Əliyev:** 7-10 min manat. Amma bilirsiniz Moskvada ətin kiloqramı neçəyədir? Bilən var, yoxsa yox?

**Yerdən səs:** 25-28 min rubl.

**Heydər Əliyev:** Moskvada 25-28 min rubldur, burada 7-10 min manat. Şübhəsiz ki, bu müqayisələri aparanda düzgün başa düşün. Mən heç də hesab etmirəm ki, bizdə başqa yerlərdən yaxşıdır. Sadəcə, olan vəziyyəti obyektiv təhlil etmək üçün deyirəm. İkinci tərəfdən, mən bunu həmin görülən işlərin müsbət nəticəsi kimi deyirəm ki, əgər bunlar olmasaydı, bu tədbirlər həyata keçirilməsəydi, kəndli bu torpağın xüsusi mülkiyyətə verilməsini, kolxozların, sovxozların [128-129] ləğv olunmasını psixoloji cəhətdən dərk edə bilməsəydi bəlkə də bizim qanunumuzu da Rusiyada qəbul olunan qanun kimi – biri qəbul edərdi, biri qəbul etməzdi, bir hissəsi qəbul edərdi, bir hissəsi qəbul etməzdi. Yenə də deyirəm, iki gün bundan qabaq orada deyirlər ki, biz gərək ya referendum keçirək, ya ayrı-ayrı regionların xüsusiyyətinə uyğun olaraq bu islahatı həyata keçirək.

Biz belə bir qanunu qəbul etmişik. Bu, böyük bir nailiyyətdir. Hesab edirəm ki, bu qanunun həyata keçirilməsi çox yaxşı nəticələr verəcəkdir. Bu günlərdə bu qanunun həyata keçirilməsi ilə əlaqədar mən fərman imzalayacağam, artıq bu fərman hazırdır və lazımi əməli tədbirləri görmək üçün hər kəsin vəzifəsi orada müəyyən olunacaqdır.

Mülkiyyətin özəlləşdirilməsinin başqa sahəsi bizim özəlləşdirmə proqramında öz əksini tapıbdır. Biz onu qəbul etmişik, həyata keçiririk. Doğrudur, bunun həyata keçirilməsində səhvlər də buraxılıbdır bu barədə mən bir neçə dəfə Tofiq Əzizova demişəm. İlk dəfə müəssisələrin satılması, keçirilən birinci hərrac məni çox narahat etdi, çünki o, respublikada çox neqativ əhval-ruhiyyə yaratdı, ona görə də ləğv olundu və sonra məlum

oldu ki, doğrudan da ləğv olunmalı idi. Çünki həmin benzindoldurma müəssisələri sonra keçirilən hərracda əvvəlki qiymətindən bir neçə qat artıq qiymətə satıldı. İki yüzə yaxın müəssisə satılıbdır. Bu, şübhəsiz ki, çox azdır. Burada dünən Tofiq Əzizov məlumat verdi ki, 22 min kiçik müəssisə satılmalıdır. Hesab edirəm ki, bunların satılması bundan sonra daha sürətlə həyata keçirilməlidir. Yanvar ayının 8-də Nazirlər Kabinetinin iclasında məhz bu məsələni müzakirə edərkən və bu barədə qərar qəbul edərkən mən nəzərdə tutmuşdum ki, bu sahədə təcili tədbirlər görülsün. Ancaq təəssüf ki, qəbul olunan qərar istənilən səviyyədə həyata keçirilməyibdir və ona görə də biz bu gün həm Dövlət Əmlak Komitəsinə, həm də Nazirlər Kabinetinə öz etirazımızı və iradımızı bildiririk. Burada bu barədə deyildi, mən də belə fikirdəyəm ki, əgər yanvar ayında bu qərar qəbul olunandan sonra iş lazımi səviyyədə təşkil olunsaydı, biz daha çox nailiyyətlər əldə etmiş olardıq. Şübhəsiz ki, birinci növbədə burada Dövlət Əmlak Komitəsinin günahı böyükdür və şəxsən Tofiq Əzizov, eyni zamanda Nazirlər Kabineti bu işlə ciddi məşğul olmalı idi. Çünki bu [129-130] məsələlər indi iqtisadiyyatımızın əsas məsələləridir. Bu məsələlərlə hər gün məşğul olmaq lazımdır. Yenə də deyirəm, baxmayaraq ki, mən yanvar ayının 8-də bu barədə çox kəskin danışdım və Dövlət Əmlak Komitəsinin işini, şəxsən Tofiq Əzizovun işini, Nazirlər Kabinetinin işini tənqid etdim, təəssüf ki, bundan lazımi nəticə çıxarılmamışdır. Məhz buna görə də mən məsələnin bu gün müzakirə olunmasını lazım bildim.

İqtisadiyyatın idarə olunması haqqında bizim qərarımız var. Bilirsiniz, bunun indiyə qədər həyata keçirilməməsinin heç bir əsası yoxdur. Yəni, əgər özəlləşdirmə ilə əlaqədar olan qərarın lazımi səviyyədə həyata keçirilməməsi haqqında bəlkə də bəzi bəhanələr qəbul oluna bilərsə, amma iqtisadiyyatın idarə edilməsinin təkmilləşdirilməsi haqqında yanvar ayının 8-də qəbul olunmuş qərarın həyata keçirilməməsinin heç bir əsası yoxdur. Fuad Quliyev dünən bu barədə danışarkən mən çox kəskin dedim, amma hesab edirəm ki, çox ədalətli dedim. Bu gün bir də təkrar edirəm. Dünən nazirlərin çıxışı zamanı da mən demişdim. Bunu hər bir nazirlik özü hazırlayıb öz tərkibində keçirməli idi, Nazirlər Kabinetinin aparatı özü keçirməli idi, İqtisadiyyat Nazirliyi özü keçirməli idi və şübhəsiz ki, respublikanın iqtisadiyyatının idarə edilməsi haqqında təkliflər verməli idi. Bu təkliflər verilməyibdir. Verilən təklifləri mən iclasdan qabaq, iki gün öncə dinlədim. Hesab edirəm ki, Nazirlər Kabinetinin bu barədə təklifləri də hələ mükəmməl deyil. Beləliklə, 6 ay bu məsələ ləngidilib və 6 ay keçəndən sonra da mükəmməl bir təklif verilməyib.

Mən bunu dünən dedim, bir daha qeyd etmək istəyirəm. Burada söhbət mexaniki olaraq müəyyən miqdarda ştatların, strukturların ixtisarından getmir. Söhbət ondan gedir ki, idarəetmə strukturu bu gün və gələcəkdə iqtisadiyyatda gedən bu proseslərin tələblərinə uyğun olmalıdır. Keçmişdə də struktur dəyişiklikləri aparılıbdır. İxtisar olunubdur, yaxud bir nazirlik o birisi ilə birləşdirilibdir, ya biri o birindən ayrılıbdır, yaxud onun daxilində olan bir-iki idarə və ya şöbə ixtisara düşübdür, yaxud da deyirlər ki, ümumiyyətlə dövlət aparatında çox adam var, göstəriş verilib filan vaxta qədər 5 faiz, ya 10 faiz ixtisar olunsun. Bunlar keçmişdə olan şeylərdir, bunlar mexaniki xarakter daşıyıb. İqtisadiyyatın idarə edilməsinin indiki təkmilləşdirilməsi həmin o tədbirlərdən köklü şəkildə fərqlənir. Yenə də deyirəm, burada dərk etmək lazımdır ki, söhbət iqtisadiyyatın idarə edilməsi sistemini bazar iqtisadiyyatına və bu [130-131] gün, gələcəkdə iqtisadiyyatda gedən dəyişikliklərin tələblərinə uyğunlaşdırmaqdan ibarətdir. Ona görə də hesab edirəm ki, bu qərar Nazirlər Kabineti tərəfindən yerinə yetirilməyibdir. Təqdim olunan təklifləri, – bu barədə Fuad Quliyev öz məruzəsində dedi, – müəyyən qədər birinci variant kimi, əsas kimi götürmək olar. Ancaq onları indi qəbul etmək mümkün deyil. Ona görə biz bu gün qərar qəbul edəcəyik. Qərarın layihəsi var, ancaq hesab edirəm ki, o, işlənməlidir. Mən hesab edirəm ki, Nazirlər Kabinetinə 10 gün vaxt verilməlidir, dünən və bu gün aparılan müzakirələr əsasında, verilən tövsiyələr əsasında və mənim fikirlərimi nəzərə almaqla 10 gün müddətində bu təklifi hazırlayıb prezidentə təqdim etmək lazımdır.

Güman edirəm ki, bu məsələnin üzərində artıq dayanmağa ehtiyac yoxdur və hesab edirəm ki, bu salona toplaşan adamlar bu məsələnin mahiyyətini, mənasını və əhəmiyyətini artıq dərk edirlər. Bu, sizdən asılıdır, sizin hər birinizdən asılıdır. Yalnız Nazirlər Kabineti deyil, hər biriniz bu işlə ciddi məşğul olmalısınız. 10 günün içərisində bu təkliflər təqdim edilməlidir.

Biz iqtisadiyyatın, iqtisadi islahatların sosial yönümü ilə əlaqədar məruzələri dinlədik. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məruzəsini və Dövlət Sosial Müdafiə Fondunun məruzəsini dinlədik. Bu məruzələrdən nə aydın olur? Bir tərəfdən onu qeyd etmək lazımdır ki, görülən tədbirlər nəticəsində əhalinin sosial vəziyyətində müəyyən müsbət dəyişikliklər mövcuddur. İkinci tərəfdən də çox problemlər var və onlar həll olunmalıdır. Bunlar da iqtisadiyyatın canlanması ilə, iqtisadiyyatda bu gün və gələcəkdə aparılan islahatlarla və onların nəticələri ilə bağlıdır.

Bu baxımdan son vaxtlarda əldə olunan bəzi nailiyyətləri də qeyd etmək istəyirəm. Bu da ondan ibarətdir ki, respublikamız bazar iqtisadiyyatı yolu ilə gedərək maliyyə sistemində, bank sistemində ciddi dəyişikliklər apararaq Beynəlxalq Valyuta Fondu ilə, Dünya Bankı ilə, dünyanın başqa maliyyə mərkəzləri ilə sıx əməkdaşlıq edərək respublikamızın maliyyə sistemini, ümumiyyətlə, iqtisadiyyatımızı və bank sistemimizi artıq dünya standartlarına yaxınlaşdırmağa nail olmuşuq. Beynəlxalq Valyuta Fondu ilə, Dünya Bankı ilə bizim əməkdaşlığımızı mən yüksək qiymətləndirirəm. Nazirlər Kabineti [131-132] və bizim nazirliklər, xüsusən Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi və Milli Bank lazımi fəaliyyət göstəriblər və biz bu nəticələri əldə

etmişik. Bunlar bizim maliyyə, bank sistemində bundan sonra daha ciddi tədbirlər görməyimiz üçün çox yaxşı əsas yaradıb. Avropa Birliyinin iqtisadiyyat komissiyası ilə əməkdaşlığımızı da mən xüsusi qeyd etmək istəyirəm. Ümumiyyətlə, Avropa Birliyi ilə apardığımız danışıqlar, etdiyimiz əməkdaşlıq ona gətirdi ki, aprel ayında Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlıq haqqında saziş imzalanıb.

Bilirsiniz, biz onda Lüksemburqa getdik, orada saziş imzaladıq. Bu saziş imzalanandan sonra Avropa Birliyinin iqtisadiyyat komissiyası ilə, cənab Jak Santer, cənab Van Den Bruk ilə mənim görüşlərim oldu. Onların indiyə qədər Azərbaycana etdiyi iqtisadi yardımlarla əlaqədar biz minnətdarlığımızı bildirdik, amma iqtisadi əlaqələrin bundan sonra da inkişaf etdirilməsi üçün bir çox razılıqlara gəldik. Məhz Avropa Birliyinin iqtisadiyyat komissiyası ilə əməkdaşlığın nəticəsində məşhur TASİS proqramı, TRASEKA proqramı indi həyata keçirilir və hesab edirəm ki, bu proqramlardan da Azərbaycan yaxşı, müsbət nəticələr əldə edəcəkdir. Yəni Avropa Birliyi ilə əməkdaşlığımızın Avropa Birliyi ilə müqavilə imzalamaq səviyyəsinə gətirilib çıxarılması, Avropa Birliyinin iqtisadiyyat komissiyası ilə əməkdaşlığımızın nəticələri və perspektivləri əsas verir deyək ki, biz bu sahədə də yaxşı nailiyyətlər əldə etmişik və bu nailiyyətləri yüksək qiymətləndirməliyik.

Bütün bunların nəticəsində iyun ayının 28-də Azərbaycan Avropa Şurasında xüsusi qonaq statusu alıbdır. Bu da, hesab edirəm ki, çox böyük nailiyyətdir. Bu, həm iqtisadiyyatımızda, sosial həyatımızda olan dəyişikliklərin nəticəsidir, həm də, şübhəsiz, bizim dövlət quruculuğunda, ictimai-siyasi həyatımızda əldə edilmiş nailiyyətlərin və müsbət nəticələrin təzahürüdür. Keçən il ilk demokratik konstitusiyanın qəbul olunması və demokratik seçkilər əsasında, çoxpartiyalı sistem əsasında Azərbaycanın ilk parlamentinin seçilməsi də bunlar üçün yaxşı əsas yaratmışdır. Bəli, bizim konstitusiyamız Azərbaycanın həyatının gələcək perspektivlərini müəyyən edibdir və biz o perspektivlər yolu ilə gedirik, bundan sonra da gedəcəyik.

Azərbaycanda Milli Bankın fəaliyyəti haqqında, ümumiyyətlə, bank fəaliyyəti haqqında yaxın vaxtlarda qəbul olunan qanunlar da şübhəsiz ki, bizim maliyyə vəziyyətimizin və bank [132-133] fəaliyyətimizin bundan sonra daha da müvəffəqiyyətlə inkişaf etməsinə çox yaxşı şərait yaradır. Bunlar hamısı müsbət hallardır. Amma eyni zamanda, bununla yanaşı, bizim xüsusən istehsal sahəsində çatışmazlıqlarımız, nöqsanlarımız çoxdur. İstehsal sahəsində deyəndə, – yenə də doğru başa düşün, – mövcud istehsal müəssisələrindən səmərəli istifadə olunması nəzərdə tutulur. Ona görə də təsadüfü deyil ki, dünən də, bu gün də biz bir neçə sənaye kompleksinin başçılarının məlumatlarını dinlədik. Bu məlumatlardan görünür ki, bəzi müsbət nəticələrlə yanaşı, çox çatışmazlıqlar, çox nöqsanlar da var.

Respublikanın sənayesində ən görkəmli yer tutan neft-qaz kompleksidir, Dövlət Neft Şirkətidir. Biz Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyevin məlumatını dinlədik. O, çıxış edən zaman mən bir neçə fikirlərimi dedim və güman edirəm ki, bəlkə də bəsdir. Amma buna baxmayaraq, bir də qeyd etmək istəyirəm – neft Azərbaycan xalqının ən böyük sərvətidir və bütün xalqa məxsusdur. Ümumiyyətlə, Azərbaycanın təbii sərvətlərinin hamısı xalqa məxsusdur, dövlətə məxsusdur. Heç kəs onların sahibi ola bilməz. Təkcə neft-qaz yataqları deyil, bizim başqa təbii sərvətlərimiz, yeraltı təbii sərvətlərimiz, dəmir yataqlarımız, qızıl, mis yataqlarımız, başqa yataqlarımız var. Bizim ən böyük sərvətlərimizdən biri Abşeronda olan daş karxanaları, mədənlərdir. Bunlar bizim təbii sərvətlərimizdir, xalqın sərvətidir, bu sərvətlərin istifadə olunmasında heç kəsin müstəsna haqqı yoxdur, heç kəsin.

Ona görə də mən Dövlət Neft Şirkətinin işinə xüsusi fikir verirəm. Dövlət Neft Şirkətinin əldə etdiyi nailiyyətlərlə bərabər, işində olan ciddi nöqsanları mən bir daha qeyd etmək istəyirəm. Nailiyyətlər ondan ibarətdir ki, birinci növbədə neft müqavilələrinin bağlanması sahəsində onlar çox əhəmiyyətli işlər görüblər. Bu, onların nailiyyətləridir. Ümumiyyətlə bayaq Natiq Əliyev çıxış edərkən xarici iqtisadi əlaqələr haqqında danışanda mən dedim ki, bunu iki yerə bölmək lazımdır. Biri sizin xarici neft şirkətləri ilə, ümumiyyətlə, başqa şirkətlərlə iqtisadi əməkdaşlığınızdır. Bu, doğrudan da diqqətə və yüksək qiymətə layiqdir. Çünki imzalanan müqavilələr və işdə olan bəzi layihələr onu göstərir ki, bu sahədə bizim Dövlət Neft Şirkəti yaxşı işləyib.

Amma istehsal sahəsində, neftin, qazın çıxarılması, emal edilməsi, satılması sahəsində Dövlət Neft Şirkətinin işini qənaətbəxş hesab etmirəm. Birincisi, hesab edirəm ki, neft şirkə[133-134]tinin rəhbərləri gərək neft istehsalının, qazın azalmasına yol verməsinlər və buna da imkan var. Əgər artıra bilmirlərsə, heç olmasa azalmasına yol verməsinlər.

"Pennzoyl" şirkətinin yaratdığı kompressor stansiyası bizim üçün çox əhəmiyyətlidir. Təsəvvür edin ki, "Pennzoyl" şirkəti kompressor stansiyasını yaratmasaydı, bizim qaz istehsalımız xeyli aşağı olardı. İndi 6 milyard kubmetr qaz deyəndə həmin o kompressor stansiyasının əldə etdiyi səmt qazı da nəzərə alınır. Elədir, yoxsa yox, Əliyev?

**Natiq Əliyev:** Bəli, elədir.

**Heydər Əliyev:** Ona görə də bu, əhəmiyyətlidir, baxmayaraq ki, o da bizə çox baha oturubdur. Həmin o kompressor stansiyasına nə qədər vəsait verilib, nə qədər də borcumuz var, bunu Dövlət Neft Şirkətində yaxşı bilirlər. Ancaq bu, yenə də deyirəm, yaxşı işin nəticəsidir. Bizim istehsalçılar, neftçıxaranlar, neft-qaz idarələrində işləyənlər, neftçilər bilməlidirlər ki, indi Azərbaycan Respublikasının iqtisadiyyatında neftin, qazın xüsusi yeri var, xüsusi əhəmiyyəti var. Buna görə də istehsal qətiyyən azala bilməz. Belə olan halda, çıxan məhsuldan, onun hər bir litrindən, hər bir qramından gərək səmərəli istifadə olunsun. Səmərəli istifadə etmək

vacibdir. Biz heç kəsə xam neft satmırıq. Çıxarılan bütün neft neftayırma zavodlarında emal olunur. Ancaq necə emal olunur, orada hansı məhsullar alınır, hansı məhsullar alınmalıdır, hansı məhsullar bizim üçün əhəmiyyətlidir? Bunlar çox mühüm məsələlərdir.

Dövlət Neft Şirkəti və onun prezidenti Natiq Əliyev, onun müavinləri neftin istehsalı ilə məşğul olaraq bizə məlumat verirlər ki, filan qədər neft çıxdı. O, buradakı məlumatında da dedi ki, filan qədər neft emala verildi. Amma emal olunan neft sonra necə olur, haraya verilir, necə sərf edilir? Mən bir neçə dəfə demişəm ki, biz onların haqq-hesablarını bilmirik. Bu gün də mən verilən arayışlardan tam dolğun məlumat əldə edə bilmədim. Mən Natiq Əliyevin çıxışında da, iclasdan qabaq da arayış almışam. Hesab edirəm ki, Natiq Əliyev Dövlət Neft Şirkətinin prezidenti kimi bu sahəni sadəcə, nəzarətindən buraxıbdır. Ümumiyyətlə, bu sahədə səhv buraxıbdır.

Vaxtilə mən onu Dövlət Neft Şirkətinin prezidenti təyin edərkən o, öz müavinlərini mənə təqdim etdi. Neftayırma sahəsində onun ştat üzrə bir müavini var. Onu mənə təqdim etmədi ki, bu adamın namizədliyi mübahisəlidir. Dedim onda [134-135] araşdırın, əgər bu mübahisəlidirsə, başqa bir adam təqdim edin. Amma o, başqa bir adam təqdim etmək əvəzinə mənim tərəfimdən təsdiq olunmadığı halda Mirzəyev deyilən bir adamdan Dövlət Neft Şirkətinin vitse-prezidenti kimi istifadə etdi. Bu, Natiq Əliyevin ən böyük səhvlərindən biridir. Sonrası nə oldu? Sonrası o oldu ki, həmin Mirzəyev mart ayında dövlət çevrilişinə cəhd göstərənlərlə bir yerdə olmuşdu, onlara maddi yardım etmişdi, hətta onlara 50 min dollar valyuta vermişdi və ona görə də bizim istintaq orqanları onu həbs etdilər. İndi mühakimə olunub, cəzalanıb. Bax, belə yaramaz adam, prezident tərəfindən təsdiq olunmadığı halda Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsində işləmişdi.

Ancaq belə bir səhvdən sonra yenə də mən bilmirəm kimdir vitse-prezident. Əgər o adam yararlıdırsa, siz nə üçün onu mənə təqdim etmirsiniz? Əgər yararlı deyilsə, niyə onu işə buraxmısınız? Nə üçün özbaşına bu işləri görürsünüz? Ona görə də mənim haqqım var, əsasım var deyəm ki, siz bu sahəni tamamilə nəzarətdən buraxmısınız. Niyə? Vaxtınız çatmır, yoxsa hesab edirsiniz ki, bu, lazım deyil? Amma bu, böyük səhvdir. Siz özünüz məlumat verdiniz ki, həmin o neftayırma zavodlarında nə qədər böyük nöqsanlar var.

Siz deyirsiniz ki, nefti satırsınız. Eyni zamanda sizin verdiyiniz arayışlardan məlum oldu, özünüz də burada məlumat verdiniz ki, 1993-cü ilə kimi neft məhsulları neftayırma zavodlarından satılırmış. Siz dediniz ki, 1993-cü ildə qərar qəbul etmisiniz ki, bu məhsulları ancaq Dövlət Neft Şirkəti satsın. 1993-cü ildə zavodlar cəmi 4 faiz satdı, 1994-cü ildə 10 faiz satdı, amma 1995-ci ildə 30 faiz satdı. Əgər siz qərar qəbul etmişdinizsə, öz qərarınıza riayət edəydiniz. Əgər qərar qəbul etmişdinizsə, niyə zavodlar sizə tabe olmayaraq nefti özbaşına satırlar və haraya, hansı qiymətə satırlar, nə üçün satırlar – bunu siz bilmirsiniz? Bu, sizin səhviniz və günahınızdır.

Mən siz çıxış edərkən dedim və bir də deyirəm. Neft Şirkəti 1 milyon 500 min dolları ayrı-ayrı xeyriyyəçilik işlərinə sərf etmişdir. Xeyriyyəçilik işləri nədir, məlum deyil. Birincisi, nə ixtiyarınız var xeyriyyəçiliklə məşğul olasınız? Xeyriyyəçilik işini o adam görə bilər ki, onun şəxsi mülkiyyəti var, o, şəxsi mülkiyyətindən kimə isə kömək edir. Mən deyirəm, arayışda yazılıb – 70 min dollara kimi isə xaricdə müalicə edirlər. Bunu da zavod özü müəyyən edibdir. Ola bilər ki, elə zavodun direktoru müəyyən edibdir. Onun bunu etməyə nə ixtiyarı var? [135-136] Xalqın zəhməti ilə, əzabı ilə, ağır zəhməti nəticəsində hasilə gələn neftdən emal olunan məhsulun satılmasından alınmış valyutadan bu cür istifadə etmək olarmı? Mən demirəm, xəstələrin müalicəsi üçün vəsaitdən istifadə etmək olmaz. Amma bunu zavod direktoru özü müəyyən edə bilməz. Əgər Dövlət Neft Şirkətinin belə bir təklifi varsa, qoy bunu versin dövlətə. Səhiyyə Nazirliyimiz var, biz tapşırarıq, onlar doğrudan da ağır xəstə adamlar, doğrudan da çox dəyərli adamlardısa, bu barədə müəyyən məlumat verər və öz fikirlərini söyləyərlər və bu xərc bilinər ki, necə sərf edilir. Yoxsa, zavodun direktoru, yaxud da ki, şirkətin prezidenti götürüb özü xeyriyyəçilik edir. Bu, sizin malınız deyil axı!

Sonra. Siz dediniz ki, başqa-başqa təşkilatlara avtomaşın almısınız. Bu nə xəstəlikdir? Sizin nə işiniz var başqa təşkilatlara avtomaşın alırsınız? Buna sizin ixtiyarınız yoxdur. Bu, hamısı, yenə də deyirəm, fəhlənin zəhmətidir, xalqın malıdır. Ayrı-ayrı təşkilatlara maşın almağa ixtiyarınız yoxdur. Ona görə də mən hesab edirəm ki, şirkətin bu sahədəki işi qeyri-qənaətbəxşdir, bu zavodların işində çox ciddi nöqsanlar var və Natiq Əliyev bu barədə lazımi tədbirlər görməlidir, zavodların direktorları haqqında da mülahizə edib öz fikirlərini, təkliflərini verməlidir.

Bizim iqtisadiyyatın böyük sahələrindən biri neft-kimya sahəsidir. Fikrət Sadıqov burada özünün bir neçə planları haqqında dedi. Şübhəsiz ki, bu, ağır sahədir. Vaxtilə bu da Azərbaycanın iqtisadiyyatı üçün yaradılmış böyük bir potensialdır. Bu potensial 60-70-ci, xüsusən 70-ci illərdə, 80-ci illərin birinci yarısında yaranıbdır. Biz o vaxt çox böyük işlər görmüşük, böyük istehsal sahələri yaratmışıq. Bu kompleksin də üstün cəhəti ondan ibarətdir ki, öz xammalı var, yəni bu, işləyən kompleks olmalıdır. Bir neçə xammal növünü başqa yerlərdən alır, amma əsas xammal özündədir, xammalı var. Ancaq kompleksin vəzifəsi odur ki, bu istehsalı gərək dünya standartları səviyyəsinə qaldırsın və bazar konyunkturuna uyğun mallar istehsal edib satsın. Sadıqovun verdiyi məlumatlardan mən belə başa düşdüm ki, bu istiqamətdə son vaxtlar müəyyən işlər görülüb, həqiqətən Yaponiya şirkətləri buraya çox maraq göstərir, mən də onların nümayəndələrini qəbul etmişdim. Ancaq arzu edərdim ki, bu təkliflər, əvvələn, real olsun, ikincisi də axıra çatdırılsın. Çünki bəzən bizim bəzi

şirkət rəhbərləri, başqa rəhbər şəxslər gəlib gözəl təkliflər verirlər, amma sonra, bir neçə vaxt [136-137] keçəndən sonra araşdıranda ki, o təklif nə oldu, nəticəsi necə oldu, nə əldə etdik, – görürsən ki, heç bir şey yoxdur. Fikir yaradırlar ki, guya bir iş görüldü, hansısa bir şirkətlə əlaqə quruldu, amma nəticə əldə olunmur. Mən Fikrət Sadıqovu qəbul edərkən bu barədə ona demişəm və bu gün də deyirəm ki, bu istiqamət çox düzgün istiqamətdir, ancaq siz gərək bu məsələni ardıcıl surətdə həyata keçirəsiniz. Böyük xammal bazası olan belə böyük kompleks işləməlidir. Azərbaycanın iqtisadiyyatına mənfəət gətirməlidir və ölkəmizin sosial-iqtisadı məsələlərinin həll olunması üçün öz payını verməlidir.

Azərbaycanın böyük komplekslərindən biri maşınqayırma kompleksidir. Azərbaycanda maşınqayırma da çoxsahəlidir. Ən böyüyü neft avadanlığı, neft-kimya maşınqayırmasıdır. Vaxtilə Azərbaycanda belə zavodlar yaradılıb, onların çoxu dövrün tələbinə görə müasir səviyyəyə qaldırılmışdı və həqiqətən keçmiş Sovetlər İttifaqının iqtisadi xəritəsində Azərbaycanın neft maşınqayırma zavodlarının, bu kompleksin xüsusi yeri var idi. Ancaq artıq 5 ildir ki, Sovetlər İttifaqı yoxdur, əlaqələr qırılıbdır. Bazar ya məhdudlaşıb, yaxud da tamam ləğv olunubdur. Böyük istehsal sahələri var. Böyük miqdarda kadrlar var, mühəndislər, texniklər var, çox yaxşı, təcrübəli fəhlələr var. Bu kollektivlərdən, yaranmış bu kompleksdən istifadə etmək lazımdır. Ancaq bu gün İsmayılovun verdiyi məlumatdan mən belə başa. düşdüm ki, onlar, bir az kobud danışsaq, hələ yuxudadırlar. İndiyə qədər əməli bir iş görülməyibdir. "Onunla danışırıq, bununla danışırıq, oraya müraciət etdik, buraya müraciət etdik" deyirlər. Böyük bir kompleks, böyük imkanlara malik olan kompleks indiyə qədər gərək günün tələblərinə, bazarın tələblərinə uyğunlaşaydı, bazar axtarıb tapaydı və istehsal etdiyi malların növünü dəyişəydi, çeşidini dəyişəydi, keyfiyyətini dəyişəydi və istehsal edəydi.

Ona görə də mən bu barədə çox danışmaq istəmirəm. Hesab edirəm ki, bu kompleks qeyri-qənaətbəxş işləyir. Baxmayaraq ki, bu kompleksdə çox böyük zavodlar, çox yaxşı zavodlar var və bu zavodların əksəriyyəti mənə tanışdır. Həmin zavodların tikilməsində, yaranmasında, yenidən qurulmasında şəxsən mən çox tədbirlər həyata keçirmişəm. Ancaq çox təəssüf edirəm ki, bu zavodlar, bu kompleks indi lazımi səviyyədə işləmir. Məni çox narahat edən bir də odur ki, o zavodlarda, o kompleksdə işləyən Azərbaycanın çox dəyərli insanlarının, mühəndislərin, texniklərin, fəhlə və qulluqçuların bəziləri indi [137-138] işsizdir, yaxud da az işlə başlarını saxlayırlar. Mən hesab edirəm ki, bu kompleksin işində çox ciddi dəyişikliklər olmalıdır.

Energetika kompleksi barədə İmanov burada danışdı. Bu kompleks haqda ümumi təsəvvür var, təklifləri də var. O, Nazirlər Kabinetini günahlandırır ki, indiyə qədər bunlara baxılmayıbdır, lazımi tədbir görülməyibdir. Fasilədə Fuad Quliyev mənə dedi ki, onun tələbləri həddən çoxdur, böyük məbləğdə vəsait istəyir, bu vəsait də yoxdur. Bu da doğrudur, o da doğrudur. Ancaq bu o demək deyil ki, burada çıxış yolu tapmaq mümkün deyil. Şübhəsiz ki, elektrik energetikası kompleksini biz keçmiş vaxtda olduğu səviyyədə saxlaya bilmərik. Ancaq eyni zamanda, bu, bizim respublikanın həyatı üçün ən vacib bir kompleksdir. Mən çıxışımın əvvəlində bunun nə qədər böyük əhəmiyyəti olduğunu demişəm. Onu bu vəziyyətdə qoymaq olmaz. Buna görə İmanov da öz səylərini artırmalıdır. Nazirlər Kabineti də bu komplekslə çox ciddi məşğul olmalıdır.

Siz yəqin ki Moskva televiziyasına baxırsınız, son günlərdə Uzaq Şərqdə, Primorye diyarında yaranmış vəziyyəti bilirsiniz. Orada elektrik enerjisi olmadığına görə bir neçə günlüyə ciddi bir böhran yarandı və bu böhran ona gətirib çıxardı ki, o diyarın başçısı gəldi oturdu Moskvada və bir neçə gün Rusiya hökuməti ilə danışıqlar apardı. Nəhayət, dünən xəbər verdilər ki, o, artıq məsələnin həllinə nail olub. Nail olmaq nədən ibarətdir? Baş nazir Çernomırdin sərəncam verib ki, ehtiyatdan 10 min ton dizel yanacağı ayrılsın.

Bu, çox maraqlı bir faktdır və biz bundan nəticə çıxarmalıyıq. Maraqlı faktdır ona görə ki, Uzaq Şərqdə olanlarımız bilir və mən də orada olmuşam, – o diyarda gərək ki, 2 milyon yarım adam yaşayır, orada böyük sənaye kompleksi var. Eyni zamanda Sakit Okean Donanması orada yerləşir. Belə bir diyarda, energetika böhranı əmələ gəlibdir və səbəbi də ondan ibarətdir ki, ora yanacaq getməyibdir. Yanacaq getmədiyinə görə elektrik stansiyaları dayanıbdır və buna görə su kəməri də, kanalizasiya da dayanıbdır, xəstəxanalar, uşaq bağçaları, başqa obyektlər işləmir. Bunu Moskva dalbadal iki-üç gün dedi. Dünən baş nazirin sərəncamı ilə 10 min ton dizel yanacağı verildi. Qubernatoru göstərdilər, o dedi ki, bəli, məsələni həll elədik.

Təsəvvür edin, hörmətli iclas iştirakçıları, bizim əlimizdə olan sərvətin qiyməti nədən ibarətdir. Bizdə dizel yanacağının [138-139] 10 min tonunu barter ilə ora verir, 20 min tonunu bura verirlər və hesab edirlər ki, bunu etmək olar. Amma düşünmürlər ki, Rusiyanın o boyda diyarı üçün 10 min ton dizel yanacağını baş nazir elə 5 gün bundan qabaq da ayıra bilərdisə nə üçün ayırmırdı? Demək, imkanı yox imiş. Demək, dövlət ehtiyatından bunu götürə bilməzdi.

Natiq Əliyev, yenə də deyirəm, nə qədər imkan var, bunlardan nəticə çıxartmalısınız. Anlamalısınız ki, çıxarılan neftin və istehsal olunan neft məhsullarının hər bir litri Azərbaycan xalqı üçün əhəmiyyətlidir və onları ora-bura paylamaq, satmaq olmaz. Əlbəttə, satmaq da lazımdır, ancaq onları satıb Azərbaycan üçün istənilən qədər valyuta əldə etmək lazımdır. Və mən heç də təsadüfi demədim ki, bilmirəm nə üçün onun az miqdarı satışa gedir, valyutaya satışa gedir, əksəriyyəti daxili tələbata gedir. Düzdür, fasilədə Səməd Sadıqov ilə Fuad Quliyev istədilər mənə sübut etsinlər ki, belə də olmalıdır. Mən bununla razı deyiləm. Ona görə tapşırıq verirəm, bu məsələyə baxılsın. Razı deyiləm.

Yenə də qayıdıram bizim elektrik enerjisi kompleksinin üstünə və bu sahədə qarşımızda duran vəzifələrə. Birinci növbədə, Yenikənd su-elektrik stansiyasının tikintisinə başlamaq lazımdır. Bunu ləngitmək olmaz və Avropa Bankının verdiyi kreditdən istifadə etmək lazımdır. Bizim tərəfimizdən nə tələb olunur, oturun, baxın və təkliflərinizi verin. Amma siz mənə indiyədək bir təklif verməmisiniz. Nazirlər Kabinetində özünüz də bir qərar qəbul etməmisiniz. Bizə bu kreditin ayrılması böyük bir nailiyyətdir. Biz tender elan etdik. Dünya Bankı da, Avropa Bankı da bizə böyük hörmət edib bu işi gördü. İndi bu kredit ayrılıbdır, amma biz ondan istifadə etmirik. Bu, şübhəsiz ki, yaramaz. Ona görə də bu işlə məşğul olun. Bu kompleksin başqa problemləri də həll olunmalıdır. Buna yol tapmaq lazımdır və Nazirlər Kabineti bunu etməlidir.

Mən Almaniyada olarkən "Simens" şirkəti ilə Azərbaycanda, Bakıda olan elektrik stansiyalarının yenidən qurulması ilə əlaqədar danışıqlar aparılıbdır. Mən Almaniyanın federal kansleri cənab Helmut Koldan xahiş etdim ki, bu sahədə bizə kömək etsin. Bu gün mənə xəbər verdilər ki, yaxın günlərdə "Simens" şirkətinin prezidenti Azərbaycana gələcəkdir. Mən Nazirlər Kabinetinə və İmanova tapşırmışam və bir də tapşırı[139-140]ram ki, bu firma ilə əlaqə saxlayın, onun prezidenti gələn kimi mən onu qəbul edəcəyəm. Güman eləyirəm ki, əgər bu firma ilə biz əlbir hərəkət etsək, həmin stansiyanın tikilməsi üçün bəlkə də Almaniya hökumətindən 120 milyon dollar kredit ala bildik. Bu şübhəsiz ki, məsələnin bir tərəfidir, tək bununla qane olmaq olmaz. Eyni zamanda, bu kompleksdə olan problemləri, yenə də deyirəm, həll etmək lazımdır. Biz qətiyyən yol verə bilmərik ki, bu kompleksin gücü get-gedə aşağı düşsün. Bütün həyatımız bununla bağlıdır.

Bir daha qeyd etmək istəyirəm, bizim iqtisadiyyatda elə sahələr var ki, onlar müəyyən səbəblərdən tam gücü ilə işləyə bilmir. Amma elə sahələr də var ki, onlar iqtisadiyyatımızın, özü də tək iqtisadiyyatın yox, həyatımızın hər sahəsi ilə bağlıdırlar, onlar daim işləməlidirlər. Bunlar dəmir yolu nəqliyyatı, hava yolu nəqliyyatı, su nəqliyyatı, avtomobil nəqliyyatıdır.

Bizim dəmir yolu kompleksi çox böyük bir kompleksdir. Vaxtilə Azərbaycanda dəmir yollarının çəkilməsi, Azərbaycan dəmir yolunun maddi-texniki bazasının yaradılması üçün biz çox işlər görmüşük. O vaxtlar biz yeni dəmir yol xətləri açdıq. Bəzi dəmir yol xətləri bir idi, iki xətt etdik, onları elektrikləşdirdik, dəmir yol stansiyaları tikdik. Çox işlər görülüb bu vaxta qədər. Xüsusən 70-80-ci illərdə, mən Moskvada işləyərkən və Nazirlər Sovetində dəmir yolu işlərinə rəhbərlik edərkən bu məsələ ilə ciddi məşğul olurdum. O vaxt mən Sovet İttifaqının Yollar Nazirliyinin imkanlarından Azərbaycan üçün daha çox vəsait və texnika ayrılmasını təmin etmişdim.

Amma aydındır ki, indi, son illər gedən proseslərdə dəmir yolumuz da qocalır, təmirə ehtiyacı var. Bir tərəfdən də blokada dəmir yolunun ahəngdar işləməsinə mane olur. Bunlar təbiidir. Ancaq hesab edirəm ki, bizim dəmir yol kompleksində işləri daha yaxşı qurmaq olar. Mən Azərbaycan Dəmir Yolunun rəisi Nadirlini bir neçə dəfə tənqid etmişəm. Bilirsiniz, 1993-cü ildə dəmir yolunda bir rəis var idi. O, dəmir yolu işini qətiyyən bilmirdi. Mən buraya gəldikdən, respublikanın rəhbəri vəzifəsinə başlayandan sonra biz onu işdən kənar etdik. Mənə təqdim etdilər ki, Nadirli təcrübəli dəmiryolçudur və metropolitendə rəisdir, bu işi apara bilər. Mən də bunu qəbul etdim və onu rəis təyin etdik. Ancaq indi dəmir yolunun işində olan nöqsanlar və xüsusən Nadirlinin özünün işində, hərəkətlərində olan nöqsanlar haqqında aldığım məlumatlar məni çox narahat edir. [140-141]

İndi bizim dəmir yolu və Xəzər dənizindəki su nəqliyyatımız çox böyük əhəmiyyət kəsb edir. Çünki bilirsiniz ki, biz Transqafqaz magistralı ilə əlaqədar saziş imzalamışıq – Özbəkistan, Türkmənistan, Gürcüstan və Azərbaycan. Bu magistral da artıq fəaliyyətə başlamışdır. Bu magistrala Orta Asiya ölkələrində, bizdə və eyni zamanda Avropada çox böyük maraq var. Xüsusən, mən Almaniyada olarkən Almaniyanın federal kansleri cənab Kol ilə danışıqlarımızda bu məsələ çox mühüm bir yer tutdu. Bu məsələ ilə Rumıniya da çox maraqlanır və Rumıniyanın prezidenti də Transqafqaz magistralının iştirakçısı kimi çıxış etmək istəyir. Ona görə də bunun çox böyük gələcəyi var. Bunun gələcəyini təmin etmək üçün isə gərək bizim dəmir yol xəttimiz normal işləsin. Türkmənbaşı limanı ilə Bakı limanı arasında olan dəniz nəqliyyatı xəttimiz yaxşı işləsin. Ümumiyyətlə, Xəzər dənizində olan nəqliyyat vasitələrimiz hamısı yaxşı işləməlidir. Bu iki kompleksin işi çox bağlıdır. Bu gün vaxt olmadı. Xəzər Gəmiçiliyinin rəisini dinləyə bilmədik. Güman edirəm ki, bütün bu danışıqlardan və tənqidlərdən o da özü üçün nəticə çıxarmalıdır. Ancaq Nadirliyə dediyim sözləri mən bir də təkrar etmək istəyirəm. Mən hesab edirəm ki, ona göstərilən etimadı o doğrultmur, səhvlər buraxır və dəmir yolunda olan bu səhvlərə biz dözə bilmərik.

"Azəravtonəqliyyat" Dövlət Konserninin prezidenti Aslanova mən təsadüfi deyil ki, söz verdim. Bilirsiniz, Aslanov başa düşməlidir ki, onun atasının xatirəsinə hörmət Azərbaycanda daimidir, Həzi Aslanov Azərbaycanın qəhrəman oğlu kimi Azərbaycanın tarixində özünün layiqli yerini tutub və nə bugünkü nəsillər, nə də gələcək nəsillər onun qəhrəmanlığını, Azərbaycan xalqı qarşısındakı xidmətlərini heç vaxt unutmayacaqlar. Ancaq. 16-17 ildir rəhbər vəzifədə işləyən bu Aslanov daim atasının hörmətinin kölgəsində yaşaya bilməz. O, məsuliyyət hiss eləməlidir. Artıq uşaq deyil, özü atadır, artıq babadır. Avtomobil kompleksinin işi bizi çox narahat edir və mənə gələn məlumatlar göstərir ki, məhz Aslanovun özünün bir tərəfdən səhlənkarlığı, ikinci tərəfdən məsuliyyətsizliyi nəticəsində, ola bilər, başqa səbəblərdən də orada çox ciddi nöqsanlar var. Bizim avtonəqliyyat vasitələrimizi elə vəziyyətdə saxlamaq olmaz.

Dünənki, bugünkü müzakirəmizdə əsas məsələlərdən biri, iqtisadiyyatda gərginlik yaradan məsələlərdən biri də ödəməmələr məsələsidir. Mən dünən bu barədə dedim, ancaq bir də [141-142] qeyd etməyə məcburam. Bu, yeni bir problem deyil. Bu barədə mən Nazirlər Kabinetinə 1995-ci ildə, 1996-cı ilin yanvarında da yenə həmin o iclasda bu barədə göstəriş vermişdim. Mən Nazirlər Kabinetinə, baş nazir Fuad Quliyevə dedim ki, bunun bir neçə mümkün yolu var. Bu yollardan hansını seçirsiniz-seçin amma məsələni həll etmək lazımdır. Yəni bunu yenidən öyrənmək, yenidən hardansa bir şey icad etmək lazım deyil. Bu məsələ dəfələrlə öyrənilibdir və həllinin bir neçə üsulu var.

Təəssüflər olsun ki, Nazirlər Kabineti bu göstərişləri vaxtında yerinə yetirmədiyinə görə biz iqtisadiyyatda bax, belə çətinliklərlə rastlaşırıq. Mən bu işi başqa kimə tapşıracağam? Onunla Nazirlər Kabineti məşğul olmalıdır. Nazirlər Kabinetinin həm imkanları, həm səlahiyyəti var, bu işləri o görməlidir. Sonra məlum oldu ki, Tofiq Əzizovun rəhbərliyi altında komissiya düzəldilib. Yaxşı, komissiya yaradıldı, komissiya işləyir, nəyi isə öyrənir, gətirir. Yaxşı, əgər komissiya təklif və ya rəy gətiribsə verin də. Amma heç nə verilmir. Belə çıxır ki, əgər bugünkü iclas təyin olunmasaydı, bəlkə də bu təklifləri biz hələ bu gün də almayacaqdıq.

Məhz iki gün bundan öncə bu barədə fərman layihəsi mənə təqdim olunubdur və iki gün bundan öncə biz bunu müzakirə etmişik. Fuad Quliyev öz məruzəsində bu təkliflərin məzmununu bildirdi. Axı bilirsiniz, məsələ var ki, onu həll etmək üçün doğrudan da vaxt lazımdır, nə isə almaq, nə isə tapıb gətirmək lazımdır, nə isə əlavə etmək lazımdır. Amma məsələ də var ki, onun barəsində sadəcə qərar qəbul etmək lazımdır. Bax bu, o məsələlərdəndir.

İndi bu fərman layihəsi ki, verilibdir, bunu bir il və ya iki il bundan qabaq da vermək olardı. Düzdür, istəyirlər mənə sübut etsinlər ki, yox, biz başqa respublikaların təcrübəsini, başqa yerlərin vəziyyətini öyrənmək istəyirdik. Axı nə qədər təcrübə aparmaq olar? Məlumdur ki, bu, çox mürəkkəb məsələdir və yenə də qayıdıram Rusiyanın təcrübəsinə, çünki biz Rusiya televiziyasını daim müşahidə edirik. Başqa respublikalarda bu sahədə gedən prosesləri ya bilmirik, ya da az bilirik. Amma Rusiyanın televiziya verilişlərində, demək olar ki, hər gün, yaxud da günaşırı bu məsələ barəsində məlumatlar verilir. Bu problemi Rusiya da həll edə bilmir. Rusiyada da bu ödəməmələr iqtisadiyyatda çox gərgin vəziyyət yaradır. Bu məlumdur. Amma bu, o demək deyil ki, əgər Rusiyada bu [142-143] məsələ həll olunmursa, gərək bunu biz də həll eləməyək və belə də qalsın.

Ona görə də mən hesab edirəm ki, bu təqdim olunmuş fərman layihəsini bir əsas kimi qəbul etmək olar. Ancaq bu müzakirədə verilən təklifləri də nəzərə alırıq. Biz bunu özümüz də öz aramızda müzakirə etmişdik. Burada bir neçə təklif olmuşdur, onları da nəzərə alaraq təxminən beş gün müddətində bu fərman Nazirlər Kabinetində tam işlənib təsdiqə verilməlidir.

Bu günlərdə burada idxal-ixrac məsələləri, büdcənin yerinə yetirilməsi məsələləri, vergilərin toplanması məsələləri bizim müzakirəmizin mərkəzində olub. Bu da təbiidir. Birinci yarım ilin yekunlarına görə bir müsbət hal kimi onu qeyd etmək olar ki, yarım ildə nəzərdə tutulmuş proqrama əməl olunur. Büdcədə nəzərdə tutulmuş proqram neçə faiz yerinə yetirilir?

**Fuad Quliyev:** 96.

**Heydər Əliyev:** 96 faiz yerinə yetirilir. Burada bildirildi ki, keçən il yarım il müddətində büdcə 56 faiz yerinə yetirilmişdi. Bu il 96 faiz yerinə yetirilibdir. Bu, müsbət haldır. Mən yenə də deyirəm və çıxışımın əvvəlində də dedim ki, biz müsbət halları da qeyd etməliyik və onları qiymətləndirməliyik. Bu, müsbət haldır. Əgər nəzərə alsaq ki, bu ilin büdcəsi çox çətinliklə formalaşdırılmışdır və onun formalaşmasını, tərtib olunmasını Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi həddindən artıq gecikdirmişlər, buna görə, bəlkə də bəzi başqa səbəblərə görə Milli Məclisdə bu büdcənin təsdiqinə çox vaxt sərf edilmişdir. Hətta mənə Milli Məclisin rəhbərliyi tərəfindən belə bir fikir də söyləndi ki, bu büdcənin layihəsi elədir ki, bunu qəbul etmək olmaz. Guya yaxşı olardı ki, bu büdcə Milli Məclisdə qəbul olunmasın, işlənilsin və yarım ilin yekunlarında biz bu büdcəni qəbul edərik.

Şübhəsiz ki, mən belə fikirlə razı olmadım, çünki, belə hesab edirəm ki, birincisi, belə yaşamaq olmaz – büdcəni qəbul etmirik və büdcəsiz işləyirik. Nə cür zəif büdcə də olsa, biz bunu qəbul etməliyik. İkincisi, mən bunu anlamadım – biz büdcəsiz nə cür işləməliyik? Ona görə də mən, şübhəsiz ki, bu təklifi rədd etdim və dedim ki, büdcə nə cür formalaşıbdır, bu cür də onu təsdiq edin və bu büdcənin təsdiq olunması da Milli Məclisdə çox böyük bir müzakirəyə çevrildi. Mənə belə məlumatlar verilirdi ki, bu büdcə real deyil, həyata keçirilməyəcəkdir, ona görə də bunu belə təsdiq etmək olmaz. Mən bu [143-144] büdcəni o qədər də yüksəklərə qaldırmaq fikrində deyiləm, şübhəsiz ki, onun nöqsanları çoxdur və indi ilin birinci yarısının yekunları və aparılan müzakirə ilə əlaqədar, hesab edirəm ki, doqquz ayın yekunlarına görə o büdcədə müəyyən dəyişikliklər də, düzəlişlər də edilməlidir. Ancaq hər halda bu da faktdır ki, həmin büdcə artıq ilin birinci yarısında 96 faiz yerinə yetirilibdir. Bu, müsbət haldır.

Eyni zamanda, bu gün həm maliyyə nazirinin məlumatından, həm Vergi Müfəttişliyinin məlumatından, həm Gömrük Komitəsinin məlumatından mən şəxsən o fikrə gəldim ki, bizim imkanlarımızın çoxundan istifadə olunmur. Əgər mövcud imkanlardan istifadə olunsa, iqtisadiyyatımız bundan da yüksək səviyyədə ola bilər, büdcənin gəlirləri bundan da artıq ola bilər və bunun nəticəsində əhalinin sosial vəziyyətini biz çox yaxşılaşdıra bilərik. Ona görə də mən bu gün, dünən bizim nazirlərə, komitə rəhbərlərinə öz fikrimi bildirdim. Hesab edirəm

ki, Vergi Müfəttişliyinin işində çox ciddi dəyişikliklər olmalıdır və dövlət vergilərinin toplanması ilə daha da səmərəli məşğul olmaq lazımdır. Etiraf olundu ki, verilən proqnozlar imkanlardan aşağıdır. Əgər belədirsə, demək, bu işi imkanların səviyyəsinə qaldırmaq lazımdır.

Gömrük Komitəsinin işi haqqında da mən öz fikrimi dedim. Mən bir də tələb edirəm ki, Gömrük Komitəsi özünü gərək respublikanın iqtisadi müstəqilliyinin qorunmasının keşiyində duran bir təşkilat kimi göstərsin. Bu, bütün ölkələrdə belə bir təşkilatdır. Hər bir müstəqil dövlət üçün Gömrük Komitəsi əsas idarələrdən biridir. Ancaq mən dünən dedim və bu gün də deyirəm, bizim sərhədlərdə, keçid məntəqələrində işləri tənzimləyən tək bir gömrük deyil. Onunla yanaşı, bizim sərhəd qoşunlarıdır, bizim polisdir, həmin sərhəd məntəqələrinə özlərini aparıb, üzr istəyirəm bu ifadəyə görə, zorla soxan təşkilatlardır. Onların hər biri bizim idxal-ixrac əməliyyatlarımızdan öz şəxsi mənafeləri üçün istifadə etməyə çalışırlar.

Məhz bunların, idxal-ixrac əməliyyatlarının həyata keçirilməsində buraxılan səhvlərin nəticəsidir ki, bizdə idxaldan, ixracdan gələn vergi aşağı səviyyədədir. Dünən deyilən faktlar məni dəhşətə gətirdi. Əgər meyvə şirəsi Azərbaycana bir dəfə tonu 400 dollara, ikinci dəfə 26 dollara gətirilirsə, demək biz görün nə qədər vergidən məhrum oluruq. Amma bir meyvə şirəsi deyil. Spirtli içkilərdir, siqaretlərdir və başqalarıdır.

Mən Gömrük Komitəsindən, Xarici İqtisadi Əlaqələr Na[144-145]zirliyindən, polis orqanlarından, sərhəd qoşunları orqanlarından, bütün keçid məntəqələrimizdə olan təşkilatlardan tələb edirəm: birincisi, bu məntəqələrə və bu işlərə olan qeyri-sağlam münasibəti aradan qaldırmaq lazımdır. Bu qeyri-sağlam münasibət, bu məntəqələrə vəzifədən sui-istifadə etmək, rüşvətxorluq, oğurluq etmək istəyən adamların gəlib çıxması nəyə gətirib çıxarıb?! Onlar iqtisadiyyatımıza çox zərbə vurur və tək iqtisadiyyatımıza yox, ümumiyyətlə, bizim siyasi imicimizə zərbə vurur. Biz bununla razılaşa bilmərik. Bu təşkilatlar öz işlərini ciddi surətdə yenidən qurmalı, nöqsanları aradan qaldırmalıdırlar və ilin ikinci yarısında vergilərin xeyli artması imkanları yar, bu imkanlardan istifadə etmək lazımdır.

Xarici İqtisadi Əlaqələr Nazirliyi indi Nazirlər Kabinetində olan komissiya ləğv ediləndən sonra bu məsələdə çox böyük məsuliyyət daşıyır. Ona görə də Xarici İqtisadi Əlaqələr Nazirliyinin işi lazımi səviyyədə qurulmalıdır. Mənim fikrim belədir ki, indiyə qədər respublikada bu nazirlik həqiqətən Xarici İqtisadi Əlaqələr Nazirliyi funksiyasını yerinə yetirmirdi. Uzun müddət bu nazirlik yalnız idxal-ixrac üçün lisenziya verməklə məşğul olubdur və bunu özünün əsas vəzifəsi hesab edibdir. Bu sahədə də şübhəsiz ki, rüşvətxorluq, vəzifədən sui-istifadə halları əvvəldən, bu təşkilat yarandığı vaxtdan kök salıbdır və bu neqativ hallardan hələ də təmizlənməyibdir. Ona görə bu təşkilat təmizlənməlidir, Azərbaycanın xarici iqtisadi əlaqələri ilə həqiqətən geniş miqyasda məşğul olmalıdır və idxal-ixrac ilə əlaqədar məsələlərdə buraxılan bütün səhvlərin aradan qaldırılması üçün lazımi işlər görülməlidir. O deyilən faktlar, şübhəsiz ki, çox narahatçılıq doğurur. Amma faktı tapmaq və faktı demək işin bir tərəfidir. Faktların qarşısını almaq isə işin əsas tərəfidir.

Bununla əlaqədar dünən burada aşkar olan faktlardan biri bizim idxal-ixrac işində barterin geniş yer almasıdır. Mənə verilən məlumatlardan belə başa düşdüm ki, ixracın təxminən 40 faizi barter yolu ilə həyata keçirilib. Bu da dözülməzdir. Hələ 1993-cü ilin axırıncı ayları idi, xatirimdədir, Vahid Axundovun da xatirindədir, biz müzakirə apardıq. Orada bizim bəzi rəhbər şəxslər bir-birini günahlandırırdılar ki, kim bu barteri Azərbaycanda yayıb və hamı belə bir fikrə gəldi ki, bundan sonra barter əməliyyatlarının qarşısı alınmalıdır. Çünki bu, iqtisadiyyata zərər vurur və bunu da izah etməyə ehtiyac yoxdur [145-146] ki, əgər barter yolu ilə əməliyyatlar keçiririksə, demək, burada dövlətə gəlir gəlmir.

Amma belə olan halda indi bizim ixracın 40 faizi barter yolu ilə həyata keçirilir və şəxsən mənim indiyə qədər bundan xəbərim yoxdur. Heç kəs də bu barədə mənə məlumat verməyibdir. O cümlədən Nazirlər Kabineti də bunlara imkan verərkən bir dəfə də mənimlə məsləhətləşməyibdir, məndən soruşmayıbdır. Mən bunu çox mənfi hal hesab edirəm. Ona görə mən birinci növbədə Nazirlər Kabinetindən tələb edirəm ki, bu məsələlər təhlil olunsun, barter əməliyyatlarının minimuma endirilməsi üçün lazımi tədbirlər görülsün. Hesab edirəm ki, yalnız və yalnız zəruri hallarda və doğrudan da dövlət mənafeyi üçün lazım olan hallarda bu üsuldan istifadə etməyə yol vermək olar. Qalan hallarda azad ticarət getməlidir.

Bilirsiniz, mən Almaniyada olarkən, – mətbuatdan məlumatınız var, – Köln şəhərində sənayeçilərin böyük bir dəstəsi ilə görüşdüm. Orada, Köln şəhərində böyük bir "Sənayeçilər evi" var, məni ora dəvət etmişdilər. Televiziya ilə bunu verdilər. Orada görüşdüm. Ondan bir gün öncə axşam Almaniyanın prezidenti cənab Roman Hersoq mənim şərəfimə ziyafət verərkən həmin o "Sənayeçilər evi"nin başçısı Vulf orada bizim masanın arxasında idi. Mən onunla orada tanış oldum, söhbət etdim. Çox maraqlı bir insandır, çox da təcrübəli adamdır, həyatında çox şeylər görmüşdür. Köln şəhərində. bu görüşdən sonra bir az söhbət etdik, keçmişdə Sovetlər İttifaqı ilə olan əlaqələri xatırladı. Dedi ki, "vaxtilə Sovetlər İttifaqının başçısı Brejnev Almaniyaya ilk səfərə gəlmişdi. O da Sizin indi qaldığınız bu evdə yaşayırdı və həmin evdə onun şərəfinə ziyafət veriləndə mən də orada iştirak edirdim. O, məni çox təəccübləndirdi. Dedi ki, xarici ticarət əlaqələrinin əsası barterdir". Deyir, mən çox təəccübləndim və fikirləşdim ki, bu qədər böyük bir ölkənin rəhbəri əgər xarici ticarət əlaqələrinin əsasını barter hesab edirsə, onda bununla danışmağın əhəmiyyəti yoxdur. Bu, olan söhbətdir. Bəli, mənə bu haqda iki həftə bundan qabaq, iyul ayının əvvəlində Köln şəhərində mənimlə apardığı söhbətdə danışdı.

Bilirsiniz, biz o vaxtlar bu işlərlə bir o qədər məşğul olmurduq. Barter, ya qeyri-barter. Bəlkə o vaxtlar, Sovetlər İttifaqı dövründə o qədər də bunların dərinliyinə gedə bilmirdik. Ancaq təsəvvür edin, demək, bu, bazar iqtisadiyyatı ilə gedən bir ölkə – Qərbi Almaniya ilə Sovetlər İttifaqı arasında iqtisadi [146-147] əlaqələr qurularkən, təxminən 1970-ci illərin əvvəlində olan söhbətdir. O vaxtlar Sovetlər İttifaqı Almaniya ilə münasibətləri yaxşılaşdırandan sonra geniş ticarət əlaqələrinə başladı. Demək, Almaniyanın iş adamları və iqtisadçıları hələ o zaman barter adı gələndə bunu dəhşətlə qəbul edirdilər. Biz bu işlərlə məşğul olmağa indi başlamışıq və özümüz öz müstəqil xarici ticarətimizi aparırıq, iqtisadi əlaqələrimizi qururuq. Mən bunu xatirimə salıram ki, orada dərhal fikirləşdim ki, görün hələ o vaxtlar orada, Qərbi Almaniyada barteri hətta əlaqə kimi heç qəbul etmək istəmirdilər. Amma mən o vaxt bilmirdim. Bilsəydim, həmin o cənab Vulfa deyərdim ki, sizin "Qrima" şirkəti bizim Azərbaycanla indi barter əməliyyatı aparır, bəs siz buna necə dözürsünüz?

Ona görə də mən hesab edirəm ki, bu mövzu ətrafında daha danışmağa ehtiyac yoxdur. Deyilənlər yetərlidir, bəsdir. Sadəcə olaraq, Nazirlər Kabineti də, bütün nazirliklər də, bütün müəssisələr də, təşkilatlar da və o cümlədən Xarici İqtisadi Əlaqələr Nazirliyi də bu barədə deyilən mövqeni tutmalıdır və bundan sonra məsələləri bir il keçəndən sonra gəlib təhlil etməməlidirlər. Hər ay bu məsələ təhlil olunmalıdır və məlumat verilməlidir ki, xarici ticarət, idxal-ixrac əməliyyatları nə cür gedir və ondan biz nə səmərə götürməliyik. Bu rəqəmlər araşdırılmalıdır. Çünki Gömrük Komitəsinin sədri dedi ki, 220 milyon dollarlıq mal barterlə göndərilib. Azərbaycana gələn isə, sən nə qədər dedin?

**Kəmaləddin Heydərov:** 43 milyon dollar.

**Heydər Əliyev:** 43 milyon dollarlıq mal gəlib. Onda mən Nazirlər Kabinetinə tapşırıram, – araşdırın görək, bəs bunun 180 milyon dollara qədəri haradadır? Haradadır bu 180 milyon? Həmin o "Qrima" şirkətinə də 10 milyon dollarlıq mal gedibdir, amma 5 milyon dollarlıq avadanlıq gəlibdir. Bəs qalanı haradadır? Bilirsiniz, bu, çox narahatedici bir rəqəmdir. Mən güman edirəm ki, əgər bu, gömrükdən keçibsə, burada səhv ola bilməz. Doğrudur, Fuad Quliyev buna təəccübləndi və dedi ki, ola bilməz. Sən belə dedin də?

**Fuad Quliyev:** Bəli, bu, həddindən artıq çoxdur.

**Heydər Əliyev:** Həddindən artıq çoxdur, şübhə doğuran nədir, rəqəmdir?

**Fuad Quliyev:** Şübhəsiz...

**Heydər Əliyev:** Şübhə doğurursa, dəqiqləşdirin. O, bu rəqəmi havadan götürməyib ki, hə? [147-148]

**Fuad Quliyev:** O, havadan götürməyib, ancaq onun borcudur bu pulları qaytarsın. Qaytarmırlarsa, sənədləri versin prokurorluğa. Özünü qəhrəman kimi göstərir.

**Heydər Əliyev:** Sən nə demək istəyirsən?

**Eldar Həsənov** (baş prokuror): Dediyi rəqəm ümumi rəqəmdir. Sizin dediyiniz dövlət müəssisələrinin rəqəmləridir.

**Heydər Əliyev:** Bəli, bəli, bəli. Məni maraqlandıran dövlətdir, dövlət əmlakıdır. Ona görə də hesab edirəm ki, əgər kimdəsə şübhə varsa, bunu araşdırmaq lazımdır. Ancaq bu siqnal çox narahatedici siqnaldır. Əgər özəl sektor barter ilə malı göndərirsə, onun əvəzinə mal almırsa, deməli, valyuta gedir orada qalır, bizə qayıtmır, elədirmi?

**Fuad Quliyev:** Yox, qayıtmır, o da düzdür.

**Heydər Əliyev:** O da yaramaz.

**Fuad Quliyev:** Əlbəttə, düzdür.

**Heydər Əliyev:** O təkcə bizə deyil, bizim iqtisadiyyatımıza zərbədir. Ona görə biz onu da kənara qoya bilmərik. Onunla məşğul olmaq lazımdır. Bir çox başqa məsələlər də var. Ancaq güman edirəm ki, artıq hər şey aydın oldu. Ona görə də mən istərdim ki, bizim dünənki və bugünkü müzakirəmizi sona çatdıraq.

Bütün bu deyilənləri ümumiləşdirərək, yekunlaşdıraraq mən bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının böyük iqtisadi potensialı var. Bu iqtisadi potensialdan səmərəli istifadə etmək bizim vəzifəmizdir. Bu iqtisadi potensialdan səmərəli istifadə etmək üçün dünən, bu gün burada qaldırılmış məsələləri həll etmək lazımdır. Bundan səmərəli istifadə etmək üçün iqtisadi islahatları ardıcıl surətdə, inamla həyata keçirmək lazımdır. Bundan səmərəli istifadə etmək üçün özəlləşdirmə proqramı həyata keçirilməlidir, torpaq islahatı proqramı ardıcıl surətdə həyata keçirilməlidir, başqa islahatlar həyata keçirilməlidir. Bu yolla, ancaq bu yolla biz Azərbaycanın böyük iqtisadi potensialından səmərəli istifadə edəcəyik.

Xarici ölkələrlə, xarici şirkətlərlə qarşılıqlı faydalı əlaqələri inkişaf etdirmək lazımdır. Xarici sərmayənin Azərbaycana gəlməsinə bundan sonra də çalışmaq lazımdır və müştərək işlər görülməsinə geniş yer verilməlidir. Özəl sektor inkişaf etməlidir və özəl sektorun inkişaf etməsinə bütün imkanlar yaradılmalıdır. İyun ayının 17-də, mənim imzaladığım fərmanla inzibati orqanlar tərəfindən yoxlamaların qadağan olunması, məhdudlaşdırılması məhz bazar iqtisadiyyatının in[148-149]kişaf etməsinə şərait yaratmaq məqsədi daşıyır, sahibkarlığın inkişaf etdirilməsinə, özəl sektorun inkişaf etməsinə şərait yaratmaq məqsədi daşıyır.

Bu gün və dünən biz dövlət məsələlərini müzakirə etdik. Ancaq indi bizim bu dövlət məsələləri Azərbaycanda özəl sektorun yaranması və inkişaf etməsi ilə bilavasitə bağlıdır. Ona görə də özəl sektorun bundan sonra da sürətlə inkişaf etməsi qarşımızda duran əsas məsələlərdən biridir. Ancaq özəl sektorun inkişafı dövlət mülkiyyətinin dağıdılması yolu ilə yox, dövlət mülkiyyətinin qanun-qayda ilə, ədalətlə özəlləşdirilməsi

yolu ilə getməlidir. Təəssüflər olsun ki, son illər Azərbaycanda bu dağıdıcı proseslər çox geniş vüsət, geniş miqyas alıbdır. Dünən də, bu gün də burada faktlar deyildi. Müəssisə rəhbərləri tərəfindən, ayrı-ayrı adamlar tərəfindən, ayrı-ayrı qruplar tərəfindən ayrı-ayrı müəssisələrin əmlakı dağıdılır, var-yoxu dağıdılır. Bunların qarşısı alınmalıdır. Dövlət Əmlak Komitəsinin vəzifəsi ondan ibarətdir ki, bütün dövlət əmlakını uçota alsın, bütün dövlət əmlakının sahibi olsun. Ondan sonra isə bizim özəlləşdirmə proqramı əsasında o dövlət əmlakı, bu proqram həyata keçdikcə, şübhəsiz ki, özəlləşdiriləcəkdir, səhmdar cəmiyyətlərə çevriləcəkdir, yaxud tamam özəl adamların ixtiyarına veriləcəkdir. Şübhəsiz ki, müəyyən sahələr də dövlət mülkiyyətində saxlanılacaqdır və dövlət mülkiyyəti kimi yaşayacaqdır.

Bu, Dövlət Əmlak Komitəsinin əsas vəzifələrindən biridir. Mən çox narahatam ki, bu proses zamanı dövlət əmlakı dağıdılır, təəssüf ki, dağıdılır. Bu iki gün ərzində gətirilən faktlar buna sübutdur. Dövlətin hər bir binası dövlətin binası olmalıdır. Kimsə bunu icarəyə veribdir, kimsə hara veribdir, – bunlar indiyə qədər olan şeylərdir. Əgər özəlləşirsə, bu, dövlətin əmlakı kimi özəlləşdirilməlidir. Özəlləşdirmə eyni zamanda sosial ədalət prinsipləri əsasında getməlidir. Ona görə də mən dünən Əzizovdan soruşdum və bunu bir də deyirəm ki, vauçerlərin gətirilməsi və vaxtında paylanması bütün əhalinin özəlləşdirmə prosesində iştirak etməsi üçün əsas şərtdir. Biz buna nail olmalıyıq. Sosial ədalət prinsipi bizim bu islahatların əsas prinsipidir.

Biz "Torpaq islahatı haqqında" qanun qəbul edərkən mən təklif etdim və o qanunda biz işğal olunmuş torpaqlar haqqında maddə ayırdıq. Çünki əgər torpaq islahatı nəticəsində bu torpaqlar şəxsi mülkiyyətə paylanırsa, işğal olunmuş torpaqlar[149-150]da, Azərbaycanın torpaqlarının 20 faizində bizim böyük torpaq fondumuz var. O torpaqlar işğal olunmuş torpaqlardan didərgin düşmüş bizim vətəndaşların torpaqlarıdır və vaxt olacaqdır ki, onlar öz torpaqlarına qayıdacaqlar və həmin "Torpaq islahatı haqqında" qanunun əsasında o torpaqları bölüb, ondan istifadə edəcəklər. İşğal olunmuş torpaqlarda bərpa işi aparmaq üçün mən bir neçə ay bundan öncə Dünya Bankının prezidentinə müraciət etdim və mənim müraciətimə o, müsbət münasibət göstərdi. Nümayəndə heyəti gəldi və biz burada Dünya Bankının nümayəndələri ilə, işğal olunmuş torpaqlar azad edilərkən onların bərpa olunması barədə Dünya Bankının proqramının hazırlanmasına başladıq. Dünya Bankının nümayəndələri Füzuli rayonunda işğaldan azad edilmiş bölgədə oldular. Tərtər rayonunda, Ağdam rayonunda oldular və bu danışıqların nəticəsində mən böyük bir komissiyanın yaradılması barədə fərman verdim. Bu komissiya işləməlidir və biz bu təcrübəni artıq həyata keçirməliyik. Gələcəkdə də işğal olunmuş torpaqlar azad edilən kimi onların Dünya Bankının vəsaiti hesabına bərpa olunması təmin ediləcəkdir və o torpaqlardan istifadə olunması üçün onlar da oradan didərgin düşmüş sahiblərinə çatdırılmalıdır.

Beləliklə, bir də deyirəm, özəlləşdirmədə bütün sahələrdə – həm torpaq islahatı sahəsində, həm də sənaye sahəsində, ticarət sahəsində, başqa sahələrdə sosial ədalət prinsipi əsas meyardır və bunu heç kəs unutmamalıdır. Biz mülkiyyəti vətəndaşlara, Azərbaycanın sakinlərinə qaytarırıq. Lazımdır ki, hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan sakini bu mülkiyyətdə olan payını götürə bilsin. Bu, bizim vəzifəmizdir və biz bunu həyata keçirməliyik.

Mən əminəm ki, biz bu tədbirləri ardıcıl surətdə həyata keçirərək aybaay, ilbəil iqtisadiyyatda ciddi müsbət dəyişikliklərin şahidi olacağıq və əhalinin rifah halının ardıcıl surətdə yaxşılaşmasını təmin edə biləcəyik.

Mən Azərbaycanın çox gözəl gələcəyini görürəm. Bu il biz çətin bir dövrdə yaşayırıq. Amma görürsünüz, üç il müddətində nə qədər böyük sınaqlardan çıxdıq, nə qədər böyük çətinliklərin öhdəsindən gəldik. Artıq biz istiqamətimizi tapmışıq, bu istiqamətlə gedirik. Ona görə də heç kəs narahat olmasın. Bəziləri deyirlər ki, Azərbaycanı fəlakət gözləyir, Azərbaycan dağılacaq, Azərbaycanın iqtisadiyyatı belə olacaqdır. Bunlar əsassız fikirlərdir. Onlar yalnız və yalnız bizim bu işlərimizə [150-151] zərər vurmaq üçün belə əhval-ruhiyyəni camaat içərisinə yayırlar. Mən bütün bu fikirləri rədd edirəm.

Biz düz yolla gedirik, doğru yolla gedirik və bu yolla inamla, ardıcıl surətdə gedəcəyik və Azərbaycanın iqtisadiyyatında yüksəliş illəri bu yaxın vaxtlarda olacaqdır. Məhz bu iqtisadi islahatların həyata keçirilməsindən biz bu nailiyyətləri əldə edə bilərik.

Bununla əlaqədar, neft müqavilələrindən gələn gəlirlər Azərbaycanın iqtisadiyyatında çox böyük dəyişikliklər əmələ gətirəcəkdir. Bəziləri nədənsə hesab edirlər ki, guya neft müqavilələrindən o qədər də böyük gəlirlər gəlməyəcək. Əgər o qədər böyük gəlir gəlməyəcəksə, biz onda bu müqavilələri niyə bağlamışıq? Əgər bundan o qədər gəlir götürülməyəcəksə, Amerikadan, Yaponiyadan, İngiltərədən, Fransadan o şirkətlər nə üçün gəlib bizdən dəfələrlə xahiş edirlər ki, biz onlara burada müştərək iş görmək üçün şərait yaradaq? Bilirsiniz, onlar öz mənfəətlərini bizdən çox yaxşı bilirlər. O müqavilələrin prinsipləri, orada gəlir bölgüsü elə qurulubdur ki, mən sizə bir daha bildirmək istəyirəm, Azərbaycanın gələcəkdə böyük gəlirləri olacaq. Amma o vaxta qədər biz gərək bu iqtisadi islahatlarla mövcud imkanları hərəkətə gətirərək iqtisadiyyatda ciddi dəyişikliklərə nail olaq və gün-gündən xalqın rifahını yaxşılaşdıraq. Bunların hamısı gəlib neft müqavilələrinin əməli iqtisadı nəticələri ilə bir-birinə qovuşacaqdır və Azərbaycanın həmin o dediyim çox gözəl gələcəyinin biz şahidi olacağıq. Mən buna tam əminəm və bilin ki, mən bu gələcəyə inanaraq bu sözləri deyirəm. Ancaq bunun üçün gərək biz mövcud olan nöqsanları aradan qaldıraq. Nöqsanlar da böyükdür.

Ona görə bütün bu müzakirələrin nəticəsi olaraq qərar qəbul edilməlidir. Qərar layihəsi var. Mən ona baxmışam, ancaq hesab edirəm ki, bu müzakirələrlə əlaqədar o qərar layihəsi işlənməlidir. Mən tapşırıram dövlət müşaviri Vahid Axundova, Nazirlər Kabineti ilə birlikdə qərar layihəsini verilən təkliflər əsasında işləsin. Neçə gün sizə lazımdır?

**Vahid Axundov** – (dövlət müşaviri): İki gün.

**Heydər Əliyev:** İki gün. İki gün müddətində mənə versinlər mən bu qərar layihəsini imzalayacağam. Ancaq eyni zamanda mən bir neçə təşkilati tədbirlərin də görülməsini lazımi hesab edirəm.

Azərbaycan Dəmir Yolu İdarəsinin rəisi Nadirlini mən işdən azad edirəm, "Azneftkimyamaş" Dövlət Şirkətinin prezi[151-152]denti Rövşən İsmayılovu işdən azad edirəm. Tofiq Əzizov özəlləşdirmə proqramının hazırlanmasında bir çox işlər görübdür. Onun xidmətlərini mən qiymətləndirirəm, ancaq buraxdığı səhvlərə görə Dövlət Əmlak Komitəsinin sədri vəzifəsindən azad edirəm. Baş nazirin müavini kimi işləyə bilər, ancaq bu tənqidlərdən ölçü, nəticə çıxarmasa, ola bilər, gələcəkdə bu vəzifəni də əldən verə bilər. Ona görə nəticə çıxarmaq lazımdır. Baş nazirin müavini kimi, o, müəyyən bir sahəyə rəhbərlik edə bilər. Mən belə fikirdəyəm ki, "Azəravtonəqliyyat" Dövlət Konserninin prezidenti Aslanov işdən, vəzifəsindən azad olunsun. Tariyel Hüseynova mən bir neçə dəfə xəbərdarlıq etmişəm, bu gün də xəbərdarlıq edirəm və buraxılan səhvlərin aradan qaldırılması üçün ona iki ay vaxt verirəm. İki ay müddətində əgər bu səhvləri aradan qaldırmasa, işdən kənar olunacaq. Mingəçevir şəhərinin icra hakimiyyəti başçısı Bəxtiyarovu işdən azad edirəm. Qızıl Aypara Cəmiyyətinin sədri Əhmədzadə işdən kənarlaşdırılmalıdır. İzzət Rüstəmova tapşırıram – bu, ictimai təşkilatdır, həmin təşkilatla özünüz yığışarsınız və onun buraxdığı səhvləri müzakirə edərsiniz. Güman edirəm ki, birinci gün bunu etmək lazımdır, onu işdən kənarlaşdırmaq lazımdır.

Səməd Sadıqov, mən neçə dəfə sizə xəbərdarlıq etmişəm. Siz mənə deyin görüm, siz bu xəbərdarlıqlardan nəticə çıxara bilirsiniz, ya bilmirsiniz? Həə?

**Səməd Sadıqov:** Nəticə çıxaracağam.

**Heydər Əliyev:** Bəs nə qədər olar? İnanmıram. Ona görə işdən azad edilsin. Natiq Əliyevə mən onun nöqsanlarını dedim və xəbərdarlıq edirəm ki, o nöqsanlar aradan qaldırılsın. Maliyyə naziri Fikrət Yusifov işində bir çox nöqsanlar buraxır. Mən ona bir neçə dəfə xəbərdarlıq etmişəm, bu gün bir daha xəbərdarlıq edirəm. Nöqsanları aradan qaldırmaq lazımdır. Çox mühüm bir nazirlikdir. Ancaq təəssüf ki, Fikrət Yusifov həm əməli işində, həm də bəzi hərəkətlərində çox ciddi nöqsanlara yol verir. Aradan qaldırmaq lazımdır, xəbərdarlıq edirəm. Sumqayıtın icra hakimiyyəti başçısı Abışov, neçə dəfə sənə xəbərdarlıq etmək olar? Yenə də burada məlumat veriblər ki, 10 milyard manatı başqa yerə xərcləmisiniz.

**Şakir Abışov** – (Sumqayıt şəhər icra hakimiyyətinin başçısı): Düzgün məlumat verməyiblər, möhtərəm prezident.

**Heydər Əliyev:** Tapşırıram Vahid Axundova, bir [152-153] də Ramiz Mehdiyevə. Bu məsələni araşdırın, mənə məlumat verin. Əgər bu məlumat təsdiq olunsa, şübhəsiz ki, mən ciddi ölçü götürəcəyəm.

Baş nazir Fuad Quliyev, təəssüf ki, buraxılan bu səhvlərdə, şübhəsiz, günahkardır. Mən Fuad Quliyevi çoxdan tanıyıram, vaxtilə mənim təşəbbüsümlə Bakı kondisionerlər zavoduna direktor təyin olunubdur. O zavod mənim üçün çox əziz zavoddur. Bilirsiniz ki, onun yaranması, tikilməsi və işləməsi mənim həyatımın bir hissəsi olubdur. Bunları nəzərə alaraq, böyük bir istehsal müəssisəsinin başçısı kimi, təcrübəli bir adam kimi mən Fuad Quliyevi Nazirlər Kabinetinə işə cəlb etdim. Baş nazirin müavini vəzifəsinə təyin etdim və sonra baş nazir vəzifəsinə təyin etdim. Təəssüf ki, ola bilər, bəzi keyfiyyətlərinin çatışmazlığına görə, ola bilər, bəzi başqa səbəblərə görə, indi də deyir ki, guya səhhətinə görə bu böyük vəzifənin öhdəsindən gələ bilmir. Özü də fasilə zamanı məndən xahiş edib ki, bu vəzifədən azad olunsun. Hesab edirəm ki, onun bu xahişini ödəmək lazımdır.

Mənim bu təşkilati qərarlarım hamı üçün xəbərdarlıq olmalıdır, hamı bilməlidir ki, göstərilən etimadı işlə və sağlam mənəviyyatla, professionallıqla doğrultmaq lazımdır. Ancaq təəssüf ki, mən bu halların keçmişdə də şahidi olmuşam, indi də bunları müşahidə edirəm – bəzi şəxslər yüksək vəzifəyə keçəndən sonra başlayırlar normadan çıxmağa. Ruslarda bir söz var: "zaznaystvo", onun azərbaycanca tərcüməsi bir az kobuddur, "qudurmaq" sözüdür, mən bunu işlətmək istəmirəm. Ancaq belə olur. Bəziləri təəssüf ki, pozulurlar. İndi bəzi rəhbər işçilərimiz onların üzərinə qoyulan vəzifəni yerinə yetirmək əvəzinə, çalışmaq əvəzinə, bu vəzifədən öz şəxsi məqsədləri üçün istifadə etməyi daha üstün tuturlar. Bunlar bizim mənəviyyatımıza zidd olan keyfiyyətlərdir. Mən bununla barışa bilmərəm.

Hər bir şəxs müstəqil Azərbaycan Respublikasında dövlət orqanında bir yüksək vəzifəyə layiq görülürsə, onun borcu o vəzifəni layiqincə yerinə yetirməkdən və göstərilən etimadı doğrultmaqdan ibarətdir. Yenə deyirəm, mən çox təəssüf edirəm ki, bəzi adamlar yüksək vəzifəyə təyin olunandan 6 ay, bir il sonra dəyişilirlər. Onların həyat tərzində də, duruşunda-oturuşunda da, geyimində də bir də görürsən ki, cürbəcür xoşagəlməz dəyişikliklər əmələ gəlir, cürbəcür iddialara düşürlər, cürbəcür ambisiyalarla yaşamağa başlayırlar. Hesab edirlər ki, ona verilən bu vəzifə azdır, bir az da bundan çox olmalı[153-154]dır. Ancaq fikirləşmirlər ki, axı bu etimadı doğrultmaq üçün sən nə etdin?

Bizim hər birimiz – mən bunu özüm üçün də hesab edirəm, – daim xalqımız qarşısında borcluyuq. Əgər xalq, dövlət bizim hər birimizə bu etimadı göstəribsə və biz bu salonda yığışıb, Azərbaycan Respublikasının,

Azərbaycan xalqının ən mühüm məsələlərini müzakirə və həll ediriksə, demək, biz anlamalıyıq ki, xalqın qarşısında bizim nə qədər borcumuz var. Mən hesab edirəm ki, ömrünün sonuna qədər bu borcdan çıxa bilməyəcəyəm. Amma bəziləri hesab edirlər ki, bilirsiniz, hələ xalq ona borcludur, o, xalqa borclu deyil. Vəzifədən sui-istifadə etmək halları, rüşvətxorluq, korrupsiya, – bu, bizim cəmiyyətimizin ən böyük bəlasıdır. Təəssüflər olsun ki, bu hallar azalmaq əvəzinə respublikada daha da yayılır.

Bəziləri belə düşünür ki, indi dünyanın hər yerində korrupsiya var. Rusiyanı korrupsiya başına götürüb, başqa ölkələri korrupsiya götürüb. Bəli, bu, belədir. Ancaq bu, bizə haqq vermir ki, əgər başqa yerdə korrupsiya varsa, burada da olsun. Mən yenə də Almaniyanın federal kansleri cənab Kolla danışığımı, söhbətimi xatırlayıram. O mənə dedi ki, bəli, mafiyalar əmələ gəlib. Rusiya haqqında söhbət gedirdi. Dedi ki, Rusiya mafiyası indi başqa ölkələrin mafiyalarından da güclü olubdur. Gəlib Berlində, nə bilim Frankfurtda dolları "paçkalarla" atırlar stolun üstünə. Bu, Almaniyanın federal kanslerinin dediyi sözlərdir. Ona görə də Rusiya indi belə ağır vəziyyətdədir. Ona görə də Rusiyada korrupsiyaya, rüşvətxorluğa qarşı belə ciddi mübarizə tədbirləri görülür.

Ancaq gəlin, açıq danışaq, – bizim respublikada da belə deyilmi? Bizim respublikada da belə hallar var və geniş yayılıb. Kim bu işlərlə məşğul olur? Vəzifəli şəxslər, dövlət orqanında, hökumət orqanında, inzibati orqanlarda, başqa orqanlarda işləyən şəxslər. Bilirsiniz, biz istəyirik ki, ölkəmizə xarici sərmayə gəlsin. Bu, asan deyil. Çünki bizə inanmaq lazımdır, bizə etibar etmək lazımdır. Gəlib bura pulunu, sərmayəsini qoyan adam inanmalıdır ki, o, daim bu sərmayədən istifadə edə biləcək. Belə halda Azərbaycana gələn bir çox iş adamları qayıdır gedir. Nə üçün? Çünki hansı qapını açırlar, hansı təklifi verirlər, cavab alırlar ki, "burada mənə nə çatır? Mənim faizim nədir, mənim xeyrim nədir ?". Təəssüf ki, belə hallar geniş yayılıb və heç kəs də deməsin ki, belə hallar yoxdur, var. [154-155] Bu haqda mənə məlumatlar gəlir və gələn məlumatlara da mən inanıram. Bunlar məni çox narahat edir.

Bilirsiniz, mən bütün həyatım boyu rüşvətxorluqla, vəzifədən sui-istifadə ilə mübarizə aparmışam. Doğrudur, bunlara görə mən çox əziyyətlər də çəkmişəm. 1987-ci ildə mən vəzifədən istefaya gedərkən, məni bu yüksək vəzifədən kənarlaşdırılarkən məhz həmin o rüşvətxorlar, həmin o korrupsiyaya qurşanmış adamlar cürbəcür böhtanların nəticəsində mənim haqqımda müxtəlif fikirlər yaratmağa çalışdılar. Şübhəsiz ki, erməni millətçiləri bir tərəfdən və həmin o rüşvətxorlar, – hansılar ki, mən burada vaxtilə cəzalandırdım, – onlar, bəli, onlar mənim haqqımda nə qədər böhtançı anonim məktublar göndərirdilər! Onların bəzilərini burada Vəzirovun, Mütəllibovun vaxtında televiziyaya çıxardılar, "Heydər Əliyev vaxtının qurbanları" kimi, "qəhrəman" kimi meydana çıxarmaq istəyirdilər. Bilirsiniz, rüşvətxoru, oğrunu qəhrəman etmək öz xalqına xəyanət etməkdir. Əgər sən rüşvətxorla mübarizə apara bilmirsənsə, heç olmasa rüşvətxora yardım da etmə!

Yenə deyirəm, mən həyatım boyu bu hallarla mübarizə etmişəm. Bu gün də mübarizə edirəm və həyatımın sonuna qədər mübarizə edəcəyəm. Bilin, bu, təkcə mənim istəyim deyil, bu, cəmiyyətin istəyidir. Cəmiyyət bunu tələb edir, – insanlar bunu tələb edir. Bu hallar – korrupsiya, rüşvətxorluq, vəzifədən sui-istifadə bizim mənəviyyatımıza zidd olan hallardır. İnsanları bizdən, nə təhər deyirlər, incidir və heç kəs bu hallara haqq qazandıra bilməz.

Ona görə də, mən bu gün bu təşkilati qərarları qəbul edərək, eyni zamanda hamını xəbərdar edirəm, hamını. Heç kəs burada özünə müstəsna bir yer tuta bilməz. Hamı qanun qarşısında cavabdehdir. Heç kəs hesab etməsin ki, onun üçün xüsusi bir status olmalıdır. Yaxud, onun hansısa xidmətləri var və o, nə istəsə edə bilər. Yox, bu nədir, – vəzifəyə təyin olunan kimi tez kabineti təmir etdirirlər. Yenə də deyirəm, mən üç ildir burada işləyirəm, Ədalət Əliyevin üzünü görməmişəm. Ancaq Nazirlər Kabinetinə gəlib-gedirdi, hətta deyirlər, Milli Məclisdə gəlib iştirak edib, nitqlər söyləyirmiş. Ancaq bilmirəm, nə nitqlər söyləyirmiş orada. Bir adam bunun ipini çəkəydi ki, axı belə işlər görmək olmaz. İndi yoxlama zamanı gedib görüblər ki, 6 milyon, ya 5 milyon təmirə veribdir, yaxud da ki, kabinetini düzəltməyə veribdir. O şirkət də pulu götürüb çıxıb gedibdir. Bəs bunu əvvəl [155-156] görmürdünüzmü? Yenə deyirəm, bizim Maliyyə Nazirliyi, Baş Dövlət Vergi Müfəttişliyi, Nazirlər Kabineti, hüquq-mühafizə orqanları bunu görmürdümü? İndi hamı deyir ki, bu, niyə belə oldu...

Amma təkcə bu deyil. Həmin o hava limanının guya bir hissəsinin tikilməsi üçün orada 10 milyon dollar məbləğində bir iş görməli idilər. Türkiyənin baş naziri Məsud Yılmaz burada olanda məni də hava limanına apardılar ki, bəli, burada iş görüləcək. Həmin bu şirkətlə, demək, iş görmək istəyirmiş. Bu da həqiqətə uyğun bir şey deyilmiş. Mənə deyirlər ki, həmin o 10 milyon dollarlıq iş görülməsi haqqında müqaviləyə guya Nazirlər Kabinetində baxılıbdır, hətta təsdiq olunubdur. Amma mənim bu işdən xəbərim yoxdur. Sadəcə, baş nazir Məsud Yılmaz burada olanda mənə dedilər ki, proqrama salınıbdır, hava limanına gedəndə, onu yola salanda orada bir baxın, görün nə var. Heç bir şey yox idi orada. 5-6 inşaatçını yığmışdılar, onlar dedilər ki, biz burada inşa edəcəyik. Mən də baş nazirin xətrinə getdim ora, amma heç bir şey bilmirdim.

Niyə bu işlər mövcud olur, niyə bunlara yol verilir? Nə üçün? Əgər kimsə buna qarşı ölçü götürmürsə, demək, o da bu işə qatılıbdır, o da bu işdən mənfəət götürüb, o da bununla həmfikirdir. Bilirsiniz, bu rüşvətxorlar, korrupsiyaçılar bir-biri ilə nə qədər həmfikir olacaqlarsa, o qədər də mən onlarla zidd olacağam. Mən tək deyiləm, bütün xalqımız bu hallara ziddir. Heç vaxt, bu rüşvətxorlar öz həyatlarında müvəffəq olmayıbdır. Mənəvi paklıq, saflıq həmişə insanları ucaldıbdır, həmişə insanlara hörmət gətiribdir. Ola bilər, belə

insanlar əziyyət, zillət içərisində yaşayıblar. Ola bilər, cürbəcür məhrumiyyətlərə məruz qalıblar. Ancaq mənəvi ucalıq onlar üçün hər bir şeydən qiymətli olubdur.

Ona görə də mən hamını xəbərdar edirəm, hər bir vəzifəli şəxsdən tələb edirəm. Vəzifə alan kimi gərək buna bir dənə xüsusi "Mersedes" maşmı ayrılsın. Bilirsiniz, mən etiraz etmirəm ki, bizim rəhbər vəzifəli şəxslərin yaxşı avtomaşınları olsun. Amma nəyin hesabına, nəyə görə? Əgər buna imkanımız varsa, əgər biz bu ac adamları yedirtmişiksə, əgər bu qaçqınları təmin etmişiksə, başqa işlərimizi görmüşüksə, gəlin bunu da edək. Ancaq bir tərəfdə insanlar ac, o biri tərəfdə insanlar gedib restoranda dollar atırlar rəqs edənlərin başına. Belə hallar da var. Bizim bu rəhbər vəzifəli şəxslərin bəziləri [156-157] hesab edirlər ki, o, xüsusi maşında gəzməlidir, xüsusi yemək yeməlidir, onun ailəsi xüsusi bir şəraitdə yaşamalıdır. Bilirsiniz, bizim hamımız bir cür yaşamalıyıq. Kim ki, sonra özəl iş görəcəkdir, şəxsi sərvətini qanuni yolla əldə edəcəkdir, – o getsin, elə yaşasın. Amma bizim hamımız bir cür yaşamalıyıq. Ona görə də mən bu sözləri çox ürək ağrısı ilə deyirəm.

Bilirsiniz, bu sözləri mən 27 il bundan öncə ilk dəfə Azərbaycana rəhbər seçilərkən birinci məruzəmdə demişəm. O illər ki, mən repressiya altında idim, hər yerdən təcrid olunmuşdum, – 1987-ci ildən sonra, ta 1993-cü ildə bura gələnə qədər – mən yenə də bu sözlərlə yaşamışam, bu sözləri demişəm və bu gün deyirəm. Bu, adi söz deyil, bu, mənim daxili mənəviyyatımdır. Mən istərdim ki, hər bir şəxs öz mənəviyyatını hər şeydən üstün tutsun. Qeyri-qanuni toplanılan sərvət, mal – bunlar heç vaxt insanlara, yenə də deyirəm, şöhrət gətirməyib.

Xahiş edirəm mənim bu tələblərimdən hər kəs özü üçün nəticə çıxarsın. Hesab edirəm ki, iki gün ərzində bizim bu gərgin işimiz çox əhəmiyyətlidir və öz nəticəsini verməlidir. Əmin olduğumu bildirmək istəyirəm ki, bütün bu müzakirələrdən hər kəs ölçü, nəticə çıxaracaqdır və biz hamımız bir yerdə əl-ələ verib Azərbaycan Respublikasının qarşısında duran problemləri birlikdə həll edəcəyik. [157-158]

## 22 İYUL – MİLLİ MƏTBUAT GÜNÜ MÜNASİBƏTİLƏ TƏBRİK

Müstəqil Azərbaycanın Milli Mətbuat günü münasibətilə bütün jurnalistləri və mətbuat-informasiya sistemində çalışan işçiləri ürəkdən təbrik edirəm.

Xalqımızın milli mənəvi dəyərlərini, adət-ənənələrini, istək və arzularmı, keşməkeşli həyatının bütün sahələrini daim öz səhifələrində əks etdirən və əsası Həsənbəy Zərdabi tərəfindən qoyulmuş Azərbaycanın milli mətbuatı çox şərəfli və zəngin inkişaf yolu keçmişdir. Xalqımızın görkəmli mütəfəkkirləri, publisistləri, jurnalistləri, yazıçıları və satirikləri mətbuat vasitəsilə milli şüurun, mənəviyyatın və mədəniyyətin formalaşmasına və inkişafına güclü təkan vermişlər.

Bu gün Azərbaycanda dünyanın ən qabaqcıl ölkələrinin əldə etdiyi nailiyyətlərlə rəqabət apara bilən çoxşaxəli mətbuat və informasiya sistemi yaradılmış, bütün respublika ərazisini əhatə edən ən müasir teleradio, kütləvi informasiya şəbəkələri, milli jurnalistika elmi inkişaf etmişdir.

Müstəqil, demokratik və hüquqi dövlət quruculuğu prosesini yaşayan Azərbaycan dövlətinin ictimai-siyasi həyatının bütün sahələrində olduğu kimi mətbuat və informasiya sahəsində də demokratiya prinsiplərinə dönmədən əməl olunur. Müstəqil Azərbaycan Respublikasının yeni Konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm mətbuat və informasiya sahəsində Azərbaycan dövlətinin yeritdiyi siyasətin əsasını təşkil edir. Məhz bu siyasətin nəticəsidir ki, Azərbaycanda hazırda müxtəlif ictimai-siyasi qurumlara, təşkilatlara, birliklərə, ayrı-ayrı şəxslərə məxsus iyirmi dörd adda teleradio şirkətləri, beş yüzdən çox qəzet və jurnal, iyirmidən yuxarı beynəlxalq, regional və respublika qurumlarını təmsil edən informasiya agentlikləri və s. orqanlar azad surətdə fəaliyyət göstərir. [158-159]

Hörmətli mətbuat işçiləri!

Sizi bir daha bu əlamətdar gün münasibətilə təbrik edir, respublikamızda və onun ətrafında baş verən hadisələrin ictimaiyyətə çatdırılmasında, onların geniş analitik təhlil edilməsində, Azərbaycanda gedən demokratik dəyişikliklərin beynəlxalq aləmdə şərh edilməsində obyektivlik, prinsipiallıq, yüksək professionallıq və əsl vətəndaşlıq mövqeyi arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
[159-160]

## XALQ RƏSSAMI MARAL XANIM RƏHMANZADƏYƏ

Hörmətli Maral xanım!

Sizi – Azərbaycanın ilk professional qadın rəssamım, təsviri incəsənətimizin görkəmli nümayəndəsini anadan olmağınızın 80 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Xalqımız Sizi bütün həyatını respublikamızda rəngkarlıq və qrafika sənətinin inkişafına həsr etmiş fədakar incəsənət xadimi kimi tanıyır. Uzun illər ərzində gərgin zəhmətinizin məhsulu olan, Azərbaycan xalqının həyatını özündə əks etdirən dolğun əsərləriniz Sizə şöhrət gətirmişdir.

Sizin Laçın və Naxçıvanın, Lənkəranın və Qubanın gözəlliklərinə həsr etdiyiniz tablolar Azərbaycanın füsunkar təbiətini əks etdirərək gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyəsinə xidmət etmişdir. Sizə xas olan incəliklə yaratdığınız qadın obrazları isə xüsusi diqqətə layiqdir.

Əziz Maral xanım!

Sizə möhkəm cansağlığı, uzun ömür, yaradıcılığınızda yeni-yeni uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*22 iyul 1996-cı il* [160-161]

**DAHİ AZƏRBAYCAN ŞAİRİ VƏ MÜTƏFƏKKİRİ MƏHƏMMƏD FÜZULİNİN 500 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ NÖVBƏTİ İCLASINDA ÇIXIŞ**

*Prezident Sarayı*

*23 iyul 1996-cı il*

Hörmətli komissiya üzvləri!

1994-cü ildən Azərbaycanda Məhəmməd Füzulinin 500 illiyi ilə əlaqədar yubiley tədbirləri keçirilir. Bu müddətdə çox iş görülüb. Məhəmməd Füzulinin yaradıcılığı həm Azərbaycanda, həm də bir çox xarici ölkələrdə təbliğ olunubdur. Hesab edirəm ki, 1994-cü ilin martında yaradılmış yubiley komissiyası gərəkli işlər görübdür. Məhəmməd Füzuli elə bir şəxsiyyətdir ki, onun yubileyi ilə əlaqədar tədbirləri daim davam etdirmək olar. Ancaq eyni zamanda müəyyən mərhələdə görülən işlərə də yekun vurmaq, ən yüksək tədbirləri keçirmək lazımdır. Ona görə də mən Məhəmməd Füzulinin yubileyi ilə əlaqədar yaradılmış komissiyanın bu gün növbəti iclasını çağırmışam.

Təklif edirəm ki, yubiley komissiyası sədrinin müavini Elçin Əfəndiyevin bu barədə məlumatını dinləyək, görülən işləri təhlil edək və bundan sonra görüləcək tədbirlər haqqında müəyyən qərar qəbul edək.

* * *

Elçin Əfəndiyev ətraflı məlumat verdi. Biz yəqin ki, bu məsələlər barədə fikir mübadiləsi aparmalıyıq. Ancaq müzakirəyə başlamamışdan əvvəl mən iki məsələni qeyd etmək istəyirəm. Birincisi, bu gün iyulun 23-dür. Üç il bundan əvvəl respublikamızın Ağdam şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib.

Ağdam böyük rayondur. Onun ərazisi də böyükdür. Ermənistanın Azərbaycana təcavüzü başlayandan, ilk gündən, 1988-ci ildən Ağdam rayonu, xüsusən onun Dağlıq Qarabağla sər[161-162]həddə yaxın yaşayış məntəqələri atəş altında olmuşdur. Gedən müharibə nəticəsində, hələ 1993-cü il iyulun 23-dək, Ağdam şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilənədək rayonun ərazisinin bir qismi 1991-1992-ci illərdə işğal altında idi. 1993-cü il iyulun 23-də isə Ağdam şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. İndi Ağdam rayonu ərazisinin bir hissəsi, Ağdam şəhəri işğal altındadır. Orada yaşamış sakinlərimiz Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində öz yerlərindən didərgin düşüblər. Amma əhalinin digər hissəsi hazırda Ağdam rayonunun işğal olunmamış ərazisində yaşayır və fəaliyyət göstərir.

Ağdam rayonunun, şəhərinin işğal edilməsi Azərbaycan üçün əlbəttə ki, böyük zərbə ölmüşdür. Çünki Ağdam Azərbaycanın qədim, böyük, tarixi abidələrə malik şəhərlərindəndir. Bu, bütün Azərbaycan xalqını kədərləndirir. Biz də bu gün bu kədərli hadisəni yad edirik. 1988-ci ildən bəri, Ermənistanın Azərbaycana təcavüzü başlayandan 1994-cü ilin mayında atəş dayandırılanadək xalqımız çox böyük itkilər verib, insanlar şəhid, həlak olublar. Böyük itkilər vermişik. Ona görə də müzakirələr başlanmamışdan əvvəl mən istərdim ki, biz bu gün, bu dəqiqə bu faciəli hadisəni yad edək. Eyni zamanda Azərbaycanın ərazi bütövlüyü uğrunda, respublikamızın torpaqlarının qorunması uğrunda həlak olmuş soydaşlarımızın, vətəndaşlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin.

Ağdam şəhərinin işğal olunması ilə əlaqədar yaxın günlərdə mənim planlarım da var. Ağdam rayonunun nümayəndələri ilə görüş keçirmək fikrindəyəm. Güman edirəm ki, biz bu görüş zamanı həm keçmiş illəri təhlil edəcəyik, həm də gələcək haqqında, respublikamızın ərazi bütövlüyünün təmin olunması, o cümlədən işğal edilmiş torpaqlarımızın azad edilməsi ilə əlaqədar fikir mübadiləsi apara biləcəyik.

Füzulinin 500 illiyi ilə əlaqədar yaradılmış yubiley komissiyasının fəaliyyəti haqqında Elçin Əfəndiyev geniş məlumat verdi. Bir daha qeyd etmək istəyirəm ki, çox işlər görülübdür. 1994-cü ildə yaradılmış komissiyanın hər bir üzvü indiyədək görülmüş işlərə öz payını veribdir. Ancaq təəssüflər olsun ki, biz bu komissiyanın bir neçə üzvünü itirmişik. Keçən iclasda mən xatırladım, böyük şairimiz Xəlil Rza, böyük alimimiz Rüstəm Əliyev dünyaların dəyişiblər. O iclasdan sonra bizim yenə də itkilərimiz var: böyük yazıçımız İsmayıl Şıxlı, böyük [162-163] alimlərimiz Aslan Aslanov, Cahangir Qəhrəmanov da dünyalarını dəyişiblər. Komissiyamızın dünyasını dəyişən üzvlərinin hamısının xatirəsini istəyirəm bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin.

Elçin Əfəndiyev məlumat verdi, həqiqətən iş görülüb. Eyni zamanda təklif irəli sürdü ki, Zirvə mərasimini də keçirək. Bununla əlaqədar bir sıra təkliflər də irəli sürülüb. İstərdim ki, komissiya üzvləri öz fikirlərini desinlər, eyni zamanda kimin nə təklifi varsa, desin...

* * *

Mən bir məsələni dəqiqləşdirmək istəyirəm. Siz deyirsiniz ki, Nizami muzeyinin, bizim tarixi abidəmiz olan muzeyin adını dəyişdirib Füzuli muzeyi edək? O, bizim həyatımıza Nizami muzeyi kimi daxil olub. İndi o, Nizami adına muzeydir, eləmi? Həmin muzeyi, oradakı heykəllər, gözəl bəzəklər, naxışlar ilə birlikdə 1948-ci ildə yaratdılar. Mən o vaxtdan da o muzeyi Nizami muzeyi hesab edirəm....

Cəfər Cabbarlının abidəsini mən qoydum getdim. Xatirinizdədirmi, o abidənin 1981-ci ildə qoyduq. Mən 1982-ci ildə buradan getdim. Amma siz hamınız burada idiniz, o cümlədən sənin (Nəbi Xəzriyə müraciətlə – *Red.)* də hər bir səlahiyyətin var idi. Ad yazmaq bir şey deyildir, yazılmamışdı – yazaydınız. Əlbəttə o abidəni qurmaq, yaratmaq çox çətin idi. Düzgün deyirsən, abidənin müəllifi Mirələsgər Mirqasımov tələb edirdi ki, bu abidə bütöv qranitdən olsun. O vaxt bu işi aparanların bir çoxu deyirdi ki, o mümkün deyil. Bu mübahisə iki il davam etdi. Nəhayət o, bir-iki dəfə mənim yanımda oldu, görüşdük. Baxdım ki, müəllifin təklifi elədir ki, bunu etmək lazımdır. Doğrudur, çətin idi, amma o, belə bir əsər yaradıbsa, müəllifin yaratdığını olduğu kimi icra etmək lazımdır.

Doğru deyirsiniz, mən bu işə qarışdım. Qraniti Ukraynadan çox çətinliklə gətirdik, bu abidəni qurduq, yaratdıq. İndi sən deyirsən ki, orada bazardır. Ola bilər. Ancaq oradakı Sabunçu dəmir yol vağzalı vaxtilə nə vəziyyətdə idi? Bunların hamısını siz görmüsünüz. Axır vaxtlar mən oralara getməmişəm. O zaman biz oranı abadlaşdırdıq, yenidən qurduq, dəmir yol vağzalı ilə meydanı birləşdirdik. Tarixi abidə olan Sabunçu vağzalının binasını bərpa etdik. Bunlar hamısı görülmüş işlərdir. [163-164] Amma, əgər Cəfər Cabbarlının abidəsi önünə adı yazılmayıbsa, bu adı yazmaq hər şeydən asan idi. Gərək bunu edəydilər. Əgər bunu etməmisinizsə, şübhəsiz ki, mən bunu da edərəm.

İstanbulda Balasanyanın "Leyli və Məcnun" baletinin tamaşaya qoyulması, şübhəsiz ki, təəccüb doğurur. Məlumdur, vaxtilə Balasanyan "Leyli və Məcnun" baletini yazıb. Bu, Böyük Teatrda da tamaşaya qoyulub. Keçmişə nəzər salsaq "Leyli və Məcnun" mövzusu Şərq aləminə məxsus olan mövzudur. Ancaq bu mövzu Azərbaycanın dahi şəxsiyyətlərinin yaradıcılığı nəticəsində əsərlərdə öz əksini tapıb. Nizami də, Füzuli də "Leyli və Məcnun" yazıb. Arif Məlikov dogru dedi, hesab edirəm ki, bəşər tarixində, Şərq aləminin tarixində, İslam aləminin tarixində "Leyli və Məcnun" mövzusunda məhz Məhəmməd Füzulinin poeması əsasında dahi bəstəkar Üzeyir Hacıbəyov tərəfindən opera yazılıbdır. Biz bəzən bunu tariximizdə adi bir hadisə hesab edirik. Ancaq bu, adi hadisə. deyildir. Birincisi, ona görə ki, ümumiyyətlə, Şərq aləmində Üzeyir Hacıbəyovdan əvvəl opera yazan olmayıb. Bu operanı yaradan Üzeyir Hacıbəyovdur. Ola bilərdi ki, bu operanı hər hansı başqa bir mövzu üzərində yazsın. Üzeyir Hacıbəyov bu operanı məhz Füzulinin poeması əsasında yazıb. Bilirsiniz, Füzulinin Üzeyir Hacıbəyovla bağlanması, 500 il bundan əvvəl yaşamış, Füzulinin 100 il bundan əvvəl yaşamış Üzeyir Hacıbəyovun Şərq aləminə xas olmayan opera sənəti əsasında bağlanması tarixi bir hadisədir. Bu, xalqımızın incəsənətdə, mədəniyyətdə, musiqidə nə qədər yüksəklərə qalxdığını göstərir. Biz bununla fəxr edirik və fəxr etməliyik. Yenə də deyirəm, bunu adi hadisə kimi qəbul etmək lazım deyil. Bu, qeyri-adi bir hadisədir.

Ancaq bizim sonrakı bəstəkarlarımız gərək Üzeyir Hacıbəyovun yolu ilə gedəydilər. "Leyli və Məcnun" mövzusunda bir balet yazaydılar. Qara Qarayevin "Leyli və Məcnun" simfonik əsəri çox dəyərli bir əsərdir. Mən onu dəfələrlə dinləmişəm. Yadımdadır, biz Qara Qarayevin 60 illik yubileyini qeyd edəndə həm Moskvada, həm də Bakıda məhz bu əsəri ifa etdilər. Ancaq bu mövzuda balet yazmaq lazımdır. Arif Məlikov "Məhəbbət əfsanəsi" adlı çox gözəl bir əsər yaradıb. Bu əsər dünyanın ən böyük teatrlarında tamaşaya qoyulub və bu gün də qoyulur. Ancaq gərək bir başqa bəstəkarımız da "Leyli və Məcnun" baleti yaradaydı. Bunu Arif Məlikovun özü də edə bilərdi. Çünki onun yaratdığı birinci balet çox uğurlar qazanıb, bir çox teatrlarda bu gün də uğurla gedir. [164-165]

Mən hesab etmirəm ki, xalqımızın, bəstəkarlarımızın yaradıcılıq potensialı tükənibdir, yox. Bu gün də, sabah da əsərlər yaranacaq. Bəzən insanlar düşünürlər ki, bu olmasa biz sabah necə yaşayacağıq? Amma sabah yeni bir istedad meydana çıxar. Əlbəttə, dahilər hər il yetişmir. Bu da təbiidir. Əgər belə olsaydı, şübhəsiz ki, onların qiyməti olmazdı. Xalqımızda istedadlar potensialı çox böyükdür. Güman edirəm, indiyədək olmayan əsərlər bundan sonra yaranacaqdır. Biz də onu görəcəyik, sonrakı nəsillər də onu görəcəklər.

Ancaq İstanbulda Balasanyanın əsərlərinin tamaşaya qoyulması şübhəsiz ki, təəccübləndirici bir məlumatdır. Güman edirəm ki, Polad Bülbüloğlu "Türksoy"un sədri və Mədəniyyət Nazirliyinin başçısı kimi gərək bu məsələni biləydi və türk qardaşlarımıza izah edəydi ki, belə ola bilməz. Ola bilər, nəzərdən qaçıb. Bu məsələni öyrənin, belə şeylər ola bilər. Bəlkə bəziləri kimin kim olduğunu anlamırlar, yaxud bəziləri bunu qəsdən edirlər, ola bilər.

## YEKUN SÖZÜ

Güman edirəm, hamınız razılaşarsınız ki, bu gün komissiyanın iclası görülmüş işlərə yekun vuracaqdır. İclas həm də Füzulini qəlbimizdə, eləcə də xalqın qəlbində yenidən canlandırır. Son illər, xüsusən 1994-cü ildə Füzulinin 500 illiyi ilə əlaqədar yubiley komissiyası yaradıldıqdan sonra çox iş görülübdür. 94-cü, 95-ci və 96-cı illərdə keçirilən yubiley tədbirləri sadəcə olaraq bir yubiley günü, yaxud yubiley ayı və ya yubiley ili ilə bağlı mərasimlər deyildi, onlar Füzuli yaradıcılığının geniş bir çərçivədə təbliğ olunmasına şərait yaradırdı.

Füzulini ən əvvəl öz ölkəmizdə daim təbliğ etmək lazımdır. Bizim xalqımız, xüsusən gənc nəsil, yeni həyata qədəm qoyanlar Füzulini nə qədər oxusalar, dərk etsələr, onun yaradıcılığı ilə yaxından tanış olsalar, Füzuli şəxsiyyətinin böyüklüyünü hiss etsələr adamlarımız bir o qədər saf mənəviyyat istiqamətində yaşayacaq və həyatlarını da bu ruhda quracaqlar. Çünki Füzulinin həyatı da, bütün yaradıcılığı da həm yüksək mənəviyyat, həm yüksək fəlsəfədir, həm də insanlara mənəvi, estetik qida verən böyük bir mənbədir.

Buna görə də təxminən bu üç ildə görülən işlər həyatımızda, xüsusən ictimai-siyasi, mədəni həyatımızda çox əhəmiyyətlidir, onların böyük təsiri var və bundan sonra da olacaqdır. [165-166]

Hesab edirəm ki, komissiyanın gördüyü işlər Azərbaycan xalqının, millətinin, vətəndaşlarının mənəvi tərbiyəsi üçün, mənəvi cəhətdən yüksəlməsi üçün çox mühümdür.

Tarixi şəxsiyyətlərin yubileylərinin keçirilməsi, bir tərəfdən, onların xalq qarşısında, millət qarşısında xidmətlərinə verilən qiymətdir – bu, lazımdır, özü də mütləq lazımdır. Digər tərəfdən isə, belə yubileylərin keçirilməsi xalqın, millətin zənginliyini nümayiş etdirir. Eyni zamanda bu yubileylər xalqın, millətin daha da yüksəlməsinə kömək edir.

Burada çıxış edənlər dedilər ki, Füzulinin həyatı çox ağır keçib, bəxti gətirməyib. Bilirsinizmi, bir insanın həyatının ağır və məşəqqətli keçməsi, əlbəttə, qeyri-adi bir şey deyildir. Amma buna böyük tarixi nöqteyi-nəzərdən baxsaq, görərik ki, bu, kiçik bir şeydir. Əsas və mühüm məsələ Füzulinin yaradıcılığı və onun qoyub getdiyi irsdir. Onun necə yaşaması, həyatının necə keçməsi o qədər də vacib deyildir. Vacib olan budur ki, o, necə bir irs qoyub gedib və 500 ildən sonra biz bu irsdən nə qədər bəhrələnir və faydalanırıq.

Bir daha qeyd edirəm, bu yubileylərin keçirilməsindən məqsəd həmin şəxslərin özlərinin yada salınmasından çox, xalqın elminin, mədəniyyətinin, mənəviyyatının zənginliyini nümayiş etdirməkdir və indiki nəslə, gələcək nəsillərə onlardan daha faydalı istifadə etmək üçün imkan yaratmaqdır. Biz Füzuli ilə fəxr edirik. Məsələn, biz millətimizdən danışarkən deyirik ki, 500 il bundan öncə yaşamış azərbaycanlı Füzuli dünya mədəniyyət xəzinəsinə öz böyük töhfələrini veribdir. Ona görə də biz yubileyi elə keçirməliyik ki, bu tədbir təkcə Azərbaycanda deyil, Türkiyədə də, İranda da, İraqda da, Moskvada da, Dərbənddə də, bir sözlə, hər yerdə böyük iftixar hissi doğursun. Məhz Füzulinin yaradıcılığı və əsərləri ilə göstəririk ki, xalqımız hansı zənginliyə, hansı mədəniyyətə, hansı mənəviyyata, hansı elmə malikdir.

Ona görə də təkcə Füzulinin deyil, həm də Azərbaycanın digər böyük və tarixi şəxsiyyətlərinin yubileylərinin keçirilməsi ümumxalq tədbirləridir. Mən həmin məsələlərə daim bu mövqedən yanaşmışam və əvvəllər də, indi də belə yubileyləri keçirərkən həmişə çalışmışam ki, onlar yüksək səviyyədə olsun. Çünki bu yubileylər eyni zamanda xalqımızı yüksəldir. Vaxtilə, biz Sovet İttifaqının tərkibində olarkən YUNESKO xəttindən başqa, ayrı ölkələrdə yubiley keçirə bilməzdik. Onda ədəbiyyatımızı, elmimizi, incəsənətimizi tanıtmaq üçün yeganə [166-167] yolumuz Moskvada yubiley və ya hər hansı bir tədbir keçirməkdən ibarət idi. Moskva dünyanın ən böyük şəhərlərindən, ən böyük paytaxtlarından, ən böyük mədəniyyət mərkəzlərindən biridir. Moskvanın Böyük Teatrı dünyada məşhurdur. Ona görə də bunu heç vaxt nəzərdən qaçırmaq lazım deyildir. Əgər biz, məsələn, Nizaminin yubileyini, yaxud Səməd Vurğunun yubileyini Böyük Teatrda əvvəllər böyük bir təntənə ilə keçirirdiksə bu, bütün dünyanın nəzər-diqqətini cəlb edirdi.

İndi isə imkanlarımız daha genişdir. Gördüyünüz kimi, Füzulinin bir neçə ölkədə yubileyi keçirilibdir. Hər bir ölkədə Füzulinin yubileyi ilə bağlı tədbirlər bir çox dairələrə, şübhəsiz, öz təsirini göstərib, Azərbaycanı, onun mədəniyyətini, elmini, incəsənətini tanıdıbdır. Bunlar böyük nailiyyətdir. Bunları bəlkə də heç bir şeylə ölçmək mümkün deyildir – heç bir ölçü vahidi ilə. Lakin bunların faydası, qiyməti çox böyükdür. Odur ki, mən bu sahədə görülən işləri qiymətləndirirəm. Hesab edirəm ki, hamınız da belə fikirdəsiniz. Zənnimcə, indi biz Füzuli yubileyinin zirvə tədbirlərini keçirmək üçün yaxşı əsas yarada bilmişik.

Mən burada verilən təkliflərlə razıyam. Hesab edirəm ki, biz cari ildə bu yubileyin zirvə tədbirlərini keçirməliyik. Bunun üçün oktyabr və noyabr ayları təklif edildi. Bu, bir az tez olsa, daha yaxşı olar, çünki onda havalar yaxşı keçir. Lakin bu gün mən Elçin Əfəndiyevlə söhbət etdim və sizin də fikriniz belədir ki, müəyyən bir hazırlıq dövrü olsun. Biz onun vaxtını müəyyən etməliyik. Mən təkliflərlə razıyam, o mənada ki, bu tədbirlər ya oktyabr ayının axırlarında, ya da noyabr ayında keçirilsin. Lakin onların vaxtını dəqiqləşdirmək lazımdır. Çünki, əvvəla, bu tədbirlər başqa tədbirlərlə eyni vaxta düşməsin. Ola bilər ki, mən ölkədə olmayım. İkincisi, nümayəndələr dəvət edəcəyimiz ölkələrin imkanları da nəzərə alınmalıdır. Ona görə də bu məsələni Elçin Əfəndiyev, Həsən Həsənov, Anar, Polad Bülbüloğlu araşdırıb dəqiqləşdirməlidirlər.

Bilirəm ki, məsələn, keçən il avqust ayının sonunda biz Qırğızıstanın paytaxtı Bişkekə yalnız "Manas" dastanının min illik yubileyinə deyil, həm də türk cümhuriyyətləri dövlət başçılarının Zirvə görüşünə

toplaşmışdıq. Xatirimdədir, o vaxt belə bir qərar qəbul olundu ki, türk ölkələri dövlət başçılarının növbəti Zirvə görüşü bu ilin oktyabrında Daşkənddə keçirilsin. Düzdür, görüşün günü müəyyənləşdirilmədi. Özbəkistan prezidenti cənab İslam Kərimov burada olarkən dedi ki, [167-168] onlar Əmir Teymurun 670 illiyinə hazırlaşırlar. Onu da dedi ki, bu yubileyi YUNESKO xətti ilə keçirirlər. Onlar yubileyə məni də dəvət ediblər. Yubileylə əlaqədar üstündə Əmir Teymurun əks etdirildiyi medal da buraxıblar.

Mən belə başa düşdüm ki, ola bilər, onlar həmin Zirvə görüşünü Əmir Teymurun yubileyi ilə bir vaxta salsınlar. Bişkekdə "Manas"ın yubileyində olduğu kimi. Ona görə də bunu dəqiqləşdirmək lazımdır. Elçin dedi ki, oktyabr ayının sonunda Türkmənistanda müstəqillik günü qeyd olunacaqdır. Ümumiyyətlə, bu dövlətlər öz müstəqilliyini ildə bir dəfə qeyd edirlər. Biz isə bir neçə dəfə. Əvvəlcə mayın 28-də ilk Azərbaycan Demokratik Respublikasının ildönümü münasibətilə. Onlarda belə bir tarix yoxdur. Sonra mən bu müstəqilliyin tarixinin nə vaxt olduğunu araşdırdım. Bu barədə Həsən Həsənovdan soruşdum çünki Həsənov o vaxtlar burada idi. Sənədlərə görə, Konstitusiya Aktının qəbul edilməsi oktyabrın 18-də olub. Bu, bəzi yerlərdə müstəqillik günü kimi qeyd edilir. Azərbaycanda 1991-ci il oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya Aktı qəbul olundu və dekabrın 30-da müstəqillik haqqında referendum keçirildi. İndi araşdırmaq çətindir, biz müstəqilliyi hansı gün əldə etmişik – oktyabrın 18-dəmi, yoxsa ümumxalq səsverməsi yolu ilə referendum keçirilən dekabrın 30-damı? İndi daha bir gün də meydana çıxıbdır ki, bu da bizim ilk konstitusiyanı qəbul etdiyimiz gündür. Bu, noyabrın 12-dir və o da tarixi bır gündür – müstəqil Azərbaycanın tarixində ilk konstitusiya qəbul olunubdur. Bir çox ölkələrdə Konstitusiya günü milli bayram günüdür. Biz də Konstitusiya gününü bayram elan etmişik.

Mən bunları ona görə yada salıram ki, bu barədə də bir düşünüb görək nə etmək lazımdır. Keçmişdə Sovet İttifaqında iki böyük bayram var idi – biri oktyabr bayramı, digəri isə may bayramı idi. Amma dövlət bayramı oktyabr bayramı hesab olunurdu. Bununla bərabər, may bayramı da elə bir səviyyəyə çatmışdı ki, o da dövlət bayramı kimi qeyd edilirdi. İndi biz o təcrübədən istifadə etmək istəmirik, sadəcə olaraq dünyadakı mövcud təcrübələrdən öyrənmək, bu barədə düşünmək lazımdır.

Ona görə də yubiley gününü təyin edərkən bu məsələləri siz gərək nəzərə alasınız. Çünki Füzulinin yubileyinə türkdilli dövlətlərdən, şübhəsiz, daha çox nümayəndə gələcəkdir. Bu məsələni də nəzərdən qaçırmaq olmaz. [168-169]

Burada Anar təklif verdi ki, bizdə türkdilli ölkələrin yazıçılarının qurultayı keçirilsin. Mən bu təklifi qəbul edirəm. Biz bir dəfə bu barədə danışmışdıq. Mən bununla razıyam. Belə bir qurultayı Azərbaycanda keçirmək lazımdır. Özü də mütləq. Bir halda ki, 1926-cı ildə Bakıda keçirilmiş ilk qurultayın bu il 70 ili tamam olur, o qurultayı keçirmək vacibdir. Onu Füzulinin yubileyi ilə eyni vaxta salmaq məqsədəuyğundur. Çünki əgər biz yazıçıların qurultayını keçiririksə, ən böyük yazıçımız, hamı üçün ən böyük yazıçı Füzulidir. Ona görə də bu, tamamilə məqsədəuyğundur. Bu qurultayı keçirmək lazımdır. Mən bu təkliflə razıyam. Polad Bülbüloğlu burada o vaxt "Türksoy" məclisinin də keçirilməsini təklif edir. Bəlkə bu da yaxşı olardı. Amma bir az düşünün, bunların hamısı eyni vaxta düşsə tədbirlər çox və yorucu olar. Bu barədə düşünmək lazımdır.

Beynəlxalq konfrans bir gün keçirilməlidir. Nəhayət, təntənəli yubiley mərasimi də bir gün olmalıdır. Amma hər adamın da öz proqramı, öz işi var. Ola bilsin, biri gəlib desin ki, mənim başqa bir işim var. Bir az fikirləşin. Mən bunu ümumiyyətlə bir təklif kimi qəbul edirəm. Biz gərək bunları bir-iki günə təyin edək, onların vaxtını müəyyənləşdirək. Vaxt hamı üçün münasib olmalıdır. Əgər biz o yazıçılar qurultayını keçiririksə, deməli, biz onu bütün türkdilli ölkələrlə razılaşdırdıqdan sonra keçirməliyik. Məsələn, "Türksoy" məclisini də həmin vaxta salmaq istəyiriksə, onu da razılaşdırmalıyıq və gərək o günlərdə həmin ölkələrin heç birində elə böyük tədbirlər olmasın və onların nümayəndələrinin buraya gəlməyə imkanı olsun. Tədbirin gününü dəqiq müəyyənləşdirməliyik. Mən Elçin Əfəndiyevə, Həsən Həsənova, Polad Bülbüloğluna tapşırıram ki, bir yerdə məsləhətləşsinlər və iki-üç günə mənə vaxt barədə məlumat versinlər. Çünki biz gərək vaxtı təyin edək və qabaqcadan elan edək, hamıya, o cümlədən YUNESKO-ya xəbər verək və dəvətnamələr göndərək.

Ona görə də siz vaxtı bu həftənin axırınadək müəyyən edib, təklifinizi verin – oktyabrın sonu, yoxsa, noyabrın əvvəli? Çox gecikdirmək lazım deyildir, çünki sonra soyuqlar düşəcəkdir. Bu, birinci məsələdir. Beynəlxalq konfrans keçirilməlidir. Mən buna razıyam. Odur ki, sizdə çox geniş iş proqramı olmalıdır. Siz bunun vaxtını, tədbirlərin gününü təyin etdikdən sonra hər bir gün üçün iş proqramı hazırlamalısınız. Bunları etmək lazımdır. [169-170]

Burada başqa bir neçə təklif də verildi. Şübhəsiz ki, Füzulinin yubileyi, yəni son mərasimlərin keçirilməsi ilə əlaqədar hazırlanacaq müxtəlif suvenirlər, nişanlar, sikkə və medallar barədə indidən düşünmək lazımdır. Siz bu barədə gərək öz təkliflərinizi verəsiniz, hazırlayıb mənə təqdim etməlisiniz ki, mən bunun üçün sərəncam verim. Çünki bunların hamısı vəsaitlə bağlıdır. Mən sərəncam verməliyəm ki, məsələn, hansı medaldan nə qədər hazırlanmalıdır və bunun üçün vəsait haradan ayrılmalıdır, tədbirlər necə olmalıdır. Yəni, bir tərəfdən, bəri başdan vəsait ayrılmalı, ikinci tərəfdən, onların icraçıları müəyyən edilməli, üçüncü tərəfdən isə, eskizlər hazırlanıb təqdim olunmalı və iş görülməlidir. Bu işlərlə məşğul olmağı da sizə həvalə edirəm, öz təkliflərinizi təqdim edin və bundan sonra lazımi sərəncamlar veriləcəkdir.

Dediniz ki, Füzuli adına beynəlxalq mükafat təsis etmək gərəkdir. Zənnimcə, bunu etmək olar. Doğrudur, indi bizim maliyyə vəziyyətimiz o qədər də yaxşı deyildir. Buna baxmayaraq, belə bir mükafat təsis

etmək olar. Siz bu barədə də təklif verin. Bilmirəm, biz bunu komissiyanın qərarı ilə, yoxsa hər hansı bir sənədlə etməliyik. Deyirsiniz ki, prezidentin sərəncamı ilə olsun? Onda bir fikirləşin. Mən bu təkliflə razıyam və hesab edirəm ki, biz Füzuli adına beynəlxalq mükafat təsis etməliyik. Bunun hansı sənədlərlə və necə təsis olunması barədə siz öz təkliflərinizi verin.

"Füzuli ensiklopediyası"nı hazırlamaq lazımdır. Ancaq güman edirəm ki, biz bunu iki ay müddətində hazırlaya bilmərik. Buna baxmayaraq, onu da plana salmaq lazımdır. Siz təklif verin, sərəncam verək, onu da hazırlasınlar. Bunu uzatmaq olmaz.

Burada Əlyazmalar İnstitutuna Füzulinin adının verilməsindən söhbət getdi. Ortaya mübahisəli bir məsələ çıxır.

**Elçin Əfəndiyev:** Hörmətli Prezident, Respublika Əlyazmaları İnstitutuna vaxtilə Salman Mümtazın adı verilib, lakin institut onun adını daşımır.

**Heydər Əliyev:** Bu barədə bir qərar olubmu? Həmin institut bu adı daşıyıbmı?

Azərbaycan Elmlər Akademiyasının prezidenti **Eldar Salayev:** Hörmətli Prezident, Respublika Əlyazmalar İnstitutuna Salman Mümtazın adı verilməsi haqqında vaxtilə qərar qəbul edilib, amma institutun kollektivi həmin qərarla razılaşmayıb. Ona görə də bu institut Salman Mümtazın adını daşımayıb. [170-171]

Nazirlər Kabinetinin şöbə müdiri **İsmayıl Sadıqov:** Hörmətli Prezident, bu barədə Nazirlər Sovetinin müvafiq qərarı olub.

**Heydər Əliyev:** Həmin qərar nə vaxt qəbul edilib?

**İsmayıl Sadıqov:** 90-cı ildə qəbul olunub.

**Heydər Əliyev:** Bəlkə bu barədə Həsən Həsənov bir söz desin? Axı həmin vaxtlar o, Nazirlər Sovetinin sədri olub.

**Həsən Həsənov:** Hörmətli Prezident, bəli, o vaxtlar belə bir qərar qəbul edilib, amma institut bu adı daşımayıb.

**Heydər Əliyev:** Yəni belə bir qərar olub və ona da sən qol çəkmisən?

**Həsən Həsənov:** Bəli, 1990-cı ildə belə bir qərar qəbul edilib.

**Heydər Əliyev:** Burada iki məsələni aydınlaşdırmaq lazımdır. Birincisi, qərar məsələsidir. İkincisi, indi deyirlər ki, qərar olub, amma kollektiv onu qəbul etməyib. Deyin görək, institut bu adı daşıyır, ya daşımır?

**Həsən Həsənov:** Xeyr, daşımır.

**Heydər Əliyev:** Yaxşı, mən bu araşdırmadan belə başa düşdüm ki, birincisi, Əlyazmalar İnstitutunun əməkdaşları vaxtilə Azərbaycanda qədim əlyazmaları yığıb bir yerə toplayanlar xalqımız qarşısında böyük xidmət göstərmişlər. Hər hansı bir xalqın tarixini onun arxivləri muzeyləri, tarix boyu yaratdığı əsərlər əks etdirir. Azərbaycanda bu əlyazmalar fondu da onlardan biridir, Azərbaycanın böyük sərvətidir.

Ancaq mən bir məsələni də demək istəyirəm. Biz XX əsrdə, xüsusən 1920-ci ildən sonra elmimizi və mədəniyyətimizi inkişaf etdirmək sahəsində çox işlər görmüşük. Məsələn, Elmlər Akademiyasının yaradılmasının özü böyük bir hadisədir. O vaxtlar şəhərin mərkəzindəki gözəl, möhtəşəm bir bina alimlərimizə verildi. Bundan sonra alimlərimiz bu binada toplaşdılar və 1945-ci ildə Elmlər Akademiyası, sonra ayrı-ayrı muzeylərimiz, arxivlərimiz yaradıldı.

Ancaq bu qədər zəngin əlyazmaları olan bir dövlətdə bu fonda münasibət təəssüf ki, o qədər də yaxşı deyildir. Həqiqəti demək lazımdır. Nədənsə bunu vaxtilə o qədər də təbliğ etmirdilər, bundan çox da ətraflı istifadə etmirdilər. Şübhəsiz ki, ayrı-ayrı alimlər, tədqiqatçılar Əlyazmalar fondundan istifadə [171-172] edirdilər. Amma o vaxtlar Əlyazmalar fondunu böyük milli sərvətimiz kimi təbliğ etmirdilər. Xatirimdədir, bu məsələ 70-ci illərdə meydana çıxdı. O vaxtlar biz bu Əlyazmalar Fondu sarıdan çox narahat olduq, çünki o, indiki İstiqlaliyyət küçəsində olan binada, Musa Nağıyevin İsmailiyyə binasının aşağı mərtəbəsində bir neçə otaqda yerləşdirilmişdi.

Biz 70-ci illərdə Ali Sovet üçün gözəl bir bina tikdirdik. Çox şükürlər olsun ki, indi bizim müstəqil Azərbaycan Respublikasının belə gözəl parlament binası var.

O vaxtlar Ali Sovetin yerləşdiyi binanın üstündə dava gedirdi ki, bu bina kimə verilməlidir. Necə deyərlər, müştəriləri çox idi, hətta olduqca çox idi. Müxtəlif təşkilatlar və onlara rəhbərlik edən çox hörmətli, mötəbər adamlar bu binanı götürmək istəyirdilər. Çünki doğrudan da tarixi bir binadır, şəhərin mərkəzində yerləşir. Həm memarlıq baxımından gözəl binadır, həm də işləmək üçün yaxşı bir yerdir. Cürbəcür təkliflər irəli sürürdülər. Bu təkliflər çox olduğuna, amma bir-birindən fərqlənmədiyinə görə qərar qəbul etmək çətin idi. Bu məsələ barəsində bir müddət düşündükdən sonra mən qəti qərar qəbul etdim ki, bu bina Əlyazmalar Fonduna verilməlidir. Elə o vaxt da Əlyazmalar Fonduna akademiyanın Əlyazmalar İnstitutu statusu verdik. Bu barədə xüsusi qərar qəbul edildi.

Mən bunun tarixini bir balaca xatırlatmaqla demək istəyirəm ki, bu Əlyazmalar İnstitutu, oradakı fond, sənədlər tarixi əsərlərimiz, milli sərvətimizdir. Biz onları göz bəbəyi kimi qorumalıyıq və şübhəsiz ki, bu sərvəti yığıb anbarda saxlamaq olmaz, biz ondan istifadə etməliyik. Amma elə istifadə etməliyik ki, onlar bir neçə yüz il, min il bundan sonra da yaşasın və Azərbaycanın tarixini gələcək nəsillərə göstərsin.

Mən belə hesab edir və o illərdə də belə düşünürdüm ki, millətimizin, Azərbaycanın tarixini yaratmaq üçün öz sərəncamımızda olan və dünyanın bir çox böyük və kiçik ölkələrinin arxivlərində bu cür fondlarda saxlanılan Azərbaycan tarixinə dair sənədlərin heç də hamısından istifadə etməmişik. Ola bilsin ki, 5 faiz, 10 faiz istifadə etmişik. Elə bu Əlyazmalar İnstitutunda olan əlyazmalardan, sənədlərdən az, həddindən az istifadə etmişik. Bu, başqa bir mövzudur. Bu, mənim iyirmi ildən, bəlkə də daha çox vaxtdan bəri qəlbimdə yaşatdığım bir niyyətdir və təəssüf ki, onu indiyədək həyata keçirə bilməmişəm. Niyyətim belədir ki, Azərbaycanın tarixini yaratmaq lazımdır. [172-173]

Bilirsinizmi, başqa millətlərə nisbətən bizdə, Azərbaycanda tarixşünaslıq keçmiş əsrlərdə əslində olmayıbdır. Ayrı-ayrı alimlərin, ayrı-ayrı yazıçıların, ayrı-ayrı tədqiqatçıların əsərlərindən savayı, sistemli tarixşünaslıq olmayıb. Biz bu tarixşünaslıq yaratmalıyıq, mütləq yaratmalıyıq. Bunun da əsasında Azərbaycanın tarixini – çox zəngin tarixini, böyük tarixini yaratmalıyıq. Mən belə deyəndə bəzi tarixçilər cavab verirlər ki, biz onu yaratmışıq. Yaratdıqlarınıza görə sağ olun, təşəkkür edirəm. Ancaq Azərbaycan xalqının həqiqi tarixi hələ yaranmayıbdır. Biz onu yaratmalıyıq.

Bu baxımdan Əlyazmalar İnstitutu çox mühüm bir institutdur. Akademiyanın rəhbərliyi bu instituta çox ciddi fikir verməli və qayğı göstərməlidir, institutdakı mütəxəssislərin işləməsi üçün ümumiyyətlə, bizim bütün tədqiqatçıların, alimlərin o fonddan istifadə etməsi üçün şərait yaratmalıdır.

Mən bu sözləri fürsətdən istifadə edib deyirəm. Amma ola bilsin ki, bu sözlər bu mövzuya o qədər də aid deyildir. Mövzuya aid olan budur ki, Füzulinin adı haqqında burada cürbəcür təkliflər var. Azərbaycanda Füzulinin adına çox yerlər var: Füzuli şəhəri, Füzuli rayonu, onun adını daşıyan məktəblər, küçələr. Yəni Füzulinin adı Azərbaycanda geniş əbədiləşdirilib. Keçmiş zamanlarda bizdə belə bir xəstəlik olub ki, bəzi adamların adları o qədər geniş yayılıb, əbədiləşdirilib ki, bu, artıq ifrat dərəcəsinə gəlib çıxıbdır. Əlbəttə, bu lazım deyildir. Amma bir halda ki, Füzuli doğrudan da əvəzedilməz bir şəxsiyyətdir, onda bu təklifə baxılmalıdır.

Salman Mümtaz haqqında məlumatım var. Ola bilsin ki, mənim məlumatım bizim alimlərin bildiyi qədər deyildir. Amma bilirəm ki, 38-ci ildə o, repressiya olunubdur, eşitdiyimə görə, güllələnibdir. Azərbaycan xalqı qarşısında onun xidmətləri böyükdür. Bilirsinizmi, 50-ci illərdə mən Bakıya DTK-da işləməyə gəldikdən sonra bir neçə adamla söhbət etdim. Onlar mənə danışırdılar ki, 37-38-ci illərdə ermənilər, başqa millətlərə mənsub olan adamlar Salman Mümtazın və onun kimi digər adamların evlərindən çox dəyərli əsərləri, əlyazmaları elə oradaca, evlərin həyətlərinə zibil kimi atmışlar. Bunu mənə danışıblar. Mən onu görməmişəm. Ancaq bunları arxivdə işləyərkən yəqin etmişəm. 38-ci ildən 50-ci ilədək baş vermiş hadisələrin şahidləri var və bunları mənə onlar danışıblar. Mən bu məsələ ilə o vaxtlar da maraqlanırdım, Salman Mümtaz haqqında məlumatım var idi. Bilirəm ki, onun [173-174] doğrudan da çox dəyərli xidmətləri olmuşdur. Əlyazmalar İnstitutunun adına o da layiqdir, Füzuli də.

İndi biz bu barədə qərar qəbul etməliyik. Deyirsiniz ki, vaxtilə qərar qəbul edilib, amma bu qərar kollektiv tərəfindən qəbul olunmayıb. Kollektiv tərəfindən niyə qəbul olunmadığını bilmirəm. Şübhəsiz ki, əgər Salman Mümtazın adı başqa yerdə əbədiləşdirilməyibsə, onu əbədiləşdirmək lazımdır. Ancaq mənə elə gəlir ki, həmin instituta Füzulinin adının verilməsi daha məqsədəuyğundur.

Mən sizə tapşırıram ki, bu barədə təkliflərinizi verəsiniz. Bilirsiniz, biz Azərbaycan milləti haqqında danışanda birinci növbədə qeyd etməliyik ki, Azərbaycan milləti üçün hər bir şeydən üstün olan onun dilidir. Bizdə Azərbaycan Dilçilik İnstitutu, Azərbaycan Ədəbiyyatı İnstitutu var. Bunlar xalqımızın, Azərbaycanın bir millət kimi, demək olar, pasportudur. Bunu edənlər çox yaxşı, gözəl ediblər. Ədəbiyyat İnstitutuna Nizaminin, Dilçilik İnstitutuna Nəsiminin adı verilibdir. Bu, həddindən artıq yaxşı bir haldır.

**Yerdən səs:** Hörmətli prezident, bu adları həmin institutlara siz vermisiniz.

**Heydər Əliyev:** Adları kimin verməsinin indi nə fərqi var? Mən çox şeylər etmişəm. İndi deyəcəyəm ki, mən bunu etmişəm, onu etmişəm. Kim edibsə, yaxşı edib. Zənnimcə, indi biz Füzulinin adını bu Əlyazmalar İnstitutuna verməliyik. Azərbaycan ədəbiyyatının bel sütunu olan institutlara üç korifeyin adları verilməlidir. Əlyazmalar İnstitutuna Füzulinin adının verilməsi barədə təkliflərinizi hazırlayın, bunun üçün qərar lazım deyil.

**Yerdən səs:** Nazirlər Kabineti qərar versin.

**Heydər Əliyev:** Niyə Nazirlər Kabineti? Mən özüm sərəncam verərəm. Siz təkliflərinizi bir yerdə hazırlayın, mən sərəncam imzalayaram.

Beləliklə, bunu da həll etdik. Başqa nə kimi təkliflər var? Biz hamısına baxdıq. Hamısı aydındır. Siz nə kimi təklifləriniz varsa, hamısını hazırlayın və mənə təqdim edin. Maliyyə xərcləri və bütün başqa xərclər, bütün tədbirlər haqqında. Yəni siz bundan sonra görüləcək tədbirlər barədə yeni bir plan hazırlamalı və mənə təqdim etməlisiniz. Bununla bərabər, maliyyə naziri, Milli Bankın rəhbəri ilə bir yerdə oturub, maliyyə məsələlərinə dair təklifləri işləyib mənə verməlisiniz. Mən təsdiq edəcəyəm, siz də həyata keçirəcəksiniz. Əlbəttə ki, [174-175] bu da maliyyəsiz olmayacaqdır. Tək maliyyə məsələsi həll olunmamalıdır, başqa işlər də görülməlidir. Bunların hamısını hazırlayıb mənə verməlisiniz.

Mən bir daha qeyd edirəm ki, indiyə qədər görülən işlər yüksək qiymətə layiqdir. Gəlin, elə edək ki, son mərhələni daha yüksək səviyyədə keçirək. Beləliklə Azərbaycan xalqının mədəniyyətini, tarixini dünyaya bir

daha nümayiş etdirək. Güman edirəm ki, Füzuli bu məqsəd üçün bizə çox imkanlar verir. Komissiyanın üzvlərinə gördükləri işlərə görə təşəkkür edirəm.

Anar, amma "Qobustan" jurnalı o vaxtlar bundan yaxşı çıxırdı. Yadımdadır, rəngli şəkillər verirdiniz. O vaxtlar "Qobustan" ən yüksək səviyyədə çıxırdı. Düzdür, bəzən bunu gecikdirirdiniz, vaxtında çıxarmırdınız. Buna baxmayaraq, yüksək səviyyədə çıxırdı. O vaxtlar "Qobustan" jurnalı həyatımızda çox böyük rol oynayırdı. Bizim bu milli dirçəliş, milli oyanış, milli özünütanıma prosesində "Qobustan"ın rolu çox böyük olubdur. Bunu o vaxtlar bəziləri bəlkə də dərk etmirdilər. Bəlkə indi də bəziləri o qədər də dərk edə bilmir. Amma mən bunların hamısını daim izləyirdim və hər bir belə tədbirin həyata keçirilməsi üçün lazımi şərait yaradırdım. İndi mən "Qobustan" jurnalına baxanda heyfsilənirəm ki, jurnal niyə o vaxtkı kimi deyildir. Amma olacaqdır.

Hamınıza təşəkkür edirəm. Sağ olun. Gələn görüşlərədək. [175-176]

## "ŞƏFƏQ" QƏZETİNİN 75 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏBRİK

75 illik yubileyi münasibətilə "Şəfəq" qəzetinin bütün kollektivini ürəkdən təbrik edir və geniş yaradıcılıq müvəffəqiyyətləri arzulayıram.

Quba rayonu əhalisinin istək və arzularını, ictimai-iqtisadi və siyasi həyatının bütün sahələrini daim öz səhifələrində əks etdirən və əsası 75 il bundan əvvəl qoyulmuş "Şəfəq" qəzeti çox zəngin və şərəfli bir inkişaf yolu keçmişdir. Qəzet Azərbaycanın çoxşaxəli mədəniyyətə, adət-ənənələrə və milli-mənəvi dəyərlərə malik olan bölgəsində dövlətçiliyin və xalqlar dostluğunun daim qorunub saxlanmasına və möhkəmləndirilməsinə xidmət göstərmiş, bütün bölgə əhalisinin imkanlarını respublikamızın ən ümdə problemlərinin həllinə səfərbər etmişdir.

Azərbaycan dövlətinin bugünkü demokratik və azad mətbuat sistemində öz dəst-xəttini qorumaq, layiqli yer tutmaq üçün qəzetin kollektivi səylərini daha da artırmalı, həm respublikanın, həm də rayonun ictimai-iqtisadi və siyasi həyatında gedən dəyişiklikləri, demokratik prosesləri obyektiv, yüksək professional səviyyədə işıqlandırmalıdır. Bu yolda qəzetin bütün yaradıcı heyətinə müvəffəqiyyətlər arzu edirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*29 iyul 1996-cı il* [176-177]

# AĞDAM RAYONUNUN ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞALININ ÜÇÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AĞDAM RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Prezident Sarayı*

*2 avqust 1996-cı il*

Hörmətli ağdamlılar, bacılar və qardaşlar!

Bu gün sizinlə, yəni Ağdam rayonunun və respublikamızın müxtəlif bölgələrində məskunlaşmış ağdamlıların nümayəndələri ilə görüşümdən çox məmnunam. Mən sizi buraya dəvət etmişəm, Ağdam rayonunun bugünkü həyatı, ağdamlıların vəziyyəti və problemləri haqqında sizinlə birlikdə söhbət aparmaq məqsədindəyəm.

Ağdam Azərbaycanın böyük rayonlarından biridir. Ağdam şəhəri Azərbaycanın qədim və çox böyük tarixə malik şəhərlərindən biridir. Respublikamızın həyatında Ağdam rayonu həm iqtisadi, elmi potensialına, həm də insanlarının fədakarlığına görə həmişə çox mühüm rol oynamışdır. Ağdam rayonundan olan bir çox şəxslər ölkəmizin həyatının bir sıra sahələrində səmərəli fəaliyyət göstərmişlər. Rayonun özündə yaşayanlar Azərbaycanın gözəl guşəsi olan Ağdamda qurub-yaratmaqla məşğul olmuşlar.

1988-ci ildə Ermənistanın Azərbaycana hərbi təcavüzünün, bu münaqişənin ilk qığılcımını Ağdamda hiss etmişlər. Bunlar ilk dəfə özünü Ağdamda, Dağlıq Qarabağın sərhədində büruzə vermişdir. Ağdam rayonu o vaxtdan indiyədək Ermənistanın hərbi təcavüzünə qarşı aparılan mübarizədə ön cərgədə olmuşdur. Ağdam vuruşmuşdur, döyüşmüşdür, böyük itkilər vermişdir.

Təəssüflər olsun ki, Ermənistan silahlı qüvvələrinin gücü və eyni zamanda Ağdamın müdafiəsində buraxılan səhvlər və [177-178] bəzi səbəblər nəticəsində rayonun ərazisinin bir hissəsi işğal edilmişdir. O cümlədən, üç il bundan əvvəl Ağdam şəhəri də Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Ancaq bunlar nə ağdamlıların, nə də bütün xalqımızın torpaqlarımızı müdafiə etmək uğrunda mübarizəsini heç vaxt zəiflədə bilməmiş və dayandıra da bilməyəcəkdir. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Ağdam rayonu ərazilərinin və bütün torpaqlarımızın azad edilməsi qarşımızda duran əsas vəzifədir, məqsəddir. Xalqımız, dövlətimiz bu məqsədi, bu vəzifəni birlikdə şərəflə yerinə yetirəcək və biz buna nail olacağıq.

Ağdam rayonunun sakinləri, qəhrəman insanları Ermənistanın təcavüzünə qarşı vuruşaraq böyük itkilər, şəhidlər vermişlər. Yenə də deyirəm, ürəyimizi incidən, sarsıdan odur ki, Ağdam şəhəri və rayonun bir hissəsi işğal edilmişdir. İşğal olunmuş şəhərdən və rayonun bir hissəsindən didərgin düşən ağdamlılar respublikanın müxtəlif yerlərində məskunlaşmış və onların bir çoxu ağır vəziyyətdə yaşayır. Bunlar hamısı bizi həm narahat edir, həm də fəaliyyətimizin diqqət mərkəzindədir. Buna görə də mən bu gün sizinlə, yəni Ağdam rayonuna mənsub olan əhalinin nümayəndələri ilə bu görüşü keçirməyi lazım bilmişəm və həm özüm, həm də dövlət, ictimaiyyət üçün bunu çox əhəmiyyətli hesab edirəm.

Belə hesab edirəm ki, Ağdamla, ətraf rayonlarla əlaqədar məsələlərin hamısı haqqında biz bu gün burada açıq-aydın danışa, fikir mübadiləsi apara bilərik. Məqsədimiz ondan ibarətdir ki, xalqımızı səfərbər edək, daha da sıx birləşdirək. Ermənistanın Azərbaycana qarşı təcavüzü başlanandan ölkəmizin verdiyi itkilərin və məğlubiyyətlərimizin əsas səbəblərindən biri respublikamızın daxilində birliyin, həmrəyliyin lazımi səviyyədə olmaması idi.

Xalqımız qəhrəman xalqdır, millətimiz də özünü müdafiə etməyə qadir millətdir. Təəssüflər olsun ki, xalqımızın birləşməsi və millətimizin bir olub düşmənə lazımi cavab verməsi əvəzinə, keçmiş zamanlarda səhvlər buraxılmışdır. Bunlar da sonralar bizi böyük faciələrə gətirib çıxarmışdır. Ona görə də bugünkü söhbətimiz, danışığımız xalqımızı daha da birləşdirməkdən, həmrəy etməkdən ibarət olmalıdır. Həm Ağdam rayonunun problemləri, həm də ümumiyyətlə respublikamızın problemləri haqqında hamımızın birlikdə düşünməyimiz üçün mən bu gün bu söhbəti aparmağı lazımlı hesab edirəm. [178-179]

Dəvət olunanların hər biri burada öz ürəyində olan sözləri deyə bilər. Mən sizi dinləməyə hazıram. Ancaq bu söhbətimizə başlamazdan əvvəl mən hesab edirəm ki, Azərbaycan Respublikasının torpaqlarının, ərazi bütövlüyünün qorunması, ölkəmizin müdafiəsi uğrunda həlak olanların xatirəsini yad etməliyik. Ağdam rayonundan da çox insanlar şəhid olublar. Şəhid olanların valideynlərinin bir qismi bu gün burada, bu görüşdə iştirak edir. Ermənistanın təcavüzünə qarşı döyüşlərdə, müharibədə tək Ağdam rayonundan yox, respublikamızın hər yerindən şəhidlər vermişik. Ağdam rayonundan olan şəhidlərin və bütün şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etməyinizi rica edirəm.

Allah şəhidlərə rəhmət eləsin!

Ağdam rayonunun bir qismi indi yaşayır, orada insanlar öz evlərində eşiklərindədirlər, mübarizə edirlər, Ermənistan qəsbkarları ilə yaranmış cəbhəmizin demək olar ki, ön xəttindədirlər. Orada yaşamaq və doğma torpağa sadiq qalmaq, hesab edirəm ki, böyük vətəndaşlıqdır. Ona görə də mən güman edirəm ki, söhbətimizə birinci növbədə indi Ağdamda yaşayanlar başlasınlar. Ağdam rayon icra hakimiyyətinin başçısına söz verirəm.

## YEKUN NİTQİ

Bu gün biz günümüzü Ağdama həsr edirik. Güman edirəm ki, bizim bu görüşümüzü televiziya vasitəsilə bütün ictimaiyyətə çatdıraraq bu günü nəinki bizim üçün, hətta bütün Azərbaycan vətəndaşları üçün Ağdama həsr olunmuş bir gün kimi qeyd edəcəyik.

Bizi buraya toplayan Ağdamın problemləri, Ağdam rayonunun dərdləri, bu rayonun bir hissəsinin və xüsusən Ağdam şəhərinin üç il bundan öncə işğal olunması ilə əlaqədar fikirlər, qayğılar və arzulardır. Burada çıxış edən natiqlərin hamısı həm 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana edilən hərbi təcavüzlə əlaqədar, həm də Ağdam rayonunun kəndlərinin, Ağdam şəhərinin işğal olunması ilə əlaqədar öz təəssüratlarını, xatirələrini, fikirlərini, mülahizələrini bildirdi. Xüsusən, rayonda daim yaşamış şəxslərin və Ağdamın işğalının qarşısını almaq üçün döyüşmüş, mübarizə aparmış şəxslərin məlumatları çox əhəmiyyətlidir. [179-180]

Bütün bu verilən məlumatlar, şübhəsiz ki, bir şeyi təsdiq edir: Ağdam şəhəri heç vaxt işğal oluna bilməzdi. 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana qarşı başlanan təcavüz ilk atışmalar, ilk qığılcım, təcavüzün ilk addımları məhz Ağdama tərəf yönəldilmişdi. Bu da təbiidir, çünki Dağlıq Qarabağda gedən yolların hamısı Ağdamdan keçir. Eyni zamanda Dağlıq Qarabağda yaşayan ermənilər daim Ağdamla əlaqədə olmuşdular, Ağdamın tarixini də, keçmişini də, Ağdamın nə olduğunu da yaxşı bilirdilər. Ağdamın insanlarının nə qədər dəyanətli, nə qədər cəsarətli olduqlarını da yaxşı bilirdilər.

Strateji nöqteyi-nəzərdən isə Ermənistan təcavüzünün qarşısının alınması üçün Ağdam, şübhəsiz ki, çox əhəmiyyətli bir nöqtə idi. Ağdam qorunmalı idi, Ağdam saxlanılmalı idi, Ağdam müdafiə olunmalı idi. Ağdamın işğalı yolverilməz idi.

Burada qeyd edildiyi kimi, 1992-ci ilin sentyabrında Abdal-Gülablı kəndinin işğal olunması, ondan sonra da rayonun digər kəndlərinə hücumlar, Ağdama qarşı yönəldilmiş təcavüzkar planlar, nəhayət, Ağdam şəhərinin işğalına gətirib çıxardı.

Bilirsiniz, bu gün buna imkan yoxdur və güman edirəm, heç bəlkə hələ ehtiyac da yoxdur. Ancaq Ermənistan tərəfindən Azərbaycanın rayonlarının, şəhərlərinin, qəsəbələrinin, kəndlərinin işğal edilməsi prosesi gərək ümumən təhlil olunsun. Dərin təhlil olunsun və müəyyən edilsin ki, nə səbəblərdən Azərbaycanın torpaqları Ermənistan silahlı qüvvələri tərəfindən işğal oluna bildi. Səbəblər aydındır, amma bunlar daha dərin, ətraflı, təfərrüatı ilə təhlil olunmalıdır. Səbəb bundan ibarətdir ki, Ermənistan və xüsusən onun separatçı, təcavüzkar qüvvələri Azərbaycana daim göz dikiblər, – bu keçmişlərdə də olubdur, – və xüsusən Azərbaycanın Qarabağ hissəsinə göz dikiblər.

Burada professor Göyüşov uzun tarixin bəzi məqamlarını yada saldı. Bu, Azərbaycanı həmişə sayıq olmağa dəvət edirdi. Azərbaycan həmişə düşünməli idi ki, Ermənistanın separatçı qüvvələri tərəfindən, təcavüzkar, qəsbkar qüvvələri tərəfindən Azərbaycana qarşı təxribat da ola bilər, təcavüz də ola bilər. Hücum da ola bilər. Çünki bizim keçmiş tariximiz, tarixi əlaqələrimiz belə düşünməyə tam əsas verir. Ancaq təəssüf ki, bu barədə sayıqsızlıq olubdur, Azərbaycanda torpağa, millətə, respublikaya lazımi qayğıkeşlik olmayıbdır. Və bunların nəticəsində də 1988-ci ildə həmin qüvvələr, uzun illər o xülyalarla yaşayan qüvvələr öz fikirlərini əməli surətdə həyata keçir[180-181]məyə, Azərbaycanın bir hissəsini – Dağlıq Qarabağ hissəsini ələ keçirməyə başlamışlar. Ancaq təəssüf ki, – həmin 1988-ci il haqqında, 1988-ci ilin fevral ayında başlanmış hadisələr haqqında burada deyildi, – təəssüf ki, onlar da Azərbaycanın rəsmi dairələrini oyatmamışdır, ayağa qaldırmamışdır və Azərbaycanın vəziyyəti haqqında düşünməyə cəlb edə bilməmişdir. Proseslər elə inkişaf etmişdir ki, Ermənistan tərəfi günü-gündən silahlanmağa başlamış, hərbi təcavüzü hazırlamağa, genişləndirməyə çalışmış və bu sahədə açıq-aydın, aşkar işlər görmüş, amma Azərbaycan tərəfi nəyəsə ümid bəsləmiş, bunun müqabilində lazımi tədbirlər, Azərbaycanın müdafiə olunması üçün zəruri işlər görməmişdir. Məhz bunların nəticəsində Ermənistanın təcavüzkarlığının qarşısı alınmamışdır.

Şübhəsiz ki, burada keçmiş Sovetlər İttifaqı rəhbərliyinin Azərbaycana qarşı ədalətsiz münasibəti də nəzərə alınmalıdır. Ancaq belə bir ədalətsiz münasibəti müşahidə edənlər gərək ona müvafiq də lazımi işlər görəydilər və Azərbaycanın, xalqın, millətin, Azərbaycan Respublikasının etibarlı müdafiəsini təmin edə biləydilər. Bunlar, təəssüf ki, olmamışdır.

Bunu mən ona görə deyirəm ki, bizim xalqımız aciz xalq deyil, ağdamlılar da, bütün Qarabağ bölgəsində yaşayanlar da – əgər belə bir söz işlətsək, – qarabağlılar da, Azərbaycanın bütün başqa bölgəsində olan azərbaycanlılar da aciz xalq deyil. Xalqımız əsrlər boyu böyük sınaqlardan çıxıb və öz torpağını, öz mənliyini qoruyub indiyə qədər saxlaya bilibdir. Ona görə də xalq, o cümlədən Ağdam əhalisi, Ağdam camaatı Ağdamı da qoruya bilərdi, Şuşanı da qoruya bilərdi, Laçını da qoruya bilərdi, başqa bölgələri də qoruya bilərdi.

Sadəcə, bu məsələlər bir tərəfdən lazımi səviyyədə təşkil olunmayıbdır, lazımi hazırlıq işləri görülməyibdir, ikinci tərəfdən də – bu fikir dəfələrlə deyilibdir – Azərbaycanın daxilində olan cürbəcür qüvvələr Vətən, millət haqqında düşünmək əvəzinə yalnız və yalnız özləri, öz şəxsi mənafeləri haqqında düşünmüşlər. Buna görə də 1988-ci ildə Azərbaycana qarşı yönəldilmiş təcavüzün qarşısı alınmayıb və bu, get-gedə genişlənib, get-gedə dərinləşib.

1990-cı ildə Azərbaycanın başına böyük faciələr gəlibdir. Respublikaya böyük qoşun dəstələri yeridilərək Azərbaycanın milli mənliyini sındırmağa çalışıblar. Ondan sonra gedən proseslər də, təəssüf ki, Azərbaycanın içində birliyi təmin etməyibdir və bütün bunların nəticəsində də Azərbaycan Respubli[181-182]kasının ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bunların içərisində Ağdam rayonunun bir qismi, çox hissəsi, o cümlədən Ağdam şəhəri də işğal olunubdur.

Xalqımız döyüşüb, vuruşub, qurbanlar verib, şəhidlər veribdir. Burada qeyd edildi ki, Ağdam rayonunun sakinlərindən 6 minə qədər insan həlak olubdur. Ancaq Azərbaycana, o cümlədən Ağdam rayonuna vurulan zərbələr bununla tamamlanmır. Ağdam kimi böyük şəhər viran olunubdur, dağılıbdır. Ağdamın ərazisində, bütün Qarabağ ərazisində olan tarixi abidələrimiz, bizim tariximizin həkk olunduğu daşlar, dağlar, obalar, meşələr – hamısı zəhərlənibdir, dağıdılıbdır. Ağdam şəhəri böyük bir şəhərdir. Orada insanlar on illərlə, yüz illərlə özlərinə yaşayış yerləri yaradıblar, evlər tikiblər. Bunların hamısı dağıdılıbdır və insanların nəsillərdən-nəsillərə keçən varı-yoxu, varidatı məhv olubdur, əldən gedibdir. Bütün bunlar bizim xalqımıza, o cümlədən Ağdam rayonunun əhalisinə vurulan zərbələrdir.

Yəni demək istəyirəm ki, xalqımız vuruşub. İçində xainlər də olubdur, qorxaqlar da olubdur, şəxsi mənafeyini millətin, xalqın mənafeyindən üstün tutanlar da olubdur. Amma sizin buraya toplaşanların danışıqlarınızdan bir daha görünür ki, Ağdamın özündə nə qədər vuruşmusunuz, torpağınızı qorumağa nə qədər çalışmısınız. Ancaq müharibə belə şeydir ki, insanlar nə qədər igid, qəhrəman olsa da, nə qədər cəsur olsa da əgər müdafiə işi, yaxud da döyüş lazımi səviyyədə təşkil olunmursa, şəxsi qəhrəmanlıq, şəxsi cəsarət, şübhəsiz ki, vəziyyəti xilas edə bilməz.

Ona görə də işlərin təşkil olunmasına görə, – burada çox faktlar gətirildi, – xəyanətə görə, satqınlığa görə, şəxsi mənafeləri uğrunda çalışan adamların vurduqları zərbələrə görə Azərbaycanın ərazisinin 20 faizi işğal olunubdur. Millətimizin zəifliyinə görə yox, xalqımızın zəifliyinə görə yox! Mən bunu dəfələrlə demişəm, bu gün sizin qarşınızda, ağdamlıların nümayəndələri qarşısında bir də deyirəm. Xalqımız qəhrəman xalqdır, xalqımız döyüşkən xalqdır, xalqımız özünü müdafiə edə bilən xalqdır. Ancaq təəssüflər olsun ki, vaxtında lazımi tədbirlər görülmədiyindən xalqımızın başına belə bəlalar gəlibdir. Ağdamın işğal olunması, Ağdam şəhərinin və Azərbaycan Respublikasının başqa rayonlarının, torpaqlarının işğal olunması Azərbaycanı çox ağır bir vəziyyətə qoyubdur. [182-183]

1988-ci ildə hərbi münaqişə başlayıb, sonra müharibəyə çevrilib, 1994-cü ilin may ayında biz onu dayandırmışıq. Atəşkəs haqqında saziş əldə etmişik və iki ildən çoxdur ki, atəşkəs rejimində yaşayırıq.

Bu o demək deyil ki, biz torpaqlarımızdan əl çəkmişik, yaxud da ölkəmizin ərazi bütövlüyünü unutmuşuq. Yox. Altı il ərzində gedən döyüşlər, müharibə və o illərdən çıxarılan bütün nəticələr bizə onu göstərib ki, atəşi dayandırıb, məsələnin sülh yolu ilə həll olunmasına çalışmaq müharibəni davam etdirməkdən daha əlverişlidir və üstündür. Ermənistanla Azərbaycan arasında münaqişə qurtarmayıbdır, Ermənistanın Azərbaycana hərbi təcavüzü tamamilə ləğv olunmayıbdır. Biz sadəcə, atəşi dayandırmışıq və məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Güman edirəm ki, tutduğumuz bu yol düzgün yoldur. Biz bu yolla gedirik. Doğrudur, ola bilər, biz bu atəşkəs haqqında saziş əldə edərkən düşünürdük ki, sülh danışıqları tezliklə nəticə verə bilər. Ancaq danışıqlar prosesi getdikcə bu məsələnin nə qədər çətin və nə qədər mürəkkəb olduğunu daha dərindən dərk edirik. Bu da ona görədir ki, həmin illərdə Azərbaycan tərəfinin buraxdığı böyük səhvlər, təcavüzün qarşısını almaması indi gətirib elə vəziyyət yaradıb ki, danışıqları aparmaq da çətindir, ağırdır. Ancaq eyni zamanda mən hesab edirəm ki, danışıqlar bundan sonra da davam etməlidir və biz bunu günü-gündən gücləndirməliyik və məsələni sülh yolu ilə həll etməliyik.

Şübhəsiz ki, əgər məsələ sülh yolu ilə həll olunmasa, bizim hüququmuz var ki, başqa yolla, yəni silah gücü ilə torpaqlarımızı azad edək. Bu, bizim gündəliyimizdə daim durmalıdır. Ona görə də heç kəs sayıqsızlığa yol verməməlidir, heç kəs unutmamalıdır ki, bizim qarşımızda müqəddəs vəzifə var: Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, işğal olunmuş torpaqlarımızı azad etmək və həmin torpaqlardan didərgin düşmüş soydaşlarımızı, vətəndaşlarımızı öz yerinə-yurduna qaytarmaq. O cümlədən Ağdama qayıtmaq – Ağdam şəhərinə qayıtmaq. Ağdamın bütün ərazisinə yenidən qayıtmaq. Bu, bizim ali məqsədimizdir, qarşımızda duran müqəddəs vəzifədir və bu vəzifə yolunda xalqımız, nəyin bahasına olursa-olsun, vuruşmalı, çalışmalıdır.

Ona görə də hər bir Azərbaycan vətəndaşı bilməlidir ki, biz hər bir şeyə dözə bilərik, ancaq torpaqlarımızın işğal altında qalmasına dözə bilmərik və dözməməliyik. Bəzən yaşayışı[183-184]mızın çətin olmasından danışırlar. Bəzən ayrı-ayrı dairələrdə, qəzetlərdə, xüsusilə müxalifət qüvvələri xalqın vəziyyətinin ağır olmasından danışırlar. Bəli, xalqımızın vəziyyəti çətindir. Respublikamız keçid dövrü yaşayır. Azərbaycana qarşı çox böyük təzyiqlər var, təsirlər var. Bunların hamısı xalqımızın iqtisadi vəziyyətini bu gün deyil, dünən deyil, bir neçə ildir ki, davamlı olaraq ağırlaşdırır. Ancaq, mən bunu dəfələrlə demişəm, bir də yada salmaq

istəyirəm. İkinci dünya müharibəsini xatirinizə salın. İkinci dünya müharibəsində, bizim də iştirak etdiyimiz Vətən müharibəsində dörd il müharibə getdi, insanlar yeməyə çörək tapmırdılar, çoxları acından ölürdü. Amma insanlar Vətənin müdafiəsinə qalxmışdılar, döyüşürdülər. Böyük qurbanlar verildi və faşizmin qarşısı alındı. Sovetlər İttifaqı bu müharibədə 27 milyon adam itirdi. Amma onlardan savayı, yaşayanların da içərisində nə qədər insan acından öldü, nə qədər insan əziyyətlər çəkdi. Bunlar hamısı o vaxt lazım idi ki, ölkə qorunsun və ölkə, eləcə də dünya faşizm kimi dəhşətli bir fəlakətdən xilas ola bilsin.

Buna görə də bizim həyatımızın reallığı barədə düşünmək və reallığı dərk etmək lazımdır. Reallıq da ondan ibarətdir ki, ərazimizin 20 faizi işğal olunubdur, Şimal tərəfdən sərhədlərimiz iki ildən artıqdır ki, məhdudlaşdırılıbdır, əvvəl bağlanmışdı, indi böyük çətinliklə onu açmaq istəyirik.

İqtisadiyyatda gedən proseslər istehsalın səviyyəsini aşağıya salıb. Biz bu barədə geniş təhlil aparmışıq. Bunlar hamısı, şübhəsiz ki, bizim vəziyyətimizi ağırlaşdırıbdır. Amma biz sizinlə həmin adamlarıq ki, 1970-ci illərdə çox firavan yaşayırdıq. Siz də, biz də, hamımız o adamlarıq. Bu problemlərin heç birisi yox idi. Burada çıxış edənlər həmin o illəri yada saldılar. Şübhəsiz ki, o illəri unutmamalıyıq, ancaq eyni zamanda bir şeyi üstün tutmalıyıq ki, indi biz xalqımız üçün ən böyük nailiyyət olan müstəqillik əldə etmişik. Dövlət müstəqilliyini əldə etmişik və bu dövlət müstəqilliyinin naminə, milli azadlığımızın naminə bütün çətinliklərə dözürük və dözməliyik. Torpaqlarımızın azad olunması naminə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi naminə bütün çətinliklərə dözmüşük və bu gün də dözürük, bundan sonra da dözməliyik. Bu həyatın reallığıdır.

Mən, şübhəsiz ki, heç də ümidsizlik yaratmaq istəmirəm. Biz çalışırıq və çalışacağıq. Aparılan iqtisadi tədbirlər, iqtisadi islahatlar bir neçə il içərisində Azərbaycan iqtisadiyyatında [184-185] ciddi dəyişikliklər əmələ gətirəcəkdir. Biz "Torpaq islahatı haqqında" qanun qəbul etdik. Dünən mən onu imzaladım və bu gün Qanun bizim mətbuatda dərc olunubdur. Bu, bizim iqtisadiyyatımızda böyük inqilab xarakterli bir tədbirdir. Biz ciddi, cəsarətli bir addım atmışıq. Mülkiyyət münasibətlərinin dəyişdirilməsi haqqında, torpaq üzərində olan mülkiyyət münasibətlərinin dəyişdirilməsi haqqında tarixi bir addım atmışıq, tarixi bir qərar qəbul etmişik. Mən əminəm ki, bu, öz nəticəsini verəcəkdir. Amma bu elə deyil ki, bu gün mən bu qanuna imza atdım, sabah bunun nəticəsi olsun. Bu, öz nəticəsini verəcək. Bu qanunu həyata keçirmək lazımdır. Bir neçə il lazımdır ki, o öz nəticəsini versin. Verəcəkdir! Başqa iqtisadi islahatlarımız, özəlləşdirmə proqramı – onlar hamısı öz nəticəsini verəcək. Biz bu dövrü, keçid dövrünü yaşamalıyıq. Bunun çətinliyinə də, əzab-əziyyətinə də dözməliyik və bunu da heç kəs dramatikləşdirməsin, heç kəs də bundan sui-istifadə etməsin. Bunların hamısını biz ona görə edirik ki, ölkəmizin iqtisadi qüdrətini artıraq, insanların rifah halını yaxşılaşdıraq və ağıllı siyasətlə, sülh danışıqları ilə biz Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunmasına nail olaq. Amma bununla yanaşı, ölkəmizin hərbi qüdrətini möhkəmləndirməliyik, insanlarımızın hərbi hazırlığını artırmalıyıq. Hər bir vətəndaş sözlə, şüarla yox, real şəkildə Azərbaycanın torpaqlarının azad edilməsi üçün istənilən dəqiqədə, istənilən saatda döyüşə hazır olmalıdır və əgər lazım olarsa, biz şübhəsiz ki, bu yolla da gedəcəyik, heç vaxt torpaqlarımızı işğal altında qoymayacağıq. Buna əmin ola bilərsiniz. Ağdam rayonu da, Ağdam şəhəri də azad olunacaqdır. Burada arzular bildirildi. Əminəm ki, biz o arzulara çatacağıq. Ağdamda da görüşəcəyik, Ağdamda da bu söhbəti aparacağıq. Biz sizinlə Ağdamın bərpa olunması və inkişafı haqqında müzakirələr aparacağıq, tədbirlər görəcəyik.

Sizə məlumdur ki, mən. Dünya Bankına müraciət etmişəm. Bilirsiniz ki, Dünya Bankı İkinci Dünya müharibəsindən sonra, o müharibədən zərər çəkmiş ölkələrin bərpa olunması üçün yaranmış bir bankdır. Buna görə də biz onunla əməkdaşlıq edirik və onun imkanlarından istifadə edirik. Mən oraya müraciət etmişəm, onlar da mənim müraciətimi qəbul ediblər ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilən zaman onların bərpası ilə məşğul olsunlar. Onlar buna böyük vəsaitlər ayırmağa söz veriblər. Dünya Bankının nümayəndə heyəti Azərbaycana gəlibdir. Onlar Füzuli rayonunun işğaldan azad [185-186] edilmiş kəndlərində, Tərtər rayonunda olublar. Gərək ki, Ağdam rayonunda da olublar, sizdə də olublar. Biz planlarımızı hazırlayırıq ki, işğal olunmuş torpaqlar azad edilən məqama hazır olaq, o torpaqların, o şəhərlərin, kəndlərin, qəsəbələrin bərpası ilə məşğul olaq.

Ona görə də mən belə nikbin əhval-ruhiyyə ilə bunları sizə çatdırıram və bildirmək istəyirəm ki, qarşımızda duran bu vəzifələri hamımız bir yerdə həyata keçirməliyik.

Bilirsiniz, bizim sülh danışıqları aparmağımız Azərbaycanı dünya miqyasında bir daha sülhsevər xalq kimi, ölkə kimi nümayiş etdirir. Həqiqəti demək lazımdır ki, Ermənistanın o separatçı, qəsbkar qüvvələri Azərbaycana qarşı qəsbkarlıq niyyətləri ilə bu gün deyil, dünən deyil, yüz il bundan qabaq da bu fikirlərlə yaşayıblar və bu planları həyata keçirməyə çalışıblar. Ona görə də bunlar dünyanın başqa yerlərində – Avropada, Amerikada, inkişaf etmiş ölkələrdə özlərinin böyük diasporlarının imkanlarından istifadə edərək, Qafqazda olan vəziyyət haqqında, xüsusən Azərbaycan-Ermənistan münasibətləri haqqında daim qeyri-obyektiv məlumatlar verib, dünya ictimaiyyətində Azərbaycan haqqında yanlış fikirlər, yanlış məlumatlar, yanlış təəssüratlar yaratmışlar. Xüsusən bu münaqişə, müharibə başlayandan sonra onlar bu barədə həmişə daha üstün vəziyyətdə olublar. Onların həm böyük imkanları olubdur, həm də ki, bu barədə onlar, yenə də deyirəm, daha mütəşəkkil olublar, bir olublar. Ona görə də Dağlıq Qarabağ indi dünyada məşhur olubdur. Nədir Dağlıq Qarabağ ? Kiçik bir yerdir, balaca bir ərazidir. 4 min kvadrat kilometr ərazisi olan bir yerdir. Amma indi Dağlıq

Qarabağ dünyanın bütün ölkələrində məşhurdur. Məşhurdur bu müharibəyə görə, məşhurdur bu münaqişəyə görə. Eyni zamanda, məşhurdur ermənilərin apardıqları təbliğata görə, işlərə görə. Bizim respublikamız isə bu sahədə, təəssüf ki, keçmiş illərdə çox az iş görübdür. Az iş görülübdür.

Bilirsiniz ki, son zamanlar biz bu sahədə çox böyük tədbirlər həyata keçiririk və hesab edirəm ki, onlar yaxşı, müsbət nəticələr veribdir. Təsəvvür edin, Ermənistan Azərbaycana təcavüz edib, Azərbaycanın torpaqlarının 20 faizini işğal edibdir. Belə olan halda 1992-ci ilin sentyabr ayında Amerika Birləşmiş Ştatlarının Konqresi Azərbaycanı Ermənistanı blokadaya salmaqda günahlandırıb və Azərbaycana kömək göstərilməsini qadağan edibdir. Görürsünüz nə qədər ədalətsizlikdir! Nə [186-187] qədər böyük ədalətsizlikdir! Bu, 1992-ci ilin sentyabr ayında olmuşdur. Bunu Amerika Birləşmiş Ştatlarının Konqresi edibdir. Bu nə deməkdir ?

Bilirsiniz, indi münaqişə olan, yaxud ağır iqtisadi vəziyyətdə olan ölkələrə beynəlxalq təşkilatlar da, ayrı-ayrı ölkələr də və xüsusən Amerika Birləşmiş Ştatları da kömək edir. Amerika Birləşmiş Ştatları Ermənistana bilavasitə maddi yardım, maliyyə yardımı göstərir, – bu, dövlət proqramındadır, – Gürcüstana da, Qırğızıstana da, başqalarına da yardım .göstərir. Amma Azərbaycana bu yardım qadağan olunubdur. Uç ildir çalışırıq ki, həmin 907-ci maddəni aradan götürək, amma buna nail ola bilmirik. Bilirsiniz ki, mən Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla Nyu-Yorkda iki dəfə xüsusi görüşmüşəm – 1994-cü ildə və 1995-ci ildə. Beynəlxalq təşkilatlarda da bizim görüşlərimiz olubdur, ancaq Nyu-Yorkda bizim çox əsaslı, ətraflı danışıqlarımız olubdur. Bir-birimizə məktublar yazırıq – mən ona yazıram, o mənə məktub göndərir, bəziləri dərc olunur, sizin onlardan məlumatınız var. Məsələn, o hər dəfə etiraf edir, son məktubunda da mənə yenə yazıbdır ki, Amerika hökuməti və şəxsən prezident 907-ci maddənin Azərbaycana tətbiq olunmasının əleyhinədir və onu götürmək istəyir. Ancaq buna nail ola bilmir. Çünki Konqresdə erməni diasporunun gücü, təsiri o qədərdir ki, onu edə bilmir. İndi biz 907-ci maddəni aradan götürməyə çalışdığımız bir zamanda bir-iki ay bundan öncə, bilirsiniz ki, konqresmen Porter erməni diasporunun təsiri altında Konqresə bir əlavə veribdir. O əlavə bizə qarşı olan embarqonu, o qadağanı götürmür, ancaq orada bir fırıldaq işlədirlər ki, Amerikada bəzi təşkilatlara, qeyri-dövlət təşkilatlarına icazə verilsin ki, Azərbaycana kömək edilsin və Dağlıq Qarabağa da kömək edilsin.

Bilirsiniz, bu o deməkdir ki, Dağlıq Qarabağ bilavasitə kömək alacaq. Halbuki Dağlıq Qarabağ Azərbaycanın tərkibindədir və heç bir beynəlxalq təşkilat, heç bir dövlət, o cümlədən Amerika Birləşmiş Ştatları Dağlıq Qarabağı müstəqil bir qurum kimi tanımır. Amma belə bir fırıldaq işlədib, konqresmen Porter tərəfindən bunu gətirib ortaya çıxarıblar. İki aydır biz bununla mübarizə aparırıq.

Amerikanın prezidenti cənab Bill Klintona mən məktub yazdım və Azərbaycan tərəfinin fikrini çox ciddi olaraq bildirdim ki, əgər bu belə olarsa, biz ümumiyyətlə, Amerikanın hər [187-188] hansı humanitar təşkilatının Azərbaycana yardımından imtina edəcəyik. Cavab almışam ki, Amerika hökuməti və şəxsən prezident çalışır ki, bu Porter əlavəsi qəbul olunmasın. Nəhayət, bir həftə bundan öncə Senat Porter əlavəsini qəbul etməyibdir. Amma eyni zamanda Senatla Konqres arasında bir uzlaşdırma komissiyası yaradıblar. İndi iki gündür biz gecə saat 2-yə, 3-ə qədər Vaşinqtonla əlaqə saxlayırıq ki, görək o uzlaşdırma komissiyası nəyə gətirib çıxarıbdır. Dünən gecə saat 2-də mənə dedilər ki, hələ bir nəticə yoxdur.

Görürsünüz, bu işlər, – bunu geniş yaymaq, bəlkə də, lazım deyil, indi mən bunu sizə qısa deyirəm, – bu tədbirlər, bu cəhdlər sizə məlum deyil. Amma nə qədər mürəkkəb məsələlər var. Ermənilərin, Ermənistanın həm Amerika Birləşmiş Ştatlarında, həm Avropada, başqa ölkələrdə diasporu o qədər güclüdür ki, dövlət orqanlarına, dövlət başçılarına, hökumət başçılarına, cürbəcür təşkilatlara o qədər təsir edirlər ki, bunun qarşısında durmaq üçün və onların hərəkətlərini dəf etmək üçün son dərəcə inandırıcı siyasət aparmaq lazımdır və inandırmaq lazımdır ki, Azərbaycana qarşı belə ədalətsizlik var.

Bunlar hamısı məsələnin sülh yolu ilə həll olunması ilə əlaqədar Azərbaycanın apardığı işlərin, o proseslərin bir hissəsidir. Bunu sizə çatdıraraq mən bildirmək istəyirəm ki, bunlar üçün nə qədər vaxt sərf olunur. Vaxtdan başqa nə qədər də fikir, ağıl, zəka da sərf etmək lazımdır. Onu deyə bilərəm ki, son illər bizim apardığımız bu tədbirlər nəticəsində dünyanın böyük ölkələrində, beynəlxalq təşkilatlarında Azərbaycanın haqq işi qəbul olunur, yəni Azərbaycana qarşı ədalətsizlik artıq etiraf olunur. Azərbaycanın haqqı artıq etiraf olunur. Və bizim Amerikada heç bir diasporumuz olmadığı halda, amma Ermənistanın Amerikada bir milyondan artıq ermənisi var, onların da əksəriyyəti zəngin adamlardır və bütün sahələrə təsir eləyirlər, – belə olduğu halda biz orada, Amerika Birləşmiş Ştatlarının parlamentində bərabər səviyyədə mübarizə aparıb, öz hüquqlarımızı qoruya biliriksə, bunun özü bizim işlərimizdə, siyasətimizdə – sülhsevər siyasətimizdə, ümumiyyətlə siyasətimizdə nə qədər böyük nailiyyətdir.

Amma iş burasındadır ki, bu məsələlərlə 1988-ci ildən, əvvəldən də məşğul olmaq lazım idi. 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı təcavüz təhlükəsi yaranan zaman bu məsələlərlə məşğul olmaq lazım idi. Bunların qarşısı alınmalı idi. [188-189] Bilirsiniz, bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır. Amma təəssüf ki, həmin illərdə bu işlər görülməyibdir, indi isə məsələ dərinləşib, mürəkkəbləşib və biz bunu çətin yollarla gedərək həll etməyə çalışırıq. Və əminəm ki, biz bu məsələni sülh yolu ilə həll edəcəyik.

Bir həqiqəti də bildirmək lazımdır. Ermənistanla Azərbaycan qonşu ölkələrdir. Mən dəfələrlə Ermənistanın rəhbərlərinə, xüsusən Ermənistanın prezidenti ilə vaxtaşırı görüşərkən ona deyirəm və dünyanın başqa dövlətlərinin başçılarına da deyirəm – heç kəs düşünməsin ki, Ermənistanla Azərbaycan arasında daim düşmənçilik münasibətləri olmalıdır. Belə ola bilməz ki, qonşu ölkələr daim düşmən olsunlar. Avropada nə qədər ölkələr bir-biri ilə müharibə aparıblar. İkinci Dünya müharibəsi, Sovetlər İttifaqı ilə, Rusiya və Almaniya arasında müharibə, bir onlarda yox, başqa ölkələrdə də nə qədər böyük faciələrə gətirib çıxardı. İndi Almaniya ilə Rusiya arasında yaxın dostluq, əməkdaşlıq əlaqələri var. Bu, təbiidir. Avropanın başqa ölkələrini götürün, Fransa ilə İngiltərəni götürün. Fransa ilə Almaniyanı götürün, başqa ölkələri götürün. İllərlə, on illərlə müharibə aparıblar, yüz il müharibə aparıblar. Ancaq yenə də sülhlə qurtarıblar və sülh şəraitində də yaşayırlar. Mən bunu bu gün həm sizin üçün deyirəm, həm bizim ictimaiyyət üçün deyirəm, həm də bir daha Ermənistan üçün deyirəm ki, daim düşmənçilik ola bilməz. Bir-biri ilə həmsərhəd olan ölkələr, qonşu olan ölkələr daim ziddiyyətli vəziyyətdə yaşaya bilməzlər. Hər bir müharibənin, hər bir düşmənçiliyin sonu sülh olacaqdır, sonu barışıq olacaqdır. Keçmişdə də burada – bu gün deyildi, – hadisələr olmuşdur, sonra xalqlar barışmışdır, əlaqələr normallaşmışdır. Mən hesab edirəm ki, belə də olacaqdır. Belə də olacaqdır! Bizə nə qədər böyük zərbələr dəyibsə də, nə qədər böyük itkilərimiz olubsa da, biz müstəqil dövlət kimi ətrafımızda olan ölkələrin hamısı ilə sülh şəraitində yaşamalıyıq. Sülh münasibətləri, qarşılıqlı faydalı münasibətlər, əməkdaşlıq münasibətləri şəraitində yaşamalıyıq. Və bu günlər də gəlib çatacaqdır.

Mən sizi və heç kəsi pasifizmə dəvət etmirəm. Əksinə, mən sizi də, Azərbaycanın bütün vətəndaşlarını da milli vətənpərvərlik ruhuna, milli döyüşkənlik ruhuna və torpaqlarımızın nəyin bahasına olursa-olsun azad olunması fikri ilə yaşamağa dəvət edirəm. Amma eyni zamanda istəyirəm ki, dün[189-190]yanın inkişaf prosesini, gələcəyi müəyyən qədər hər kəs görsün.

Məsələn, siz Ağdamda yaşayırdınız. Dağlıq Qarabağda ermənilərlə dostluq edirdiniz. Nə qədər toylara gedirdiniz, nə qədər kirvəniz var idi.

**Sara Qədimova** – xalq artisti: Orada da gedib konsertlər verirdik.

**Heydər Əliyev:** Nə qədər bizim gənclər gedib erməni qızlarını alırdılar və evlənirdilər. Ağdamda xüsusən çox olubdur. Elədirmi ? Bilirsiniz, Ermənistanla Azərbaycan arasında bu müharibə başlayandan sonra bizim ictimaiyyətdə belə fikir olub ki, filankəsin arvadı ermənidir, bu pis adamdır. İndi nə etmək lazımdır ki, onun arvadı ermənidir ? Deyirlər, Azərbaycanda təxminən 30 minə qədər ailədə – bilmirəm, düzdür, düz deyil – erməni qadın yaşayır. Ailənin kişisi azərbaycanlıdır, qadını ermənidir. Bunlardan olan uşaqların nə günahı var? Heç bir günahı yoxdur. Amma son zamanlar yaranmış şəraitdə bunlara qarşı da mənfi münasibət var. Bilirsiniz, bunlar çox incə məsələlərdir. Heç kəsi günahlandırmaq olmaz ki, o nə üçün 10 il, 15 il, 20 il bundan qabaq erməni qızı ilə ailə qurubdur. Heç kəsi günahlandırmaq olmaz və bu gün belə ailələrə mənfi münasibət göstərmək də olmaz. Ancaq bir şey ola bilər ki, Azərbaycanda yaşayan azərbaycanlı ailələrin üzvləri olan erməni millətinə mənsub adamlar bu müharibənin bundan sonra qarşısının alınması üçün, sülh yaranması üçün səslərini qaldıra bilərlər. Mənə elə gəlir ki, ağdamlılardan da belələri var. Bu barədə düşünmək lazımdır.

Demək istəyirəm ki, bizim sülhsevər siyasətimiz həm bu günə, həm də gələcəyə yönəldilibdir. Gələcəkdə ölkələr bir-birinə daha açıq münasibət göstərəcək, açıq əlaqələr saxlayacaqlar. Qafqazdakı ölkələr bir-biri ilə daha sıx əlaqədə olacaqlar. Biz müstəqilliyimizi qorumalıyıq, müstəqil dövlət kimi yaşamalıyıq. Amma eyni zamanda düşünməliyik ki, gələcək nəsillər hansı şəraitdə yaşayacaqlar. Onlar sülh və əmin-amanlıq şəraitində yaşamalıdırlar və biz elə etməliyik ki, daha müharibə olmasın. Şübhəsiz, o şərtlə ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunsun, işğal edilmiş torpaqlarımız azad olunsun, Azərbaycanın sərhədləri bərpa edilsin, sərhədlərin toxunulmazlığı təmin olunsun.

Mən bu fürsətdən istifadə edib bir neçə məsələ haqqında sizə məlumat vermək və bəzi fikirlərimi, mülahizələrimi sizə [190-191] çatdırmaq istəyirəm. Bilirsiniz, son illər yaranmış şəraitdə mənim indi dediyim bu söz bəlkə də bəzilərinə müəyyən qədər təəccüblü gəlsin ki, nə təhər ola bilər erməni arvadı, yaxud uşağı ? Amma bu həqiqətdir, bu reallıqdır. Bu reallığı unutmaq lazım deyil. Bu reallığı nəzərə almaq lazımdır və Ermənistan tərəfi də bu reallığı nəzərə almalıdır, Ermənistan tərəfi də bilməlidir ki, – mən bunu onlara dəfələrlə demişəm, – onlar zorla, güclə heç bir şey edə bilməzlər. Onlar məcburdurlar ki, Azərbaycanın işğal olunmuş torpaqlarını azad etsinlər. Onlar məcburdurlar ki, məsələnin sülh ilə həll olunması yoluna gəlsinlər. Mən təklifimi vermişəm ki, belə olan şəraitdə, Azərbaycanın işğal olunmuş bütün əraziləri azad edilən şəraitdə, o cümlədən Dağlıq Qarabağda azərbaycanlıların yaşamış olduğu şəhərlərə və məntəqələrə azərbaycanlıların qaytarılması imkanı yarandığı bir şəraitdə Dağlıq Qarabağa Azərbaycanın tərkibində muxtariyyət statusu vermək mümkündür, – bunu mən dəfələrlə demişəm, bu gün bir daha təsdiq edirəm, – ən yüksək muxtariyyət statusu vermək mümkündür.

Bu yol daha doğru, daha real, daha düzgün yoldur. Kimsə hesab edirdi ki, Dağlıq Qarabağı tamamilə ləğv edəcəyik, yaxud Dağlıq Qarabağı məhv edəcəyik, yaxud da ki, orada yaşayan bütün erməniləri qıracağıq, – bu fikirlər əvvəldən də düz olmayıbdır, bu gün də düz deyil. Biz sadəcə, işğal olunmuş torpaqlarımızı azad etməliyik, bütün ərazilərdə, o cümlədən Dağlıq Qarabağın ərazisində azərbaycanlılar yaşamış yerlərə

azərbaycanlıların qayıtmasını təmin etməliyik və Ermənistanla sülh münasibətləri yaratmalıyıq. Yaratmalıyıq o şərtlə ki, işğal olunmuş torpaqlarımız azad edilsin.

Ağdamlıların bu gün söylədikləri sözlər, fikirlər onu göstərir ki, hamının bir arzusu var: işğal olunmuş torpaqlar tezliklə azad edilsin və vətəndaşlarımız öz. yerinə-yurduna qayıtsın. Ağdamlılar da Ağdama qayıtsınlar. İşğal olunmuş hər bir torpaq bizim üçün əzizdir: Laçın da, Şuşa da, Kəlbəcər də, Ağdam da, Xocalı da, Füzuli. də, Cəbrayıl da, Qubadlı da, Zəngilan da – hamısı əzizdir. Ümumiyyətlə, Azərbaycanın hər bir nöqtəsi hər bir azərbaycanlı üçün Vətəndir, hər bir azərbaycanlı üçün əzizdir. Burada doğru deyildi – heç vaxt düşünmək lazım deyil ki, kim haralıdır. Biz hamımız azərbaycanlıyıq, hamımız bir millətik. Hamımızın bir dilimiz – Azərbaycan dilimiz var, hamımız bir dinə mənsubuq, hamımız bir millətin övladlarıyıq. Və biz müstəqilliyimizi təmin etmək üçün, ölkəmizi [191-192] dirçəltmək, yaşatmaq üçün, xalqımızı dünya xalqları içərisində layiqli səviyyəyə qaldırmaq üçün bir-birimizə daha çox dayaq olmalıyıq, daha sıx birləşməliyik.

1993-cü ilin may-iyun aylarında Azərbaycan böyük təhlükə qarşısında oldu. Azərbaycan artıq parçalanmışdı. Gəncə bölgəsi Azərbaycan dövlətinin tabeliyindən çıxmışdı, cənub – Lənkəran zonası artıq Azərbaycanın tabeliyindən çıxmışdı, şimal zonasında cürbəcür separatçı qüvvələr hərəkətə başlayırdılar. Azərbaycan artıq dağılırdı. Biz bunun qarşısını aldıq. Amma xalqı birləşdirmək lazım idi. Biz xalqı birləşdirə bildik. Xalq birləşdi və təsəvvür edin, biz nə qədər böyük təhlükələrdən qurtardıq.

1993-cü ilin iyun ayını xatirinizə salın. Bakı, Azərbaycan, o cümlədən Ağdam nə vəziyyətdə idi? 1993-cü ilin son aylarını xatirinizə salın. "Talış-Muğan Respublikası"nın yaranması və orada aparılan proseslər Azərbaycanı nə qədər böyük təhlükə altına qoymuşdu! Yaxud bizim şimal zonasında cürbəcür separatçı qüvvələr baş qaldırmışdılar. Gəncədən qalxan quldur dəstələri gəlib Azərbaycanın hər yerində hakimiyyəti öz əlinə almışdı. İndi təsəvvür edin, Ağdamda – siz burada danışdınız, Yura – Rəsul Süleymanov adında bir adam gəlib ağdamlıları yığıb dedi ki, mən burada hakimiyyəti dəyişirəm, siz də bunun qarşısında heç bir şey eləyə bilmədiniz. Çünki top, tüfəng, sursat onların əlində idi. Bu, bir Ağdam rayonunda deyildi, hər yerdə idi. Bütün başqa rayonlarda – Mingəçevirdə də, Əli Bayramlıda da belə etmişdilər. Hamısında etmişdilər. Özbaşınalıq, hərc-mərclik yaranmışdı. Quldurlar gəlib Azərbaycana hakim olmaq istəyirdilər. Nə bəlalardan çıxdı Azərbaycan!

Azərbaycanı bu bəlalara gətirib çıxaran adamlar haqqında, onların hakimiyyəti haqqında, yüksək vəzifədə olmuş o adamlar haqqında siz burada çox haqlı danışdınız, doğru danışdınız, düzgün danışdınız. Lazımdır ki, bundan hamı özü üçün nəticə çıxarsın. Təəssüflər olsun ki, bunların bəziləri hələ özləri üçün nəticə çıxarmayıblar, bəziləri Azərbaycandan kənarda cürbəcür hərəkətlərlə məşğuldurlar, bəziləri də Azərbaycanın daxilində bu sərbəstlik, demokratiya, siyasi plüralizm yaranmasından, bütün bu demokratik prinsiplərin bərqərar olmasından istifadə edərək cürbəcür yaramaz işlərlə və yaramaz təbliğatla məşğuldurlar.

Bu təbliğat heç bir şey verməz. Əgər onlar hakimiyyətdə olduğu zaman hakimiyyəti saxlaya bilməyiblərsə və Azərbaycanı [192-193] belə fəlakətli vəziyyətə gətirib çıxarıblarsa, bu gün onların heç birisinin danışmağa haqqı yoxdur. Əksinə onlar o dövrdə Azərbaycanın başına gətirdikləri bu bəlalara görə məsuliyyət daşımalıdırlar. Xalq qarşısında məsuliyyət daşımalıdırlar! Bunların haqqı yoxdur.

Burada professor Göyüşov məsələ qaldırdı ki, təbliğat işini gücləndirmək lazımdır. Bəli, mən bununla razıyam. Təbliğat işini gücləndirmək lazımdır – o mənada ki, insanlar həqiqəti bilsinlər. İnsanlar həqiqəti bilsinlər! İnsanlar Azərbaycanın bugünkü reallığını bilsinlər və ayrı-ayrı adamlar insanların beynini korlayıb onları pis yola cəlb etməsinlər. Məsələn, burada ağdamlı Faiq Baxşəliyev haqqında danışdınız. Nə qədər orada xəyanət edibdir! Amma onun xəyanətləri cəzasız qalıbdır. 1995-ci ilin mart hadisələrində gəlib burada iştirak etmişdi. Ondan sonra da yenə Ağdamda yaşayırdı, cəzasız qalmışdı. Nəyahət, sonra, bəli, Prezidentin təyyarəsinin raketlə vurulması haqqında məlumat alınanda, onun qarşısı alınandan sonra, adamlar həbs ediləndən sonra müəyyən olundu ki, həmin adam bu terror aktının da, bu terror cəhdlərinin də iştirakçısıdır. Görürsünüz, hələ bizim içərimizdə belə adamlar var, bu adamları aşkara çıxarmaq lazımdır, bu adamlar bizim cəmiyyəti zibilləyirlər, cəmiyyətimizi zəhərləyirlər, insanların beynini zəhərləyirlər, əxlaqını zəhərləyirlər. Cəmiyyətimizi sağlamlaşdırmaq lazımdır, cəmiyyətimizi Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı, milli ənənələri prinsipləri əsasında tərbiyə etmək lazımdır və xalqımızı, xüsusən gəncləri bax, belə zəhərli təsirlərdən xilas etmək lazımdır. Yəni imkan vermək lazım deyil ki, onlar belə zəhərli fikirlərin təsiri altına düşsünlər. Bunlar da bizim vəzifəmizdir.

Ancaq mən bir daha qayıdıram Azərbaycanın üç il bundan öncə olan vəziyyəti və bugünkü vəziyyəti mövzusuna. Bu gün də olan vəziyyət hələ bizi qane etmir və edə bilməz. Biz inkişaf prosesindəyik, biz dəyişikliklər prosesindəyik. Dəyişikliklər prosesi bundan sonra daha da sürətlə gedəcək, iqtisadi islahatlar həyata keçiriləcək, dövlət quruculuğu günü-gündən inkişaf etdiriləcək, Azərbaycanın müstəqil dövləti demokratik prinsiplər əsasında bundan sonra da qurulacaq və inkişaf etdiriləcəkdir. Azərbaycan Dünya Birliyində özünə layiq yeri günü-gündən daha da müvəffəqiyyətlə tutur. Bu da bizim xalqımızın, dövlətimizin nailiyyətidir. [193-194]

Ağdamlılara mənim daim xüsusi hörmətim və vaxtilə qayğım olubdur. Burada çıxış edənlərin bəziləri söylədilər – 70-ci illərdə mənim burada işlədiyim zaman Ağdama nə qədər çox diqqət göstərilmişdir. Ağdamda

nə qədər böyük işlər görülmüşdür – həm şəhərin qurulması, yaradılması, həm də qəsəbələrin abadlaşdırılması, həm Ağdamın iqtisadiyyatının inkişaf etdirilməsi baxımından. Ağdamın iqtisadiyyatı o illərdə çox yüksək sürətlə inkişaf edirdi. Burada çıxışların birində deyildi ki, doğrudan da, Ağdam rayonu o vaxt bizim ən varlı rayonlarımızdan biri idi. İqtisadi cəhətdən çox varlı idi. Çünki Ağdamın çox gözəl torpaqları var, çox gözəl təbiəti var, çox fədakar zəhmətkeş insanları var. Onlar da bu torpaqdan, bu təbiətdən istifadə edərək, şübhəsiz ki, yüksək nailiyyətlər əldə edirdilər və buna görə də Ağdam Azərbaycanın varlı rayonlarından biri idi.

Amma Ağdamın xüsusiyyətləri təkcə onun maddi cəhətdən varlı olmasından ibarət deyil. Ağdam Azərbaycanın inkişafında çox böyük rol oynamışdır, Ağdamdan olan insanlar Azərbaycanın elmini, mədəniyyətini inkişaf etdirmişlər, Azərbaycanın dövlət orqanlarının yaradılmasında, inkişaf etməsində fəal iştirak etmişlər. Tariximizdə keçən əsrlərdə də Ağdam rayonundan nə qədər dəyərli insanlar, ümumiyyətlə Qarabağdan nə qədər dəyərli insanlar olubdur, XX əsrin əvvəllərində də olubdur, elə 70-ci illərdə də olubdur, bu gün də var.

Ona görə də ağdamlılar fəxr edə bilərlər ki, onların belə gözəl bir diyarı var, gözəl bir şəhəri olubdur və bundan sonra ondan da gözəl olacaqdır. Ən böyük nailiyyət də ondan ibarətdir ki, ağdamlılar çox fədakar, çox zəhmətkeş insanlar olublar və Azərbaycan Respublikasının həyatında daim çox böyük rol oynayıblar. Ağdamlılar təkcə Ağdamda yox, Azərbaycanın bütün rayonlarında böyük-böyük vəzifələrdə işləyiblər. Mütəxəssislərimizin, alimlərimizin, mədəniyyət xadimlərimizin bir çoxu Ağdamdan olubdur. Bu da təbiidir, bunu heç kəs yaratmayıbdır, ağdamlılar özləri yaradıblar, ağdamlılar bunu özlərinin ağlı, zəkası, fədakarlığı, zəhmətkeşliyi – məhz bunların nəticəsində əldə ediblər. Bu da həm ağdamlıların sərvətidir, həm də bütün Azərbaycan xalqının sərvətidir.

Ümumiyyətlə, mənim Azərbaycanın hər yerinə eyni münasibətim olubdur. Mən heç vaxt seçə bilmərəm ki, bu, mənim üçün çox sevimlidir, yaxud bu, az sevimlidir. Təsəvvür edin, 27 il bundan öncə mən Azərbaycanın rəhbəri seçilmişəm. Bu 27 [194-195] ildə həyatım Azərbaycanın bütün qayğıları ilə bağlı olubdur. Ona görə də mənim üçün heç vaxt ögey-doğma olmayıbdır. Mənim üçün necə ki, öz övladlarım eyni dərəcədə sevimlidir, Azərbaycanın hər bir guşəsi də eyni dərəcədə sevimlidir, eyni dərəcədə əzizdir və onlara eyni dərəcədə hörmət edirəm.

**Yerdən səs:** Çox sağ olun!

**Heydər Əliyev:** O cümlədən ağdamlılara xüsusi hörmətimi, ehtiramımı bu gün bir daha bildirirəm.

**Yerdən səslər:** Sağ olun.

**Heydər Əliyev:** Sizin çıxışlarınızda mənim haqqımda həddindən artıq çox yüksək fikirlərinizə görə təşəkkür edirəm və güman edirəm ki, bunlar ürəkdən gələn səmimi sözlərdir. Mən çalışacağam ki, öz həyatımda, öz işimdə sizin dediyiniz bu sözlərə bundan sonra da layiq olum.

**Yerdən səs:** Çox sağ olun! Sağ olun!

**Heydər Əliyev:** Mən bugünkü görüşümüzdən çox məmnun olduğumu bildirirəm. Bir yerdə çox oturduq, çox danışdıq və görürəm ki, hamınız mənim kimi dözümlüsünüz. Çünki bilirsiniz, burada gedən söhbət hər birimiz üçün yüksək dərəcədə vacib söhbətdir. Ona görə belə bir söhbət zamanı heç kəs nə yorula bilər, nə də narahat ola bilər. Elədirmi ? Mən görürəm ki, siz elə vəziyyətdəsiniz ki, bundan sonra 1-2-3 saat da söhbət aparmaq olar. Ancaq güman edirəm ki, bununla qurtarmaq olar. Bir daha sizin hamınızı Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü naminə, Azərbaycan xalqının milli azadlığının qorunması naminə birliyə dəvət edirəm, həmrəyliyə dəvət edirəm. Əmin olun ki, mən bu birliyi, bu həmrəyliyi möhkəmləndirmək üçün bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm. Sağ olun. [195-196]

## XALQ RƏSSAMI MARAL RƏHMANZADƏNİN ƏSƏRLƏRİNDƏN İBARƏT YUBİLEY SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*R. Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi*

*3 avqust 1996-cı il*

Maral xanım öz sözünü rəssamlıq əsərləri ilə deyir. Biri danışmaq, biri oxumaq-çalmaq, biri də rəsm çəkmək ustasıdır. Bu da təbiidir. Mən sizi bir daha təbrik edirəm. Yubileyiniz münasibətilə mən sizi təbrik etmişəm, təbrik məktubu göndərmişəm. Mənim fərmanımla siz Azərbaycanın yüksək mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmisiniz. Sizə cansağlığı arzulayır və bir daha qeyd edirəm ki, həyatınız boyu yaratdığınız əsərlər Azərbaycan təsviri sənətinin zənginləşməsində və Azərbaycan mədəniyyətinin, incəsənətinin inkişafında böyük rol oynayıbdır. Bu minnətdarlığın ifadəsi olaraq mən sizin yubiley sərginizin açılışına gəlmişəm. Yubileyiniz, sizə verilən yüksək dövlət mükafatı münasibətilə və bu gözəl sərginizin açılışı münasibətilə sizi təbrik edirəm. Əminəm ki, Azərbaycan vətəndaşları sizin sərginizə çox böyük həvəslə gələcək, əsərlərinizi bir daha görəcək və bunlardan estetik zövq alacaq, mənəviyyatca yüksələcəklər. Siz bundan sonra da xalqımızın mənəvi-estetik tərbiyəsində öz xidmətlərinizi göstərəcəksiniz. Sizə bir daha cansağlığı, xoşbəxtlik, yeni yaradıcılıq uğurları arzulayıram. Sağ olun.

* * *

Mən o qədər də bilmirdim ki, siz Naxçıvanın təbiətini belə gözəl əks etdirmisiniz. Ora həqiqətən möcüzəli bir yerdir. Bi[196-197]lirsiniz, oradakı dağların səhər bir rəngi olur, günorta rəngi dəyişir, günün axırında yenə dəyişir. Qəribə bir şeydir. Məsələn, dağlara, daşlara uzaqdan baxırsan, biri göy, biri yaşıldır, digəri narıncı rəngdədir. Qəribə rəngləri var. O rənglər heç bir yerdə yoxdur. Günün işığı ilə rənglər dəyişir. Siz ki, oraya getmisiniz, onları öz əsərlərinizdə əks etdirmisiniz, bu, çox gözəldir. Çünki Naxçıvan elə bir yerdir ki, oraya gedib gəlmək də çətindir, ona görə bunları görən də azdır. Xınalığı da çəkmisiniz. Bu da çox gözəldir. Azərbaycanın elə guşələri var ki, bunlar abidədir. Bir tərəfdən təbiət abidəsidir, ikinci tərəfdən də insanların dağlar qoynunda yaratdıqları evlər, yaşayış yerləri – bunlar da abidədir. Xınalıq da Azərbaycanın bir abidəsidir, nadir bir yerdir.

**Maral Rəhmanzadə:** Korlayırlar.

**Heydər Əliyev:** Təəssüf ki, çox şey xarab olur. Güman edirəm, biz bu dövrü də keçib gedəcəyik, onlar da bərpa olunacaqdır. Ancaq siz ki, oraya getmisiniz, bu da çox əhəmiyyətlidir. Bu sərgidə mən sizin rəssamlığınızın indiyə qədər bilmədiyim bir incəliyini hiss etdim. Yaxud, siz Lahıcın gözəlliyini göstərirsiniz. Lahıc özü də Azərbaycanın bir abidəsidir. Doğrudan da orada nadir bir təbiət və nadir xüsusiyyətə malik olan mühit, nadir insanlar var. Çox nadir. Elə bil ki, xırda, balaca bir adadır, amma özünəməxsus ölkə kimi bir yerdir. Ona görə də siz ki, gedib o yerləri çəkmisiniz, bu, çox gözəldir. Oraya uzaqdan gedən adamlar o gözəlliyi daha yaxşı dərk edirlər, amma hamının oraya getməyə imkanı yoxdur. Həm də o şeyi ki, rəssam görür, adi adam bəlkə də bunu dərk edə bilmir. Rəssamın gözü ilə adi adamın gözü arasında böyük fərq var. Ona görə də sizin yaradıcılığınızın bu xüsusiyyətini mən daha yüksək qiymətləndirirəm. Sizə bir daha cansağlığı, yeni uğurlar arzulayıram. [197-198]

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ B. N. YELTSİNİN TƏNTƏNƏLİ ANDİÇMƏ MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA SƏFƏRİ ZAMANI RUSİYANIN MÜDAFİƏ NAZİRİ İ. RODİONOVLA GÖRÜŞDƏN SONRA AZƏRBAYCAN JURNALİSTLƏRİNƏ BƏYANAT

*Moskva, Kreml*

*9 avqust 1996-cı il*

Görüşdə əsas məsələ Azərbaycan ilə Rusiya arasında əlaqələrin bütün sahələrdə daha da inkişaf etdirilməsi məsələsi idi. Hərbi sahə çox mühüm sahədir, çünki müdafiə sahəsində də bizim çoxlu müştərək işlərimiz var. Eyni zamanda, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün Rusiya Müdafiə Nazirliyinin çox böyük imkanları var. Çünki bilirsiniz ki, Ermənistanda Rusiyanın böyük hərbi hissələri var. Hərbi sahədə onların çox sıx əməkdaşlığı mövcuddur, hərbi müttəfiqlik haqqında müqavilələri vardır.

Ona görə də bu məsələlərin həllində Rusiyanın həm böyük rolu, həm də böyük imkanları var.

General İqor Nikolayeviç Rodionov Rusiyanın yeni müdafiə naziridir. Şübhəsiz, bu məsələləri onunla həm müzakirə etmək, həm də təhlil etmək lazım idi. Eyni zamanda öz mövqelərimizi bildirmək lazım idi. Mən görüşdə bunların hamısını etdim və hesab edirəm ki, görüş qarşılıqlı anlaşma şəraitində keçdi. Mən Azərbaycanın bu məsələlərdə mövqeyini, o cümlədən MDB çərçivəsində mövcud olan kollektiv təhlükəsizlik müqaviləsi ilə bağlı mövqeyini açıq-aydın bildirdim. Bilirsiniz ki, o müqavilənin bir çox hissələrində biz iştirak etmirik. Səbəblərini aydınlaşdırdım, izah etdim ki, nə üçün iştirak [198-199] etmirik. Bilirsiniz ki, bizdə hava hücumundan müdafiə üçün Qəbələ RLS-i var. İndiyə qədər onun da statusu müəyyənləşməyib. Bu barədə danışıqlar gedib, amma status məsələsi indiyədək aydınlaşmayıb. Bu məsələlər haqda da fikrimizi bildirdim. Belə danışdıq ki, bizim müdafiə nazirimiz Moskvaya gələcək və bunlar məsələni birgə müzakirə edəcəklər. Ondan sonra biz son nəticəyə gələcəyik.

Şübhəsiz ki, general Rodionov Çeçenistandakı vəziyyət haqqında da mənə məlumat verdi. Sonra mən Qroznıdakı hadisələrlə bağlı narahatlığımızı bildirdim. Azərbaycan haqqında mətbuatda və digər informasiya orqanlarında yayılan yalan məlumatlar və şayiələr haqda da öz fikrimi bildirdim. Dedim ki, bunların hamısı Azərbaycana qarşı iftiradır. Eyni zamanda o mənə Çeçenistandakı mövcud vəziyyətlə bağlı görülən tədbirlər barədə məlumat verdi. Bizim üçün o da əhəmiyyətli məsələdir. Çünki bizim yollar oradan keçir və bu yolların dəmir yolunun, avtomobil yollarının bağlanması çox vaxt həmin vəziyyətlə əlaqələndirilir.

Mən bu gün baş nazir Viktor Çernomırdinlə də bu barədə danışdım. Ondan xahiş etdim, hazırlanmış layihəni tezliklə imzalasın ki, bizim yollarımızın bağlanması aradan götürülsün. Mən bu barədə general Rodionovla da danışdım. Ona görə də hesab edirəm ki, bu görüş əhəmiyyətli və lazımlı bir görüşdür. Bu görüş bir tərəfdən Azərbaycanın Rusiya ilə əlaqələrinin inkişaf etdirilməsi üçün, digər tərəfdən, yeni müdafiə nazirinin ikitərəfli münasibətlərdə lazımi məsələləri bilməsi vacibdir. Mən bu görüşü çox səmərəli görüş hesab edirəm.

**Sual: Gələcəkdə Rusiya ilə Azərbaycan arasında hərbi əməkdaşlığa dair hər hansı sənədin imzalanması mümkündürmü?**

**Cavab:** Yox, bu barədə heç bir söhbət yoxdur. Yəni hərbi əməkdaşlıq nədir? Biz əməkdaşlıq edirik, amma bu əməkdaşlığın müxtəlif formaları var. Ancaq hərbi ittifaq haqqında düşünürsünüzsə, belə bir fikir yoxdur və bizə belə bir təklif də yoxdur. Ola bilər, bizə andırılır ki, belə bir şey olsa yaxşı olar. Amma bizə birbaşa təklif edə bilmirlər. Bizdə də [199-200] belə bir fikir yoxdur. Ancaq faydalı əməkdaşlıq var və olacaqdır.

**Sual: Cənab prezident, Rusiyanın keçmiş müdafiə naziri Azərbaycana münasibətdə bir çox sahələrdə olduqca sərt mövqe tuturdu. İndi hansısa mövqe yumşaqlığı haqqında danışmaq olar, ya yox?**

**Cavab:** Əlbəttə, kimsə Azərbaycana qarşı sərt mövqe tuta bilər. Ancaq biz müstəqil dövlətik, bizə qarşı sərt mövqe tutmaqla təsir etmək mümkün deyil. Ona görə də keçmiş müdafiə nazirinin sərtliyi elə onun özünə qalacaqdır. İndi kimsə bizə qarşı sərt mövqe tutacaqsa, tutsun, – bu, bizə heç cür təsir edə bilməz. Ola bilər ki, keçmiş müdafiə naziri bəzi səbəblərə görə və əlaqələrinə görə sərt yox, düzgün mövqedə deyildi. Ancaq yeni müdafiə naziri, hesab edirəm ki, yüksək səviyyəli bir generaldır. O, siyasi məsələləri də yaxşı bilir, dərk edir. O həm də Qafqaza, Azərbaycana yaxşı bələd olan adamdır. Keçmiş Zaqafqaziya Hərbi Dairəsinin komandanı olub və elə hesab edirəm ki, o, dəyərli insandır və onunla əməkdaşlıq etməyimiz bizə çox lazımdır.

**Sual: Bəs Lebed və Kovalyov ilə görüşləriniz barədə nə deyə bilərsiniz?**

**Cavab:** Onlarla görüşlərdə də elə bu dediyim məsələləri müzakirə etmişik. Lakin həmin məsələlərə münasibətdə hərənin öz sahəsi var. [200-201]

## XXVI YAY OLİMPİADASINDA (ATLANTA, ABŞ) İŞTİRAK ETMİŞ AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*14 avqust 1996-cı il*

Mən sizin hamınızı təbrik edirəm. Təbrik edirəm, ona görə ki, siz dünya Olimpiya oyunlarının iştirakçısısınız, Atlantada bu oyunlarda iştirak etmisiniz və Azərbaycan xalqmı dünyanın ən yüksək idman yarışlarında təmsil etmisiniz. Bu, böyük hadisədir. Siz xalqımıza, özünüzə böyük şərəf gətirmisiniz. Bu faktın özü müstəqil Azərbaycan Respublikasının həyatında əlamətdar bir hadisədir və bu münasibətlə sizin hamınızı təbrik edirəm.

Sizi Atlantaya, Olimpiya oyunlarına çox böyük ümidlərlə, arzularla yola saldıq və şübhəsiz ki, daha da yüksək nailiyyətlər gözləyirdik. Amma eyni zamanda bunu da nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının idmançıları Olimpiya oyunlarında müstəqil olaraq ilk dəfə çıxış edirlər. Əgər Olimpiya oyunlarında 197 ölkənin nümayəndələri iştirak ediblərsə və bu ölkələrin tam əksəriyyəti daim müstəqil dövlətlər olubsa, keçmiş Olimpiya oyunlarında da iştirak edibsə, belə halda Azərbaycan Respublikası komandasının əldə etdiyi nailiyyətlər, hesab edirəm ki, çox dəyərli nailiyyətlərdir, çox əhəmiyyətlidir və heç də narahat olmayın ki, siz az medal gətirmisiniz. Yəni təkcə bir gümüş medal gətirmisiniz. Bu gümüş medal Olimpiya oyunlarında Azərbaycan Respublikasının iştirakında ilk uğurlu addımdır. Bu medala Namiq Abdullayev öz iradəsi ilə nail olubdur. Amma bu medal eyni zamanda bütün komandanın, bütün Azərbaycan idmançılarının medalıdır. Mən Namiq Abdullayevi xüsusi təbrik edirəm ki, Azərbaycanın id[201-202]manını Olimpiya oyunlarında ilk dəfə bu qədər yüksək bir səviyyəyə çatdırıbdır. Eyni zamanda hamınızı təbrik edirəm ki, hamınız birlikdə Olimpiya oyunlarında uğurla iştirak etmisiniz. Kimsə beşinci yer, kimsə yeddinci yer, kimsə səkkizinci yer, kimsə onuncu yer tutubdur. Amma Olimpiya oyunlarında onuncu yer almağın özü də böyük nailiyyətdir, böyük şərəfdir. Ona görə də mən Olimpiya oyunlarında iştirakınızı və əldə etdiyiniz nailiyyətləri yüksək qiymətləndirib, sizi ürəkdən təbrik edirəm, cansağlığı arzulayıram və ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonra da idmanla məşğul olacaqsınız, Azərbaycan idmanının inkişafı üçün çalışacaqsınız və dörd ildən sonra, növbəti Olimpiya oyunlarında bundan da yüksək nailiyyətlər əldə edəcəksiniz.

Olimpiya oyunlarının nəticələri haqqında Əbülfəz Qarayevin verdiyi məlumatlar çox əhəmiyyətlidir. Həqiqətən, əgər keçmiş zamanlarda Azərbaycan idmançıları Sovetlər İttifaqının spartakiadalarında 10-11-ci yerləri tuturdularsa, indi həmin respublikalar Olimpiya oyunlarında iştirak etdiyi bir zamanda yeddinci yer tutmusunuz. Bu, böyük nailiyyətdir. Bu bir də onu göstərir ki, müstəqil dövlət, müstəqil ölkə kimi biz öz nailiyyətlərimizi dünya miqyasında daha da görkəmli nümayiş etdirə, təmsil etdirə bilərik. Sizin nailiyyətləriniz buna əyani sübutdur. Çox sağ olun. Hər birinizi ayrı-ayrı təbrik edirəm, hamınızı birlikdə təbrik edirəm. Bizim Gənclər və İdman Nazirliyini təbrik edirəm. Məşqçilərinizi təbrik edirəm ki, sizi hazırlayıb Olimpiya oyunlarında iştirak etmək hüququna nail olublar və siz də məşqçilərinizin göstərdikləri qayğını və etimadı doğrultmusunuz.

Bir də qeyd edirəm, Olimpiya oyunlarında sadəcə olaraq iştirak etmək özü böyük bir hadisədir. İştirak edib hansısa bir yeri tutmaq bundan da böyük hadisədir və nailiyyətdir. Nəhayət, Azərbaycan üçün Olimpiya oyunlarından gümüş medal gətirmək – bu, böyük nailiyyətdir. Mən sizin Olimpiya oyunlarında iştirakınızdan məmnunam, razıyam. Hesab edirəm ki, sizi yola salarkən verdiyimiz tövsiyələrə sadiq olmusunuz və arzularımızı, ümidlərimizi doğrultmusunuz. [202-203]

Əlbəttə, bir də qeyd edirəm, biz çox şey gözləyirdik. Amma hər bir hadisəyə reallıqdan baxmaq, hər bir hadisəni reallıq əsasında qiymətləndirmək lazımdır. Hesab edirəm ki, reallığa görə sizin nailiyyətləriniz görkəmli nailiyyətdir. Ən əhəmiyyətlisi ondan ibarətdir ki, müstəqil Azərbaycan Respublikası Olimpiya oyunlarında 197 ölkə arasında özünəməxsus yerdə olubdur, Azərbaycanın bayrağı Olimpiya oyunlarında dalğalanıbdır. Biz televiziyaya baxarkən, Olimpiya oyunlarının açılışına baxarkən Azərbaycanın bayrağını görürdük və bununla da çox fəxr edirdik. Çox sağ olun.

İndi vəzifə Azərbaycanda ümumiyyətlə idmanı inkişaf etdirməkdən və növbəti Olimpiya oyunlarına hazırlaşmaqdan ibarətdir. Sizin bu nailiyyətləriniz və son zamanlar Azərbaycanda idman sahəsində görülən tədbirlər və əldə edilən müəyyən nailiyyətlər respublikamızın bu sahədə potensialı, imkanları olduğunu bir daha göstərir. Bu da hamımızı həmin imkanlardan səmərəli istifadə etməyə dəvət edir. Ona görə də hesab edirəm ki, siz və sizinlə birlikdə bütün idmançılar, Azərbaycanın Gənclər və İdman Nazirliyi ölkəmizdə idmanın, onun

bütün növlərinin inkişaf etməsi, yayılması, gənclərin idmana daha yaxından qoşulması işi ilə bundan sonra da ciddi məşğul olmalıdır.

Biz, Azərbaycanın Prezidenti kimi şəxsən mən söz vermişəm və indi də bunu təsdiq edirəm ki, idmana xüsusi qayğını öz üzərimə götürürəm, Azərbaycan gənclərinə xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz.

İndi gələcək Olimpiya oyunlarına hazırlaşmaq lazımdır. Verilən təkliflə razıyam ki, bunun üçün hazırlıq işinə indidən başlamaq lazımdır. Gənclər və İdman Nazirliyi, Əbülfəz Qarayev bu barədə öz təkliflərini mənə təqdim etsin və mən müvafiq təşkilatlara, bizim dövlət orqanlarına lazımi göstərişlər verərəm. Hesab edirəm ki, bu barədə xüsusi qərar, xüsusi sənəd qəbul olunmalıdır və o sənəddə dörd il müddətində sizin hansı işlər görəcəyiniz müəyyən edilməlidir. Mən bu barədə sizdən təklif gözləyirəm və əmin ola bilərsiniz ki, lazımi sə[203-204]rancamlar veriləcək, qərarlar qəbul olunacaq və bunun üçün. də lazımi vəsait ayrılacaqdır.

Ancaq respublikamızda idmanın inkişafı təkcə dörd ildən bir Olimpiya oyunlarında iştirak etməkdən və orada hansısa nailiyyət əldə etməkdən ibarət deyildir. Keçən dəfə, sizi yola salarkən biz bu barədə ətraflı danışdıq və bu gün bir daha qeyd etmək istəyirəm ki, respublikamızda idman geniş yayılmalıdır. Gənclərin geniş kütlələri idmanla, bədən tərbiyəsi ilə məşğul olmalıdır. Biz gəncləri bədən tərbiyəsinə, idmana daha geniş cəlb etməliyik. Bədən tərbiyəsi ilə nəinki gənclər, bütün əhali məşğul olmalıdır. Bədən tərbiyəsi təbliğ edilməlidir, bizim informasiya orqanlarında, televiziyada, radioda xalqımızın, millətimizin sağlamlığı üçün, gənclərimizin sağlamlığı üçün bədən tərbiyəsinin nə qədər əhəmiyyətli olduğunu daha da geniş təbliğ etmək lazımdır. Gənclərimizi bütün əhalimizi bədən tərbiyəsinə, idmana cəlb etməliyik. İnsanlar bədən tərbiyəsi ilə, idmanla nə qədər çox məşğul olsalar, onlar adamların sağlamlığına, həyatına zərər gətirən adətlərdən kənar olarlar, uzaq olarlar, – məsələn, alkoqollu içkilərdən istifadə edilməsi, gənclər arasında narkotik maddələrdən istifadə halları müşahidə olunur, – yaxud insan üçün zərərli olan başqa adətlərdən, xüsusiyyətlərdən kənar olarlar, belə şeylərə heç vaxt alışmazlar. Biz çalışmalıyıq ki, insanlara zərər gətirən bu adətlər, xüsusiyyətlər xalqımıza sirayət etməsin. Təəssüflər olsun ki, dünyada spirtli içkilərdən, narkotik maddələrdən istifadə edilməsi çox yayılır. Bu da insanlara, xüsusən gənclərə çox zərər gətirir.

Biz müstəqil dövlətik, gənc bir dövlət, müstəqil ölkəyik. Bizim bu günümüz, gələcəyimiz millətimizin, xalqımızın və xüsusən gənclərimizin fiziki sağlamlığından həddindən artıq, demək olar ki, tamamilə asılıdır. Fiziki, mənəvi sağlamlığı təmin etmək üçün bədən tərbiyəsi, idman xüsusi rol oynayır, bunların xüsusi əhəmiyyəti var. Bu, həm elmi cəhətdən isbat olunubdur, həm də indiyə qədər toplanmış təcrübə bunu əyani surətdə sübut edir. Ona görə də mən sizin nümunənizdə Azərbaycanın bütün gənclərini, respublikamızın əhalisini [204-205] bədən tərbiyəsi ilə, idmanla daim məşğul olmağa dəvət edirəm.

Artıq görürsünüz, idman və bədən tərbiyəsi sahəsində atdığımız addımlar öz nəticəsini verir. Xatirinizdədir, mən bir dəfə görüşdə Bakının mərkəzi stadionunun ağır vəziyyətdə olması haqqında fikirlər söylədim və göstərişlər verdim. Bilirsiniz, iki il öncə idi, burada beynəlxalq futbol yarışı keçirilməliydi. Dedilər ki, Bakı stadionunda keçirmək olmaz, Sumqayıtda keçirmək lazımdır. Mən çox narahat oldum – nə cür ola bilər ki, Bakı kimi böyük bir şəhərdə, Azərbaycanın paytaxtında, böyük bir stadionda futbol yarışı keçirmək mümkün olmasın? Çünki stadion bərbad vəziyyətdə idi. Müəyyən tədbirlər görüldü, stadionda müəyyən bərpa işləri aparıldı və bu yaxınlarda Azərbaycanın futbol komandası orada Bolqarıstan komandası ilə görüşdü. Mənə dedilər ki, bu, 1988-ci ildən indiyə qədər Bakı stadionunda ilk futbol yarısı idi.

Görürsünüz, gənclərimiz, əhalimiz, Bakının sakinləri böyük bir imkandan neçə illər, nə qədər məhrum olmuşdular. Siz gəncsiniz, bəlkə bunları xatırlaya bilmirsiniz. Amma Bakı stadionunda keçirilmiş futbol yarışları bizim nəslin xatirindədir. Vaxt var idi, o futbol yarışlarına bilet tapmaq mümkün deyildi. İnsanlar bu yarışlardan əvvəl bilet axtarırdılar, arayırdılar, həmin futbol oyunlarına baxmaq üçün böyük növbələrə dayanırdılar. Stadion tamamilə dolu olurdu. Tamaşaçılar orada həm idman yarışlarına baxırdılar, həm də istirahət edirdilər, əylənirdilər. Bunlar böyük hadisələr, respublikamızda çox gözəl bir ənənə idi. Ancaq təəssüflər olsun ki, 1988-ci ildən bu stadion bağlanmışdır, orada futbol yarışları keçirilməmişdir. Bir neçə tədbirin nəticəsində stadion da bərpa olundu və Bakı stadionunda beynəlxalq yarış da keçirildi.

Şübhəsiz, bu o demək deyil ki, Bakı stadionunda hər bir iş istənilən səviyyəyə gətirilib çatdırılıb. Ancaq ayrı-ayrı mafioz qrupların gəlib o stadionu əllərinə keçirməsi o demək deyil ki, onlar buna nail ola bilərlər. Azərbaycanın dövlət orqanları bu işə sadəcə olaraq ya biganə baxıblar, yaxud bu işlərin iştirakçı[205-206]sı olublar. Ona görə də Azərbaycanın böyük bir sərvəti olan stadion ayrı-ayrı mafioz qrupların əlinə keçmişdi. Stadionun bərpa olunması bir daha onu göstərir ki, biz yaxşı, dəyərli ənənələrimizi bərpa edə bilərik və etməliyik.

İdmana, bədən tərbiyəsinə məxsus olan bütün obyektlər xalqımızın səmərəli istifadəsində, Gənclər və İdman Nazirliyinin sərəncamında olmalıdır. Mən bunu bu gün bir daha bəyan edirəm. Tələb edirəm ki, bu tədbirlər axıra çatdırılsın, idmanın və bədən tərbiyəsinin maddi-texniki bazası bundan sonra daha da möhkəmləndirilsin, inkişaf etdirilsin, respublikamızda həm gənclər, həm də bütün əhali idmana və bədən tərbiyəsinə geniş cəlb oluna bilsin.

Bir daha qeyd edirəm, əmin ola bilərsiniz ki, mən bu sahədə bütün tədbirlərin həyata keçirilməsi ilə, xüsusən Olimpiya oyunlarına hazırlıqla əlaqədar lazımi sərəncamlar, qərarlar verəcəyəm. Əbülfəz Qarayev, sən dedin ki, hansısa idman bazasının vəziyyəti yaxşı deyil. Bu barədə siz özünüz lazımi tədbirlər görün, hansı işi ki, özünüz görə bilmirsiniz, müraciət edin, mən lazımi sərəncamlar, qərarlar verərəm.

Siz mənə idman forması gətirdiniz. Bu, mənim üçün rəmzi bir şeydir, onu xatirə kimi saxlayaram. Mən buna görə sizə təşəkkür edirəm. Yəqin ki, mən də sizə bir hədiyyə verməli idim. Ancaq görüşə hazırlıqsız gəlmişəm. İnşallah, hədiyyələrim sizə çatar. Çünki siz hədiyyələrə layiqsiniz. İşlərim çox olduğuna görə mən bu barədə düşünə bilməmişəm. İşçilərimiz də bu barədə lazımi tədbirlər görməyiblər. Ancaq məndən hədiyyələr sizə çatacaqdır.

Sizi bir daha təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz dörd ildən sonra keçiriləcək Olimpiya oyunlarının da iştirakçısı olacaqsınız. Ona görə də hazırlaşın, çalışın. Şübhəsiz ki, o vaxta qədər sizdən başqa da yeni idmançılarımız yetişəcək və onlar da bu yarışların iştirakçısı olacaqlar. Amma siz çalışın, öz formanızı nəinki saxlayasınız, daha da yüksəldəsiniz ki, növbəti Olimpiya; oyunlarında iştirak etmək hüququna nail ola biləsiniz. Sağ olun, gələn görüşlərədək. [206-207]

## XALQ ŞAİRİ QABİLƏ

Hörmətli Qabil müəllim!

Sizi – Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 70 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Klassik poeziyanın ənənələrini layiqincə davam etdirən yaradıcılığınız müasir Azərbaycan ədəbiyyatında yüksək mövqe qazanmışdır. Əsərlərinizə müraciət edən oxucu həm müasir şairin fikir və düşüncələri, həm də Azərbaycan ədəbiyyatı tarixində görkəmli rol oynamış parlaq şəxsiyyətlərin poetik obrazları ilə tanış olur.

Sizin şeirlərinizdə xalqa, Vətənə sarsılmaz məhəbbət hissi, vətənpərvər sənətkar mövqeyi öz əksini tapmışdır. Yüksək bədii təsirə malik əsərləriniz insanlarda mənəvi qüvvə və yaşamaq həvəsi yaradır.

Poeziyanız və ictimai fəaliyyətiniz öz müstəqilliyini əldə etmiş Azərbaycan vətəndaşlarının azadlıq hissinin, vətənpərvərlik ruhunun daha da yüksəlməsinə xidmət etmişdir. Yaradıcılığınızda, şəxsiyyətinizdə millilik həmişə özünü büruzə verərək Sizi həqiqətən xalq şairi kimi tanıtmışdır.

Əminəm ki, Siz ömrünüzün bu müdrik çağında öz pərəstişkarlarınıza yeni-yeni əsərlər bəxş edəcək, sənətkarın bəşəriyyət və zaman qarşısında imtahana çəkildiyi bir dövrdə məslək və əqidənizə sadiq qalacaqsınız. Sizə uzun ömür, cansağlığı və yaradıcılığınızda yeni müvəffəqiyyətlər arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*15 avqust 1996-cı il* [207-208]

## BAKIDA BRİTANİYA ŞƏRQ BANKI FİLİALININ RƏSMİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*"Hyatt-Recensi-Naxçıvan" mehmanxanası*

*15 avqust 1996-cı il*

Hörmətli prezident, hörmətli səfir, xanımlar və cənablar!

Bu gün Azərbaycanda, Bakıda, Britaniya Şərq Bankı filialının nümayəndəliyinin açılması münasibətilə sizi təbrik edir və bu hadisəni iqtisadi həyatımızda əlamətdar bir hal kimi qiymətləndirirəm.

Azərbaycan Respublikası öz həyatını, həyatının bütün sahələrini, iqtisadiyyatını müasir tələblərə, ölkəmizin tutduğu yola, yəni demokratiya prinsiplərinə, bazar iqtisadiyyatı yoluna uyğun olaraq dəyişdirmək prosesini keçirir. Bu prosesdə bank-maliyyə sisteminin çox böyük əhəmiyyəti var. Azərbaycan özünü bütün dünya iqtisadiyyatına açıq elan edərək, qapılarını xarici sərmayəçilər üçün açaraq, eyni zamanda bu məramları həyata keçirmək üçün lazımi şərait yaranmasına da çalışır. Bu baxımdan dünyanın böyük maliyyə mərkəzləri ilə, böyük bankları ilə Azərbaycanın əməkdaşlıq etməsi və dünyanın böyük banklarının respublikamızda təmsil olunması iqtisadiyyat sahəsində apardığımız tədbirlərin tərkib hissəsidir. Bu mənada dünyanın ən böyük banklarından biri olan Britaniya Şərq Bankının Azərbaycanda öz filialını, nümayəndəliyini açması şübhəsiz ki, respublikamızda bazar iqtisadiyyatının inkişafı, maliyyə sisteminin təkmilləşməsi və sərmayəçilərin ölkəmizdə sərbəst fəaliyyət göstərməsi üçün yaxşı şərait yaradır.

Məhz buna görə də biz Britaniya Şərq Bankının Azərbaycanda filialının açılmasını zəruri hesab etdiyimiz üçün bankla əlaqə yaradıb bugünkü mərasimə gəlib çatmışıq.

Çox məmnuniyyət hissi ilə qeyd etmək olar ki, Britaniya [208-209] Bankı Azərbaycana ikinci dəfədir gəlir. Yəni, bizim keçmiş əlaqələrimiz, keçmiş qohumluğumuz var və bu əlaqələrimiz, 80 il müddətində qırılmış olsa da, yəqin ki, öz gücünü saxlayıbdır, biz indi onları bərpa edirik. Bu onu göstərir ki, Britaniya bankının burada dərin kökləri var və bu köklər əsasında indi, yeni mərhələdə bank daha gözəl fəaliyyət göstərə biləcəkdir.

Məlumdur ki, Britaniya bankı buraya sadəcə həvəs üçün gəlmir, dünyanın hər yerində öz bank sisteminin əlaqələrini yaratmağa çalışır və bundan da fayda götürmək istəyir. Biz də, 80 il ərzində əlaqələrimizin olmamasına baxmayaraq, həmin bu hadisədən, yəni Britaniya bankının Azərbaycanda təmsil olunmasından fayda götürmək istəyirik, ölkəmizin iqtisadiyyatını inkişaf etdirmək, maliyyə sistemini təkmilləşdirmək, Azərbaycanda olan həm xarici sərmayəçilərin, həm də yerli iş adamlarının fəaliyyətini yüngülləşdirmək üçün bu addımları atırıq.

Biz bazar iqtisadiyyatı yolu ilə gedirik, sahibkarlığa, təşəbbüskarlığa geniş yer veririk, sürətlə özəlləşdirmə prosesini aparırıq, böyük dəyişikliklər aparırıq. Belə olan halda sahibkarlar, Azərbaycana sərmayə qoymaq istəyənlər üçün, iş adamları üçün bu cür bankların çox böyük faydası var. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Britaniya Şərq Bankının Azərbaycanda bu filialı təkcə onun maraqlarını təmin etmək üçün yox, eyni zamanda Azərbaycan Respublikasının maraqlarını təmin etmək üçün yaranıb və qarşılıqlı əlaqələr, əməkdaşlıq hər iki tərəfin faydalanması üçün şərait yaradacaqdır.

Sabah, avqustun 16-da mən Azərbaycanda fəaliyyət göstərən sahibkarlarla, iş adamları ilə xüsusi görüş təyin etmişəm. Bu görüşə nəinki Azərbaycan vətəndaşları, bütün xarici ölkələrdən Azərbaycanda iş görmək istəyən adamlar da dəvət olunubdur. Görüşün məqsədi Azərbaycanda sahibkarlıq üçün daha əlverişli şərait yaratmaq, onların fəaliyyəti yolunda mövcud olan maneələri aradan götürmək və sahibkarlığı, özəl sek[209-210]toru inkişaf etdirməkdən ibarətdir. Güman edirəm ki, belə bir görüş ərəfəsində Azərbaycanda Britaniya Şərq Bankı filialının açılması səciyyəvidir, bunlar bir-biri ilə bağlı hadisələrdir və mütləq bir-birinə yardım edəcəkdir.

Britaniya Şərq Bankı dünyanın böyük banklarından biridir. Mən bu fürsətdən istifadə edərək Britaniya Şərq Bankına gələcək fəaliyyətində uğurlar arzulayıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycan ilə Britaniya Şərq Bankı arasındakı əlaqələr bundan sonra daha da genişlənəcəkdir. Əminəm ki, Britaniya Şərq Bankı Azərbaycandakı filialına daim qayğı göstərəcək və burada nəinki filialın fəaliyyəti, eyni zamanda Azərbaycanın bank sisteminin inkişafı üçün əlindən gələn yardımları edəcəkdir.

Bu hadisə münasibətilə sizi bir daha təbrik edir, Britaniya Şərq Bankının Azərbaycandakı fəaliyyətinə, respublikamızdakı filialına uğurlar arzulayıram. [210-211]

**AZƏRBAYCAN-BELARUS "SƏNAYE-TƏRƏFDAŞLIQ VƏ KOOPERASİYA" SATIŞ-SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ**

*15 avqust 1996-cı il*

Hörmətli bacılar, qardaşlar, xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Bu gün burada Azərbaycanın kənd təsərrüfatı üçün lazım olan maşınların, avadanlığın yeni bir sərgisi yaranıbdır. Bu, demək olar ki, son illərdə ilk belə sərgidir. Bu gün burada çıxış edənlər Azərbaycan kənd təsərrüfatının 70-80-ci illərdə əldə etdiyi nailiyyətlərdən danışdılar. Həqiqətən, Azərbaycanın təbiəti, onun zəngin torpağı respublikamızda kənd təsərrüfatı məhsulları istehsalı üçün çox gözəl şərait yaradıbdır. Allah bizə çox böyük nemət bəxş edibdir. Ölkəmizin çox gözəl, zəngin təbiəti, sərvətləri, torpağı var.

Keçmişdə, o cümlədən 70-80-ci illərdə biz bu sərvətdən səmərəli istifadə edib Azərbaycanda kənd təsərrüfatı məhsulları istehsalım ildən-ilə artırmışıq. O dövrdə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasını təmin etmək üçün sadəcə olaraq işi yaxşı təşkil etmək, qurmaq lazım idi. Ancaq kənd təsərrüfatı istehsalının maddi-texniki təchizatı məsələləri hər bir kəndli, kənd adamı, təsərrüfat üçün elə bir problem deyildi. Çünki onların hamısı mərkəzləşmiş qaydada təmin olunurdu. Ona görə də o vaxt kənddə taxıl, pambıq, üzüm, tərəvəz və digər kənd təsərrüfatı məhsulları becərənlər də, heyvandarlıqla məşğul olanlar da düşünmürdülər ki, traktor, kombayn, kotan, yaxud südü avtomat üsulla sağmaq üçün maşınlar haradan gələcəkdir. Bunlar hamısı mərkəzləşmiş şəkildə istehsal olunurdu, təchiz edilirdi və problemlər də yox idi.

Ancaq indi biz başqa bir şəraitdə yaşayırıq. Azərbaycan müstəqil bir dövlətdir. Son illər keçmiş Sovetlər İttifaqı ərazi[211-212]sində gedən proseslər nəticəsində vaxtilə ayrı-ayrı şəhərlərdən, vilayətlərdən birbaşa gələn kənd təsərrüfatı maşınlarının, avadanlığın, istehsalın maddi-texniki təchizatı üçün lazım olan vasitələrin və sairənin kənardan alınması indi çətindir. Bəs yol nədən ibarətdir? Yol ondan ibarətdir ki, birincisi, biz respublikamızda bu sahədə öz istehsalımızı inkişaf etdirməliyik. Azərbaycanın böyük sənaye potensialı var. Keçmişdə respublikamızın sənayesində kənd təsərrüfatı maşınları, avadanlığı az istehsal edilmişdir. Çünki bunlar Sovetlər İttifaqının başqa respublikalarında istehsal olunurdu, belə məhsulların paralel istehsalı lazım deyildi. Ancaq indi biz gərək birinci növbədə öz sənaye potensialımızdan istifadə edək, öz sənaye potensialımız vasitəsilə, xüsusilə böyük maşınqayırma sənayesinin imkanlarından istifadə edərək kənd təsərrüfatı üçün lazım olan maşınları, avadanlığı, cihazları istehsal edib hazırlayaq. Güman edirəm ki, bugünkü sərgidə bunlar müəyyən qədər nümayiş etdiriləcək və biz onlarla tanış olacağıq.

Biz başqa ölkələrlə əlaqələrimizi daha da yaxşı qurmalıyıq. O cümlədən keçmişdə Sovetlər İttifaqına mənsub olmuş, indi isə müstəqillik qazanmış və Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrlə iqtisadi əlaqələrimizi qurmalıyıq. Bu baxımdan bu gün Belarus Respublikası ilə Azərbaycan Respublikası arasında yaranmış əlaqələr çox təqdirəlayiqdir. Bu gün sərgidə həm Azərbaycan Respublikasında istehsal edilmiş maşınlar, cihazlar, avadanlıq bizə göstəriləcəkdir, eyni zamanda Belarus Respublikasında istehsal edilmiş və buraya gətirilmiş avadanlıq nümayiş etdiriləcəkdir. Bu, çox təqdirəlayiq haldır. Çünki Belarus Respublikası ilə Azərbaycan arasında keçmiş illərdə çox sıx əlaqələr olubdur. Biz çox yaxşı əməkdaşlıq etmişik, sıx dostluq əlaqələrimiz olub. Belarus xalqı ilə Azərbaycan xalqı arasında olan dostluq əlaqələri çox böyük ənənəyə çevrilmişdir. Vaxtilə Belarusiyadan Azərbaycana dəfələrlə böyük nümayəndə heyətləri gəlmişdi. Azərbaycandan da Belarusiyaya böyük nümayəndə heyətləri getmişdi. Mən özüm keçmişdə dəfələrlə Belarusiyada olmuşam, Belarusiyanın rəhbərləri də Azərbaycana gəliblər. Yəni bizim bu əlaqələrimizin çox gözəl tarixi, yaxşı ənənələri var. [212-213]

Bunların əsasında, indi Belarusun kənd təsərrüfatı üçün istehsal etdiyi maşınlar, cihazlar, avadanlıq Azərbaycanda istifadə edilə bilər və bu iqtisadi əlaqələri qurmaq lazımdır. Bunun üçün də buradakı satış sərgisində həm Belarusun istehsal etdiyi, kənd təsərrüfatı üçün lazım olan avadanlığın, həm də Azərbaycanda istehsal edilən avadanlığın istehsal olunması iki ölkənin, respublikanın arasında iqtisadi əlaqələrin yarandığını göstərir. Mən buna yüksək qiymət verirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu əlaqələr bundan sonra da genişlənəcəkdir.

Keçmişdə respublikamızda kənd təsərrüfatı məhsulları istehsalında həqiqətən çox yüksək nailiyyətlər olub. Ancaq sizə bildirmək istəyirəm ki, kənd təsərrüfatımızın potensialı daha böyükdür. Yəni planlaşdırdığımız və həyata keçirəcəyimiz tədbirlər, kənd təsərrüfatında iqtisadi islahatlar və bu yaxınlarda qəbul edilmiş "Torpaq islahatı haqqında" qanun ardıcıl surətdə, lazımi səviyyədə həyata keçirilsə, əmin ola bilərsiniz ki, respublikamızda kənd təsərrüfatı məhsulları o keçmişdəki dövrdən də daha çox artacaqdır, biz bunları daha çox istehsal edə biləcəyik, həm özümüzü təmin edəcəyik, həm də onları dünya bazarına çıxara biləcəyik.

Yəni kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində imkanlarımız böyükdür. Bu imkanlardan səmərəli istifadə etmək üçün biz yolu da müəyyən etmişik. Bu yol iqtisadi islahatlar yoludur. Həmin islahatları həyata keçirmək üçün biz qanunlar qəbul etmişik. Xüsusən son qanun – "Torpaq islahatı haqqında" qanun həddindən artıq vacib bir qanundur, inqilabi bir qanundur. Bu, demək olar ki, XX əsrdə Azərbaycanın həyatında ən böyük dəyişikliklər meydana gətirə biləcək bir qanundur. Bu qanun Azərbaycan xalqı üçün böyük mənfəətlər gətirəcəkdir. Bu qanunun həyata keçirilməsi şübhəsiz ki, kənd təsərrüfatı istehsalını artıracaq, nəinki kənd zəhmətkeşlərinin, Azərbaycanın bütün əhalisinin, insanların rifah halını, güzəranını yaxşılaşdıracaqdır.

"Torpaq islahatı haqqında" qanun təkcə kənd təsərrüfatı ilə məşğul olanlar üçün deyil, bütün xalqımız, millətimiz [213-214] üçündür. Mən bu qanunun tətbiq olunması, həyata keçirilməsi barədə bu günlərdə fərman imzalamışam. Bu fərman artıq mətbuatda dərc olunubdur. Bu fərmanın əsasında bir çox tədbirlər görülməlidir. Bilirsiniz, qanunun qəbul olunması asan bir şey deyil. Çünki belə bir qanunun qəbul olunması böyük cəsarət tələb edirdi. Torpaq münasibətləri, torpağa mülkiyyət münasibəti əgər 1917-ci il oktyabr inqilabından sonra bir cür dəyişilmişdisə və biz 70 il o torpaq üzərində həmin yeni mülkiyyət münasibətləri əsasında yaşamışıqsa, indi biz bunu əksinə çevirdik. O vaxt bu tədbirlər nə qədər çətinliklərlə, qurbanlarla həyata keçirilmişdisə, amma indi biz bunu qurbansız, necə deyərlər, itkisiz həyata keçirəcəyik. İnsanlar torpağın sahibi olacaqlar. Torpaq insanlara məxsus olacaqdır. Torpaqdan da səmərəli istifadə ediləcəkdir.

Quba rayonunun Nügədi kəndindən burada çıxış edən Elza xanım çox açıq-aydın göstərdi ki, əgər torpaq insana məxsus olsa, insan ona öz balası kimi münasibət bəsləyəcəkdir. Hələ torpaq tam şəxsi mülkiyyətdə deyil, Elza xanım sadəcə olaraq fermer kimi torpaq götürüb və ona bu torpaqdan istifadə etmək hüququ verilibdir. Amma indən sonra bu torpaqlar insanların şəxsi mülkiyyətinə keçəcək. Şəxsi mülkiyyətə keçəndən sonra insanlar həmin torpağa əziz balası kimi baxacaqlar. Çünki insanın həyatı bütünlüklə bu torpaqla bağlı olacaqdır. O, torpağa nə qədər yaxşı baxsa, xidmət etsə, onun münbitliyini artırsa, ondan nə qədər səmərəli istifadə etsə, torpaq o qədər də zənginləşəcək. İnsan məhsul istehsal edəcək, çox fayda götürəcək, ümumi istehsal artacaqdır. Bax, biz bu yolu tutmuşuq. Ancaq bu yola gəlmək asan bir məsələ deyil.

Keçmiş Sovetlər İttifaqına mənsub olan respublikaların tam əksəriyyətində hələ bu qanun qəbul edilməyibdir. Belarusiyadan gələn qonağımız da yəqin etiraf edə bilər ki, onların respublikasında da belə bir qanun qəbul olunmayıb. Çünki çox yerlərdə belə bir qanunun qəbul olunmasından ehtiyat edirlər ki, torpağı şəxsi mülkiyyətə vermək təhlükəlidir, torpağı dağıdacaqlar, o istifadəsiz qalacaq və s. Bu, doğrudan da çox məsuliyyətli bir işdir. Amma biz bu məsuliyyəti öz üzərimizə götürmüşük. Bir prezident kimi mən o qanunu imzalayarkən [214-215] bu məsuliyyəti öz üzərimə götürmüşəm. Mən bu məsuliyyəti öz üzərimə götürərkən, inanmışam ki, bu qanunun həyata keçirilməsi Azərbaycan xalqına çox böyük faydalar gətirəcəkdir.

Ona görə də indi respublikamızda kənd təsərrüfatı istehsalı sahəsi yeni bir mərhələyə başlayır. Yeni mərhələ torpaqdan səmərəli istifadə etməkdən, torpağın xüsusi mülkiyyətə keçməsindən ibarətdir. Bu islahatların hamısı torpaqdan səmərəli istifadə edilməsi üçün yaxşı imkanlar yaradır. Ona görə də hər bir mülkiyyətçi, torpaq sahibi üçün kənd təsərrüfatı ləvazimatları lazımdır. Yəni maşın, cihaz, avadanlıq, gübrə, zəhərli maddələr, bitkini həşəratdan qorumaq üçün cürbəcür maddələr, müxtəlif ləvazimatlar lazımdır. Lazımdır ki, torpaq sahibləri, fermerlər, torpaqda işləyən adamlar o torpaqdan səmərəli istifadə etmək üçün bütün bu ləvazimatları əldə edə bilsinlər. Məqsədimiz də ondan ibarət olacaqdır ki, bu ləvazimatların hamısı istehsal edilsin, sərbəst surətdə satılsın, insanlar bundan istədiyi qədər alsınlar, istifadə etsinlər və torpağın gəlirini, məhsuldarlığını artırsınlar.

Bilirsiniz, respublikamızda son illər sərbəstlik üçün yaradılan şərait çox yaxşı nəticələr verir. Yadınıza salın, 70-80-ci illər həqiqətən çox yüksək nailiyyətlər dövrü olub. Bəli, o illərdə mənim rəhbərliyim altında çox işlər görülübdür. Ancaq onu da deyək ki, 70-ci illərin sonunda, 80-ci illərin əvvəlində, məsələn, şəhərdə ət qıt idi, ət tapmaq mümkün deyildi. Xatirimdədir, 1980, 1981, 1982-ci illərdə biz respublikamızda əti, yağı talonla satırdıq. Çünki respublikamızda heyvandarlıq məhdud idi, ən çox pambıq və yaxud digər məhsullar istehsal edilirdi. Əti, yağı, südü, süd məhsullarını kənardan, o cümlədən Belarusiyadan da alırdıq. Daha doğrusu, almırdıq, gəlirdi. Bu, Ümumittifaq bölgüsü yolu ilə gəlirdi, amma vaxtında gəlmirdi. Ət yox idi, olanı da az idi. Hamıya ət çatması üçün talon verirdik ki, adam başına ayda nə qədər ət almaq olar. Amma indi respublikamızın bütün bazarlarında ət boldur. Çünki biz insanlara sərbəstlik verdik, mal-qaranın əksəriyyətini camaata, yəni kənddə işləyənlərə satdıq. Mən göstəriş vermişəm ki, olan mal-qaranın hamısı kənd camaatına satılsın. Çünki mən bunların səmərəsini görmüşəm. [215-216]

Mən hələ Naxçıvanda işləyərkən, 1992-ci ildə bu tədbirləri həyata keçirdim. Onda Azərbaycanda bu tədbirləri həyata keçirməyə qoymurdular. Amma mən öz səlahiyyətlərimdən istifadə edib bunları həyata keçirdim. Bilirsiniz ki, Naxçıvan kiçik bir yerdir, blokada şəraitindədir, Azərbaycanın əsas hissəsindən ayrıdır, oraya nəqliyyat vasitələrinin getməsi çox məhduddur. İnsanlar yalnız təyyarə ilə gedib-gəlir, böyük yük daşımaq mümkün deyil. Demək, Naxçıvan özü-özünü təmin etməli idi. 1992-ci ildə biz mal-qaranı kəndlilərə satandan sonra mal-qaranın baş sayı artdı, onun məhsuldarlığı çoxaldı, ona görə də ət və süd məhsulları həddindən çox artdı. İndi Bakıda ət problemi yoxdur. Haradan istəyirsən, gedib ala bilərsən. Mən sizə deyə bilərəm ki, keçmiş Sovetlər İttifaqına mənsub olmuş respublikaların böyük şəhərlərinin çoxundan da Bakıda ət ucuzdur. Yaxud,

indi mən buraya Dərnəgül yolu ilə gəldim. Yolun o tərəfində də, bu tərəfində də xeyli taxta materialı satırlar. O vaxt biz bu qədər taxta gətirə bilərdikmi? Heç bir vaxt gətirə bilməzdik. Amma indi sahibkarlar gətiriblər, satırlar və nə qədər də çox gətirsələr, həmin taxtanın qiyməti o qədər aşağı düşəcəkdir.

Bu rəqabətdir. İndi, Bakıda, respublikamızın digər şəhərlərində bir çox ərzaq məhsullarının və yaxud digər malların qiyməti get-gedə aşağı düşür və düşəcəkdir. Çünki rəqabətdir. Sahibkar, bu işlə məşğul olan adam nə qədər çox olsa, çox məhsul alıb gətirəcək, çox istehsal edəcək, çalışacaq ki, çox satsın. Axı alıcılıq qabiliyyəti də var. Malı satan məcbur olacaq onun qiymətini aşağı salsın ki, alan olsun. Bax bizim müasir həyatımızın gerçəklikləri budur. Biz bu yolla gedirik və bu yolla da gedəcəyik – sərbəst iqtisadiyyat, sahibkarlıq yolu ilə.

Torpaq şəxsi mülkiyyətə verilir. Biz dövlət mülkiyyətini özəlləşdiririk. Sahibkarlığı inkişaf etdiririk. Bütün iqtisadi islahatları, o cümlədən kənd təsərrüfatı sahəsində islahatları qəbul etdiyimiz qanunlar əsasında həyata keçiririk. Bunlar hamısı respublikamızın iqtisadiyyatını qaldıracaq, insanların rifah halını yaxşılaşdıracaqdır. İnsanlarda, xüsusən torpağa bağlı olan insanlarda işləmək həvəsi daha da artacaqdır. Açığını de[216-217]yək, indiyədək sovxozlarda, kolxozlarda bəziləri məcburi işləyirdilər. Amma torpaq adamın özündə olanda, yenə də deyirəm, ona əziz balası kimi baxacaq, onun üzərində çalışacaq, işləyəcəkdir.

Əgər biz torpağın şəxsi mülkiyyətə verilməsi barədə qanun qəbul etmişiksə, gərək torpaq üzərində çalışan adamların təchizatı üçün lazımi şərait yaradaq. Bu baxımdan bu sərginin əhəmiyyəti var. Dünən dedilər ki, belə bir sərgi açılır və məni buraya dəvət etdilər. Doğrudur, işim çoxdur və buraya da gəlməyə vaxtım yox idi. Düşünüb fikirləşdim ki, bu sərgi bəlkə də böyük sərgi deyil, ilk addımdır, ancaq insanları həvəsləndirmək və şəxsən özümün bu məsələlərlə yaxından tanış olmağım üçün buraya gəldim. Sərgi ilə də sizinlə birlikdə tanış olacağam.

Bu sərgini mən ilk addım kimi qiymətləndirirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, respublikamızın bütün iqtisadi potensialı, sənayeçilərimiz, kənd təsərrüfatı mütəxəssisləri, kənd təsərrüfatının mexanikləşdirilməsi ilə məşğul olan təşkilatlar birlikdə çalışacaqlar ki, bundan sonra Azərbaycanın daxili imkanlarından səmərəli istifadə etməklə, kənd təsərrüfatında lazım olan maşınların, avadanlığın, cihazların istehsalını özümüz təmin edək. Çünki bizim böyük sənaye potensialımız var. Amma eyni zamanda tək elə özümüzə arxayın olmaq olmaz. Başqa ölkələrlə, respublikalarla əlaqələri genişləndirmək lazımdır. Yenə də deyirəm, Azərbaycanla Belarus arasında yaranmış əlaqəni mən yüksək qiymətləndirirəm. Qonaqlarımıza demək istəyirəm ki, biz Belarus ilə başqa sahələrdə də əməkdaşlığı genişləndirməyə, iqtisadiyyatı inkişaf etdirmək üçün birgə addımlar atmağa hazırıq.

Bu sərginin açılması münasibətilə mən sizi təbrik edirəm. Sərgiyə eksponatlarını gətirmiş zavodların, müəssisələrin kollektivlərinə təşəkkürümü bildirirəm. Belarusdan gəlmiş qonaqlara təşəkkür edirəm ki, onlar bu maşınların, avadanlığın nümunələrini buraya gətiriblər və bizimlə əməkdaşlıq etmək istəyirlər. Bu işlərdə hamınıza uğurlar arzulayıram. [217-218]

## AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRƏN SAHİBKARLARLA GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*16 avqust 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Respublikamızda dövlət quruculuğu prosesində iqtisadiyyat mühüm rol oynayır. Dövlətin iqtisadiyyat sahəsində tutduğu yol, onun siyasəti Azərbaycanın iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaqdan və bu məqsədlə iqtisadi islahatlar həyata keçirməkdən ibarətdir. Bildiyiniz kimi, bu sahədə indiyədək çox iş görülmüşdür.

Birinci onu qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasında həyatımızın bütün sahələrində, o cümlədən iqtisadiyyat sahəsində yolumuz, prinsiplərimiz əks etdirilibdir. Konstitusiyada Azərbaycanın məhz bazar iqtisadiyyatı yolu ilə getməsi, dünya iqtisadiyyatı ilə sıx bağlanması və respublikamızda ciddi iqtisadi islahatların keçirilməsi öz əksini tapıbdır.

İqtisadiyyatımızı bu istiqamətə yönəltmək, ciddi dəyişikliklər aparmaq üçün hüquqi-normativ əsaslar yaranıbdır. Bir çox qanunlar, qərarlar qəbul edilibdir. Bir çox tədbirlər həyata keçirilibdir. Mülkiyyətin özəlləşdirilməsi haqqında böyük proqram, qanun qəbul olunub. Bu proqram artıq həyata keçirilir. Azərbaycanda "Torpaq islahatı haqqında" qanun qəbul olunub. Bununla yanaşı aqrar sektorda islahatlar aparmaq üçün, kolxozların, sovxozların ləğv olunması ilə əlaqədar xüsusi qanunlar qəbul edilib. Bir çox başqa qanunlar da qəbul olunubdur. Sahibkarlıq fəaliyyəti haqqında, səhmdar cəmiyyətləri haqqında, müəssisələr haqqında və digər qanunlar qəbul edilibdir.

Bu qanunlar Azərbaycanda sərbəst iqtisadiyyat, iqtisadiyyatda yeni münasibətlər yaratmaq, sahibkarlığı inkişaf etdirmək üçündür və bunların hamısının əsasında ölkəmizin iqtisa[218-219]diyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq və inkişaf etdirmək üçün yaxşı hüquqi-normativ əsaslar yaranıbdır.

Respublikanın müvafiq orqanları, dövlət, Nazirlər Kabineti, nazirliklər və bu işlərə məsul olan başqa dövlət orqanları həmin qanunların həyata keçirilməsi üçün lazımi tədbirlər görürlər. Qanunların həyata keçirilməsi üçün prezidentin bir çox fərmanları və sərəncamları verilibdir və bir çox başqa sənədlər imzalanıbdır. Bunlar hamısı işlərin təşkil edilməsi üçündür və işlər də təşkil olunub, aparılır. Dövlət orqanları bu işlərlə məşğul olurlar.

Bu işləri daha da sürətləndirmək məqsədi ilə və xüsusilə bazar iqtisadiyyatına keçid prosesini, sahibkarlığı inkişaf etdirmək prosesini sürətləndirmək üçün bir neçə başqa tədbirin də həyata keçirilməsi nəzərdə tutulubdur. Azərbaycanda fəaliyyət göstərən sahibkarlarla da görüşməyi mən çox vacib hesab etmişəm. Ona görə də mən elan etdim ki, Azərbaycanda fəaliyyət göstərən sahibkarlarla, o cümlədən xarici ölkələrdən respublikamızda fəaliyyət göstərən sahibkarlarla, yəni artıq Azərbaycanda mövcud olan özəl sektorun nümayəndələri ilə sahibkarlıq etmək, özəl sektor yaratmaq istəyənlərlə görüşmək arzusundayam.

Mən istərdim ki, bu görüş sərbəst olsun. Ona görə də əvvəlcədən məlumat verildi ki, belə bir görüşün keçirilməsi avqustun 16-da nəzərdə tutulur və görüşmək istəyənlər müraciət edə bilərlər və belə bir görüşdə iştirak edə bilərlər. Dünən mənə verilən məlumatlardan aydın oldu ki, belə bir görüşə respublikamızda çox böyük həvəs, maraq oyanıbdır. Görüşmək istəyən iş adamları, dövlət sektorunun nümayəndələri müraciətlər ediblər. Müraciət edənlər bu gün buraya dəvət olunublar.

Yəni bu, tam sərbəst bir görüşdür, mənim arzumla və bu gün buraya toplaşmış iş adamlarının müraciəti ilə meydana gəlmiş bir görüşdür. Bu görüşün məqsədi ondan ibarətdir ki, respublikamızda həyata keçirilən tədbirlərin bundan sonra hansı istiqamətdə aparılması, sahibkarlığın yaranması, inkişaf etdirilməsi üçün hansı tədbirlərin görülməsini sizlərdən eşitmək istəyirəm. Mən bir şeyi nəzərə alıram ki, bu proses son proses deyildir. İnsanlar və xüsusən dövlət orqanlarında çalışan şəxslər uzun illər, yəni əmək fəaliyyətinə başlayandan indiyə qədər həm təhsilini, həm də iş təcrübəsini keçmişdə və indiyədək mövcud olan iqtisadi sistem prinsipləri əsasında [219-220] alıblar. Bundan ötrü də heç kəsi günahlandırmaq və heç kəsə də irad tutmaq olmaz. Biz hansı cəmiyyətdə doğulmuşuq, hansı cəmiyyətdə təhsil almışıq, yaşamışıq və işləmişiksə, o cəmiyyətin, o dövlət iqtisadi sisteminin qanunlarına, qaydalarına uyğun olaraq yaşamalı, işləməli olmuşuq və aldığımız təhsil həmin prinsiplərin əsasında alınan təhsildir.

İndi respublikamızda böyük dəyişikliklər prosesi gedir. Bu proses asan proses deyil, yəni əgər insanlar illərlə, on illərlə müəyyən prinsiplər əsasında təhsil alıb, işləyib, öyrənib, təcrübə toplayıblarsa, onların həmin prinsiplərdən fərqli olan, bəlkə də əksinə olan prinsiplərə keçməsi asan proses, asan iş deyildir. Bu, təbiidir və buna heç təəccüblənmək lazım deyildir. Ancaq, eyni zamanda, bu psixoloji amillər həmin prosesin sürətlə həyata keçməsinə mane olur. Bunlar da həqiqətən cəsarətlə bazar iqtisadiyyatına keçmək, sahibkarlıqla məşğul

olmaq istəyən insanların fəaliyyətinə maneçilik törədir və beləliklə, biz ümumən bu prosesin sürətlə irəliləməsində müəyyən əngəllərlə rastlaşırıq.

Ona görə də respublikanın prezidenti kimi mən dövlət orqanlarından aldığım məlumatlar, təkliflərlə yanaşı, eyni zamanda sərbəst iqtisadiyyatla, sahibkarlıqla məşğul olanlardan da məlumatlar, təkliflər, məsləhətlər almaq istəyirəm. Bu o demək deyil ki, verilən hər bir təklif, irəli sürülən hər bir məsələ olduğu kimi qəbul edilə bilər. Ancaq belə müzakirələr, belə danışıqlar bundan sonra görəcəyimiz işlərə çox kömək edə bilər.

Çox siqnallar gəlir ki, sahibkarların sərbəst işləməsi üçün cürbəcür bürokratik maneələr var. Yaxud da ki, ayrı-ayrı vəzifəli şəxslər öz mövqeyindən sui-istifadə edərək onların sərbəst işləməsinə imkan vermirlər. Guya başqa əngəllər də var. Bunların hamısını aydınlaşdırmaq və əgər varsa, aradan götürmək üçün mən belə bir görüşü zəruri hesab etmişəm.

Ümumiyyətlə, indi həyatımız çox mürəkkəbdir, çox gərgin proseslər dövrünü yaşayırıq. Ona görə da daim bir-birimizlə məsləhətləşməliyik, bir-birimizə daim kömək etməliyik. Əgər hər birimizin amalı, məqsədi Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirməkdən, onu bundan sonra müstəqil dövlət kimi daim yaşatmaqdan ibarətdirsə, ölkəmizin böyük iqtisadi potensialını hərəkətə gətirib inkişaf etdirməkdən ibarətdirsə, hər birimizin məqsədi bütün bunların nəticəsində əhalinin, xalqımızın rifah halını yaxşılaşdırmaqdan ibarətdirsə, de[220-221]mək, biz əməkdaşlıq etməli və məsləhətləşməliyik. Dövlət orqanları, o cümlədən prezident də həmişə həm əhalinin ictimai rəyi ilə tanış olmalı, onunla hesablaşmalı, həm də müəyyən işlə məşğul olan ayrı-ayrı adamların fikirlərini bilməli və bunları nəzərə almalıdır. Bu məqsədlə mən belə bir görüşü lazımlı hesab etmişəm və məmnunam ki, bu görüşə həvəs göstərənlər çox olubdur və salonumuz tamamilə doludur.

Hesab edirəm ki, işimizin səmərəli getməsi üçün yaxşı olardı ümumi məlumat dinləyək. Antiinhisar Siyasəti və Sahibkarlığa Kömək Komitəsinin sədri Raqib Quliyevi dinləyək, görək, vəziyyət nə yerdədir. Ondan sonra isə burada iştirak edənlər çıxış edib öz sözlərini deyə bilərlər. Kim söz demək, çıxış etmək istəyirsə, öz xahişlərini mənə yazılı surətdə göndərsin.

## YEKUN NİTQİ

Hörmətli sahibkarlar, hörmətli xanımlar və cənablar!

Altı saatdır ki, görüşümüz davam edir, biz bu salonda bir yerdəyik. Mən bu görüş haqqında qərar qəbul edərkən və elan verərkən respublikamızın indiki vaxtında onun çox əhəmiyyətli olduğunu nəzərdə tutmuşdum. Ancaq bu gün bir neçə saat müddətində sahibkarlıqla əlaqədar məsələləri bir yerdə təhlil edərkən, müzakirə edərkən mən belə fikrə gəldim ki, həqiqətən bu görüş çox zəruri imiş. O, belə geniş tərkibdə bizim ilk görüşümüzdür və hesab edirəm, burada iştirak edən şəxslərin hamısı bu görüşdən çox böyük mənfəət götürdü və götürəcəkdir. Mənim üçün bu görüşün mühüm əhəmiyyəti ondan ibarətdir ki, sahibkarlığın Azərbaycanda indiki vəziyyəti haqqında daha ətraflı məlumat almaq mümkün oldu. Həqiqətən biz bu gün aydınlaşdırdıq – Azərbaycanda sahibkarlıq hansı səviyyədədir, hansı vəziyyətdədir və sahibkarlığı bundan sonra inkişaf etdirmək üçün hansı işləri görmək lazımdır. Mən çox məmnunam ki, bu salona toplaşanların çoxu söz demək, öz fikirlərini bildirmək istəyir.

Danışmaq üçün 150 adam yazılıbdır. Mən istərdim ki, onların 150-si də danışsın. Ancaq razı olarsınız ki, bu, fiziki cəhətdən sizin üçün də mümkün deyil. Mən bəlkə də dözə bilərəm, amma burada bəziləri, görürəm, dözə bilmir. Əgər görüşümüz başlanan zaman salonda bir dənə boş yer yox idisə, indi görürəm ki, bir neçə yer artıq boşdur. Yəni dözə bilməyənlər gediblər və bu da təbiidir, çünki mən əvvəl də [221-222] dedim ki, bu görüşümüz ciddi inzibati qaydalar çərçivəsində yox, tamam sərbəst, demokratik əsaslarla keçirilir. Ona görə də kim dözə bilmir, əlbəttə, gedə bilər. Bunları nəzərə alaraq, mən hesab edirəm ki, bugünkü görüşümüzü yekunlaşdırmaq lazımdır. Onu qeyd etmək istəyirəm ki, burada çıxış edənlərin hər biri çox əhəmiyyətli məlumatlar verdi. Çıxış edənlərin çoxu konkret təkliflər verdi, məsələlər irəli sürdü. Bunlar bizim üçün çox vacibdir, çox əhəmiyyətlidir.

Mən tapşırıram Prezident Aparatına və konkret olaraq mənim müşavirim Vahid Axundova – Nazirlər Kabineti ilə birlikdə, aparatın işçiləri ilə birlikdə birinci növbədə bu çıxışların hamısı təhlil olunsun. Burada stenoqram aparılıbdır və hesab edirəm ki, bizim görüşümüz hamısı televiziya lentinə alınıbdır. Bunu ictimaiyyətə çatdırmaq üçün tamamilə efirə verilməsi haqqında da mən qərar qəbul edirəm.

Beləliklə, bizim aparatda material var və mən tapşırıram ki, təhlil edilsin, bütün çıxışlar, təkliflər, məsləhətlər – onların hamısı istifadə olunsun. Bir neçə konkret təklif haqqında, ola bilər, qərarlar qəbul edək, sərəncamlar verək. Ancaq bunların hamısı Azərbaycanda sahibkarlığın inkişafı haqqında indi hazırlanan proqramda nəzərə alınmalıdır. Bu gün görüşümüzün başlanğıcında çıxış edən Raqib Quliyev bildirdi ki, bu komitə tərəfindən belə bir proqram layihəsi hazırlanıbdır. Bu layihə artıq Nazirlər Kabinetindədir, onlar orada baxıb qısa müddətdə mənə təqdim etməlidirlər və biz yaxın zamanlarda bu proqramı qəbul etməliyik. Bu proqram da sahibkarlığın Azərbaycanda sürətlə inkişafını təmin etməlidir.

Ona görə burada verilən təkliflər, irəli sürülən fikirlər hamısı təhlil və istifadə olunmalıdır. Ola bilər, bəziləri haqqında konkret qərarlar, sərəncamlar qəbul olunsun.

Burada çıxış etməyənlər də oldu, amma gördüm ki, çox istəyirdilər çıxış etsinlər. Mən təəssüf edirəm ki, bu mümkün olmadı və güman edirəm ki, hər bir kəs bu vəziyyəti görür. Çıxış etmək istəyən hər bir kəs öz fikirlərini konkret şəkildə yazılı surətdə versin buraya – aparata, yəni Vahid Axundovun sərəncamında olan şöbəyə. Mən tapşırıram ki, təqdim ediləcək təkliflər, yaxud müraciətlər mütləq təhlil olunsun, öyrənilsin və onlar bir tərəfdən, hazırlanan proqramda istifadə olunsun, ikinci tərəfdən isə orada konkret, yaxud fərdi xarakter daşıyan məsələlər varsa, onlara baxılsın və onlar haqqında tədbirlər görülsün. [222-223]

Bir sıra natiqlər burada çıxış edərkən yazılı surətdə bəzi materiallar veriblər. Hamısı buradadır. Mən onları bu gün verəcəyəm bizim şöbəyə, bunları cəmləyəcəklər, təhlil edəcəklər və istifadə edəcəklər. Yəni burada kimsə, hansısa fikri söyləmək istəyir, yaxud bizə çatdırmaq istəyirsə, əgər çıxış etmək mümkün olmadısa, onların heç biri nəzərdən qaçmayacaqdır.

Mən başa düşürəm ki, çıxış etmək istəyənlərin bəziləri, ola bilər, öz şəxsi məsələləri haqqında söz demək istəyirlər. Məsələn, burada çıxış edən Nəriman Əlizadə öz şəxsi vəziyyəti haqqında danışdı. Siz də, mən də onu çox səbirlə dinlədik. Həqiqətən, onun danışığı məndə böyük həyəcan doğurdu və mən də göstərişlər verərkən siz o göstərişləri alqışladınız. Ola bilər, belə vəziyyətdə olan şəxslər bu salonda yenə də var, ancaq bu gün öz fikirlərini çatdırmağa imkanları olmadı. Mən sizi əmin edirəm – siz öz işləriniz haqqında, yaxud qarşınıza çıxan çətinliklər haqqında məlumatları yazılı surətdə verin və mən tapşırıram ki, bunların hamısına baxılsın, onlara baxılmasının nəticələri mənə məruzə olunsun. Beləliklə, arxayın olun ki, həm bu gün burada gedən söhbət, həm sizin ürəklərinizdə olan, lakin çatdıra bilmədiyiniz və yazılı surətdə çatdıracağınız fikirlər – bunlar hamısı istifadə olunacaq, hamısı nəzərdən keçiriləcəkdir.

İndi bugünkü görüşümüzü yekunlaşdıraraq bir neçə kəlmə demək istəyirəm.

Azərbaycan Respublikası dövlət müstəqilliyinin beşinci ilini yaşayır. Bu dövr Azərbaycanın həyatında çox mürəkkəb bir dövr, çox gərgin ictimai-siyasi proseslər dövrü olubdur. Respublikamızın iqtisadiyyatında da böyük çətinliklər, böyük dəyişikliklər dövrü olubdur. Və əbədi dövr kimi də yaşayır. Ancaq eyni zamanda biz bu gün artıq əldə olunmuş müsbət nəticələr haqqında da danışa bilərik. Müsbət nəticələr ondan ibarətdir ki, bu dövrdə biz birinci növbədə hamımız birlikdə Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmişik, inkişaf etdirmişik, onu dönməz etmişik, onu dəyişilməz etmişik. Bu, bizim böyük nailiyyətimizdir. Azərbaycan bir suveren, müstəqil dövlət kimi yaşayır və nəinki yaşayır, bu müddətdə öz müstəqilliyini qoruyubdur və heç bir xarici təzyiqə, təsirə baxmayaraq, öz müstəqilliyindən millimetr də olsa geriyə çəkilməyibdir, əksinə, biz günü-gündən dövlət müstəqilliyimizi möhkəmləndirmişik və bundan sonra da möhkəmləndirəcəyik. Bu, böyük nailiyyətdir. [223-224]

Bilirsiniz ki, 1988-ci ildən Azərbaycana qarşı Ermənistan tərəfindən hərbi təcavüz başlanıbdır. Bu təcavüz nəticəsində Azərbaycan böyük faciələrlə üzləşibdir, Azərbaycanın ərazisi yaralanıbdır, ərazi bütövlüyü pozulubdur. Torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal olunmuş torpaqlardan 1 milyondan artıq vətəndaşımız yerindən-yurdundan didərgin düşüb, məcburi köçkün vəziyyətində, qaçqın vəziyyətində yaşayır. Bunlar hamısı bizə böyük itkilər gətiribdir, böyük faciələr gətiribdir. Böyük dəhşətlərə düçar olmuşuq. Ancaq eyni zamanda iki il bundan öncə – 1994-cü ilin may ayında biz atəşin dayandırılması haqqında saziş imzalamışıq və iki ildən artıqdır ki, Azərbaycan atəşkəs şəraitində yaşayır.

Mən dəfələrlə demişəm, bu gün bir daha bunu qeyd edirəm – şübhəsiz ki, bu hələ sülh deyil, biz sülhə nail olmamışıq. Amma eyni zamanda atəş dayanıbdır, atəş yoxdur, müharibə getmir, qan tökülmür, döyüşlər yoxdur, insanlar sakit yaşaya bilirlər. Bunu da mən müsbət nəticə hesab edirəm. Çünki bu, bir tərəfdən Azərbaycan vətəndaşlarının sakit yaşaması üçün şərait yaradıbdır, ikinci tərəfdən də Ermənistan-Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün gərgin, çox ətraflı danışıqlar aparmağa şərait yaradıbdır. Bilirsiniz ki, bu danışıqları biz mütəmadi olaraq, ardıcıl olaraq aparırıq, prinsipial mövqedən aparırıq və bundan sonra da aparacağıq ki, Azərbaycanı bu bəladan danışıqlar yolu ilə, sülh yolu ilə xilas edək.

Bu gün bu görüş başlanmamışdan saat yarım öncə mən Amerika Birləşmiş Ştatları Konqresinin nümayəndələrini qəbul etdim. Saat yarım onlarla söhbət eləmişəm və o söhbət qurtaran kimi birbaşa buraya, sizinlə görüşə gəlmişəm. Mən mövqeyimizi onlara bir daha ətraflı olaraq bildirdim. Amma bu, birinci görüş deyil. Bilirsiniz ki, bir neçə gün bundan öncə mən Moskvadaydım, orada Rusiyanın rəhbərləri ilə görüşdüm. Moskvada olarkən Ermənistanın prezidenti ilə də görüşdüm. Başqa görüşlərim də olubdur. Bu, son günlərdə olan görüşlərdir və bundan öncə də nə qədər görüşlər keçirmişəm. Bu görüşlərin hamısında biz Azərbaycanın sülhsevər dövlət olduğunu nümayiş etdiririk. Məsələnin sülh yolu ilə həll olunmasına üstünlük veririk və bəyan edirik ki, biz atəşin yenidən başlanmasının tərəfdarı deyilik. Ancaq eyni zamanda biz prinsipial mövqelərimizi bildiririk. Açıq-aydın bildiririk ki, biz [224-225] sülh əldə edə bilərik və bu münaqişəni sülh yolu ilə həll edə bilərik. Yalnız və yalnız o şərtlərlə ki, Azərbaycanın işğal olunmuş əraziləri işğalçı ordulardan təmizlənəcəkdir, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisindən çıxarılacaqdır, işğal olunmuş ərazilərdən didərgin düşmüş Azərbaycan sakinləri, vətəndaşları öz yerlərinə-yurdlarına qayıdacaqlar. Belə olan təqdirdə Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək muxtariyyət statusu veriləcək, Ermənistanla Azərbaycanın arasında sülh yaranması üçün saziş əldə ediləcəkdir və gələcəkdə biz sülhü get-gedə möhkəmləndirəcəyik və sülh şəraitində, qonşuluq şəraitində yaşayacağıq.

Bu şərtlərlə biz məsələnin sülh yolu ilə həll olunmasına gedə bilərik. Bunu biz prinsipial olaraq dünyanın hər bir yerində, hər bir səviyyədə – beynəlxalq təşkilatlarda da, ayrı-ayrı dövlətlərlə, dövlət başçıları ilə görüşlərdə də, ayrı-ayrı nümayəndə heyətləri ilə görüşlərdə də deyirik.

Ona görə də atəşkəs rejiminin iki ildən artıq davam etməsi, hesab edirəm ki, respublikamız üçün, Azərbaycan vətəndaşları üçün gərəklidir, faydalıdır və bu da son vaxtlar Azərbaycanda aparılan siyasətin və görülən işlərin müsbət nəticəsidir. Yenə də deyirəm, bu, gələcək üçün şəraitdir. Biz çalışırıq və çalışacağıq ki, Azərbaycanın tam suverenliyini təmin etmək, ərazi bütövlüyünü bərpa etmək üçün lazımi qərarlar qəbul olunsun.

Bu müddətdə, son zamanlarda əldə edilən nailiyyətlərdən biri və ən mühümü ondan ibarətdir ki, Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət sabitləşibdir. Üç il, dörd il bundan öncə, hətta iki il bundan öncə olan vəziyyəti xatirinizə salın. Azərbaycanın daxilində nə qədər ziddiyyətli proseslər gedirdi, nə qədər cinayətkar qruplar, nə qədər qeyri-qanuni silahlı dəstələr var idi. Azərbaycanın daxilində nə qədər qeyri-qanuni işlər görən, hərəkətlər edən və cəzasız işlər görən qurumlar var idi, nə qədər qan tökülürdü, nə qədər insan tələf olunurdu, günahsız insanlar öldürülürdü, reket, cinayətkarlıq baş alıb gedirdi.

Bunları unutmaq lazım deyil, bunlar iki il, üç il bundan öncə, Azərbaycanın həyatı, mənzərəsi haqqında təsəvvür yaradan bir vəziyyət idi. Qısa bir müddətdə görürsünüz, nə qədər böyük dəyişiklik əmələ gəlibdir, sabitlik əmələ gəlibdir, insanlar rahat yaşayır. Siz təsəvvür edin, 1988-ci ildən 1993-cü ilin [225-226] sentyabr ayına qədər – bu illərdə Azərbaycan və xüsusən Bakı nə şəraitdə olubdur. Demək olar ki, o illərin əksər dövründə Azərbaycan və xüsusən Bakı fövqəladə vəziyyət şəraitində yaşayıbdır. Amma görürsünüz, 1993-cü ilin sentyabr ayından indiyə qədər Azərbaycanda rahatlıqdır, yəni heç bir fövqəladə vəziyyət yoxdur. Ancaq bu o demək deyil ki, biz buna elə 1993-cü ilin sentyabr ayından nail olduq, yox. Azərbaycanda həyat o zibillərdən tədricən təmizləndi.

İndi Azərbaycanda sərbəstlik var, ictimai-siyasi vəziyyət sabitdir, insanlar rahat yaşaya bilirlər. Cinayətkarlıq var, amma çox aşağı dərəcəyə endirilibdir və bir çox cinayətlər – keçmişlərdə olan cinayətlər də, indi baş verən cinayətlər də açılır. Bunlar hamısı həyatımızın bugünkü gerçəkliyidir və eyni zamanda, əldə olunan nailiyyətlərdir.

Biz dünyaya açıq bir ölkəyik. Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qururuq, demokratik cəmiyyət formalaşdırırıq. Bütün sahələrdə, o cümlədən iqtisadiyyat sahəsində ölkəmizi dünya iqtisadiyyatına bağlamaq istəyirik. Bu baxımdan, ölkəmizin böyük təbii sərvətlərini, iqtisadi potensialını hərəkətə gətirmək üçün, onu inkişaf etdirmək üçün şübhəsiz ki, bizim xarici şirkətlərlə, xarici ölkələrlə, xarici sərmayəçilərlə sıx əməkdaşlığımız lazımdır. Azərbaycana sərmayə gətirmək lazımdır. Azərbaycana sərmayə qoyuluşunu təmin etmək lazımdır. Bunun üçün isə – hər bir şirkətin, hər bir bankın, hər bir ölkənin başqa bir ölkədə sərmayə qoyması üçün, iş görməsi üçün birinci növbədə ictimai-siyasi vəziyyət, durum və ictimai-siyasi vəziyyətin sabitliyi nəzərə alınır.

Məhz bu sabitliyə görə artıq Azərbaycana xarici investisiya, xarici sərmayə gəlir. Əgər biz bu sabitliyi təmin edə bilməsəydik, əgər Azərbaycanın həyatında bu rahatlığı təmin edə bilməsəydik, o böyük neft müqavilələrini imzalaya bilməzdik. 1994-cü ilin sentyabr ayında Azərbaycanın həyatında ən böyük tarixi bir hadisə olan böyük neft müqaviləsi imzalandı, "Əsrin müqaviləsi" adlandı. Bu gün mən Amerika Konqresi Nümayəndələr Palatasının nümayəndələri ilə danışarkən onlar da qeyd edirdilər ki, bəli, Amerika Birləşmiş Ştatları kimi böyük dövlətin indi Azərbaycanda həm iqtisadi marağı var, həm də siyasi marağı var. Onlar maraqlı bır söz dedilər mənə. Deyir, bilirsiniz, vəziyyətin dəyişməsi nədən ibarətdir? Əgər əvvəllər Amerika Birləşmiş Ştatlarında Azərbaycan haqqında heç bir söz deyilmirdisə, Azərbaycanın olub-olmaması heç vaxt qeyd [226-227] edilmirdisə, amma Azərbaycan Ermənistanla münaqişədə olduğuna görə Ermənistan haqqında orada daim danışıqlar gedirdi. Çünki bildiyiniz kimi, Amerikada nə qədər erməni diasporu var. Konqresin nümayəndələri mənə dedilər ki, əgər bir neçə il bundan öncə Azərbaycan haqqında Amerikada məlumat yox idisə, mətbuatda heç bir yazı yox idisə, indi və xüsusən Amerikanın böyük neft şirkətləri Azərbaycana gələndən sonra Azərbaycan Amerikanın həyatında daim yada salınır. Azərbaycan haqqında danışıqlar gedir – Konqresdə də, Dövlət Departamentində də danışıqlar gedir, mətbuatda məqalələr dərc olunur, ictimaiyyət də bu mövzuda danışır.

Bilirsiniz, bu, adi bir şey deyil, çox mühüm bir haldır, bizə verilən mühüm informasiyadır. Bunlar böyük ölkələrdə Azərbaycana olan münasibətin həqiqətən nə qədər dəyişildiyini göstərir. Bir Amerikada deyil, elə Fransanı götürün, Böyük Britaniyanı götürün, Rusiyanın özünü götürün. Bunlar hamısı Azərbaycanın bir tərəfdən müstəqil dövlət kimi möhkəmlənməsinin nəticəsidir, ikinci tərəfdən Azərbaycanda yaranmış ictimai-siyasi sabitliyin nəticəsidir və eyni zamanda, əlbəttə ki, Azərbaycanın apardığı çox məqsədyönlü xarici siyasətin nəticəsidir. Buna görə də respublikamızda indi əmələ gəlmiş iqtisadi-siyasi sabitlik xarici investisiyaların Azərbaycana gəlməsi üçün şərait yaradır. Bu, eyni zamanda Azərbaycanın daxilində olan sahibkarların işləməsi üçün şərait yaradır.

Xatırlayın, elə 1995-ci ilin mart ayına qədər Azərbaycanda XTPD dəstəsi var idi. Guya ki, bu, Daxili İşlər Nazirliyinin bir strukturu idi və Azərbaycanda, Bakıda ictimai asayişi qorumaq üçün idi. Amma əslində bu, bir

cinayətkar quldur dəstəsinə çevrilmişdi. Nə qədər iş adamları həmin XTPD dəstəsinə mənsub olanlar tərəfindən təzyiqlərə məruz qalırdılar. Onların var-yoxlarını əllərindən alırdılar, onları öldürürdülər, oğurlayırdılar. Nə qədər! Amma indi belə hallardan bütün vətəndaşlarımız, o cümlədən sahibkarlarımız xilas olublar. Həm də görülən işlər bir bu deyil, çoxdur.

Beləliklə, Azərbaycanda sahibkarlığı inkişaf etdirmək üçün indi çox əlverişli və hesab edirəm ki, çox yaxşı şərait yaranıbdır və sahibkarlarımız bu şəraitdən istifadə edib öz fəaliyyətlərini artırmalıdırlar. Sahibkarlığın inkişaf etməsinə bizim bu qədər fikir verməyimizin səbəbi nədir? Səbəb ondan ibarətdir ki, sahibkarlıq bazar iqtisadiyyatına gedən yolumuzda əsas bir [227-228] vasitədir. Mən bu gün görüşümüzün əvvəlində dedim, bir də qeyd edirəm – biz respublikanın iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparırıq və bundan sonra da aparacağıq.

Bazar iqtisadiyyatı o deməkdir ki, mülkiyyət özəlləşdirilir. Dövlət mülkiyyətinin özəlləşdirilməsi üçün biz qanunlar, proqramlar qəbul etmişik. Çox yaxşı qanunlar qəbul etmişik, cəsarətli qanunlar qəbul etmişik. Xüsusən torpağın xüsusi mülkiyyətə verilməsi haqqında qəbul etdiyimiz qanun həddindən artıq mütərəqqi, cəsarətli və hesab edirəm, respublikamızın gələcəyi üçün çox faydalı bir qanundur. Başqa qanunlar da qəbul etmişik. Bu qanunlar, başqa normativ sənədlər, bizim tədbirlərimiz Azərbaycanda bazar iqtisadiyyatını inkişaf etdirmək üçün həm şərait yaradır, həm də onu təmin edir. Bu baxımdan, sahibkarlığın inkişaf etdirilməsi bazar iqtisadiyyatına gedən yolun daha da genişlənməsi deməkdir. Biz özəlləşdirmə aparırıq. Demək, dövlət mülkiyyəti şəxsi mülkiyyətə keçəcək, səhmdarların mülkiyyətinə keçəcəkdir. Belə olan surətdə siz sahibkarlar bu mülkiyyətə sahib olmalısınız, bu mülkiyyəti öz mülkiyyətiniz kimi inkişaf etdirməlisiniz və həm sahibkarlar üçün, həm respublikanın iqtisadiyyatı üçün, həm də xalqımızın rifah halının yaxşılaşdırılması üçün əvvəlkindən daha çox səmərə götürülməlidir.

Sahibkarlıq fəaliyyəti bizim üçün ən mühüm amillərdən biridir və ona görə də bu görüşü mən lazımlı hesab etmişəm, ona görə də biz sahibkarlığın inkişaf etdirilməsi üçün proqram hazırlamışıq, onu qəbul etmək istəyirik. Sahibkarlıq üçün indi yaxşı, əlverişli şərait yaranıbdır. Biz bütün bu tədbirləri, bütün bu iqtisadi islahatları apararkən, şübhəsiz ki, məqsəd daşıyırıq. Məqsədimiz də ondan ibarətdir ki, respublikanın iqtisadiyyatını inkişaf etdirək. Burada başqa məqsəd yoxdur. İqtisadiyyatda bu qədər ciddi dəyişikliklər aparmaq, insanların psixologiyasında dəyişikliklər aparmaq, onlara yeni prinsiplər əsasında işləməyi öyrətmək, sahibkarlıq əhval-ruhiyyəsi yaratmaq – bunlar asan məsələlər deyil. Bunlar hamısı yalnız və yalnız iqtisadiyyatın inkişafı üçündür və iqtisadiyyatın inkişafı, istehsalın inkişafı, maliyyə sisteminin inkişafı şübhəsiz ki, respublikanın bütün sakinlərinin, bütün vətəndaşlarının rifah halının yaxşılaşdırılması üçündür. Bunu dünya təcrübəsi göstəribdir. İnkişaf etmiş ölkələrdə, bazar iqtisadiyyatı bərqərar olunmuş ölkələrdə bu, artıq görünür və biz bunu dəfələrlə müşahidə etmişik ki, bütün başqa yollardan fərqli olaraq bu yol həqi[228-229]qətən sosial ədaləti təmin etmək, bütün insanların rifah halını yaxşılaşdırmaq üçün yeganə yoldur.

Bax, buna görə də biz sahibkarlığın inkişaf etməsinə çalışırıq və sizin hər birinizin həqiqi sahibkar olmasını istəyirik. Düzdür, sahibkarlıq yolu da asan yol deyil. Məsələn, burada bəziləri dedilər ki, 1988-ci ildən kooperativlər yaradıblar, sahibkar olmaq istəyiblər. Amma indi 1996-cı ildir, görürsünüz, 8 il keçibdir. Sahibkarlıq etmək asan deyil. Asan deyil, ona görə ki, bu işin də xüsusiyyətləri var. Onu bilmək lazımdır, onu öyrənmək lazımdır, mənimsəmək lazımdır. Burada müvəffəq olmaq üçün qanunları yaxşı bilmək lazımdır.

Bilirsiniz, biz keçmişdə sovet cəmiyyətində yaşayarkən çalışırdıq ki, insanlar o vaxt mövcud olan qanunları bilsinlər. Amma – düzünü deyim, keçən dövrün hamısı mənim hafizəmdədir, – insanlar o qanunları bilirdilər-bilmirdilər, bunun fərqi yoxdur. Təki Cinayət Məcəlləsini biləydilər ki, hansı cinayəti edəndə onları hansı cəza gözləyir – onu da çoxları bilmirdi. Bəli, Cinayət Məcəlləsini də bilmirdilər. Bir də ki, kim oğurluq etsə, ola bilər, həbs olunsun, kim adam öldürsə – həbs olunsun. Cinayət Məcəlləsinin başqa maddələrini bilmirdilər, başqa qanunları da bilmirdilər, çünki o cəmiyyət elə bir cəmiyyət idi ki, orada qanunların bilinməsi insanların yaşayışı üçün o qədər lazım deyildi. Hər şey o qədər reqlamentləşdirilmişdi ki, insanlar gedib zavodda, fabrikdə, idarədə, müəssisədə işləyir, məvacibini alır, yaşayır, mənzil alır və qanun-qaydalara, ictimai asayişə riayət etməli idilər. Amma indi sahibkar olmaq üçün, ümumiyyətlə, bu cəmiyyətdə – sərbəst iqtisadiyyat cəmiyyətində, bazar iqtisadiyyatı şəraitində yaşamaq üçün qanunları bilmək lazımdır.

Dünən burada Britaniya Şərq Bankının şöbəsi açıldı, mən açılış mərasimində iştirak etdim. Sonra o bankın Britaniyadan gəlmiş prezidenti ilə görüşdüm. Ona dedim ki, bilirsiniz, keçmiş zamanlarda Azərbaycanda, tək Azərbaycanda deyil, bütün Sovetlər İttifaqında insanlar bankdan bilavasitə istifadə etmirdilər. Bankdan dövlət orqanları istifadə edirdi: pulu qoyurdu oraya, yaxud da ki, pulu, hesabı gəlirdi oraya, oradan da öz müəssisəsi üçün, idarəsi üçün büdcədən ayrılmış pulu götürür istifadə edirdi, insanlar da aylıq məvacibini alırdı. Kimin artıq pulu var idisə, əvvəl əmanət kassası deyirdilər, sonra əmanət bankı dedilər, – aparıb oraya qoyurdu, yaxud da çoxları qoymurdu, elə gizlədirdi, saxlayırdı. Bundan savayı, bizim sovet [229-230] cəmiyyətində bank işini bilən yox idi. Amma indi bank bizim həyatımızda nə qədər böyük rol oynayır. Bankdan istifadə etmək, özü də səmərəli istifadə etmək indi hər bir vətəndaş üçün lazımdır. Bir bu deyil, bütün başqa qanunları – sahibkarlar üçün olan qanunları bilmək lazımdır. Bunları hər bir vətəndaş və xüsusən, sahibkarlıqla məşğul olan adamlar bilməlidirlər.

Mən bir də qeyd etmək istəyirəm ki, sahibkarlıq yolu Azərbaycanda, bütün keçmiş Sovetlər İttifaqında çox enişli-yoxuşlu yoldur. Sahibkar olanların bəziləri düz yol ilə getməyiblər. Cürbəcür yollarla gediblər – biri qanundan qaçıb, biri qanunu pozub, biri o tərəfdən gedib, biri bu tərəfdən gedib sahibkar olubdur, özünə dövlət düzəldibdir, müəssisə düzəldibdir, kooperativ düzəldibdir, kiçik müəssisə, ya böyük müəssisə düzəldibdir. Bunu hərə bir yolla edibdir. Amma bu yolla gedən adamlar bir tərəfdən çəkişib-bərkişiblər, bir tərəfdən də qanunları az-çox öyrəniblər. İndi o mərhələ gəlib ki, artıq həqiqi sahibkarlıq olmalıdır və sahibkarlıq halal sahibkarlıq olmalıdır. Qanunları pozmaq yolu ilə, qanunların o tərəfindən, bu tərəfindən keçmək yolu ilə, vergini gizlətmək yolu ilə, yaxud xaricə mal çıxararkən, xaricdən mal gətirərkən oğurluq yolu ilə keçməklə, gömrük idarələri ilə əlaqəyə girib, onlara pulu verib, rüsumu verməməklə, yaxud da bəzi vergi orqanları ilə əlaqəyə girib, onlara vergidən az pul verib, vergi verməməklə yox. Belə hallar var, mən ona görə bunları deyirəm. Bu yollarla həqiqi, halal sahibkar olmaq mümkün deyil.

Dünyada hər şey halallıq istəyir, təmizlik, düzlük istəyir. Keçmişdə bizim Azərbaycanda da böyük sahibkarlar, böyük mülk sahiblərinin əksəriyyəti, – deyə bilərəm hamısı, – halal yolla, halal qazandığı pulla mülk sahibi olub, sahibkar olub.

İndi biz özəlləşdirməyə gedirik. İstəyirik ki, insanlar mülk sahibi olsunlar, əmlak sahibi olsunlar, sahibkar olsunlar. İndiyə qədər nə olub-olubdur, bundan sonra düz yolla, halal yolla getmək lazımdır, qanunlara riayət etmək lazımdır. Yaxşı olar ki, qanuni yolla gedəsən, az qazanasan; nəinki qanunu o tərəfdən – bu tərəfdən keçəsən, bir az çox qazanasan. Onu onsuz da itirəcəksən, bir az kobud desəm, qusacaqsan. Amma halal yolla getsən nə itirəcəksən, nə də qusacaqsan.

Ona görə də mən arzu edərdim ki, bizim sahibkarlarımız qanuna riayət etsinlər, qanuni yolla getsinlər. Onlar qanuni yol ilə gedərək həqiqi sahibkar ola bilərlər. [230-231]

İkinci tərəfdən, mən bu gün dövlət orqanlarından tələb edirəm ki, qanuni yolla sahibkarlıq etməkdə sahibkarlara maneçilik törətməsinlər, əngəllər yaratmasınlar, mane olmasınlar, qanuni tələbləri yerinə yetirərkən onları rüşvət verməyə sövq etməsinlər, rüşvət almasınlar, onlarla birlikdə qanunu pozmasınlar. Qanun nə cür pozulur? Qanunu pozan təkcə iş adamı deyil ki, qanunu pozan eyni zamanda o qanunun keşiyində durandır. Onlar əlaqəyə girəndə qanun pozulur. Əgər onlar əlaqəyə girməsələr qanun pozulmaz, sahibkar da düz yolla gedər. Amma sahibkar görəndə ki, bir dövlət orqanından istifadə etmək olar, onunla əlaqəyə girib gəlirin bir hissəsini ona verib, bir hissəsini özündə saxlamaq olar – onda o yola gedir. Amma görəndə ki, gömrük orqanı, vergi orqanı, başqa dövlət orqanı, hüquq-mühafizə orqanları belə çirkin yollara getmirlər, onda sahibkar da düşünəcək ki, niyə mən əyri yollarla getməliyəm, elə düz yolla gedim, az qazanım, amma halal qazanım.

Ona görə də mən sahibkarlara bu tövsiyəni verərkən, eyni zamanda dövlət orqanlarından tələb edirəm və qəti tələb edirəm ki, sahibkarlığın inkişaf etdirilməsi üçün indiyə qədər yaradılan və mövcud olan əngəllər aradan götürülsün, sahibkarlara onların normal fəaliyyət, qanuni fəaliyyət göstərməsi üçün şərait yaradılsın, kömək edilsin. Onlar hansı qanunları bilmirlərsə, o qanunları öyrətsinlər, başa salsınlar. Bu sahədə, mən hesab edirəm ki, hüquqi təhsil çox vacibdir. İndi bu, bütün cəmiyyət üçün və o cümlədən sahibkarlar üçün lazımdır. Sahibkarlar gərək bütün hüquq normalarını bilsinlər. Qanunları bilmək nə deməkdir? Yəni bütün hüquq normalarını bilsinlər. Onda öz hüquqları və dövlət orqanlarının hüquqlarını biləcəklər. Onlar öz hüquqları çərçivəsində iş görərək, arxayın ola bilərlər ki, hüquqları dövlət orqanları tərəfindən pozularsa, onlar bu orqanların qarşısında dura bilərlər. Sahibkarların da hüquqları pozulmamalıdır və dövlətin də mənafeyinə zərər dəyməməlidir.

İndi biz belə mərhələdəyik. Biz geniş islahatlar aparırıq, özəlləşdirmə aparırıq. Lazımdır ki, bunlar normal şəraitdə getsin. Burada sahibkarların çoxu vəsaitin çatışmamasından şikayətləndi, kredit verilməməsi haqqında sözlər dedi və xahiş etdilər ki, kreditlər verilsin. Şübhəsiz ki, sahibkarlığa kömək etmək lazımdır və bizdə Sahibkarlığın İnkişafı Fondu var. Biz bu fondu gücləndirməliyik. Burada sual verildi və maliyyə [231-232] naziri də cavab verdi ki, büdcədən 8 milyard manat ayrılıbdır ki, Sahibkarlığın İnkişafı Fonduna verilsin və sahibkarlığın inkişafına sərf olunsun. Bunu etmək lazımdır.

Ancaq bununla yanaşı, təsəvvür edin, sahibkarlıqla məşğul olan ayrı-ayrı adamlar nə qədər kredit alırlar, lakin qaytarmırlar. Dünən mən bu məsələlərlə məşğul olarkən, bugünkü görüşün materiallarına baxarkən, mənə məlumat verdilər ki, məsələn, birisi gəlir bir müəssisə yaradır, – kiçik müəssisə, yaxud bir şirkət yaradır, – kredit götürür. Müəyyən bir vaxt keçəndən sonra bu şirkəti ləğv edir, krediti də qaytarmır, gedir başqa yerdə yeni bir şirkət yaradır. Bu şirkət ləğv olundusa, kredit də batdı. Gedir o biri yerdə yeni bir şirkət, yeni bir müəssisə yaradır, kredit almaq istəyir... Bu gün Milli Bankın sədri mənə dedi ki, sahibkarlara 300 milyard manat kredit verilibdir. Elədir, yoxsa yox?

**Elman Rüstəmov** (Milli Bankın İdarə heyətinin sədri): Bəli, 300 milyard manat.

**Heydər Əliyev**: Nə qədər qayıtmayıbdır?

**Elman Rüstəmov**: 150 milyard manat qayıtmayıb.

**Heydər Əliyev:** 150 milyard manatı qayıtmayıbdır. Bizim Beynəlxalq Bank valyuta krediti veribdir. O valyuta kreditinin nə qədəri qayıtmayıbdır?

**Fuad Axundov** (Səhmdar Kommersiya Beynəlxalq Bankın İdarə Heyətinin sədri): 5 milyon dolları.

**Heydər Əliyev**: 5 milyon dolları qayıtmayıbdır. Siz çalışdınız, dediniz ki, 15 milyon dollar qaytarılıb.

**Fuad Axundov**: 15 milyon dollar qaytarılıb.

**Yerdən səslər**: Sahibkarlara vermirlər. Özləri bildiyi kimi edirlər.

**Heydər Əliyev**: Sakit olun, sakit olun. Mən sərbəstlik vermişəm, ancaq bu dərəcədə sərbəstlik verə bilmərəm, onu bilin. Əgər siz mənim danışmağıma mane olsanız, onda şübhəsiz ki, ara pozulacaqdır. Sakit olun. Bilirsiniz, 20 milyon dollar kredit verilibdir. O kreditlərin bir hissəsinin vaxtı keçibdir, amma qaytarmırlar. Bizim prokurorluq və baş prokuror bir neçə aydır ki, Milli Bank və Beynəlxalq Bank ilə birlikdə o kreditlərin inzibati yolla qaytarılmasına çalışırlar. Qaytarıblar, amma 5 milyon dollar hələ qayıtmayıb. Axı bu, bazar iqtisadiyyatı olmadı. Bu, normal münasibət olmadı. Kim kredit götürürsə, o gərək haqq-hesab eləsin: bu krediti nə vaxt, [232-233] nə cür qaytara bilər. Əgər onun imkanı yoxdursa, gedib, aldadıb kredit götürüb, sonra qaçıb gizlənməsin. Bəziləri niyə qaytara bilmirlər? Kredit götürənlərin bir hissəsi Azərbaycanda yoxdur. Qaçıblar. Yaxşı, bir milyon, yaxud yarım milyon dollardan ötrü Vətənini tərk edəsən, qaçqın düşəsən, – belə olmaz. Axırda onsuz da Vətənə gələcəksən, Vətənsiz yaşaya bilməyəcəksən.

Mən burada deyilən təkliflərlə tamamilə razıyam ki, sahibkarlara kredit verilməlidir, kömək edilməlidir. Amma eyni zamanda gərək bu, zəmanətlə olsun və biz kredit verib bundan sonra inzibati orqanlara tapşırmayaq ki, o kreditləri qaytarmaq üçün inzibati tədbirlər görsünlər.

Bilirsiniz, bu münasibətlərdə – sahibkarların bank ilə münasibətində, kredit işlərində inzibati orqanlar iştirak etməməlidir. Bunlar hamısı sivilizasiya yolu ilə olmalıdır. Heç bir yerdə bankın verdiyi kredit inzibati orqanların vasitəsilə geri qaytarılmır. Siz inkişaf etmiş ölkələrdə müşahidə edə bilərsinizmi ki, inzibati orqanlar bu işə qarışsınlar? Belə şeylər yoxdur. Ona görə də biz Sahibkarlığın İnkişafı Fondunu gücləndirməliyik, sahibkarlara kömək etmək lazımdır. Ancaq eyni zamanda sahibkarlar da bilməlidirlər, ölçüb-biçməlidirlər ki, krediti nədən ötrü alırlar, bu kreditdən istifadə edərkən özləri üçün nə mənfəət götürəcəklər və krediti nə vaxt qaytaracaqlar.

Bu yaxın vaxtlarda bizim Milli Bank qiymətli kağızlar buraxacaqdır. Onlardan da istifadə etmək olar. Eyni zamanda bizə gəlib çatan məlumatlardan belə görünür ki, Azərbaycan vətəndaşlarının bir qisminin xarici banklarda çox məbləğdə valyutası var. Bu valyutanı onlar xarici banklarda nə qədər saxlayacaqlar? Nədən ötrü? Bunlar hamısı ölkəyə qayıtmalıdır. Milli Bankın sədri bu gün çıxış edərkən bildirdi ki, keçən ilin iyul ayında qanun qəbul etmişik. Mən o qanunu imzalamışam ki, əgər bir şəxs investisiya qoyursa, bir yerə vəsait sərf edirsə, heç kəs soruşmayacaqdır ki, onun mənbəyi haradandır, – gəlsin investisiyanı qoysun. Ona görə də o valyutanı ki, Azərbaycan vətəndaşları aparıb xarici banklarda yatırırlar, ola bilər, aldıqları faizdən faydalanırlar, onu gətirib Azərbaycanın [233-234] banklarında saxlasalar yaxşı olar. Milli Bankın sədri dedi ki, bunun məxfiliyinə və toxunulmazlığına tam təminat verilsin. Bu barədə biz qanun qəbul etmişik.

Son vaxtlar iki qanun qəbul olunubdur: biri Milli Bank haqqında, biri də bank qaydaları haqqındadır. O qanunlarda bütün məsələlər öz əksini tapıbdır. Ona görə mən yenə də deyirəm, – qanunları yaxşı oxuyun. Məsələn, keçən ilin iyun ayında qəbul etdiyimiz qanun, – bunu bankın prezidenti dedi, mən də deyirəm, ? bizim sahibkarlar hamısı bilirmi ki, qanun insanlara tamamilə azadlıq verir: sən harada, nə yolla pul qazanmısan, – heç kəs bunu soruşmur. Nə qədər pulun var, onu gətirib istifadə edə bilərsən. Əgər bu puldursa, ya daşınan, daşınmayan əmlakdırsa, bunu da heç kəsin ixtiyarı yoxdur sorğu-sual eləsin. Bu, bizim qanunda var.

Mən bu gün həmin qanundan çıxarışı götürmüşəm, bir də baxmışam. Bunu bir il bundan öncə mən imzalamışam. Amma eyni zamanda mən bu qanun haqqında məlumat verərək, Azərbaycanın prezidenti kimi, sizə zəmanət verirəm ki, arxayın olun, – bir sizə yox, mən demirəm ki, o xarici banklarda pulları olan sizsiniz. Sizin də var, amma buraya toplaşmayan adamların da çoxlarının var, – mən bu qanunu imzaladığım kimi eyni zamanda onun həyata keçirilməsinə hər bir vətəndaş üçün zəmanət verirəm. Bu lazımdır ki, insanlar sərbəstlik hiss etsinlər, azadlıq hiss etsinlər, bilsinlər ki, keçmişdə nə olub, qaldı keçmişdə. Bu gün bax, bu qanun əsasında yaşasınlar və öz vəsaitlərini xarici banklara yox, gətirib Azərbaycanın banklarına qoysunlar və arxayın olsunlar ki, onlara toxunulmayacaqdır. Bu, birincisi, Azərbaycanın milli mənafelərinə uyğun olacaqdır, ikincisi də vəsaiti bankda saxlamaq əvəzinə gətirin burada işə qoyun.

Bir tərəfdən sahibkarlar deyirlər ki, biz işləmək istəyirik, iş qurmaq istəyirik, istehsal yaratmaq istəyirik, vəsait yoxdur, kredit verin. İkinci tərəfdən də, deyilənə görə, xarici banklarda Azərbaycan vətəndaşlarının böyük məbləğdə sərvətləri var. Bu sərvətlər geri qayıtmalıdır. Bir neçə ölkənin həyatında belə bir təcrübə də olubdur. Məsələn, Türkiyənin hə[234-235]yatında 70-ci illərin sonunda, 80-ci illərin əvvəllərində belə bir təcrübə olubdur. O vaxt Türkiyənin bir çox adamları cürbəcür yol ilə qazandıqları pulları xarici banklarda saxlayarkən ölkənin o vaxtkı baş naziri rəhmətlik Turqut Özal bir bəyanat vermişdi ki, gətirin qoyun işə, qoyun Türkiyənin banklarına və onun cüzi hissəsini Türkiyə dövlətinə təqdim etsəniz, onda hamısının aşkarlığını təmin etmək olar. Belə bir təcrübə olubdur.

Yaxud dünən mənimlə söhbət edən adamların biri Hindistandandır, indi Londonda işləyir. Hindistanda da çox adam öz vəsaitlərini xarici banklarda saxladığına görə vaxtilə ölkənin baş naziri belə bir bəyanat vermişdi və hind millətindən olan həmin adam mənə dedi ki, o vaxt xarici ölkələrdən, banklardan Hindistanın banklarına çox böyük məbləğdə vəsait qayıtdı.

Mən bu barədə açıq, məndə olan məlumatları deyirəm və bildirirəm ki, keçən ilin iyun ayında qəbul olunmuş qanuna riayət edilməsinə bütün dövlət orqanları tərəfindən zəmanət verirəm. Ona görə də bildirirəm ki, vətəndaşlarımız qorxmasınlar, çəkinməsinlər, öz vəsaitlərini Azərbaycana gətirsinlər, Azərbaycanın banklarında saxlasınlar, beləliklə sərmayəçiliyin inkişafına, sahibkarlığın inkişafına kömək etsinlər. Kim bunu nə cür edəcək – bu onun öz işidir, bu şəxsi məsələdir. Ancaq hər halda dövlətin bu məsələyə münasibətini mən açıqlayıram və tam aşkar şəkildə deyirəm. Yəni bildirmək istəyirəm ki, sahibkarlığın inkişafına vəsait əldə etmək üçün bu yol da var. Bu yoldan da istifadə etmək lazımdır. Əgər sizin hər birinizdə elə imkanlar varsa, qorxmayın, gətirin öz vəsaitinizi qoyun burada, istifadə eləyin, iş qurun, o işin də nəticəsini görəcəksiniz, ondan da bir neçə qat artıq vəsait götürəcəksiniz. Buna arxayın ola bilərsiniz.

Bundan sonra bizdə özəlləşdirmə daha da sürətlə gedəcəkdir. Biz bu barədə əlavə tədbirlər görmüşük və mülkiyyətin özəlləşdirilməsində xarici ölkə vətəndaşlarının da iştirak etməsinin mümkün olduğunu bəyan etmişik. Mən bizim müəssisələrin xarici şirkətlərin idarəsinə verilməsi haqqında bəyanat ver[235-236]mişəm ki, biz bu yol ilə də gedirik. Nəhayət, Gəncədə gil-torpaq zavodunun Böyük Britaniya şirkətinin idarəsinə verilməsi haqqında müqavilə imzalanmışdı və bir neçə gün bundan öncə mən o müqaviləni sərəncamla təsdiq etdim. Deməli, bu iş başlandı. Bir neçə başqa böyük müəssisəmiz də var, onların xarici şirkətlərin idarəsinə verilməsi haqqında indi danışıqlar aparırıq. Biz bu yoldan da istifadə edəcəyik ki, istehsalı canlandıraq və beləliklə, iqtisadiyyatımızı bazar iqtisadiyyatı yolu ilə aparaq.

Bilirsiniz ki, iyul ayının 18-19-da Nazirlər Kabinetinin geniş iclasında biz qərar qəbul etmişik, mən bir neçə göstəriş, o cümlədən özəlləşdirmənin sürətləndirilməsi və idarəetmə strukturunun təkmilləşdirilməsinin başa çatdırılması haqqında göstərişlər vermişəm. İndi Nazirlər Kabineti bu istiqamətdə işləyir, təkliflərə yaxın günlərdə baxılmalıdır. Ancaq mən bu təklifləri gözləmədən bir neçə gün bundan öncə sərəncam verdim, iki böyük konsern, – keçmişdə nazirlik olmuşdu, biri Məişət Xidməti Nazirliyi idi, sonra onu konsern etmişdilər, o birisi də Yerli Sənaye Nazirliyi idi, sonra onu Ticarət-Sənaye Konserni etmişdilər, – sərəncam verdim, o konsernlərin ikisi də ləğv olundu. Heç bir problem yoxdur. Sərəncamda göstərilib ki, onların müəssisələri Əmlak Komitəsi tərəfindən özəlləşdirilməlidir. Beləliklə, iki dövlət strukturundan xilas olduq. Biz lazım olmayan, bu günün tələblərinə uyğun gəlməyən bu strukturları cəsarətlə ləğv etməliyik, onların tabeliyində olan müəssisələri özəlləşdirməliyik və şübhəsiz ki, bu özəlləşdirilən müəssisələrdən özəl sektor tərəfindən səmərəli istifadə edilməlidir.

Yəni bu barədə sizə deyərək mən bir daha təsdiq etmək istəyirəm ki, özəlləşdirmə sürətlə gedəcəkdir. Siz sahibkarlar bu özəlləşdirmə prosesində iştirak etməlisiniz. Məsələn, mən o gün göstəriş vermişəm ki, Azərbaycanda olan çörək mağazaları sentyabr ayının axırına qədər hamısı özəlləşdirilməlidir. Bakı şəhərində 400-dən artıq çörək mağazası var. Çörəyin keyfiyyətindən şikayət edirlər, çünki çörəyi bişirən də bir şirkətdir, onu gətirib satan da bir şirkətdir. Hesab edirəm ki, [236-237] çörək mağazaları qısa müddətdə, bir ay yarım ərzində özəlləşdirilsə, onda bu, çörəyin həm keyfiyyətinə, həm də satışına təsir edəcəkdir. Bu da əhali üçün əlverişli şərait yaradacaqdır. Bax, mən belə göstərişlər vermişəm, biz belə ciddi addımlar atmışıq və atırıq. Siz də bu proseslərin iştirakçısı olmalısınız. Bu işlərə qoşulun, bu işlərdə iştirak edin və daha güclü sahibkar olun. Mən istəyirəm ki, Azərbaycanda çox böyük, yüksək hörmətə malik sahibkarlar olsun.

"Sahibkar" sözü çox hörmətli bir sözdür. Ancaq həqiqətən hörmətli sahibkar olmaq üçün birinci növbədə gərək yaxşı iş qurasan, ikinci növbədə gərək sahibkar kimi öz nüfuzunu, adını, hörmətini, imicini daim qoruyasan. Mən istəyirəm ki, bizim Azərbaycanın sahibkarları bax, belə sahibkarlar olsunlar. O xırda-xuruş sahibkarlar və əyri yollarla sahibkar olmaq istəyənlər, ya olanlar artıq aradan çıxmalıdırlar. Yenə də deyirəm, indiyədək nə olub-olub, bundan sonra düz yolla getmək lazımdır.

Mən bu gün sizə bəyan edirəm ki, Azərbaycanda sahibkarlığın inkişaf etməsi üçün bundan sonra da lazımi şərait yaradılmasına çalışacağam. Nazirlər Kabineti bu barədə məndən göstərişlər alıb və bu gün bir daha göstəriş verirəm ki, sahibkarlığın inkişaf etdirilməsi üçün bütün imkanlar yaradılsın. Amma siz də çalışın ki, sahibkar kimi bu imkanlardan səmərəli istifadə edəsiniz və Azərbaycanda sahibkarlıq inkişaf etsin.

Hesab edirəm ki, bununla da bu görüşü qurtarmaq olar. Mən sizə və sizin simanızda Azərbaycanın özəl sektoruna, bütün sahibkarlarına gələcək işlərinizdə uğurlar arzulayıram. Bilin ki, Azərbaycan prezidenti sizin himayədarınızdır, sizə daim himayədarlıq edəcəkdir, sizin sağlam prinsiplər əsasında inkişaf etməyinizi daim dəstəkləyəcəkdir. Sağ olun, gələn görüşlərədək. [237-238]

## FRANSANIN AZƏRBAYCANDA YENİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ JAN PYER KİNYUTUN ETİMADNAMƏSİNİN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*17 avqust 1996-cı il*

Azərbaycan dövləti müstəqilliyini əldə edəndən dərhal sonra Fransa Respublikası ölkəmizin dövlət müstəqilliyini tanımışdır və o vaxtdan ölkələrimiz, dövlətlərimiz arasında yaxşı əlaqələr yaranmışdır və indi inkişaf edir. Azərbaycan Fransa Respublikası ilə əlaqələrinə xüsusi əhəmiyyət verir və bu əlaqələrin bütün sahələrdə – həm iqtisadi əməkdaşlıq sahəsində, həm də mədəni, insani əlaqələrin inkişafında gələcəkdə də irəliləməsinə çalışacağıq.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, 1993-cü ilin dekabrında Fransa prezidenti mərhum Mitteranın dəvəti ilə mən ölkənizə səfər etmişdim, Fransa ilə Azərbaycan arasında çox böyük əhəmiyyət kəsb edən bir sıra sənədlər imzalanmışdı. Sonrakı dövrdə əlaqələrimiz daim inkişaf etmişdir. Əlaqələrimizin inkişafında Xəzər dənizinin Azərbaycan sektorunda böyük neft-qaz yatağı olan "Şahdəniz" yatağında müştərək əməkdaşlıq haqqında "Elf akiten" şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında imzalanmış müqavilənin də çox böyük əhəmiyyəti var.

İqtisadiyyatın başqa sahələrində də müştərək iş, görməyə imkanlar var və əmin ola bilərsiniz ki, gələcəkdə biz bunların hamısından səmərəli istifadə etməyə çalışacağıq. Fransa Respublikasının prezidenti cənab Jak Şirak ilə qısa görüşlərim zamanı apardığım söhbətlər və onun mənə göndərdiyi məktubda irəli sürdüyü fikirlər bizim bundan sonra da əməkdaşlıq etməyimiz və əlaqələrimizin inkişafı üçün yaxşı əsas yaradır.

Prezident cənab Jak Şirak məni Fransaya rəsmi səfərə dəvət edibdir. Mən bu dəvətdən istifadə edib Fransaya getməyi qərara almışam və əminəm ki, biz gələcək görüşlərimizdə də [238-239] ölkələrimiz arasında əlaqələrin inkişafı üçün yeni addımlar ata biləcəyik. Ölkənizin xarici işlər nazirinin payızda Azərbaycana səfəri gözlənilir və cənab Jak Şirak ilə telefon danışığımızda da bu səfər zamanı görüləcək işlər barədə eyni fikirdə olmuşuq.

Ona görə də Fransanın Azərbaycanda yeni səfiri kimi sizin görəcəyiniz işlər çoxdur və ümidvar olduğumu bildirmək istəyirəm ki, Fransa ilə Azərbaycan arasında əlaqələrin inkişaf etməsi üçün dəyərli xidmət göstərəcəksiniz. Prezident cənab Jak Şirakla telefon danışığı zamanı dediyim və ona göndərdiyim məktubda bildirdiyim kimi, sizin – Fransanın Azərbaycandakı səfirinin burada səmərəli işləməsi üçün bütün şəraitin yaradılmasını təmin etməyə çalışacağıq. Əmin ola bilərsiniz ki, Azərbaycanda bütün cəmiyyət, insanlar tərəfindən daim xoş münasibətlə rastlaşacaqsınız. Bu, Azərbaycan xalqının fransız xalqına olan dərin hörmət və ehtiram münasibətləridir. Şərəfli vəzifə münasibətilə sizi bir daha təbrik edir və işlərinizdə müvəffəqiyyətlər arzulayıram. [239-240]

## MİSİRİN AZƏRBAYCANDA YENİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ HƏSƏN MƏHƏMMƏD ƏL-İNANİNİN ETİMADNAMƏSİNİN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*17 avqust 1996-cı il*

Misir Ərəb Respublikası ilə Azərbaycan Respublikası arasında, xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələri mövcuddur. Bunlar bizim tarixi ənənələrimizə, eyni zamanda birgə islami dəyərlərə malik olmağımıza əsaslanır. Bu əlaqələrin yaranmasında Misir Ərəb Respublikasının prezidenti, əziz dostum, hörmətli cənab Hüsni Mübarəkin xüsusi rolu var. Cənab prezident Hüsni Mübarək Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edən kimi onun dünya miqyasında müstəqil dövlət kimi tanınması haqqında qərar qəbul etmiş, bəyanat vermişdir və o vaxtdan indiyədək Dünya Birliyində Azərbaycanın mövqelərinin müdafiəsi üçün çox böyük səylər göstərir.

Cənab Hüsni Mübarək ilə Qahirədə, Mərakeşdə, Kasablankada, Parisdə görüşlərim zamanı apardığım söhbətlərdə, danışıqlarda ölkələrimiz, xalqlarımız arasında olan əlaqələrin daha da inkişaf etdirilməsi barədə eyni fikirdə olduğumuzu bildirmişik və lazımi addımlar atılmasının zəruriliyini qeyd etmişik. Biz bundan sonra da ölkələrimiz arasında əlaqələrin inkişafı üçün öz tərəfimizdən bütün səyləri göstərəcəyik. Ümidvar olduğumu bildirmək istəyirəm ki, ölkənizin səfiri kimi siz bu əlaqələrin inkişaf etməsi üçün böyük xidmətlər göstərəcəksiniz.

Mən cənab prezident Hüsni Mübarəki Azərbaycana dəvət etmişəm. Eyni zamanda mənim Misirə səfərim barədə onun dəvətini almışam. Güman edirəm ki, vaxt tapıb bu dəvətləri həyata keçirəcəyik və bu da xalqlarımız, ölkələrimiz arasında əlaqələrin inkişafına kömək göstərəcəkdir.

Şübhə yoxdur ki, siz Misir Ərəb Respublikasının Azərbaycanda səfiri kimi ölkəmizin bütün dairələrində, ictimaiyyət, [240-241] xalq arasında çox müsbət münasibətlə rastlaşacaqsınız və səfir vəzifənizi yerinə yetirmək üçün dövlət orqanları lazımi şərait yaradacaqlar. Cənab Hüsni Mübarəkdən mənə çatdırdığınız salamları və xoş arzuları məmnuniyyətlə qəbul edir və rica edirəm ki, mənim salamımı, hörmət və ehtiramımı, ən xoş arzularımı əziz dostum, prezident Hüsni Mübarəkə çatdırasınız. Sizi bir daha təbrik edir və bu şərəfli işinizdə böyük müvəffəqiyyətlər arzulayıram. [241-242]

## "DƏDƏ QORQUD" QAZMA QURĞUSUNUN FƏALİYYƏTƏ BAŞLAMASINA HƏSR OLUNMUŞ MİTİNQDƏ NİTQ

*24 avqust 1996-cı il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar, əziz neftçilər!
Hörmətli dostlar!

Sizi, Azərbaycanın bütün vətəndaşlarını, xalqımızı bugünkü əlamətdar hadisə – "Dədə Qorqud" qazma qurğusunun işə başlaması münasibətilə ürəkdən təbrik edirəm. Bu gün biz tarixi hadisənin şahidiyik. 1994-cü ilin sentyabrında Azərbaycan Dövlət Neft Şirkəti ilə bir çox xarici ölkələrin böyük neft şirkətləri arasında imzalanmış müqavilənin – "Əsrin müqaviləsi"nin əməli surətdə həyata keçirilməsinin yeni və çox mühüm bir mərhələsini qeyd edirik. Bu gün "Dədə Qorqud" adı verilmiş Yarımdalma qazma qurğusu müqavilənin əsasında qazma, gələcəkdə isə Azərbaycanda suyun çox böyük dərinliyində və yerin dərinliyində olan yataqlardan neft çıxarılması işinin başlanmasını təmin edəcəkdir.

Gördüyünüz kimi, "Dədə Qorqud" qazma qurğusu nəhəng, həddindən artıq mürəkkəb və çox müasir texnologiyaya malik olan, Azərbaycan neft sənayesində görkəmli yer tutan böyük bir istehsal müəssisəsidir.

Azərbaycan neftçiləri Xəzər dənizindən neft çıxarmaqla, hasil etməklə 1949-cu ildən məşğuldurlar. Onlar dəniz neftçiləri kimi, dünyada dənizin dərinliyindən neft çıxarmaq sahəsində yüksək nailiyyətlər əldə etmiş neftçilər kimi böyük şöhrət qazanmışdır. Azərbaycan neftçilərinin, alimlərinin, geoloqlarının, mühəndislərinin, texniklərinin, mütəxəssislərinin 1949-cu ildən indiyədək gördükləri iş, əldə etdikləri nailiyyətlər Azərbaycan xalqına xidmət etmiş, respublikamızın sərvətlərini zənginləşdirmiş və ölkəmizin neftçilərinə, xalqımıza dünyada böyük şöhrət gətirmişdir.

Azərbaycanın dəniz neftçilərinin fəaliyyəti tarixinə nəzər salsanız görəcəksiniz ki, onlar 1949-cu ildən başlayaraq ilbəil öz təcrübələrini artırmış, ilbəil sahildən dənizin ortalarına get[242-243]mişlər. Əvvəl suyun dərinliyi 20-30 metr olan yerlərindən neft çıxarılırdısa, 1970-ci illərdə artıq suyun 150 metr dərinliyindən neft çıxarmağa nail ola bilmişlər. Azərbaycan neftçilərinin keçmiş illərdə əldə etdiyi nailiyyətlər, iş təcrübəsi, elmi ixtiraları dünyanın bir çox ölkələrində tətbiq edilmiş, onlardan istifadə olunmuşdur. Beləliklə, Azərbaycan neftçiləri, alimləri dənizin dərinliyindən neft hasil etmək sahəsində dünya təcrübəsinə öz böyük töhfələrini vermişlər. Məhz Azərbaycan neftçilərinin gərgin fəaliyyəti, elmi axtarışları nəticəsində Xəzər dənizində böyük neft yataqları kəşf edilmiş, onların neft potensialı ilbəil öyrənilmiş, dəqiqləşdirilmişdir. İndi biz onlardan geniş miqyasda istifadə etmək imkanı əldə etmişik.

1994-cü ilin sentyabrında imzalanmış böyük neft müqaviləsində Xəzər dənizinin Azərbaycan sektorunda olan "Azəri", "Çıraq" yataqlarından və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən 30 il müddətində neft hasil edilməsi nəzərdə tutulubdur. Xatırlatmaq istəyirəm ki, bu yataqlar Azərbaycan neftçiləri, geoloqları tərəfindən 1970-ci illərdə kəşf olunmuşdur. Neft potensialı müəyyən edilmiş və həmin neft yataqları bundan sonra daha da dərindən öyrənilmiş və Azərbaycan xalqının böyük sərvətinə çevrilmişdir. Məhz bunlar mövcud olduğuna görə də 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanmışdır.

İndi biz ətrafına toplaşdığımız və bu gün təntənə ilə yeni həyat verəcəyimiz qazma qurğusu da məhz 1970-ci illərdə görülən işlərin nəticəsində 1981-ci ildə fəaliyyətə başlamış, Xəzər dənizinin bir çox yerlərində qazma işi aparmış, neft çıxarmış, Azərbaycanda neft hasilatını artırmışdır.

Bu gün biz Azərbaycanın, Bakının gözəl bir guşəsində toplaşmışıq. Xəzər dənizinin sahilindəki bu gözəl mənzərə Azərbaycanın təbiətinin nə qədər gözəl olduğunu əyani surətdə nümayiş etdirir. Bu gün bu mərasimə gələn qonaqlar və Azərbaycan Respublikasının dövlət orqanlarının, neft sənayesinin nümayəndələri görürlər ki, bu yerlər cəmi 15-20 il içərisində nə qədər dəyişilibdir. Burada Azərbaycanın sənayesini, neft sənayesini nümayiş etdirən nəhəng bir şəhərcik yaranıbdır.

Respublikamızın neft sənayesini inkişaf etdirmək, Xəzərin Azərbaycan sektorundakı neft yataqlarından səmərəli istifadə etmək üçün 1970-ci illərdə burada, durduğumuz bu yerdə dərin özüllər zavodunun, yəni belə böyük, nəhəng qurğular qurub yaratmaq üçün iri bir zavodun tikilməsi haqqında qərar [243-244] qəbul etdik. Belə bir zavodun tikilməsi üçün biz çox axtarışlar apardıq, çox layihələrə baxdıq. Nəhayət, 70-ci illərin sonunda Amerika Birləşmiş Ştatlarının bir şirkətindən bu zavodun texnologiyasını, qurğularını almaq üçün 400 milyon ABŞ dolları məbləğində vəsaitdən istifadə edərək məhz burada, Xəzərin sahilində belə bir zavodu tikməyə başladıq. İndi biz bu nəhəng zavodun binalarını, burada yaranmış istehsal sahələrini böyük iftixar hissi ilə görürük.

Mən bu gün buraya gələrkən, Xəzərin sahilində, vaxtilə tamamilə boş olan bir yerdə böyük zavod korpuslarını və nəhəng qurğuları, sahili və bu sahənin ətrafında artıq yüksəklərə qalxmış yaşıl ağacları görüb bir daha iftixar hissi keçirdim. Mən bu gün çox xoşbəxtəm, çox sevinirəm. Xoşbəxtəm, sevinirəm ona görə ki,

bütün burada gördüklərimizin əsasını qoyanlardan biriyəm, onun təməlini qoyanlardan biriyəm, onun təşəbbüskarıyam. Vaxtilə bu işlərin görülməsi üçün illərlə zəhmət çəkmişəm, illərlə fəaliyyət göstərmişəm, bunların reallığa çevrilməsi üçün illərlə çox çətin yollardan keçmişəm. Azərbaycan neftçiləri ilə, öz həmkarlarımla birlikdə xalqımız, millətimiz üçün, respublikamızın böyük sənayesini qurmaq üçün, neft sənayesini gələcəkdə inkişaf etdirmək üçün bunları yaratmağa çalışmışam. Nəhayət, bunlar yaranıb. Mən bunları görməkdən, bunları seyr etməkdən özümü həddindən artıq xoşbəxt hiss edirəm.

Beləliklə, 1994-cü ilin sentyabrında böyük neft müqaviləsini imzalayarkən biz böyük təmələ əsaslanırdıq. Yəni biz bu müqaviləni boş yerdə imzalamamışdıq. Bizim əlimizdə böyük sərvətlər var. Həm Xəzər dənizində olan böyük neft yataqları, həm burada yaranmış bu böyük sənaye kompleksi, həm də bu gün üzərində durduğumuz, ətrafına toplaşdığımız bu qazma qurğusu Azərbaycan xalqının sərvətidir. Məhz bu sərvətlərimizi hiss edərək, bu sərvətlərimizin sahibi olaraq biz xarici ölkələrin neft şirkətləri ilə danışığa getmişik və onlarla neft müqaviləsi imzalamışıq. Bu müqaviləni imzalayarkən həmişə onu dərk etmişik ki, bizim sərvətimiz var, bu sərvətimizin sahibiyik və bu sərvətimizdən xarici ölkələrin neft şirkətləri ilə müştərək istifadə etmək üçün bu addımları atmağa bizim haqqımız var.

Xarici ölkələrin neft şirkətləri də Azərbaycan ilə böyük neft müqaviləsini bağlamaq istəyərkən və bu müqaviləni imzalayarkən çox yaxşı bilirdilər ki, Azərbaycanın böyük imkanları var. Əgər onlar xalqımızın, Azərbaycan Respublikası[244-245]nın bu imkanlarının mövcud olduğunu dərk etməsəydilər, tək bir yataqlara görə gəlib bizimlə bu böyük müqaviləni bağlamazdılar, yaxud buna çox ehtiyat edərdilər. Məhz Azərbaycanın belə təbii sərvətləri olduğuna görə, respublikamızın bu böyüklükdə sənaye potensialı, ölkəmizin yüksək səviyyəli mütəxəssisləri, neftçiləri olduğuna görə və burada sərbəst şərait yarandığına görə xarici ölkələrin neft şirkətləri Azərbaycan ilə bu böyük və tarixi əhəmiyyətə malik müqaviləni imzaladılar.

Hörmətli dostlar, bu gün bu cəsarətli addımları atmaq üçün görürsünüz, keçmiş illərdə nə qədər böyük işlər aparılıbdır. Eyni zamanda, o işlər həmin vaxtlarda görülməsəydi biz bu gün bu addımları da ata bilməzdik, şübhəsiz ki, böyük işləri də başlaya bilməzdik. Bu da onu göstərir ki, 1970-ci illərdə görülən işlər, yaranan bu böyük iqtisadi, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər, yaranmış potensial Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Əgər onlar olmasaydı biz bu gün dövlət müstəqilliyini əlimizdə bu qədər möhkəm saxlaya bilməzdik. Əgər onlar olmasaydı biz bu gün dövlət müstəqilliyimizə nail ola bilməzdik. Demək, o illərdə görülən işlər həmin bu illər üçün, Azərbaycanın müstəqil yaşaması üçün yaranan əsasdır. Bu gün sizə bəyan etmək istəyirəm ki, o illərdə bu işləri görərkən mən məhz Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünürdüm. O işləri görərkən mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır.

Məmnuniyyət hissi ilə qeyd edirəm ki, konsorsiumun yaratdığı əməliyyat şirkəti qəbul olunmuş proqramı ardıcıl surətdə həyata keçirir. Müqavilə yaşayır, öz bəhrələrini verir və əməli surətdə yerinə yetirilir. Bugünkü gün, bu mərasim müqaviləyə görə opponentlərimizə, xarici ölkələrdə və respublikamızın daxilində bizə müxalif olan qüvvələrə, hesab edirəm ki, çox kəsərli cavabdır. Məlumdur ki, bu müqaviləni imzalamaq üçün biz nə qədər çətin yollardan keçdik. Məlumdur ki, bu müqaviləni imzalamaq üçün bizə çox maneçiliklər oldu. Müqavilə imzalanandan sonra biz cürbəcür təzyiqlər aldıq. Bəyanatlar verildi ki, bu müqavilənin işləməsinə yol verilməyəcəkdir. Ayrı-ayrı qüvvələr müxtəlif ölkələrdə indiyədək də bu müqavilənin həyata keçirilməsinə mane olurlar. Məlumdur ki, respublikamızın daxilində də bəziləri – o bədxah insanlar, qüvvələr bu müqavilənin kağız üzərində qalacağı haqqında sözlər deyirdilər və çox çalışırdılar ki, onların fikirləri doğru [245-246] olsun. Bu gün onların hamısına cavab verilir. Müqavilə işləyir, öz proqramını yerinə yetirir. Bir daha deyirəm, müxalif olan bütün qüvvələrin hamısına bugünkü mərasim çox əyani cavab verir.

Konsorsiuma daxil olan şirkətlərin nümayəndələri Beynəlxalq Əməliyyat Şirkətində təmsil olunublar. Hesab edirəm ki, onlar cənab Terri Adamsın başçılığı ilə çox işlər görüblər və onların qarşısında çox böyük vəzifələr durubdur. Azərbaycan Dövlət Neft Şirkəti Beynəlxalq Əməliyyatlar Şirkəti ilə birlikdə çox ahəngdar çalışır. Onların hamısının birlikdə gördükləri işlərin nəticəsində biz bu gün bu mərasimə toplaşmışıq. Əmin olduğumu bildirmək istəyirəm ki, nəzərdə tutulmuş proqram bundan sonra da vaxtında, ardıcıl surətdə həyata keçiriləcəkdir.

"Dədə Qorqud" qazma qurğusu bu gün işə başlayır. Biz bu gün onun ayrı-ayrı bölmələri, cihazları ilə tanış olduq və ondan sonra buraya sizinlə görüşə gəlmişik. Tanış olduğumuz bu qurğunun müasir vəziyyəti onu göstərir ki, əvvəlki qurğunun üzərində çox işlər görülübdür. Doğrudan da qurğu müasir texnologiya prinsiplərinə əsasən modernləşdirilibdir, müasir səviyyəyə çatdırılıbdır. Verilən məlumatdan mən belə görürəm ki, bu qurğu bu gündən sonra sahili tərk edib, sahildən uzaq neft yataqlarımıza yola düşəcək və nəzərdə tutulmuş proqram əsasında orada qazma işlərinə başlayacaqdır.

Bu qurğunu modernləşdirib "Dədə Qorqud" adına layiq səviyyəyə çatdırdıqlarına görə konsorsiumun Beynəlxalq Əməliyyat Şirkətinə, onun modernləşdirilməsi ilə məşğul olan "Sante-Fe" şirkətinə və Azərbaycan Dövlət Neft Şirkətinə, bu qurğunun müasir vəziyyətə gətirilməsi üçün çalışmış bütün mütəxəssislərə, fəhlələrə və bu sahədə fəaliyyət göstərən insanların hamısına mən səmimi təşəkkürümü bildirirəm.

"Sante-Fe" şirkətinə və onun başçısına xüsusi təşəkkür edirəm. Onlar çox işlər görüblər. Bu işin bir nəticəsi də ondan ibarətdir ki, burada xarici ölkələrdən dəvət olunmuş mütəxəssislərlə yanaşı, yerli, azərbaycanlı mütəxəssislər də çalışıb, hazırlaşıblar və burada birgə işləyirlər. Mən bu gün bu qurğunu gəzərkən, seyr edərkən, onun ayrı-ayrı hissələrinə baxarkən hər yerdə iki nəfəri gördüm. Onlardan biri xarici ölkədən gəlmiş mütəxəssisdir, şübhəsiz ki, o, xarici dildə danışır; o biri isə bizim yerli mütəxəssisdir, Azərbaycan dilində danışır. Bunun özü də gözəl bir haldır. [246-247]

Bu qurğudakı işlər bir də onu göstərir ki, Azərbaycan Respublikasının mütəxəssisləri – neftçiləri, mühəndisləri, fəhlələri xarici neft şirkətlərinin mütəxəssisləri ilə yanbayan, bərabər işləməyə qadirdirlər və müştərək iş görməyə hazırdırlar. Bizim bundan sonra da görəcəyimiz müştərək işlərimiz çox müvəffəqiyyətli olacaqdır. Müsbət hal bir də ondan ibarətdir ki, bu müştərək işlərin nəticəsində xaricdən gələn mütəxəssislər Azərbaycan dilini, dövlət dilimizi öyrəniblər, mənimsəyiblər.

Cənab Terri Adamsın tərcüməçisi bir il bundan əvvəl tərcümə zamanı ancaq ingilis dilindən rus dilinə tərcümə edirdi və rus dilində danışırdı. Amma bu gün o, Azərbaycan dilində danışır və cənab Terri Adamsın nitqini Azərbaycan dilinə çox gözəl tərcümə edib bizə çatdırdı.

"Sante-Fe" şirkətinin başçısının da öz çıxışının ilk cümlələrini Azərbaycan dilində söyləməsi məni çox sevindirdi. Bunlar hamısı onu göstərir ki, dövlət dilimiz, ana dilimiz – Azərbaycan dili ölkəmizdə hakim dildir. Nəinki azərbaycanlılar, respublikamıza xaricdən gələn qonaqlarımız, dostlarımız, həmkarlarımız da bu dilə hörmət edirlər, bu dili öyrənmək, bu dildə danışmaq istəyirlər. Bu, çox sevindirici haldır. Bu, eyni zamanda, müstəqil respublikamızın əsas atributlarından biri olan Azərbaycan dilinin inkişaf etməsini göstərir.

Bu qazma qurğusuna "Dədə Qorqud" adı verildi. Bu adın verilməsi haqqında da biz müzakirə aparmışdıq. Bu mərasimə hazırlaşarkən cənab Terri Adams və Natiq Əliyev bu tədbir və görülən işlər haqqında mənə ətraflı məruzə etdilər. Biz bir çox məsələləri müzakirə etdik. Xüsusən, bundan sonra görüləcək işlər haqqında, nəhayət, bu qurğunun adı haqqında da geniş müzakirə apardıq. Bilirsiniz ki, bu qurğunun adı indiyədək "Kaspmorneft" olubdur. Şübhəsiz ki, bu da bizim bugünkü həyatımıza uyğun olmayan bir addır. Eyni zamanda, bu qurğu yenidən doğulubdur. Ona görə də onun yeni adı olmalıdır. Deyə bilərəm ki, mənə Azərbaycan xalqının tarixinə, ənənələrinə və ayrı-ayrı tarixi yerlərə məxsus 10-a qədər cürbəcür adlar təqdim olundu. Təqdim olunan adların hamısı doğrudan da dəyərli idi. Ancaq mən bu qurğuya "Dədə Qorqud" adı verilməsi barədə qərar qəbul etdim. Hesab edirəm ki, hər bir azərbaycanlı üçün bu, müqəddəs və əziz ad, bu qurğu üçün ən dəyərli, görkəmli addır.

"Dədə Qorqud" qurğusuna böyük uğurlu yol arzulayıram!

"Dədə Qorqud" qurğusunun əmək kollektivinə, bu qurğuda [247-248] çalışanlara – Azərbaycan vətəndaşlarına, xaricdən gəlmiş mütəxəssislərə müştərək, müvəffəqiyyətli iş arzu edirəm!

Bu qurğuda çalışanların hamısına cansağlığı və yeni-yeni uğurlar arzulayıram!

Yaşasın "Dədə Qorqud" qurğusu!

"Dədə Qorqud" qurğusunun açılması, işə başlaması münasibətilə sizi təbrik edirəm.

## "DƏDƏ QORQUD" QAZMA QURĞUSU İLƏ TANIŞLIQDAN SONRA FƏXRİ QONAQLAR KİTABINA YAZILMIŞ ÜRƏK SÖZLƏRİ:

*"Bu gün Azərbaycan neft sənayesinin həyatında əlamətdar hadisə baş verir. "Əsrin müqaviləsi"nin həyata keçirilməsinin nəticəsi olaraq Birinci Yarımdalma qazma qurğusu fəaliyyətə başlayır. Bu qurğuya bu gün xalqımız üçün əziz və müqəddəs olan "Dədə Qorqud" adı verilir. Qurğuya uzun ömür, uğurlu yol arzulayıram. Bu qurğunu bərpa edib müasir səviyyəyə çatdıranlara təşəkkür edirəm. Böyük neft müqaviləsini icra edən beynəlxalq konsorsiuma müvəffəqiyyətlər arzulayıram. Təbrik edirəm.*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*24 avqust 1996-cı il* [248-249]

## AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN (ABƏŞ) OFİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*24 avqust 1996-cı il*

Hörmətli cənab Terri Adams, hörmətli xanımlar, cənablar!

Bu gün biz səhər tezdən Azərbaycan Respublikasının xarici ölkələrlə neft hasilatı sahəsində əməkdaşlığı üçün yaranmış konsorsium Beynəlxalq Əməliyyat Şirkəti ilə bərabər, onların indiyə qədər gördükləri işlərlə tanış oluruq və bu münasibətlə də buraya toplaşmışıq.

1994-cü ildə imzalanmış böyük neft müqaviləsinin həyata keçirilməsinin əyani nəticələrindən biri bu gün "Dədə Qorqud" adı daşıyan qazma qurğusunun işə başlaması oldu. Beynəlxalq Əməliyyat Şirkəti, konsorsiumun nümayəndələri imzalanmış müqaviləni həyata keçirmək üçün, şübhəsiz ki, layiqli iş yerinə də malik olmalıdırlar. Ona görə də Azərbaycanın gözəl binalarından biri, indi önündə toplaşdığımız bu bina konsorsiumun Beynəlxalq Əməliyyat Şirkətinin sərəncamına verilibdir. Cənab Terri Adams mənə bildirdi ki, onlar bu binanı təmir ediblər, modernləşdiriblər, dediyi kimi, Azərbaycan rəssamlarının əsərləri ilə bəzəyiblər və bu gün bizi binanın açılışına dəvət ediblər. Bu binanın adını "II villa petrolea" qoyublar və mənə verilən izahatdan belə başa düşdüm ki, "II villa petrolea" vaxtilə Nobel qardaşlarının Azərbaycanda neft sənayesi ilə məşğul olduqları zaman keçmişdə Qaraşəhər adlanan yerdə özləri üçün yaratdıqları ofisin adı olubdur.

Azərbaycanın neft sənayesində Nobel qardaşlarının gördükləri işlər ölkəmizin tarixinə həkk olubdur və bunu biz bu gün də xatırlayırıq. O işlər XIX əsrin son dövründə başlanmışdısa, indi müstəqil Azərbaycan Respublikasının dünyanın böyük neft şirkətləri ilə əməkdaşlığı XX əsrin sonunda başlayıbdır. Şübhəsiz ki, bugünkü işlər bir əsr bundan öncə görülən işlərdən bütün xüsusiyyətlərinə görə qat-qat fərqli olmalıdır.

Vaxtilə Nobel qardaşlarının yaratdıqları ofis keçmiş zamanlarda Qaraşəhər adlanan bir yerdədir. O yerə Bakıda ona [249-250] görə "Qaraşəhər" deyiblər ki, orada neft sənayesi ilə əlaqədar yaranmış neft emalı zavodları havaya o qədər his buraxırdı ki, şəhərin həmin hissəsi – ərazi də, divarlar da, hər yer tamamilə qaralmışdı.

Ancaq bu əsrin 70-ci illərində apardığımız böyük işlər nəticəsində Qaraşəhər tamamilə təmizləndi. Bakının Qaraşəhərində yerləşən köhnə, çox geridə qalmış texnologiyaya malik olan zavodlar dağıdıldı, aradan götürüldü və onların yerində müasir tələblərə uyğun yeni bir neftayırma zavodu tikildi. Xatırlayıram, 1976-cı ildə Azərbaycanda ümumiyyətlə sənayenin, o cümlədən neft sənayesinin inkişafı, neft emalı sənayesinin tamamilə yenidən qurulması üçün proqram irəli sürərkən mən bəyan etdim ki, Qaraşəhərdə olan, bütün şəhəri, ətraf mühiti, şəhərin ekologiyasını çirkləndirən qurğuların hamısı dağılacaq, "Qaraşəhər" sözü tamamilə aradan götürüləcək. Qaraşəhər adlanan yerdə ağaclar, güllər-çiçəklər əkiləcək, yeni binalar tikiləcək, ora şəhərimizin gözəl bir guşəsinə çevriləcəkdir. Biz buna nail olduq. İndi hamı görür ki, hazırda ora şəhərin ən gözəl hissələrindən biridir və Bakıda "Qaraşəhər" sözü işlənmir, artıq aradan götürülübdür. Orada geniş prospekt salınıbdır, adına da Fəhlə prospekti deyirlər, gözəl binalar tikilibdir. İnsanlar orada və ora ilə bağlı olan, Əhmədli adlandırılan yeni yaranmış qəsəbədə çox gözəl evlərdə yaşayırlar. Mən bunları cənab Terri Adams Nobel qardaşlarının villası haqqında danışarkən Qaraşəhərin adını çəkdiyinə görə xatirimə saldım. İndi Qaraşəhər yoxdur.

Bu gün toplaşdığımız bina isə vaxtilə neftçilər üçün tikilmişdir. Mən bu binada dəfələrlə olmuşam. Bura keçmişdə gözəl bina olub, neftçilərin mədəniyyət sarayı idi. Təəssüflər olsun ki, bu gözəl bina Azərbaycanda özbaşınalıq hökm sürdüyü zaman – 80-ci illərin axırı, 90-cı illərin əvvəlində respublikada hakimiyyətin ölkənin bu cür sərvətləri ilə nəinki maraqlanmadığı, hətta bunlara çox mənfi münasibət göstərdiyi bir zamanda – tamamilə sıradan çıxmış, dağıdılmış, bərbad vəziyyətə salınmışdı.

Bu binanı Beynəlxalq Əməliyyat Şirkətinə, konsorsiuma verərkən mən əmin idim ki, Beynəlxalq Əməliyyat Şirkəti buranı müasir tələblərə uyğun vəziyyətə salacaq, səmərəli istifadə edəcəkdir. Bizim müqavilənin 30 il müddəti var. Şübhəsiz ki, bu bina 30 il müddətində istifadə olunacaqdır. Mövcud binanı təmin etmək, gözəlləşdirmək, modernləşdirmək, şübhəsiz, yaxşı [250-251] haldır. Amma yeni, müasir tipli bir bina tikmək və tarixə yaddaş qoymaq bundan da yaxşı olardı. Əgər keçən əsrdə Nobel qardaşları Bakıda gözəl binalar tikiblərsə, hesab edirəm ki, Beynəlxalq Əməliyyat Şirkəti, əsrin müqaviləsi ilə məşğul olan beynəlxalq konsorsium da Azərbaycanda öz işinin çox izlərini qoyacaq, o cümlədən yeni, gözəl binalar tikiləcək, özləri də istifadə edəcəklər və Azərbaycan xalqına da yadigar qoyacaqlar. Şübhə etmirəm ki, biz belə bir yeni binanın açılışında da bərabər iştirak edəcəyik.

İndi isə Beynəlxalq Əməliyyat Şirkətinin, cənab Terri Adamsın yeni ofisinin açılması münasibətilə sizi təbrik edir və bu gün bu mərasimdə iştirak etməkdən məmnun olduğumu bildirmək istəyirəm. Beynəlxalq Əməliyyat Şirkətinə bu binada rahat yerləşib səmərəli işləməyi arzulayıram. Sağ olun.

**ABƏŞ-in OFİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ HEYKƏLTƏRAŞ YAQUB İMRANOVUN HAZIRLADIĞI BÜSTƏ BAXDIQDAN SONRA ÇIXIŞ**

Mən bu gün bir neçə dəfə nitq söyləmişəm, ona görə də hesab edirdim ki, daha danışmayacağam. Ancaq mənim üçün bu gözlənilməz hadisə bir neçə kəlmə deməyə məcbur etdi.

Cənab Terri Adamsın mənə göstərdiyi diqqət və hörmətə görə təşəkkür edirəm.

Azərbaycan heykəltəraşı Yaqub İmranov Leninqradda işlədiyi zaman, mən Moskvada olarkən bir neçə dəfə mənə müraciət etmişdi. Mən ona qayğı göstərmiş, kömək etmişdim. Ancaq o vaxtdan onu unutmuşdum, çünki heç bir əlaqəmiz olmayıbdır. Ona görə də bu gün təqdim olunan hədiyyə mənim üçün gözlənilməz bir şeydir. Ola bilər bu, mənim dostum, rəssam Tahir Salahovun vasitəsilə təşkil olunmuş bir şeydir. Mən təşəkkür edirəm.

Ancaq daxili xasiyyətimə görə özümün surətimi daşda, mərmərdə, yaxud heç bir şeydə görmək istəmirəm. Hesab edi[251-252]rəm, mən hələ ki, sağam, mənim özümə baxmaq lazımdır. Mən həyatdan gedəndən sonra, – bu, şübhəsiz, təbiidir, – əgər xatirəmə qayğı göstərilsə, kim istəsə onu daşa, tunca, mərmərə çevirə bilər.

Ona görə də, bu fürsətdən istifadə edib, təkcə sizin üçün yox, respublikamızın bütün vətəndaşları üçün demək istəyirəm ki, son zamanlarda bəzi yerlərdə mənim büstümün yaradılması halları barədə xəbərlər mənə gəlib çatıb. Mən bunun tamamilə əleyhinəyəm. Mənə həqiqi hörmət edən insanlardan xahiş edirəm ki, belə şeylər etməsinlər. Bu, mənim hissiyyatıma toxunur. Hər adamın bir xasiyyəti var, mənim mənəviyyatım, xasiyyətim bunu qəbul etmir. Bəzi belə xəbərlər mənə gəlib çatdığına görə bugünkü fürsətdən istifadə edib bunu bəyan edirəm.

Mənə çox böyük hörməti olan, Yeni Azərbaycan Partiyasının Binəqədi rayon təşkilatının başçısı bir neçə ay bundan öncə mənim surətimi əks etdirən büst yaradıb rayonun ərazisində qoymağa cəhd göstərdi. Mən bunun qarşısını aldım və ona da dedim ki, xahiş edirəm, bunu etməyəsiniz.

Mən bunları sizə dedim. O mərmər fiquru nə edəcəksiniz – özünüz bilərsiniz. Mən sadəcə təşəkkür edirəm. Bir daha hamıdan xahiş edirəm ki, mənim haqqımda belə addımlar atılmasın. O fiquru aparıb gizlətmək lazımdır. Gələcəkdə, mən olmayan zaman üzə çıxarmaq olar. Təşəkkür edirəm. [252-253]

## DÜNYA ENERGETİKA ŞƏHƏRLƏRİ NÜMAYƏNDƏLƏRİNİN GÖRÜŞÜ İŞTİRAKÇILARINA

Hörmətli görüş iştirakçıları!

Sizi, dünya energetika şəhərlərinin görüşü iştirakçılarını səmimi qəlbdən salamlayıram.

Energetikanın əsasmı təşkil edən neft və qaz bizim diyarda qədim zamanlardan hasil olunur və ötən əsrdən Azərbaycan dünyanın məşhur neft ölkəsi kimi tanınmışdır. Təsadüfi deyil ki, hələ XIX əsrin axırı – XX əsrin əvvəllərində dünyanın inkişaf etmiş ölkələri Bakıya böyük maraq göstərmiş və neft sənayesinin inkişafında hərtərəfli iştirak etmişlər.

Buna baxmayaraq, Bakı şəhərinin dünya energetika şəhərlərinin iş təcrübəsindən səmərəli istifadə etməyə, onu öyrənməyə və tətbiq etməyə ehtiyacı vardır.

Müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərinin dünya energetika şəhərlərindən olan Aberdin, Hyuston, Kalqari, Pert, Stavanger və Vunq-Tau ilə əməkdaşlığı günün tələbidir.

Mən bu ilin aprel ayında Stavangerdə səfərdə olan zaman bunun bir daha şahidi oldum. Əminəm ki, dünya energetika şəhərlərinin Bakı ilə neft və qaz istehsalı sahəsində əməkdaşlığı öz bəhrəsini verəcək, xalqlarımızın rifahına xidmət edəcəkdir.

Hörmətli görüş iştirakçıları!

Sizi və sizin şəxsinizdə təmsil etdiyiniz dünya energetika şəhərlərinin işgüzar adamlarını bir daha salamlayır, sizə cansağlığı, xoşbəxtlik və xeyirxah işlərinizdə böyük uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 avqust 1996-cı il* [253-254]

**RUSİYA FEDERASİYASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ BORİS
NİKOLAYEVİÇ YELTSİN
CƏNABLARINA**

Hörmətli Boris Nikolayeviç!

Şpitsbergen adasında baş vermiş və çoxlu insanın tələfatına səbəb olmuş təyyarə qəzası ilə əlaqədar Sizə və həlak olanların qohum-əqrəbasına dərin hüznlə başsağlığı verirəm.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 30 avqust 1996-cı il* [254-255]

**"LUKoyl" AÇIQ SƏHMDAR**
**CƏMİYYƏTİNİN PREZİDENTİ**
**VAHİD YUSİF OĞLU ƏLƏKBƏROV**
**CƏNABLARINA**

Hörmətli Vahid Yusifoviç!

"LUKoyl" şirkətinin yaradılmasının beş illiyi ilə əlaqədar sizi və şirkətin bütün kollektivini yubiley münasibətilə ürəkdən təbrik edirəm.

Öz fəaliyyətinin qısa müddəti ərzində "LUKoyl" şirkəti dünya neft sənayesinin tanınmış liderlərindən biri olmuş, özünü etibarlı və sədaqətli tərəfdaş kimi göstərmişdir.

Xəzər dənizinin Azərbaycan sektorundakı neft ehtiyatlarının birgə işlənməsində şirkətin geniş iştirakı Rusiya-Azərbaycan uğurlu işgüzar əməkdaşlığına nümunəvi misaldır.

Sizə və "LUKoyl" şirkətinin bütün kollektivinə möhkəm cansağlığı, xoşbəxtlik və fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 avqust 1996-cı il* [255-256]

## GÖRKƏMLİ AZƏRBAYCAN ŞAİRİ ƏLİAĞA VAHİDİN ANADAN OLMASININ 100 İLLİK YUBİLEY GECƏSİ BAŞA ÇATDIQDAN SONRA MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Respublika Sarayı*

*30 avqust 1996-cı il*

Axşamınız xeyir olsun, sizi təbrik edirəm. Bu gün siz Vahidin ruhunu şad etdiniz. Belə hesab edirəm ki, bu yubiley gecəsi Vahidə layiqdir. Buradakı çıxışlarınızda siz dediniz ki, keçmişdə Vahidə lazımi qiymət verilməyib. Bəzən belə olur. Tarixdə belə hallar çox olubdur ki, dahi, böyük insanlar zaman, vaxt keçdikdən sonra, uzaq məsafədən daha düzgün qiymətləndiriliblər.

İndiyədək Əliağa Vahidin heç bir yubileyi keçirilməmişdir. Bu il, bu günlər keçirilən tədbirlər, xüsusən bu gecənin – şairin 100 illik yubileyinin bu qədər təntənəli, çox məzmunlu, mənalı olması, mən hesab edirəm, onun indiyədək yubileylərinin keçirilməməsini əvəz etdi.

Mən səmimi deyirəm, bu gün salonda oturarkən hisslərim həddindən çox canlandı, həyəcanlandım. Xalqımızın, millətimizin, ədəbiyyatımızın, şerimizin, incəsənətimizin nə qədər böyük olduğuna görə sizinlə bərabər böyük iftixar hissi keçirdim.

Vahid böyük bir xəzinədir. Bu gün siz bu xəzinənin ola bilər, bir neçə laylarını millətimizə göstərdiniz. Vahidin yaradıcılığı indiyədək həm ədəbi, həm də musiqili şəkildə bu qədər nümayiş etdirilməmişdi. Xalqımız Vahidi həmişə sevibdir. Onun sağlığında da, o, həyatdan gedəndən sonra da Vahidin qəzəllərinə çox gözəl mahnılar bəstələnibdir. Xalqımız Vahidi heç vaxt unutmayıbdır.

Burada siz də dediniz ki, Vahid dövlətlə təmasda olmasa da, xalqla bərabər, xalqın içində olubdur. Xalq onu sevibdir. [256-257] Ancaq Vahidin yaradıcılığı belə yığcam toplu şəklində nümayiş etdirilməmişdi. Mən bilmirəm, bəlkə olub, hər halda mən sizin bu tamaşanıza, çıxışlarınıza baxarkən yaşadığım dövrü bir daha nəzərdən keçirdim. Görkəmli şairin yaradıcılığı xalqımıza, millətimizə heç vaxt belə təqdim olunmamışdı. Bu, həddindən artıq gözəl bir hadisədir.

Biz yubileylər keçiririk, böyük şəxsiyyətlərimizi yad edirik, gecələr keçiririk. Allaha şükürlər olsun ki, bu əmin-amanlıq dövründə, atəşin olmadığı vaxtda belə tədbirlərin keçirilməsi mümkün olmuşdur. Hər bir yubileyin öz yeri var. Şübhəsiz ki, heç biri o birisini nə əvəz edə bilər, nə də onun bərabəri ola bilər. Amma hər birinin öz xüsusiyyəti, gözəlliyi var. Bugünkü Vahid gecəsinin gözəlliyi məni həddindən artıq sevindirdi, həyəcanlandırdı.

Vahidin nə qədər gözəl qəzəlləri, şerləri, sözləri varmış. Yenə də deyirəm, Vahidin əsərlərini hər birimiz oxumuşuq. Birimiz bir dəfə bir qəzəlini oxumuşuq, bir muğamı eşitmişik. Amma bu gün siz bunları bir yerə yığdınız. Həm ifa etdiyiniz musiqi, həm də oxuduğunuz şerlərlə, mən hesab edirəm ki, hamını, o cümlədən də məni həyəcanlandırdınız. Bu yubiley gecəsi televiziya vasitəsilə respublikanın hər yerinə yayıldı. Ola bilər, gələcəkdə bunu təkrar etmək lazımdır. Çünki bu, çox məzmunlu, gözəl gecə oldu.

Bu gün Elçin də burada dedi ki, "Vahid xoşbəxt adam olmayıb, amma çox xoşbəxt sənətkar olub". Ola bilər, onun həyatı doğrudan da ağır keçib. Sizlərdən biriniz də dediniz ki, Vahid həm maddi, həm də mənəvi çətinliklər içərisində yaşayıb. Bəli, belə olubdur. Bu, həqiqətdir. Vahid doğrudan da ağır vəziyyətdə yaşayıb. Mən bunu bilirəm. O, xəstə olduğu son illərdə, vəfatından əvvəl çox ağır bir həyat tərzi keçirib. Bunların hamısı Vahidin qəzəllərində, şerlərində, digər əsərlərində öz əksini tapıbdır.

Mən bu gün sizi dinləyərkən özüm üçün bir nəticə çıxardım ki, Vahid nə qədər çətin həyat tərzi keçiribsə, ağır yaşayıbsa, ona nə qədər diqqətsizlik olubsa, qayğı göstərilməyibsə də, o, çox nikbin adam olubdur. Vahid xalqımızın, respublikamızın xoşbəxt gələcəyini nə qədər gözəl tərənnüm edib, bunları açıqca deyib. Deyəsən sən oxuyurdun ki, ölkəmiz laləzar olacaq, bunu bir də təkrar et. [257-258]

Aktyor Ramiz Əzizbəyli:

Könül, həmişə səadət bizimlə yar olacaq,
Xəzan qəmi itəcəkdir, ölkəmiz bahar olacaq!

Tərənnüm eyləyəcək hər çəməndə bülbüllər,
Bu odlar ölkəsi bir başqa laləzar olacaq!

Şərəflə ömür eyləyir hər kəs öz diyarında,
Sevimli ölkəmiz hər fitnədən kənar olacaq.

Cahan işıqlanacaq sülh ilə, ədalət ilə,
Bizim üfüqdə zəfər nuru payidar olacaq!

Vətən diyarında, Vahid, nə xidmət eylərsək,
Bu şanlı iş gələcək nəslə yadigar olacaq!

**Heydər Əliyev:** Vahid bu sözləri həm bu gün üçün, həm də bu gün yaşayanların gələcəyə nikbin baxmaları üçün deyib. Bunlar nə qədər dəyərli sözlərdir!

Yenə də deyirəm, o qədər ağır vəziyyətdə yaşayan, o qədər çətinliklər keçirmiş, qayğısız, diqqətsiz qalmış insan gərək dünyadan küsəydi, nə gələcək, nə də başqa şey haqqında düşünməyəydi. Amma görün nə qədər gözəl sözlər deyib! Bu sözlər məni həddindən artıq heyran elədi...

Bu tədbir mənə elə təsir bağışlayıb ki, heç getmək istəmirəm. Bu gecə çox gözəl idi. Mən hiss etdim ki, bu gecə hər bir şəxs nə qədər ürəkdən, candan, dərin hissiyyatlarla çıxış edirdi.

Bilirsiniz, biz belə şeyləri həyatımızda çox görmüşük, indi də görürük. Şer, söz deyən, yaxud mahnı oxuyan insan bir var onu ifa edir, bir də var, hiss edirsən ki, bu, onun qəlbindən gəlir, o, bununla yaşayır. Mən hiss etdim ki, bu gün siz hamınız elə bil bu sözlərlə, bu mahnılarla yaşayırdınız. Bu da məni çox sevindirdi. Mən hesab edirəm ki, Vahid çox xoşbəxt adam olub. Xoşbəxt adam olubdur ki, bizə bu cür miras qoyub gedib. [258-259]

İnsanın xoşbəxtliyi nədir? Xoşbəxtlik təkcə o demək deyil ki, o necə yaşayıb. Xoşbəxtlik odur ki, insan 70 yaşında vəfat edib, amma 30 il də ondan sonra yaşayır. Özü də necə yaşayır! O, xalqına necə gözəl xidmət edib. Xalqını bu ağır vəziyyətdən çıxarmaq üçün görün nə qədər gözəl töhfələr, irs qoyub gedib...

Bilirsiniz, bu gün hər biriniz burada öz borcunuzu verdiniz. Bu gün mən heç kəsi bir-birindən seçə bilmərəm. Sizin bu ansamblınız bir-biri ilə o qədər ahəngdar, bağlı idi ki, yenə də deyirəm, mən onun təsiri altındayam.

Mən foyedə rəssam Adil Rüstəmovun xalqımızın sevimli sənətkarına həsr olunmuş qrafika əsərləri sərgisi ilə tanış olanda da dedim, Vahidin əsərləri başdan-başa fəlsəfədir. Bax, bu axşamkı yubiley tədbiri də bir fəlsəfə gecəsidir. Mən bunu belə qəbul etdim. Sizin oxuduğunuz o şerlər, dediyiniz sözlər, səslənən musiqi də fəlsəfədir. Bax, rəssam da bunu belə dərk edib. Onun çəkdiyi əsərlər çox gözəl rəsm əsərləridir və orada da fəlsəfə var. Siz şerləri oxudunuz, rəssam da o rəsmləri çəkib, Vahidin surətini müxtəlif kompozisiyalarda yaradıb, bu rəsmlərin hər birində də Vahidin şerlərindən misralar yazıb. Hətta o özü də Vahidin şerlərini yaxşı oxuyur. Mən sərgiyə baxarkən o, Vahiddən bir neçə şer oxudu. İstəyirsiniz desin.

Rəssam Adil Rüstəmov:

Gülşəndə idim seyrdə bir yar idi, bir mən.
Bir bülbül idi, bir də çəmənzar idi, bir mən.

Bülbül gülə, gül bülbülə min naz eləyirdi,
Bir kəs yox idi, ol güli-bixar idi, bir mən.

...Mən gecədə iştirak edən meyxanaçıların çıxışlarını yüksək qiymətləndirirəm. Meyxana xalqımızın, millətimizin folklorunun çox gözəl janrlarından biridir. Ruslar öz çastuşkalarını sevirlər, meyxana da bizim üçün belə sevimli janrdır. Amma bəzən nədənsə meyxanaya xor baxırdılar. Halbuki meyxana xalqın özünəməxsus bir folklorudur. Ona görə də mən meyxana deyənlərin ustalığını xüsusi qeyd edirəm. Onlar indiyədək belə məclisə çıxmamışdılar. Onlara da Vahid kömək edib və bu gün belə bir gecədə çıxış ediblər. [259-260]

## BAKININ NƏRİMANOV RAYONUNDA YENİ ORTA ÜMUMTƏHSİL MƏKTƏBİNİN AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*2 sentyabr 1996-cı il*

Əziz balalar, hörmətli müəllimlər, Böyükşor qəsəbəsinin hörmətli sakinləri, hörmətli xanımlar və cənablar!

Bu gün respublikamızın həyatında, Bakı şəhərinin həyatında əlamətdar hadisə baş verir. Respublikamızda keçid dövrünü, ağır və çətin iqtisadi problemlər dövrünü yaşadığımız və bir çox iqtisadi çətinliklərlə rastlaşdığımız zaman Bakı şəhərində, Böyükşor qəsəbəsində yeni məktəb binası açılır, istifadəyə verilir və bu gün buraya toplaşmış əziz balalarımız bu məktəbdə təhsil almağa başlayırlar. Bu münasibətlə sizi ürəkdən təbrik edir və məktəbin açılışının təmin olunmasında xidmətlər göstərmiş Bakı şəhər icra hakimiyyətinə, tikinti təşkilatlarına, "Etsun" şirkətinə və bütün bu işlərlə məşğul olanların hamısına təşəkkürümü və minnətdarlığımı bildirirəm.

İndi məktəb açılması əlamətdar hadisə olubdur. Bu da zəmanənin, dövrün xarakterik cəhətidir. Keçən dövrlərdə, 70-ci illərdə – 80-ci illərin əvvəllərində Azərbaycanda ildə 100 məktəb binası tikilib istifadəyə verilirdi. Bu da tamamilə adi hal idi. Biz balalarımızı, uşaqları təhsilə cəlb etmək üçün hər il yeni məktəb binaları tikirdik, yaradırdıq, istifadəyə verirdik. Bu, bizim fəaliyyətimizin mərkəzi, əsas məqsədlərindən biri idi və buna nail olurduq. Məhz buna görə də indi Azərbaycanda ölkəmizin gənclərini, yeniyetmələrini, uşaqlarını təhsilə cəlb etmək üçün nə qədər məktəb binaları var. Buna baxmayaraq, biz müasir tələblərə cavab verən yeni-yeni məktəb binalarının tikilib yaranması ilə də məşğul olmalıyıq və əmin ola bilərsiniz ki, gələcək illərdə də biz bununla məşğul olacağıq.

Ancaq bu gün, həyatımızın keçid dövründə, ağır bir dövründə bu məktəb binasının hazırlanıb istifadəyə verilməsi çox dəyərli haldır və ona görə də mən bunu əlamətdar hadisə ki[260-261]mi qiymətləndirirəm. Bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edir, məktəbin müəllimlərinə uğurlu fəaliyyət arzulayıram və Böyükşor qəsəbəsi sakinlərinin bu məktəbdə təhsil alacaq uşaqlarının hamısına yaxşı oxumağı arzu edirəm.

Bu gün respublikamızın hər yerində təhsil ocaqları fəaliyyətə başlayır. Bu gün Təhsil günüdür, Bilik günüdür. Bu gün respublikamızın bütün təhsil ocaqlarında – orta məktəblərdə, ali məktəblərdə 1 milyon 600 min tələbə və şagird siniflərdə oturacaq, təhsil almağa başlayacaqdır. 1 milyon 600 min! Bu, böyük bir ordudur, bizim gələcəyimizdir. Gənc nəslə olan qayğı fəaliyyətimizin əsas hissəsidir. Mən bu gün sizi, respublikanın bütün vətəndaşlarını, bütün müəllimləri, təhsil işçilərini, tələbələri, şagirdləri Təhsil günü, Bilik günü münasibətilə ürəkdən təbrik edir, xalqımıza, millətimizə günü-gündən təhsillənmə, inkişaf arzulayıram!

Bu gün məmnuniyyət hissi ilə qeyd etmək olar ki, keçmiş onilliklərdə Azərbaycanda güclü təhsil sistemi, məktəblər, çox güclü ali təhsil ocaqları yaranıbdır. Məhz onların fəaliyyəti, böyük müəllim ordusunun fəaliyyəti nəticəsində, ali məktəblərin böyük professor-müəllim heyətinin fəaliyyəti nəticəsində indi Azərbaycanın çox böyük elmi-texniki potensialı, yüksək səviyyəli təhsil almış vətəndaşları var. Azərbaycan xalqı yüksək elmə, yüksək biliyə, savada malik olan xalqdır. Bunlar hamısı uzun illər – keçmişdən indiyə qədər Azərbaycanda yaranmış təhsil sisteminin fəaliyyətinin əməli nəticələri, Azərbaycan müəllimlərinin, alimlərinin gərgin fəaliyyətinin nəticəsidir. Ona görə də mən bu gün bütün Azərbaycan müəllimlərinə hörmət və ehtiramımı bildirirəm. Azərbaycanın müəllimlər ordusuna gələcək fəaliyyətində uğurlar arzulayıram. Azərbaycan müəlliminə cəmiyyətimizin ən şərəfli adını – müəllim adını bundan sonra da şərəflə daşımağı arzu edirəm.

Məlumdur ki, son illər təkcə respublikamızda yox, keçmiş Sovetlər İttifaqı məkanında gedən iqtisadi, ictimai-siyasi proseslər nəticəsində, xüsusən Ermənistanın təcavüzü ilə əlaqədar baş vermiş faciələr nəticəsində Azərbaycanda iqtisadi vəziyyət gərgindir. Bu gərginliyi hər kəs hiss edir. Demək olar ki, cəmiyyətimizin əksəriyyəti bu iqtisadi, maddi çətinliklər içərisində yaşayır. O cümlədən müəllimlərimiz də. Ancaq müəllim, həqiqi müəllim adını daşıyan insan həmişə, tarixin ən çətin dövrlərində dəyanətli, dözümlü olubdur və öz mənəviyyatını hər şeydən yüksək tutubdur. [261-262]

\ Mənim xatirimdədir, 1941-1945-ci illərdə, İkinci dünya müharibəsi, Böyük Vətən müharibəsi zamanı məktəblərin, müəllimlərin vəziyyəti indi də gözümün qabağındadır. Xalqımız da, respublikamız da, o cümlədən məktəblər də, müəllimlərimiz də bundan qat-qat ağır vəziyyətdə yaşayırdı. O illərdə insanlar adi çörək tapa bilmirdilər. Siz gənclər bunu bilmirsiniz, bəlkə kitablardan az-çox oxuya bilirsiniz, amma mən o illəri yaşamış adamam. Talonla gündə insanlara, hər bir müəllimə, hər bir insana 400 qram qara çörəkdən savayı başqa şey verilmirdi. Ancaq xatirimdədir, o illər, o çətin illər xalqımız yaşadı, xalqımızın cəsarətli oğulları faşizmə qarşı döyüşlərdə qəhrəmanlıq göstərdilər, respublikamızın müəllimləri fəaliyyətlərini heç vaxt dayandırmadılar. Aclıq içində, çətinlik içində, böyük iqtisadi problemlər içində məktəblər öz işini davam etdirirdi, müəllimlər də müəllimliyini edirdi. O illər xalqımız böyük sınaqla qarşılaşdı, amma müəllimlər ən böyük sınaqla qarşılaşdılar.

Mən bunu ona görə xatırlayıram ki, müəllim peşəsinin nə qədər şərəfli olduğunu və həqiqi müəllimin nə qədər mənəviyyatlı olduğunu bir daha nümayiş etdirim.

Şəxsən mənim müəllimə həmişə böyük hörmətim olubdur. İndiyə qədər həyatımda keçdiyim yol, mənim biliyim, elmim – hamısı məhz orta məktəbdə aldığım təhsillə bağlıdır, müəllimlərin mənə verdiyi biliklərlə bağlıdır, müəllimlərin mənə və o illərdə oxuyan mənim kimi gənclərə göstərdikləri qayğıkeşliklə bağlıdır, eyni zamanda mənim kimi bizim də, xüsusən mənim də müəllimə böyük hörmətimlə, ehtiramımla bağlıdır. Mən indi də – on illər keçib üstündən – müəllimlərimi heç vaxt unutmamışam və ömrümün son dəqiqəsinə qədər unutmayacağam. Mənim üçün müəllim adı həmişə ən ülvi, ən şərəfli bir məfhum olubdur. Mən bu gün müəllim qarşısında baş əyirəm, müəllimə hörmət və ehtiramımı bildirir, Azərbaycan müəllimlərinə bundan sonra da öz işlərində uğurlar arzulayır, cansağlığı, səadət diləyirəm.

Bu gün 1 milyon 600 min gənc təhsilə başlayır. Bizim, təhsil işi ilə məşğul olan nazirliklərin, idarələrin, icra hakimiyyəti orqanlarının, dövlətin, hamımızın borcu ondan ibarətdir ki, bütün çətinliklərə baxmayaraq, məktəblərin müvəffəqiyyətlə fəaliyyət göstərməsini təmin edək, tələbələrin, şagirdlərin təhsil almasına kömək edək, məktəblərə, müəllimlərə kömək edək. Mən sizi əmin edirəm ki, öz tərəfimdən və dövlət orqanları tərəfindən bütün imkanlardan istifadə olunmasını tə[262-263]min etməyə çalışacağam və məktəbə, təhsilə qayğımızı, köməyimizi bundan sonra da artıracağıq. Buna əmin ola bilərsiniz.

İndi respublikamız keçid dövrünü yaşayır. Bu dövrün çox mürəkkəbliyi var. Biz bunların hamısının öhdəsindən gəlirik və bundan sonra da gələcəyik. Əldə etdiyimiz ən böyük nailiyyət bundan ibarətdir ki, 1988-ci ildən respublikamıza qarşı Ermənistan tərəfindən başlanmış hərbi təcavüzü dayandırmışıq. İki ildən artıqdır ki, respublikamız atəşkəs şəraitində yaşayır, döyüşlər yoxdur, müharibə getmir. Bu şəraitdə, bu dövrdə Ermənistan – Azərbaycan münaqişəsini sülh yolu ilə həll etməyə çalışırıq. Əmin ola bilərsiniz, xüsusən gənclərimiz bilməlidirlər ki, biz bu sahədə ardıcıl olaraq çalışırıq, hər bir məsələ ilə məşğul oluruq və bütün imkanlardan istifadə edirik ki, müharibəyə sülh yolu ilə, danışıqlar yolu ilə son qoyulsun. Apardığımız işlər öz nəticəsini verir. Hər halda iki ildən artıq müddətdə atəşin olmaması onu göstərir ki, biz böyük sülhə nail ola bilərik. Məlumdur, bunu dəfələrlə demişəm ki, böyük sülhə nail olmaq üçün Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqları azad edilməli, həmin torpaqlardan Ermənistan silahlı qüvvələri tamamilə çıxarılmalı, yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları öz elinə-obasına, evlərinə qayıtmalıdır, Azərbaycan Respublikasının ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı bərpa olunmalıdır və bu proseslər içərisində Dağlıq Qarabağa Azərbaycan dövləti, Azərbaycan Respublikası tərkibində yüksək muxtariyyət statusu verilməsi mümkündür. Bu şərtlərlə böyük sülh bağlana bilər və nəhayət, bölgəmizdə sülh bərqərar olar və biz qonşu dövlətlərin hamısı ilə sülh şəraitində yaşaya bilərik.

Bu məsələlərin həll olunması daim mənim diqqət mərkəzimdədir və iş günümün, fəaliyyətimin çox hissəsi buna sərf olunur. Əminəm ki, biz bu yolla məqsədimizə nail olacağıq.

Amma eyni zamanda, qeyd etdiyim kimi, bunlar hamısı çətinliklər yaradır. Bildiyiniz kimi, son illərdə biz təkcə müharibənin ağrı-acısı ilə yox, Azərbaycanın daxilində gedən, Azərbaycan xalqının, millətinin, dövlətinin əleyhinə aparılan cürbəcür proseslərlə də rastlaşdıq, onların da qarşısını aldıq. İndi Azərbaycanda ictimai-siyasi sabitlik bərqərar olubdur. Məhz ictimai-siyasi sabitlik nəticəsində siz hamınız sərbəst, rahat yaşayırsınız, Azərbaycan vətəndaşları sərbəst, rahat yaşayırlar. Hər bir vətəndaşı, hər bir insanı qorumaq, onun hüquqlarını [263-264] qorumaq bizim vəzifəmizdir və gördüyünüz kimi, bu vəzifəni biz layiqincə həyata keçiririk. Bir də deyirəm, respublikamızda sabit ictimai-siyasi vəziyyət yaranıbdır. Bunun özü böyük nəticədir. Bildiyiniz kimi, 1988-ci ildən Azərbaycana xaricdən olan təcavüzlə bərabər, daxildə də cəmiyyət daim çalxalanırdı. Qarışıqlıq, qarşıdurma, ayrı-ayrı qüvvələrin silahlı dəstələrinin xalqa zorakılığı və cürbəcür belə hallar xalqımızı, millətimizi, hər bir vətəndaşı narahat edirdi və rahat yaşamasına maneçilik törədirdi.

İctimai-siyasi sabitlik cəmiyyətimiz üçün lazımdır, amma eyni zamanda bizim gənclərimiz üçün lazımdır. İndi dünyaya gələn körpələr, birinci sinfə qədəm qoyan uşaqlar, bu gün yuxarı siniflərə girən şagirdlər, ali məktəblərə daxil olan gənclər təhsil, bilik almalıdırlar, müstəqil Azərbaycan Respublikasının bu gününü, gələcəyini təmin etmək üçün, gələcəkdə respublikamızı inkişaf etmiş bir ölkəyə çevirmək üçün təhsil almalıdırlar, bilik toplamalıdırlar, özlərini cəmiyyətdə fəaliyyətə hazırlamalıdırlar. Bunların hamısı üçün də ictimai-siyasi sabitlik, rahatlıq lazımdır. Biz bunu da bəyan edirik və gənclərimizin təhsil alması üçün bütün imkanlardan da istifadə edirik.

Gənclərimizin əhval-ruhiyyəsi bu gün çox gözəldir. Avqustun 31-də Bakıda Respublika stadionunda Azərbaycanda ilk dəfə dünya çempionatının futbol matçı keçirildi. Bilirsiniz ki, bu stadion 1988-ci ildən bağlanmışdı, işləmirdi. Azərbaycan gənclərinin idmana, o cümlədən futbola olan həvəsinin qarşısı tamamilə alınmışdı. O böyük stadion ayrı-ayrı adamların əlində oyuncağa çevrilmişdi, ondan şəxsi məqsədlər üçün istifadə olunurdu. Xatirimdədir ki, iki il bundan öncə burada beynəlxalq yarış keçirmək istəyərkən bildirdilər ki, o stadion yararsızdır, ondan istifadə etmək mümkün deyildir, o yarışı Sumqayıtda keçirdilər. Ancaq gənclər üçün bütün şəraiti yaratmaq üçün bizim apardığımız tədbirlər o stadionun da bərpa olunmasını və onun yararlı vəziyyətə salınmasını təmin etdi.

Ola bilər, on beş ildən çox idi ki, mən o stadionda olmamışdım. Ancaq avqustun 31-də beynəlxalq yarış keçirildiyinə görə və Azərbaycanın seçmə futbol komandası ilk dəfə belə bir şərəfə nail olduğuna görə mən stadiona getdim. Stadion, [264-265] demək olar, tamamilə dolu idi. Gənclərimiz böyük həvəslə oraya toplaşmışdılar, istirahət edirdilər, əylənirdilər. Eyni zamanda idmana olan həvəslərini nümayiş etdirirdilər və Azərbaycanın seçmə komandasının oyununu müşahidə edirdilər. Şübhəsiz ki, oraya gəlmiş hər bir gənc, hər bir Azərbaycan vətəndaşı ölkəmizin futbol komandasına uğurlar arzulayırdı. Bu uğura da nail oldular. Azərbaycanın seçmə futbol komandası tarixdə ilk dəfə dünya çempionatının oyununda Avropanın güclü komandalarından biri olan İsveçrənin seçmə komandasına qalib gəldi, o matçı, yarışı uddu.

Bu, çox böyük hadisədir, əlamətdar hadisədir. Mən həddindən artıq sevindim. Sevindim ona görə ki, on minlərlə tamaşaçı yerləşən stadion dolu idi. Sevindim ona görə ki, Azərbaycan gəncləri bu stadiona çox gözəl əhval-ruhiyyə ilə gəlmişdilər. Sevindim ona görə ki, Azərbaycan futbolu müstəqil Azərbaycan Respublikasının indiki günündə yüksək səviyyəyə gəlib çatıbdır.

Mən keçmiş illərdə, 70-ci illərdə bizim komandaların futbol yarışlarında iştirakını xatırlayıram. Deyə bilərəm ki, mən heç vaxt Azərbaycanın futbol komandasının bu qədər gözəl oynamasını görməmişdim. Bu da bizim müstəqilliyimizin nəticəsidir, dövlət müstəqilliyimizin nəticəsidir. Futbol meydançasında oynayan Azərbaycan övladları da ölkəmizin müstəqil dövlət olmasından qürur duyaraq canla-başla mübarizə aparırdılar və qalib gəldilər. Yenə də deyirəm, Avropanın güclü komandalarından birinə qalib gəldilər. Mən bu gün fürsətdən istifadə edərək Azərbaycanın seçmə futbol komandasını bu qələbə münasibətilə təbrik edirəm, ona gələcək yarışlarda da uğurlar arzulayıram. Eyni zamanda mən bütün Azərbaycan gənclərini, Azərbaycan vətəndaşlarını, xalqımızı təbrik edirəm ki, biz nəhayət, bu gözəl günlərə gəlib çatmışıq. Müstəqil respublikamız, müstəqil ölkəmiz dünya çempionatında müstəqil dövlət kimi iştirak edir və biz öz idman nailiyyətlərimizi dünyaya nümayiş etdirə bilirik.

Bilirəm ki, burada, Böyükşor qəsəbəsində yaşayanların vəziyyəti bir çox çətinliklərlə bağlıdır. Qəsəbə Bakının kənarında [265-266] yerləşir, burada müəyyən kommunal çətinliklər, bəlkə də, Bakının mərkəzi hissələrinə nisbətən daha çoxdur, insanların yaşayışında çətinliklər var. Bunların hamısını biz, şəxsən mən bilirəm. Ancaq bilirsiniz ki, Ermənistanın Azərbaycana təcavüzü nəticəsində əhalimizin bir hissəsi qaçqın kimi çadırlarda, ağır vəziyyətdə yaşayır. Xalqımızın bir hissəsinin belə çətin vəziyyətdə yaşaması şübhəsiz ki, hamımızı narahat edir, incidir. Biz çalışırıq ki, şəraiti, insanların həyat tərzini, rifah halını yaxşılaşdıraq. Əmin ola bilərsiniz ki, apardığımız tədbirlər, həyata keçirdiyimiz iqtisadi islahatlar, bu sahədə atdığımız addımlar gətirib bütün bunlara çıxaracaq, biz bu çətinliklərin öhdəsindən gələcəyik, xalqımızın rifah halı günü-gündən yaxşılaşacaqdır.

Bu gün mən sizinlə görüşərkən, biz məktəblərdə yeni dərs ilinin başlanması gününü bir yerdə qeyd edərkən düşünürəm ki, o çadır şəhərciklərimizdə qurulan məktəblərdə də insanlar, balalarımız sinfə girirlər, dərslərə başlayırlar. Xalqımız dözümlü xalqdır. Xalqımız dəyanətli, qəhrəman xalqdır. Mən bilirəm ki, çadır şəhərciklərində, çadırlarda olan məktəblərdə də müəllimlərimiz əvvəlki həvəslə çalışır və balalarımız, övladlarımız o çadırların altında oturub təhsil, bilik alırlar, məktəb fəaliyyət göstərir.

Azərbaycanın qaçqın, köçkün vəziyyətində yaşayan vətəndaşlarına mən bu gün buradan, Bakıdan, Böyükşor qəsəbəsindən xüsusi salamımı göndərirəm. Bu çətin vəziyyətdə öz övladlarını bu gün məktəblərə aparan valideynlərə hörmət və ehtiramımı bildirirəm. Çadır şəhərciklərindəki, qaçqınların düşərgələrindəki, onların məskunlaşdığı yerlərdəki məktəblərdə şagirdlərə dərs verən müəllimlərə xüsusi hörmətimi bildirirəm. Onları əmin edirəm ki, bu ağır günlər keçib gedəcək, hamı yenidən gözəl evlərə, məktəb binalarına qayıdacaq, həmin gözəl məktəb binalarında öz təhsillərini davam etdirəcəklər.

Füzuli, Cəbrayıl, Qubadlı rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin bu günlərdə üç ili tamam olmuşdur. Mən bu gün bu rayonların sakinlərinə salamımı, hörmət və ehtiramımı bildirirəm. Bildirirəm ki, biz bu ya[266-267]xınlarda həmin rayonların nümayəndələri ilə görüşəcəyik, danışacağıq, vəziyyəti, onların problemlərini və qayğılarını müzakirə edəcəyik.

Ümumiyyətlə, yerindən-yurdundan didərgin düşmüş, qaçqın və köçkün vəziyyətində yaşayan vətəndaşlarımızın hamısına bir daha hörmət və ehtiramımı bildirirəm. Onlara indiyədək olduğu kimi, bu gün də, bundan sonra da dözümlülük arzulayıram. Hamı əmin ola bilər ki, Azərbaycanda bu ağır günlər müvəqqətidir. Azərbaycanın işğal olunmuş torpaqları azad olunacaq, ölkəmizin ərazi bütövlüyü təmin ediləcək, yerindən-yurdundan qaçqın düşmüş vətəndaşlarımız öz elinə-obasına qayıdacaqdır. Müstəqil Azərbaycan Respublikası yaşayacaq, günü-gündən möhkəmlənəcəkdir.

Bizim apardığımız xarici və daxili siyasət, gördüyümüz tədbirlər dünya birliyində Azərbaycanı daha da çox tanıdır, dünya birliyində Azərbaycana olan münasibəti günü-gündən artırır və ölkəmizi dünya birliyinə daha da sıx birləşdirir. Bunların hamısı Azərbaycanı bir müstəqil dövlət kimi, xalqımızı azad bir xalq kimi gözəl gələcəyə hazırlayır. Mən buna inanıram və siz də buna əmin ola bilərsiniz.

Mən sizinlə bugünkü görüşümdən çox məmnunam. Burada çıxış edən müəllimlər çox xoş sözlər dedilər. Təşəkkür edirəm. Uşaqların, şagirdlərin bu qədər gözəl çıxışları və onların incəsənət nümunələrini nümayiş etdirmələri xalqımızın nə qədər istedadlı olduğunu bir daha göstərir. Bunların hamısı məndə böyük iftixar hissi

oyadır. Mən fəxr edirəm ki, belə istedadlı xalqımız var. Fəxr edirəm ki, belə böyük xalq ona rəhbərlik etmək üçün mənə etimad göstərib.

Sizin hamınıza təşəkkür edirəm. Hamınıza cansağlığı arzulayıram. Böyükşor qəsəbəsindəki 73 nömrəli məktəbin açılışı münasibətilə sizi təbrik edirəm. Təhsil, Bilik günü münasibətilə Azərbaycanın bütün vətəndaşlarını təbrik edirəm. [267-268]

## AZƏRBAYCANDA İKİNCİ BEYNƏLXALQ TİCARƏT SƏRGİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*Bakı İdman-konsert Kompleksi*

*3 sentyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Azərbaycanda ikinci beynəlxalq ticarət sərgisinin açılması münasibətilə sizi təbrik edirəm. Sərginin bütün iştirakçılarına, bu sərgidə öz mallarını, öz işlərini, nailiyyətlərini nümayiş etdirən şirkətlərə uğurlar arzulayıram.

Azərbaycanda, respublikamızın paytaxtı Bakıda ikinci dəfədir ki, Ticarət-Sənaye Palatası və Böyük Britaniyanın "İnternəşnl treyd eksibişnz" şirkəti birlikdə ölkəmiz üçün, güman edirəm, bu sərgidə iştirak edənlərin hamısı üçün çox əhəmiyyətli olan belə bir sərgi təşkil ediblər. Son illər Azərbaycanda müxtəlif toplantıların, konfransların, görüşlərin keçirilməsi adi hal olubdur. Eyni zamanda, ölkəmizdə beynəlxalq sərgilərin keçirilməsi Azərbaycanın bugünkü həyatının gerçəkliyidir.

Bu sarayda biz üç dəfə beynəlxalq "Neft-qaz" sərgisinin keçirilməsində iştirak etmişik. Bu sərgidə dünyanın müxtəlif ölkələrini təmsil edən neft şirkətləri, qaz istehsalı ilə məşğul olan şirkətlər və neft-qaz sənayesi ilə əlaqədar şirkətlər öz işlərini, eksponatlarını, nailiyyətlərini nümayiş etdirmək imkanı əldə ediblər.

Azərbaycanda, Bakıda beynəlxalq neft-qaz sərgisinin keçirilməsi təbiidir. Çünki Azərbaycan qədim neft diyarıdır. Respublikamız neft istehsalı sahəsində dünyada məşhur bir ölkədir. Bu gün də Azərbaycanın neft və qaz yataqları, böyük təbii sərvətləri dünyanın bir çox şirkətlərinin marağını özünə cəlb edir. Bildiyiniz kimi, Azərbaycanda böyük neft müqavilələri imzalanıbdır. Dünyanın böyük neft şirkətləri ilə neft-qaz yataqlarından müştərək istifadə olunması üçün artıq əməli iş gedir.

Bu gün açılan sərgi isə tamamilə başqa mövzuya həsr olu[268-269]nub. Azərbaycanda artıq ikinci dəfədir ki, belə sərgi açılır. Bu sərgi insan üçün istehsal edilmiş malların satışına, nümayiş etdirilməsinə həsr olunubdur. Şübhəsiz ki, bu da Azərbaycanda belə malların istehsalı üçün yaranmış şəraitlə, eyni zamanda burada təmsil edilən şirkətlərin respublikamıza olan marağı ilə bağlıdır.

Sərgidə 25 ölkədən yüzə qədər şirkətin iş nümunələri, nailiyyətləri, malları nümayiş etdirilir. Bu sərgidə bir çox xarici ölkələrdən iş adamları gəliblər. Sərgi, şübhəsiz ki, bu malların satılması, alınması, mal mübadiləsi və bu malların gələcəkdə istehsal edilməsi üçün, burada təmsil edilən şirkətlərlə müştərək iş görülməsindən ötrü yaxşı bir şərait yaradır.

Belə bir sərginin Azərbaycanda ikinci dəfə təşkil olunmasını və bu gün açılmasını mən yüksək qiymətləndirirəm. Bu sərgini təşkil edənlərə – Azərbaycan Ticarət-Sənaye Palatasına, Böyük Britaniyanın "İnternəşnl treyd eksibişnz" şirkətinə və bu sərgidə iştirak edən şirkətlərin hamısına bu münasibətlə təşəkkürümü bildirirəm.

Ümidvaram ki, bu sərgi Azərbaycan ilə burada təmsil edilən şirkətlərin mənsub olduqları ölkələr arasında və həmin ölkələrin, şirkətlərin öz aralarında iqtisadi əlaqələrin inkişaf etməsinə kömək edəcəkdir, bu da sərginin hər bir iştirakçısı üçün faydalı olacaqdır.

İqtisadiyyata, ticarətə həsr olunmuş belə görüşlərin, toplantıların, konfransların, sərgilərin Azərbaycanda keçirilməsi əyani surətdə onu sübut edir ki, respublikamız sərbəst iqtisadiyyat yolu ilə gedir, ölkəmizdə sərbəst iqtisadiyyat yaratmaq və inkişaf etdirmək üçün, Azərbaycanda iş görmək üçün daxili ictimai-siyasi sabitlik yaranıbdır. Azərbaycan dövlətinin, respublikamızın iqtisadiyyat sahəsində siyasəti ümumiyyətlə, bütün ölkələrin Azərbaycana marağını günü-gündən artırır.

Bildiyiniz kimi, Azərbaycan müstəqil, hüquqi demokratik dövlət olaraq iqtisadiyyatın inkişaf etdirilməsi üçün iqtisadi islahatlar aparmaqla məşğuldur, respublikamızı bazar iqtisadiyyatı yolu ilə aparmaq planlarını həyata keçirir. Azərbaycanda özəlləşdirmə proqramı geniş surətdə yerinə yetirilir. Ölkəmizdə aqrar sahədə torpaq islahatı aparmaq üçün çox əhəmiyyətli qanunlar qəbul edilib və onlar həyata keçirilir. Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi üçün geniş imkanlar yaradılıbdır. Respublikamızda iqtisadiyyatın formalarının yenidən təşkil olunması, bütün iqtisadi formalardan səmərəli istifadə edilmə[269-270]si və xüsusi mülkiyyətə geniş yer verilməsi üçün lazımi qanunlar qəbul olunub və onlar əməli surətdə həyata keçirilir.

Eyni zamanda bunlar hamısı respublikamızda sosial ədalətin təmin edilməsi ilə sıx bağlı olaraq həyata keçirilir. Bunlar hamısı son nəticədə Azərbaycan xalqının, vətəndaşlarımızın rifah halını yaxşılaşdırmağa yönəldilibdir.

Görülən bütün tədbirlər Azərbaycanı, onun iqtisadiyyatını dünya iqtisadiyyatı ilə günü-gündən sıx bağlayır, ölkəmizə xarici sərmayənin, xarici investisiyanın gəlməsi üçün gözəl şərait yaradır. Bu gün mən məmnuniyyət hissi ilə deyə bilərəm ki, Azərbaycanın dünya iqtisadiyyatı ilə sıx əlaqələri günü-gündən inkişaf edir və

respublikamıza xarici sərmayənin gəlməsi, xarici ölkələrin Azərbaycanla müştərək iş görməsi müvəffəqiyyətlə həyata keçirilir.

Bu məqsədimizə nail olmaq üçün belə sərgilərin çox böyük rolu var. Ona görə də mən bu gün açılan sərgiyə çox böyük əhəmiyyət verirəm. Verilən məlumatlara görə sərgidə çoxsaylı iş adamları iştirak edirlər. Şübhə etmirəm ki, onlar bu sərgidə iştirak edərkən, bir-biri ilə görüşərkən, sərgidə nümayiş etdirilən eksponatlarla tanış olarkən yeni-yeni işgüzar əlaqələr yaradacaqlar. Bunların hamısı da Azərbaycan ilə başqa ölkələrin iqtisadiyyatını daha sıx bağlayacaqdır.

Bu sərginin açılması münasibətilə sizi bir daha təbrik edirəm. Sizin hamınıza işlərinizdə uğurlar arzulayıram. Sizin hamınıza yeni-yeni iqtisadi əlaqələr qurmağı arzulayıram və bu əlaqələrin yaranmasında, inkişaf etdirilməsində sizə müvəffəqiyyətlər arzu edirəm. Sağ olun. [270-271]

## FÜZULİ, CƏBRAYIL VƏ QUBADLI RAYONLARININ İŞĞALININ ÜÇÜNCÜ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR HƏMİN BÖLGƏLƏRİN İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Prezident Sarayı*

*7 sentyabr 1996-cı il*

Hörmətli görüş iştirakçıları, bacılar və qardaşlar!
Hörmətli füzulililər, cəbrayıllılar, qubadlılılar!

Füzuli, Cəbrayıl, Qubadlı rayonları Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində işğal edildikdən sonra sizin rayonların sakinləri üç ildir ki, Azərbaycanın digər yaşayış məntəqələrində – şəhərlərdə, rayonlarda, qəsəbələrdə, kəndlərdə müvəqqəti olaraq yerləşiblər, bir qismi binalarda, bir qismi çadırlarda yaşayır. Ancaq məlumdur ki, yerindən-yurdundan didərgin düşmüş, var-yoxunu itirmiş insanlar ağır şəraitdə – həm mənəvi, həm də maddi çətinliklər içərisində yaşayırlar.

Bilirsiniz ki, bütün bu illər ərzində biz – Azərbaycan dövləti, hökuməti Ermənistanın təcavüzü nəticəsində doğma yurdundan zorla çıxarılmış vətəndaşlarımızın, o cümlədən Füzuli, Cəbrayıl, Qubadlı rayonları sakinlərinin məskunlaşdığı yerlərdə yaşamaları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün bütün imkanlardan istifadə edirik. Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini-yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir. Bu, respublikamıza, xalqımıza qarşı olan təcavüzün və başımıza gələn bəlaların, faciələrin nəticəsidir.

Birinci növbədə, işğal edilmiş rayonların azad edilməsinə nail olmaq və həmin rayonlardan didərgin düşmüş Azərbaycan vətəndaşlarının öz doğma yerlərinə qayıtması üçün biz bütün səylərimizdən istifadə edirik və bundan sonra da istifadə edəcəyik. Bu işlərlə bərabər, yerini-yurdunu itirmiş hər bir Azərbaycan vətəndaşının yaşayışına, həyatına qayğı göstərmək üçün biz bu gün də çalışırıq, bundan sonra da çalışacağıq. [271-272]

Sizin – Füzuli, Cəbrayıl, Qubadlı rayonları vətəndaşlarının indiki vəziyyəti haqqında bilavasitə məlumat almaq, dərdlərinizi, problemlərinizi daha yaxından bilmək üçün mən sizi, yəni bu üç rayonun nümayəndələrini görüşə dəvət etmişəm. Bugünkü vəziyyət və keçmiş illərdə olmuş proseslər haqqında şübhəsiz ki, sizdən fikirlər, mülahizələr gözləyirəm. Hesab edirəm ki, belə bir görüş, birinci növbədə, bizim ümumi birliyimizi, həmrəyliyimizi təmin etmək üçün və Azərbaycanın Ermənistan silahlı qüvvələrinin təcavüzündən xilas edilməsi, eyni zamanda, bugünkü cari məsələlərin həll edilməsi üçün də əhəmiyyətli olacaqdır.

Bu görüş bu gün məhz bu məqsədlə təşkil olunubdur. Mən hesab edirəm ki, bu gün burada açıq, səmimi söhbət aparmalıyıq. Heç kəs heç nədən çəkinməsin və utanmasın. Biz hər bir şeyi, hər bir tədbiri, fikrimizi, sözümüzü hər zaman aşkarlıq şəraitində həyata keçiririk, deyirik. Mən istərdim ki, bu gün də bu şəraitdə səmimi söhbətimiz olsun. Bu söhbətin daha mütəşəkkil keçməsi üçün, ola bilər, əvvəlcə rayon icra hakimiyyəti başçılarını dinləyək, sonra isə buraya dəvət olunanların hər biri çıxış edib, şübhəsiz ki, öz istədiyi sözləri deyə bilər.

### YEKUN NİTQİ

Hörmətli füzulililər, cəbrayıllılar, qubadlılılar, bacılar, qardaşlar, dostlar!

Bu gün gündüz saat 2-dən biz sizinlə bir yerdəyik. Hesab edirəm ki, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarının bütün sakinləri ilə biz hamımız bir yerdəyik və son illərdə bu rayonların, yəni sizin rayonların həyatında, Azərbaycan Respublikasının həyatında baş vermiş hadisələr, gedən ictimai-siyasi proseslər, törənmiş faciələr haqqında fikir mübadiləsi aparırıq, fikirlər, mülahizələr söyləyirik.

Mən bütün bu danışıqları, sizin hamınızı çox diqqətlə dinlədim. Bütün natiqlərin çıxışları eyni xarakterdədir, eyni məzmundadır, yəni bunlar hamısı 1988-ci ildən bəri Azərbaycanın həyatında gedən proseslərə müəyyən aydınlıq verir, həmin ildən Azərbaycana qarşı Ermənistan tərəfindən ərazi iddiası ilə başlanmış, sonra hərbi təcavüzə çevrilmiş məsələlərə aydınlıq gətirir. Sizin sözləriniz bu hərbi təcavüz, Ermənistanın Azərbaycana qarşı düşmən münasibəti nəticəsində respublikamızın [272-273] başına gələn bəlalar haqqında aydınlıq yaradır. Bütün bunlar həqiqətdir, indiyə qədər də məlumdur. Amma bu gün sizin verdiyiniz məlumatlardan bir çox məsələlər bir daha dəqiqləşir. Məlum olur ki, Ermənistan 1988-ci ildə Azərbaycana qarşı hərbi təcavüz niyyəti ilə cürbəcür hərəkətlərə başlayandan Azərbaycanda onun qarşısına çıxan siyasət də olmamışdır, lazımi tədbirlər də olmamışdır. Böyük səhvlər, kobud səhvlər buraxılmışdır. Bununla yanaşı, Azərbaycanda belə vəziyyətdən istifadə edən cürbəcür qruplar, dəstələr, adamlar öz şəxsi mənafelərini təmin

etmək üçün bu hərbi təcavüzün güclənməsinə şərait yaratmışlar və demək olar ki, onun Azərbaycan üçün belə dəhşətli nəticələrə gətirib çıxarmasına kömək etmişlər.

Respublikamız 1988-ci ildən indiyə qədər böyük itkilər veribdir. Ərazimizin 20 .faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilibdir. İşğal olunmuş torpaqlardan bizim vətəndaşlarımız – bu torpaqlarda yaşayanlar, oranın sakinləri zorla öz yerlərindən-yurdlarından çıxarılıblar. Bütün bu illərdə böyük insan. tələfatı olubdur. Azərbaycan xalqı minlərlə şəhid veribdir. İnsanlar həlak olublar. İşğal olunmuş torpaqlarda Azərbaycanın varidatı dağılıbdır. İnsanların evləri, malları, əmlakı – hər bir şeyi əldən gedibdir, dağılıbdır. Azərbaycana böyük zərbələr – həm böyük mənəvi zərbə, həm də maddi ziyan dəyibdir. Şübhəsiz, ən dəhşətlisi odur ki, insanlar tələf olubdur. Döyüşlərdə şəhidlər vermişik. Qocalar, qadınlar, körpələr həlak olublar, vəhşicəsinə öldürülüblər, bir çoxuna işgəncələr verilibdir. İnsanlar böyük mənəvi zərbələr alıblar, böyük dəhşətlərlə rastlaşıblar. Bu zərbələr təkcə bizim xalqımıza qarşı olan təcavüz nəticəsində verilmiş itkilərlə tamamlanmır, həm də insanların mənəviyyatında, psixologiyasında baş vermiş bir çox dəyişikliklərlə nəticələnmişdir. Bunlar hamısı xalqımıza dəyən zərbələrdir, millətimizə dəyən zərbələrdir, ölkəmizə dəyən zərbələrdir.

Bu gün biz bu məsələləri müzakirə edərkən birinci növbədə şəhidləri yad etməliyik, Azərbaycanın ərazi bütövlüyünü qoruyarkən, Azərbaycanın torpaqlarını müdafiə edərkən həlak olanları yad etməliyik. Buna görə mən rica edirəm ki, Azərbaycanın ərazi bütövlüyü yolunda həlak olmuş şəhidlərin, o cümlədən Füzuli, Cəbrayıl, Qubadlı rayonlarını müdafiə edərkən həlak olmuş şəhidlərin ruhunu bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərə rəhmət eləsin! [273-274]

Bilirsiniz, keçmiş illəri, o illərdə baş vermiş hadisələri hər dəfə təkrarən yada salarkən, – bu gün də biz bunları ətraflı yada saldıq – insan dəhşətə gəlir. Nə üçün bizim respublikamız belə günə düşməli idi? Nə üçün biz belə ağır vəziyyətdə olmalıydıq? Nə üçün xalqımız belə faciələrlə üzləşməli idi? Şübhəsiz ki, bunun bir tərəfi bizdən asılı deyil. Ermənistanda olan ekstremist, terrorçu, separatçı, təcavüzkar qüvvələr çoxdankı niyyətlərini həyata keçirmək üçün 1988-ci ildə böyük fürsət əldə etdilər, bu fürsətdən məharətlə istifadə etdilər. Onlar əvvəl münaqişəyə başladılar, sonra isə bunu hərbi təcavüzə çevirdilər. Amma məsələnin ikinci tərəfi ondan ibarətdir ki, nə üçün Azərbaycan Respublikası, Azərbaycan dövləti, Azərbaycan hökuməti və Azərbaycan xalqı öz torpağını qoruya bilmədi, öz hüquqlarını qoruya bilmədi, öz respublikasını qoruya bilmədi? Əgər bu faciənin birinci tərəfi bizdən asılı deyildisə, ikinci tərəfi tamamilə bizdən asılı idi.

Mən hesab etmirəm ki, bizim xalqımız aciz xalqdır. Mən hesab etmirəm ki, bizim xalqımız bütün xüsusiyyətlərinə görə ermənilərdən, erməni xalqından gücsüz xalqdır. Mən belə hesab etmirəm. Güman edirəm ki, siz də belə hesab etmirsiniz. Bizim xalqımızın böyük tarixi, qəhrəmanlıq səhifələri ilə dolu tarixi məlumdur. Bizə də məlumdur, dünyaya da məlumdur. Əsrlər boyu dəfələrlə xalqımız yadelli qəsbkarlarla üzləşib, qarşılaşıb və dəfələrlə döyüşə qalxıb, torpaqlarımızı müdafiə edib, öz milli mənliyini qoruyub saxlaya bilibdir. Keçmiş nəsillər bizi bu günlərə gətirib çıxarıbdır. Əgər belə olmasaydı, indi nə Azərbaycan var idi, nə Azərbaycan xalqı var idi, nə də Azərbaycan milləti var idi.

Bu iyirminci əsrdə də bizim xalqımız bir neçə dəfə cürbəcür təcavüzkar xarakterli hərəkətlərlə rastlaşmışdır, ancaq onların da qarşısı alınmışdır. Doğrudur, əgər iyirminci əsri təhlil etsək, ayrı-ayrı mərhələlərdə bizim müəyyən itkilərimiz olmuşdur, o cümlədən torpaqlarımızın da müəyyən hissəsi itirilmişdir. Ancaq hesab edirəm ki, iyirminci əsrdə biz heç vaxt belə dəhşətli, faciəli bir vəziyyətə düşməmişdik. Bunun da əsas səbəbi bizim millətimizdə, xalqımızda deyil, adi insanlarda deyil. Bu gün artıq məlumdur və sizin dediklərinizdən bir daha aydın oldu, çıxışlarınız bu həqiqəti bir daha təsdiq etdi ki, Ermənistanın o iddiaları, təcavüzü başlayandan Azərbaycanın rəhbərliyində olanlar, Azərbaycanı idarə edənlər xalqımızın imkanlarından, respublikanın imkanlarından istifadə edə bilmə[274-275]mişlər və yaxud etmək istəməmişlər və bunların da hamısı bu cür uğursuzluqlara gətirib çıxarıbdır.

Əgər tək belə olsaydı, yəni bunların hamısı sadəcə bacarıqsızlıqdan meydana gəlsəydi, dərd yarı idi. Təəssüf ki, belə də deyil. Bir tərəfdən bacarıqsızlıq, millətə, xalqa qayğısızlıq, ikinci tərəfdən isə bütün bu şəraitdən ayrı-ayrı qrupların öz mənafeləri üçün istifadə cəhdləri və bunların nəticəsində Azərbaycanın daxilində gedən çəkişmələr, toqquşmalar, hakimiyyət mübarizəsi Azərbaycanı belə ağır, dəhşətli vəziyyətə gətirib çıxarıbdır. Bu fikirlər bu gün burada çıxış edənlərin hamısının sözlərində öz əksini tapdı. Bu fikirlər Baş Qərargah rəisi işləmiş Nurəddin Sadıxovun çıxışında da öz əksini tapdı. Nurəddin Sadıxovun dediyi faktların bəzilərini mən eşitmişdim, bəzilərini bu gün birinci dəfə eşidirəm. Nə qədər dəhşətli faktlardır! Ermənilərlə müharibə aparmaq əvəzinə burada ayrı-ayrı qruplar bir-biri ilə müharibə aparıblar. Nə üçün? Nədən ötrü? Vəzifə davası, hakimiyyət davası, şəxsi mənafelər davası! Bax, əsas səbəb bundan ibarət idi. Ən əsas səbəb budur. Çox təəssüflər olsun! Bilirsiniz, tək təəssüf etməklə qurtarmaq olmaz. Bundan böyük nəticələr çıxarmaq lazımdır. Amma ola bilərdi ki, Azərbaycanın vəziyyəti, – siz bu gün bunu qeyd etdiniz, mən də demək istəyirəm, – bundan da pis olsun.

1993-cü ilin əvvəlində Azərbaycanda yaranmış dövlət böhranı, siyasi böhran ölkəmizi vətəndaş müharibəsinə gətirib çıxardı. Əgər bu vətəndaş müharibəsinin qarşısı alınmasaydı, əgər o dəstələr, qruplar –

Azərbaycanı bu günə salan, bu cür faciələrə gətirib çıxaran dəstələr, qruplar, şəxslər aşkar olunmasaydı, zərərsizləşdirilməsəydi, sıradan çıxarılmasaydı, təsəvvür edin, Azərbaycanı nə qədər böyük faciələr gözləyirdi!

Nurəddin Sadıxov dedi, ermənilərin hücumunu dəf etmək əvəzinə cəbhə bölgələrindən topları, "Qrad" qurğularını, başqa ağır texnikanı çıxarıb Gəncədə hakimiyyət əleyhinə qalxmış qüvvələrin qiyamını yatırmağa çalışırdılar. Bəs nə üçün bu qüvvələr hakimiyyətin əleyhinə çıxaydı? Bu, belə də olmalıydı, çünki əgər o cür quldurlar, o cür yaramaz adamlar gəlib ali komandan vəzifəsinə çatmışdılarsa, Surət Hüseynov kimi adam Dağlıq Qarabağın baş komandanı vəzifəsinə təyin edilmişdisə, Rəhim Qazıyev kimi yaramaz bir şəxs müdafiə naziri, İsgəndər Həmidov kimi yaramaz bir şəxs Azərbaycanın başqa [275-276] bir silahlı qüvvələrinin başçısı olmuşdusa və Azərbaycanın başında belə adamlar oturmuşdularsa, bu, başqa cür ola bilməzdi.

Siz görürsünüz, bunların hərəsinin öz iddiası var idi. Məsələ tək onda deyildi ki, Surət Hüseynov gəlib respublikada prezident olmaq istəyirdi, Rəhim Qazıyev də olmaq istəyirdi, İsgəndər Həmidov da olmaq istəyirdi, İsa Qəmbərov da olmaq istəyirdi – hamısı olmaq istəyirdi. Bəla bundan ibarət idi. Əgər əmin-amanlıq dövrü olsaydı, yəni müharibə olmasaydı, Azərbaycana qarşı heç bir təcavüz olmasaydı, içəridən bunlar nə edirdilərsə, bu, ola bilsin, belə zərərli olmazdı. Ancaq Azərbaycan artıq bir neçə il ərzində Ermənistan tərəfindən təcavüz altında olduğu halda, Ermənistan torpaqlarımızı işğal etdiyi halda, insanlar gedib Azərbaycanın torpaqlarını qorumaq üçün canlarını qurban verdiyi bir zaman bunlar burada bir-biri ilə hakimiyyət davası aparırdılar.

Amma baxın, o hakimiyyət davası aparanların biri də gedib həlak olmamışdır, biri də cəbhədə döyüşməmişdir, biri də şəhid olmamışdır. Baxın, o şəhidlərin içərisində kimlər var? Varmı belə adamlardan biri? Yoxdur! Şəhidlər vətənini sevən əsl Azərbaycan gəncləri olublar. Həlak olanlar sədaqətli Azərbaycan vətəndaşları olublar. Erməni qəsbkarları gəlib onları öz yerlərində, yurdlarında öldürüblər, qırıblar. Amma bu hakimiyyət davası aparanların heç birisinin nə mülkü dağılıbdır, nə də özləri şəhid olublar. Görürsünüz, bunlar nə qədər dəhşətli insanlar imiş! Əgər vəziyyət belə davam etsəydi, görün Azərbaycanın başına nələr gələcəkdi! Bu, mülahizə deyil, bu, 1993-cü ilin may-iyun aylarında Azərbaycanda yaranmış vəziyyət idi. Onu siz yaxşı bilirsiniz, çünki hamınız o günləri yaşamısınız. Bunlar 1993-cü ilin iyun ayından sonra Azərbaycanda gedən proseslərdir.

Bəli, 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsinin qarşısı alındı. Mən Azərbaycana gəldim, vətəndaş müharibəsinin qarşısını aldım. Bunu siz hamınız etiraf edirsiniz. Ancaq bununla iş qurtarmadı. Yenə də vətəndaş müharibəsi salmaq istəyən adamlar öz fəaliyyətini davam etdirdilər. Xatırlayın biz nə qədər tədbirlər gördük ki, Əlikram Hümbətov kimi bir qulduru zərərsizləşdirək və cənub zonasında toplanmış silahları, sursatları onun əlindən alaq. Nə üçün Azərbaycan həmin iyun, iyul, avqust aylarında belə ağır itkilər verdi, bu rayonlar da işğal olundu? Burada tamamilə doğru deyildi ki, onların iş[276-277]ğal olunması artıq əvvəlki illərdə və aylarda gedən proseslərin məntiqi nəticəsi idi. Amma xatirinizdədirsə, həmin iyun, iyul, avqust aylarında Əlikram Hümbətov Azərbaycanın bır hissəsini zəbt edib oturmuşdu Lənkəranda və "respublika" elan etmişdi, Azərbaycanın bir çox adamları da gedib ona baş əyirdilər və onunla bir yerdə hərəkət edirdilər, o cümlədən də Rəhim Qazıyev.

Ondan sonrakı dövrü götürün. Bəli, biz ordunu qura bildik. Burada doğru deyildi, oktyabr ayında mənim çağırışımdan sonra, mən ümumi səfərbərlik elan edəndən sonra ordu qurulmağa başlandı. Ondan sonra bizim ordumuz hücumlara keçdi. Bir çox istiqamətlərdə, demək olar ki, bütün cəbhə boyu biz hücuma keçdik və erməni qəsbkarlarını bütün cəbhə boyu geri oturtduq. O cümlədən Füzuli .rayonunun işğal edilmiş ərazisinin bir hissəsi azad olundu. İndi burada 45-50 min əhali yaşayır.

Ancaq bizim içimizdə olan qüvvələr o dövrdə də Azərbaycanda vətəndaş müharibəsi salmaq və Azərbaycanı dağıtmaq cəhdlərindən yenə əl çəkmədilər. Məhz bunların nəticəsi idi ki, 1994-cü ilin oktyabr ayında Gəncədə başını qaldırmış Surət Hüseynov və onun dəstəsi və onunla bərabər olan XTPD, başqa dəstələr – hamısı birləşib burada dövləti devirmək istədilər. Ancaq o vaxt biz nə təyyarə qaldırdıq ki, kimisə bombalasınlar, nə cəbhədən top çıxarıb gətirdik bura, nə "Qrad" gətirdik, nə də başqa şey gətirdik. Sadəcə olaraq xalqa müraciət etdik. Xalq ayağa qalxdı.

Əgər bu Xalq Cəbhəsi doğrudan da Xalq Cəbhəsi idisə, nə üçün həmin 1993-cü ildə Surət Hüseynov, başqaları baş qaldırarkən xalqa müraciət edib xalqın gücü ilə Surət Hüseynovu yerində oturda bilmədi? Nə üçün təyyarələr göndərdilər ki, Gəncəni bombardman eləsinlər? Nə üçün tankları, topları, "Qrad" qurğularını Ağdamdan, başqa cəbhə bölgələrindən çıxarıb oraya gətirdilər ki, oranı bombalasınlar? Nə var, nə var, bir Surət Hüseynovu məhv eləsinlər. O da orada qan tökdü. Əgər bu, doğrudan Xalq Cəbhəsi idisə, xalqa müraciət edəydi, bu xalq da qalxaydı, onun qarşısını alaydı. Necə ki, biz oktyabr ayında bunu etdik. Halbuki biz heç adımızı "Xalq Cəbhəsi" qoymamışıq. Amma biz xalqıq, xalq bizik. O, xalq deyil, adını "Xalq Cəbhəsi" qoyub. Onun "Xalq Cəbhəsi" adını daşımaq haqqı yoxdur, mənəvi haqqı yoxdur. Əgər Xalq Cəbhəsi [277-278] idisə, xalq o hadisələrin qarşısını alaydı və Azərbaycan belə faciələrə gəlib çıxmayaydı.

1994-cü ilin oktyabr ayında Azərbaycan yenidən böyük bir təhlükə, böyük bir fəlakət qarşısında durdu. Amma xalq ayağa qalxdı, təhlükənin qarşısı alındı. Bundan sonra yenə də əl çəkmədilər. Bu işin içində olan və bütün bu məlumatları alan adam kimi, mən o vaxt da bilirdim və bu gün də sizə deyirəm ki, 1995-ci ilin mart

ayında Azərbaycan həqiqətən böyük bir təhlükə qarşısında idi. İş onda deyil ki, terrorçular gəlib Heydər Əliyevi qətlə yetirəcəkdilər. İş onda deyil, amma Azərbaycan dağılacaqdı. Bu təhlükə var idi, çünki bütün qüvvələr birləşmişdi. Təsəvvür edin, onda Moskvada oturan Ayaz Mütəllibov, Rəhim Qazıyev və başqaları, Xalq Cəbhəsi və Kələkidə oturan Əbülfəz Elçibəy, xarici ölkələrdən gəlmiş emissarlar birləşmişdilər. 3-4 gün bundan qabaq məhkəmə prosesi getdi, iki nəfər cəza aldı – biri Türkiyə vətəndaşı Kənan Gürel, o biri də Ayaz Mütəllibovun keçmişdə müşaviri olmuş, həmin o Kənan Gürellə, Rövşən Cavadovla, Xalq Cəbhəsi ilə, Əbülfəz Elçibəylə Mütəllibov arasında əlaqə quran və bunların hamısını bir yerə yığan Adil Hacıyev. Görün nə qədərdir, hamısı birləşiblər. Nədən ötrü? Bir-birinə zidd olan qüvvələr birləşib hərəsi özünə burada hakimiyyət payı istəyirdi.

Yenə də respublika belə ağır vəziyyətdədir. Ona görə də bu gün söhbət tək Füzuli, Qubadlı, Cəbrayıl rayonları haqqında getmir, bütün respublikanın vəziyyəti haqqında gedir. Şübhəsiz ki, Azərbaycanın bir hissəsi kimi, bu rayonların vəziyyəti bu gün burada müzakirə olunub. Füzuli rayonu, Qubadlı rayonu, Cəbrayıl rayonu Azərbaycanın ayrılmaz hissələri, gözəl guşələridir. Bu bölgələr gözəl təbiəti ilə, gözəl sərvətləri ilə və gözəl insanları ilə bütün tarix boyu Azərbaycanın inkişafında böyük rol oynayıbdır. Torpağımızın hər bir qarışının itməsi bizim üçün dəhşətlidir, ancaq belə rayonların – Qubadlı, Cəbrayıl rayonlarının və Füzuli rayonunun bir hissəsinin artıq 3 ildir ki, düşmən tapdağı altında qalması bizim üçün ağır dərddir, böyük bir faciədir.

Burada bütün başqa xüsusiyyətlərlə yanaşı, bir cəhəti də qeyd etmək istəyirəm. O da bundan ibarətdir ki, bu rayonlar Arazboyu rayonlardır, Azərbaycanın İran ilə sərhəd rayonlarıdır. Bu rayonlardan dəmir yolu xətti keçir, həmin xətt Naxçıvana gedir. İndi bunlar hamısı kəsilib, hamısı dağılıbdır. Yenə deyirəm, bu rayonların ərazisində – Füzuli, Cəbrayıl, Zəngilan [278-279] rayonunu da götürsək, Füzulinin azad olunmuş hissəsini çıxsaq, qalan hissəsində bizim İran ilə təxminən 120 kilometr sərhədimiz öz əlimizdə deyil, Ermənistan silahlı qüvvələrinin əlindədir. Təəssüflər olsun ki, erməni işğalçıları o rayonları dağıdarkən çox sərbəst Arazdan o taya, bu taya keçirlər. İrana da keçirlər və alınan məlumatlara görə, orada ticarət də edirlər və o rayonların varının-yoxunun bir hissəsini o taya keçirib satır, onlardan istifadə edirlər.

Bu rayonlarda Azərbaycanın bütün başqa bölgələri kimi, bizim böyük əmlakımız yaranmışdı. Həmin rayonların təbii sərvətləri böyükdür, təbiəti zəngindir, torpaqları zəngindir. Amma tamamilə doğru qeyd olundu ki, orada böyük əmlak da yaranmışdı, Azərbaycan xalqının, ayrı-ayrı adamların mülkü yaranmışdı. Həqiqətən, biz 70-ci illərdə o rayonları sürətlə inkişaf etdirəndən sonra insanlar özlərinə nə qədər gözəl, yaraşıqlı binalar, evlər tikdilər. Təsəvvür edin, bizim hörmətli vətəndaşımız, Azərbaycanın hörmətli şəxsiyyətlərindən biri – Şamama xanım burada qeyd etdi. O, Füzuli rayonunda 40 il kolxoz sədri olmuşdur, kolxozda işləmişdir, orada nə qədər böyük işlər görmüşdür. Elə təkcə o yox, orada nə qədər nəsillər böyük işlər görmüşlər. Xatirimdədir, biz üzümçülüyü inkişaf etdirən illərdə orada bir ildə 120 min ton üzüm istehsal olunurdu. Orada nə qədər emal zavodları yarandı, nə qədər böyük-böyük binalar tikildi. Füzuli şəhərində bir mədəniyyət sarayı tikilmişdi ki, öz gözəlliyi ilə insanları heyran edirdi. O vaxt bizim rayonlarda gözəl bir yarış var idi. Hər bir rayon istəyirdi ki, o biri rayondan gözəl mədəniyyət sarayı tiksin. Mən də bunu dəstəkləyirdim. Mən istəyirdim ki, hər bir vətəndaş özünə ev tiksin, bina tiksin. Mən istəyirdim ki, bizdə məktəblər tikilsin, xəstəxanalar tikilsin, istehsal müəssisələri tikilsin. Amma eyni zamanda mən çox istəyirdim ki, mədəniyyət ocaqları yaransın və bunlar da yarandı. Onlardan biri Füzuli rayonunda olan mədəniyyət sarayı idi. Orada mən neçə dəfə ümumrespublika müşavirələri keçirmişəm. Hər dəfə heyran olurdum ki, Füzulidə necə gözəl bir saray var, insanlar gəlib burada istirahət edirdilər, burada musiqi çalınır, mahnı oxunur, teatr tamaşaları göstərilir, mədəniyyətimiz təbliğ olunur.

Bunlar hamısı əldən getdi, dağıldı.

Yenə də deyirəm, insanlar nə qədər firavan yaşayırdılar. Bir Füzuli deyil, burada Cəbrayıl haqqında da danışdılar. Xatirimdədir, Cəbrayıl rayonu pambıq əkirdi, hər il də mən oranın [279-280] rəhbərlərini tənqid edirdim ki, onlar 2 min tondan artıq pambıq yığa bilmirlər. Sonra biz müayinə apardıq və müəyyən etdik ki, orada çox böyük üzüm bağları salmaq olar. Üzüm bağları saldıq və burada deyildiyi kimi, bir neçə ildən sonra rayonda 50 min ton üzüm istehsal olundu. İnsanlar nə qədər zənginləşdi.

Qubadlı rayonunun özünü götürün. Orada maldarlıqla yanaşı tütünçülük də inkişaf etdi. Şübhəsiz, Qubadlı rayonu ümumiyyətlə maldarlıq rayonu idi, amma eyni zamanda orada həm tütünçülüyü inkişaf etdirdik, həm də üzüm bağları saldıq. Rayonun iqtisadiyyatı nə qədər dəyişdi! Bütün bunlar insanlara yeni evlər, yeni mülklər tikmək, yaşayış şəraitini yaxşılaşdırmaq, mədəniyyəti inkişaf etdirmək üçün gözəl şərait yaratdı.

Bunlar hamısı indi əldən gedibdir və bu mülkün, bu varın sahibləri qaçqın vəziyyətində respublikanın cürbəcür bölgələrində yaşayırlar, çadırlarda yaşayırlar. Bu, şübhəsiz ki, sizi də incidir, amma bilin ki, məni də həddindən artıq incidir.

Ona görə də bu rayonların həm o illərdə başına gəlmiş bəlalar, faciələr, həm də bu 3 il müddətində həmin rayonların sakinlərinin cürbəcür yerlərdə yaşaması, onların problemləri ilə tanış olmaq üçün mən bu gün bu görüşü çox əhəmiyyətli hesab etdim. Saat 2-dən burada işləyirik. Mən heç də vaxta qənaət etmək istəmədim – bir halda ki, görüşmüşük, qoy kimin ürəyində nə söz varsa desin. Burada nə qədər çox söz deyilsə, o qədər də təəssüratımız artacaqdır.

Burada bir çox təkliflər verildi. Mən tapşırıram icra aparatıma və Nazirlər Kabinetinə ki, bu təkliflərə baxsınlar, qısa müddətdə lazımi tədbirlər görsünlər və mənə məlumat versinlər. O təkliflərin bəziləri elə dərhal

məndə çox müsbət münasibət doğurdu. Bilirsiniz ki, biz işğal olunmuş bütün rayonları azad etmək uğrunda çalışırıq. Bu barədə mən deyəcəyəm. Eyni zamanda biz indidən iş aparırıq ki, işğal olunmuş ərazilər azad olunarkən onların bərpası məsələləri ilə də məşğul olaq. Sizə məlumdur ki, bu münasibətlə mən Dünya Bankının prezidentinə xüsusi məktub yazmışam. Ondan xahiş etmişəm ki, Dünya Bankı işğal olunmuş rayonlarımızın bərpa edilməsi üçün indidən proqramlar hazırlasın, vəsait ayırsın. Dünya Bankı da buna çox müsbət münasibət göstəribdir, buraya nümayəndə heyəti gəlibdir. Mən bu məsələlər üzrə komissiya yaratmışam, baş nazirin müavini Abid Şərifovu komissiyaya sədr təyin etmişəm. Abid Şərifov Dünya Bankının nümayəndə [280-281] heyəti ilə birlikdə Füzuli rayonunun, Ağdam rayonunun işğaldan azad edilmiş yaşayış məntəqələrində olub, bütün ərazini gəziblər. O rayonlarda işğal olunmamış, ancaq atəş nəticəsində dağılmış yerlərə baxıblar. Onların bərpa olunması üçün indi lazımı tədbirlər görülür. Bu gün mən bu məsələni Abid Şərifovla müzakirə edirdim. Onun təklifləri var, mən o təklifləri də ümumiyyətlə bəyənmişəm və demişəm ki, o, Füzuli rayonunun işğaldan azad olunmuş ərazisindən daha səmərəli istifadə etmək məqsədi ilə rəsmi surətdə təklif versin.

Burada Füzuli rayonundan çıxış edənlər onlara məxsus olan torpaq sahəsinin onlara verilməsi məsələsini də qaldırdılar. Mən hesab edirəm ki, buna da baxmaq və bu məsələni də həll etmək lazımdır.

Artıq biz bu ərazilərin işğaldan azad edildikdən sonra bərpa olunması işinə başlamışıq və bu da çox böyük bir işdir. Çünki biz onları öz vəsaitimizlə, şübhəsiz ki, bərpa edə bilməyəcəyik. Doğrudur, yerindən-yurdundan didərgin düşmüş hər bir şəxs deyir ki, bizi yerimizə qaytarın, gedib sadəcə torpağın üzərində yaşayacağıq. Mən bunu anlayıram və bu sözlərin səmimiyyətinə də inanıram. Ancaq eyni zamanda biz bir dövlət kimi, şübhəsiz ki, bu məsələni həll etməliyik, qayğı göstərməliyik. Qayğı da ondan ibarətdir ki, bu bərpa məsələləri ilə dünya miqyasında Dünya Bankı məşğul olur və İkinci dünya müharibəsindən sonra Dünya Bankı məhz bu məqsəd üçün yaranıbdır. Ona görə də mən oraya müraciət etmişəm və onların müsbət cavabını almışam. Beləliklə, sizin rayonların bu gün burada meydana çıxan problemlərini daha da yaxından bildikdən sonra bunların və cari məsələlərin həlli üçün tədbirlər görülməsi haqqında mən göstərişlər verdim.

Ancaq bu görüşün ən böyük mənası ondan ibarətdir ki, biz səmimi söhbət apardıq və burada rayonları təmsil edən nümayəndələr rayon sakinləri adından bütün istədiklərini dedilər. Sizin belə əhval-ruhiyyədə olmağınız məni çox sevindirir. Ümumiyyətlə, bir sizin rayonlardan yox, işğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir. Bunlar daim mənim diqqət mərkəzimdədir. Təsadüfi deyil ki, mən bu məsələlərin həll edilməsi üçün, bu məsələlərlə məşğul olması üçün xüsusi olaraq İzzət Rüstəmovu baş nazirin müavini təyin [281-282] etmişəm. O, bu işlərlə məşğul olur. Bizdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi var, o, çox yararsız işləyirdi, orada çox böyük nöqsanlar meydana çıxmışdı. Onun rəhbərliyini mən dəyişdirdim, Gülabbas Qəhrəmanov sədr təyin olunubdur, yəqin burada iştirak edir. Görürəm, buradadır. Onu oraya təyin etmişəm, xüsusi göstəriş vermişəm və onun təcrübəsinə istinad edərək ümidvaram ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin böyük imkanları yerindən-yurdundan didərgin düşmüş bütün adamların problemlərinin həll olunmasına yönəldiləcəkdir.

Bütün beynəlxalq təşkilatlar buna cəlb olunubdur. Onların burada olan nümayəndəliklərinin hamısı bir tərəfdən İzzət Rüstəmovun təşkilatı vasitəsilə, o biri tərəfdən Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin vasitəsilə və bütün icra hakimiyyəti başçıları vasitəsilə, Nazirlər Kabineti vasitəsilə, prezidentin İcra Aparatı vasitəsilə cəlb olunmalıdır. Biz indi köçkün vəziyyətində yaşayan vətəndaşlarımızın daim qayğısına qalmalıyıq və onların problemlərini həll etməliyik. Yenə də deyirəm, mənim üçün sizin və yerindən-yurdundan didərgin düşmüş bütün insanların bugünkü vəziyyəti, problemləri bir nömrəli məsələdir, bununla da mən məşğul oluram. Bilirsiniz ki, 1994-cü ilin may ayında atəşin dayandırılması haqqında saziş imzalanıbdır. Bu sazişin imzalanmasını mən müsbət hadisə hesab edirəm və atəşkəs rejiminin iki il üç ay davam etməsini ondan da çox müsbət hadisə hesab edirəm. Bu, böyük nailiyyətdir. Düzdür, oradan-buradan cürbəcür səslər gəlir ki, bu problem istənilən səviyyədə həll olunmur, torpaqlarımızın işğaldan azad edilməsi məsələsi həll olunmur, bunu elə həll etmək lazımdır, belə həll etmək lazımdır. Siz burada dediniz ki, bunları görürsünüz, bunların bir daha mənim tərəfimdən deyilməsinə ehtiyac yoxdur. Ancaq onu bildirmək istəyirəm ki, mənim gündəlik işimin əksər hissəsini bu məsələnin həll edilməsi aparır. O gün yoxdur ki, mən bu məsələ ilə məşğul olmayım. Bütün imkanlardan bu məsələnin həll edilməsi üçün istifadə olunur.

Sizə bildirmək istəyirəm ki, məhz bunların nəticəsidir ki, iki il üç aydır ki, atəşkəs saxlanılıb. Bu dünyada nadir bir haldır. Mən Avropada olarkən, başqa ölkələrdə olarkən bunu hər dəfə qeyd edirəm. Doğrudan da, hərbi münaqişədə olan ölkələrin münaqişəsini yatırmaq üçün adətən oraya ayırıcı qüvvələr, sülhü mühafizə qüvvələri, bitərəf silahlı dəstələr daxil olur [282-283] və onların vasitəsilə atəş dayandırılır, bu ayırıcı qüvvələrin vasitəsilə atəşkəs rejimi saxlanılır. Bu, münaqişə olan bütün ölkələrdə belədir. Ancaq biz buna özümüz nail olmuşuq. Şübhəsiz ki, həm Azərbaycan dövlətinin apardığı siyasət nəticəsində nail olmuşuq, qeyd etmək lazımdır ki, bu, həm də Ermənistan tərəfinin atəşkəs rejiminin saxlanması barədə iradəsinin nəticəsidir.

Bilirsiniz ki, bu müddətdə mən çox görüşlər keçirmişəm, çox danışıqlar aparmışam, o cümlədən, – burada dedilər, – Ermənistanın prezidenti Ter-Petrosyanla da dəfələrlə görüşmüşəm, danışmışam. Xüsusən aprel ayında Lüksemburqda olarkən, Avropa Birliyi ilə saziş imzalayarkən mənim orada görüşüm, hesab edirəm ki,

çox əhəmiyyətlidir. Çünki ilk dəfə olaraq Ermənistan və Azərbaycan prezidentləri birgə bəyanat verdilər ki, atəşkəs rejiminin indiyə qədər saxlanılması müsbət hadisə kimi qiymətləndirilir. O birgə bəyanatda biz bəyan etdik ki, bundan sonra da məsələnin sülh yolu ilə həll olunmasına çalışacağıq və tam sülhün yaranmasına qədər atəşkəs rejiminin saxlanmasına söz veririk.

Hesab edirəm ki, bu, çox böyük əhəmiyyət kəsb edən bir bəyanatdır.

Ondan sonra iyun ayının əvvəlində bizim Kislovodskda görüşümüz olmuşdur. Orada görüş ikitərəfli deyil, dördtərəfli olmuşdur: Rusiya prezidenti Boris Yeltsin, Gürcüstan prezidenti Eduard Şevardnadze, Ermənistan prezidenti Ter-Petrosyan və Azərbaycan prezidenti Heydər Əliyev. Biz orada başqa məsələləri müzakirə edirdik. Eyni zamanda dörd prezident birgə bəyanat verdi ki, Ermənistan-Azərbaycan münaqişəsi sülh yolu ilə həll olunmalıdır, atəşkəs rejimi bundan sonra da saxlanılacaqdır və tərəflər – Ermənistan tərəfi və Azərbaycan tərəfi məsələnin bundan sonra da sülh yolu ilə həll olunması uğrunda addımlar atacaqlar. Bu, təkcə iki dövlət başçısının yox, bizim bölgəyə çox marağı olan qonşularımız – Gürcüstanın və Rusiyanın dövlət başçılarının iştirakı ilə verilən bəyanatdır, yəni dörd prezidentin dünyaya verdiyi bəyanatdır. Bu da, hesab edirəm ki, çox müsbət haldır, çox əlamətdar hadisədir.

Ancaq biz bununla kifayətlənmirik. Şübhəsiz ki, bunu müsbət hal hesab edərək, biz çalışırıq ki, bütün kanallardan, imkanlardan istifadə edib, məsələni sülh yolu ilə həll edək. Bunun üçün, yenə də deyirəm, cürbəcür istiqamətlərdə danışıqlar [283-284] gedir. O cümlədən, kanallardan biri ondan ibarətdir ki, Ermənistan prezidentinin şəxsi nümayəndəsi Liparidyan və Azərbaycan prezidentinin şəxsi nümayəndəsi Vəfa Quluzadə son vaxtlar Avropada bir neçə dəfə görüşlər keçiriblər, son dəfə Frankfurtda görüşüblər. O görüşlərdə də bu məsələnin sülh yolu ilə həll edilməsi problemləri müzakirə olunur. Bunlar da, hesab edirəm, bizi lap xırda-xırda olsa da, müsbət istiqamətdə aparır.

Siz hamınız burada dediniz, mən də bu fikirdəyəm ki, biz məsələni sülh yolu ilə həll etməliyik. Çünki bilirsiniz ki, müharibə nə nəticələrə gətirib çıxardı – onu biz gördük. Amma eyni zamanda biz həmişə torpaqlarımızı müdafiə etmək qabiliyyətinə malik olmalıyıq, torpaqlarımızı müdafiə etməyə hazır olmalıyıq.

Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycan bundan sonra da atəşkəs rejiminin saxlanmasına çalışacaqdır və atəşkəs rejimi bizim tərəfimizdən heç vaxt pozulmayacaqdır. Mən bu gün bir daha bəyan edirəm ki, biz sülh istəyirik, daimi sülh şəraitində yaşamaq istəyirik. Ancaq sülh o şərtlə ola bilər ki, Azərbaycanın işğal olunmuş torpaqları işğalçı silahlı dəstələrdən azad edilsin. Azərbaycanın ərazi bütövlüyü təmin olunsun, işğal altında olmuş ərazilərə, torpaqlara onların öz sakinləri qayıtsınlar, Azərbaycanın sərhədləri toxunulmaz olsun, tamamilə bərpa edilsin. Bununla bərabər, bunların nəticəsində Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilsin.

Bu prinsiplər əsasında biz sülh danışıqları aparırıq və bu prinsiplər əsasında da böyük sülhə nail olmaq istəyirik. Əgər bu prinsiplər əsasında böyük sülh əldə olunsa, mən hesab edirəm ki, bu, həm Azərbaycan üçün, həm Ermənistan üçün, həm də Azərbaycanda yaşayan, Dağlıq Qarabağda yaşayan ermənilər üçün ən yaxşı nəticə olacaqdır. Biz bu yolla gedirik, bu yolla da gedəcəyik. Bir də bəyan edirik ki, bizim tərəfimizdən atəşkəs rejimi heç vaxt pozulmayacaq. Ancaq mən görüşlərimdə də demişəm, bu gün də bəyan edirəm ki, Ermənistan tərəfi də verdiyi sözlərə riayət etməlidir, bizim verdiyimiz birgə bəyanatlara riayət etməlidir və atəşkəs rejimini pozmamalıdır.

Eyni zamanda, bəzən ordan-burdan səslər gəlir ki, ola bilər, atəşkəs rejimi Ermənistan tərəfindən pozulsun. Belə olan halda Azərbaycan ordusu, Azərbaycan xalqı hər bir belə hadi[284-285]səni dəf etməyə hazır olmalıdır. Ona görə də bizim xalqımız daim səfərbərlik vəziyyətində olmalıdır, ordumuz günü-gündən öz döyüş keyfiyyətlərini gücləndirməlidir. Bizim ordumuz daim sayıq olmalıdır, hər bir hücumun qarşısını almağa qabil olmalıdır. Biz heç kəsə hücum etmək istəmirik, çünki, mən yenə də deyirəm, bu, bizim prinsiplərimizə ziddir. Amma atəşkəs rejimi o tərəfdən pozularsa, Azərbaycan xalqı, Azərbaycan ordusu buna layiqli cavab verəcəkdir. Bizim ordumuz buna layiqli cavab verəcəkdir. Ona görə də ordumuz özünü daim hazır vəziyyətdə saxlamalıdır ki, hər bir belə hadisənin qarşısı alma bilsin.

Şübhəsiz ki, burada irəli sürdüyünüz fikirlərlə, təkliflərlə razıyam – əgər torpaqlarımız sülh yolu ilə azad olunmasa, biz nəyin bahasına olursa-olsun, torpaqlarımızı azad edəcəyik. Dünya bilməlidir, hamı bilməlidir və o cümlədən Ermənistan tərəfi də bilməlidir ki, biz heç vaxt torpağımızın bir metrini də, bir qarışını da heç kəsə verməyəcəyik. Dünya belə qalmayacaq. Heç kəs güman etməsin ki, torpaqlarımızın bir hissəsi – Dağlıq Qarabağ, yaxud başqa bir hissəsi zorla əlimizdən alına bilər. Xeyr, biz bununla heç vaxt razı ola bilmərik və heç vaxt da razı olmayacağıq. Bizim xalqımız heç vaxt bununla razı ola bilməz, Azərbaycanın prezidenti heç vaxt bununla razı ola bilməz.

Ancaq biz istəyirik ki, bölgəmizdə, Qafqazda sülh olsun. Çünki daim müharibə aparmaq olmaz, daim bir-biri ilə düşmənçilik şəraitində yaşamaq olmaz. Bunu dünya təcrübəsi özü göstərir, bunu tarix göstərir, bunu iyirminci əsrin tarixi göstərir. İyirminci əsrdə nə qədər böyük müharibələr olub – Birinci dünya müharibəsi, İkinci dünya müharibəsi, başqa müharibələr, indi gedən müharibələr – hamısı sülhlə qurtarır və müharibə edən ölkələr, dövlətlər müəyyən bir vaxtdan sonra sülh şəraitində yaşayırlar. Hamısını biz tarixdən görürük.

Ona görə də mən belə hesab edirəm ki, biz böyük sülhə nail olub sülh şəraitində yaşayacağıq. Amma eyni zamanda, bir də deyirəm, biz torpağımızın bir qarışını da, bir metrini də heç vaxt heç kəsə verməyəcəyik. Biz bütün qonşularımızla sülh şəraitində yaşamaq istəyirik. Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim [285-286] borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir. Bu, bizim şərəfli vəzifəmizdir və əmin ola bilərsiniz ki, bu vəzifənin həyata keçirilməsi yolunda mən bundan sonra da əlimdən gələni əsirgəməyəcəyəm.

Amma bu vəzifəni həyata keçirmək üçün bizim xalqımız keçmiş illərdə baş vermiş bütün hadisələrdən, faciələrdən, dəhşətlərdən nəticə çıxarmalıdır. Biz bundan sonra Azərbaycanın daxilində bir daha çəkişmələrə yol verə bilmərik və yol verməyəcəyik. Hər kəs bunu bilməlidir. Ayrı-ayrı dəstələr, qruplar, partiyalar demokratiya şəraitində yaşaya bilər, fəaliyyət göstərə bilər, ancaq Azərbaycanın Konstitusiyası çərçivəsində, Azərbaycanın qanunları çərçivəsində, sırf demokratiya prinsipləri çərçivəsində. Azərbaycan demokratik dövlətdir, hüquqi dövlətdir. Azərbaycanda demokratik prinsiplərin daim inkişaf etməsi üçün bizim dövlətimiz və mən prezident kimi bundan sonra da bütün tədbirləri görəcəyik. Azərbaycanda demokratiyanın inkişaf etdirilməsi üçün bizim gözəl Konstitusiyamız var, qanunlarımız var və Azərbaycan prezidentinin iradəsi var. Ancaq kimsə yenidən o köhnə xəstəliklərə düşmək istəyirsə, kimsə orada-burada söz buraxır ki, sabah filan yer qalxacaq, birisi gün filan yer qalxacaq, nə bilim, camaat ondan narazıdır, bundan narazıdır – və kim bundan istifadə edəcəksə, mən xəbərdarlıq edirəm, heç kəsə heç bir imkan verilməyəcək! Azərbaycanın dövlətçiliyini qorumaq üçün, Azərbaycanda yaranmış bu ictimai-siyasi sabitliyi qorumaq üçün mən bütün imkanlardan indiyə qədər istifadə etdiyim kimi, bundan sonra da istifadə edəcəyəm və heç kəs də xam xəyala düşməsin, heç kəs başqa fikirlərə düşməsin.

Mən üzərimə tarixi məsuliyyət götürmüşəm. O da ondan ibarətdir ki, Azərbaycanın belə bir dağılan vəziyyətində, parçalanan vəziyyətində mən Azərbaycana gəlib bir məqsəd daşımışam – Azərbaycanı bu fəlakətdən xilas edim, parçalanmaqdan xilas edim. Başımıza nə qədər bəlalar gəlibsə, bunlar sizin gözünüzün qabağındadır. Bu gün də Azərbaycan prezidentini silah gücü ilə aradan götürmək cəhdləri yenə kəsilməyib. Azərbaycandan qaçmış və ya Azərbaycanın içində olan nadürüst qüvvələr hələ də o xəyallarla yaşayırlar. Amma onlar da bilsinlər – heç bir şey edə bilməzlər. Heç kəs bir şey edə bilməz! Heç bir şey də məni şəxsən indiyə qədər qorxutmayıbdır və indi də qorxutmur. Mən öz üzərimə, dediyim kimi, [286-287] böyük məsuliyyət götürmüşəm. Məsuliyyət də ondan ibarətdir ki, dövlətimi möhkəmləndirim, onun müstəqil bir dövlət kimi yaşamasını təmin edim və Azərbaycan xalqını birləşdirim. Kim Azərbaycanı sevirsə, kim Azərbaycanın müstəqil dövlət olmağını istəyirsə, kim Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunmasını istəyirsə, kim Azərbaycanın ərazi bütövlüyünü istəyirsə, o, bu bayraq altında, bu şüar altında, bu sözlər altında, bu amal ətrafında birləşməlidir.

Azərbaycanın cəmiyyətini o tərəf, bu tərəfə çəkən ayrı-ayrı adamlar, Azərbaycanda gedən siyasətə kölgə salan adamlar, Azərbaycanda aparılan tədbirlərə xor baxan adamlar, Azərbaycanda həyata keçirilən bu müsbət proseslərə mənfi qiymət verən adamlar Azərbaycanın milli mənafeyinə zidd gedən adamlardır. O adamlar, o qruplar, o partiyalar heç vaxt Azərbaycan xalqından dəstək almayacaqlar, bizim cəmiyyətdən heç vaxt dəstək almayacaqlar. Onlar öz-özləri ilə vuruşa bilərlər, çarpışa bilərlər. İndi elə vəziyyət deyil ki, Rəhim Qazıyev, İsgəndər Həmidov, İsa Qəmbərov, nə bilim, o birisi, bu birisi burada öz iddiasını yerinə yetirsin. Heç kəsə belə imkan verilməyəcəkdir, heç kəsə!

Ona görə də bunun üstündə dururam ki, biləsiniz – bəli, əsas məqsədimiz işğal olunmuş torpaqları azad etməkdən ibarətdir və bu sahədə indiyə qədər görülən işlər bu torpaqların sülh yolu ilə azad olunması üçün əsas yaradıbdır. Bu da bizim əldə etdiyimiz müsbət nəticələrdir. Bəli, məqsədimiz Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Azərbaycan heç bir ölkənin təsiri altına düşməyəcəkdir. Azərbaycan öz müstəqilliyini qoruyacaqdır. Bu da bir prezident kimi mənim siyasətimin əsas ana xəttidir. Bunun üçün də hamı birləşməlidir. Bunun üçün də hamı bir yolla getməlidir. Burada başqa bir yol yoxdur. Başqa yolla gedən adam, demək, başqa məqsəd daşıyır. O məqsədlərə bu gün Azərbaycanda yer yoxdur! Bunu bilsinlər.

Respublikamızda iqtisadi çətinliklər var, onlar sizə məlumdur, onların da qarşısı alınır. Aparılan tədbirlər, hesab edirəm ki, Azərbaycanın iqtisadiyyatında müsbət meylləri get-gedə artıracaqdır və iqtisadiyyatımızda müsbət dəyişikliklər əmələ gələcəkdir. Bütün bu iqtisadi tədbirlərdə, iqtisadi islahatlarda məqsədimiz birdir: xalqın rifah halını yaxşılaşdıraq, sosial ədaləti təmin edək, bütün islahatlarda onun sosial yönümünü üstün tutaq, qaçqınların, yerindən-yurdundan didərgin düşmüş, evini itirmiş, varını itirmiş, mülkünü itirmiş, hər şeyini itirmiş [287-288] insanların qayğısına qalaq. Məqsəd bundan ibarətdir. Məqsəd ayrı-ayrı adamların böyük-böyük sərvət toplamasından ibarət deyil. Məqsəd bundan ibarətdir. İslahatların məqsədi budur, islahatların son nəticəsi budur və biz bu islahatları bundan ötrü aparırıq. Ayrı-ayrı adamlara şərait yaratmaqdan ötrü yox.

Mən həyatım, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam. Bu gün də bu fikirlərlə yaşayıram. Bu gün siz burada mənim

haqqımda çox, həddindən artıq çox sözlər dediniz, mənə xoş arzularınızı bildirdiniz. Təşəkkür edirəm. Amma bilin ki, mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışıram və çalışacağam.

Bilin ki, mənim məqsədim də budur, amalım da budur, həyatımın mənası da budur. Həyatımın bu mənasını mən hər şeydən üstün tuturam. Necə ki, siz dediniz, mənimləsiniz, mən də sizinləyəm. Mən sizə arxalanıb Azərbaycana yenidən gəlmişəm, Bakıya gəlmişəm. Mən sizə arxalanıb belə cəsarətli siyasət aparıram. Mən sizə, xalqa arxalanıb belə cəsarətli addımlar atıram. Mən sizə, xalqa arxalanıb dünya miqyasında belə cəsarətli müstəqillik siyasəti aparıram. Bu, asan deyil, bunu bilin. Gənc, hələ möhkəmlənməmiş, yaralı ölkəyik, çünki torpaqlarımızın bir hissəsi işğal olunub. Yaralı bir ölkə üçün bu cür cəsarətli, müstəqil siyasət aparmaq asan bir şey deyil. Bu siyasəti mən ona görə apara bilirəm ki, bu, mənim iradəmdir, bu, mənim həyatımın məqsədidir, mənasıdır və həm də mən xalqa arxalanıram, sizə arxalanıram. Sizin bu barədə fikirlərinizi bilərək belə cəsarətli siyasət aparıram.

Ona görə sizin burada mənim haqqımda dediyiniz xoş sözlərə görə, xoş arzularınıza görə təşəkkür edirəm və sizi əmin edirəm ki, mən Azərbaycan xalqına, onun milli mənafeyinə, onun müstəqilliyinə, bu gününə və gələcəyinə daim sadiq olacağam.

Sizin hamınıza cansağlığı arzu edirəm. Məndən bütün Füzuli, Qubadlı, Cəbrayıl camaatına, bacı-qardaşlarımıza salam söyləyin, mənim xoş arzularımı onlara çatdırın. Sağ olun. [288-289]

## HİNDİSTAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ RASENDRA MADNUKAR ABHUANKARIN ETİMADNAMƏSİNİN TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident sarayı*

*9 sentyabr 1996-cı il*

Hindistan ilə Azərbaycan əlaqələrinin böyük tarixi var. Biz keçmiş əsrlərdə olan bu əlaqələri və bugünkü əlaqələri yüksək qiymətləndiririk. Hindistan Asiya qitəsinin böyük ölkəsi, dünyanın ən böyük ölkələrindən biridir. Biz Hindistan ilə Azərbaycan arasında əlaqələrin bundan sonra da inkişafına xüsusi əhəmiyyət veririk. Hindistan və Azərbaycan xalqlarının keçmişində, adət-ənənələrində çox oxşarlıq, bənzərlik var. Bunlar hamısı keçmiş zamanlardan indiyə qədər xalqlarımızı bir-birinə daim yaxınlaşdırıbdır. Hazırda bir çox məsələlər barəsində, xüsusən beynəlxalq aləmdə baş verən hadisələr barəsində fikirlərimiz, mövqelərimiz üst-üstə düşür, biz eyni fikirləşirik, eyni mövqedən çıxış edirik.

Hindistan xüsusən dövlət müstəqilliyi əldə etdikdən və ölkələrimiz arasında əlaqələr genişləndikdən sonra onun mədəniyyəti, adət-ənənələri Azərbaycanda geniş təbliğ olunmuşdur və böyük hüsn-rəğbətlə qarşılanmışdır. Siz ölkəmizlə tanış olarkən hind mahnılarının Azərbaycanda nə qədər məşhur olduğunu hiss edəcək və görəcəksiniz ki, müğənnilərimizin, gənclərimizin çoxu bu mahnıları böyük həvəslə ifa edirlər. Ancaq Azərbaycanda Hindistana maraq təkcə mahnılarla bitmir. Hind xalqının dövlət müstəqilliyi uğrunda mübarizəsi və bu müstəqilliyin əldə olunması Azərbaycanda böyük hüsn-rəğbətlə qarşılanmışdır. Dövlət müstəqilliyi uğrunda mübarizədə [289-290] hind xalqının böyük lideri Cəvahirləl Nehru və sonra Hindistana rəhbərlik edən şəxslər, xüsusən İndira Qandi, Raciv Qandi və başqaları Azərbaycanda hörmət və ehtiram hissi ilə yad edilirlər.

Şəxsən mən də vaxtilə Hindistanın belə görkəmli rəhbərləri ilə tanış olmuşam və görüşmüşəm. Ona görə də bu, bizim əlaqələrimizdə xüsusi bir səmimiyyət yaradıbdır. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən, müstəqil dövlət kimi dünyada öz yerini tutduqdan sonra ölkələrimiz arasında əlaqələr inkişaf edir. Öz tərəfimizdən biz bu əlaqələrin inkişaf etməsinin, sürətlənməsinin tərəfdarıyıq. Güman edirəm ki, Hindistanın Azərbaycanda səfiri kimi siz bu əlaqələrin inkişafı üçün səy göstərəcəksiniz. Azərbaycanda isə bu səyləriniz üçün bütün imkanlar, şərait yaradılacaqdır. Ümidvaram ki, Hindistan ilə Azərbaycan arasında əlaqələr bundan sonra gündən-günə genişlənəcək və biz bu əlaqələrin yeni nailiyyətlərinin şahidi olacağıq.

Sizi bir daha təbrik edir və ümidvar olduğumu bildirmək istəyirəm ki, Hindistan-Azərbaycan əlaqələrinin inkişafı üçün layiqli xidmətlərinizi göstərəcəksiniz. [290-291]

## AKADEMİK YUSİF MƏMMƏDƏLİYEVİN 90 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ GECƏDƏ NİTQ

*Respublika Sarayı*

*10 sentyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli alimlər, müəllimlər!

Yusif Məmmədəliyevin 90 illik yubileyi münasibətilə sizi təbrik edirəm, hamınıza cansağlığı, səadət, Azərbaycan elminə yeni uğurlar arzulayıram.

Yusif Məmmədəliyevin 90 illik yubileyinin respublikamızda geniş miqyasda keçirilməsi, yubileyə həsr olunmuş bu təntənəli mərasim xalqımızın öz tarixində olan hörmətli, Azərbaycanın tarixi görkəmli şəxsiyyətlərinə verilən qiyməti göstərir, xalqımızın, millətimizin Azərbaycan elminə hörmətini göstərir.

Yusif Məmmədəliyev 1905-ci ildə Azərbaycanın gözəl guşələrindən biri Ordubad şəhərində anadan olub, öz fitri istedadı, fədakarlığı, vətənpərvərliyi ilə qısa bir müddətdə dünyada, xalqımızın arasında, respublikamızda görkəmli yer tutub və tarixi şəxsiyyətlərdən birinə çevrilmişdir. Xalqımız Yusif Məmmədəliyev kimi şəxsiyyətlərlə tanınır və fəxr edir. Çünki belə insanlar, şəxsiyyətlər Azərbaycan xalqının zəkasını, elmini, mədəniyyətini, daxili mənəviyyatını dünyaya nümayiş etdirir. Elə bunun özü Yusif Məmmədəliyev kimi şəxsiyyətlərin xalq qarşısında olan böyük xidmətidir.

Yusif Məmmədəliyev xalqımızın tarixinə böyük alim, maarifçi, təşkilatçı, görkəmli ictimai-siyasi xadim kimi daxil olubdur. O, öz elmi fəaliyyəti, elmi əsərləri, ixtiraları ilə Azərbaycan elminin inkişafına böyük təkan verib və dünya elminə, xüsusən dünya neft kimyası elminə görkəmli töhfələr veribdir. Yusif Məmmədəliyevin elmi fəaliyyəti, alimliyi həm geniş nəzəri xarakter, eyni zamanda çox əməli, tətbiqi xarakter daşıyır. Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə bir[291-292]ləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur. Yusif Məmmədəliyev məhz belə alim olmuşdur.

Onun elmi axtarışları böyük ixtiralara, yeni elmi konsepsiyaların, əsərlərin yaranmasına gətirib çıxarmışdır. Yusif Məmmədəliyev ixtiraları, elmi tapıntıları, fikirləri Azərbaycanın neft kimyası sənayesində böyük inqilab yaratmışdır. O, təkcə Azərbaycanın yox, Sovetlər İttifaqı adlanan böyük ölkənin neft kimyası sənayesində böyük inqilab yaratmış, hadisəyə çevrilmiş və bütün bunlar da neftdən yeni yüksək keyfiyyətli məhsulların istehsal olunub ölkənin istifadəsinə verilməsi kimi əməli nəticəyə gətirib çıxarmışdır. Yusif Məmmədəliyevin alimliyinin, elmi xidmətinin, elmə verdiyi faydanın mənası bundan ibarətdir.

Azərbaycan neft diyarıdır. Bizim alimlərimiz neft sahəsində – neft yataqlarının axtarılması, tapılması, kəşf olunması, neftin hasilatı və xüsusən neftdən, onun emalından məhsullar alınması sahəsində daim işləmişlər. Hesab edirəm ki, bu, sənayenin ən əsas hissəsidir. Çünki yerin altında olan neft təbiətin yaratdığı sərvətdir. Amma neftdən alınan cürbəcür məhsullar, şübhəsiz ki, insanların elmi ixtiralarının, istedadının nəticəsidir. Yusif Məmmədəliyevin nəinki Azərbaycanda, keçmiş Sovetlər İttifaqında, böyük bir ölkədə bu sahədə – neft kimyası sənayesində gördüyü işlər böyük fayda vermişdir, yenə də deyirəm, yüksək qiymət almışdır.

Xüsusən İkinci dünya, Böyük Vətən müharibəsi zamanı, faşizmlə ölüm-dirim mübarizəsi zamanı Azərbaycan neftinin nə qədər əhəmiyyətli və hansı xidmətləri olduğunu bütün dünya artıq bilir, İkinci dünya müharibəsi zamanı – faşist Almaniyası Sovetlər İttifaqına hücum edəndən, Böyük Vətən müharibəsi başlanandan sonra dörd il gedən müharibədə Azərbaycan nefti olmasaydı, faşizm üzərində qələbə çalmağın necə, hansı səviyyədə olacağını demək çətin olardı. O vaxt Sovetlər ölkəsində hasil edilən neftin 70-80 faizi Azərbaycanda, Bakıda çıxarılırdı. Ancaq iş təkcə bu neftin çıxarılması deyildi, əsas məsələ bundan neft məhsulları alınması və o məhsulların keyfiyyəti idi. Bax, bu sahədə Yusif Məmmədəliyevin xidmətləri həddindən artıq qiymətlidir və tarixi əhəmiyyət kəsb edir.

Böyük Vətən müharibəsi zamanı o böyüklükdə ölkənin neft təchizatının 70-80 faizi Azərbaycandan gedirdi. Müharibə [292-293] aparan motorların – təyyarələrin, tankların, avtomobillərin, zirehli maşınların, cürbəcür digər döyüş texnikasının işləməsi üçün istifadə edilən neft məhsullarının hamısı respublikamızda istehsal olunurdu. Onların keyfiyyətindən çox şey asılı idi. Bəli, bu gün biz tarixdə qeyd edə bilərik ki, o illərdə Azərbaycanda on milyon tondan artıq yüksək keyfiyyətli, yüksək oktanlı benzin istehsal olunub, Vətənin müdafiəsi, müharibənin aparılması üçün göndərilibdir. Bunların hamısı Yusif Məmmədəliyevin icad etdiyi, axtarıb tapdığı, tətbiq etdiyi, elmi nəticələr əsasında olmuşdur. Ona görə də Yusif Məmmədəliyevin elm sahəsindəki xidmətlərini onun təkcə elmi məqalələri, başqa əsərləri ilə yox, bax, bunlarla qiymətləndirmək

lazımdır. Yusif Məmmədəliyev həqiqətən, sözün əsl mənasında çoxşaxəli, çoxsahəli fəaliyyəti olan böyük bir alimdir.

Yusif Məmmədəliyev böyük maarifçi olubdur. O, ilk əmək fəaliyyətinə müəllimliklə başlayıb. Ordubadda, Gəncədə, Bakıda, Yerevanda və başqa yerlərdə müəllim işləyib. Müəllimlik çox şöhrətli bir sənətdir. Həqiqi müəllim olmaq cəmiyyət üçün, doğrudan da, çox qiymətlidir. Yusif Məmmədəliyev də ilk addımlan müəllimliklə atıb. Ancaq onun maarifçiliyi müəllimlik fəaliyyəti ilə bitmir. Bəli, o, Ordubadda da, Gəncədə də müəllim olubdur. Ancaq o Azərbaycan Dövlət Universitetində, Dövlət Neft və Kimya İnstitutunda, başqa institutlarda da, Moskva ali məktəblərində də müəllimlik edibdir. Eyni zamanda o, çox böyük maarifçi olubdur. Azərbaycan maarifinin inkişaf etdirilməsində onun böyük xidmətləri vardır. Onun mühazirələri, tələbələrə verdiyi biliklər, göstərdiyi qayğı Yusif Məmmədəliyevin həqiqi mənada müəllim olduğunu nümayiş etdiribdir. Ona görə də hafizəmizdə, xatirəmizdə o böyük müəllim kimi yaşayır və müəllim kimi də yaşayacaqdır.

Yusif Məmmədəliyev Azərbaycanda elm təşkilatçılığında da böyük rol oynayıbdır. Ayrı-ayrı alimlər öz əsərləri ilə tanınır. Amma elmi təşkil edənlər, elmi inkişaf etdirənlər öz əsərlərindən savayı, xidmətləri ilə də tanınır və qiymətləndirilir. Yusif Məmmədəliyev daim elmin təşkilatçısı olubdur. O, kafedra müdiri olanda da elmin təşkilatçısı olmuş, ətrafına yığdığı adamlara elmi öyrətmişdir.

O, Elmlər Akademiyasının prezidenti, universitetin rektoru işləyərkən də Azərbaycan elminin böyük təşkilatçısı olmuşdur. 1945-ci ildə Azərbaycanda Elmlər Akademiyası yaranarkən Yusif Məmmədəliyev Elmlər Akademiyasını təsis edən 15 [293-294] görkəmli şəxsiyyətdən biri olubdur. Ona görə də onlar Azərbaycanın ilk akademikləri hesab ediliblər. Mirəsədulla Mirqasımovla, Mustafabəy Topçubaşovla, Səməd Vurğunla, Şirokoqorovla, Yesmanla, Mikayıl Hüseynovla birlikdə Yusif Məmmədəliyev Azərbaycan Elmlər Akademiyasının təsisçisi olmuşdur. Amma eyni zamanda, Elmlər Akademiyası təşkil olunandan cəmi iki il sonra, yəni Azərbaycanda Elmlər Akademiyası ilk addımlarını atmağa başlayarkən Yusif Məmmədəliyev respublika EA-nın prezidenti seçilmiş, prezident kimi çox böyük işlər görmüşdür. Burada onun həyat yolu haqqında danışanlar bu barədə dedilər. Ancaq qeyd etmək istəyirəm ki, indi artıq 50 il yaşı olan Azərbaycan Elmlər Akademiyasının elmi tədqiqat institutlarının əksəriyyəti məhz Yusif Məmmədəliyevin Elmlər Akademiyasının prezidenti işlədiyi zaman təşkil olunubdur. Bax, elmin təşkilatçısı budur. Buna görə də Yusif Məmmədəliyev çox yüksək qiymətə layiq bir alimdir.

Yusif Məmmədəliyev 1947-ci ildən 1950-ci ilə qədər, sonra da 1958-ci ildən 1961-ci ilədək akademiyanın prezidenti olmuşdur. Akademiyanın prezidenti vəzifəsinə bu görkəmli alimin ikinci dəfə dəvət edilməsi onu göstərmişdir ki, Yusif Məmmədəliyev 1950-ci ildə subyektiv səbəblərə görə vəzifədən azad olunmuşdur. O, akademiyanın tərkibində öz işini davam etdirmiş, sonra universitetin rektoru işləmiş və Elmlər Akademiyası Yusif Məmmədəliyevə yenidən ehtiyac duymuşdur. O, 1958-ci ildə Elmlər Akademiyasına prezident seçilmiş və ömrünün sonuna qədər prezident kimi yaşamışdır.

Elmlər Akademiyasının prezidenti, Azərbaycan elminin ən yüksək zirvəsində duran bir alim kimi, şəxs kimi Yusif Məmmədəliyev respublika elminin bütün sahələrinin inkişaf etdirilməsində xidmətlər göstərmişdir. Onun bu xidmətləri unudulmur və bu gün də, gələcəkdə də yad ediləcəkdir.

Dedim ki, Yusif Məmmədəliyev böyük maarifçi olmuşdur. Onun maarifçiliyi görkəmli alimin Azərbaycan Dövlət Universitetinə rektorluq etdiyi zaman özünü ən yüksək səviyyədə, bariz şəkildə göstərmişdir. Yusif Məmmədəliyev Azərbaycan Dövlət Universitetinə rəhbərlik etdiyi zaman çox işlər görmüş, universiteti genişləndirmiş, inkişaf etdirmiş, yeni kafedralar açılmışdır. Ən önəmlisi odur ki, o, universitetin elmi, ümumi mədəni səviyyəsini qaldırmışdır.

Elm xadimi kimi, ictimai-siyasi xadim kimi Azərbaycan elmində görkəmli yer tutan və respublikamızın ziyalıları içərisin[294-295]də çox böyük hörmət qazanan Yusif Məmmədəliyev Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının inkişafında da əvəzsiz xidmətlər göstərmişdir. O, Üzeyir Hacıbəyovla, Səməd Vurğunla çiyin-çiyinə respublikamızın incəsənətini, mədəniyyətini irəliyə aparmaq üçün çox işlər görmüşdür. O, humanitar sahələrə, elmin mədəniyyətlə, ədəbiyyatla, tarixlə əlaqədar sahələrinə həddindən artıq fikir vermiş və onlarla bilavasitə məşğul olmuşdur. Buna görə də Yusif Məmmədəliyev bir alim kimi, bir insan kimi, hərtərəfli yüksək keyfiyyətlərə malik şəxsiyyət kimi tanınmışdır.

Mən Yusif Məmmədəliyevin 41-45-ci illərdəki elmi nailiyyətləri nəticəsində neft kimyası sənayesində baş vermiş böyük dəyişikliklərdən danışdım. Ancaq qeyd etmək istəyirəm ki, Yusif Məmmədəliyevin elmi əsərləri, ixtiraları, qoyduğu elmi iz və yaratdığı elmi-texniki müəssisələr Azərbaycanda sonrakı dövrdə neft kimyası elminin və xüsusən neft kimyası sənayesinin inkişafında əvəzsiz rol oynamışdır. Burada məndən öncə çıxış edən natiqlər bu barədə məlumat verdilər. 70-80-ci illərdə Azərbaycan sənayesində aparıcı və çox böyük əhəmiyyətli sahələrdən biri olan neft kimyası sənayesini biz sürətlə inkişaf etdirməyə nail olduq. Bilindiyi kimi, o vaxtlar Bakıda da, Sumqayıtda da, Azərbaycanın başqa bölgələrində də nəhəng neft kimyası kompleksləri tikildi. Onların əksəriyyəti Yusif Məmmədəliyevin əsərləri, onun qoyduğu elmi irs və onun tələbələrinin əsərləri əsasında yaradılmışdır. Xatirimdədir, 70-ci illərin əvvəllərində mən Azərbaycanda neft emalının tamamilə yenidən qurulmasına dair məsələləri Moskvada qaldırarkən, Azərbaycanda yeni neft kimyası sənayesinin

yaranması haqqında təkliflər irəli sürərkən və çox böyük müqaviməti dəf edərək həmin təklifləri həyata keçirməyə nail olarkən respublikada yaranmış elmi-texniki potensiala əsaslanırdım, Azərbaycanda Yusif Məmmədəliyevin və onun tələbələrinin, silahdaşlarının qoyduğu elmi irsə əsaslanırdım və onların nəticəsində Azərbaycan kimyasının, neft kimyasının inkişaf etdirilməsi üçün yeni-yeni böyük sənaye müəssisələrinin yaradılmasına nail olmağa çalışırdım. Biz buna nail olduq.

Bu gün iftixar hissi ilə demək olar ki, biz o vaxt bütün neft emalı sənayesini yenidən yaratdıq, yüksək keyfiyyətə nail olduq, Sumqayıtda müasir tələblərə cavab verən böyük kimya kompleksləri yaratdıq. Bu barədə burada məlumat verildi. Bunların hamısı, bir tərəfdən Azərbaycanın iqtisadi potensialı[295-296]nın güclənməsinə, digər tərəfdən isə, Azərbaycan xalqının rifahının yüksəlməsinə gətirib çıxarmışdır. Burada da Yusif Məmmədəliyevin xidmətləri həmişə xatırlanıbdır və biz bunu heç vaxt unutmamışıq, unutmayacağıq da. Bütün bunlara görə də Yusif Məmmədəliyev təkcə Azərbaycanda yox, o vaxtlar keçmiş Sovet İttifaqında da tanınmış böyük alim idi və ölkədə Azərbaycanı layiqincə təmsil etmişdir. 1945-46-cı illərdə Sovet İttifaqının Neft Sənayesi Nazirliyinin elmi-texniki şurası yaradılanda bu şuraya rəhbərlik Yusif Məmmədəliyevə həvalə olunmuşdur. Bu, heç də təsadüfi bir hal deyildi. Amma eyni zamanda bilmək lazımdır ki, bu, adi bir şey də deyildi. Çünki o zaman, o dövrdə Sovet İttifaqının sənaye sistemində neft sənayesi ən görkəmli yer tuturdu, ən böyük sənaye kompleksi idi. Orada, Moskvada böyük bir dövlətin yüksək sənaye kompleksinin elmi-texniki şurasının rəhbəri Yusif Məmmədəliyevin – azərbaycanlının, Azərbaycan xalqının nümayəndəsinin olması təkcə Yusif Məmmədəliyev üçün deyil, həm də bütün Azərbaycan xalqı üçün iftixar hissi doğururdu. Bunları da heç vaxt unutmaq lazım deyil.

Yusif Məmmədəliyev 1958-ci ildə SSRİ Elmlər Akademiyasının müxbir üzvü seçildi. Bu da Azərbaycan elminin tarixində ilk hadisə idi, yəni ilk azərbaycanlı elə mötəbər elm ocağının üzvü seçildi. Bilirsiniz, zaman dəyişir, bəzən insanlar ayrı-ayrı məsələlərə cürbəcür qiymət vermək istəyirlər. Amma elə məfhumlar var ki, onlar heç vaxt dəyişməyəcəkdir. SSRİ Elmlər Akademiyası 250 il tarixi olan, dünyada ən məşhur Rusiya Elmlər Akademiyasının davamı idi, dünyada tanınmış elm mərkəzi və dünyanın ən tanınmış alimlərinin toplandığı bir yer idi. Bəli, Azərbaycan elmi gənc elmdir. O vaxtlar Azərbaycanda da alimlər vardı. Amma Yusif Məmmədəliyev ilk Azərbaycan alimi idi ki, həmin akademiyanın müxbir üzvü seçildi. Mən heç şübhə etmirəm ki, vaxtsız ölüm onu bizim əlimizdən almasaydı, o, akademiyanın mütləq həqiqi üzvü də olacaqdı, Azərbaycanı elm sahəsində daha yüksək səviyyələrdə də təmsil edəcəkdi.

Dediyim kimi, Yusif Məmmədəliyevin alim kimi, ictimai-siyasi xadim kimi fəaliyyəti çoxşaxəli, çoxsahəli olmuşdur. Bu da onun təkcə sırf alim olduğundan irəli gəlmirdi. Bu, onun şəxsi keyfiyyətlərindən, şəxsi xüsusiyyətlərindən irəli gələn bir hal idi. Çünki Yusif Məmmədəliyev hərtərəfli hazırlığa malik bir adam idi. Bir tərəfdən o, fitri istedadına görə cəmiyyətdə, tə[296-297]biətdə olan hər bir şeyi çox yüksək səviyyədə dərk edirdi və bunlardan istifadə edirdi. Digər tərəfdən isə, öz üzərində çox işlədiyinə görə, öz bilik sahəsini daim genişləndirdiyinə görə belə keyfiyyətlərə malik bir adam idi.

Yusif Məmmədəliyev çox mədəni bir insan idi. Mən onu şəxsən tanıyırdım, onunla dəfələrlə görüşmüşdüm və buna görə də mənim bu sözlərim kitablardan oxuduğum, yaxud kimdənsə eşitdiyim sözlər deyildir. Bunlar onunla şəxsi təmasdan aldığım təəssüratlardır. O, həddindən artıq mədəni və eyni zamanda çox təvazökar bir insan idi, millətini, xalqını həddindən artıq sevən adam idi, vətənpərvər bir insan idi, Vətəni haqqında, milləti haqqında, xalqı haqqında daim düşünən bir insan idi. Bu insanın siması həm zahirdən, həm də daxildən onun nə qədər yüksək keyfiyyətlərə malik olduğunu nümayiş etdirirdi. O, sözün əsl mənasında ziyalı idi. Təkcə biliyinə görə yox, davranışına görə də, zahiri görünüşünə görə də, insanlarla danışıq tərzinə görə də, münasibətlərinə görə də ziyalı idi. Ona baxdıqda insan onun nə qədər yüksək mədəniyyətə malik olduğunu hiss edirdi. Mən yenə də bu ifadəni tam dolğunluğu ilə sizə çatdırmaq üçün demək istəyirəm ki, o, sözün əsl mənasında ziyalı idi.

Mən onun təvazökarlığını da şəxsən dəfələrlə hiss etmişəm. Xatirimdədir, bizim hamımızın, Bakı sakinlərinin çox sevdiyi Dənizkənarı bulvarda bazar günü gəzişərkən mən onunla dəfələrlə görüşmüşəm, birlikdə gəzişmişik. Bazar günü o, bulvara çıxanda adətən özü ilə fotoaparat da götürər, şəkillər çəkərdi. O vaxtlar akademiyanın prezidenti kimi adamlara yaxın gəlmək də çətin idi. Lakin buna baxmayaraq, Yusif Məmmədəliyev insanlara o qədər mehriban münasibət göstərirdi ki, onlar istər-istəməz ona yaxınlaşır, onunla söhbət edirdilər.

Onun həyatı çox zəngin olubdur. Az yaşasa da çox xoşbəxt həyat sürübdür. Ancaq onun həyat yolu o qədər də hamar olmayıbdır. Məsələn, 1950-ci ildə, akademiyanın işini güclü surətdə inkişaf etdirdiyi bir zamanda heç bir səbəb olmadan o, akademiyanın prezidenti vəzifəsindən azad edildi. Amma bu, onu əsla sıxmadı və sındırmadı. Akademiyanın tərkibində bir şöbəyə akademik katib kimi rəhbərlik etməkdə davam etdi. Amma sonra hiss etdilər ki, o, lazımdır və onu Azərbaycan Dövlət Universitetinə rektor vəzifəsinə dəvət etdilər. Nəhayət, hiss etdilər ki, o, akademiyaya yenə də lazımdır. Buna görə də [297-298] onu Elmlər Akademiyasına prezident vəzifəsinə yenə də dəvət etdilər.

Qəfil ölüm onun həyatını dayandırdı. Xatirimdədir, 1961-ci ildə onun vəfatı haqqında məlumat yayılarkən Azərbaycan böyük kədərə büründü. Bu dəfə də o, təvazökarlıq etmişdi. Bir xəstəliyə görə cərrahiyyə

əməliyyatı aparmaq lazım imiş. Ona təklif etmişdilər ki, bəlkə Moskvaya getsin və bu əməliyyatı Moskva cərrahları aparsınlar. Amma o demişdi ki, yox, mən öz cərrahlarımıza inanıram və öz Vətənimə inanıram. Ancaq təəssüflər olsun ki, cərrahiyyə əməliyyatından sonra o, qəflətən həyatdan getdi.

Qeyd edim ki, o kədərli günlər mənim xatirimdədir. Mən onun dəfn mərasimində əvvəldən axıradək iştirak etdim və bir vətəndaş kimi, Yusif Məmmədəliyevə böyük hörməti olan bir insan kimi kədərli günləri xalqla birlikdə yaşadım. Yusif Məmmədəliyev 35 ildir həyatdan gedib. Ancaq onun irsi yaşayır, tələbələri onun işini davam etdirirlər, onun adı xalqımızın qəlbində yaşayır. Onun xatirəsi əbədiləşdirilib. Bu barədə deyildi. Ordubadda onun doğulduğu evi 70-ci illərdə biz Yusif Məmmədəliyevin ev-muzeyinə çevirdik, orada ev-muzeyi təşkil olundu. Mən o evi bir-iki dəfə ziyarət etmişdim. İlk dəfə oraya gedərkən çox maraqlanırdım ki, görüm, Yusif Məmmədəliyev hansı evdə doğulub. Ondan sonra isə mənim sərəncamımla orada ev-muzeyi yaradıldı.

Doğrudur, Azərbaycanda bu qarmaqarışıq illərdə o ev-muzeyi də unudulmuşdu. Mən 90-cı ildə Naxçıvana gedəndə bununla dərhal maraqlandım. Sonra o ev-muzeyi bərpa olundu və Ordubadda Yusif Məmmədəliyevin doğulduğu ev indi ev-muzeyi kimi fəaliyyət göstərir. Bu gün mən bir qərar da qəbul etdim: İstiqlal küçəsində, yəni akademiyanın köhnə binasının yanında Yusif Məmmədəliyevin heykəli qoyulsun.

Yusif Məmmədəliyev kimi şəxsiyyətlər daim yaşayırlar. Bu gün bu möhtəşəm salona toplaşanların hamısı Vətənini sevən insanlardır, buraya gəliblər ki, öz millətinə, öz tarixinə olan hörmətini və Yusif Məmmədəliyev şəxsiyyətinə olan hörmətini bildirsinlər.

Yusif Məmmədəliyev heç vaxt unudulmayacaq, zaman keçdikcə onun Azərbaycan xalqının tarixindəki yeri daha da açıq görünəcəkdir və insanlar, gələcək nəsillər Azərbaycanın belə şəxsiyyətləri ilə fəxr edəcəklər.

Biz bu gün buraya məhz Yusif Məmmədəliyevə, Azərbay[298-299]can elminə olan hörmət və ehtiramımızın hökmü ilə gəlmişik. Yusif Məmmədəliyevin gördüyü işlər, onun siması, onun xatirəsi qəlbimizdə daim yaşayacaq və Azərbaycan xalqının dövlət müstəqilliyi yolu ilə irəli getməsinə kömək edəcəkdir. Sağ olun.

## YUBİLEY GECƏSİNİN BƏDİİ HİSSƏSİ BAŞA ÇATDIQDAN SONRA MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Yusif Məmmədəliyevin xatirəsini bu gün hamımız birlikdə yad etdik. Hazırladığınız bu ədəbi-musiqili kompozisiya hesab edirəm ki, Yusif Məmmədəliyevin təbiətinə, mənəviyyatına uyğundur. Ona görə də mən sizə təşəkkür edirəm. Gördüm ki, bu gecəni siz hamınız ürəklə, candan-qəlbdən aparırdınız. Bunların hamısı məni çox sevindirir. Həyatımızın bu çətinliklərinə baxmayaraq, mədəniyyət xadimlərimiz öz sənətlərini sevirlər və onu xalqa çatdırmaq istəyirlər. Çox gözəl gecə oldu.

Sənətinizi nə qədər sevdiyinizi mən bilirəm. Xor kapellası yaşamalıdır. Məhz sənətinizi sevdiyinizə görə də xoru itirmirsiniz. Bu, məni çox sevindirir. Keçmiş vaxtlarda da mən xor kapellasının yaşamasına və ümumiyyətlə, Azərbaycanda xor sənətinin inkişaf etməsinə çalışırdım. Bu, bizim üçün lazımdır. Sağ olun ki, bunu yaşadırsınız. Hamınıza təşəkkür edirəm...

Mən hesab edirəm ki, Yusif Məmmədəliyev bu təntənəli mərasimlərin hamısına layiqdir və öz nitqimdə qəlbimdən gələn sözləri bildirdim. Bunlar sadəcə söz deyil, hamısı Yusif Məmmədəliyevin şəxsiyyəti, xidmətləri və onun Azərbaycan xalqına qoyub getdiyi irs haqqında çox düşünülmüş, formalaşmış fikirlərdir. Yusif Məmmədəliyevin indiyədək belə yubileyi keçirilməmişdir. Arzu edirəm ki, bu yubiley tədbiri sonuncu olmasın. Hər halda mən elə bir ənənə yaratdım ki, onu sonralar sındırmaq çətin olacaqdır. Biz belə şəxsiyyətləri birinci yad etməliyik. Xalq məhz belə insanlarla tanınır. Yusif Məmmədəliyev də onlardan biridir. O, xalqımızın fəxridir. [299-300]

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN NÖVBƏDƏNKƏNAR SESSİYASINDA NİTQ

*11 sentyabr 1996-cı il*

Hörmətli Milli Məclis, hörmətli deputatlar!

Rəsul Quliyevin elan etdiyi müraciətlə əlaqədar bir neçə söz demək istəyirəm.

Rəsul Quliyev 1995-ci ilin aprel ayında ilk dəfə mənə özünün xəstələnməsi haqqında məlumat vermişdir. Son aylarda xəstəliyinin ciddiləşməsi və bununla əlaqədar uzunmüddətli müalicə olunması barəsində də mənə məlumat vermişdir və müraciət etmişdir. Bütün bunların nəticəsində də o, bu gün Milli Məclisin sədri vəzifəsindən istefa verməyi haqqında ərizə ilə müraciət edir.

Bu münasibətlə onu bildirmək istəyirəm ki, Rəsul Quliyev 1993-cü ilin iyun ayından Azərbaycanda gedən ictimai-siyasi proseslərlə əlaqədar Azərbaycanın dövlətçiliyinin qorunması və ictimai-siyasi vəziyyətin sabitləşdirilməsi üçün aparılan tədbirlərdə fəal iştirak etmişdir, Milli Məclisin sədri kimi dövlətin apardığı siyasətdə, hazırladığı və həyata keçirdiyi tədbirlərdə iştirakı olmuşdur. Azərbaycanda qanunvericilik işlərinin təşkil olunması və yaranmasında da çox işlər görmüşdür.

Beləliklə, Rəsul Quliyev bu müddətdə Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsində, Azərbaycanda ictimai-siyasi sabitliyin yaranmasında və Azərbaycanda, bizim daxilimizdə Azərbaycanın sabitliyini pozan qüvvələrin qarşısının alınmasında xidmətlər göstərmişdir. Bu xidmətlərə görə mən Rəsul Quliyevə – o, vəzifəsindən istefa edərkən təşəkkürümü bildirirəm, ona cansağlığı arzu edirəm, tezliklə müalicə olunub sağalmasını arzu edirəm və ona gələcək işlərində müvəffəqiyyətlər arzulayıram. [300-301]

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Əziz həmvətənlər!

Sizi yəhudilərin qədim dövrlərdən yeni həyatın başlanğıcı, mənəvi paklaşma və tövbə günü kimi bayram etdikləri Roş-Ha-Şana – Təzə İl münasibətilə ürəkdən təbrik edir, bu əziz gündə hamınıza cansağlığı, sevinc diləyirəm.

Müstəqil Azərbaycanda yaşayan bütün xalqların milli-mədəni özgürlüyünün, adət-ənənələrinin qorunub saxlanılması, dil və mədəniyyətlərinin inkişafı üçün hüquqi demokratik prinsiplər bərqərar edilmişdir. Azərbaycanın yəhudi əhalisi respublikamızın ictimai-siyasi və mədəni həyatında yaxından iştirak edir və əminəm ki, bundan sonra da demokratik dövlət quruculuğunda səylərini əsirgəməyəcəkdir.

Qoy Roş-Ha-Şana bolluq, xeyir-bərəkət, sülh və xoş müjdələr gətirsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*12 sentyabr 1996-cı il* [301-302]

**BAKIDA "İMPROŞOP" TİCARƏT MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ**

*14 sentyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli Bakı sakinləri!

Məni bu gün buraya dəvət edərkən düşünürdüm ki, keçmiş illərdə ənənələrimiz ondan ibarət olubdur ki, biz adətən yeni zavodların, fabriklərin, məktəblərin, böyük xəstəxanaların, mədəniyyət saraylarının, yolların, körpülərin, su kəmərlərinin açılış mərasimlərində iştirak edirik. İndi isə məni yeni bir mağazanın açılışına dəvət ediblər. Keçmişlə müqayisə edəndə, bu, bir az uyğun gəlmir. Ancaq bugünkü günümüzün reallığı və iqtisadiyyatımızda, həyatımızda tutduğumuz yol ona dəlalət edir ki, biz artıq bu sahələrə də diqqət yetirməliyik, bu sahələrin yaranmasına, inkişaf etməsinə kömək göstərməli, dəstək verməliyik.

Azərbaycanda belə bir mağazanın açılması, ölkəmizin vətəndaşları, Bakı sakinləri üçün onun gələcək xidməti, şübhəsiz ki, böyük əhəmiyyət kəsb edir. Bu, respublikamızın dövlət müstəqilliyinin, ölkəmizdə gedən iqtisadi islahatların əlamətlərindən biri və həmin islahatlardan doğan hadisədir. Bu, Azərbaycanın bazar iqtisadiyyatı yolu ilə dönmədən getməsinin nümayişidir, respublikamızda sərbəstliyin, təşəbbüskarlığın və sahibkarlığın artıq mövcud olmasını nümayiş etdirir. Bu, Azərbaycanın dünyanın bütün ölkələri ilə iqtisadi-ticarət əlaqələrinin yaranmasının və inkişaf etməsinin təzahürüdür.

Bunlar hamısı bizim həyatımızda yeniliklərdir. Bu yeniliklər lazımdır. Bunlar bizim həm dövlət müstəqilliyi siyasətinə, həm sərbəstlik, azadlıq prinsiplərinə, həm də iqtisadi siyasətimizin prinsiplərinə uyğun olan hallardır.

Biz iqtisadiyyatımızı daim inkişaf etdirməyə çalışırıq. Bunun qarşısında çox çətinliklər var. Bu çətinliklərin bir çoxu təbii, obyektiv xarakter daşıyır. Amma eyni zamanda bu çətinliklər, yəni iqtisadiyyatın inkişafının ləng getməsi müəyyən mənada insanların yeni formalara, yeni iqtisadi əlaqələrə hələ tam alışmamasının nəticəsidir. Belə bir mağazanın yaranması, belə bir təşəbbüskarlıq isə artıq onu göstərir ki, bizim [302-303] sahibkarlarımız, iş adamlarımız tədricən, addımbaaddım yeni iqtisadi əlaqələrə, ticarət əlaqələrinə, formalarına alışıblar, onu mənimsəyiblər və ondan səmərəli istifadə edirlər.

Mağazada nümayiş etdirilən mallara baxarkən düşündüm: son illərdə bunların çoxunu vətəndaşlarımız xarici ölkələrdən alıb gətirirlər, ayrı-ayrı adamlar cürbəcür yollarla gətirib satırlar. Şübhəsiz ki, bu da insanlar üçün müxtəlif çətinliklər, maneələr yaradır. Əgər Bakıda belə böyük mağaza yaranıbsa və dünyanın çox məşhur şirkətlərinin istehsal etdikləri mallar buraya gətirilibsə, bunları almaq istəyən vətəndaş sərbəst surətdə alıb evinə aparacaqsa, elə bunun özü həm xalqımıza, vətəndaşlarımıza xidmətin nə qədər yaxşılaşmasıdır, eyni zamanda insanlarımızın hər bir vasitədən istifadə etməsi üçün böyük imkan yaranmasıdır.

Biz sahibkarlığa, təşəbbüskarlığa bundan sonra da şərait yaradacağıq, sərbəst iqtisadiyyat gündən-günə genişlənəcəkdir. Aparılan iqtisadi islahatlar, özəlləşdirmə, torpaq islahatı, torpağın xüsusi mülkiyyətə verilməsi – kompleks şəkildə bunlar hamısı Azərbaycanda iqtisadiyyatın dünya iqtisadiyyatına bağlanmaq yolu ilə, dünya iqtisadiyyatı yolu ilə getməsini, ölkəmizin bazar iqtisadiyyatı yolu ilə getməsini sübut edir.

Mən sahibkarlarla görüşərkən bu fikirləri geniş bəyan etdim və bu gün sahibkarlardan birinin təşəbbüsü ilə əlaqədar buraya gəlib bu hadisəni sizinlə bərabər qeyd edərkən bir də bəyan edirəm ki, Azərbaycanda sərbəstliyə, sahibkarlığa geniş imkanlar yaranacaq və sahibkarlıqla məşğul olan hər bir adam buna əmin ola bilər. Hesab edirəm, biz bu yolla həm iqtisadiyyatımızı inkişaf etdirəcək, həm ticarəti genişləndirəcək, həm də insanlara xidmətin keyfiyyətini, səviyyəsini yüksəklərə qaldıra biləcəyik.

Gözəl mağazadır, gözəl mallar var, müasir, dünya standartlarına uyğun bir ticarət ocağıdır. Keçmiş illərdə, məsələn, təxminən 15-20-25 il bundan öncə Azərbaycan vətəndaşları bəzən xarici ölkələrə gedərkən vətənə dönüb öz təəssüratları haqqında danışanda deyirdilər: mağazalar belədir, malların hamısı açıqdadır, heç kəs heç nə oğurlamır, cürbəcür şeylər var ki, adam baxıb heyran olur. Bizim mağazalarda isə yaxşı şeyləri piştaxtanın altında gizlədirlər, keyfiyyətli şeylər yoxdur, mağazada çalışırlar ki, oraya girən adam bir şey götürüb qaçmasın – bunların hamısı mənim xatirimdədir. Xaricə səfər zamanı gördükləri çoxlarına möcüzə kimi gəlirdi. [303-304]

İndi artıq, bu, möcüzə deyil, həyatımızın reallığıdır və insanlara yaxşı xidmət etməklə bərabər, eyni zamanda onların mənəviyyatına, tərbiyəsinə, davranışına da çox təsir edir. Güman etmirəm ki, belə bir mağazaya gələn insan buradan müəyyən təəssüratla çıxmasın. Təəssürat da ki, şübhəsiz, müsbət olacaqdır. O mənada müsbət ki, burada hər şey gözəldir, yüksək səviyyədədir, zövqlüdür və bunlar hamısı insanların tərbiyəsinə, əxlaqına, şübhəsiz ki, müsbət təsir göstərir. Belə ticarət ocaqlarının bu xüsusiyyəti də əhəmiyyətlidir.

Burada olan malların hamısı xarici ölkələrdən, xüsusən iqtisadi cəhətdən çox inkişaf etmiş ölkələrdən gətirilmiş mallardır. Şübhəsiz ki, hər bir vətənpərvər insan, azərbaycanlı arzu edər ki, belə mağazalarda bu səviyyədə, bu keyfiyyətdə özümüzün istehsal etdiyimiz mallar da olsun. Güman edirəm ki, biz o günə də gəlib çatacaq, ona da nail olacağıq. Ancaq ona nail olmaq üçün bax, məhz bu cür addımlar atmaq lazımdır.

Bəli, bu malları burada görənlər, onlardan istifadə edənlər respublikamızda istehsal olunan aşağı keyfiyyətli malları almayacaqlar. Onları almayanda isə, aşağı keyfiyyətli malları istehsal edən adamlar məcbur olacaqlar ki, məhsulun keyfiyyətini qaldırsınlar, müasir texnikadan, texnologiyadan istifadə etsinlər. Şübhəsiz ki, bu rəqabət – ticarət rəqabəti istehsal rəqabətinə gətirib çıxaracaqdır. Ona görə də belə addımları bəyənirəm, məmnuniyyətlə qəbul edirəm və belə təşəbbüskarların, sahibkarların işinə yüksək qiymət verirəm.

Eyni zamanda hər bir sahibkar, ticarətlə məşğul olan şəxs, şirkət bilməlidir ki, bunların hamısı ölkəmizin iqtisadiyyatına, yəni iqtisadi inkişafına kömək etməlidir, zərər gətirməməlidir. Şübhəsiz ki, hər bir sahibkar iş görərək qazanc əldə etmək və bunu yönəldib fəaliyyətini daha da genişləndirmək istəyir. Bu da təbiidir. Ancaq eyni zamanda hər bir sahibkar, iş adamı unutmamalıdır ki, o, həm öz mənafeyini, həm də ölkəmizin mənafeyi, ümumxalq mənafeyi üçün çalışmalıdır.

Həm də bütün bu işlər respublikamızın qanunları çərçivəsində olmalıdır, qanunlara riayət edilməlidir. Qaçaqmalçılıq yolu ilə mal gətirmək, xəlvəti iş görmək, yaxud da cürbəcür yollarla vergidən yayınmaq – bax, bu cür hallar hələ ki, bizdə mövcuddur və təəssüf ki, geniş yayılıbdır. Bunun qarşısı alınmalıdır.

Ona görə də mən sahibkarlığa, sərbəst ticarətə, alış-verişə, bizim iş adamlarının bütün ölkələrlə ticarət əlaqələrinə dəs[304-305]tək verərək, eyni zamanda xəbərdar edirəm ki, onların hamısı Azərbaycanın qanunları çərçivəsində işləməli, respublikamızın qanunlarına əməl etməli, ən əsası isə, şübhəsiz ki, öz mənafelərini təmin etməklə yanaşı, dövlətin, ölkənin, xalqın mənafeyini də unutmamalıdırlar. Çünki belə ticarət ocağı təkcə bir adama, yaxud şirkətə mənfəət gətirməməlidir, bundan dövlət də mənfəətlənməlidir. Dövlətin vergisi verilməli, bundan dövlətin payı çatmalıdır. Bu, heç vaxt unudulmamalıdır.

Təəssüf ki, bizim sahibkarların, iş adamlarının çoxu bunu unudubdur. Hesab edirəm ki, apardığımız iş və qanunların həyata keçirilməsinə nəzarət, qanunların icrasını təmin edən orqanların bundan sonra görəcəyi işlər, ən əsası isə, sahibkarların özlərinin məsələni bu cür doğru-düzgün dərk etmələri belə halların qarşısını alacaqdır.

Bir sözlə, bəzilərinə elə gələ bilər ki, belə gözəl, çox yüksək keyfiyyətli mallarla dolu olan mağaza yalnız şirkətə mənfəət verməlidir. Yox, həm şirkətə mənfəət verməli, həm Azərbaycan vətəndaşlarına xidmət etməli, həm də dövlətə mənfəət verməlidir. Bu prinsiplər daim yanaşı, bir-biri ilə bağlı olmalıdır.

Mən bildiyimə görə və burada deyildiyi kimi, "İmproteks" şirkəti Azərbaycanda beş ildir ki, fəaliyyət göstərir, yəni ölkədə sahibkarlıqla məşğul olan ilk şirkətlərdən biridir. Özü üçün artıq müsbət ad qazanıbdır. Mən arzu edərdim ki, onlar öz adlarını bundan sonra da qorusunlar və çalışsınlar ki, gördükləri iş, adları Azərbaycanda sağlam, azad sahibkarlıq prinsiplərinə uyğun olsun.

"İmproteks" şirkətinə, bu mağazanın kollektivinə uğurlar arzulayıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, mağaza Azərbaycan vətəndaşlarına, Bakı sakinlərinə yüksək səviyyəli xidmət göstərəcəkdir. Sağ olun. [305-306]

# AZƏRBAYCANA RƏSMİ SƏFƏRƏ GƏLMİŞ QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN BİNƏ HAVA LİMANINDA RƏSMİ QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT

*16 sentyabr 1996-cı il*

Qazaxıstan Respublikasının prezidenti
zati-aliləri Nursultan Nazarbayev!
Hörmətli qonaqlar!

Bu gün Qazaxıstan Respublikasının prezidenti, əziz dostumuz, qardaşımız Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri başlanır. Bu rəsmi səfər münasibətilə mən hörmətli dostumuz Nursultan Nazarbayevi və onu müşayiət edən nümayəndə heyətini ürəkdən salamlayıram və onların hamısına "Azərbaycan torpağına xoş gəlmisiniz" deyirəm!

Qazax xalqı ilə Azərbaycan xalqı arasında çoxəsrlik tarixi olan dostluq və qardaşlıq bugünkü münasibətlərimizin əsasını təşkil edir. Əminəm ki, Azərbaycan torpağında Qazaxıstan prezidenti ilə görüşlərimiz və danışıqlarımız qardaşlıq münasibətlərimizin və əməkdaşlığımızın bundan sonra da inkişaf etməsi və möhkəmlənməsi üçün əsas olacaqdır.

Əziz dostlar, Azərbaycanda sizə xoş duyğular bəsləyirlər. Əminəm ki, siz Azərbaycan xalqının qazax xalqına və onun prezidenti hörmətli Nursultan Nazarbayevə bəslədiyi dostluq hisslərinin hər yerdə şahidi olacaqsınız. Qazaxıstan Respublikası prezidentinin Azərbaycana səfəri əlaqələrimizdə mühüm bir mərhələ olacaq və gələcək işimizdə kömək edəcəkdir.

Xoş gəlmisiniz! [306-307]

## AZƏRBAYCAN VƏ QAZAXISTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*16 sentyabr 1996-cı il*

Mən öncə dost Qazaxıstanın prezidenti hörmətli cənab Nursultan Nazarbayevi və onu müşayiət edən şəxsləri səmimi qəlbdən salamlayıram, prezident Nursultan Nazarbayevə Azərbaycana rəsmi dövlət səfərinə gəlmək barədə mənim dəvətimi qəbul etdiyinə görə minnətdaram. Əmin olduğumu bildirirəm ki, Qazaxıstan prezidentinin Azərbaycana bu ilk səfəri Qazaxıstan ilə Azərbaycan arasında, iki müstəqil, suveren dövlət arasında münasibətlərin daha müvəffəqiyyətlə inkişafı üçün əsas olacaqdır. Aparacağımız danışıqlarda ekspertlərimiz, nazirliklərimiz, baş idarələrimiz tərəfindən hazırlanmış məsələlərin böyük bir paketi müzakirə olunacaqdır. Əmin olduğumu bildirmək istərdim ki, həm Qazaxıstanın, həm də Azərbaycanın maraqlarını əks etdirən bu məsələlərin nəzərdən keçirilməsi və müzakirə olunması münasibətlərimizin daha da uğurlu inkişafını təmin edəcək, respublikalarımıza, xalqlarımıza kömək edəcəkdir.

Azərbaycan tarixi keçmişimizi, xalqlarımızın dərin tarixi köklərini, dilimizin, dinimizin, ənənələrimizin ümumiliyini nəzərə alaraq, həmçinin əsrimizin əvvəlindən etibarən Qazaxıstan ilə Azərbaycan arasında iqtisadi münasibətlərin inkişaf etdiyini əsas tutaraq Qazaxıstanla münasibətlərə böyük əhəmiyyət verir. İndi, Qazaxıstan və Azərbaycan müstəqil, suveren dövlətlər olduğu bir vaxtda münasibətlərimiz keyfiyyətcə yeni xarakter kəsb etmişdir və bu münasibətləri dərinləşdirmək, inkişaf etdirmək üçün böyük imkanlarımız və ehtiyatlarımız var. Azərbaycan buna maraq göstərir, ona görə də mən Qazaxıstanın dövlət başçısının səfərini olduqca məmnuniyyətlə qarşıladım və münasibətlərimizin perspektivləri baxımından bu səfərə böyük ümidlər bəsləyirəm.

Azərbaycanın vəziyyəti müəyyən dərəcədə məlumdur. Ya[307-308]xın vaxtlarda Azərbaycanın dövlət müstəqilliyi əldə etməsinin 5 illiyi tamam olacaqdır. Bu dövr Azərbaycan üçün son dərəcə ağır və mürəkkəb bir dövr olmuşdur. Ermənistanın hələ 1988-ci ildə başladığı hərbi təcavüz bütün bu müddət ərzində davam etmişdir. Bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunmuş, həmin torpaqlardan Azərbaycanın bir milyondan çox sakini zorla qovulmuşdur, onların bir çoxu son dərəcə ağır şəraitdə, əksəriyyəti çadırlarda yaşayır. Ermənistan-Azərbaycan münaqişəsi ölkəmizə çox böyük mənəvi və maddi ziyan vurmuşdur. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan məsələnin sülh yolu ilə həllinə tərəfdardır və bunu əsas tutaraq 1994-cü ilin mayında Ermənistanla barışıq haqqında saziş imzalamışdır. Biz iki ildən artıqdır ki, atəşkəs rejimində yaşayırıq. Biz bunu səylərimizin ən mühüm nəticəsi sayır və atəşkəs dövründən tam sülhə nail olmaq üçün istifadə etməyə çalışırıq.

Bu məqsədlə müxtəlif dövlətlərin, təşkilatların iştirakı ilə ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar aparılır. Azərbaycan işğal edilmiş ərazilərinin azad olunması, qaçqınların öz yaşayış yerlərinə qaytarılması şərti ilə və bu halda Dağlıq Qarabağa Azərbaycan dövləti tərkibində ən yüksək muxtariyyət verməyi öhdəsinə götürməklə sülhə nail olmağa çalışır. ATƏT-in Minsk qrupu çərçivəsində, ayrı-ayrı nümayəndələrimiz vasitəsilə aparılan danışıqlar və şəxsən mənim Ermənistan rəhbəri ilə apardığım danışıqlar bizi müəyyən qədər irəlilətsə də, təəssüf ki, Ermənistan tərəfinin hələlik qeyri-konstruktiv siyasəti bu təklifləri həyata keçirməyimizə imkan vermir. Bununla belə mən ümidvar olduğumu bildirirəm ki, biz münaqişəni sülh yolu ilə aradan qaldırmaq üçün hər halda güzəştə və razılaşmaya nail ola biləcəyik.

Azərbaycan özünün bütün qonşuları ilə sülh şəraitində yaşamaq istəyir, biz Gürcüstanla, İranla, Türkiyə, Rusiya ilə yaxşı, mehriban münasibətlər yaratmışıq. Əgər Ermənistanla münaqişə Azərbaycanın irəli sürdüyü şərtlər əsasında aradan qaldırılarsa, o zaman onunla da sülh və uğurlu iqtisadi əməkdaşlıq ola bilər. Qafqazda belə əməkdaşlıq bütün Zaqafqaziyanın Mərkəzi Asiya ilə, o cümlədən Qazaxıstanla iqtisadi əməkdaşlığının bundan sonra da inkişaf etməsi üçün çox müsbət nəticə verə bilər.

Hörmətli Qazaxıstan prezidenti, əziz dostumuz, qardaşımız Nursultan Nazarbayev, Azərbaycan ictimaiyyətinə yaxşı mə[308-309]lumdur ki, Siz Ermənistan-Azərbaycan münaqişəsinin həllinə həmişə maraq göstəribsiniz. Beş il əvvəl siz Rusiya prezidenti Boris Yeltsinlə birlikdə Azərbaycana gəldiniz, Bakıda, Gəncədə, Qarabağda, Ermənistanda oldunuz, çalışıb Rusiya, Qazaxıstan, Azərbaycan və Ermənistan prezidentlərinin yaxşı birgə bəyanat verməsinə nail oldunuz. Sonra bu bəyanat Jeleznovodskda rəsmiləşdirildi, amma həyata keçirilmədi. Siz bilirsiniz ki, Dağlıq Qarabağ üzərində Azərbaycan vertolyotu vuruldu. Bu zaman respublikamızın görkəmli dövlət xadimləri, habelə Qazaxıstan nümayəndələri, o cümlədən ölkənizin burada vasitəçilik missiyası həyata keçirən nazir müavini həlak oldular. Həmçinin məlumdur ki, prezident Nursultan Nazarbayev 1992-ci ilin avqustunda Almatıda Azərbaycan və Ermənistanın xarici işlər nazirləri ilə görüşdü. O vaxt müvafiq memorandum imzalandı. Təəssüf ki, o da həyata keçirilmədi.

Bununla onu demək istəyirəm ki, ATƏT-in Minsk qrupu, ABŞ, Rusiya, Türkiyə kimi iri dövlətlər və digər dövlətlərlə yanaşı, Qazaxıstan və şəxsən onun prezidenti münaqişənin həlli məsələsindən kənarda qalmadılar, halbuki onun öz ölkəsinin daxilində bir çox problemlər vardı. Bunu Azərbaycanda yüksək qiymətləndirirlər. İndi, Azərbaycan məsələnin dincliklə həllinə çalışdığı vaxtda prezident Nursultan Nazarbayevin məsləhətləri, səyləri öz faydalı rolunu oynaya bilər. Mən indiyə qədər görülmüş işlərə görə Qazaxıstan prezidenti Nursultan Nazarbayevə təşəkkür edərək ümidvar olduğumu bildirirəm ki, bu problem birgə səylərlə aradan qaldırılacaqdır.

Bununla yanaşı, son beş ildə Azərbaycanı nəinki Ermənistanın ölkəmizə qarşı təcavüzü, həm də daxili siyasi vəziyyət narahat etmişdir. Daxili siyasi vəziyyət sabit deyildi, hakimiyyət dəyişirdi, özü də silahlı yolla, 1993-cü ilin iyulunda Azərbaycan vətəndaş müharibəsi vəziyyətində idi, müxtəlif silahlı qruplar, dəstələr işi silahlı qarşıdurma həddinə gətirib çıxarmışdılar. Azərbaycan əslində müxtəlif bölgələrə parçalanmışdı. Onda xalq məni Bakıya çağırdı və o vaxt yaranmış ağır vəziyyət böyük çətinliklərlə aradan qaldırıldı.

O vaxtdan üç il keçib. Bu müddətdə cürbəcür silahlı birləşmələr hakimiyyəti zorakılıqla devirmək cəhdlərindən əl çəkmədilər. Bu cəhdlər xalqın gücü ilə dəf olundu. İndi Azərbaycanda daxili siyasi vəziyyət sabitdir, hərçənd respublikanın hüdudlarından kənarda yaşayan ayrı-ayrı şəxslər Azərbaycan xal[309-310]qı tərəfindən dəstəklənən qanuni hakimiyyətə qarşı silahlı əməllərin mümkünlüyü barədə düşünürlər.

Respublikanın daxilində vəziyyətin sabitləşdirilməsi ötən ilin noyabrında ümumxalq referendumu yolu ilə müstəqil Azərbaycanın ilk konstitusiyasını qəbul etməyə, ölkə parlamentinə demokratik seçkilər keçirməyə imkan verdi. İndi Azərbaycanda iqtisadi islahatlar aparılır, özəlləşdirmə keçirilir, torpağın xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulan "Torpaq islahatı haqqında qanun" qəbul edilib, torpaqlarımızdan daha səmərəli istifadə olunması üçün digər tədbirlər də görülür.

Ölkə demokratikləşdirməni, bazar iqtisadiyyatını daha da genişləndirmək, xarici sərmayələri cəlb etmək yolu ilə gedir, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından birgə istifadə olunması haqqında müqavilə imzalanmışdır.

Bütün bunlar Azərbaycanda tamamilə yeni bir şərait yaradır. Belə bir şəraitdə qonşu ölkələrlə, xüsusən Qazaxıstanla əməkdaşlığı genişləndirmək və dərinləşdirmək üçün böyük imkanlar var. Mən hörmətli Nursultan Nazarbayevin belə bir fikri ilə razıyam ki, ölkələrimiz arasında mal dövriyyəsinin aşağı səviyyədə olması qənaətbəxş sayıla bilməz, onun səviyyəsini qaldırmaq lazımdır.

Mən əminəm ki, Bakıda keçirilən görüşlər və aparılan danışıqlar, imzalanacaq sənədlər buna kömək edəcəkdir.

Mən daha bir məsələdə Qazaxıstan prezidentinin fikrinə şərikəm ki, Xəzər dənizi ölkələrimiz arasında əməkdaşlıq üçün çox mühüm amildir və hazırda dənizin ehtiyatlarından Xəzəryanı ölkələrin hamısının, o cümlədən Azərbaycanın və Qazaxıstanın mənafeyi üçün səmərəli istifadə etməkdən ötrü çox fəal iş təşkil etməyə imkan var. Bu baxımdan bizim mövqelərimiz bir-birinə uyğun gəlir və bu istiqamətdə daha da irəliləyə və uğurlar qazana bilərdik.

Transqafqaz magistralı barədə Türkmənistan, Özbəkistan, Gürcüstan və Azərbaycanın imzaladıqları sazişlərə gəldikdə isə, onlar işləyir. Bu sazişlər Avropa Birliyi tərəfindən bəyənilmişdir, "Traseka" proqramı üzrə müəyyən vəsait ayrılır. Mərkəzi Asiyanı Avropa ilə birləşdirmək üçün bu magistralı çox mühüm hesab edirəm və Qazaxıstanın ona qoşulması barədə prezident Nursultan Nazarbayevin bəyanatını böyük məmnunluqla qarşılayıram.

Artıq uğurlar qazanmış Mərkəzi Asiya İqtisadi İttifaqında Azərbaycanın əməkdaşlıq edə biləcəyi barədə Qazaxıstan rəh[310-311]bərinin təklifi Azərbaycan üçün də böyük maraq doğurur və bu imkandan istifadə etməkdən ötrü qəti addımlar atmaq lazımdır.

Belə hesab edirəm ki, ölkələrimiz arasında iqtisadi, elmi-texniki və mədəni əlaqələri genişləndirmək üçün bir çox başqa imkanlar da var. Qazaxıstan kimi, Azərbaycan da bütün beynəlxalq təşkilatların üzvüdür, respublikamız bu təşkilatlarda fəal əməkdaşlıq edir, beynəlxalq həyat, beynəlxalq siyasət məsələlərində, müxtəlif ölkələrdə baş verən proseslər barəsində ölkələrimiz eyni bir mövqedən çıxış edirlər. Mən prezident Nursultan Nazarbayevi əmin edirəm ki, Azərbaycan indən belə də bu xətti davam etdirəcək. Qazaxıstanla təkcə iqtisadiyyat sahəsində deyil, bütün beynəlxalq təşkilatlarda da əməkdaşlıq edəcəkdir.

Ölkələrimiz MDB-yə daxildir və bu, mənim fikrimcə, çox mühüm amildir. Həm Azərbaycan, həm də Qazaxıstan çalışır ki, bu təşkilat daha səmərəli, ona daxil olan bütün ölkələrin mənafeyi üçün fəaliyyət göstərsin, getdikcə daha çox bərabər-hüquqlu tərəfdaşlıq, əməkdaşlıq forması alsın. MDB-də, onun istər yaranmasında və istərsə də fəaliyyətinin səmərəli istiqamətdə olmasında Qazaxıstanın rolunu yüksək qiymətləndirirəm. Azərbaycan isə öz tərəfindən bütün tədbirləri görmüşdür və görür ki, özünün bu təşkilatda iştirakı uğurlu və səmərəli olsun.

Bir sözlə, hesab edirəm, prezident Nursultan Nazarbayevin respublikamıza səfərindən əvvəl görülmüş hazırlıq işləri görüşlərimizi və danışıqlarımızı uğurla keçirməyə, bütün sənədlərin imzalanmasına gəlib çıxmağa imkan verir. [311-312]

**QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ AZƏRBAYCAN MİLLİ MƏCLİSİ ÜZVLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ**

*16 sentyabr 1996-cı il*

Hörmətli Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev!
Hörmətli deputatlar!
Hörmətli Milli Məclis!

Bu gün Azərbaycan üçün əlamətdar gündür. Qazaxıstan Respublikası prezidentinin səhərdən Azərbaycana rəsmi səfəri başlayıb və bugünkü günün ötən saatları ərzində böyük iş görülüb. Mən hesab edirəm ki, biz dövlətlərarası münasibətlərimizdə yaxşı nəticələrə nail olduq. Möhtərəm Nursultan Abişoviç burada birgə işimizdən danışdı. Hörmətli prezidentin Azərbaycan Milli Məclisinin deputatları ilə bugünkü görüşü də onun Azərbaycan parlamentinə, demokratiya prinsiplərinə böyük hörmət bəslədiyinə sübutdur. Biz Azərbaycan parlamenti qarşısında Nursultan Abişoviçin çıxışını böyük məmnunluqla dinlədik. Qazaxıstan Respublikasının, Qazaxıstan xalqının müstəqillik illərində qazandığı uğurlar böyük hörmət hissləri doğurur. Biz sevinirik ki, Qazaxıstan öz dövlət müstəqilliyini əldə etdiyi vaxtdan bəri ölkədə vəziyyət sabit olmuş və müstəqil Qazaxıstan dövlətinin inkişafı üçün tədbirlər ardıcıl surətdə həyata keçirilmişdir. Bu tədbirlər Qazaxıstanın Dünya Birliyi tərəfindən tanınmasına gətirib çıxarmış, Qazaxıstan dünya birliyində öz layiqli yerini tutmuşdur. Bu tədbirlər Qazaxıstana xarici siyasətdə böyük uğurlar qazandırmış, Qazaxıstanın sosial-iqtisadi həyatının inkişafında böyük müvəffəqiyyətlərə gətirib çıxarmışdır.

Ölkələrimiz ümumi keçmişə malikdir, xalqlarımız ümumi tarixə, dərin köklərə, əlaqələrə malikdir. Nursultan Abişoviç bu barədə danışdı. Lakin biz XX əsrdə eyni yolla getdik, Sovet İttifaqının tərkibində olduq və müstəqilliyə keçid, yeni sosial-iqtisadi və siyasi sistemə keçid zamanı əvvəllər Sovet İt[312-313]tifaqının tərkibinə daxil olmuş hər bir xalq, hər bir respublika böyük çətinliklərlə, mürəkkəb hallarla qarşılaşdı.

Dərk etmək xoşdur ki, Qazaxıstan bu çətinlikləri, bu mürəkkəb yolları keçmişdir və müvəffəqiyyətlə keçir. Artıq keçilmiş olan yol barəsində, Qazaxıstanın bugünkü vəziyyəti barədə Nursultan Abişoviçin burada dedikləri bizi sevindirir və dərin hörmət hissi doğurur.

Mən Qazaxıstan xalqına, müstəqil Qazaxıstan Respublikasına müstəqilliyi daha da möhkəmlətmək yolunda, islahatların həyata keçirilməsi, iqtisadiyyatın yenidən qurulması yolunda, bu gözəl ölkənin bütün adamları üçün yeni həyat yaradılması yolunda yeni-yeni uğurlar arzulayıram. Əminəm ki, belə də olacaq, çünki, ötən beş il ərzində edilmiş hər şey bu cür inam ifadə etməyə kifayət qədər əsas verir.

Şübhə yoxdur ki, bütün bu müvəffəqiyyətlərdə Qazaxıstan Respublikası prezidentinin, hörmətli dostumuz Nursultan Nazarbayevin böyük rolu var. O, böyük təcrübəyə və zəngin biliyə, təbii olaraq, böyük iradəyə malikdir. Tarixin bu çətin və mürəkkəb dövründə o, Qazaxıstan xalqlarını sıx birləşdirməyə və bu yolu uğurla keçməyə müvəffəq oldu, bununla da öz ölkəsində və bütün dünyada böyük nüfuz və şöhrət qazandı.

Nursultan Abişoviç, mən Sizi bu uğurlar münasibətilə ürəkdən təbrik edirəm, Sizə yeni nailiyyətlər, xoşbəxtlik və firavanlıq arzulayıram.

Respublikalarımız dövlət müstəqilliyi əldə etdiyi vaxtdan bəri eyni bir yol keçiblər. Lakin Ermənistanın Azərbaycana qarşı hələ 1988-ci ildə başlanmış hərbi təcavüzü respublikamıza olduqca böyük mənəvi və maddi zərər vurmuşdur. Məlumdur ki, bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuşdur, Azərbaycanın bir milyon nəfərdən artıq sakini öz yaşayış yerlərindən didərgin salınmış və çox ağır şəraitdə yaşayır, qaçqındır, onların əksəriyyəti çadırlarda yaşayır, işsizdir, böyük maddi çətinlik çəkir. Respublika böyük itkilər vermiş, adamlar həlak olmuşlar. Adamlar 1990-cı ilin yanvarında sovet qoşunları tərəfindən Azərbaycana qarşı təcavüz zamanı da həlak oldular. Adamlar öz torpaqlarını, Azərbaycanın ərazi bütövlüyünü, öz respublikasının müstəqilliyini, suverenliyini qoruyaraq erməni təcavüzü nəticəsində də həlak oldular.

Lakin bütün bunlara baxmayaraq, inanırıq ki, Azərbaycan işğal olunmuş torpaqları azad edə biləcək, öz ərazi bütövlüyü[313-314]nü və sərhədlərinin toxunulmazlığını təmin edə biləcək, öz müstəqilliyini, dövlət suverenliyini qoruyub saxlayacaqdır. Biz buna əminik, bu inamla yaşayır və işləyirik, bu çətin problemi dinc yolla həll etməyə çalışırıq. Biz müharibə istəmirik, sülh şəraitində yaşamaq istəyirik. Lakin bununla yanaşı, biz heç cür razılaşa bilmərik ki, torpaqlarımız işğal altındadır. Buna görə də bu məsələnin həlli üçün sülh yolu təklif etmişik. İki ildən çoxdur əməl olunan atəşkəs rejimi sübut edir ki, biz bu məsələnin dincliklə həllini istəyirik. Odur ki, tamamilə ədalətli şərtlər – beynəlxalq hüquq normalarına, ATƏT-in prinsiplərinə, hər hansı ölkənin ərazi bütövlüyü, onun sərhədlərinin toxunulmazlığı prinsiplərinə tamamilə cavab verən şərtlər təklif edirik. Biz bunun əsasında da bütün erməni silahlı birləşmələrinin işğal olunmuş torpaqlardan çıxarılmasını, Azərbaycan

sakinlərinin öz yaşayış yerlərinə qaytarılmasını, Azərbaycanın ərazi bütövlüyünün, onun sərhədlərinin toxunulmazlığının bərpa olunmasını tələb edirik və Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilməsi barədə təklif irəli sürürük. Daha ədalətli təklif tapmaq çətin ki, mümkün olsun. Ümidvarıq ki, erməni tərəfi nəhayət, başa düşəcək ki, ayrı bir yol yoxdur. Başa düşəcək ki, işğal edilmiş torpaqlardan çıxıb getmək lazımdır. Başa düşəcək ki, sülh yolu ilə və qonşu ölkələrlə dinc həyat yolu ilə getmək gərəkdir.

Əlbəttə, bu baxımdan biz bütün ölkələrin, ATƏT-in Minsk qrupunun, Dünya Birliyinin imkanlarından istifadə edirik. Lakin bununla yanaşı, mən razıyam ki, bizim özümüzdən, Azərbaycan xalqının və Ermənistan xalqının iradəsindən, Azərbaycan və Ermənistan rəhbərlərinin iradəsindən də çox şey asılıdır. Biz öz tərəfimizdən böyük addım atmışıq, təklif etmişik, indi söz erməni tərəfinindir.

Nursultan Nazarbayev bu münaqişənin yaranmasının lap əvvəlindən böyük canıyananlıq göstərir və bu münaqişənin dincliklə aradan qaldırılmasına nail olmağa fəal çalışır. Azərbaycan ictimaiyyəti yaxşı xatırlayır ki, beş il bundan əvvəl Rusiya prezidenti Boris Yeltsinlə birlikdə Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev Azərbaycanda olmuş və qan tökülməsinin qarşısının alınmasında, atəşin dayandırılmasında və münaqişənin aradan qaldırılmasına nail olmaqda çox yaxından iştirak etmişdir. Biz bunu bilirik, biz bunu xatırlayırıq və Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarba[314-315]yevin indi bu məsələdə göstərdiyi səyləri və tutduğu mövqeyi lazımınca qiymətləndiririk.

Lakin Qazaxıstandan fərqli olaraq, bizim müstəqillik yolumuz heç də təkcə Ermənistanın təcavüzü ilə çətinləşməyibdir. Qazaxıstanda bütün bu dövrdə daxili siyasi vəziyyət əsasən sabit, sakit olubdur. Təəssüf ki, bizdə xarici təcavüzlə yanaşı, respublikanın daxilində silahlı qruplar arasında çəkişmələr, toqquşmalar, qanunsuz hakimiyyət iddiası, hakimiyyəti silahlı yolla devirmək cəhdləri də olmuşdur. Azərbaycan dəfələrlə fəlakət qarşısında qalmış və 1993-cü ilin iyununda Azərbaycanda vətəndaş müharibəsi başlanmış, Azərbaycan əslində hissələrə parçalanmış və şübhəsiz, böyük siyasi fəlakətlə qarşılaşmışdır.

Biz bütün bunları dəf etməyə, respublikada vəziyyəti tədricən sabitləşdirməyə müvəffəq olduq, hərçənd bu, müqavimətlə qarşılandı və 1994-cü ilin oktyabrında Azərbaycanda hakimiyyəti silahlı yolla devirməyə yenidən cəhd göstərildi. Sonra 1995-ci ilin martında daha bir bu cür cəhd edildi. Biz bütün bunların qarşısını. almağa, bütün bu çətinlikləri dəf etməyə müvəffəq olduq. İndi Azərbaycanda mənəvi-siyasi və ictimai vəziyyət sakit və sabitdir.

Bu, müstəqillik illəri ərzində xalqımızın qazandığı ən böyük nailiyyətdir. Bunun da zirvəsi o oldu ki, ötən ilin noyabrında ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyası qəbul edildi. Müstəqil Azərbaycan Respublikasının ilk parlamentinə demokratik əsasda seçkilər keçirildi, indi o, uğurla işləyir və Nursultan Abişoviç, biz sizinlə bərabər onun qarşısında çıxış edirik. Bunlar Azərbaycanda hüquqi demokratik sivilizasiyalı dövlət quruculuğunu təmin etmək üçün son vaxtlar aparılmış böyük işin mühüm yekunlarıdır.

Biz bu yolla, dövlət müstəqilliyimizi daha da möhkəmləndirmək, dövlətçiliyimizi möhkəmləndirmək, demokratiyanı inkişaf etdirmək, Azərbaycanda həyatın bütün sahələrini demokratikləşdirmək, iqtisadiyyatı demokratikləşdirmək yolu ilə gedirik.

Biz iqtisadi islahatları, özəlləşdirmə proqrammı həyata keçiririk. "Torpaq islahatı haqqında" qanun qəbul olunmuşdur. Bu qanun, şübhəsiz, Azərbaycanda torpağın xüsusi mülkiyyətə verilməsi yolu ilə torpağa münasibəti kökündən dəyişəcəkdir. Biz xarici sərmayələr üçün böyük imkanlar yaratmışıq. Məsələn, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqları[315-316]nın birgə istismarına dair xarici neft şirkətləri ilə bağlanmış müqavilələrin son dərəcə böyük əhəmiyyəti var. Bir neçə gündən sonra böyük neft müqaviləsinin, "Əsrin müqaviləsi" adlandırılan müqavilənin imzalanmasının iki ili tamam olacaqdır və həmin müqavilə əməli şəkildə həyata keçirilir. Sonra daha iki müqavilə imzalanmışdır. Hazırda Xəzər dənizində böyük iş başlanır. Dənizin mineral ehtiyatlarının mənimsənilməsinə dair Xəzəryanı bütün ölkələrlə, o cümlədən xüsusən Qazaxıstanla əməkdaşlığın böyük əhəmiyyəti var. Bu baxımdan bu gün razılığa gəldiyimiz məsələlərin, eləcə də Qazaxıstan Respublikası prezidentinin və Azərbaycan Respublikası prezidentinin Xəzər dənizinə dair birgə bəyanatına daxil edilən məsələlərin müstəsna dərəcədə böyük əhəmiyyəti var.

Ötən dövr ərzində çox böyük çətinliklərlə qarşılaşdığımıza baxmayaraq, biz seçdiyimiz yolla gedirik. Bu çətinlikləri aradan qaldırırıq, lakin indi də problemlərimiz var. Ermənistanın təcavüzündən xilas olmaq, işğal olunmuş torpaqlarımızı azad etmək, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, öz yaşayış yerlərindən qovulmuş. Azərbaycan vətəndaşlarını əvvəlki yerlərinə qaytarmaq bizim üçün ən ümdə vəzifədir. Hesab edirəm ki, biz buna nail olacağıq.

Bununla əlaqədar qonşu dövlətlərlə beynəlxalq təşkilatlar – BMT, ATƏT, İslam Konfransı Təşkilatı və Türkdilli Dövlətlər Təşkilatı çərçivəsində əməkdaşlığın, Xəzəryanı ölkələrlə əməkdaşlığın son dərəcə böyük əhəmiyyəti var. Biz ikitərəfli əlaqələrə, o cümlədən Qazaxıstan ilə Azərbaycan arasında münasibətlərə böyük əhəmiyyət veririk.

Nursultan Abişoviç burada çox düzgün dedi ki, bu gün imzaladığımız sənədlər münasibətlərimizin gələcək inkişafı üçün olduqca yaxşı əsas yaradır. Nursultan Abişoviç, sizi əmin edirəm ki, imzalanmış sənədlərin əməli surətdə reallaşdırılması üçün biz öz tərəfimizdən mümkün olan hər şeyi edəcəyik.

Bütün başqa işlərdən əlavə, indiki səfər, danışıqlar, Qazaxıstan Respublikasının prezidenti ilə parlamentdə görüş keçmişdə zəngin tarixi olan və gələcək üçün bundan da zəngin perspektivi olan xalqlarımız arasında dostluğu daha da inkişaf etdirmək və möhkəmləndirmək üçün böyük əhəmiyyətə malikdir.

Mən Qazaxıstan xalqına xoşbəxtlik, əmin-amanlıq, yeni nailiyyətlər arzulayıram. Qazaxıstan Respublikasının prezidenti Nursultan Abişoviçə cansağlığı, səadət və yeni uğurlar diləyirəm. [316-317]

## AZƏRBAYCAN VƏ QAZAXISTAN PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Prezident Sarayı*

*16 sentyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Qazaxıstan prezidenti, möhtərəm Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri uğurla keçir. Bu gün səhərdən biz böyük həcmdə iş gördük. Biz, iki prezident təkbətək görüşdük. Qazaxıstanı və Azərbaycanı maraqlandıran məsələlərin geniş dairəsi barədə fikir mübadiləsi etdik. Biz, ən əvvəl ikitərəfli münasibətlərimizin bəzi məsələləri barədə fikir mübadiləsi apardıq və onları müzakirə etdik, belə bir tam yekdil rəydə olduq ki, ikitərəfli münasibətlərimiz dostluq xarakteri daşıyır. Buna görə də biz onları inkişaf etdirmək, dərinləşdirmək, bu münasibətləri daha yüksək səviyyəyə qaldırmaqdan ötrü hər şey etmək əzmindəyik.

Biz dünyada baş verən proseslərlə, beynəlxalq problemlərlə, beynəlxalq təşkilatların fəaliyyəti və beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən MDB çərçivəsində fəaliyyətimizlə bağlı bir çox məsələlər barəsində də fikir mübadiləsi etdik. Biz dünyanın müxtəlif bölgələrindəki, o cümlədən Qafqazdakı münaqişələrə aid məsələlər barəsində fikir mübadiləsi etdik. Biz Ermənistan silahlı birləşmələri tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğal olunmasına və bir milyon nəfərdən çox Azərbaycan sakininin öz yurd-yuvasından qovulmasına gətirib çıxaran Ermənistan-Azərbaycan münaqişəsi barəsində ətraflı fikir mübadiləsi apardıq.

Biz Xəzər dənizi hövzəsində və nəqliyyat kommunikasiyaları sahəsində, o cümlədən artıq yaradılmaqda olan Transqafqaz magistralından fəal istifadə edilməsi sahəsində əməkdaşlığımızla bağlı məsələlər barəsində fikir mübadiləsi apardıq. Biz bütün bu məsələlərdə yekdil olduq, bir çox məsələlərdə baxışlarımız tam uyğun gəldi. Hər halda iki prezidentin söhbəti sübut edir ki, ölkələrimiz, xalqlarımız arasında xoş münasibətlər, dostluq və qardaşlıq münasibətləri yaranmışdır, Qazaxıstan [317-318] Respublikasının prezidenti və Azərbaycan Respublikasının prezidenti isə bu münasibətləri daha da inkişaf etdirmək əzmindədirlər.

Qazaxıstan və Azərbaycan nümayəndə heyətləri arasında danışıqlar oldu. Bu danışıqlar zamanı biz dövlətlərarası, hökumətlərarası münasibətlərimizi müzakirə etdik, Qazaxıstanın və Azərbaycanın nazirləri, müvafiq baş idarələri tərəfindən hazırlanmış və sizin yanınızda imzalanmış sazişlərin layihələrini nəzərdən keçirdik. Bütün bu sənədlər çox böyük əhəmiyyətə malikdir və münasibətlərimizi daha da inkişaf etdirmək üçün Qazaxıstan ilə Azərbaycan arasında yaxşı müqavilə – hüquqi əsas yaradır.

Qeyd etmək lazımdır ki, Qazaxıstan ilə Azərbaycan arasında danışıqlar ilk dəfə olaraq belə yüksək səviyyədə aparılmışdır. Qazaxıstan Respublikası prezidentinin Azərbaycana rəsmi dövlət səfəri ilk dəfə olmuş və sənədlərin belə böyük paketi ilk dəfə imzalanmışdır. Bu, Qazaxıstanın və Azərbaycanın müstəqilliyinin bəhrələridir, dövlət müstəqilliyinin, dövlət suverenliyinin xalqlarımıza nə verdiyinə daha bir sübutdur.

Təkrar edirəm, imzalanmış sənədlərin hamısının böyük əhəmiyyəti var və Azərbaycan tərəfi onların əməli surətdə reallaşdırılması üçün bütün tədbirləri görəcəkdir. Qazaxıstan ilə Azərbaycan arasında münasibətlərin prinsipləri haqqında Qazaxıstan Respublikası prezidentinin və Azərbaycan prezidentinin imzaladıqları müqavilənin şübhəsiz ki, xüsusi əhəmiyyəti var. Qazaxıstan və Azərbaycan prezidentlərinin Xəzər dənizinə dair imzaladıqları birgə bəyanatın da əhəmiyyəti böyükdür. Vaxtınızı çox almayaraq deyirəm ki, imzalanmış sənədlərin hamısının böyük əhəmiyyəti var.

Qazaxıstan Respublikasının prezidenti hörmətli Nursultan Nazarbayevin mənim dəvətimi qəbul edərək Azərbaycana rəsmi səfərə gəlməsindən, həmçinin bu gün səhərdən başlanmış gərgin işin öz nəticələrini verməsindən son dərəcə məmnunam. Bu nəticələr sizin gözünüz qarşısındadır. Əminəm ki, səfər uğurla başa çatacaq və bu, Qazaxıstan ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə mühüm mərhələ olacaqdır.

Nümayəndə heyətinə, Qazaxıstan xalqına, Qazaxıstan dövlətinə, onun prezidenti Nursultan Abişoviçə öz ölkəsinin qarşısında duran bütün vəzifələri uğurla yerinə yetirməyi arzulayır və əmin edirəm ki, imzaladığımız sənədlər və sazişlər münasibətlərimizin inkişafına və şübhəsiz ki, həm Azərbaycanın, həm [318-319] də Qazaxıstanın inkişafına kömək göstərəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sual: Birinci sual Azərbaycan prezidenti Heydər Əliyevədir – 70-ci illərdə Sizin rəhbərliyinizlə Azərbaycanda kosmik cihazqayırmanın və kosmik tədqiqatların güclü kompleksi yaradıldı və bu kompleks "Günəş" proqramı üzrə xalq təsərrüfatı məsələlərinin həllinə olduqca böyük kömək göstərdi. Danışıqlar zamanı Siz kosmos sahəsində Azərbaycan ilə Qazaxıstan arasında əməkdaşlığın imkanlarına toxundunuzmu? İkinci sual Nursultan Nazarbayevədir: Semireçye kazaklarının çıxışı ilə Qarabağ separatizmi arasında nə kimi oxşarlıq var?**

**Heydər Əliyev:** Mən artıq dedim ki, biz bir çox məsələləri, o cümlədən də keçmişdə Qazaxıstanda və Azərbaycanda yaradılmış olan çox böyük elmi-texniki potensial ilə bağlı məsələləri müzakirə etdik. Mən sizinlə

razıyam ki, güclü potensial, o cümlədən də kosmosun istifadə edilməsi, ən əvvəl həm Qazaxıstanın, həm də Azərbaycanın xalq təsərrüfatının inkişafı naminə müxtəlif kosmik tədqiqatlar aparılması sahəsində güclü potensial yaradılmışdır. İstədiyimiz hər şeydən geniş istifadə etməyə indi imkan yoxdur. Buna baxmayaraq, razılığa gəldiyimiz məsələlər, imzaladığımız sənədlər təbii olaraq ona gətirib çıxaracaqdır ki, biz bu sahədə də əməkdaşlıq edəcəyik.

**Nursultan Nazarbayev:** Zənnimcə, Qarabağ ilə kazakların fikirləri arasında heç bir oxşarlıq yoxdur. Kazaklar millət deyil, bir təbəqədirlər. Çar dövrlərindən danışsaq, o vaxtlar onlardan ərazimizin qəsb olunması üçün istifadə etmişlər. Yaxın tarixdən danışsaq, bunlar qırmızı kazaklardır və ağ kazaklara qarşı vuruşmuşlar. Buna görə də əgər siyasi qüvvələr bundan Qazaxıstanla Rusiya arasında münasibətləri korlamaq üçün istifadə edirlərsə, bu, bir məsələdir. Əgər Rusiya rəhbərliyi bunu bilirsə və işi şişirtməmək üçün müəyyən tədbirlər görmürsə, bu da yenə Qazaxıstan ilə Rusiya arasında qarşılıqlı münasibətlərlə bağlı məsələdir. Onların arasındakı müqavilələr sübut edir ki, biz bütün məsələlərdə – istər iqtisadi sahədə, istərsə də siyasi və müdafiə sahələrində dostluq və əməkdaşlıq münasibətlərinə malikik. Odur ki, bunlar tamam başqa-başqa məsələlərdir. Qazaxıstanda 138 millətin adamları yaşayır və konstitusiyamıza və qanunlarımıza uy[319-320]ğun olaraq onların hamısı bərabərdir. Qazaxıstanda heç kəsin hüquqları tapdanmır. Bunu beynəlxalq birlik təsdiq etmişdir.

**Sual: Ermənistanın işğalçılıq siyasəti ucbatından MDB-nin iki üzvü – Azərbaycan və Ermənistan müharibə vəziyyətindədir. Belə halda MDB işğalçı üzvünə qarşı nə kimi tədbirlər görə bilər və dünya praktikasında bu məsələ barəsində nə deyilir?**

**Nursultan Nazarbayev:** Yadınızdadırsa, 1991-ci ilin sentyabrında Rusiya prezidenti Boris Yeltsinlə birlikdə biz mövqeləri yaxınlaşdırmaq və bu münaqişəni söndürmək üçün vasitəçilik addımı atdıq. O vaxtdan bəri mən bu məsələ ilə dəfələrlə məşğul olmuşam. Kislovodskda barışıq haqqında saziş imzalandı, amma həmin vaxtdan bəri bu münaqişə dayandırılmadı.

Burada, Zaqafqaziyada olduğum bir vaxtda öz şəxsi fikrimi söyləmək istərdim. Burada xalqlar yan-yana yaşayırlar. Bugünkü azərbaycanlılar və ermənilər, onların övladları, nəvə-nəticələri Allahın verdiyi sərhədlər daxilində yaşamalıdırlar. Xalqlar arasında münaqişəni siyasi mülahizələrlə qızışdıranlara xalqların nə ad verdiyi məlumdur. Lakin onlar münaqişəni söndürənləri həmişə minnətdarlıq hissi ilə xatırlayacaqlar.

Gəlin ötən müharibəni xatırlayaq. O müharibədə nə qədər sovet adamı, nə qədər alman qırıldı. Biz bunu indiyədək xatırlayırıq, yaralar hələ də sağalmayıb, amma indi biz elə həmin Almaniya ilə, müharibə aparmış olduğumuz digər bütün dövlətlərlə əməkdaşlıq edirik. İllər, onilliklər keçəcək, gec-tez həyatın dinc axarını axtarıb tapmaq lazım gələcəkdir. Bu gün biz böyük neftdən, qazdan danışdıq. Əgər bu bölgədə sülh olarsa, onda bu neft və qaz çayı hər üç Zaqafqaziya dövlətinin ərazisindən axacaqdır. O, burada yaşayan xalqlara xoşbəxtlik və əmin-amanlıq gətirəcəkdir. Yox, əgər bu münaqişə dayandırılmasa, onda heç kəs həmin neft çaylarını buradan çəkməyəcəkdir və bu çaylar başqa ərazilərdən axacaqdır. Bunu əsas tutaraq Zaqafqaziya xalqları bu problemin dincliklə həlli barədə düşünməlidirlər.

Mən həm bu tərəfdən, həm də o biri tərəfdən nə barədə danışdığımızı yaxşı bilirəm. Şəxsən mən bunu əsas tuturam ki, Qazaxıstan da, Ermənistan da, Azərbaycan da, Gürcüstan da dövlətlərin mövcud sərhədlərinin, ərazi bütövlüyünün pozulmaması prinsipini əsas götürən ATƏT-in üzvləridir. Mən davakar separatçılığın əleyhinəyəm. Əgər yer üzündə yaşayan [320-321] bütün xalqlar və millətlər öz dövlətini yaratmaq üçün müharibə etməyə başlasaydılar, təsəvvür edin, onda nələr baş verərdi. Mən bütün insanların, xalqların və millətlərin hüquqlarına və bərabərliyinə tərəfdaram, lakin müharibəyə gətirib çıxaran separatçılığın əleyhinəyəm. Ona görə də hesab edirəm ki, bu məsələni ATƏT-in Minsk qrupunun, qəbul olunmuş müvafiq qərarların bazasında sülh yolu ilə həll etmək lazımdır. Yaxşıdır ki, iki ildir müharibə getmir, qan tökülmür. Axı, hər bir cavanın öldürülməsi onun valideynləri, qohumları üçün faciədir. Hər bir yaşlı adamın öldürülməsi onun ailəsi üçün faciədir. Bax, bu barədə əməlli-başlı düşünmək lazımdır. Ona görə də əminəm ki, Azərbaycanın, Ermənistanın, – onların hər ikisinin xalqlarına eyni hörmətlə yanaşıram, çünki mənim xalqım da onlara belə yanaşır, – rəhbərliyinin siyasi iradəsi məsələnin sülh yolu ilə həllini tapacaqdır. Toplar susanda siyasətçilərin sakit şəraitdə işləməyə imkanı var. Bir sözlə, bu məsələni hamı tərəfindən qəbul olunmuş dünya prinsipləri əsasında, müqavilə yolu ilə həll etmək lazımdır. Bu, siyasətçilərə də, xalqlara da, dövlətlərə də fayda gətirəcəkdir. Mən belə hesab edirəm.

**Sual: Cənab Əliyevə iki sualım var. Xəzər dənizi barədə bu gün imzalanmış birgə bəyanatdan sonra Rusiyanın Azərbaycanla və Qazaxıstanla münasibətlərinin dəyişəcəyi haqqında proqnoz verə bilərsinizmi? Oğlunuzun ARDNŞ-in vitse-prezidenti vəzifəsində fəaliyyətini qiymətləndirə bilərsinizmi? Bizi həm ata, həm də dövlət xadimi kimi sizin verdiyiniz qiymət maraqlandırır.**

**Heydər Əliyev:** Hesab edirəm ki, Xəzər dənizinə dair imzaladığımız birgə bəyanat Rusiyanın Azərbaycanla və Qazaxıstanla münasibətlərinin hər hansı şəkildə pisləşməsinə gətirib çıxarmayacaqdır. Biz suveren hüququmuzdan istifadə edirik və sahilyanı dövlətlər kimi Xəzər dənizində iş görmək barədə öz hüququmuzu bəyan edirik. Hesab edirəm ki, ehtirasları qızışdırmaq, bu bəyanatla əlaqədar Rusiyanın Azərbaycanla və Qazaxıstanla münasibətlərinin hər hansı şəkildə pisləşəcəyini proqnozlaşdırmaq lazım deyildir. Əksinə, biz bu bəyanatla Xəzər dənizinə dair məsələlərin düzgün, qarşılıqlı surətdə məqbul həllini tapmaq üçün

əsas yaradırıq. Azərbaycan Xəzər dənizində çoxdan neft çıxarır. Burada ilk neft quyusu 1949-cu ildə fontan vurmuşdur. Azərbaycan neftçiləri və [321-322] geoloqları sonrakı illərdə Xəzərdə və dənizin Azərbaycan, Türkmənistan sahillərində, digər sektorlarında iri neft və qaz yataqları kəşf etmişlər. Bu gün deməliyəm ki, bizim seysmik geofizika gəmimiz Qazaxıstan sahillərində işləyir və orada neft yataqlarının kəşfiyyatı ilə məşğul olur. Ona görə də bu gün imzaladığımız sənəd bizim birgə səylərimizin qanunauyğun nəticəsidir və bir də deyirəm, heç bir pisləşməyə gətirib çıxarmayacaqdır. Belə kədərli proqnozlar vermək lazım deyildir.

Oğlumun neft şirkətinin vitse-prezidenti vəzifəsində fəaliyyətinə gəldikdə isə, mən bu məsələnin sizi nə mənada maraqlandırdığını bilmirəm. Hesab edirəm ki, o, uğurla işləyir, ali təhsili var. Beynəlxalq Münasibətlər İnstitutunu, elə həmin institutda aspiranturanı bitirmiş, beynəlxalq məsələlərə dair dissertasiya müdafiə etmişdir. Bir neçə xarici dili kifayət qədər yaxşı bilir, bir çox xarici məsələlər üzrə mütəxəssisdir. O, neft şirkətində Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici neft şirkətləri arasında münasibətlərin inkişafı məsələləri ilə uğurla məşğul olur.

**Nursultan Nazarbayev:** Heydər Əliyeviç, bizim "Karavan" qəzeti bütün məsələlərlə maraqlanır, bu, sərbəst qəzetdir.

**Heydər Əliyev:** Mən bunun əleyhinə deyiləm. Sadəcə olaraq sual verdim ki, bununla nə üçün maraqlanır?

**Sual: Mənim sualım Nursultan Nazarbayevədir: Xəzərə dair imzalanmış birgə bəyanat haqqında nə deyə bilərsiniz? Bu sualım isə Heydər Əliyeviçədir: neft-qaz sənayesinə dair sazişlər çərçivəsində hansı birgə layihələr nəzərdə tutulur?**

**Nursultan Nazarbayev:** İrandan başqa, Xəzəryanı dövlətlərin hamısı MDB-yə daxildir. Hazırda məsələ statusu müəyyənləşdirməkdən və bu problemi nifaqa çevirməməkdən ibarətdir. Mən Rusiya prezidenti Yeltsin ilə, İran prezidenti Rəfsəncani ilə belə bəyanat imzalamışam. Bu gün isə Heydər Əliyeviç ilə imzaladım. Bütün prinsip bundan ibarətdir ki, hamı bir şeylə razıdır: Biz Xəzər dənizini və onun bioloji ehtiyatlarını qorumalı, təbiəti mühafizə etməliyik, Xəzər silahsızlaşdırılmış zona olmalıdır, xarici hərbi gəmilər buraya daxil olmamalıdır, biz hamımız üçün ümumi olan bu su hövzəsinin mühafizəsi ilə əlaqədar bütün problemləri razılaşdırmalıyıq.

Fərq nəyi iqtisadi zona hesab etməkdədir. Belə dənizlər üçün mövcud olan beynəlxalq normaları götürsək, onda Azərbaycanın və Qazaxıstanın mövqeləri bir-birinə çox yaxındır. Dəniz gəmiçilik üçün sərbəst olmalı, o, ticarət, ünsiyyət, dənizçilik üçün bütün dövlətlərə xidmət etməlidir. Dənizin təkinə, dibinə gəldikdə isə, o, bölünməlidir ki, hər bir dövlət hansı sektorda işlədiyini dəqiq bilsin. Bu, birincisi.

İkincisi. Biz deyirik ki, ilk növbədə sahilyanı bütün dövlətlər dənizin sərvətlərini mənimsəmək üçün elan etdiyimiz bütün tenderlərdə iştirak edə bilərlər. Axı, o dövlətlər iştirak edir ki, onlar işə real pul qoya bilir. Bütün məsələ bundadır. Ona görə də bizim imzaladığımız bəyanat gizli deyildir, siz onu götürüb baxa bilərsiniz.

**Heydər Əliyev:** Mənə verilən sualla əlaqədar deyə bilərəm ki, biz prezident Nursultan Nazarbayevlə və nümayəndə heyəti ilə "Tengiz" yatağından çıxarılan neftin Azərbaycan ərazisi vasitəsilə daşınması haqqında məsələni müzakirə etmişik. Sizə məlumdur ki, bir neçə ay bundan öncə Transqafqaz magistralı barədə Özbəkistan, Türkmənistan, Gürcüstan və Azərbaycan arasında Aşqabadda saziş imzalanmışdır. Prezident Nursultan Nazarbayev Qazaxıstanın bu sazişə qoşulması haqqında bəyanat verdi. Bunun özü də birgə iş görmək barədə danışıqlarımızın, söhbətlərimizin konkret, praktiki nəticəsidir. Neft və qaz sənayesi sahəsində, Xəzərə dair birgə iş haqqında digər planlar da var. Bir sözlə, perspektivlər yaxşıdır.

**Nursultan Nazarbayev:** Əlavə etmək istəyirəm, nə qədər ki, imzaladığımız həmin sazişlər yox idi, birgə iqtisadiyyatı da inkişaf etdirmək mümkün deyildi. İndi hamınız eşitdiniz, məsələn, vergiqoyma problemini həll etmədən, qarşılıqlı investisiyalar haqqında saziş olmadan heç bir birgə müəssisə barədə söhbət belə gedə bilməzdi. Qazaxıstan istəyir ki, Azərbaycan mütəxəssislərinin köməyi ilə özü üçün neft avadanlığı yaratsın, birgə kəşfiyyat işləri aparsın. Məlum olduğu kimi, bu işdə xüsusən dənizdə kəşfiyyat işləri aparılmasında Azərbaycanın böyük təcrübəsi var. Azərbaycan Qazaxıstandan böyük miqdarda taxıl, ət məhsulları alınmasına maraq göstərir. Bugünkü görüşümüzdə biz Azərbaycana müntəzəm şəkildə, uzun müddət taxıl göndərilməsi üçün Qazaxıstanın taxılçılıq vilayətlərindən istifadə edilməsi haqqında uzunmüddətli saziş bağlamağın mümkünlüyü barədə danışdıq. Bizi Azərbaycanda istehsal olunan yağlar, kimya, yeyinti sənayesi məhsulla[323-324]rı maraqlandırır. Birgə müəssisələr yaratmaq üçün də çox böyük imkanlar var. Xüsusən hər iki dövlətin işgüzar adamlarından, biznesmenlərindən ötrü həm orada, həm də burada sərmayə qoymaq üçün nadir imkanlar açılır.

Qazaxıstana gəldikdə isə, xarici investisiyalar haqqında qanuna əsasən, biz öz müəssisəsini tikənlərə torpaq satırıq və bu, onların mülkiyyətinə çevrilir. Qazaxıstanın valyuta bazarında istənilən valyutalar istənilən miqdarda və həcmdə dəyişdirilir. Qazaxıstandan kapitalın kənara çıxarılması sərbəstdir, mülkiyyətin olması da sərbəstdir. Hazırda Qazaxıstanın sənaye və kənd təsərrüfatında bütün obyektlərin kütləvi şəkildə özəlləşdirilməsi prosesi gedir. Sizin pulu olan iş adamlarınız bu prosesdə iştirak edə bilərlər. Ona görə də bu gün imzalanmış sazişlər iş adamlarının, sənaye müəssisələrinin, kənd təsərrüfatı strukturlarının və hökumətlərin qarşılıqlı münasibətlərini inkişaf etdirmək üçün imkan yaradacaqdır.

**Sual: Sual Heydər Əliyevədir: Siz indi hansı problemi Azərbaycan üçün ən başlıca problem sayırsınız və onun həllinin hansı yollarını görürsünüz?**

**Heydər Əliyev:** Azərbaycan üçün ən başlıca problem Ermənistanın hərbi təcavüzündən xilas olmaqdır. Bu təcavüz səkkiz il bundan əvvəl edilmiş və Azərbaycan xalqına çox böyük maddi və mənəvi zərər vurmuşdur. Bayaq dedim ki, bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş, həmin torpaqlardan bir milyondan çox adam qovulmuşdur. Təsəvvür edin ki, 7,5 milyon Azərbaycan əhalisinin bir milyonu qaçqın vəziyyətindədir. Onların əksəriyyəti çadırlarda, olduqca ağır şəraitdə yaşayır, çoxu işsizdir. Söz yox ki, onlar ağır mənəvi və maddi vəziyyətdədirlər. Bununla yanaşı, bu amil Azərbaycanda iqtisadi və mənəvi mühiti çox güclü şəkildə çətinləşdirir. Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş ərazilərdə hər şey talan edilmiş, qədim mədəniyyət abidələri, mənəvi dəyərlərimiz, fabriklər, zavodlar, məktəblər, xəstəxanalar, yaşayış evləri dağıdılmışdır. Bu olduqca dəhşətli vəhşilikdir. Bütün bunlar respublikamıza vurulmuş çox böyük yaradır. Buna görə də problemin həll olunması, bu vəziyyətdən qurtarmaq bizim üçün ən başlıca məsələdir. Burada Nursultan Abişoviçlə dediyimiz kimi, biz bu problemi sülh yolu ilə, beynəlxalq hüquq normaları, Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin pozulmazlığı prinsipi əsasında həll etmək istəyirik. Deməli, Ermənistan silahlı birləşmələri Azərbaycan ərazisindən danışıqsız çıxarılmalıdır, Azərbaycan vətəndaşları öz yaşayış yerlərinə qayıtmalıdırlar, Azərbaycanın ərazi bütövlüyü, onun beynəlxalq aləmdə tanınmış sərhədləri bərpa edilməli, bu sərhədlər pozulmamalıdır. Bu proses çərçivəsində Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək muxtariyyət statusu verilə bilər və Azərbaycan Respublikasının vətəndaşları kimi Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyi təmin edilə bilər. Bu, bizim üçün ən başlıca problemdir. Demək istəyirəm ki, biz bu problemi həll etdikdən sonra qalan problemləri – sosial, iqtisadi, mədəni, elmi problemləri aradan qaldırmaq bizim üçün xeyli asan olacaqdır.

**Sual: Cənab prezident Nursultan Nazarbayev, türkdilli respublikaların birləşməsi və inkişafı hansı iqtisadi və siyasi təməllər əsasında mümkündür? Ölkənizdə demokratikləşdirmə prosesi necə gedir? Siz qonşu Özbəkistandan nümunə götürürsünüzmü, yoxsa özünüz onlar üçün nümunəsiniz?**

**Nursultan Nazarbayev:** Sovet rejimi dövründə demək mümkün deyildi ki, biz eyni türk köklərinə, tarixə malik idik. Müstəqillik əldə etdikdən sonra hər bir xalq öz nəzərlərini öz mənəvi qaynaqlarına yönəldir. Onları biz də axtarırıq. Bilirsiniz ki, türkdilli ölkələrin dövlət başçılarının tezliklə Daşkənddə müşavirəsi keçiriləcəkdir. Bu, ya beşinci, ya da altıncı görüşdür. Bizim hamımız İqtisadi Əməkdaşlıq Təşkilatına daxil olduğumuza görə əməkdaşlıq edirik, özü də yaxşı əməkdaşlıq edirik. Buna Sərəxs – Məşhəd yolunun birləşdirilməsi sübutdur. Onun vasitəsilə bütün Mərkəzi Asiya respublikaları İran körfəzinə çıxmışlar. Buna görə də bir-birinə meyl göstərən və ümumi mənəvi kökləri olan dövlətlər kimi, qardaş. dövlətlər kimi biz bunu müstəqillik çərçivəsində bərabərliyin tanınması, bir-birinin işlərinə qarışmamaq çərçivəsində həll etməli, ölkələrimizin iqtisadiyyatlarının inkişafında bir-birimizə qarşılıqlı yardım göstərməli və bununla da dövlətlərimizə və xalqlarımıza öz rifahını yüksəltməkdə kömək etməliyik. Odur ki, mən buna normal hal kimi baxıram.

Lakin belə düşünürəm ki, türkdilli dövlətlərin yenidən hər hansı bloka daxil olmasına, bir növ hərbi təşkilat yaratmasına və başqa dövlətlərlə qarşı-qarşıya durmasına ehtiyac yoxdur. Biz artıq belə bir blokda, düşərgədə olmuşuq və buna görə də [325-326] biz hər hansı bir yeni bloka girməməliyik. Mənim mövqeyim belədir.

O ki qaldı demokratik dəyərlərə, 1995-ci il avqustun 30-da keçirilmiş ümumxalq referendumu ilə Qazaxıstanda konstitusiya qəbul olunmuşdur. Konstitusiyada yazılmışdır ki, Qazaxıstan demokratik, dünyəvi dövlətdir. Bununla əlaqədar, konstitusiyamıza və qanunlarımıza uyğun olaraq Qazaxıstanda əsl söz azadlığı var, ölkəmizdə 1053 qəzet və jurnal buraxılır, onlardan yalnız 422-si dövlət nəşrləridir, qalanları azad mətbuatdır. Bizim televiziya ilə təxminən 38 kanalda verlişlər yayılır, onlardan yalnız 4-ü dövlət kanalıdır. Konstitusiya ancaq ona məhdudiyyət qoyur ki, Qazaxıstanda hakimiyyət uğrunda mübarizə aparan dini partiyalar yaratmağa, millətlərarası ədavəti qızışdırmağa və dövlətin demokratik dayaqlarına qarşı çıxmağa imkan verilmir. Ona görə də çoxsaylı partiyaların olması, – onların bir çoxunu mən özüm yaratmışam, çünki bunu etmək lazım idi. Doğrudur, indi onlar məni tənqid edirlər, – normal haldır. Çoxpartiyalılıq, çoxlu ictimai hərəkatların olması, – bunların sayı 40-dan yuxarıdır, – onu göstərir ki, hər bir partiya, hər bir siyasi hərəkat konstitusiya yolu ilə, öz proqramını, təkliflərini izah etmək yolu ilə hakimiyyət uğrunda mübarizə apara bilər. Bir sözlə, əgər bu sizi maraqlandırırsa, ölkəmizə gəlib özünüz görün.

**Sual: Nursultan Abişoviç, zəhmət olmasa, deyin, Mərkəzi Asiya silahlı qüvvələrinin birləşmiş batalyonu necə inkişaf edir və siz hansısa ölkənin ona qoşulmasını nəzərdə tutursunuzmu? Heydər Əliyeviç, bu il MDB-nin 5 illiyi tamam olur. Siz birliyin 10 illik yubileyində televiziya və radio, digər kütləvi informasiya vasitələri sahəsində inteqrasiyanı necə görmək istərdiniz?**

**Nursultan Nazarbayev:** Qazaxıstan, Özbəkistan və Qırğızıstan arasında vahid iqtisadi məkan haqqında müqavilə bağlanmışdır. Bu xalqlar qonşuluqda yaşayırlar, ümumi cəhətləri həddən çoxdur. Ona görə də bu yaxın xalqlar arasında daha çox etimad olması üçün biz belə birlik yaratmışıq və o, çox yaxşı işləyir. Biz fövqəlmilli strukturlar, yəni dövlətlərarası strukturlar, icraiyyə komitəsi, dünya bankları tərəfindən tanınmış

Mərkəzi Asiya Bankı yaratmışıq. Bu bankın nizamnamə kapitalı var, böyük məbləğdə pul vəsaiti cəlb edə [326-327] bilər, hazırda 53 birgə layihəni həyata keçirir, həmin layihələrin bəziləri artıq işləyir.

Daxildə yaranan bütün problemləri həll etmək üçün biz birgə Mərkəzi Asiya batalyonu yaratmışıq, bu barədə BMT-yə məlumat vermişik və ondan razılıq və müəyyən status almışıq. Bu batalyon ABŞ-da NATO sistemində keçirilən təlimlərdə iştirak etmişdir. Batalyon Qazaxıstanda yerləşir, onun bölmələri bütün dövlətlərdə var və lazım gəldikdə birgə inkişaf üçün toplaşırlar. Zənnimcə, Mərkəzi Asiya müqaviləsinə Azərbaycan da diqqət yetirə bilərdi. Bu, çox maraqlı təcrübədir. Biz gömrük baxımından, iqtisadi baxımdan, daşınmalar sahəsində birgə inkişaf üçün xüsusi şərait yaradırıq. İqtisadiyyatdakı etimad zəminində isə insanlar arasında da etimad yaranır və bu da qonşular arasında sabitliyə və əmin-amanlığa xidmət edir.

**Heydər Əliyev:** Mənə verilmiş sualın cavabında deyim ki, Azərbaycan MDB-yə 1993-cü ilin sonunda daxil olmuşdur və ötən dövr ərzində onun inkişafına öz töhfəsini vermək üçün tədbirlər görmüşdür. Biz istəyirik ki, MDB azad, müstəqil, bərabərhüquqlu dövlətlərin əsl birliyi olsun. Şübhəsiz ki, bu çərçivədə biz çox istərdik ki, bütün istiqamətlər üzrə, o cümlədən televiziya sahəsində hüquq bərabərliyi əsasında inteqrasiya olsun. Televiziya mühüm kütləvi informasiya vasitəsidir, ictimai əhval-ruhiyyənin formalaşmasında çox vacib rol oynayır. Ona görə də biz istərdik ki, inteqrasiya olsun, lakin hüquq bərabərliyi əsasında. Hesab edirəm ki, qarşıdakı illər bizi tədricən buna gətirib çıxaracaqdır. MDB-nin 10 illik yubileyində nə olacağına gəldikdə isə, necə deyərlər, yaşayarıq, görərik.

Diqqətinizə görə sağ olun, xudahafiz. [327-328]

## QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN H. RƏSULBƏYOV ADINA RABİTƏ KOLLECİNİN YATAQXANASINDA MÜVƏQQƏTİ MƏSKUNLAŞMIŞ QAÇQINLARLA GÖRÜŞÜNDƏ ÇIXIŞ

*16 sentyabr 1996-cı il*

Əziz bacılar və qardaşlar, əziz dostlar!

Bu gün Qazaxıstan Respublikasının prezidenti, bizim dostumuz cənab Nursultan Nazarbayev Azərbaycana rəsmi səfərə gəlibdir. Bu gün səhərdən biz çox gərgin iş, böyük danışıqlar aparmış, bir çox müqavilələr imzalamışıq. Azərbaycan ilə Qazaxıstan üçün çox gərəkli işlər görmüşük.

Bütün bu gərgin proqrama baxmayaraq, bizim dostumuz Nursultan Nazarbayev Azərbaycana Ermənistanın təcavüzü nəticəsində yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları ilə mütləq görüşmək istəmişdir. Onun gərgin proqramı çərçivəsində belə bir arzusu onu göstərir ki, o, Azərbaycan xalqına nə qədər hörmət edir və onun nə qədər dərin hissiyyatları var. Azərbaycan xalqının başına gələn bu bəlalar onu da düşündürür və bu məsələlərlə məşğul olmağa cəlb gedir. Ona görə də onun şəxsi təşəbbüsü nəticəsində və onun xahişi ilə biz bura, sizinlə görüşməyə gəlmişik.

Mən sizinlə yenidən görüşməyimdən çox məmnunam. Hər dəfə sizinlə görüşərkən həm ürəyimdə böyük sıxıntı hissi keçirirəm, həm də sevinirəm ki, sizinlə yenə də üz-üzə gəlirəm, şəxsən görüşürəm.

Siz çox dözümlü insanlarsınız. Azərbaycan xalqının ən yüksək xüsusiyyətlərindən biri onun dözümlülüyü, dəyanətliliyi və yüksək iradəsidir. Sizin başınıza böyük bəlalar gəlibdir. Ermənistanın təcavüzkar qüvvələri Azərbaycan torpağına hücum edib, təcavüz edib və torpaqlarımızı işğal ediblər. Sizin yaşadığınız yerləri də – Laçını da, Füzulini də, başqa yerləri də işğal ediblər və siz yerinizdən-yurdunuzdan didərgin düşmüsünüz. [328-329]

Mən sizin vəziyyətinizi yaxşı bilirəm. Bilirsiniz ki, son vaxtlar mən işğal olunmuş rayonların nümayəndələri ilə – xocalılarla, şuşalılarla, laçınlılarla, füzulililərlə, cəbrayıllılarla, kəlbəcərlilərlə, qubadlılılarla görüşmüşəm və bu yaxın vaxtlarda zəngilanlılarla da görüşəcəyik. Sizin hamınızın dərdi bütün Azərbaycan xalqının dərdidir, bizim böyük bəlamızdır və mənim dərdimdir. Ona görə sizin bu ağır vəziyyətdə olmağınız daim bizi düşündürür, məni düşündürür. Bu, tək məni, tək Azərbaycan rəhbərlərini yox, bütün dünyada sülhsevər, vətənpərvər, xeyirxah insanları düşündürür, o cümlədən bizim dost, qardaş qazax xalqını, onun prezidenti cənab Nursultan Nazarbayevi düşündürür.

Bu gün biz bu barədə geniş söhbətlər, ətraflı danışıqlar aparmışıq. Mən bəyan etmişəm və bu gün prezident Nursultan Nazarbayevə Azərbaycan Respublikasının, sizin istəyinizi, arzunuzu və mövqeyinizi bir daha bildirmişəm. Bu da ondan ibarətdir ki, Azərbaycan xalqı müharibə aparmaq istəmir, Azərbaycan xalqı sülhsevər xalqdır və mövcud məsələnin sülh yolu ilə həll olunmasını istəyir.

Məlumdur, siz hamınız yerinizi, ev-eşiyinizi, varınızı, əmlakınızı, nə qədər doğma adamlarınızı itirmisiniz, nə qədər insanlar şikəst, əlil olub. Amma bunların hamısına baxmayaraq siz sülh istəyir, sülh yolu ilə torpaqlarınıza qayıtmaq istəyirsiniz. Bilirəm ki, evləriniz, məktəbləriniz, xəstəxanalarınız, ümumiyyətlə hər şeyiniz dağılıbdır. Amma siz öz doğma torpaqlarınıza qayıtmaq və orada yaşamaq istəyirsiniz və biz də bunu istəyirik. Ona görə də sizinlə bizim fikrimiz birdir və mən bu fikirləri dostumuz Nursultan Nazarbayevə çatdırmışam. O da bu gün öz mövqeyini, fikirlərini dedi. Onun dediyi sözlər çox dəyərlidir. O dedi ki, heç bir xalq, heç bir ölkə öz torpağının bir qarışını da verməyə razı ola bilməz və bir daha bildirdi ki, bütün bu məsələlər hər bir ölkənin ərazi bütövlüyü çərçivəsində, sərhədlərinin toxunulmazlığı çərçivəsində sülh yolu ilə həll edilməlidir. Bunlar hamısı dəyərli sözlərdir və biz də bu fikirdəyik. Bizim fikirlərimiz eynidir və bu fikirlər əsasında, bu yol ilə mən əminəm ki, biz işğal olunmuş torpaqların azad edilməsinə nail olacağıq, siz öz yerinizə-yurdunuza qayıdacaqsınız. Azərbaycan Respublikasının ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunacaq, Azərbaycanın dövlət müstəqilliyi və suverenliyi təmin olunacaqdır.

Biz bu sahədə bütün dünya ictimaiyyətinin yardımına möh[329-330]tacıq. Beynəlxalq təşkilatların, bütün ölkələrin, o cümlədən də Qazaxıstan xalqının, Qazaxıstan Respublikasının bu işlərdə yardımına ehtiyac duyuruq. Burada hörmətli Nursultan Nazarbayev xatirimizə saldı ki, hələ beş il bundan öncə o, bu məsələnin sülh yolu ilə həll olunması üçün çalışıb, Azərbaycana gəlib, Bakıda, Dağlıq Qarabağda, Gəncədə, sonra Ermənistanda olub və bu məsələnin həll edilməsi işinə biganə qalmayıb, bizim doğma bir dostumuz kimi bu məsələyə qarışıbdır. Bu gün o öz fikirlərini, mövqeyini bildirməklə bu məsələnin sülh yolu ilə həll olunmasına kömək edir. Ona görə də mən sizin adınızdan qardaş, dost qazax xalqına hörmət və ehtiramımı bildirmək istəyirəm və qazax xalqına xoşbəxtlik və bütün işlərində müvəffəqiyyət arzulayıram. Qazaxıstan prezidenti,

dostumuz Nursultan Nazarbayevə bizim respublikaya göstərdiyi diqqət və qayğıya görə, yerindən-yurdundan didərgin düşmüş insanlara xoş münasibətinə görə təşəkkürümü bildirirəm.

Əmin ola bilərsiniz ki, bu yolda biz durmadan çalışacağıq, işğal olunmuş torpaqlar azad ediləcək, siz yerinizə-yurdunuza qayıdacaqsınız və biz hamımız birlikdə sizinlə ev-eşiyinizdə, el-obanızda görüşəcəyik. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, müstəqil Azərbaycan Respublikası yaşayaraq inkişaf edəcək və xoş günlərə çıxacaqdır.

Sizə cansağlığı, dözümlülük və bundan sonra da mətanətli olmağı arzu edirəm. Sağ olun! [330-331]

## QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN ŞƏRƏFİNƏ VERİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*"Gülüstan" sarayı*

*16 sentyabr 1996-cı il*

Qazaxıstan Respublikasının hörmətli prezidenti Nursultan Nazarbayev!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri respublikamızın həyatında əlamətdar hadisədir. Bu, Qazaxıstan-Azərbaycan münasibətləri tarixində mühüm mərhələdir. Bu, Qazaxıstan və Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra ilk rəsmi səfər olub böyük gərgin işlə və hər iki ölkə, hər iki xalq üçün, gələcəyimiz üçün böyük əhəmiyyət kəsb edən sənədlərin imzalanması ilə əlamətdardır.

Bu gün prezident Nursultan Nazarbayevlə, nümayəndə heyətinin üzvləri ilə keçirilmiş danışıqlar, söhbətlər, görüşlər aydın şəkildə sübut edir ki, ölkələrimiz, müstəqil dövlətlərimiz arasında mehriban, dostluq münasibətləri mövcuddur və bütün sahələrdə gələcək əməkdaşlıq üçün böyük imkanlar var.

Qeyd etdiyim kimi, imzaladığımız sənədlərin müstəsna əhəmiyyəti var. Onlar gələcək əməkdaşlığımız, dostluğun və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi, qarşılıqlı kömək və qarşılıqlı dəstək üçün yeni perspektivlər açır. Qazaxıstan və Azərbaycan belə sənədləri ilk dəfədir ki, imzalayırlar. Ona görə də bunu əlamətdar hadisə, münasibətlərimizin tarixində mühüm mərhələ hesab edirəm. Bizim münasibətlərimizin zəngin tarixi var. Xalqlarımızın dostluğunun tarixinin kökləri uzaq keçmişə gedib çıxır və biz əcdadlarımızın, qazax və Azərbaycan xalqlarının görkəmli insanlarından irs qalmış hər şeyi yüksək qiymətləndiririk.

Qazaxıstan Asiyanın ən böyük ölkələrindən biri, geniş ərazisi, zəngin təbii sərvətləri, güclü iqtisadi, sənaye potensialı olan ölkədir. Hazırda o, dünyanın bir çox ölkələrinin diqqətini [331-332] cəlb edir. Böyük təbii ehtiyatları, zəngin məhsuldar torpağı, toplanmış iqtisadi potensialı Qazaxıstana müstəqil siyasət yeridən və qarşılıqlı mənafelər əsasında və şübhəsiz, öz xalqının milli mənafelərini gözləməklə bütün ölkələrlə iqtisadi münasibətlər yaradan ölkəyə çevrilmək imkanı verir.

Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi əlaqələrin də böyük tarixi var. Keçmiş dövrdə biz fəal əməkdaşlıq edir, buraxdığımız məhsulları mübadilə edirik. Azərbaycan neftçiləri Manqışlağın, Quryevin neft mədənlərində səmərəli çalışırdılar. Azərbaycan və Qazaxıstan neftçilərinin, alimlərinin, mühəndislərinin əməkdaşlığı Xəzər dənizi hövzəsində neft sənayesinin əsasını yaratmışdır və bu, indi bizim birgə fəaliyyətimizin, əməkdaşlığımızın mühüm amilidir. Keçmişdə elm, mədəniyyət, təhsil sahəsində də əlaqələrimiz çox səmərəli idi. Biz qarşılıqlı səfərlər edirik. Mədəniyyət xadimləri xalqlarımızın yaxınlaşması, dostluğun, əməkdaşlığın möhkəmlənməsi üçün çox iş görmüşlər.

Lakin bunların hamısı bizə keçmişdən irs qalmış bünövrəyə əsaslanır. Qazax xalqı böyük tarixi yol keçmiş və bütün dövrlərdə özünün milli ləyaqətini qorumuş, yadelli işğalçılarla mübarizə aparmış, öz ailəsini, mədəniyyətini, adət-ənənələrini müdafiə etmişdir. Bu zəmində də bir çox yüzilliklər ərzində qazax xalqının görkəmli nailiyyətləri meydana gəlmiş, öz xalqının mənəvi aləmini zənginləşdirən, dünya sivilizasiyasına böyük töhfə verən xadimlər yetişmişdir. Qazax xalqı onlarla haqlı olaraq fəxr edir. Ona görə də biz qazax xalqının görkəmli şairi, mütəfəkkiri, filosofu Abay Kunanbayevin anadan olmasının 150 illiyini böyük sevinc hissi ilə birlikdə qeyd etdik. Bu yaxınlarda biz xalq akını Cambulun anadan olmasının 150 illiyinə həsr edilmiş təntənələrdə iştirak etdik.

Mədəniyyət, elm və təhsil sahəsində xalqlarımızın qarşılıqlı münasibətlərində belə parlaq səhifələr çoxdur. Yeri gəlmişkən deyim ki, Abayın, Cambulun əsərlərinin bir çoxu Azərbaycan dilinə tərcümə olunubdur və oxucularımız onları yaxşı tanıyırlar. Xalq akını Cambul Azərbaycana da şerlər, əsərlər həsr edibdir. Onun Bakıya, Azərbaycan təyyarəçilərinə, neftçilərinə həsr etdiyi şerlər məlumdur.

Belə faktları çox göstərmək olar. Lakin bir də deyirəm, bunların hamısı bizi daim birləşdirən və yaxınlaşdıran tarixi keçmişimizə əsaslanır. Biz tariximizi, keçmişimizi xatırlayarkən eyni dərəcədə həm qazax, həm də Azərbaycan xalqlarına [332-333] məxsus olan "Dədə Qorqud" dastanı haqqında, "Koroğlu" dastanı barədə, xalqlarımızın tarixinin digər səhifələri haqqında iftixarla danışırıq. Tariximizin, kökümüzün, dilimizin, mənəvi və əxlaqi dəyərlərimizin eyniliyi bizi həmişə yaxınlaşdırmış, doğmalaşdırmış, birləşdirmişdir.

Ancaq indi malik olduqlarımız keçmişdəkindən tamamilə fərqlənir. Bu, onunla əlaqədardır ki, qazax və Azərbaycan xalqları dövlət müstəqilliyini qazanıblar və indi bir-birilə Dünya Birliyinin bərabərhüquqlu üzvü olan müstəqil dövlətlər kimi münasibət saxlayırlar. Bizim əcdadlarımız məhz bunu arzulayıblar, buna can atıblar, bunun uğrunda mübarizə aparıblar. Bizim xoşbəxtliyimiz ondadır ki, bu tarixi hadisənin şahidiyik.

Xalqlarımızın dövlət müstəqilliyi əldə etməsi həqiqətən tarixi nailiyyət, xalqlarımızın sərvətidir. Ona görə də nail olduğumuz bizim üçün əvəzsizdir. Bunun əsasında indi biz səylərimizi belə fəal birləşdirir, Qazaxıstan və Azərbaycanın gələcək inkişafı naminə əməkdaşlıq edirik. Bu baxımdan prezident Nursultan Nazarbayevin Azərbaycana rəsmi səfəri xüsusi əhəmiyyət kəsb edir. Bizim imzaladığımız sənədlər gələcək əməkdaşlığımız üçün geniş perspektiv açır. Sənədlərin imzalanmasından əlavə, biz bu gün həm Qazaxıstana, həm də Azərbaycana, eləcə də beynəlxalq həyata aid olan bir çox məsələlər barədə fikir mübadiləsi etmişik. Bu məsələlərin hamısında baxışlarımız eynidir, bir-birinə uyğundur və bu, şəxsən məni çox sevindirir. Hazırda biz yeni demokratik dövlət quruculuğu, demokratik cəmiyyət formalaşdırmaq, iqtisadiyyatın yeni sistemini yaratmaq yolundayıq. Biz bir çox problemlərlə, çətinliklərlə qarşılaşırıq. Şübhəsiz ki, fikir mübadiləsi, əməkdaşlıq, qarşılıqlı dəstək və qarşılıqlı kömək bu çətinliklərin aradan qaldırılmasında və Qazaxıstanın da, Azərbaycanın da çatmaq istədiyi son məqsədə nail olmaqda mühüm amillərdir.

Bu gün Milli Məclisin iclasında prezident Nursultan Nazarbayevin çıxışını böyük diqqətlə dinlədik, Qazaxıstanda görülən böyük işlərdən, onun həyatında baş verən proseslərdən, nəzərdə tutduğu böyük planlardan xəbərdar olduq. Şübhəsiz, bizdə aydın təəssürat yarandı. Qazaxıstan düzgün yolla gedir, həqiqətən demokratik, dünyəvi dövlət qurur və bu, Qazaxıstan xalqının rifahının yaxşılaşmasına, onun iqtisadi potensialının, Dünya Birliyində nüfuzunun möhkəmlənməsinə gətirib çıxaracaqdır.

Bu gün Nursultan Abişoviç öz yurdlarını tərk etməyə məc[333-334]bur olmuş və Bakının rayonlarından birində çox ağır şəraitdə yaşayan şəxslərin bir qrupu ilə görüşmüşdür. Bu şəxslər rayonlarının Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilməsi nəticəsində öz doğma yerlərindən qovulmuşlar. Açığını deyim ki, belə ağır şəraitdə yaşayan insanlarla görüşmək çətindir, baxmayaraq ki, mən onlarla dəfələrlə görüşmüşəm. Ancaq eyni zamanda bu görüş həmin insanlarda belə bir inamı daha da gücləndirdi ki, ədalət zəfər çalacaq, tam sülh yaranacaq, Azərbaycan hərbi təcavüzdən, işğaldan xilas olacaq. Azərbaycanın torpaqları qəsbkarlardan təmizlənəcək və bizim qardaş və bacılarımız, Azərbaycanın vətəndaşları öz yaşayış yerlərinə qayıdacaqlar.

Bizə dost olan ölkənin prezidentinin, dostumuz Nursultan Nazarbayevin bu insanlarla görüşünün, şübhəsiz ki, çox böyük mənəvi, eyni zamanda siyasi əhəmiyyəti də var. Bütün bunlar dostluq münasibətlərimizin, Qazaxıstan ilə Azərbaycan arasında möhkəmlənən qardaşlığın sübutudur.

Qazaxıstanın müstəqillik illərində qazandığı uğurlar bizi sevindirir. Biz ürəkdən istəyirik ki, Qazaxıstanda hər şey onun xalqının arzuladığı kimi olsun, onun getdiyi yol daha böyük uğurlarla nəticələnsin. Biz isə Qazaxıstanla əməkdaşlığımızda hər şeyi edəcəyik ki, bu əməkdaşlıq qarşılıqlı surətdə faydalı olsun, xalqlarımız arasında münasibətləri və dostluğu möhkəmləndirsin.

Qeyd etdiyim kimi, Qazaxıstan Asiyanın böyük ölkəsidir, dünya siyasətində, Müstəqil Dövlətlər Birliyində böyük rol oynayır. MDB-nin həqiqətən müstəqil dövlətlərin birliyi olmasından, yarandığı vaxtdan bəri bu təşkilatın qarşısında qoyulmuş məqsədlərə çata bilməsindən ötrü birliyin iclaslarında Nursultan Nazarbayevin necə səmərəli şəkildə çalışdığını mən müşahidə edirəm.

Qazaxıstanda baş vermiş və baş verən demokratik, müsbət dəyişikliklərdə hamımıza məlum olduğu kimi, öz ölkəsində, Müstəqil Dövlətlər Birliyində, dünyanın bir çox ölkəsində, beynəlxalq təşkilatlarda böyük nüfuzu olan və tanınan prezident Nursultan Nazarbayevin çox böyük rolu var. Dostumuz Nursultan Nazarbayevin indi Azərbaycana gəlməsi və bizim burada səmərəli işləməyimiz də təkcə Qazaxıstana deyil, həm də digər regionlara, o cümlədən Qafqaz regionuna aid olan bir çox məsələlərin həllində onun rolunu göstərir.

Bizə yaxşı məlumdur ki, hələ beş il bundan öncə Nursultan [334-335] Abişoviç Ermənistan ilə Azərbaycan arasında münaqişənin aradan qaldırılması prosesində iştirak etməyə başlamış və o vaxt çox iş görmüşdür. O, bütün bu illər ərzində həmin problemə böyük maraq göstərir. Bugünkü söhbətlərimiz və danışıqlarımız zamanı da bu məsələ yenidən diqqət mərkəzində olmuşdur. Ümidvar olduğumu bildirirəm ki, bu məsələnin sülh yolu ilə həllində biz bundan sonra da prezident Nazarbayevin dəstəyini və köməyini hiss edəcəyik.

Məmnuniyyət hissi ilə deyə bilərik ki, bugünkü gün yaxşı nəticələrlə başa çatır. Ölkəmizə səfərə gəldiyinə, Azərbaycan torpağındakı görüşlərə görə, imzaladığımız sənədlərə görə Nursultan Abişoviçə təşəkkür etmək və ümidvar olduğumu bildirmək istəyirəm ki, bu səfər, bu görüşlər Qazaxıstan ilə Azərbaycan arasında əməkdaşlığın yeni, böyük mərhələsinin başlanğıcıdır.

Qazaxıstan Respublikasının şərəfinə, Qazaxıstan xalqının şərəfinə, onun gələcək uğurları şərəfinə, Qazaxıstan Respublikasının prezidenti, dostumuz Nursultan Nazarbayevin şərəfinə badə qaldırıram! Sağ olun! [335-336]

## GÖRKƏMLİ AZƏRBAYCAN BƏSTƏKARI MÜSLÜM MAQOMAYEVİN ANADAN OLMASININ 110 İLLİYİNƏ HƏSR EDİLMİŞ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİ BAŞA ÇATDIQDAN SONRA MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT XADİMLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Respublika Sarayı*

*18 sentyabr 1996-cı il*

Sizi təbrik edirəm. Biz Müslüm Maqomayevin 110 illik yubileyinə həsr olunmuş təntənələrin keçirilməsində bir qədər gecikmişik, ancaq hesab edirəm ki, onu layiqincə qeyd etdik. Bilirsiniz, mən xoş həyəcan keçirdim. Vaxtilə mənim respublikaya rəhbərliyim dövründə biz Müslüm Maqomayevin anadan olmasının 90 illiyini və 100 illiyini qeyd etmişik. İndi onun 110 illiyini də qeyd etmək mənə nəsib oldu. Hesab edirəm, 120 illiyini də qeyd edəcəyəm.

Bu gün Müslüm Maqomayevin yaradıcılığı çox yaxşı təmsil olundu. Ən başlıcası isə, siz, sənət ustaları, dünya miqyaslı ulduzlar həm bizim görkəmli bəstəkarlarımızın yaradıcılığını, həm də öz yaradıcılığınızı Azərbaycana da və hesab edirəm, bütün dünyaya da nümayiş etdirdiniz. Sizi təbrik edirəm.

Mən bu yubileyin keçirilməsini çox istəyirdim. Təkid edirdim ki, məhz sentyabrın 18-də, Müslüm Maqomayevin və Üzeyir Hacıbəyovun anadan olduqları gün, musiqi və incəsənət günü qeyd etdiyimiz gün keçirilsin. Siz də yubileyi bu cür gözəl çıxışınızla rövnəq etdiniz.

Şübhəsiz, siz o qədər məşhursunuz, yaradıcılığınız, ustalığınız haqqında o qədər deyilmişdir ki, tərifə ehtiyacınız yoxdur. Ancaq sızın əvvəlki kimi cavan olmağınız və yenə də belə gözəl oxumağınız məni heyran qoyur. Sizin çoxunuz Müslüm Maqomayevin 90 illiyi qeyd olunarkən burada da, Moskvada İttifaqlar evinin sütunlu salonunda çıxış etmisiniz. Siz indi də o zaman olduğu kimi, hətta ondan yaxşı oxuyursunuz. [336-337]

Mən Moskvadan, Kiyevdən gələn qonaqlarımıza xüsusilə minnətdaram. Onlar mənim köhnə dostlarımdır, mən onların sənətinin, ustalığının pərəstişkarıyam. Onların Müslüm və Tamara ilə birlikdə buraya gələrək bu konsertə rövnəq vermələrini əlamətdar nailiyyət hesab edirəm. Hamımızın ayrıldığı, müstəqil dövlətlərə çevrildiyimiz indiki vaxtda bu, qeyri-adi hadisədir.

1972-ci ildə Azərbaycanda keçirilən Rusiya Federasiyası günlərini xatırlayıram, o zaman mən gənc və gözəl Tamara Sinyavskayanı ilk dəfə görmüşdüm. Azərbaycanda Ukrayna mədəniyyəti günlərini də xatırlayıram, bu tədbirlərdə Ukraynanın bütün incəsənət ustaları iştirak edirdilər və şübhəsiz ki, çox gözəl oxuyaraq bizi heyran qoyan Solovyanenkov diqqət mərkəzində idi. Elə bu gün də belə oldu. Görün, tamaşaçılarımız sizin hamınızı necə qarşıladılar. Ölkələrimizdə baş verən bütün dəyişikliklərə baxmayaraq, tamaşaçılarımız əvvəlki kimi yenə də sizi qiymətləndirir, hər şeyə çox düzgün münasibət bəsləyir və incəsənət ustalarını layiqincə qarşılayırlar. Bu məni sevindirir. Çox sağ olun ki, gəlmisiniz.

Daim Azərbaycanda yaşayan incəsənət ustalarına gəldikdə isə, mən onlarla tez-tez görüşürəm. Keçmiş Sovetlər İttifaqına daxil olan ölkələrdə, xüsusən son vaxtlarda müharibə gedən, ancaq indi də sülh olmayan bizim ölkəmizdə bir çox mürəkkəb proseslərin baş verdiyi dövrdə, ölkələrimizin qarşılaşdığı iqtisadi çətinliklər şəraitində xalqın incəsənətlə, mədəniyyətlə birlikdə olması, incəsənət ustaları ilə görüşərkən özünü çox yaxşı hiss etməsi məni sevindirir. Müslüm və Tamara "Azərbaycan" mahnısını ifa edəndə mən iftixar hissi keçirdim ki, bu mahnı 70-ci illərdə, mən Azərbaycana rəhbərlik edəndə, respublikamızı tanıtmaq, ucaltmaq, Azərbaycanın incəsənətini göstərmək üçün hər şeyi etdiyim vaxt yaranmışdır. Azərbaycanı tərənnüm edən başqa gözəl mahnılar, o cümlədən Polad Bülbüloğlunun bəstələdiyi və Müslüm Maqomayevin ifasında xüsusilə yaxşı səslənən mahnılar da var idi. Lakin yenə mahnılar gərək idi və o zaman Müslüm Maqomayev Nəbi Xəzrinin şerinə həmin "Azərbaycan" mahnısını bəstələdi. Mən ümumiyyətlə, hissiyyatlı adamam, musiqi, mahnılar məni həmişə həyəcanlandırır. Lakin o zaman ki, bu mahnını ifa [337-338] edirlər, mən özümü xoşbəxt sanıram. Vaxtilə Müslüm Maqomayev bu mahnının mənə ithaf olunduğunu demişdi. Lakin mən bununla razılaşmamışdım, indi isə qəbul edirəm. Mən bu mahnını sevirəm, o, məni çox həyəcanlandırır, çünki mahnıda deyilir ki, Azərbaycan həyatımın mənasıdır. Azərbaycan həqiqətən də mənim həyatımın mənasıdır. Ona görə də bu mahnını qəbul edirəm. Yəqin gördünüz, siz bu mahnını ifa edəndə salondakıların hamısı ayağa qalxaraq əl çalmağa başladı. Bu, gözəl idi.

Musiqimizin ağsaqqalı Tofiq Quliyev həmişəki kimi bu gün də gözəl çıxış etdi. Mən onu görəndə həmişə sevinirəm. Onun mahnılar yazmağa başladığı illər xatirimdədir. O, 30-cu illərdə Azərbaycanda ilk caz orkestri yaratmışdı və mən caz musiqisinin gənc pərəstişkarı kimi o vaxtdan onu xatırlayıram. Mən onun "Sənə

də qalmaz" adlı gözəl mahnısını çox sevirəm. Bilirsiniz, elə mahnılar olur ki, onlar bütün başqa mahnılardan xüsusi seçilir. Tofiq Quliyevin mahnıları çoxdur, lakin "Sənə də qalmaz" bunların zirvəsidir. Onun oğlu bugünkü gecənin rejissoru idi və gözəl də təşkil etmişdir. Rauf Abdullayev bu gün fərqlənirdi, orkestri çox yaxşı idarə edirdi. Mən heç kimə heç bir dərəcə vermək istəmirəm, hər bir musiqisevərin öz rəyi var. İndiki halda demək istəyirəm ki, o, Niyazidən sonra Azərbaycan dirijorluq məktəbini şöhrətləndirməkdə davam edir.

Bilirsiniz, əgər burada hər birinizdən söhbət açsam, onda sizin tərcümeyi-halınızı özünüzdən daha yaxşı danışaram.

Bugünkü gecə qeyri-adi idi. Hamınız gözəl, əla çıxış etdiniz. "Şah İsmayıl" operasından rəqs mənim çox xoşuma gəldi, bu operanın böyük əhəmiyyəti təkcə sənət əsəri olmaqla bitmir. Müslüm Maqomayev bu mövzuya sadəcə olaraq bəstəkar, incəsənət xadimi kimi deyil, Azərbaycanın tarixini gözəl bilən bir insan kimi müraciət etmişdir. Axı Şah İsmayıl görkəmli sərkərdə, Azərbaycan şahı olmuşdur. O dövrdə tarixi keçmişimizdən kimin kim olduğunu söyləmək bizim üçün çətin idi. İndi isə açıq şəkildə deməyə imkanımız var ki, Şah İsmayıl görkəmli dövlət xadimi, siyasi şəxsiyyət, Azərbaycanı birləşdirən insandır. Azərbaycanın qədim dövlətçiliyi Şah İsmayılın [338-339] adı ilə bağlıdır. Müslüm Maqomayevin də bu mövzuya müraciət edərək belə gözəl opera yazmasının incəsənət üçün əhəmiyyəti böyükdür, həmçinin böyük tarixi, siyasi əhəmiyyəti var. Mən bu operadan ariyaları dinləyəndə, – bu gün həmin gözəl rəqsə də baxdım, – xüsusi hisslər keçirirəm.

Sizin hamınızı təbrik edirəm, çox sağ olun. Sizə cansağlığı, səadət, firavanlıq arzulayıram. Sevinirəm ki, xalqımız indiki ağır şəraitdə incəsənətlə yaşayır, mədəniyyətdən ayrılmır. Fikir verin, sizin ifa etdiyiniz əsərlərin əksəriyyəti klassik musiqidir. Deyirlər ki, bu musiqini heç də hamı başa düşmür, qəbul etmir. Ancaq salonun münasibətinə baxın! Şübhəsiz ki, bu, məni sevindirir, bugünkü Azərbaycanın, mənim xalqımın səviyyəsini göstərir. Görün, o, klassik musiqini necə başa düşür. Çətinliklərə baxmayaraq, mədəniyyətimiz yaşayır. Yaxın vaxtlarda mən bizim mədəniyyət xadimlərinə kömək göstərilməsi üçün tədbirlər görəcəyəm. İndiki çətin şəraitdə mədəniyyət və incəsənət xadimlərimizin öz işlərini fədakarlıqla davam etdirmələri isə məni çox sevindirir.

Çox sağ olun. Sizə cansağlığı, firavanlıq arzulayıram. Moskvaya, Rusiyaya, mənim möhkəm əlaqələrim olan və Moskvada işləyərkən hamilik etdiyim Böyük Teatra səmimi salamlarımı yetirin. Məndə get-gedə dərin hörmət doğuran Ukraynaya salamlarımı yetirin. Prezident Leonid Kuçma ilə bizi böyük dostluq birləşdirir. Dostumuz Solovyanenkonun bu gün burada olması çox xoşdur.

Hesab edirəm ki, biz qonaqlarımızla hələ görüşəcəyik, vaxtınızı almaq istəmirəm, siz yorulmusunuz. Görüş barədə sabah sizə xəbər verəcəklər. Sağ olun. [339-340]

## ARGENTİNA RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİNİN ETİMADNAMƏSİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*20 sentyabr 1996-cı il*

Hörmətli cənab Manuel Listre!

Sizi Argentina Respublikasının Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri təyin olunmağınız münasibətilə təbrik edirəm. Gənc müstəqil dövlət kimi Azərbaycan dünyanın bütün dövlətləri ilə diplomatik əlaqələr yaradıbdır və bu əlaqələrin daha da müvəffəqiyyətli olması üçün ölkəmizdə səfirliklərin fəaliyyət göstərməsi, eyni zamanda Azərbaycanın xarici ölkələrdə səfirliklərinin olması çox əhəmiyyətlidir. Argentina hökuməti ilə Azərbaycan arasında diplomatik əlaqələr çoxdan qurulubdur, ancaq bu ölkənin respublikamızda öz səfirini təyin etmək barədə qərarım mən çox böyük məmnuniyyətlə qəbul edirəm. Argentinanın Azərbaycanda səfirinin olması, şübhəsiz ki, Argentina-Azərbaycan əlaqələrinin möhkəmlənməsi üçün əhəmiyyətlidir və əminəm ki, səfir kimi siz bu məqsədlərə xidmət edəcəksiniz.

Argentina Cənubi Amerikada böyük dövlətlərdən biridir, böyük potensialı var, Dünya Birliyində özünəməxsus yer tutur. Ona görə də biz əlaqələrimizin inkişafına çox böyük maraq göstəririk. Argentinanın Azərbaycanla əlaqələri möhkəmləndirmək üçün atdığı addımları məmnuniyyətlə qəbul edirik və əmin ola bilərsiniz ki, biz də öz tərəfimizdən buna çalışacağıq. Sizin ölkənizin prezidenti cənab Karlos Menem ilə 1995-ci ildə Davosda görüşmüşəm və söhbət zamanı ölkələrimiz arasında əlaqələrin inkişaf etməsi haqqında fikir mübadiləsi aparmışıq. İndi sizin Azərbaycana səfir təyin olunmağınız göstərir ki, prezident cənab Karlos Menem həqiqətən Azərbaycan ilə Argentina arasında əlaqələrin inkişafına tərəfdardır. Bu barədə [340-341] bizim fikirlərimiz və arzularımız üst-üstə düşür və bu da gələcək əməkdaşlığımızın uğurlu olması üçün əsasdır.

Çox məmnunam ki, Azərbaycanın bugünkü vəziyyəti haqqında Argentinada məlumat var, hökumətiniz ölkəmizə maraq göstərir, Azərbaycanın daxilində olan ictimai-siyasi vəziyyət, Ermənistanın təcavüzü nəticəsində keçirdiyi çətinliklər sizə məlumdur və bu məsələnin sülh yolu ilə həll olunması sahəsində Azərbaycanın mövqeyi bəyənilir. Bu barədə sizin dediyiniz fikirlər məndə məmnuniyyət hissi doğurur.

Argentinanın böyük iqtisadi potensialı ölkənin iqtisadiyyatının sürətlə inkişafını təmin edibdir. Azərbaycanda da özünəməxsus iqtisadı potensial, sərvətlərimiz var və bunlardan, istifadə olunması üçün müəyyən addımlar atırıq. Ona görə də hesab edirəm ki, bu sahədə iqtisadi əməkdaşlığımız faydalı olar və bundan ötrü imkanlar var. Argentina Cənubi Amerikada Azərbaycana böyük maraq göstərən ilk ölkədir. Siz Cənubi Amerika ölkələrindən Azərbaycanda ilk səfirsiniz və biz buna xüsusi əhəmiyyət verir, bunu yüksək qiymətləndiririk. Cənab səfir, əmin ola bilərsiniz ki, Azərbaycanda fəaliyyət göstərmək üçün sizə bütün şərait yaradılacaq, dövlət orqanları, ictimaiyyət ilə yaxşı təmaslar qurmaq imkanına malik olacaqsınız.

Sizi səfir təyin olunmağınız münasibətilə bir daha təbrik edir, sizə uğurlar, səadət, cansağlığı arzulayıram. [341-342]

## “TORPAQ İSLAHATI HAQQINDA” QANUNUN HƏYATA KEÇİRİLMƏSİ VƏ KƏND TƏSƏRRÜFATINDA CARİ İŞLƏRİN GEDİŞİ VƏZİYYƏTİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*Prezident Sarayı*

*21 sentyabr 1996-cı il*

Hörmətli müşavirə iştirakçıları!

Bugünkü müşavirə respublikamızda iqtisadi islahatların həyata keçirilməsinə həsr olunubdur. Bildiyiniz kimi, iqtisadi islahatları, o cümlədən aqrar bölmədə islahatları həyata keçirmək üçün əsas qanunlar qəbul olunubdur. Bu ilin iyul ayında "Torpaq islahatı haqqında" qanun qəbul edilibdir. Bu qanunların həyata keçirilməsi indi qarşımızda duran əsas vəzifədir. Çünki iqtisadiyyatın bütün inkişafı, respublika əhalisinin rifah halının yaxşılaşdırılması yalnız və yalnız islahatlar keçirmək yolu ilə iqtisadiyyatın irəliləməsini təmin etməklə bağlıdır.

Məlumdur ki, respublikamızın iqtisadi potensialı, o cümlədən aqrar bölmədə potensialı böyükdür. İdarəetmə lazımi islahatların keçirilməsi, strukturun təkmilləşdirilməsi, bununla yanaşı, insanların daha səmərəli işləməsi üçün imkanlar yaradılması və iqtisadi islahatların həyata keçirilməsi iqtisadiyyatın inkişafının mühüm şərtidir, əhalinin rifah halının yaxşılaşdırılmasının əsasını təşkil edir. Ona görə də, yenə də deyirəm, bu islahatların həyata keçirilməsi gündən-günə sürətlənməlidir, biz onun gündən-günə genişləndirilməsini təmin etməliyik. Bu qanunlardan irəli gələn yeni qanunların müzakirə edilib qəbul olunması da qarşımızda duran vəzifədir.

Şübhəsiz ki, bütün bunlarla yanaşı, cari işləri də daim yüksək səviyyədə aparmaq lazımdır. Bu işlər paralel getməlidir bir tərəfdən islahatlar həyata keçirilməlidir, digər tərəfdən mövcud imkanlardan səmərəli istifadə olunmalıdır ki, istehsalda itki verməyək. [342-343]

Yenə də qeyd edirəm ki, bugünkü müşavirə iqtisadi islahatların və iki ay bundan əvvəl qəbul edilmiş. "Torpaq islahatı haqqında" qanunun həyata keçirilməsi vəziyyətinə həsr olunub. "Torpaq islahatı haqqında" qanun çox mütərəqqi qanundur. Eyni zamanda, onun həyata keçirilməsi mühüm əməli iş, həm iradə, həm də insanların, vətəndaşların, xüsusən kənd əhalisinin hüquqlarının qorunub saxlanmasını tələb edir. Bu sahədə çox iş görülməlidir.

Kənd təsərrüfatı mövsümi xarakter daşıyan bir sahədir. Məhsul istehsalında da hər mövsümün özünəməxsus yeri var. İndi payız artıq başlayıbdır. Məlumdur ki, payızda kənd təsərrüfatı işlərinin çoxu bir tərəfdən yekunlaşdırılır, digər tərəfdən qarşıdakı dövrdə məhsul istehsalı ilə əlaqədar lazımi işlər əsasən bu mövsümdə görülür. "Torpaq islahatı haqqında" qanunun həyata keçirilməsi üçün indiki mövsüm bu baxımdan bir tərəfdən çox mühüm bir mərhələdir, digər tərəfdən də kənd təsərrüfatı işlərinin həyata keçirilməsi, nəzərdə tutulmuş məhsul istehsalının təmin olunması, kənd təsərrüfatının bütün sahələrindən maksimum məhsul əldə edilməsi bizim əsas vəzifəmizdir.

Respublikanın iqtisadiyyatında pambıqçılıq əsas yer tutur və şübhə etmirəm ki, bundan sonra da əsas yer tutacaqdır. Düşünməliyik ki, torpağın xüsusi mülkiyyətə verildiyi indiki vaxtda, yəni torpağın xüsusi mülkiyyətə verilməsi prosesində Azərbaycanda pambıq istehsalı necə və hansı səviyyədə olacaqdır.

Məlumdur ki, respublikanın torpaqlarını xüsusi mülkiyyətə verərkən biz o torpaqların müxtəlif olduğunu nəzərə almalıyıq. Bir var tərəvəz, meyvə, yaxud üzüm altında olan torpaqlar, bir də var taxıl, pambıq, yem bitkiləri sahələri. Bilirsiniz ki, indiyədək respublikamızda pambıq bitkisi adətən ən münbit torpaqlarda əkilibdir, məhsul istehsal olunubdur. Meliorasiya cəhətdən yararlı olan münbit, suvarılan torpaqlardan əsasən pambıq əkini üçün istifadə edilibdir. Bu sahələr ərazicə ən geniş sahələrdir. Həmin sahələr necə bölünəcək, xüsusi mülkiyyətə necə veriləcək, kimin payı nə qədər olacaq, sonra bu paylardan pambıq istehsalı üçün necə istifadə ediləcək bunlar çox mühüm məsələlərdir.

Məsələn, məlumat verirlər ki, bu il kəndlərdə bir çox vətəndaşlar ümumi taxıl sahələrindən, yəni təsərrüfatlara mənsub olan sahələrdən əlavə, öz həyatlərində də taxıl əkib məh[343-344]sul götürüblər. Bu, təbii haldır. Əgər indi taxıla ehtiyac birinci dərəcəli məsələdirsə, kəndli taxıla olan tələbatını birinci növbədə ödəmək istəyirsə, o öz həyətyanı sahəsindən də istədiyi kimi istifadə edir, taxıl əkir, buğda götürür. Bunun bir hissəsini özünün çörəklə təminatına sərf edir, digər hissəsini isə satır.

Taxıl Məhsulları Dövlət Şirkəti məlumat verir ki, fərdi adamlardan, fermerlərdən müəyyən şərtlərlə taxıl almaq barədə elan verəndən sonra şirkətə məhsul satmaq barədə müraciət edənlərin sayı çoxalıb. Yəni fərdi, həyətyanı, fermer təsərrüfatlarında bu il taxıl əkilib, biçilib, məhsul götürülübdür. Hətta bu məhsulun bir

hissəsindən öz ehtiyacını ödəmək üçün istifadə etdikdən sonra, qalanını satmaq arzusunda olanlar da var. Hesab edirəm ki, bu, normal, tam təbii haldır.

Başqa bitkilərin, o cümlədən pambıq sahələrindən necə istifadə olunacaq, özünə torpaq sahəsi götürən adam ondan pambıq əkmək üçün istifadə edəcək, yoxsa istifadə etməyəcək, yaxud bundan başqa məqsədlər üçün istifadə edəcək? Şübhəsiz ki, bu məsələlər torpaq islahatı üzrə dövlət komissiyasında müzakirə olunur. Ancaq bunlar bizi ciddi düşündürməlidir. Biz bu barədə öz mövqelərimizi müəyyənləşdirməliyik.

Torpaq islahatı, torpağın şəxsi mülkiyyətə verilməsi prosesi respublikamızın tələbatı üçün lazım olan əsas kənd təsərrüfatı məhsullarının azalmasına imkan verməməlidir, əksinə, onun artmasını təmin etməlidir. Ona görə də bu gün cari ildə pambıq istehsalı sahəsində respublikada vəziyyətin nə yerdə olması müzakirə edilməlidir. Müzakirə etmək lazımdır ki, bu ilin nəticələrini biz indidən bilək – bu gün artıq sentyabrın 21-dir, eyni zamanda, gələn il üçün hazırlaşaq: bu torpaqlardan gələn ilin pambıq istehsalı üçün necə istifadə olunacaqdır?

Pambıq respublikamız üçün çox mənfəətli bitkidir. Bu bitki respublikanın həm daxili tələbatını ödəmək, həm də valyuta gəlirini təmin etmək üçün çox lazımdır. Ona görə də bu sahəyə keçmişdə də, bu gün də fikir verilir və gələcəkdə də fikir veriləcəkdir.

Mən respublikanın müvafiq orqanlarının rəhbərləri ilə bərabər, pambıqçılıq rayonlarının icra hakimiyyəti başçılarını, bu rayonlarda kənd təsərrüfatı ilə məşğul olan orqanların rəhbərlərini bu gün buraya dəvət etmişəm ki, biz bu iki məsələni bir-biri ilə bağlı müzakirə edək. Bir tərəfdən, "Torpaq islahatı haqqında" qanunun həyata keçirilməsi prosesinə nəzər salaq, [344-345] baxaq görək, burada nə işlər görülür, xüsusən, pambıq istehsal edilən sahələrdən gələcəkdə necə istifadə olunacaqdır. Digər tərəfdən, pambıq istehsalı sahəsində bu gün vəziyyət necədir onu araşdıraq və məhsul istehsalını nəzərdə tutulan səviyyəyə çatdırmaq üçün nə kimi əlavə tədbirlər görülməli olduğunu müzakirə edək.

Bax, müşavirənin məqsədi bundan ibarətdir. Hesab edirəm ki, kənd təsərrüfatı naziri İrşad Əliyev bu barədə məlumat verməlidir. Sonra isə biz rayonların rəhbərlərini dinləməliyik ki, rayonlarda işlər necə qurulub, necə aparılır.

## YEKUN NİTQİ

Çıxışlar və burada verilən məlumatlar bugünkü müşavirənin nə qədər zəruri olduğunu bir daha nümayiş etdirir. Məlumatlardan və aparılan müzakirədən belə qənaətə gəlmək olar ki, respublikamızda aqrar sektorda iqtisadı islahatlar gedir və artıq öz müsbət nəticələrini verir.

Doğrudur, bu gün geriyə baxaraq, keçmiş dövrü təhlil edərkən qeyd etmək olar ki, bu islahatların getməsi asan deyildi, bir çox müqavimətlərlə rastlaşırdı və ola bilər, bəziləri bunların bu qədər müsbət nəticə verəcəyinə inanmırdılar, yaxud da, sadəcə, mühafizəkarlıqlarına görə, bu işə o qədər qoşulmurdular.

Ancaq heyvandarlıq sahəsində qısa müddətdə, xüsusən aprel ayının əvvəlindəki müşavirədə mənim verdiyim qəti göstərişdən sonra vəziyyətin bu qədər müsbət istiqamətdə dəyişilməsi çox sevindirici haldır. Yəni mən bunu belə də təsəvvür edirdim və bunun belə bir nəticə verəcəyinə inanaraq, elə qəti göstərişlər verirdim. Ancaq bu, təkcə bu ilin aprel ayında olmamışdır. 1995-ci ildə də bu göstərişlər olmuşdur. Təəssüf ki, yerli hakimiyyət orqanlarının başçıları, təsərrüfat rəhbərləri, bizim kənd təsərrüfatı orqanlarının başçıları yerlərdə də və respublika miqyasında da, o cümlədən Nazirlər Kabineti də bu sahədə çox ləng hərəkət ediblər, mühafizəkar mövqedə durmuşdular.

Ona görə də bu nəticələr indi əldə olunubdur. Ancaq 1995-ci ildə mənim tərəfimdən verilən göstərişlər həyata keçirilmiş olsaydı, biz buna daha tez nail ola bilərdik. Buna baxmayaraq, mən hesab edirəm ki, heyvandarlıq sahəsində görülən işlər çox sevindiricidir və bunun da müsbət nəticəsi ondan ibarətdir ki, [345-346] respublikada mal-qara artıb, heyvandarlıq məhsulları artıb. Heyvandarlıq məhsulları, yəni ət, süd, yağ problemi Azərbaycanda artıq yoxdur. Azərbaycan öz-özünü təmin edir. İşlər bu minvalla getsə, – mən güman edirəm ki, bundan da yaxşı gedəcəkdir, – Azərbaycan heyvandarlıq məhsullarını yüksək keyfiyyətə çatdırıb ixrac etmək imkanına da malik olacaqdır.

Mən bilmirəm, burada Statistika Komitəsindən nümayəndə var, yoxsa yox, dəvət etmisinizmi? Xatirimdədir. 1970-ci illərdə bizim respublikada gərək ki, 4 milyon baş xırdabuynuzlu mal-qara var idi. 700-750 min baş da iribuynuzlu. Doğru deyirəm, yoxsa yox?

**Yerdən səs:** Bəli, elədir.

**Heydər Əliyev:** O dövrdəki rəqəmlər yadımdadır. Bəs indi nə qədərdir?

**Yerdən səs:** Keçən ilə nisbətən...

**Heydər Əliyev:** Nisbəti demirəm bu gün iribuynuzlu, xırdabuynuzlu mal-qara nə qədərdir? Cəmisi.

**Yerdən səs:** 4 milyon 600 min baş.

**Heydər Əliyev:** 4 milyon 600 min. Siz bu rəqəmləri dəqiqləşdirin. Hesab edirəm ki, xüsusən xırdabuynuzlu mal-qara bundan çox olmalıdır.

**Yerdən səs:** Dəqiqləşdirərik.

**Heydər Əliyev:** Bəli, dəqiqləşdirin. Çox olmalıdır. Ancaq iş təkcə sayın artmasında deyil, eyni zamanda məhsuldarlığın artmasındadır. O vaxtlar biz hər müşavirədə nə ilə məşğul idik? Hər inəkdən ildə nə qədər süd sağılırdı? 700 kiloqram, 800 kiloqram. Bu ki, azdır, çox azdır. Bəli, kimsə hansı rayondasa orta hesabla 1000-1200 kiloqrama qaldırırdısa, bu, yaxşı nəticə hesab olunurdu. Amma keçmiş Sovetlər İttifaqının başqa yerlərində, tutaq ki, Baltikyanı ölkələrdə, yaxud Moldaviyada, Rusiyanın, Ukraynanın bəzi vilayətlərində hər inəkdən orta hesabla 3500 kiloqram süd sağılırdı.

Mənim xatirimdədir, o zaman bizim qabaqcıl, yəni çox süd sağan sağıcılarımız da var idi. Mən İsmayıllı rayonunun İvanovka kəndində olmuşdum. Orada hər inəkdən 5 min litr süd sağırdılar. Bu tək-tək olan nəticələrdir. Amma indi heç bilmirik, hər inəkdən nə qədər süd sağılır, yaxud da ki, hər iribuynuzlu malın orta çəkisi nə qədərdir – 200 kiloqramdır, 150 kiloqramdır, 300 kiloqramdır, 400 kiloqramdır – biz bunu bilmirik. Lazım da deyil ki, bilək. Çünki bu işlə məşğul olan [346-347] adamlar – əgər bu mal-heyvan özlərininki olacaqsa, – şübhəsiz, çalışacaqlar ki, həm çox süd sağılsın, həm çox ət istehsal olunsun, həm çox bala alınsın. Bunların hamısını özləri təmin edəcəklər.

Ona görə də bu gün burada rayonlar tərəfindən verilən rəqəmlər çox sevindiricidir və bunlar bir daha göstərir ki, aqrar sektorda iqtisadi islahatlar sürətlə həyata keçirilməlidir və biz bu məsələləri bütün sahələrdə tətbiq etməliyik.

Aqrar sektorun böyük bir hissəsi heyvandarlıqdır. Beləliklə, burada verilən məlumatlardan mən belə anlayıram ki, bu ilin axırına qədər heyvandarlıq sahəsində özəlləşdirmə prosesi tamamilə bitəcəkdir. Mən bunu Aqrar İslahatı Komissiyasının qarşısında, Kənd Təsərrüfatı Nazirliyinin qarşısında və bütün rayon icra hakimiyyəti başçılarının qarşısında bir vəzifə kimi qoyuram. Bu proses qurtarmalıdır və yanvarın 1-nə heç bir şey qalmamalıdır. Dekabr ayının əvvəlində qurtarmalıdır ki, dekabr ayında hər şey haqq-hesab olunsun, bu məsələ qurtarsın. Amma, eyni zamanda, Kənd Təsərrüfatı Nazirliyi, Aqrar İslahatı Komissiyası gərək dəqiq müəyyən etsinlər ki, damazlıq təsərrüfatlarımız gələcəkdə iribuynuzlu və xırdabuynuzlu mal-qaranın cinsini yaxşılaşdırmaq və baytarlıq işini yaxşı aparmaq üçün baza təsərrüfatlarımız olmalıdır. Siz gərək onları özbaşına qoymayasınız, yəni Kənd Təsərrüfatı Nazirliyi bu işi üzərinə götürməlidir, rayon icra hakimiyyətinin, yaxud rayon aqrar orqanlarının sərəncamına verməməlidir. Yəni müəyyən sxem olmalıdır. Bir halda ki, heyvandarlıq tamamilə özəlləşdirilir və indiyə qədər özəlləşdirilməmiş bütün mal-heyvan özəlləşdiriləcəkdir, indi sizin konkret planınız olmalıdır ki, harada damazlıq təsərrüfatları olacaqdır. Cins malların inkişaf etdirilməsi və ümumiyyətlə, keçmişdə süni mayalanma aparırdınız, başqa işlər aparırdınız – bütün bu baytarlıq işləri hamısı aparılmalıdır və unudulmamalıdır. Bu, Kənd Təsərrüfatı Nazirliyinin xüsusi vəzifələrindən biri olmalıdır və bunu gərək siz heç vaxt unutmayasınız.

Bununla yanaşı olaraq, mən Kənd Təsərrüfatı Nazirliyinə, eyni zamanda rayon icra hakimiyyəti başçılarına göstəriş verirəm ki, 70-80-ci illərdə bir çox rayonlarda yaradılmış böyük heyvandarlıq kompleksləri dağıdılmasın. Onlara böyük vəsait qoyulubdur. Onlardan bu gün də, gələcəkdə də istifadə oluna bilər. Bu kompleksləri dağıtmağa yol vermək olmaz, onlar qorunmalıdır. Çünki bu işlər hamısı mərkəzləşdirilmiş şəkildə, [347-348] planlaşdırılmış şəkildə aparılırdı. Kənd təsərrüfatının ixtisaslaşdırılması və təmərküzləşdirilməsi barədə bir proqram var idi – o proqram əsasında aparılırdı. Bəzi iri birliklər bir rayon üçün deyil, rayonlararası birliklər idi. Bunlar hamısı xatirinizdədir. Biz belə nümunəvi təsərrüfatlar yaradırdıq. Bunlar qorunub saxlanmalıdır. Birinci ona görə ki, bu dövlətin mülkiyyətidir, yaxud da ki, kolxozların, sovxozların mülkiyyətidir. Bu mülkiyyət qorunub saxlanmalıdır.

Ancaq bunlardan nə cür istifadə olunmalıdır – bunu Kənd Təsərrüfatı Nazirliyi müəyyən etməlidir. Bunun üçün də xüsusi bir sxem, xüsusi plan olmalıdır və bu da özəlləşdirmə başa çatana qədər müəyyən edilməlidir. Ümumiyyətlə, heyvandarlıq özəlləşdiriləndən sonra onun məhsuldarlığını daha da artırmaq üçün hansı tədbirlər görülməlidir? Şübhəsiz ki, bu, Kənd Təsərrüfatı Nazirliyinin vəzifəsidir və o bu işi görməlidir.

Bir sözlə, mən bu sahədə görülən işləri müsbət hesab edirəm. Bu, bizim nailiyyətimizdir. Bunların nəticəsində də indi respublikamızda heyvandarlıq məhsullarının, demək olar ki, bolluğu yaranıbdır. Bu, çox sevindiricidir.

Eyni zamanda, – mən çıxışlar zamanı dedim, bir də qeyd etmək istəyirəm – artıq düşünmək lazımdır ki, bu qədər bol heyvandarlıq məhsullarının emalını biz nə cür təşkil etməliyik. Bizim ət kombinatlarımız var, süd kombinatlarımız var. Onlardan səmərəli istifadə olunması indi çox gərəklidir. Şübhəsiz ki, onların özəlləşdirilməsi haqqında, müasir texnologiya ilə təmin olunması haqqında düşünmək lazımdır. Çünki bilirsiniz ki, indi mal-heyvan çoxdur. Burada dedilər – Salyandan, Hacıqabuldan gündə gətirirlər, Bakıda bazarlarda satırlar. Bunlar hamısı yaxşıdır. Ancaq bunu daha yüksək səviyyəyə çatdırmaq lazımdır. Lazım deyil ki, hər bir malsaxlayan adam öz malını gətirsin, bazarda satsın. Təşkilatlar yaratmaq lazımdır ki, gedib mal-qaranı alsınlar, onları yaxşı, keyfiyyətli hala salsınlar, gətirsinlər. Ya emal etsinlər, yaxud da ki, satsınlar. Belə bir həm ticarət, həm emal təşkilatları olmalıdır. Şübhəsiz ki, bunların hamısı özəl sektorda olmalıdır. Ancaq bu barədə düşünmək lazımdır. Hesab edirəm ki, bizim Nazirlər Kabineti bu sahədə də müəyyən bir proqram hazırlamalıdır, mütləq hazırlamalıdır.

Heyvandarlıq sahəsində özəlləşdirmənin nəticələri bizim aqrar sektorun bütün başqa sahələrində özəlləşdirmənin nə [348-349] qədər əhəmiyyətli olduğunu əyani surətdə göstərir. Bu baxımdan "Torpaq islahatı haqqında" qanunun əhəmiyyəti, hesab edirəm, bir daha qeyd olunmalıdır. Eyni zamanda bu qanunun həyata keçirilməsi sürətləndirilməlidir.

Burada verilən məlumatlardan mən belə başa düşdüm ki, rayonlarda əməli iş gedir. Aqrar İslahatı Komissiyası müəyyən sənədlər, əsasnamələr, yeni qanun layihələri hazırlayıbdır. Bunlara tezliklə baxmaq lazımdır. Bunları imzalayıb, qəbul edib, istifadəyə vermək və işi sürətləndirmək lazımdır. Burada mühüm cəhət ondan ibarətdir ki, kənd təsərrüfatı ilin mövsümləri ilə bağlı olan bir sahədir. İndi biz payız mövsümini yaşayırıq, sonra qış başlayacaqdır. Ona görə də payızda nə iş görə bilsək bu, gələn il yazda və yayda öz müsbət nəticəsini verəcəkdir. Mən istəmirəm ki, bu işlərdə tələsiklik olsun, yəni səhvlər buraxılsın. Amma eyni zamanda, artıq bu yola biz düşmüşük, burada nə qədər sürətlə getsək, o qədər də tez müsbət nəticələr əldə edəcəyik.

Verilən məlumatlar məndə belə bir fikir yaratdı ki, yerlərdə artıq bu qanunun icra edilməsinin nə qədər əhəmiyyətli olduğunu dərk ediblər. Lazımdır ki, bizim Aqrar İslahatı Komissiyası və Kənd Təsərrüfatı Nazirliyi respublikanın başqa müvafiq orqanları bu məsələlərin həlli ilə ciddi məşğul olsunlar və yerli hakimiyyət orqanları bu məsələlərə həm nəzarət, həm rəhbərlik etsinlər ki, bu qanun həyata keçirilsin.

Bu gün burada pambıq istehsalı ilə əlaqədar məlumatları dinlədik. Müəyyən obyektiv səbəblər – məsələn, suyun, gübrənin, yaxud da ki, müxtəlif ləvazimatların, yanacağın, texnikanın çatmaması – şübhəsiz ki, bu hallar mövcuddur. Amma bunlarla yanaşı, məlumdur ki, hər bir təsərrüfatda, hər bir rayonda işin təşkilindən hər şey asılıdır.

Ona görə də bu ilin pambıq məhsulunun yığılıb sona çatdırılması ilə əlaqədar bu gün verilən məlumatları mən qəbul edirəm, yəni onları nəzərə alıram, həm kənd təsərrüfatı naziri İrşad Əliyev tərəfindən verilən məlumatları və eyni zamanda, pambıqçılıqla məşğul olan 20 rayon var, bütün bu rayonların hamısının icra hakimiyyəti başçıları bu gün burada çıxış etdi, bu barədə məlumatlar verdi – bu məlumatları mən nəzərə alıram və hesab edirəm ki, burada verilən məlumatlarda nəzərdə tutulmuş miqdarda pambıq əldə oluna bilər.

Kənd təsərrüfatı nazirinin verdiyi məlumata görə, 335 min ton pambıq istehsal edilməsi nəzərdə tutulub. Bu gün mən ha[349-350]mını dinlədim. Hesab edirəm ki, əgər iş yaxşı təşkil olunsa, bundan da artıq pambıq əldə etmək olar. Çünki bu məhsul becərilibdir, yetişdirilibdir, artıq tarlalardadır. Sadəcə, bunu sürətlə yığmaq lazımdır.

Mən bildirirəm ki, burada elan olunan rəqəmlər hamısı yazılıbdır və Kənd Təsərrüfatı Nazirliyinin, rayonların icra hakimiyyəti başçılarının vəzifəsi ondan ibarətdir ki, həmin rəqəmlərin reallaşmasını təmin etsinlər.

Bunun üçün burada qaldırılan məsələlər həll olunmalıdır. Ona görə də mən kənd təsərrüfatı naziri İrşad Əliyevə söz verdim qoy bəyan etsin ki, pambığın yığım pulu nə cür ödəniləcəkdir. Güman edirəm ki, onun verdiyi məlumat sizi və bütün pambıqyığanları, pambıqçılıqla məşğul olanları qane etməlidir. Nazirlər Kabineti isə nəzarət etməlidir ki, bu məsələlər heç yerdə ləngiməsin. Nazirlər Kabineti Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə bu məsələləri gündəlik nəzarət altında saxlamalıdır və vaxtaşırı mənə məlumat verməlidir. Çünki burada deyilən miqdarda pambıq məhsulunu əldə etmək üçün bir ay vaxt qalıbdır. Bir ayın içərisində bu, əldə olunmalıdır. Əldə olunmalıdır, ona görə ki, pambıqçılıqla, pambıq istehsalı ilə məşğul olan kənd zəhmətkeşləri öz zəhmətinin bəhrəsini, faydasını görsünlər, əmək haqqını alsınlar və eyni zamanda, şübhəsiz ki, ölkəmiz, respublikamız da bu sahədən nəzərdə tutduğu mənfəəti götürsün. Bu, çox lazımdır.

Ona görə də mən qəti tələb edirəm ki, bu gün burada elan olunan rəqəmlərin həyata keçirilməsi təmin olunsun və bunun üçün maliyyə vəsaiti, yanacaq, yaxud başqa ləvazimatlar hamısı təmin olunmalıdır. Kənd Təsərrüfatı Nazirliyi bununla məşğul olmalıdır, Nazirlər Kabineti buna nəzarət etməlidir və mənə vaxtaşırı məlumatlar verməlidir.

Bilirsiniz, bu sahədə təşəbbüskarlıq da lazımdır. Mən kənd təsərrüfatı naziri İrşad Əliyevi bir neçə dəfə tənqid etmişəm, çünki o, bəzi məsələlərin vaxtında həyata keçirilməsinə nail ola bilmir. Mən ondan soruşanda ki, nə üçün bunu etməmisiniz, o mənə bəhanə gətirir, yaxud da izah edir ki, mən bu məsələni qaldırmışam, filan təşkilat baxmayıbdır. Nazirlər Kabineti baxmayıbdır, şöbə baxmayıbdır. Mən bu işə qarışandan sonra bir günün içərisində bu məsələlərə baxılıb. Mən nazirə deyirəm – əgər sən, bu məsələni həqiqətən həll etmək istəyirsənsə, nə üçün bu məsələni qoyduğun zaman onun həllinə nail olmursan? Bir halda ki, bir həftə, 10 gün, 15 gün yatan [350-351] məsələni bir gündə həll eləmək mümkündür, onu elə 15 gün əvvəl bir gündə həll eləmək lazımdır ki, 15 gün itməsin. Ona görə də təşəbbüskarlıqdan çox şey asılıdır. Burada Kənd Təsərrüfatı Nazirliyi ləng işləməməlidir, təşəbbüs göstərməlidir, qarşıya qoyulan məsələlərin vaxtında həllinə nail olmalıdır. Əgər o, müəyyən bir mərhələlərdə buna nail ola bilmirsə, – mən demişəm, – mən kənd təsərrüfatı sahəsində məsələlərin həllini təmin etmək üçün həmişə lazımi tədbirlər görməyə hazıram. Ancaq sadəcə, bu şəraitdən istifadə etmək lazımdır.

Siz bilirsiniz, keçmiş illərdə – 70-ci illərdə rayon partiya komitəsinin birinci katibi hər məsələ barəsində bilavasitə mənə zəng edə bilərdi. Əgər onun bir çətinliyi var idisə, zəng edən kimi – bir, iki, üç saatın içində o

məsələ həll olunurdu. Bəs indi nə oldu ki, – həmin adamlarıq. Əgər o vaxt biz bu məsələləri həll edirdiksə, – baxmayaraq ki, biz o vaxt tam sərbəst deyildik, çox şey mərkəzdən asılı idi, – amma indi hər şey öz əlimizdədir. Doğrudur, o vaxta nisbətən indi bizim imkanlarımız azdır. Amma imkanlarımız çərçivəsində hər şeyi həll etməyə qadirik. Sadəcə, bu məsələləri vaxtında qoymaq lazımdır, bunların vaxtında həllinə nail olmaq lazımdır.

Bizim rəhbər vəzifəli şəxslərdə belə bir xəstəlik var: onlar məsələnin həll olunmasına çox çalışmırlar, müəyyən bir təklifi verir, sonra onun həll olunmasının dalınca getmirlər. Ancaq hər bir məsələnin həll olunması təkcə o məsələnin qaldırılması, yaxud bir məktubun yazılması, bir təklifin irəli sürülməsi demək deyil, əsas cəhət o məsələnin axıra çatdırılmasıdır. Elə müşavirəni götürün. Siz bəlkə düşünə bilərsiniz ki, bu müşavirənin keçirilməsini mənə kimsə təklif edibdir – ya Kənd Təsərrüfatı Nazirliyi, yaxud bizim Prezident Aparatı, yaxud Nazirlər Kabineti. Yox, heç kəs bunu mənə təklif etməyib. Sadəcə, mən kənd təsərrüfatı işlərinin prosesini bildiyimə və narahat olduğuma görə üç gün bundan öncə çağırıb göstəriş verdim ki, belə bır müşavirə keçirilməlidir. Məqsəd də ondan ibarətdir ki, görək bizim aqrar sektorda bu iqtisadi islahatlar necə gedir. Çünki artıq ilin 9 ayı qurtarıb, ilin sonuna 3 ay qalıbdır. İslahatlar necə gedir. Nə əldə etmişik, nəyə nail olmuşuq? Eyni zamanda, cari işlər necə gedir? Ona görə də belə bir müşavirənin keçirilməsini təklif etdim və bu gün belə fikirdəyəm ki, çox vaxtında çağırılmış, doğrudan da, lazımi, zəruri bir müşavirə idi.

Bununla mən demək istəyirəm ki, hər bir vəzifəli şəxs gə[351-352]rək təşəbbüskar olsun: nazir də, Nazirlər Kabineti də, icra hakimiyyəti başçıları da gərək təşəbbüskar olsunlar, məsələnin vaxtında həll edilməsinə nail olsunlar, çalışsınlar, bütün çətinliklərin aradan götürülməsinə nail olsunlar. Və buna da nail olmaq mümkündür.

Bu baxımdan indi, ilin bu mühüm dövründə kənd təsərrüfatının başqa sahələrində də görüləsi işlər çoxdur. Birincisi ondan ibarətdir ki, indi pambıq məhsulu yığılmalıdır. Ondan sonra, şübhəsiz ki, sahələr təmizlənməli, hazırlanmalıdır. Payız şumu nə vəziyyətdədir?

**İrşad Əliyev:** Gedir.

**Heydər Əliyev:** Gedir? Nə vaxt qurtaracaq? Nə vaxt səpin gedəcəkdir.

**İrşad Əliyev:** Səpinə oktyabr ayında başlayacağıq. Bəzi rayonlarda – dağ rayonlarında başlanıb.

**Heydər Əliyev:** Oktyabr ayında başlamalısınız, noyabrdan o tərəfə qoymaq olmaz bunu. Ona görə bu, çox mühüm məsələdir. Qarşımızda respublikanın özünü taxıl ilə təmin etməsi məsələsi durur. Bu ilin təcrübəsi göstərdi ki, doğrudan da, respublika – deyə bilmərəm ki, tamamilə, – ancaq öz-özünü taxılla, buğda ilə təmin etmək üçün çox iş görə bilər. Ona görə də indi payız şumunun sürətlə və keyfiyyətlə aparılması, toxumun hazırlanması, səpinin vaxtında keçirilməsi qarşımızda duran mühüm vəzifədir. Burada yerdən mənə dedilər ki, bu il 500 min hektar sahədə buğda əkilməsi nəzərdə tutulub. Elədir?

**Abbas Abbasov:** 625 min.

**Heydər Əliyev:** Amma keçən il 600 min hektar əkilmişdi. Bəs onda 120 min hektar nə olacaq?

**İrşad Əliyev:** Heydər Əliyeviç, 520 min hektarda buğda əkilmişdi, 114 min hektarda arpa.

**Heydər Əliyev:** Bəlkə bundan da çox əkmək olar? Ona görə bunu düşünmək lazımdır.

**İrşad Əliyev:** Söhbət 520 min hektar buğdadan gedir. Sizi inandırıram ki, torpağı özəlləşdirsək 600 min hektara çatacaq. Rayonlar üzrə bölüşdürülüb, bunu həll etmək lazımdır.

**Heydər Əliyev:** Torpağı özəlləşdirəcəyik, ona söz yoxdur. Amma 520 min hektarda buğda əkmək üçün sizin lazımi qədər toxumunuz olmalıdır. Toxum hazırlamalısınız. Siz hesab edirsiniz ki, ondan da çox olacaqdır, demək, toxum ehti[352-353]yatı yaratmaq lazımdır. Demək, yeri hazırlamaq lazımdır. Bilmək lazımdır – harada, hansı yerdə əlavə buğda əkmək olar, keçmiş arpa əkini yerlərində. Bunların hamısını etmək lazımdır.

Bir sözlə, payız şumu, taxıl səpini qarşıda duran əsas problemdir, əsas vəzifədir. Bunu sizə deyirəm, amma eyni zamanda güman edirəm ki, bizim televiziya və radio vasitəsilə bu, respublikanın bütün kənd təsərrüfatı rayonlarına, bütün kənd əməkçilərinə, kənd təsərrüfatı ilə məşğul olan bütün orqanlara çatacaqdır. Bu məsələni həll etmək lazımdır və bu məsələ ilə ciddi məşğul olmaq lazımdır.

Bugünkü danışıqlardan, kənd təsərrüfatı nazirinin məlumatından və icra hakimiyyəti başçılarının verdikləri məlumatlardan mən belə başa düşdüm ki, bu il keçən ilə nisbətən daha çox üzüm məhsulu götürmək mümkündür. Bunu da təmin etmək lazımdır. Amma bilirsiniz ki, üzüm yığımı pambıq yığımı kimi deyil, sentyabrın axırında – oktyabrın əvvəlində başa çatacaqdır. Ona görə də bu sahədə həm sizin rayonlarınızda, həm də başqa üzümçülük rayonlarında lazımi işlər görülməlidir, üzüm məhsulu toplanmalıdır. Eyni zamanda, burada meyvə, tərəvəz məhsulu haqqında deyildi. Bu məsələləri də həll etmək lazımdır.

Bir sözlə, cari işlərin aparılması sahəsində olan vəzifələrin hamısı həyata keçirilməlidir. Ancaq bunlar eyni zamanda "Torpaq islahatı haqqında" qanunun həyata keçirilməsi ilə bağlıdır. Torpağın bölünməsi və xüsusi mülkiyyətə verilməsi, şübhəsiz ki, çox mürəkkəb bir məsələdir, asan məsələ deyil. Burada məlumatlar verildi ki, rayonlarda müəyyən olunub nə qədər torpaq əhaliyə veriləcək, nə qədəri dövlətin ixtiyarında qalacaq, nə qədəri bələdiyyəyə veriləcək. Bunlar gərək çox ətraflı təhlil olunsun. Bələdiyyəyə veriləcək və dövlətdə qalacaq torpaqların miqdarı asan məsələdir. Əsas məsələ ondan ibarətdir ki, əhaliyə, yəni torpaq sahiblərinə torpaq verilsin və onlar elə bu payız vaxtı, qış vaxtı, xüsusən yay vaxtı bu torpağın sahibi kimi ondan istifadə edə bilsinlər. Bu çox vacibdir, çox əhəmiyyətlidir.

Mən bu gün iclasın gedişi zamanı dedim – əgər bizim insanlar torpağın sahibi olsalar, – necə ki, indi mal-qaranın sahibi olublar və heyvandarlıq məhsulları artıbdır və bizim problemimiz yoxdur – torpağın da sahibi olsalar, mən tam inanıram ki, pambıq istehsalı da, taxıl istehsalı, xüsusən buğda isteh[353-354]salı da, bütün başqa kənd təsərrüfatı məhsullarının istehsalı da artacaqdır.

Azərbaycanın təbiəti, torpaqları böyük imkanlara malikdir. Biz keçmişdə, məsələn, xüsusən Azərbaycanın bu əsrdəki tarixini götürsək – 70-ci illərdə və 80-ci illərin birinci yarısında kənd təsərrüfatı sahəsində böyük nailiyyətlər əldə etdik. Kənd təsərrüfatı məhsulları istehsalını xeyli artırdıq və kənd zəhmətkeşlərinin rifah halını yaxşılaşdırdıq. Məhz o illərdə bizim kəndlərin vəziyyəti tamamilə dəyişdi, yeni kəndlər yarandı. Kənd nədən ibarətdir? Hər bir kəndlinin evindən, kəndin məktəbindən, xəstəxanasından, kitabxanasından, mədəniyyət sarayından, kəndin insanlarının yaşayışı üçün, yaxud istehsal üçün lazım olan başqa vasitələrindən. Bunların əksəriyyəti o illərdə yarandı. İndi hansı kəndimizə getsəniz, görərsiniz ki, insanların daşdan tikilmiş gözəl evləri var, çoxmərtəbəli evləri var. Bu, o dövrdə yaranıb.

Mən son illərdə bu məsələlərlə dərindən məşğul olarkən, tam belə fikirdəyəm ki, Azərbaycanın təbiəti, torpaqları və kənd zəhmətkeşlərimizin işə həvəsi o qədərdir ki, biz bu islahatları həyata keçirəndən sonra o illərdən qat-qat artıq kənd təsərrüfatı məhsulları istehsalına nail olacağıq. Mən buna tamamilə əminəm. Ancaq bu istehsal elə olmayacaqdır ki, bu lazımdır, bunu edin. Bazara nə lazım olacaqsa, ixracata nə lazım olacaqsa, insanlar onu istehsal edəcəklər, torpaqdan səmərəli istifadə edəcəklər. Bizim torpaqlarımızın isə böyük imkanları var.

Yenə də qayıdıram heyvandarlıq sahəsinə. Bu gün elan olunan rəqəmlər nə qədər sevindiricidir! Mən əminəm ki, bu islahatları tam həyata keçirəndən sonra, torpaq xüsusi mülkiyyətə keçəndən sonra bunların səmərəliliyi qat-qat artacaqdır və mən sizə tam qətiyyətlə deyirəm ki, Azərbaycan kənd təsərrüfatı məhsullarının istehsalında Qafqazda birinci yerdə olacaqdır. Heç bir respublika Azərbaycan qədər imkanlara malik deyil. İşğal edilmiş torpaqlarımız azad olunanda, biz bu torpaqlardan da istifadə edəndə görün, ölkəmizin kənd təsərrüfatı potensialı və beləliklə, iqtisadi potensialı nə qədər artacaqdır. Ona görə də biz bu yolla getməliyik. Cəsarətlə getməliyik, çox sürətlə getməliyik və buna nail olmalıyıq.

Artıq mühafizəkarlar da ayılıblar, bu işə inanmayanlar da artıq inanırlar və öz şəxsi məqsədlərinə görə kolxozu, sovxozu, fermanı orada-burada saxlayan, istifadə edən təsərrüfat başçı[354-355]ları, yaxud rayon başçıları artıq dərk ediblər ki, özəl sektor olanda onlar yenə də imkanlardan istifadə edə biləcəklər. Ona görə də özəl sektoru inkişaf etdirmək lazımdır, mühafizəkarlığı aradan qaldırmaq lazımdır.

Bu gün bu fürsətdən istifadə edərək bir məsələni də istəyirəm sizin nəzərinizə çatdırım. Bu da ondan ibarətdir ki, bizim qaçqınların əksəriyyəti kənd rayonlarımızda yaşayır, yəni işğal olunmuş torpaqlardan didərgin düşən vətəndaşlarımızın əksəriyyəti sizin rayonlarda, digər kənd rayonlarında yaşayır. Mən müşavirənin gedişi zamanı dedim, bir də deyirəm – onları kənd təsərrüfatı işlərinə daha çox cəlb etmək lazımdır. Birincisi, bunlar işçi qüvvəsidir, ikincisi, qoy onlar işdən ayrılmasınlar, işləsinlər və lazımi əmək haqqı alsınlar. Eyni zamanda, onlara qayğı göstərmək lazımdır. Rayonlarımızda yaşayan, yerindən-yurdundan didərgin düşmüş insanlar sizin diqqət mərkəzinizdə olmalıdır. Onlara qayğı sizin əsas vəzifələrinizdən biridir. Ona görə də mən bu gün sizdən – tək sizdən yox, bütün rayonların, şəhərlərin rəhbərlərindən – bir daha tələb edirəm ki, didərgin düşmüş, qaçqın düşmüş vətəndaşlarımıza qayğını artırmaq lazımdır, onları işə cəlb etmək lazımdır, problemlərini həll etmək lazımdır və onların yaşayışı üçün hər bir rayonun imkanlarından daha çox istifadə etmək lazımdır. Bu, bizim vəzifəmizdir. Onlar müvəqqəti olaraq belə vəziyyətdə yaşayırlar. Bunların yerindən, yurdundan didərgin düşməsindən müəyyən vaxt keçibdir. Biz çalışırıq işğal olunmuş torpaqlar azad edilsin, onlar öz yerlərinə qayıtsınlar. Ancaq ona nail olana qədər onlar sizin rayonların qonağıdırlar. Siz onlara qonaq kimi baxmalısınız, qayğı göstərməlisiniz. Yenə də deyirəm, onları həm əməyə cəlb etməlisiniz, həm də rayonda gedən bütün tədbirlərə – ictimai, siyasi, mədəni tədbirlərə cəlb etməlisiniz. Yəni onların heç birisi yaşadıqları rayonda özünü özgə hesab etməməlidir. Onlar hamısı sizin tərəfinizdən xüsusi qayğı ilə əhatə olunmalıdır.

Mən hesab edirəm ki, bugünkü müşavirəmiz çox əhəmiyyətlidir. Bu müşavirənin materialları televiziya vasitəsilə veriləcək və mətbuatda dərc olunacaqdır. Bu materiallar bütün [355-356] rayonların zəhmətkeşləri tərəfindən onlara verilən göstəriş kimi qəbul olunmalıdır. Yəni kənd təsərrüfatı ilə məşğul olan bütün rayonların rəhbərləri, kənd təsərrüfatı sahəsində işləyənlər bugünkü müşavirənin məzmununu və burada verilən göstərişləri özlərinin iş proqramı kimi qəbul etməli və bunları həyata keçirməlidirlər. Mən əminəm ki, beləliklə biz cari kənd təsərrüfatı ilini müvəffəqiyyətlə başa çatdıracağıq, payız işlərini uğurla aparacağıq və 1997-ci ildə kənd təsərrüfatında yüksək nailiyyətlər əldə etmək üçün yaxşı əsas yaradacağıq. Sağ olun. [356-357]

## İSLAM İNKİŞAF BANKININ BEYNƏLXALQ İNVESTİSİYA KONFRANSINDA NİTQ

*"Gülüstan" sarayı*

*21 sentyabr 1996-cı il*

İslam İnkişaf Bankının prezidenti hörmətli cənab Əhməd Məhəmməd Əli, konfrans iştirakçıları, hörmətli qonaqlar!

İslam İnkişaf Bankının Azərbaycanda keçirilən bu konfransı münasibətilə məmnun olduğumuzu bildirirəm və Azərbaycan dövləti adından konfransın iştirakçılarına, İslam İnkişaf Bankına və onun prezidenti hörmətli cənab Əhməd Məhəmməd Əliyə hörmət və ehtiramımı bildirirəm. Hörmətli qonaqlar, mən sizi Azərbaycan torpağında səmimi qəlbdən salamlayır və işlərinizdə uğurlar arzulayıram.

İslam İnkişaf Bankının belə böyük tərkibdə, yüksək səviyyədə konfransının Azərbaycanda keçirilməsini yüksək qiymətləndirir və bunu Azərbaycan Respublikası ilə İslam ölkələri, İslam İnkişaf Bankı arasında mövcud olan sıx əlaqələrin təzahürü hesab edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, İslam İnkişaf Bankının Azərbaycanda ilk dəfə keçirdiyi yüksək səviyyəli, geniş tərkibli, mötəbər konfrans bundan sonra həm İslam İnkişaf Bankının bütün müsəlman ölkələrindəki fəaliyyətinə təkan verəcək, həm də İslam İnkişaf Bankı ilə və onun ətrafında olan iş adamları ilə Azərbaycan arasındakı əlaqələri daha da sürətləndirəcəkdir.

Azərbaycan gənc, müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi beş il bundan öncə əldə olunubdur. Xalqımız, ölkəmiz dövlət müstəqilliyini əldə edəndən sonra öz müstəqil yolu ilə gedir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Dünya Birliyi tərəfindən tanınıbdır, dünyanın əksər ölkələri ilə diplomatik əlaqələri var, dünyanın bütün beynəlxalq təşkilatlarında təmsil olunubdur. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, İslam Konfransı Təşkilatının və bir çox başqa beynəlxalq təşkilatların üzvüdür, Azərbaycan bütün dünya ölkə[357-358]ləri ilə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr quraraq, eyni zamanda beynəlxalq təşkilatların, o cümlədən regional təşkilatların işində iştirak edir. Bu baxımdan Azərbaycanın İslam Konfransı Təşkilatının üzvü olması da ölkəmiz üçün çox böyük əhəmiyyətə malikdir.

Azərbaycan keçmiş Sovetlər İttifaqına mənsub olan bir ölkədir. Bildiyiniz kimi, Azərbaycan 70 ildən çox müddətdə Sovetlər İttifaqı kimi böyük bir dövlətin tərkibində olubdur. Sovetlər İttifaqı dağılandan sonra Azərbaycan öz dövlət müstəqilliyini əldə edibdir. Keçmişdə bu İttifaqa daxil olan ölkələr bir-biri ilə sıx iqtisadi əlaqələrlə bağlıdır və bu, bugünkü iqtisadiyyatımız üçün çox əhəmiyyətlidir. Bu baxımdan Azərbaycan Müstəqil Dövlətlər Birliyinin də üzvüdür və həmin təşkilatda fəaliyyətini çox əhəmiyyətli hesab edir.

Bu ilin aprelində Azərbaycan Avropa Birliyi ilə əməkdaşlıq haqqında saziş imzalamışdır. Biz Avropa Birliyi ilə əməkdaşlığa da xüsusi əhəmiyyət veririk. Azərbaycan müstəqillik əldə edəndən sonra ölkədə demokratik hüquqi, dünyəvi dövlət qurur və bu yolda da böyük nailiyyətlər əldə etmişik. Keçən ilin noyabr ayında ölkəmizdə ümumxalq səsverməsi ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olunub, demokratik seçkilər əsasında Azərbaycanın ilk parlamenti seçilibdir. Bunlar hamısı Azərbaycan Respublikasının demokratiya, tərəqqi yolu ilə getməsini nümayiş etdirir.

Biz neçə ay bundan öncə Azərbaycan Respublikası Avropa Şurasının Parlament Assambleyasına qonaq sifəti ilə dəvət olunubdur. Bildiyiniz kimi, Avropa Şurası da demokratiyanın inkişaf etməsi üçün çox böyük fəaliyyət göstərən bir təşkilatdır və biz burada da əməkdaşlıq etməyimizdən çox məmnunuq.

Bütün beynəlxalq təşkilatlarda, onların toplantılarında, xüsusən Zirvə görüşlərində Azərbaycan daim iştirak edərək, eyni zamanda həm ölkəmizin həyatında baş vermiş dəyişikliklərlə əlaqədar, həm də dünyada gedən proseslərə münasibəti ilə əlaqədar öz fikirlərini, mövqeyini həmişə açıq bildirir. Keçən il Azərbaycan nümayəndə heyəti Mərakeşdə – Kasablankada İslam Konfransı Təşkilatının Zirvə görüşündə, dövlət başçılarının görüşündə iştirak etmişdir. Mənə həmin konfransda iştirak etmək və nitq söyləmək nəsib olmuşdur. Bu konfransda iştirak etməyimizdən və orada keçirdiyim görüşlərdən çox məmnun olduğumu bildirmək istəyirəm. Həmin konfransın işi nəticəsin[358-359]də Azərbaycanın İslam ölkələri ilə daha sıx əməkdaşlıq etməsi üçün, şübhəsiz ki, yaxşı imkanlar yaranıbdır.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra ölkənin həyatının bütün sahələrində ciddi dəyişikliklər həyata keçirir. Bildirdiyim kimi, Azərbaycan demokratiya yolu ilə gedir, demokratik proseslər həyata keçirir, hüquqi dövlət gündən-günə formalaşır, inkişaf edir, iqtisadiyyat sərbəstləşdirilir. İqtisadiyyatın bazar prinsipləri əsasında qurulması üçün bir çox işlər görülüb və bundan sonra da görülməsi nəzərdə tutulur.

Bildiyiniz kimi, on illərlə Azərbaycanın iqtisadiyyatı sosialist iqtisadi sistemi prinsipləri əsasında qurulmuş, dövlət mülkiyyəti hakim olmuşdur. İndi biz iqtisadi islahatlar apararaq Azərbaycanı bazar iqtisadiyyatı yoluna keçiririk. İqtisadi islahatlar Azərbaycanda mülkiyyət formalarının dəyişdirilməsini təmin edir. Bundan ötrü

Azərbaycan iqtisadi nöqteyi-nəzərdən ümumiyyətlə bütün ölkələr üçün açıqdır və onlarla sərbəst iqtisadi əlaqələr qurur, bunu daha da genişləndirmək istəyir. İqtisadi islahatların keçirilməsi hazırda iqtisadiyyatımızın əsas yoludur. Bu baxımdan biz mülkiyyətin özəlləşdirilməsi haqqında geniş proqram qəbul etmişik və onu ardıcıl surətdə həyata keçiririk. Kənd təsərrüfatında, yəni aqrar sektorda islahatlar aparmaq üçün xüsusi qanunlar qəbul olunubdur. Onlardan "Torpaq islahatı haqqında" qanun torpağın xüsusi mülkiyyətə verilməsini nəzərdə tutur. Bunların hamısının əsasında Azərbaycan iqtisadiyyatında ciddi dəyişikliklər aparılır.

Biz iqtisadi islahatlar apararkən sahibkarlığın inkişaf etməsinə, təşəbbüskarlığa geniş yer verilməsinə xüsusi əhəmiyyət yetiririk. Bunun üçün lazımi tədbirlər görür, sahibkarları həvəsləndirməyə çalışır, onların işləməsi üçün qanun çərçivəsində bütün şəraitin yaradılmasını təmin edirik.

Bu baxımdan biz ölkəmizə xarici sərmayənin gəlməsinə xüsusi fikir veririk, xarici şirkətlərin Azərbaycanda fəaliyyət göstərməsinə şərait yaradırıq. Respublikamızda özəl sektorun inkişaf etməsi, xarici sərmayənin Azərbaycana gəlməsi, ölkənin iqtisadi imkanlarından, təbii sərvətlərindən, iqtisadi potensialından istifadə edərək müştərək iş görülməsi iqtisadiyyat sahəsində apardığımız siyasətin əsas qollarından biridir. İqtisadi islahatlar aparmaq, özəlləşdirməni həyata keçirmək üçün biz lazımi qanunlar qəbul etmişik, yəni iqtisadi dəyişiklikləri [359-360] aparmaqdan ötrü lazımi normativ-hüquqi baza yaratmışıq. Qəbul olunmuş və bundan sonra qəbul ediləcək qanunlar Azərbaycanın sərbəst iqtisadiyyat yolu ilə getməsi üçün tam imkanlar yaradır və eyni zamanda xarici sərmayənin ölkəmizə gəlməsi, xarici şirkətlərin burada sərbəst fəaliyyət göstərməsi üçün də bütün imkanları yaradır.

Biz artıq bu sahədə bir çox işlər görmüşük. Dünən, sentyabrın 20-də Azərbaycanın dünyanın böyük neft şirkətləri ilə imzaladığı neft müqaviləsinin ikinci ili tamam oldu. Bildiyiniz kimi, bu müqavilə dünyada "Əsrin müqaviləsi" adı alıbdır. Bu müqavilə əsasında Xəzər dənizinin Azərbaycan sektorundakı zəngin neft yataqlarının dünyanın 11 böyük neft şirkəti ilə müştərək işlənməsi nəzərdə tutulur. Müqavilədə iştirak edən konsorsium üzvlərinin əksəriyyəti Qərb ölkələrinin neft şirkətləridir. Ancaq onların arasında Səudiyyə Ərəbistanının "Delta" şirkəti, Türkiyənin "Türk petrolları" şirkəti də var. Yəni biz həm qərb ölkələri, həm də Şərq ölkələri ilə bu sahədə əməkdaşlıq edirik.

Həmin müqavilədən sonra biz Xəzər dənizindəki neft yataqlarından istifadə olunması üçün iki müqavilə də imzalamışıq. Bu müqavilələrdə də həm Rusiya, həm qərb şirkətləri var. Eyni zamanda bunların birində İran İslam Respublikasının neft şirkəti də iştirak edir. Neft və qaz yataqlarından istifadə olunması sahəsində dünyanın neft şirkətləri ilə danışıqlar aparırıq, bununla əlaqədar qarşıda planlarımız var. Yəqin ki, yeni müqavilələr də imzalanacaqdır. Bunlar hamısı Azərbaycanın iqtisadi cəhətdən açıq ölkə olmasını nümayiş etdirir, eyni zamanda ölkəmizə böyük sərmayə gətirir və burada müştərək işlər görülməsi üçün geniş imkanlar olduğunu göstərir.

Ancaq Azərbaycanın iqtisadi imkanları təkcə neft-qaz yataqlarından ibarət deyildir. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, təbiəti və yeraltı sərvətləri, böyük sənaye, intellektual potensialı ölkəmizin iqtisadi cəhətdən inkişaf etməsi üçün çox yaxşı əsas yaradıbdır. Eyni zamanda dünyanın, o cümlədən İslam ölkələrinin iş adamları ilə səmərəli əməkdaşlıq etmək üçün yaxşı imkanlar yaradıbdır.

Bütün bu işlər, tədbirlər nəticəsində dünyanın inkişaf etmiş ölkələri ilə Azərbaycanın əlaqələri genişlənibdir. İndi Azərbaycanda, Bakıda bir çox ölkələrin onlarca şirkətinin nümayəndələri var. Məsələn, ən şimalda olan Norveçin Azərbay[360-361]canda 45 şirkətinin, yaxud Böyük Britaniyanın təxminən 50 şirkətinin, Amerika Birləşmiş Ştatlarının 50-dək şirkətinin nümayəndəliyi var. Bunlar hamısı Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri ilə və başqa ölkələrlə iqtisadi əlaqələrinin genişlənməsini nümayiş etdirir.

Biz iqtisadiyyatda islahatlar aparmaq, onu dünya iqtisadiyyatı ilə sıx bağlamaq üçün dünyanın böyük maliyyə mərkəzləri ilə də çox səmərəli əməkdaşlıq edirik. Məsələn, Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığımızı mən çox müsbət qiymətləndirirəm. Keçən il Böyük Britaniyada, Londonda dünyanın çox məşhur institutu olan Adam Smit İnstitutunun təşəbbüsü ilə "Azərbaycanda investisiya imkanları" mövzusunda geniş konfrans keçirildi. Mən bu konfransda şəxsən iştirak edib Azərbaycan haqqında geniş məlumat verdim. Bu gün çox məmnuniyyətlə deyə bilərəm ki, həmin konfransa onlarca ölkənin, 200-dən artıq şirkətin nümayəndələri gəlmişdilər. Hesab edirəm ki, konfransda görülən işlər və Azərbaycan haqqında verilən məlumat nəticəsində həmin ölkələrin respublikamızla iqtisadi əlaqələri daha sürətlə genişlənir. Keçən ilin dekabrında Fransada, Parisdə Dünya Bankının təşəbbüsü ilə bu maliyyə mərkəzi çərçivəsində Azərbaycana həsr olunmuş daha bir iqtisadi konfrans keçirildi. Orada da dünyanın bir çox ölkələrindən çoxlu şirkətlərin nümayəndələri iştirak edirdilər. Biz həmin konfransda da Azərbaycanın iqtisadi imkanları haqqında geniş məlumat verdik.

Bilirsiniz ki, Azərbaycan qədim neft diyarıdır, dünyada neft ölkəsi kimi məşhurdur. Azərbaycanda keçən əsrin ortalarından neft istehsalı başlayıbdır. Ona görə də neft sahəsində Azərbaycanın əldə etdiyi nailiyyətlər, təcrübə dünyada çox yüksək qiymətləndirilir. Dalbadal üç ildir ki, Azərbaycanda may ayında böyük neft-qaz sərgisi keçirilir. Sonuncu sərgidə 150 şirkət öz eksponatları ilə iştirak edirdi. Bu, dünyanın neft şirkətlərinin Azərbaycana marağını göstərir, eyni zamanda respublikamızla həmin şirkətlər arasında olan əlaqələri daha da inkişaf etdirir.

Ancaq bir də qeyd edirəm, Azərbaycanın iqtisadi imkanları təkcə neft və qazla bağlı deyildir. Azərbaycanda güclü sənaye, kənd təsərrüfatı potensialı var, inkişaf etmiş kimya, maşınqayırma, metallurgiya və başqa sənaye sahələri var və biz bütün bu sahələrdə də geniş əməkdaşlıq edə bilərik. Azərbaycanın [361-362] zəngin təbiəti, münbit torpaqları kənd təsərrüfatı məhsulları istehsalı sahəsində də geniş imkanlar yaradır. Bu sahədə indiyə qədər böyük nailiyyətlərimiz var. Amma "Torpaq islahatı haqqında" qanun qəbul olunandan və torpaq xüsusi mülkiyyətə veriləndən sonra hesab edirəm, bu imkanlar daha da genişlənəcək və kənd təsərrüfatı məhsullarının istehsalı, emalı da xarici investisiyalar üçün çox əhəmiyyətli olacaqdır.

Bu məlumatları sizə verərək, mən İslam ölkələrinin iş adamlarının, özəl sektorunun Azərbaycana gəlməsini arzulayıram və sizi ölkəmizə dəvət edirəm. İslam İnkişaf Bankının burada daha geniş fəaliyyət göstərməsini arzu edir və ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonra belə olacaqdır.

Azərbaycan tarixi köklərinə, adət-ənənələrinə, dini mənsubiyyətinə görə İslam ölkəsidir və İslam ölkələri ilə həm coğrafi nöqteyi-nəzərdən yaxın olduğuna görə, həm də adət-ənənələrimiz bir-birinə bənzədiyinə görə daha da səmərəli əməkdaşlıq etmək imkanına malikdir. İslam ölkələri dünyanın elə məntəqələrində yerləşiblər ki, onların iqlimi də, torpaqları da, təbiəti də, insanları da, insanların xasiyyəti, adət-ənənələri də bir-birinə bənzərdir, bir-biri ilə bağlıdır. Bunlar hamısı ölkələrimiz arasında daha sıx əlaqələr saxlanmasını tələb edir və bunun üçün şərait yaradır.

Təsadüfi deyil ki, İslam ölkələri İslam Konfransı Təşkilatı yaradıblar. Bu təşkilat çox sahələrdə fəaliyyət göstərir və onun himayəsi altında İslam İnkişaf Bankı var. Şübhəsiz ki, bunlar çox əhəmiyyətli amillərdir və bizim də vəzifəmiz bunlardan səmərəli istifadə etməkdən ibarətdir.

İslam İnkişaf Bankı ilə Azərbaycanın əməkdaşlığı son illərdə, şübhəsiz ki, müəyyən nəticələr verir. Artıq müəyyən layihələr var, onların üzərində işləyib axıra çatdırmaq olar. Dünən axşam cənab Əhməd Məhəmməd Əli ilə görüşümüz, danışığımız zamanı bu barədə öz arzumu və xahişlərimi bildirdim. Bildiyimə görə, bu gün səhərdən bu sahədə əməli iş görülübdür və ümidvar olduğumu bildirmək istəyirəm ki, həmin iş davam etdiriləcək, İslam İnkişaf Bankı Azərbaycana daha çox diqqət göstərəcəkdir.

Bir daha qeyd etmək istəyirəm ki, bugünkü konfransın, sizin toplantınızın Azərbaycan üçün çox böyük əhəmiyyəti var. Burada qeyd olunduğu kimi, 17 ölkədən 160 iş adamı, biznesmen iştirak edir, Azərbaycana gəlibdir. Güman edirəm ki, onlar ölkəmizlə hətta qısa tanışlıqdan sonra, res[362-363]publikamızın imkanlarını daha da yaxından öyrəndikdən sonra konfransda iştirak edən, yaxud ümumiyyətlə, İslam ölkələrində fəaliyyət göstərən, İslam İnkişaf Bankı ilə əlaqə saxlayan özəl sektorla, iş adamları ilə əlaqələrimiz genişlənəcəkdir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edəndən sonra çox şərəfli, eyni zamanda çox mürəkkəb, ağır yol keçibdir. Bildiyiniz kimi, Azərbaycan səkkiz il öncə Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalıbdır. Bu təcavüz nəticəsində cürbəcür səbəblərdən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycana çox ağır zərbələr vurulubdur. Azərbaycan ərazisinin 20 faizi zəbt olunub, indiyə qədər Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı, müsəlmanlar yerindən, yurdundan didərgin düşüblər və ağır şəraitdə, qaçqın vəziyyətində, çoxları çadırlarda yaşayırlar.

Azərbaycana qarşı olan bu hərbi təcavüzlə yanaşı, keçmiş illərdə ölkənin daxilində də çox mürəkkəb proseslər getmişdir. Ayrı-ayrı qanunsuz silahlı qüvvələr hakimiyyət uğrunda mübarizə aparmış, keçmiş illərdə hakimiyyət silah vasitəsilə devrilmişdir. 1993-cü ildə, Azərbaycanda vətəndaş müharibəsi baş vermiş, ölkə parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Azərbaycanın daxilindəki gərgin proseslər, şübhəsiz ki, həyatımıza, o cümlədən iqtisadiyyatımıza öz mənfi təsirini göstərmişdir.

Ancaq Allaha şükürlər olsun ki, 1993-cü ilin yayından, yəni iyun ayından Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi sahəsində çox əhəmiyyətli işlər görülmüşdür. Daxili vəziyyəti sabitləşdirmək, qanun-qaydanı bərqərar etmək sahəsində görülən işlər öz nəticəsini vermişdir və nəhayət, indi Azərbaycanda ictimai-siyasi vəziyyət, daxili vəziyyət sabitdir, dövlət bütün Azərbaycanı idarə edir və ölkənin bütün bölgələrinə nəzarət edir.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində biz böyük itkilər vermişik. Ancaq ondan öncə də Azərbaycana hərbi təcavüz olmuşdur. Azərbaycan xalqının iradəsini boğmaq, qırmaq üçün 1990-cı ilin yanvarında keçmiş Sovetlər İttifaqının rəhbərləri tərəfindən respublikamıza böyük miqdarda silahlı qüvvə yeridilmiş, günahsız adamlar şəhid olmuşdular. Onlar bu gün sizin ziyarət etdiyiniz Şəhidlər xiyabanında dəfn olunmuşdur. Ermənistanın təcavüzü nəticəsində gedən döyüşlərdə, müharibədə Azərbaycanın də[363-364]yərli insanları şəhid olmuşlar, onlar da Şəhidlər xiyabanında dəfn ediliblər. Onların hamısı Azərbaycan xalqının müstəqillik, milli azadlıq yolunda, öz ölkəsinin suverenliyi , ərazi bütövlüyü, torpaqlarının müdafiəsi yolunda verdiyi qurbanlardır.

Bütün bu itkilərə, qurbanlara baxmayaraq, Azərbaycan Respublikası sülhsevər dövlət kimi, bölgədə sülhün bərqərar olmasını, Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin sülh yolu ilə həll edilməsini istəyir. Ona görə də iki il bundan öncə, 1994-cü ilin mayında Ermənistan ilə Azərbaycan arasında atəşin dayandırılması haqqında saziş imzalanıbdır və biz ona indiyə qədər riayət edirik. İki ildən artıqdır ki, döyüşlər yoxdur, qan tökülmür, insanlar həlak olmur. Ancaq hələ ki, böyük sülh də yoxdur, qeyd etdiyim kimi, torpaqlarımız Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Azərbaycanla həmrəj olduğunuza görə mən sizə təşəkkür edirəm. Ermənistanın Azərbaycana etdiyi təcavüzlə əlaqədar cənab Əhməd Məhəmməd Əlinin bu gün söylədiyi fikirlərə görə təşəkkür edirəm. Siz Ermənistanın təcavüzkar olduğunu bəyan etdiyinizə görə təşəkkür edirəm. Keçən il Kasablankada İslam Konfransı Təşkilatının Zirvə görüşündə Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar qətnamə qəbul olunmuş və Ermənistan bir təcavüzkar kimi pislənmişdir. Bunlara görə İslam Konfransı Təşkilatına təşəkkür edir və əmin olduğumuzu bildirmək istəyirəm ki, ədalətli mübarizədə bundan sonra da bizimlə həmrəy olacaqsınız.

Bütün bu itkilərə baxmayaraq, qeyd etdiyim kimi, biz məsələni sülh yolu ilə həll etmək, torpaqlarımızın sülh yolu ilə azad olunmasına nail olmaq istəyirik. Bizim bu barədə şərtlərimiz məlumdur. Ermənistan ilə Azərbaycan arasında sülh yaranması üçün Ermənistanın silahlı qüvvələri işğal olunmuş torpaqlarımızdan çıxmalıdır, Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımız öz elinə-obasına qayıtmalıdır. Dağlıq Qarabağda yaşayan ermənilərə, – orada Azərbaycan vətəndaşı olan yüz minə qədər erməni yaşayır, – bu çərçivədə Azərbaycan dövlətinin tərkibində yüksək səviyyəli muxtariyyət statusu verilməsi mümkündür.

Respublikamızın bu günü, iqtisadiyyatı, daxili və xarici vəziyyəti haqqında sizə məlumat verərək, eyni zamanda bildirmək istəyirəm ki, Azərbaycan müstəqil dövlət kimi inkişaf [364-365] edir, ölkədə ictimai-siyasi vəziyyət sabitdir, biz dünyanın bütün ölkələri ilə əməkdaşlıq etmək əzmindəyik.

Sizi bir daha əməkdaşlığa dəvət edirəm. Bir daha konfransa işində müvəffəqiyyətlər arzu edir, İslam İnkişaf Bankına gələcək fəaliyyətində uğurlar arzulayıram. Əmin olduğumu bildirmək istəyirəm ki, İslam ölkələrinin iş adamları, İslam İnkişaf Bankı ilə Azərbaycanın əlaqələri bundan sonra sürətlə inkişaf edəcəkdir. Sağ olun.

## İSLAM İNKİŞAF BANKININ BEYNƏLXALQ İNVESTİSİYA KONFRANSININ FASİLƏSİNDƏ XARİCİ ÖLKƏ JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ

**Sual: Siz çıxışınızda əsasən hansı məsələlərə toxundunuz?**

**Cavab**: Mən çıxışımda hər şeydən öncə neft sənayemizin, zəngin neft və qaz yataqlarımızın imkanları üzərində dayandım, bildirdim ki, Azərbaycanda çox böyük sənaye potensialı, iri kimya sənayesi kompleksi, maşınqayırma, metallurgiya, kənd təsərrüfatı məhsulları emalı sənayesi, xalq istehlakı malları istehsalı var. Zəngin təbiətimiz, münbit torpaqlarımız var. Bütün bunlar müxtəlif ölkələrlə fəal əməkdaşlıq etmək üçün yaxşı əsas yaradır.

**Sual: İslam İnkişaf Bankı prezidentinin Azərbaycana səfərini necə qiymətləndirərsiniz?**

**Cavab**: Çox yüksək qiymətləndirirəm və bunu çıxışımda da qeyd etdim.

**Sual: Azərbaycana investisiyalar qoyulmasında İslam İnkişaf Bankının rolu barədə nə deyərdiniz?**

**Cavab**: İslam İnkişaf Bankının bu sahədə rolunu da yüksək qiymətləndirirəm, bunun üçün böyük imkanlar var və mən İslam İnkişaf Bankını Azərbaycanın iqtisadiyyatına fəal surətdə qoşulmağa çağırdım.

**Sual: Qarabağ problemi bu sahədə əməkdaşlığa mane ola bilərmi?**

**Cavab**: Yox, ola bilməz. Mən çıxışımda bu barədə danışdım, yəqin siz eşitməmisiniz.

**Sual: İnvestisiya qoyulması ilə bağlı Azərbaycanda hansısa problemlər varmı?** [365-366]

**Cavab**: Heç bir problem yoxdur. Hər bir adam sərbəst surətdə burada investisiya qoya bilər.

**Sual: Qarabağ probleminin həlli sahəsində beynəlxalq səviyyədə hansısa kömək varmı?**

**Cavab**: Var, mən bu barədə danışdım. Görünür mənim çıxışımı dinləməmisiniz.

**Sual: Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında münasibətləri necə qiymətləndirirsiniz?**

**Cavab**: Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında yaxşı münasibətlər var. Mən 1994-cü ildə kral Fəthin dəvəti ilə Səudiyyə Ərəbistanında rəsmi səfərdə olmuşam. Ciddədə cənab Əhməd Məhəmməd Əli ilə də görüşmüşəm. Məkkə və Mədinəni ziyarət etmişəm. [366-367]

**AZƏRBAYCAN RESPUBLİKASI**
**DAXİLİ İŞLƏR NAZİRLİYİ POLİS**
**AKADEMİYASININ KOLLEKTİVİNƏ**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Polis Akademiyasının 75 illiyi münasibətilə sizi ürəkdən təbrik edirəm.

Respublikanın ilk peşəkar milis kadrlarını hazırlayan tədris mərkəzi kimi yaradılmış milis məktəbi zəngin, qaynar və faydalı bir ömür yaşayaraq akademiya səviyyəsinədək yüksəlmiş, öz yetirmələri və böyük elmi-təcrübi nailiyyətləri ilə şöhrət qazanmışdır.

İnanıram ki, Polis Akademiyası müstəqil Azərbaycan Respublikası üçün bundan sonra da yüksək peşə hazırlığına malik sağlam və möhkəm əqidəli, milli dövlətçiliyimizə sadiq polis zabitləri yetişdirəcəkdir.

Bu yubiley münasibətilə sizi salamlayır, şərəfli işinizdə uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 sentyabr 1996-cı il* [367-368]

## ÇİN XALQ RESPUBLİKASI ELAN OLUNMASININ 47-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ ÇXR-in AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*"Gülüstan" Sarayı*

*30 sentyabr 1996-cı il*

Hörmətli cənab səfir!
Möhtərəm xanımlar və cənablar!

Mən sizi, bütün Çin vətəndaşlarını, Çin xalqını böyük hadisə, bayram – Çin Xalq Respublikası yaranmasının 47-ci il-dönümü münasibətilə ürəkdən təbrik edirəm və Çin xalqına xoşbəxtlik, tərəqqi və yeni uğurlar arzulayıram. Mən buraya, Çin Xalq Respublikasının yaranması gününə həsr edilmiş bayrama çox böyük hörmət hissi ilə gəldim.

Çin Xalq Respublikasının 47 ili ərzində Çin xalqı çox böyük müvəffəqiyyətlərə nail olmuşdur. Çin iqtisadi islahatların həyata keçirildiyi illərdə xüsusilə heyrətamiz uğurlar qazanmışdır. İslahatlar böyük nəticələr vermişdir. Bu müvəffəqiyyətlər Çin iqtisadiyyatını iti sürətlə inkişaf etdirmiş, xalqın rifahını yüksəltmiş, ölkənin iqtisadi potensialını möhkəmlətmiş və Çin Xalq Respublikasının şöhrətini bütün dünyada artırmışdır.

Çin xalqının əldə etdiyi uğurlar təbii olaraq sevindirir, çünki dünyanın böyük bir ölkəsi kimi Çin xalqı seçdiyi yolla, müstəqillik yolu ilə, Çinin, Çin xalqının xüsusiyyətinə, tarixi ənənələrinə cavab verən yolla, Çin xalqının yüksək göstəricilərə nail olduğu yolla gedir. Bu müvəffəqiyyətlər sevindirir.

Mən Çin xalqını bu müvəffəqiyyətlər münasibətilə təbrik edirəm və əminəm ki, Çin xalqı bu islahatlar yolu ilə gedərək, Çin hökumətinin müəyyənləşdirdiyi digər tədbirləri həyata keçirərək yeni uğurlara nail olacaqdır. Cənab səfirin gətirdiyi rəqəmlər Çinin iqtisadi inkişafını səciyyələndirir və təbii olaraq böyük hörmət hissləri oyadır. Çin bəzi mühüm iqtisadi [368-369] göstəricilər üzrə dünyada birinci yeri tutur. Lakin Çin əhalisinin sayına görə də dünyada birinci yeri tutur, məncə, ərazisinə görə də dünyada ilk yerlərdən birini tutur, bəzi digər göstəricilərə görə də dünyada birinci yeri tutur. Buna görə də burada təbii olaraq daha çox kömür də, daha çox polad da, daha çox digər məhsul da istehsal edilməlidir. Bunların hamısı çox sevindirir.

Biz bunu hörmət hissi ilə qarşılayırıq ki, Çin həm müstəqil daxili, həm də müstəqil xarici siyasət yeridir. Müstəqil bir dövlət kimi Azərbaycan məhz belə bir mövqedə durur ki, hər bir xalq, hər bir dövlət öz məsələlərini başqa dövlətlərdən asılı olmayaraq, müstəqil surətdə həll etsin və xalqın özünün, dövlətin özünün müəyyənləşdirdiyi yolla getsin. Təkrar edirəm, bununla əlaqədar olaraq biz Çində həyata keçirilən bütün tədbirlərə hörmətlə yanaşırıq.

Çin ilə Azərbaycan arasında xoş dostluq münasibətləri yaranmışdır. Xatirimizdədir ki, Çin Azərbaycanın dövlət müstəqilliyini Azərbaycan öz dövlət müstəqilliyini elan etdikdən sonra tezliklə tanımışdır. Biz onu da qiymətləndiririk ki, Çin Azərbaycanda öz səfirliyinə və Azərbaycan Çində öz səfirliyinə malikdir. Yəni bizim aramızda heç də sadəcə olaraq diplomatik münasibətlər mövcud deyildir. Ölkələrimizin səfirlikləri Çində də, Azərbaycanda da fəal işləyirlər. Məhz bu Çin ilə Azərbaycan arasında münasibətlərin yüksək səviyyədə olmasına sübutdur.

Aramızda məsafə böyükdür, biz bir-birimizdən çox uzağıq, amma bu, bütün sahələrdə, ən əvvəl iqtisadi sahədə əməkdaşlıq etməyimizə mane olmur. İndiyədək edilənlər müsbət qiymətə layiqdir. Lakin belə düşünürəm ki, Çin ilə Azərbaycan arasında əməkdaşlığı inkişaf etdirmək və möhkəmlətmək üçün ehtiyat mənbələri və imkanlar hələ böyükdür. Odur ki, məqsədimiz, vəzifəmiz bu imkanlardan istifadə etmək və münasibətləri həm Azərbaycanın, həm də Çinin maraqlan naminə genişləndirməkdir.

İki il bundan əvvəl Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszeminin dəvətilə mən Çinə rəsmi səfər etdim. Bu, Azərbaycanın həyatında mühüm hadisədir və Çin-Azərbaycan münasibətləri tarixində mühüm hadisədir. Pekində, Şanxayda görüşlər və söhbətlər bizə ikitərəfli münasibətlərimizlə bağlı məsələləri müzakirə etməyə, habelə bu münasibətlərin gələcək inkişafının bünövrəsini qoyan sənədlər [369-370] imzalamağa imkan verdi. Mən Çin Xalq Respublikasının sədri cənab Tszyan Tszeminlə, Dövlət Şurasının baş naziri cənab Li Penlə, Şanxay əyalətinin rəhbərləri və Çinin digər dövlət xadimləri ilə görüşləri və söhbətləri böyük səmimiliklə xatırlayıram. Elə Çin Dövlət Şurası baş naziri müavininin, xarici işlər nazirinin Azərbaycana səfəri də Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafında yeni addım oldu.

Biz münasibətlərimizi bundan sonra da möhkəmlədəcək və inkişaf etdirəcəyik. Biz qəti əminik ki, böyük imkanlar var və onlardan əməkdaşlığımızın inkişaf etməsi və genişlənməsi üçün istifadə etmək olar.

Bizim üçün çox əhəmiyyətlidir ki, Çin dövlətlərarası münasibətlərin beynəlxalq aləmdə qəbul olunmuş prinsiplərini, o cümlədən bir-birinin işlərinə qarışmamaq prinsipini, ərazi bütövlüyü prinsipini, dövlət suverenliyi prinsipini daim bəyan edir. Bu prinsip ümumiyyətlə, sözsüz məlumdur və bütün dünya tərəfindən qəbul olunmuşdur, amma təəssüf ki, Azərbaycan barəsində Ermənistan tərəfindən təcavüzlə pozulmuşdur. Azərbaycanın ərazi bütövlüyü onunla pozulmuşdur ki, Azərbaycan ərazisinin bir hissəsini erməni silahlı birləşmələri işğal etmiş və öz yaşayış yerlərindən qovulmuş bir milyondan çox Azərbaycan vətəndaşı köçkün, qaçqın vəziyyətindədir və təbii olaraq sosial-iqtisadi xarakterli olduqca böyük çətinliklər çəkir.

Buna görə də Çinlə əməkdaşlığımız, Çinlə münasibətlərimiz bu prinsiplərin sarsılmazlığına əsaslanır və müstəsna əhəmiyyətə malikdir. Biz öz xarici siyasətimizdə bunu əsas tuturuq ki, müstəqil bir dövlət kimi Azərbaycan, əlbəttə, öz dövlət müstəqilliyini gözləməklə və öz suverenliyini və ərazi bütövlüyünü gözləməklə dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı münasibətlər yaradır və bu münasibətləri inkişaf etdirir. Təkrar edirəm, bununla əlaqədar dünyada dövlətlər arasında qarşılıqlı münasibətlər barəsində baxışlarımız tamamilə uyğun gəlir və bu da münasibətlərimizin daha da inkişaf etməsi və möhkəmlənməsi üçün yaxşı zəmindir.

Şübhə yoxdur ki, Çin böyük iqtisadi potensiala və böyük təbii ehtiyatlara, böyük yeraltı sərvətlərə malikdir və konkret [370-371] surətdə Çin üçün, Çin şəraiti üçün səciyyəvi olan iqtisadi islahatları həyata keçirərək, yeni böyük müvəffəqiyyətlər qazanacaqdır. Biz ürəkdən arzulayırıq ki, həqiqətən uğurlar olsun, Çin iqtisadi sahədə də, öz xalqının rifahının artması sahəsində də daha yüksək sürətlə inkişaf etsin.

Mən bayram münasibətilə Çin xalqını, Çin Xalq Respublikasının rəhbərlərini, Çinin Azərbaycandakı səfirliyini bir daha ürəkdən təbrik edirəm. Çin xalqına xoşbəxtlik, tərəqqi, öz həyatını qurmasında yeni-yeni uğurlar arzulayıram.

Diqqətinizə görə sağ olun! [371-372]

## ALMANİYANIN YENİDƏN BİRLƏŞMƏSİNİN 6-cı İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ AFR-in AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*"Hyatt-Recensi-Naxçıvan" mehmanxanası*

*3 oktyabr 1996-cı il*

Hörmətli cənab səfir, hörmətli xanımlar və cənablar!

Almaniyanın milli bayramı – birləşmə gününün, altıncı ildönümü münasibətilə sizi ürəkdən təbrik edir, sizə, alman xalqına xoşbəxtlik, səadət arzulayıram.

Almaniyanın çoxəsrlik tarixində ölkənin İkinci dünya müharibəsi qurtararkən parçalanıb, xalqın uzun müddət bir-birindən ayrı düşməsindən sonra altı il bundan öncə yenidən birləşməsi və Almaniya torpağında demokratik dövlətin inkişaf etməsi bəşər tarixində görkəmli hadisədir. Alman xalqının dünya mədəniyyətinə verdiyi böyük töhfələr və bəşəriyyətin inkişafındakı xidmətləri yüksək qiymətə layiqdir. Alman xalqının parçalanmış vəziyyətdə yaşadığı dövrdə çəkdiyi əziyyətləri biz həmişə yaxından dərk etmişik. Ona görə də alman xalqının birləşməsi və Avropanın mərkəzində Almaniya kimi böyük, qüdrətli, eyni zamanda demokratik bir dövlətin mövcudluğu dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün çox mühüm amildir. Biz əminik ki, Almaniya bundan sonra, heç vaxt parçalanmayacaq, Almaniya torpağından heç bir müharibə baş verməyəcək, demokratik Almaniya Federativ Respublikası həm Avropada, həm də dünyada sülhün və əmin-amanlığın bərqərar olmasına xidmət edəcəkdir.

Beş il bundan öncə Azərbaycan Respublikası dövlət müstəqilliyi əldə edəndən sonra Almaniya ilə Azərbaycan arasında, xalqlarımız arasında əlaqələrin tarixinə yeni səhifələr ya[372-373]zılıbdır. Bu illərdə Almaniya-Azərbaycan əlaqələrinin sürətlə inkişaf etməsindən məmnunuq və Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasında Almaniya-Azərbaycan əlaqələrinin xüsusi əhəmiyyətini qeyd edirik. Bu qısa müddətdə ölkələrimiz arasında iqtisadi, mədəni, elmi əlaqələr və bütün başqa sahələrdə olan əlaqələr geniş inkişaf edibdir. Almaniyanın Azərbaycandakı və Azərbaycanın Almaniyadakı səfirlikləri də bu sahədə çox böyük işlər görüblər.

Almaniyanın 60-dan artıq şirkətinin, xüsusən "Simens", "Daymler-Bents" kimi dünyada məşhur olan şirkətlərin Azərbaycanda geniş fəaliyyət göstərməsi əlaqələrimizin gözəl təzahürüdür. Bizim əməkdaşlığımız həm Almaniyanın, həm də Azərbaycanın rəhbərlərinin əlaqələri vasitəsilə də genişlənir və inkişaf edir. Mən bu il iyulun əvvəlində Almaniya Federativ Respublikasına etdiyim rəsmi səfəri çox böyük məmnuniyyət hissi ilə xatırlayıram. Bu səfər zamanı Almaniyanın prezidenti cənab Roman Hersoq, federal kansler cənab Helmut Kol, xarici işlər naziri cənab Klaus Kinkel ilə və başqa şəxslərlə olan çox səmərəli görüşlərimiz, danışıqlarımız Almaniya-Azərbaycan əlaqələrinin daha da genişlənməsinə və inkişafına kömək edir.

Azərbaycan Respublikasının həyatında olan ən çətin problemlə – Ermənistanın hərbi təcavüzü və bunun nəticəsində Azərbaycan torpaqlarının bir qisminin işğal edilməsi problemi ilə bağlı və bu problemin sülh yolu ilə həll edilməsi sahəsində Almaniya Federativ Respublikasının mövqeyi bizim üçün həmişə əhəmiyyətli olmuşdur. Minsk qrupunun üzvü olan ölkə kimi Almaniya onun tərkibində çox səmərəli fəaliyyət göstərir. Almaniya hökumətinin verdiyi bəyanatlar Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Dağlıq Qarabağ probleminin, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması, həm də məhz ölkəmizin ərazi bütövlüyünün tanınması əsasında həll olunması üçün çox əhəmiyyətlidir.

Mənim Bonndakı görüşlərim və apardığımız danışıqlar Almaniya-Azərbaycan əlaqələri üçün geniş perspektivlər açıbdır. Öz tərəfimizdən biz çalışırıq və bundan sonra da çalışacağıq ki, yaranmış imkanlardan səmərəli istifadə edək. Xüsusən [373-374] Minsk qrupunun fəaliyyətinin bundan sonra da gücləndirilməsində Almaniyanın iştirakına çox böyük ümidlər bəsləyirik. Minsk qrupunun həmsədrləri və böyük nümayəndə heyəti bu gün Bakıya gəlibdir. Bir neçə saat öncə mən onlarla görüşmüşəm. Onlar burada, bu bayram mərasimindədirlər. Onlarla danışıqlarımızda da demişəm və burada, Almaniyanın bu bayram günündə bir daha bildirmək istəyirəm ki, Azərbaycan Respublikası Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasının tərəfdarıdır və buna nail olmaq üçün atəşkəs rejiminin məsələnin sülh yolu ilə həllinə qədər saxlanmasına sadiq qalacaqdır.

Bu gün, Almaniyanın milli bayramı münasibətilə buraya Azərbaycanın çoxsaylı nümayəndələrinin gəlməsi də respublika, Bakı ictimaiyyətinin Almaniyaya, ölkələrimiz arasındakı əlaqələrə çox yüksək marağını nümayiş etdirir. Bu bayram günü bir daha bəyan edirəm ki, Almaniya-Azərbaycan əlaqələri bundan sonra da gündən-günə inkişaf edəcək və möhkəmlənəcək, bu əlaqələrin genişlənməsi üçün biz öz tərəfimizdən bütün səyləri qoyacağıq.

Bayram münasibətilə sizin hamınızı bir daha təbrik edir, alman xalqına səadət və xoşbəxtlik diləyirəm. Sağ olun. [374-375]

## AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN YARANMASININ 5-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*Şəhriyar adına Mədəniyyət Mərkəzi*

*7 oktyabr 1996-cı il*

Əziz əsgərlər, zabitlər, Azərbaycanın Silahlı Qüvvələrinin döyüşçüləri!

Hörmətli xanımlar və cənablar!

Sizi, bütün xalqımızı Azərbaycan Respublikası Milli Ordusunun, Silahlı Qüvvələrinin yaranmasının beşinci ildönümü münasibətilə ürəkdən təbrik edirəm!

Bu salondan, Azərbaycanın paytaxtından cəbhə bölgələrinə, torpağımızın keşiyində duran əsgərlərimizə, zabitlərimizə, döyüşçülərimizə bayram salamları göndərirəm.

Bu gün biz Silahlı Qüvvələr gününü qeyd edirik. Bu, bizim milli bayramımızdır. Ordumuzun beş yaşı tamam olur. Ordumuzun əsgərlərinin, zabitlərinin əksəriyyəti cəbhə bölgələrindədir. Onlar Azərbaycanın hüdudlarını, ölkəmizin ərazilərini qorumaqdadırlar, səngərdədirlər, öz xidmətlərini həyata keçirirlər. Bu gün mən arzu edərdim ki, onlar bu salonda səslənən sözləri, bizim salamlarımızı eşitsinlər, təbriklərimizi qəbul etsinlər, Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü keşiyində bundan sonra da qəhrəmancasına dursunlar.

Ordumuzun yaranmasından beş il keçir. Bu beş ildə bizim ordumuz böyük, keşməkeşli, ziddiyyətli yol, ancaq ümumən şərəfli yol keçibdir. Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, müstəqil Azərbaycan Respublikasının Milli Ordusu var. Bu, Azərbaycan xalqının böyük milli nailiyyətidir.

Bu beş il içərisində, Azərbaycan Ordusunun yaranması, formalaşması mürəkkəb şəraitdə keçibdir, çətinliklər, maneələr olub xəyanətlər, təxribatlar olub. Məhz bunlara görə də Azərbaycan Ordusu yaranmağa başladığı ilk gündə ayağa dura bil[375-376]məyibdir. Məhz bunlara görə də xalqımız, Vətənimiz böyük itkilər veribdir, ölkəmizin ərazisinin bır qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur, Azərbaycanın sərhədləri, ərazi bütövlüyü pozulubdur. Amma eyni zamanda Azərbaycanın mərd, igid oğulları, vətənpərvər insanları respublikamızın müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qorumuş, qoruyub saxlamaq üçün mübarizə etmiş və canlarını qurban vermişlər.

Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi, suverenliyi uğrunda şəhid olmuş övladlarımızı bu bayram günü bir daha böyük minnətdarlıq hissi ilə xatırlayırıq. Onların qəhrəmanlıq nümunələri bizim qəlbimizdə əbədi yaşayacaqdır və ordumuzun bugünkü əsgərləri, gələcəkdə döyüşçülər üçün nümunə, örnək olacaqdır. Onlar öz qəhrəmanlıqları ilə özlərini əbədiləşdiriblər. Ordumuz məhz həmin qəhrəmanlıq nümunələri əsasında formalaşır, qurulur, böyüyür, artıq bu gün Azərbaycanın dövlət müstəqilliyini, ölkəmizin hüdudlarını, ərazisini qoruya bilən qüdrətli bir orduya çevrilibdir.

Ordumuzun dövlət quruculuğu işi ləng gedibdir. Bu iş əsasən 1993-cü ilin noyabrında başlanıbdır. 1993-cü ilin noyabrından sonra gedən döyüşlərdə Azərbaycan Ordusu, igidlərimiz, oğullarımız xüsusi qəhrəmanlıq nümunələri göstəriblər. Sübut ediblər ki, Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var. Mən əminəm ki, xalqımızın çoxəsrlik tarixinə həkk olunmuş qəhrəmanlıq, rəşadət ənənələri əsasında, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin, ərazi bütövlüyünün qorunması, torpaqlarımızın müdafiəsi uğrunda nümayiş etdirilmiş qəhrəmanlıq ənənələri əsasında Milli Ordumuz gündən-günə möhkəmlənəcək, güclənəcək, qüdrətlənəcək və Vətənimizin müstəqilliyini, ərazi bütövlüyünü qətiyyətlə müdafiə etməyə qadir olacaqdır.

Ordu quruculuğunda böyük səhvlər buraxılıbdır. Eyni zamanda biz bu gün iftixar hissi ilə deyə bilərik ki, böyük nailiyyətlərimiz də var. Bir daha qeyd edirəm, nailiyyətlərimiz ondan ibarətdir ki, Azərbaycan Ordusu artıq formalaşıb, qurulub və dövlətçiliyimizi, dövlətimizin torpaqlarını, ərazisini, müstəqilliyini qorumağa qadirdir. Ancaq indiyə qədər görülən işlərə yüksək qiymət verərək bu gün – Milli Ordumuzun beş illik yubileyi, bayram günü bilməliyik ki, hələ qarşıda böyük və gərgin iş durur. Keçmişdə buraxılan səhvlərdən nəticə çıxarmaq lazımdır, bundan sonra onlara yol vermək olmaz. Or[376-377]du həqiqi Milli Ordu olmalıdır, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasına, dövlətçiliyinə sadiq ordu olmalıdır. Ordu siyasətdən kənar olmalıdır. Ordu Azərbaycan dövlətinin, dövlətçiliyinin siyasəti əsasında yaşamalıdır, fəaliyyət göstərməlidir.

Keçən illərdə Azərbaycanın başına gələn bəlaların və ordu quruculuğunda olan geriliklərin, buraxılan səhvlərin əsas səbəbi də məhz ondan ibarətdir ki, respublikamızda ordu qurularkən, eyni zamanda cürbəcür qeyri-qanuni silahlı dəstələr mövcud olmuşdur. Ordu qurmaq əvəzinə ayrı-ayrı vəzifəli şəxslər, siyasətə

qoşulmuş insanlar ordunun hissələrindən öz şəxsi məqsədləri üçün istifadə etməyə çalışmışlar və beləliklə də, ordu quruculuğunda böyük pozuculuğa yol vermişlər. Məhz bunlar hamısı həm Azərbaycanın dövlət quruculuğunda, həm də ordu quruculuğunda böyük itkilərə, fəlakətlərə gətirib çıxarmış və Azərbaycanın ərazisinin bir qisminin işğal edilməsinin əsas səbəbi olmuşdur.

Bunları xatırlayaraq, dərk edərək, buraxılan səhvlərdən, əyintilərdən nəticə çıxararaq bu gün artıq hamı bilməlidir ki, ordu quruculuğunda keçmişdə olan hallara yol verilə bilməz. Ordumuz sağlam ordu olmalıdır. Azərbaycan xalqının milli, mənəvi ənənələri əsasında tərbiyələnən, möhkəmlənən, hazırlanan və inkişaf edən ordu olmalıdır. Qarşıda duran vəzifəmiz ordumuzu məhz bu yolla aparmaq, gücləndirmək, hər bir əsgərin döyüş qabiliyyətini artırmaq, ordumuzun peşəkarlığını, zabitlərin, komandirlərin peşəkarlığını inkişaf etdirməkdən ibarətdir.

Ordumuz peşəkar zabitlər, komandirlər tərəfindən idarə olunmalıdır. Onlar bir tərəfdən öz biliklərini, təcrübələrini təkmilləşdirməlidirlər. Bununla yanaşı olaraq, ordu hissələrində nizam-intizamı möhkəmləndirib, əsgərlərimizi, döyüşçülərimizi yüksək döyüş ruhunda tərbiyə etməlidirlər, hazırlamalıdırlar.

Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır. Məhz bu keyfiyyətləri özündə cəmləşdirən, əks etdirən Azərbaycan Ordusunun döyüşçüsü ordumuzu möhkəmləndirə bilər və hər an qələbəyə nail ola bilər.

Hər bir hərbi hissədə təlim-tərbiyə işləri yüksək səviyyəyə [377-378] qaldırılmalıdır. İndi ordumuz döyüşlər aparmır. Ermənistanın Azərbaycana təcavüzü nəticəsində baş vermiş müharibə gedişində 1994-cü ilin may ayında atəşkəs haqqında saziş əldə olunubdur. İki il beş aydır ki, biz atəşkəs şəraitindəyik. Bu müddət bizim ordumuzun qurulmasına, inkişaf etməsinə çox böyük imkanlar yaradıbdır. Ancaq qeyd etdiyim kimi, qarşıda bundan sonra da böyük vəzifələr durur. Ermənistanla Azərbaycan arasında olan hərbi münaqişəni biz sülh yolu ilə həll etmək istəyirik. Bütün dünyaya məlumdur ki, biz sülh tərəfdarıyıq, müharibəyə son qoymaq istəyirik, döyüşlərin bir daha baş verməsinin tərəfdarı deyilik. İşğal olunmuş torpaqlarımızın sülh yolu ilə azad edilməsinə nail olmağa çalışırıq, ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasına çalışırıq.

İndiyədək bu sahədə çox işlər görülmüşdür. Biz bundan sonra da əzmlə çalışacağıq. Bütün imkanlardan istifadə edirik və bundan sonra da edəcəyik. Ancaq bununla yanaşı, ordu quruculuğu işində də qarşıda duran vəzifələri layiqincə yerinə yetirməliyik. Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir. Bu sözləri həyata keçirmək, buna nail olmaq üçün müstəqilliyimizi həmişə qoruya bilən güclü ordumuz olmalıdır.

Bəyan etmişik ki, biz atəşkəs rejimini qoruyub saxlayacağıq. Amma eyni zamanda, bizim ordumuz, Silahlı Qüvvələrimiz atəşkəsin pozulmasının, ərazimizə hücum edənlərin qarşısını almağa hər an, hər dəqiqə, hər saat hazır və layiqli cavab verməyə qadir olmalıdır. Ordumuz daim sayıq olmalıdır. Hər bir hərbi hissədə sayıqlıq yüksək səviyyəyə qaldırılmalıdır.

Azərbaycan Ordusuna yeni çağırış başlanıbdır. Gənclər orduya səfərbər olunurlar. Xidmət edənlərin bir qismi tərxis olunur. Bu, tamamilə normal prosesdir. Şükürlər olsun ki, indi belə bir normal şəraitdə bir tərəfdən xidmətini bitirmiş əsgərləri evlərinə buraxmağa imkanımız, eyni zamanda, gəncləri orduya normal şəraitdə səfərbər etməyə şəraitimiz vardır. Bu şəraitdən çox səmərəli istifadə etmək lazımdır.

Azərbaycanın hər bir vətəndaşı bilməlidir ki, orduda xidmət hər kəsin müqəddəs, şərəfli borcudur. Dövlət müstəqilliyimizi əldə edənə qədər bizim Milli Ordumuz olmamışdır. İnsanlarımız, gənclərimiz o zaman mənsub olduğumuz dövlətin ordusunda xidmət etmişlər. Bu gün böyük iftixar hissi ilə demək olar ki, Azərbaycan oğulları o illərdə də ləyaqətlə xid[378-379]mət etmişlər, böyük qəhrəmanlıq nümunələri göstərmişlər. Ancaq bütün keçmiş dövrlərdən fərqli olaraq, indi bizim ordumuz öz dövlətimizin, xalqımızın ordusudur. Xalqla ordunun birliyi həm xalqın qüdrətini, həm ölkənin qüdrətini artırır, həm də ordunu daha da qüvvətli edir. Ona görə də qarşımızda duran əsas vəzifələrdən biri xalqla ordunun sağlam mənəvi birliyini təmin etməkdən ibarətdir.

İndi orduya çağırılan gənclər bilməlidirlər ki, onlar öz şərəfli vəzifələrini yerinə yetirməyə çağırılırlar. O gənclərin valideynləri bilməlidirlər ki, onların övladları ölkə, dövlət qarşısında öz vətəndaşlıq borclarını layiqincə yerinə yetirməlidirlər. Orduya payız çağırışını məhz bu prinsiplər əsasında həyata keçirmək lazımdır. Hərbi hissəyə çağırılanlara xüsusi qayğı göstərilməlidir. Onlar ilk günlərdən nizam-intizama dəvət olunmalıdırlar. Şübhəsiz ki, əsgərlik xidmətini layiqincə yerinə yetirmək üçün onlara lazımi şərait yaradılmalıdır.

Nizam-intizam ordunun qüdrətinin əsasını təşkil edir. Təəssüflər olsun ki, keçən illərdə orduda, hərbi hissələrdə özbaşınalıq geniş yayılmışdı. Şübhəsiz ki, bu, nə əsgərlərin, nə də zabitlərin əksəriyyətinin günahı deyildi. Bu, sadəcə olaraq ayrı-ayrı siyasətbazlar, özlərini siyasətçi hesab edib ordudan, hərbi hissələrdən şəxsi məqsədləri üçün istifadə edənlər tərəfindən meydana gəlmiş hallar idi. Bir daha qeyd edirəm ki, bunlar da ordu quruculuğumuza, ümumiyyətlə, ölkənin müdafiəsinə böyük zərbələr vurmuşdur. Ona görə də indi orduda, hər bir hərbi hissədə yuxarıdan aşağıyadək qanun-qayda, nizam-intizam, yüksək tələbkarlıq mövcud olmalıdır.

Hər bir zabit, komandir əsgərdən, özünə tabe olan zabitdən nizam-intizam tələb edərkən, qanun-qaydaya riayət etməyi tələb edərkən özü bu barədə nümunə göstərməlidir. Yüksək rütbəli zabitlərin, generalların nümunəsi, şübhəsiz ki, bütün orduda sağlam mühit, sağlam əhval-ruhiyyə, möhkəm nizam-intizam yaratmaq üçün əsasdır.

Mən bu gün bütün zabit heyətindən, Müdafiə Nazirliyinin rəhbərliyindən tələb edirəm ki, orduda, Silahlı Qüvvələrdə, Müdafiə Nazirliyində nizam-intizamın, qanun-qaydanın möhkəmlənməsinə daha da çox fikir verilsin. Bu sahədə hələ nöqsanlar da çoxdur, səhvlər də buraxılıbdır. Bu nöqsanları, səhvləri aradan qaldırmaq lazımdır. Bir sözlə, indi biz elə bir mər[379-380]hələdəyik ki, müstəqil Azərbaycanın bu günü, gələcəyi üçün layiqli, sağlam, çox qüdrətli ordu yarada bilərik. Bu imkanlardan istifadə etmək lazımdır. Bu, bizim şərəfli vəzifəmizdir. Bu, bizim borcumuzdur.

Ordu daim dövlət qayğısı altında olmalıdır, xalqın qayğısı ilə əhatə edilməlidir. Bu gün mən bütün vətəndaşlara bildirmək istəyirəm ki, ordunun möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün dövlət tərəfindən, Azərbaycanın prezidenti tərəfindən lazımi qayğı və diqqət göstərilir və bundan sonra da göstəriləcəkdir. Bir prezident kimi, Ali Baş Komandan kimi mən bunu özümün əsas vəzifəm hesab edirəm. Eyni zamanda, bütün hakimiyyət orqanlarını orduya daim qayğı göstərməyə dəvət edirəm. Bir daha qeyd edirəm, ordu dövlətin, xalqın, millətin qayğısı ilə əhatə olunmalıdır.

Bu gün ordunun təchizatında çətinliklər, problemlər var. Biz bunları həll etməyə çalışırıq. Amma eyni zamanda, yerli hakimiyyət orqanları da, təsərrüfat kollektivləri də, müəssisələr də, iş adamları da ordunun qayğılarının həll olunması üçün orduya yardım etməlidirlər. Bizim belə bir təcrübəmiz, ənənəmiz vardır. Xüsusən, 1993-cü ilin noyabr ayının əvvəlindən orduya xüsusi diqqət, güclü qayğı hərəkatı başlanmışdır. Amma indi bu, müəyyən qədər soyuyubdur. Hesab edirəm ki, bu proses daim davam etməlidir. Hər kəs orduya qayğı göstərməlidir, öz imkanlarından istifadə edib ordunun problemlərinin həll olunmasına çalışmalıdır, ordunun inkişaf etməsi üçün əlindən gələni əsirgəməməlidir.

Ordu bizim doğma ordumuzdur. Ordu xalqımızın tərkib hissəsidir. Ordu ölkəmizin, millətimizin dövlətimizin müstəqilliyinin dayağıdır. Ona görə də biz heç vaxt bunu unutmamalıyıq və orduya olan qayğını daim əsas vəzifəmiz kimi dərk etməliyik.

Hesab edirəm ki, Azərbaycanın Silahlı Qüvvələri, Milli Ordumuz bundan sonra da qarşısında duran vəzifələri layiqincə yerinə yetirəcəkdir. Azərbaycanın dövlət müstəqilliyi, ərazi bütövlüyü uğrunda döyüşə, vuruşa daim hazır olacaqdır.

Mən əminəm ki, bizim ordumuz bu gün Azərbaycanın [380-381] müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəldilmiş hər hansı bir qəsdə layiqli cavab verməyə hazırdır.

Xalqımızın, dövlətimizin ən ümdə məqsədi Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqlarımızı azad etmək, yerlərindən-yurdlarından didərgin düşmüş vətəndaşlarımızın evlərinə qayıtmasını təmin etməkdir. Biz bu yolda sülh addımlarımızı bundan sonra da davam etdirəcəyik, buna nail olmağa çalışacağıq. Eyni zamanda, xalqımız, ordumuz bilməlidir ki, biz torpaqlarımızın bir qarışını belə heç kəsə güzəşt edə bilmərik, biz bununla heç vaxt razı ola bilmərik. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün hər bir döyüşə, hər bir vuruşa hazır olmalıyıq!

Bu gün, bu bayram günü şəhid ailələrinə mən xüsusi hörmət və ehtiramımı bildirirəm. Azərbaycan torpaqlarının müdafiəsi yolunda xəsarət almış övladlarımıza öz hörmət və ehtiramımı bildirirəm. Torpaqlarımızın müdafiəsi uğrunda gedən müharibənin bütün iştirakçıları, qəhrəmanları dövlət və ictimaiyyət tərəfindən daim böyük qayğı ilə əhatə olunmalıdırlar. Mən bu gün hamını bir daha bu yola çağırıram. Sizi bu bayram münasibətilə bir daha təbrik edirəm. Azərbaycan Ordusuna yeni uğurlar, zəfərlər arzulayıram.

Azərbaycan əsgərinə eşq olsun!

Yaşasın Azərbaycan Milli Ordusu! [381-382]

## AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN YARANMASININ 5-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ ÇIXIŞ

*"N" hərbi hissəsi*

*9 oktyabr 1996-cı il*

Salam, Azərbaycan əsgəri!

Azərbaycan Respublikası Milli Ordusunun yaranmasının 5-ci ildönümü münasibətilə sizi təbrik edirəm.

Azərbaycan Respublikasının Milli Ordusu beş il müddətində böyük şanlı yol keçmişdir və indi respublikamızın müstəqilliyini, qüdrətini və ərazi bütövlüyünü müdafiə etməyə qadir bir ordudur. Azərbaycan Ordusunun yaranmasında, böyüməsində, inkişaf etməsində ölkəmizin qəhrəman oğulları böyük xidmətlər göstərmiş, Azərbaycan torpaqlarının erməni təcavüzündən müdafiəsində qəhrəmanlıq nümayiş etdirmiş, şəhid olmuşlar. Azərbaycan Ordusunun yaranması yolunda, respublikamızın müstəqilliyinin, ərazi bütövlüyünün, suverenliyinin qorunması uğrunda mübarizə edənlərin və bu yolda şəhid olanların hamısını böyük minnətdarlıq hissi ilə yad edirik. Xalqımız onların xidmətlərini heç vaxt unutmayacaqdır.

Bu gün Azərbaycan Ordusunun sıralarında xalqımızın dəyərli oğulları – əsgərlər, zabitlər xidmət edirlər. Orduda xidmət etmək hər bir azərbaycanlının şərəfli borcudur. Orduda xidmət edən, əsgərlik borcunu yerinə yetirən gənclər xalqımızın, cəmiyyətimizin içərisində hörmətli, dəyərli insanlardır. Həyatını bu şərəfli peşəyə – ölkəni, Vətəni qorumaq peşəsinə həsr edən zabitlər, hərbiçilər Azərbaycan xalqının daim hörmət və ehtiramını qazanacaqlar.

Azərbaycan Ordusu onun iftixarıdır. Biz ordumuzla fəxr edirik. Xalqımız ordusuna daim qayğı göstərib və bundan sonra da göstərəcəkdir. Ordumuz daim Azərbaycan xalqının, döv[382-383]lətinin və Azərbaycan prezidentinin qayğısı altındadır. Biz orduya qayğı göstərməyi, ordu quruculuğunu müvəffəqiyyətlə arzulamağı, Azərbaycan Ordusunu möhkəmləndirməyi ən ümdə vəzifəmiz hesab edirik.

Azərbaycanın güclü, qüdrətli ordusu olmalıdır. Güclü, qüdrətli ordu Azərbaycanın dövlət müstəqilliyini əbədi etmək, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün əsas amildir, respublikamızın sülh və əmin-amanlıq şəraitində yaşamasının təminatıdır. Biz ordumuzun güclənməsi, inkişaf etməsi, yüksək səviyyəyə qalxması üçün bundan sonra da əlimizdən gələni əsirgəməyəcəyik. Xalqımız, dövlətimiz orduya daim qayğı göstərəcəkdir. Bir daha qeyd edirəm, hər bir Azərbaycan vətəndaşının orduda xidmət etməsi onun ən ümdə, şərəfli borcudur. Azərbaycanın hər bir vətəndaşının orduya yardım etməsi, qayğı göstərməsi onun şərəfli borcudur. Mən əminəm ki, Azərbaycan Ordusu, Azərbaycan əsgəri bundan sonra da respublikamızın dövlət müstəqilliyinin qorunması, ərazi bütövlüyünün bərpa olunması, sərhədlərimizin müdafiəsi üçün dəyərli fəaliyyət göstərəcək və öz qəhrəmanlığı, şücaəti ilə xalqımızı sevindirəcəkdir.

Azərbaycan əsgərinə, Azərbaycan Ordusuna uğurlar arzulayıram. Azərbaycan əsgərinə eşq olsun!

Yaşasın qüdrətli Azərbaycan Milli Ordusu! [383-384]

**QOBUSTAN RAYONU CƏMCƏMLİ**
**KƏNDİNİN SAKİNİ**
**BAXŞƏLİYEV ELMXAN MÜƏLLİMƏ**

Hörmətli Elmxan müəllim!

Prezident seçilməyimin üçüncü ildönümü münasibətilə mənə göndərdiyiniz təbrik və xoş arzularınız üçün sizə minnətdarlığımı bildirirəm.

Mənim Azərbaycan prezidenti seçildiyim gün anadan olmuş körpənizə Heydər adını qoymağınız da məni mütəəssir etdi. Balaca Heydərə xeyir-dua verir və ona uzun ömür, cansağlığı arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*9 oktyabr 1996-cı il* [384-385]

## GÖYÇAY RAYONUNUN BIĞIR KƏNDİ ƏRAZİSİNDƏ AVTOMOBİL QƏZASINDA HƏLAK OLANLARIN AİLƏLƏRİNƏ

1996-cı il oktyabrın 8-də Göyçay rayonunun Bığır kəndinin ərazisində avtomobil qəzası baş vermişdir. Faciə nəticəsində insan tələfatı olmuş və yaralananlar var.

Həlak olanların ailələrinin kədərinə şərik olaraq, onlara dərin hüznlə başsağlığı verirəm, bu ağır gündə səbr və dözüm diləyirəm.

Allah rəhmət eləsin!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*9 oktyabr 1996-cı il* [385-386]

## "ƏSRİN MÜQAVİLƏSİ"Nİ HƏYATA KEÇİRMƏK ÜÇÜN YARADILMIŞ AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN İKİ İLLİK FƏALİYYƏTİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*10 oktyabr 1996-cı il*

Bugünkü müşavirədə 1994-cü ilin sentyabrında Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın böyük şirkətlərinin təşkil etdiyi konsorsium arasında imzalanmış neft müqaviləsinin həyata keçirilməsinin iki illik yekunlarına həsr olunubdur.

Müqavilə imzalandıqdan sonra konsorsiumun işini təşkil etmək və müqaviləni həyata keçirmək üçün konsorsium tərəfindən Beynəlxalq Əməliyyat Şirkəti yaradılıbdır. Beynəlxalq Əməliyyat Şirkəti Azərbaycanda yerləşir və bu müqavilənin həyata keçirilməsi üçün fəaliyyət göstərir.

Müqavilə qüvvəyə mindikdən sonra – müqavilə Azərbaycan parlamenti tərəfindən ratifikasiya olunub və ratifikasiya sənədi Azərbaycan dövlətinin qanunu kimi 1994-cü ilin dekabrında Azərbaycan prezidenti tərəfindən imzalanıb – iş başlayıbdır. Bu müddətdə görülən işlər daim şəxsən mənim nəzarətim altında olub. Azərbaycan Dövlət Neft Şirkəti, Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti cənab Terri Adams və başqa şəxslər müqavilənin həyata keçirilməsi haqqında vaxtaşırı məlumat veriblər.

Son günlər Bakıda Beynəlxalq Əməliyyat Şirkətinin bir neçə toplantısı keçirilibdir. Konsorsiuma daxil olan neft şirkətlərinin yüksək səviyyəli nümayəndələri bu toplantıda iştirak ediblər, öz işlərini təhlil ediblər və 1997-ci il üçün iş planı tərtib ediblər, büdcə müəyyənləşdiriblər. Bunların nəticəsində mən dünən Beynəlxalq Əməliyyat Şirkətinin və konsorsiumun iştirakçısı olan şirkətlərin nümayəndələri ilə görüş keçirmişəm. [386-387]

Eyni zamanda hələ bir neçə ay bundan öncə mənim iş planımda Beynəlxalq Əməliyyat Şirkətinin, Azərbaycan Dövlət Neft Şirkətinin hesabatını dinləmək nəzərdə tutulmuşdu. Biz "Dədə Qorqud" qazma qurğusunu istismara verərkən və Beynəlxalq Əməliyyat Şirkətinin Azərbaycandakı nümayəndəliyini açarkən mən bu məsələni irəli sürmüşdüm və nəhayət, bu planı yerinə yetirmək üçün bugünkü müşavirəni çağırmışam. Müşavirənin məqsədi indiyə qədər görülən işləri təhlil etmək, onlara qiymət vermək və qarşıda duran vəzifələri müəyyən etməkdir. Bu vəzifələr Beynəlxalq Əməliyyat Şirkəti və Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən müəyyən olunubdur, ancaq mən bu barədə məruzələri dinləmək, vəziyyətlə ətraflı tanış olmaq istəyirəm. Eyni zamanda qarşıda duran məsələlərin həlli üçün respublikanın hakimiyyət, dövlət orqanlarının nümayəndələri ilə birlikdə müəyyən işlərin görülməsi nəzərdə tutulur.

### YEKUN SÖZÜ

Hörmətli xanımlar və cənablar! Azərbaycan Dövlət Neft Şirkəti ilə, Azərbaycan Respublikası ilə dünyanın böyük neft şirkətlərinin təşkil etdiyi konsorsium arasında iki il bundan öncə imzalanmış müqavilənin həyata keçirilməsi haqqında bugünkü müzakirə çox məzmunlu və çox əhəmiyyətlidir.

Hesab edirəm ki, biz müqavilədə nəzərdə tutulmuş proqramın həyata keçirilməsi haqqında, əldə olunan nailiyyətlər haqqında və gələcək planlar haqqında çox ətraflı məlumat aldıq. Mən bu müzakirədən, verilən məlumatlardan, edilən məruzələrdən çox məmnunam.

İki il bundan öncə müqaviləni imzalamaq haqqında fərman verərkən və sonra müqaviləni imzalayarkən mən şəxsən inanırdım ki, bu müqavilə uğurlu olacaqdır, həyata keçiriləcəkdir və öz müsbət nəticələrini verəcəkdir.

Ancaq eyni zamanda bu müqavilənin həyata keçirilməsi ilə əlaqədar proqramın yerinə yetirilməsi məsələsi ilə mən bu keçən iki ildə daim maraqlanmışam, ona nəzarət etmişəm. Bir çox məlumat və məruzələrə əsasən, bu müqavilənin ümumiyyətlə uğurla həyata keçirilməsinə arxayın idim. Ancaq buna baxmayaraq bu gün çox təfsilatlı, ətraflı, geniş və hərtərəfli məlumatlar məni daha da rahatlandırır və daha çox məmnun edir. [387-388]

Dörd saatdan artıq davam edən bugünkü müzakirədən və verilən geniş məlumatlardan sonra biz tam qətiyyətlə deyə bilərik ki, müqavilə həyata keçirilir və öz bəhrələrini verir.

Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin prezidenti cənab Terri Adams və Beynəlxalq Əməliyyat Şirkəti prezidentinin müavinləri burada çox geniş, maraqlı, əhəmiyyətli məlumatlar verdilər.

Mən bu məlumatları dinləyərkən belə fikrə gəlirəm ki, əgər iki il bundan öncə müqaviləni imzalayanda biz böyük ruh yüksəkliyi içərisində idiksə, indi iki il keçəndən sonra onun həyata keçirilməsi haqqında verilən məlumatlar bizi daha çox sevindirməlidir və hesab edirəm ki, biz daha böyük ruh yüksəkliyi içində ola bilərik.

Bu müzakirəyə Azərbaycan Dövlət Neft Şirkətinin və xüsusən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin çox məsuliyyətlə hazırlıq aparmasını və bugünkü müzakirəyə çox əsaslı sənədlər və məlumatlar təqdim etməsini xüsusi qeyd edirəm.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti konsorsiumun tərkibini əks etdirərək, konsorsiuma daxil olan şirkətlərin nümayəndələrindən ibarət olaraq çox mürəkkəb bir orqandır. Mən bunu ona görə deyirəm ki, bu konsorsiuma on bir şirkət daxildir. Hər şirkətin özünəməxsus dəst-xətti var, özünəməxsus maraqları var, özünəməxsus da iş üslubu var. Bu şirkətlərin nümayəndələrinin bir yerdə belə ahəngdar işləməsi və müştərək iş sahəsində bu qədər nailiyyətlər əldə etməsi çox sevindirici haldır.

Bu baxımdan mən hesab edirəm ki, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin iş təcrübəsindən biz hamımız istifadə etməliyik.

Mən bugünkü müzakirə haqqında cənab Terri Adamsa müraciət edərkən, şübhəsiz, düşünürdüm ki, o, geniş bir məlumat hazırlayacaq. Ancaq təsəvvür etmirdim ki, bu məlumat bu qədər təfsilatlı olacaqdır və təkcə cənab Terri Adams yox, onun hər bir sahə üzrə müavinləri də məsələləri çox konkret izah edəcəklər, konkret işıqlandıracaqlar və ümumiyyətlə həm müqavilə haqqında, həm də onun həyata keçirilməsi haqqında bizim təəssüratlarımızı bu qədər genişləndirəcəklər.

İşin bu cür təşkil olunması çox təqdirəlayiqdir. Mən bunu çox yüksək qiymətləndirirəm və geniş məlumatlara görə, iza[388-389]hatlara görə, burada nümayiş etdirilən diaqramlara, ayrı-ayrı sxemlərə, ayrı-ayrı cədvəllərə görə təşəkkür edirəm.

İndi mən görülən işlər haqqında bir neçə kəlmə öz fikrimi demək istəyirəm.

Öncə onu demək istəyirəm ki, müqavilədə nəzərdə tutulmuş proqram ardıcıl surətdə və demək olar ki, əsasən vaxtlı-vaxtında yerinə yetirilir. Bəzi məsələlərdə müəyyən gecikmələr olubdur. Amma onlar səbəbsiz deyil, onların obyektiv səbəbləri var. Ona görə də bunlar ümumi işin nəticələrinin qiymətinə heç bir mənfi təsir göstərə bilməz.

Xarici şirkətlərin nümayəndələrinin nəzərinə çatdırmaq istəyirəm ki, biz keçmiş illərdə ümumiyyətlə planla yaşamışıq. Sovet iqtisadi sistemində beşillik planlar olubdur, illik planlar olubdur, ayrı-ayrı məsələlərin həyata keçirilməsi üçün ayrı-ayrı planlar olubdur və biz bu planları tərtib etməyi, həyata keçirməyi öyrənmişik və bu barədə müəyyən təcrübəmiz var. Məhz buna görə də sosialist iqtisadi sisteminə "planlı iqtisadi sistem" adı verilmişdir. Hesab edilirdi ki, kapitalist iqtisadiyyatında plan yoxdur. Belə fikir var idi ki, bu plan ancaq sosialist sistemində var.

Ancaq görünür ki, hər yerdə plan var imiş və indi də var, yəqin ki, gələcəkdə də olacaqdır. İş ondadır ki, planlar nə cür tərtib olunur, nə cür qurulur və nə cür həyata keçirilir.

Keçmiş zamanlarda, məsələn, Azərbaycanda planların yerinə yetirilməsində, xüsusən 70-ci illərdə biz çox böyük nailiyyətlər əldə etmişdik. Məsələn, beşillik planları – xalq təsərrüfatının, iqtisadiyyatın inkişafına aid beşillik planları biz vaxtından qabaq yerinə yetirirdik. Bu da həqiqət idi. Bunu bu gün mən bir daha bir həqiqət kimi qeyd etmək istəyirəm. Ona görə də o sistem çərçivəsində Azərbaycanın iqtisadiyyatı o illərdə çox yüksək sürətlə inkişaf etmişdi.

Ancaq eyni zamanda elə hallar olurdu ki, Azərbaycanda da və başqa respublikalarda da, ümumiyyətlə, Sovet İttifaqında nəzərdə tutulan planlar yerinə yetirilmirdi və buna cürbəcür bəhanələr, cürbəcür səbəblər göstərilirdi. Yəni bizim planları müvəffəqiyyətlə yerinə yetirmək təcrübəmiz də var və planları yerinə yetirməmək təcrübəmiz də var.

İndi, iqtisadiyyatımızın bu keçid dövründə ümumiyyətlə, dövlətimizin bu keçid dövründə, şübhəsiz ki, biz nəzərdə tutulmuş planların bir çoxunu vaxtında yerinə yetirə bilmirik. Bu[389-390]nun obyektiv səbəbləri də var, amma subyektiv səbəblər də var.

Hesab edirəm ki, müəyyən bir dövrdən sonra biz bu sahədə də lazımi səviyyəyə qalxa biləcəyik. Neft müqaviləsi proqramının yerinə yetirilməsi bizim üçün çox yaxşı nümunədir.

Doğrusu, mən bu iki il müddətində bu işlərə nəzarət edirdim və bəzən məndə narahatlıq hissi əmələ gəlirdi. Ancaq bugünkü müzakirə məni çox məmnun etdi və tam qətiyyətlə deyirəm ki, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti bu iki il müddətində çox müvəffəqiyyətlə işləyibdir və onların işini yüksək qiymətləndirmək lazımdır.

Görülən işlər haqqında burada deyildi, mən artıq bu barədə konkret fikirlər söyləmək istəmirəm. Ancaq "Dədə Qorqud" qazma qurğusunun hazırlanması, onun işə salınması, "Çıraq" neft yatağında quyunun qazılması və 1200 metr dərinliyə çatması – bu, artıq işin konkret nəticəsidir.

Mən bu gün burada verilən məlumatları və vədləri nəzərə alıram. Nəzərə alıram ki, 1996-cı ilin sonunda şimal marşrutu ilə neft kəməri hazır olacaqdır. Mən nəzərə alıram ki, 1997-ci il avqust ayının 28-də "Çıraq" yatağından konsorsiumun proqramı əsasında ilk neft hasil olunacaqdır. Mən nəzərə alıram ki, gecikməsinə

baxmayaraq, 1997-ci ilin mart ayında Qərb marşrutu ilə neft kəmərinin tikilməsinə başlanacaqdır və 1998-ci ilin sonunda bu neft kəməri hazır olub istismara veriləcəkdir.

Bunların hamısını, bu məlumatları bu gün mən qəbul edirəm və yenə də deyirəm, nəzərə alıram. Şübhəsiz, əmin olduğumu bildirmək istəyirəm ki, bu verilən sözlər, vədlər vaxtında yerinə yetiriləcəkdir.

Şimal marşrutu ilə neft kəmərinin başa çatması barədə mən sual verdim. Azərbaycan ərazisində bu neft kəməri hazır olub başa çatacaqdır. Amma biz gərək bu neft kəmərinin Rusiya ərazisində bu ilin sonuna qədər hazır olması məsələsinə tam arxayın olaq, yəni inanaq ki, bu olacaqdır.

Ona görə də Artur Rasizadəyə, Natiq Əliyevə göstəriş verirəm ki, onlar dərhal Rusiya hökuməti ilə və "Transneft" şirkəti ilə əlaqəyə girsinlər, – bu barədə mən dedim, bir daha təkrar edirəm, – bu məsələnin müzakirə olunmasını təşkil etsinlər. Biz bu məsələnin məhz Azərbaycanda müzakirə olunmasını təklif edirik. Onları buraya dəvət etmək, müzakirə etmək lazımdır. Mən özüm bu işə nəzarət etməliyəm. Biz tam [390-391] proqramı almalıyıq ki, bizim sərhəddən o tərəfə – Novorossiysk limanına qədər neft kəməri bu ilin axırına qədər hazır olsun.

Bildirmək istəyirəm ki, Şimal neft kəməri ilə 1997-ci ilin əvvəlində biz Azərbaycan neftini, yəni özümüz hasil etdiyimiz neftin bir hissəsini ixrac etmək istəyirik. Ona görə də bu neft kəmərinin hazır olması bizim üçün xüsusi əhəmiyyət kəsb edir.

Hesab edirəm ki, 1997-ci ilin avqust ayında konsorsium neft hasil edərkən artıq bu neft kəməri yoxlanılmalıdır, tamamilə sınaqdan keçirilməlidir və hazır olmalıdır ki, konsorsiumun planı ilə hasil olunan neft dərhal ixrac edilə bilsin. Ona görə də mən bu məsələyə xüsusi əhəmiyyət verirəm və bu barədə artıq öz tapşırıqlarımı verdim.

Bu gün bütün bu məlumatları dinləyərkən bu iki il müddətində müqavilənin həyata keçirilməsi nəticəsində Azərbaycanın həyatında baş vermiş dəyişiklikləri bir kino lenti kimi gözümün qabağından keçirirəm. Güman edirəm ki, siz də belə təəssürat altındasınız və böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu iki il müddətində qısa bir zamanda nə qədər çox iş görülüb, nə qədər dəyişikliklər meydana çıxıbdır. Şübhə yoxdur ki, neft hasil olunmağa başlayandan sonra Azərbaycanın iqtisadiyyatı bunun müsbət nəticələrini görəcək və bu da həm iqtisadiyyatın inkişafına, həm də Azərbaycan vətəndaşlarının rifah halının, həyat tərzinin yaxşılaşmasına çox böyük müsbət təsir göstərəcəkdir.

İndi görün, Azərbaycanın neft sənayesinə nə qədər xarici sərmayə qoyulubdur. Bu sərmayə qoyuluşu davam etdirilir və ilbəil artacaqdır. Şübhəsiz ki, bu, həm Azərbaycana, həm də konsorsiumda iştirak edən şirkətlərə mənfəət gətirəcəkdir. Amma eyni zamanda bu, Azərbaycanın neft sənayesinin simasını tamamilə dəyişdirir.

Azərbaycana yeni texnologiya gəlir, müasir texnologiya gəlir. Təkcə neft hasilatı sahəsinə yox, qazma sahəsinə yox, neft sənayesi ilə bağlı olan bütün sənaye sahələrinə yeni texnologiya, müasir texnologiya gəlir. Bunun özü də bizim üçün böyük nailiyyətdir.

Konsorsiumun sayəsində nə qədər Azərbaycan vətəndaşları işə cəlb olunublar. Onlar xarici ölkələrdə hazırlıq keçiblər, ixtisaslarını artırıblar, dil öyrəniblər, yeni, müasir texnologiyaya, müasir tələblərə uyğun iş öyrəniblər. Bunun özü də xalqımız üçün çox böyük sərvətdir. Nə qədər gəmilərimiz təmir olunur, [391-392] nə qədər istehsal müəssisələri modernləşdirilir, şübhəsiz, istehsal imkanları artır. Bunların özü də çox əhəmiyyətlidir.

Yeni neft kəmərləri tikilir, daxildə, yəni dənizdə qaz kəmərləri çəkilir, terminallar tikilir. Bütün bunlar Azərbaycan Respublikasının sənayesinin, xüsusən neft sənayesinin istehsal fondlarıdır, bunlar bizimdir.

Bakının, Azərbaycanın infrastrukturunda nə qədər dəyişikliklər baş verir. Əgər biz iki il müddətində bu qədər dəyişikliklərin şahidiyiksə, təsəvvür edin, gələcək illərdə dəyişikliklər bir neçə qat artıq sürətlə genişlənəcək və inkişaf edəcəkdir.

Burada məni sevindirən cəhətlərdən biri də odur ki, cənab Terri Adams və onun müavinləri öz məruzələrində dünyanın inkişaf etmiş ölkələri tərəfindən bu müqaviləyə görə, onun həyata keçirilməsinə görə Azərbaycana sərmayə gətirmək meyllərinin nə qədər artdığını qeyd etdilər. Bu da bizim üçün çox əhəmiyyətli faktdır.

Birinci neft müqaviləsindən sonra daha iki neft müqaviləsi imzalanıbdır. Ancaq indi yeni neft yataqları üzərində nə qədər işlər gedir və bizə müraciətlər var. Məsələn, cənab Terri Adams dedi ki, Amerikanın ən böyük neft şirkəti olan "Ekson" şirkəti müqavilə imzalanandan sonra – 1995-ci ilin yayında bu konsorsiuma daxil oldu. Ancaq mən yenidən bu şirkətin prezidentindən məktub almışam. Onlar Xəzər dənizinin Azərbaycan sektorunda yeni yataqlar üzərində işləyirlər və burada müştərək iş görmək üçün bizim razılığımızı almaq istəyirlər.

Yaponiyanın "İtoçu" şirkəti artıq konsorsiuma daxil olub, burada öz nümayəndəliyini açıb və bizim neft sənayemizdə və sənayemizin başqa sahələrində iş görmək üçün bir çox təkliflər irəli sürübdür.

Dünən mən Böyük Britaniyanın baş naziri cənab Meycordan məktub almışam. O, məktubda yazır ki, Böyük Britaniyanın "Remko" şirkətinin, Fransanın "Total" şirkətinin və Amerikanın "Mobil" şirkətinin nümayəndələri bu günlərdə buraya gələcəklər. Müştərək iş görmək üçün onların təklifləri var. Cənab Con Meycor mənə müraciət edir ki, onların təkliflərinə diqqətlə baxılıb, bu təkliflərin həyata keçirilməsinə kömək edilsin.

Fransanın "Elf-akiten" şirkətinin bu müqavilədə yer alması mümkün olmasa da o, "Şahdəniz" müqaviləsində yer alıbdır, [392-393] onun hissəsi var və həmin şirkət bundan sonra da bir neçə neft yatağında müştərək iş görmək üçün müraciət edir.

Bunlar hamısı bizim iki il bundan öncə imzaladığımız müqavilədən bəhrələnən, yəni onun nəticəsi olan, baş verən hadisələrdir. Amma eyni zamanda əgər bu müqavilə əməli surətdə həyata keçirilməsəydi, Azərbaycan Respublikasında indi mövcud olan ictimai-siyasi sabitlik əldə olunmasaydı, Azərbaycanda demokratik dəyişikliklər, dövlətimizin, iqtisadiyyatımızın, cəmiyyətimizin demokratikləşməsi prosesi getməsəydi, dünyanın belə böyük, çox mötəbər, çox hörmətli neft şirkətləri və başqa şirkətlər Azərbaycana bu qədər maraq göstərməzdilər.

Hesab edirəm ki, bizim bu müştərək işimizin, iki il ərzində gördüyümüz işin gözəl əlamətlərindən biri də odur ki, biz bu gün dörd saatdan artıqdır ki, müştərək işimizi bir yerdə müzakirə edirik.

Biz Azərbaycanda bir çox müxtəlif müzakirələr, müşavirələr, beynəlxalq görüşlər keçirmişik. Amma bu tərkibdə, bu şəkildə müştərək işi müzakirə etməyimiz birinci dəfədir. Bu, çox sevindirici haldır. Mən bugünkü tərkibdə, bu məzmunda görüşdən və müzakirədən xeyli məmnun olduğumu bildirmək istəyirəm.

Mən çox tərifli sözlər dedim, güman edirəm ki, bunlar hamısı əsaslıdır. Amma eyni zamanda bunlar bizi heç də işimizdən soyutmamalıdır, əksinə, əldə olunan nailiyyətlər əsasında biz işimizi bundan sonra daha da sürətləndirməliyik. Bu, çox vacibdir. Çünki əldə olunan nailiyyətlərlə bərabər, işdə nöqsanlar da var, çatışmazlıqlar da var və məruzələr zamanı mən bu barədə öz fikrimi dedim. Bəzi məsələlərin yerinə yetirilməsi gecikdirilibdir, nəzərdə tutulan vaxtda olmayıbdır. Ona görə də biz bundan sonra çalışmalıyıq ki, bu nöqsanlar artıq olmasın.

Məsələn, verilən izahatlara baxmayaraq mən hesab edirəm ki, Qərb marşrutu ilə neft kəmərlərinin çəkilməsi gecikir. Çünki biz bu məsələ ilə çoxdan məşğuluq. Doğrudur, bu barədə qərar bu ilin əvvəlində qəbul olunubdur, ancaq bu marşrutun olması və mütləq ikinci bir marşrutun olması haqqında hələ keçən il müzakirələr aparılmışdır və bu barədə müəyyən hazırlıq işləri də görülmüşdür. Ona görə də bunun 1998-ci ilin axırına qədər uzadılması, mən hesab edirəm ki, məqsədə uyğun deyil. Doğrudur, mən indi bir şey edə bilmərəm, öz [393-394] fikrimi deyirəm, – bu, gərək daha tez olaydı və hesab edirəm ki, bunu daha tez etmək olardı. Çünki buna konsorsiumun da marağı var idi, Gürcüstan hökumətinin də marağı var idi, bizim də marağımız var idi. Bunu daha tez yerinə yetirmək olardı. Ancaq indi belə görünür ki, deyilən vaxtdan tez yerinə yetirmək mümkün deyil. Mən bunu ona görə deyirəm ki, artıq ondan da o tərəfə, yəni 1998-ci ilin sonundan o tərəfə keçməsin, burada gecikmə olmasın.

"Çıraq-2" platformasının yaranması haqqında burada deyilən fikirlər də çox maraqlıdır və mən hesab edirəm ki, bu işlə ciddi məşğul olmaq lazımdır. Mən Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə tapşırıram və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətindən rica edirəm ki, bu məsələyə konkret baxılsın və bu məsələnin necə həll olunması haqqında mənə məlumatlar verilsin.

Biz dünən görüşən zaman fikir mübadiləsində belə bir fikir də meydana çıxdı, – bu, konsorsium tərəfindən deyildi, – mən bunu çox sevinclə qəbul etdim ki, müqavilədə nəzərdə tutulmuş həcmdən də artıq neft hasil etmək, – yəni bu konsorsiumun çərçivəsində – imkanı var. Elədirmi? Dünən belə bir fikir söyləndi. Bu fikri mən tutdum, bunu çox əhəmiyyətli hesab edirəm və güman edirəm ki, bu fikrin, bu təklifin üzərində də işləmək lazımdır.

Mən bu gün böyük neft kəmərinin tikilməsi haqqında suallar verirdim. Nəhayət, cənab Terri Adams belə cavab verdi ki, bu, kommersiyadan asılı olacaq. Yəni əgər çox neft olsa, bu neft kəməri tikiləcəkdir, amma çox neft olmasa tikilməyəcəkdir.

Birincisi, hesab edirəm ki, müqavilədə nəzərdə tutulmuş həcmdə neft olacaqdır. Məhz onu əsas tutaraq, müqavilədə böyük neft kəmərinin tikilməsi və onun 54 aya hazır olması yazılıbdır.

İkincisi də, onu nəzərə almaq lazımdır ki, bu müqavilədən sonra biz daha iki müqavilə imzalamışdıq: "Qarabağ" neft yatağı ilə əlaqədar müqavilə, sonra da "Şahdəniz" neft yatağı ilə əlaqədar müqavilə. Başqa neft yataqları da var, biz onların üzərində işləyirik və bizim konsorsiumun üzvləri də yaxşı bilirlər – onların şirkətlərinin bir çoxu o yataqlara böyük maraq göstərir. Orada bizim ehtiyatlarımız var və nəhayət, bilirsiniz [394-395] ki, "Şevron" şirkəti Qazaxıstanda çıxarılan neftin bir hissəsini Azərbaycan ərazisindən nəql etmək istəyir. Mən səhv etmirəmsə, sabah "Şevron" şirkətinin prezidenti buraya gələcək və bizimlə görüşəcəkdir. Bunlar hamısı böyük neft kəmərinin tikilməsi üçün əvvəlki illərdə, məsələn, iki il bundan öncə nəzərdə tutulduğundan da çox əsas yaradır. Ona görə də bu barədə əməli iş görmək lazımdır.

Cənab Terri Adams dedi ki, böyük neft kəməri üçün bir neçə marşrutun variantı var. Bu, həqiqətdir, bu variantlar çoxdan mövcuddur və dəfələrlə müzakirə olunub. Heç bizim özümüzdən asılı olmayaraq, onlar dünyanın bəzi beynəlxalq maliyyə mərkəzlərində, ayrı-ayrı ölkələrdə müzakirə olunur. Məsələn, Avropa Birliyinin nümayəndə heyəti bir neçə gün bundan öncə buraya gəlmişdi. Onlar bu məsələni müzakirə edirlər. Bu məsələ Vaşinqtonda, Dünya Bankında da müzakirə olunur. Avropa Birliyi Azərbaycanın Xəzər dənizində olan neft yataqlarına və bu kəmərin tikilməsinə böyük maraq göstərir, başqa Qərb ölkələri də maraq göstərirlər. Odur ki, bu barədə artıq əməli tədbirlər görməliyik.

Ona görə də mən cənab Terri Adamsdan rica edirəm, – bu barədə tədbirlərimizi konkretləşdirməliyik və müəyyənləşdirməliyik ki, nə vaxt təkliflər alacağıq. Natiq Əliyevə göstəriş verirəm ki, bu məsələ ilə məşğul olsun və mənə bildirsin ki, nə vaxt bu konkret təklifləri ala biləcəyik ki, müzakirə edək.

Mən şəxsən belə fikirdəyəm ki, belə bir neft kəmərinin tikilməsinə ehtiyac var. Bu ehtiyac gün-gündən artır və biz bu məsələni gecikdirməməliyik. Şübhəsiz ki, bütün görülən işlər kommersiya prinsiplərindən asılıdır. Burada kommersiya prinsiplərinə uyğun olmayan heç bir iş görülə bilməz. Bu, şübhəsizdir.

Cənab Makhafinin sözündən mən belə başa düşdüm ki, konsorsium, yəni Beynəlxalq Əməliyyat Şirkəti işlədiyi binaya artıq yerləşmir. Görürəm ki, onlar yeni bina gözaltı eləyiblər, almaq istəyirlər. Mən əvvəlcədən deyirəm, Beynəlxalq Əməliyyat Şirkətinin bu barədə bütün təkliflərini dəstəkləyirəm və bundan sonra da kömək edəcəyəm ki, siz yaxşı iş şəraiti qura biləsiniz. [395-396]

Ümumiyyətlə, bu gün bilmək lazımdır ki, müqavilə 30 üçün il nəzərdə tutulubdur. Biz 30 il bir yerdə olacağıq. Buna heç kəsin şübhəsi olmasın. Keçən iki il onu göstərdi ki, işlər çox uğurla gedir. Deməк, get-gedə bizim işlərimiz genişlənəcəkdir. Amma mən hesab edirəm ki, 30 il birinci müqavilənin vaxtıdır. Biz 30 ildən sonrakı on illərdə də bir yerdə olacağıq. Mən buna əminəm.

Mən bu gün bir daha bildirirəm ki, Xəzər dənizinin Azərbaycan sektorunda olan neft yataqlarının dünyanın inkişaf etmiş şirkətləri ilə müştərək işlənməsi prinsipini Azərbaycan üçün, Azərbaycanın iqtisadiyyatı üçün çox uğurlu hesab edirəm və bundan sonra da məhz bu prinsiplər əsasında müştərək işimizi davam etdirməyə çalışacağıq.

Mən bunu dəfələrlə demişəm və bu gün bir daha Azərbaycan ictimaiyyəti üçün deyirəm ki, bunlar həm Azərbaycanın iqtisadiyyatı üçün, həm Azərbaycanın coğrafi-siyasi vəziyyəti üçün, həm Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək və gücləndirmək üçün düzgün yoldur və biz bundan sonra da bu yolla gedəcəyik.

Bu gün burada meydana çıxan bəzi məsələlərin həyata keçirilməsi üçün və şübhəsiz ki, müzakirənin yekunları üçün bir sənəd əldə etmək lazımdır. Mən belə fikirdəyəm ki, bu müzakirənin yekunu ilə əlaqədar bir qərar, sərəncam imzalayacağam və Artur Rasizadəyə, Vahid Axundova, Natiq Əliyevə və bizim şöbə müdiri Şahin Əliyevə tapşırıram: burada bir çox məsələlər var, mən göstərişlər vermişəm, – onların hamısını və mən indi demədim, ancaq müzakirə vaxtı bir neçə məsələ meydana çıxdı, o barədə mən göstərişlər verdim, – bunların hamısını cəmləyib, sabaha bir sərəncam layihəsi hazırlayasınız, bunu mən imzalayacağam. Burada müəyyən təkliflərimi də əks etdirəcəyəm.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə bu iki il müddətində görülən işlərə görə bir daha təşəkkür edirəm. Bu işlərin daha da sürətlə aparılması üçün həm Beynəlxalq Əməliyyat Şirkətinə, həm də Azərbaycan Dövlət Neft Şirkətinə uğurlar arzulayıram.

Respublikanın bütün orqanları – nazirliklər, komitələr, ayrı-ayrı konsernlər, Nazirlər Kabineti, Prezidentin İcra Aparatı bu məsələlərin həyata keçirilməsi üçün lazımi kömək göstərməlidirlər.

Sağ olun. Gələn görüşlərədək. [396-397]

## AZƏRBAYCAN ELMİ-TƏDQİQAT OFTALMOLOGİYA İNSTİTUTUNA

Sizi, Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun əməkdaşlarını, 50 illik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

İnstitutunuzun respublikada göz xəstəliklərinin müalicəsi və oftalmologiya elminin inkişafındakı xidmətləri yüksək qiymətə layiqdir. Əlli illik tarixiniz boyu əldə etdiyiniz nailiyyətlərin ən uğurlusu traxoma kimi təhlükəli xəstəliyin bütövlükdə respublikada ləğv edilməsi olmuşdur.

Azərbaycanda göz xəstəliklərinin diaqnostikası və müalicəsinin elmi əsaslarının işlənməsində, onların praktikada tətbiq olunmasında, oftalmologiya sahəsində kadrların hazırlanmasındakı nailiyyətləriniz respublikada səhiyyə sisteminin inkişafına böyük təsir göstərmişdir.

İnstitutda yetişmiş güclü oftalmoloqlar nəsli xalqımızın etimadını qazanmış, onların bir qismi öz elmi və praktiki işləri ilə ölkəmizin hüdudlarından kənarda tanınmışdır.

Əminəm ki, institutun gözəl ənənələrini davam etdirərək bundan sonra da müstəqil Azərbaycan Respublikasında oftalmologiya elminin inkişaf etdirilməsi, xalqımızın sağlamlığının qorunması yolunda daha böyük əzmlə çalışacaqsınız.

Sizə bu nəcib işinizdə uğurlar arzulayır, hər birinizə cansağlığı, səadət diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*11 oktyabr 1996-cı il* [397-398]

## BAKIDA AZƏRBAYCAN-FRANSA DANIŞIQLARINDAN SONRA FRANSANIN XARİCİ İŞLƏR NAZİRİ ERVE DE ŞARETT İLƏ BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Prezident Sarayı*

*11 oktyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Azərbaycana gələn Fransanın xarici işlər naziri cənab Erve de Şarettlə bizim uzunmüddətli söhbətimiz, danışıqlarımız oldu. Biz ən əvvəl iqtisadiyyat, mədəniyyət, elm sahəsində dövlətlərarası münasibətlərimizin daha da inkişaf etdirilməsi məsələlərini və təbii olaraq, ölkələrimiz arasında siyasət sahəsində münasibətlərin inkişafı məsələlərini müzakirə etdik. Biz iqtisadi əməkdaşlığımızın bir neçə konkret məsələsini, o cümlədən də Fransanın "Elf-akiten" şirkətinin Azərbaycan Dövlət Neft Şirkəti ilə, digər şirkətlərlə əməkdaşlığı daha da genişləndirmək imkanlarını, məsələn, Bakı sement zavodunun yenidən qurulması və inkişaf etdirilməsi, Bakı şəhərinin su təchizatını yaxşılaşdırmaq layihəsində Fransa firmasının iştirakı imkanlarını və bəzi digər layihələri nəzərdən keçirdik.

Ermənistan-Azərbaycan münaqişəsi məsələsi və ümumiyyətlə, Qafqazda gedən münaqişələrin dincliklə həlli məsələsi danışıqlarımızda xüsusi yer tutmuşdur. Biz Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılması barəsində öz mövqeyimizi cənab nazirə şərh etdik. Mən bildirdim ki, biz Ermənistan ilə Azərbaycan arasında tam sülh haqqında saziş imzalanan vaxtadək atəşkəs rejiminə əməl edəcəyik. Mən Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılmasına dair bizim dəqiq və aydın mövqeyimizi cənab nazirə şərh etdim. Bizim mövqeyimiz bundan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı, işğal edilmiş ərazilərdəki yaşayış yerlərindən didərgin salınmış Azərbaycan qaçqınları öz doğma ocaqlarına qayıtmalı, bütlü işğalçı qoşunlar Azərbaycan ərazisindən çıxarılmalıdır. Bu zaman Dağlıq [398-399] Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək muxtariyyət statusu veriləcəkdir. Mən məmnunam ki, cənab nazirin bildirdiyi kimi, Fransa Qafqazda sülhün bərqərar edilməsi, Ermənistan-Azərbaycan münaqişəsinin dincliklə aradan qaldırılması mövqelərində möhkəm dayanmışdır. Mən cənab nazirin belə bir bəyanatından məmnunam ki, Fransa beynəlxalq aləmdə tanınmış prinsiplərə hər bir ölkənin ərazi bütövlüyü haqqında, qaçqınların öz yaşayış yerlərinə qayıtmaq hüququ haqqında ATƏT-in prinsiplərinə sadiq olaraq qalır.

Mən məmnunam ki, hazırda Fransa-Azərbaycan münasibətləri yaxşı səviyyədədir. Lakin bununla bərabər bizim qonağımız kimi, mən də hesab edirəm ki, bu münasibətlərin daha da inkişaf etdirilməsi və genişləndirilməsi zəruridir və bundan ötrü böyük imkanlar mövcuddur. Mən cənab nazirin belə bir məlumatını məmnunluqla qarşıladım ki, Fransa prezidenti cənab Jak Şirak 1997-ci il yanvarın əvvəlində Fransaya rəsmi səfər etmək haqqında Azərbaycan prezidentinə öz dəvətini təsdiqləyir.

Mən apardığımız danışıqlardan, söhbətdən razıyam. Buna çoxlu vaxt sərf etdiyimizə görə hətta qrafikdən çıxdıq. Lakin mən bunu istər Azərbaycan üçün, istərsə də Fransa üçün faydalı sayıram. Bu gün söhbətlərimiz və danışıqlarımız hələ davam etdiriləcəkdir. Diqqətinizə görə sağ olun. [399-400]

## BAKIDA FRANSA SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*11 oktyabr 1996-cı il*

Hörmətli cənab nazir!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Fransanın Azərbaycandakı səfirliyinin gözəl binasının açılışı münasibətilə sizi təbrik edirəm. Bu səfirlik ölkəmizdə 1992-ci ildən fəaliyyət göstərir. Həmin vaxt ərzində Fransanın səfiri, hörmətli Jan Perrən daim Bakıda Fransa səfirliyi üçün layiqli bina axtarırdı və axırda şəhərin mərkəzindəki bu tarixi binanı seçdi. Bu binanı boşaltmaq və Fransa səfirliyinin ixtiyarına vermək üçün çox çətinlikləri aradan qaldırmaq lazım gəldi. Mən bu işə, eləcə də binanın tezliklə səfirliyin tələblərinə uyğun vəziyyətə salınmasına hər cür kömək göstərmişəm. Bu gün şadam ki, bütün bunlar indi arxada qalmışdır.

Şübhəsiz ki, bu işin uzanması həm Fransa hökumətini, həm də Azərbaycan hökumətini narahat edirdi. Lakin bunda müsbət bir əlamət də var. Bu da ondan ibarətdir ki, biz Fransanın xarici işlər naziri cənab Erve de Şarettin Bakıya gəlməsini gözləyirdik ki, səfirliyin binasını onun iştirakı ilə açaq.

Sevinirəm ki, biz Fransa səfirliyinin Bakıda yeni binasını həm Fransada, həm də Azərbaycanda çox hörmət bəslənilən məhz Fransa xarici işlər naziri ilə birlikdə açırıq. Bu, Fransa Azərbaycan münasibətləri üçün tarixi hadisədir. İllər, onilliklər ötəcək, münasibətlərimiz şübhəsiz ki, genişlənəcək və inkişaf edəcəkdir. Lakin xarici işlər naziri cənab Erve de Şarettin iştirakı ilə Fransanın Azərbaycandakı səfirliyinin yeni binasının açıldığı bu gün tarixə həmişəlik daxil olacaqdır.

Fransa səfirliyinin əməkdaşlarına bu yeni binada uğurla işləməyi arzulayıram. Bina həqiqətən də səfirliyin tələblərinə tam cavab verir, xüsusən də ona görə ki, Fransada memarlıq abidələri sayılan tarixi binaları sevirlər. [400-401]

Bu bina Bakının tarixi mərkəzində yerləşir. Deməli, indi Fransa hökumətinin və Xarici İşlər Nazirliyinin öz səfirliyindən daha yüksək səviyyədə işləməyi tələb etməyə əsası var.

Bu binanın məhz indi açılması Fransanın Azərbaycandakı yeni səfirinə müəyyən dərəcədə hədiyyədir. İndi biz ona deyə bilərik – bir halda ki, sizə belə gözəl bina vermişik və onun açılışında Fransanın xarici işlər naziri ilə birlikdə Azərbaycan prezidenti də iştirak edir, onda, buyurun, işdə yaxşı nəticələr göstərin. Bu nəticələr isə ölkələrimiz arasında dostluq və əməkdaşlığın genişləndirilməsindən, Fransada Azərbaycan, onun xalqı haqqında obyektiv rəy yaradılmasından ibarət olmalıdır. Fransızları inandırmaq lazımdır ki, Azərbaycan Fransanın dostudur.

Bizim Azərbaycanda Fransanı təbliğ etməyimizə elə bir ehtiyac yoxdur. Bu ölkəni, onun zəngin tarixini, fransızların Dünya Birliyindəki xidmətlərini yaxşı bilirik. Hesab edirəm ki, Fransa səfirliyi fransızların və azərbaycanlıların görüş yeri olacaq, Fransa-Azərbaycan dostluğunun daha da möhkəmlənməsinə xidmət edəcəkdir.

Fransa xalqına xoşbəxtlik və tərəqqi arzulayıram.

Yaşasın Fransa, yaşasın Fransa Respublikası! [401-402]

## FRANSANIN XARİCİ İŞLƏR NAZİRİ ERVE DE ŞARETTİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA ÇIXIŞ

*"Gülüstan" sarayı*

*11 oktyabr 1996-cı il*

Hörmətli cənab nazir, möhtərəm qonaqlar, xanımlar və cənablar!

Bu gün Azərbaycanda biz Fransanın xarici işlər naziri cənab Erve de Şaretti və onun başçılıq etdiyi nümayəndə heyətini qəbul edirik. Fransa Respublikası xarici işlər nazirinin Azərbaycana ilk səfəri Fransa-Azərbaycan münasibətlərində əlamətdar hadisədir və bunu əsas tutaraq biz bu səfərə böyük əhəmiyyət veririk.

Azərbaycan ilə Fransa arasında münasibətlərin qısa, lakin çox yaxşı tarixi var və bu tarix Azərbaycan öz dövlət müstəqilliyini əldə etdiyi vaxtdan başlayır. Bu gün keçmişdə Fransa ilə Azərbaycan arasında mövcud olmuş böyük tarixdən də danışmaq olardı. Ancaq dövlətlərarası münasibətlərimiz Azərbaycan öz dövlət müstəqilliyini elan etdiyi vaxtdan başlayır. Bu gün razılıq hissi ilə demək istəyirəm ki, Fransa Azərbaycanın dövlət müstəqilliyini tanıdığını dərhal elan etmiş və onunla diplomatik münasibətlər yaratmışdır.

1992-ci ilin əvvəllərində, yəni ölkələrimiz arasında diplomatik münasibətlər yaradıldıqdan sonra tezliklə Fransa Azərbaycanda öz səfirliyini açmışdır. Bu, kifayət qədər inandırıcı sübutdur ki, Fransa Azərbaycanın müstəqilliyini tanıyaraq, ölkəmizlə münasibətlərin inkişafına böyük əhəmiyyət vermişdir və verir. Ola bilsin ki, başlanğıc mərhələdə münasibətlərimiz lazımınca inkişaf etdirilməmişdir. Buna baxmayaraq, ölkələrimiz arasında diplomatik münasibətlər yaradıldıqdan sonra ötən illərdə əldə olunmuş nə varsa, hamısı kifayət qədər yüksək qiymətə layiqdir.

Azərbaycan öz müstəqilliyini elan etdiyi dövrdə onun Ermənistanla hərbi münaqişə vəziyyətində olması və Fransanın Ermənistanla çox yaxın münasibətlər, dostluq münasibətləri [402-403] saxladığı barədə ölkəmizdə fikirlər söylənməsi ilə əlaqədar belə bir əhval-ruhiyyə yaranmışdır ki, Azərbaycan Fransa ilə sıx dostluğa və əməkdaşlığa malik ola bilməz. Lakin bu fikir səhv və əsassızdır. Bunu münasibətlərimiz bərqərar olub sabitləşdikdən sonra keçən dövr də sübut etmişdir.

Məmnunluq hissilə qeyd etmək istəyirəm ki, üç il bundan əvvəl mən Azərbaycan prezidenti seçildikdən sonra tezliklə xaricə ilk rəsmi dövlət səfərimi Fransa prezidenti, mərhum Fransua Mitteranın dəvətilə bu ölkəyə etdim. Bu, 1993-cü ilin dekabrında olmuşdur. O vaxt biz nəinki prezidentlə, həm də xarici işlər naziri ilə, Senatda, parlamentdə çox səmərəli danışıqlar, kifayət qədər ətraflı söhbətlər apardıq, başlıcası isə çox mühüm dövlətlərarası sənədlər imzaladıq.

Ötən illər ərzində Fransa ilə Azərbaycan arasında münasibətlər dönmədən inkişaf etmiş və genişlənmişdir. Bu gün cənab nazir ilə danışıqlar zamanı bir yekdil fikirdə olduq ki, bu münasibətlər yaxşı səviyyəyə çatmışdır. Bununla yanaşı, biz bu qənaətə gəldik ki, münasibətlərimizin daha da dərinləşməsi və genişlənməsi üçün imkanlar var. Bu isə Fransa və Azərbaycanın maraqlarına tamamilə uyğundur.

Bir daha bildirmək istəyirəm ki, Azərbaycan Fransa ilə əlaqələrin daha da dərinləşməsini arzulayır və bundan sonra da hər şey edəcəkdir ki, əməkdaşlığımız bütün sahələri əhatə etsin. Təbiidir ki, biz iqtisadi, siyasi maraqları, mədəniyyət, elm və təhsilin daha da inkişaf etdirilməsi maraqlarını əsas tuturuq.

Fransa zəngin tarixə, mədəniyyətə, ənənələrə malik bir ölkədir. Azərbaycanda çoxları Fransa tarixini, onun yazıçılarının əsərlərini, mədəniyyət xadimlərini, habelə dünya sivilizasiyasına bu ölkənin verdiyi böyük töhfəni yaxşı bilir və tanıyırlar. Biz demokratiya prinsiplərinin, habelə demokratik dövlət quruluşunun bərqərar olmasında Fransanın xidmətlərini də yüksək qiymətləndiririk. Bu prinsipləri görkəmli fransızlar Jan Jak Russo, Monteskye, Didro işləyib hazırlamış, sonra da Fransanın dövlət, siyasi xidmətlərinin gələcək nəsilləri inkişaf etdirmişlər. İndi həmin prinsiplər demokratik inkişaf yolu seçmiş dövlətlər üçün demokratik prinsiplərin işlənib hazırlanmasında və həyata keçirilməsində əsasdır. Biz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət quraraq, bütün dünya təcrübəsindən, o cümlədən Fransanın təcrübəsindən bəhrələnirik. [403-404] Fransa dövlətçiliyinin, demokratiyasının tarixi yoluna və təbii, bu ölkənin indiki reallıqlarına müraciət edirik. Keçən il biz müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasını qəbul etdik. Onun layihəsi hazırlanarkən şəxsən mən özüm müasir Fransa Konstitusiyasına, ötən onilliklər ərzində Fransada konstitusiya yaradıcılığına, konstitusiyalı quruluşa dəfələrlə müraciət etdim. Azərbaycanda nəinki indi, həm də on illərlə bundan əvvəl Fransa anlayışı həmişə yüksək mədəniyyətlə, savad və ziyalılıqla bağlanmışdır. Bütün bunlar azərbaycanlıların bir çox nəsillərinə Fransa tarixinə, mədəniyyətinə, mədəni-mənəvi dəyərlərinə ehtiram hissləri aşılamışdır. Hazırda Fransa Respublikası öz zəngin tarixi ənənələrindən istifadə edərək, onun əcdadlarının müəyyənləşdirdiyi yol ilə qətiyyətlə gedir və öz ölkəsini Dünya Birliyində layiqincə təmsil edir.

Azərbaycan gənc müstəqil dövlətdir. Biz tarixi keçmişimizi nəzərə alaraq, müstəqilliyi tarixi nailiyyət kimi

çox yüksək qiymətləndiririk. Bu gün fürsətdən istifadə edərək bir daha bildirirəm ki, Azərbaycanın dövlət müstəqilliyi dönməzdir və biz müstəqilliyimizə, milli azadlığımıza qəsd olunmasına heç vaxt yol verməyəcəyik. Müstəqillik hissi bizə xüsusilə yaxın və əzizdir. Bununla əlaqədar demək olar ki, fransızlar öz müstəqilliyini həmişə əziz tutmuşlar, bütün dövrlərdə öz dövlət müstəqilliyi mövqeyində möhkəm dayanmışlar. İndi də İkinci dünya müharibəsindən sonra, o vaxtlar Avropada, bütün dünyada baş vermiş proseslər zamanı da Fransa özgürlüyünü, öz müstəqilliyini qorumuşdur və qoruyur. Bu, bizim üçün əyani və layiqli nümunədir. Biz öz dövlət müstəqilliyimizi daha da möhkəmlətməyə çalışaraq dünyanın bütün ölkələri ilə səmimi, təmiz, şərəfli münasibətlər yaradır və mütəqabilliyə ümid bəsləyirik. Məndə əsla şübhə yoxdur ki, Fransa ilə Azərbaycan arasında, xalqlarımız arasında dövlətlərarası münasibətlər həmişə mənəvi paklığı, səmimiliyi, açıqlığı ilə, ümumbəşəri dəyərlərə və demokratik prinsiplərə sadiqliyi ilə səciyyələnəcəkdir.

Azərbaycanın qarşısında da çox mürəkkəb problemlər durur, biz onların uğurla aradan qaldırılmasına çalışırıq. Ermənistan-Azərbaycan münaqişəsi beynəlxalq xarakter alan problem olmuşdur. Bu münaqişə nəticəsində erməni silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişlər. Azərbaycanın ərazi bütövlüyü pozulmuş, bir milyondan çox vətən[404-405]daşımız öz doğma yurdlarından didərgin salınmışdır. Onlar çox ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayır. Böyük itkilərə, Azərbaycana çox böyük mənəvi və maddi ziyan vurulmasına baxmayaraq, biz Ermənistan-Azərbaycan münaqişəsinin dinclikIə aradan qaldırılması, regionumuzda möhkəm sülh yaradılması mövqelərində durmuşuq. Münaqişənin dinclikIə aradan qaldırılması yalnız hamılıqla qəbul edilmiş prinsiplərin, beynəlxalq hüquq normalarının gözlənilməsi təqdirdə real ola bilər. Bu isə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, onun işğal altındakı torpaqlarının azad edilməsi, qaçqınların öz yaşayış yerlərinə qayıtması, Dağlıq Qarabağda erməni əhaliyə təhlükəsizlik üçün təminatlar və yüksək muxtariyyət statusu verilməsi deməkdir.

Bizim əsas götürdüyümüz dinclikIə nizamasalma prinsipləri beynəlxalq aləmdə tanınmış prinsiplərdir. Bunlar ATƏT-in prinsipləridir, bu gün cənab nazirin bəyanatından öyrəndiyim kimi, Fransa Respublikasının da rəhbər tutduğu prinsiplərdir. Biz Ermənistanla Azərbaycan arasında münaqişənin dinclikIə aradan qaldırılmasına, bölgəmizdə, Qafqazda sülhə nail olacağıq. Biz münaqişələrin, separatizmin, terrorizmin, hər hansı formada təcavüzün əleyhinəyik. Bu gün biz həmin məsələlər barəsində fikir mübadiləsi etdik və bir çox məsələlərdə qarşılıqlı anlaşma və baxışların uyğun gəldiyi aşkara çıxarıldı. Ümidvaram ki, Azərbaycanın, bütün regionun bu problemlərinin həllində biz Fransa Respublikasının bundan sonra da dəstəyini alacağıq.

Hesab edirəm ki, xarici işlər nazirinin, tərkibində Fransa parlamentinin. Senatının üzvləri də olan böyük və mötəbər nümayəndə heyətinin Azərbaycana səfəri ölkələrimiz arasında dostluq münasibətlərinin daha da inkişaf etməsinə, əməkdaşlığın möhkəmlənməsinə təkan verəcəkdir. Ümidvaram ki, bizim bu söhbətləri, danışıqları Fransada davam etdirməyə imkanımız olacaqdır. Mən Fransa prezidenti cənab Jak Şirakın dəvətindən hökmən istifadə edəcək və Parisə gələcəyəm. Mən bu təklifi yüksək qiymətləndirirəm və ona Azərbaycana, Fransa- Azərbaycan münasibətlərinə diqqətin təzahürü kimi [405-406] baxıram. Biz Fransa ilə dostluğu və əməkdaşlığı ürəkdən istəyirik.

Fransa Respublikasının şərəfinə, Fransa xalqının şərəfinə, Fransa dövlətinin şərəfinə badə qaldırmağı təklif edirəm. Fransa prezidenti hörmətli cənab Jak Şirakın sağlığına! Fransanın xarici işlər naziri cənab Erve de Şarettin sağlığına, onun xanımının sağlığına! Fransa nümayəndə heyəti üzvlərinin sağlığına, Fransa parlamentinin və Senatının şərəfinə! Fransa qanunvericilik orqanının burada olan nümayəndələrinin sağlığına! Fransızların sağlığına, Fransanın şərəfinə! Sizin sağlığınıza! [406-407]

## AZƏRBAYCANDA QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN PROBLEMLƏRİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ KONFRANSDA NİTQ

*Bakı, Hökumət Evinin iclas salonu*

*16 oktyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Mən sizi – Azərbaycan Respublikasında qaçqınların və məcburi köçkünlərin problemlərinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarını ürəkdən salamlayıram və konfransınıza işində müvəffəqiyyətlər arzulayıram.

Asiya Müsəlmanları Komitəsinin, Beynəlxalq İslam "Nicat" Təşkilatının təşəbbüsü ilə Azərbaycanda keçirilən bu konfrans respublikamız, xalqımız üçün böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, dünyada qaçqınların və məcburi köçkünlərin problemləri ən mühüm, vacib və Dünya Birliyini, beynəlxalq təşkilatları, sülhsevər insanları maraqlandıran və narahat edən problemlərdən biridir. Asiya Müsəlmanları Komitəsinin, Beynəlxalq İslam "Nicat" Təşkilatının bu problemə mühüm maraq göstərməsi və xüsusən, bu problemin Azərbaycanda çox kəskin vəziyyətdə olmasına qayğı göstərməsi və bununla əlaqədar xüsusi konfransın keçirilməsi yüksək təqdirə və qiymətə layiqdir, çox əhəmiyyətlidir.

Mən xüsusi qeyd etmək istəyirəm ki, bu konfransın keçirilməsi, Azərbaycan Respublikasının yaşadığı indiki ağır keçid dövründə onun həyatını gərginləşdirən bu problemlərlə tanışlıq və onların həllinə yardım məhz İslam təşkilatının, birliklərinin təşəbbüsü ilə olubdur. Asiya Müsəlmanları Komitəsi və Beynəlxalq İslam "Nicat" Təşkilatı bir çox müsəlman ölkələrinin nümayəndələrini də bu konfransa dəvət ediblər. Beləliklə, bu konfrans öz sosial-iqtisadi xarakteri ilə yanaşı, eyni zamanda çox böyük mənəvi xarakter daşıyır. Bu, İslam dininə, İslam prinsiplərinə uyğun olan ənənələrin həyata keçirilməsinin və davam etdirilməsinin təzahürüdür. [407-408]

İnsanpərvərlik, sülhsevərlik, məzlumlara, ağır vəziyyətdə yaşayanlara qayğı, yardım etmək, həyatda çətinliklərlə üzləşənlərə, nicat yolu axtaranlara yol göstərmək prinsiplərini İslam özünün əsas prinsipləri edibdir. İslam dini, mənəviyyatı, ənənələri məhz belə ümumi, bəşəri dəyərlər üzərində qurulub, yaranıb, əsrlərdən-əsrlərə inkişaf edib və bu gün də öz humanistliyini, sülhsevərliyini, insanpərvərliyini bütün dünyaya nümayiş etdirir.

Azərbaycan xalqı bunların hamısını yaxşı dərk edir. 70 ildən çox müddətdə öz mənəvi dəyərlərindən, tarixi ənənələrindən, dinindən təcrid olan Azərbaycan xalqı heç vaxt özünün islamiyyətə mənsub olduğunu unutmayıbdır, bu mənəvi dəyərlərdən heç vaxt ayrılmayıbdır, daim bu mənəvi dəyərlərə, islamiyyətə tamamilə qovuşmaq, qoşulmaq arzuları ilə yaşayıbdır. Azərbaycan xalqı öz milli azadlığına nail olandan, dövlət müstəqilliyini bərpa edəndən sonra ölkəmizdə insanların bu müqəddəs hissiyyatlarını, arzularını həyata keçirmək üçün bütün imkanlar yaranıbdır. Bu hissiyyatlar o qədər güclü, yaşamağa qadir olubdur ki, onlar on illərlə məhrumiyyətdə qaldığı bir dövrdə ölməyib, öz gücünü itirməyibdir, yaranmış şəraitdən dərhal istifadə edərək özünü çox sürətlə büruzə veribdir. Bunların hamısı müstəqil Azərbaycan Respublikasının bugünkü gerçəkliyidir. Bunlar Azərbaycan xalqının öz milli, dini, mənəvi dəyərlərinə sadiqliyinin təzahürüdür. Bu isə bizi daha da birləşdirir, Azərbaycan xalqı ilə İslam dininə mənsub olan digər xalqlar arasında əlaqə yaradır, onu genişləndirir və inkişaf etdirir.

Bizim dövlət siyasətimizdə və xalqımızın istək-arzularında bu hissiyyatlar indi özünə layiq yer tutubdur. Azərbaycan bir müstəqil dövlət kimi dünyanın bütün ölkələri, dövlətləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurur, öz dövlət müstəqilliyini günü-gündən möhkəmləndirir. Azərbaycan artıq bütün beynəlxalq təşkilatların üzvüdür, beynəlxalq aləmdə özünə layiq yer tutubdur. Azərbaycan eyni zamanda İslam Konfransı Təşkilatının üzvüdür. Azərbaycan İslam Konfransı Təşkilatına daxil olan ölkələrin hamısı ilə bu çərçivədə daha sıx əlaqələr yaratmaq, inkişaf etdirmək əzmindədir. Biz bu siyasətimizi bundan sonra da davam etdirəcəyik.

Bizim azərbaycanlılar, Azərbaycan müsəlmanları dinimiz üçün müqəddəs olan ziyarətgahları çox böyük arzu və istəklə ziyarət edirlər. Səudiyyə Ərəbistanının məliki, iki müqəddəs [408-409] şəhərin xadiminin dəvəti ilə mən 1994-cü ildə bu ölkəyə rəsmi səfərə getmişdim. Biz müsəlmanlar üçün ən müqəddəs yerlər olan Məkkəni, Mədinəni, Kəbəni ziyarət etməyimi həyatımın ən xoşbəxt səhifələrindən biri hesab edirəm.

Hesab edirəm ki, bu hissiyyatlar bizə bütün çətinliklərdən çıxmaqda kömək edib və bundan sonra da kömək edəcəkdir.

Bu baxımdan Azərbaycan Respublikasının həyatında və onun ətrafında gedən proseslər bütün İslam ölkələrini, dövlətlərini daha çox maraqlandırmalıdır, onların diqqətini, qayğısını cəlb etməlidir. Dünyaya məlumdur, bizim hörmətli qonaqlarımız da bilirlər ki, Azərbaycan Respublikasının ərazisinə, dövlətçiliyimizə 8

il bundan əvvəl qonşu Ermənistan tərəfindən hərbi təcavüz nəticəsində Azərbaycan Respublikasının ərazisinin 20 faizi işğal olunmuş və həmin ərazilərdən 1 milyondan çox azərbaycanlı, müsəlman yerindən-yurdundan didərgin düşübdür, qaçqın, köçkün olubdur. Onlar bir neçə ildir ki, çox ağır vəziyyətdə yaşayırlar, Azərbaycanın 58 rayonunda, şəhərində, məntəqələrində məskunlaşıblar. Əksəriyyəti çadırlarda yaşayır. İndi çadırda yaşamaq çox çətindir.

Keçmişdə, min illər bundan əvvəl ulu babalarımız çadırlarda yaşayıblar. Ərəbistanın səhralarında da, Azərbaycanda da çadırlar çox olubdur. Ancaq dünya da, ölkələrimiz də inkişaf edib, insanlar özlərinə yaşayış evləri, binaları tikiblər, müasir tələblərə uyğun olan şəraitdə, evlərində yaşayırlar və yaşamalıdırlar. Ancaq təsəvvür edin, yerini-yurdunu, varını-yoxunu itirmiş azərbaycanlılar, müsəlmanlar üç-dörd ildir ki, çadırlarda yaşayırlar. Yayda qızmar isti, ağır hava şəraiti, çadırların ərazisində insan üçün zərərli olan cürbəcür həşəratlar, qışda isə qar, çovğun, soyuq, yağış. Təsəvvür edin, azərbaycanlılar nə qədər dözümlü insanlardır! Şübhəsiz ki, bunlar da bizim müsəlmanlara, mənəvi dəyərlərimizə xas olan xüsusiyyətlərdir. Ancaq nə biz, nə də dünya ictimaiyyəti, İslam aləmi, İslam təşkilatları heç vəchlə belə vəziyyətlə razılaşa bilməzlər. Bu, xalqımıza qarşı olan, hərbi təcavüz, ədalətsizlikdi, xalqımızın əsarətdə saxlanılması üçün edilən cəhdlərdir.

Azərbaycanın işğal edilmiş ərazilərində ölkəmizin, xalqımızın, millətimizin varidatı viran olunubdur. Minlərlə, on minlərlə yaşayış binaları, istehsal müəssisələri, məktəblər, xəstəxanalar, mədəniyyət sarayları, məscidlər, məbədlər, tarixi abidələr, İslamın müqəddəs abidələri viran olunubdur. Şübhə[409-410]siz ki, bunlar hamısı insaniyyətdən kənar keyfiyyətlərdir, vəhşilikdir. Ancaq təəssüflər olsun ki, XX əsrin sonunda, dünya yüksək mədəni səviyyəyə çatdığı bir zamanda biz burada, Qafqazda, Azərbaycan ərazisində, müsəlman diyarında, torpağında belə vəhşiliklərlə rastlaşırıq.

Azərbaycan xalıq sülhsevər xalqdır. Müstəqil Azərbaycan Respublikası, dövləti sülhsevər siyasət aparır. Biz yaranmış bu hərbi münaqişəni sülh yolu ilə həll etməyə çalışırıq. Azərbaycan Respublikasının ərazisinin böyük bir qisminin işğal altında olmasına baxmayaraq, xalqımıza, millətimizə, ölkəmizə vurulan bu maddi, mənəvi zərbələrə, böyük insan itkilərinə, tökülən qanlara, verilən qurbanlara baxmayaraq, onların ruhuna sadiq qalaraq biz məsələni sülh yolu ilə həll etmək istəyirik.

Bu münasibətlə, bu siyasət əsasında biz 1994-cü ilin may ayında döyüşləri dayandırmaq üçün Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş imzalamışıq. Artıq iki il yarımdır ki, Ermənistanla Azərbaycan arasında döyüşlər yoxdur, qan tökülmür, insanlar müəyyən qədər əmin-amanlıq şəraitində yaşayırlar. Ancaq eyni zamanda, böyük sülh də yoxdur. Biz çalışırıq və bundan sonra da çalışacağıq ki, məsələni sülh yolu ilə həll edək. Biz müharibənin yenidən başlanmasının, yenidən qan tökülməsinin tərəfdarı deyilik. Ancaq eyni zamanda, biz torpaqlarımızın uzun müddət işğal altında qalması ilə də razı ola bilmərik. 1 milyona qədər azərbaycanlının bundan sonra uzun müddət ağır vəziyyətdə, köçkün vəziyyətində, yerindən-yurdundan təcrid olunmuş vəziyyətdə yaşamasına da dözə bilmərik. Ona görə də biz işğal olunmuş torpaqlarımızın azad edilməsinə cəhd göstəririk, çalışırıq. Yerindən-yurdundan didərgin düşmüşlərin öz evinə, elinə, obasına qayıtmasını tələb edirik. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunmasını tələb edirik. Bölgəmizdə, Qafqazda, Ermənistanla Azərbaycan arasında daimi sülhün yaranmasını istəyirik və bu istiqamətdə ardıcıl surətdə çalışırıq.

Şübhəsiz ki, bu məsələlərin həll olunması bundan sonra da böyük səylər tələb edəcəkdir, bu məsələlərin haqq-ədalət prinsipləri əsasında həll olunmasına beynəlxalq təşkilatların hamısının səy göstərməsini tələb edəcəkdir və tələb edir. O cümlədən, İslam Konfransı Təşkilatının, İslam ölkələrinin – bizim üçün ən yaxın, qardaş olan ölkələrin bu sahədə bundan sonra səylərinə də bizim çox böyük ehtiyacımız var. Mən bu [410-411] gün bu fürsətdən istifadə edərək ümidvar olduğumu bildirmək istəyirəm ki, biz bu sülhsevər siyasətimizi həyata keçirmək, Azərbaycan Respublikasının ərazi bütövlüyün təmin etmək, işğal olunmuş torpaqlarımızı azad etmək üçün, vətəndaşlarımızı öz yerlərinə-yurdlarına qaytarmaq üçün bütün ölkələrdən, o cümlədən İslam ölkələrindən təsirli yardımlar alacağıq və beynəlxalq İslam təşkilatlarından daim dəstək, yardım alacağıq.

Belə bir ağır vəziyyətdə respublikamızda qaçqınların, köçkünlərin ən adi, minimum həyat tərzini təmin etmək üçün yardıma ehtiyacımız vardır. Azərbaycana bu yardım beynəlxalq təşkilatlar, Birləşmiş Millətlər Təşkilatının Humanitar İşlər Departamenti tərəfindən, ayrı-ayrı ölkələrin humanitar yardım təşkilatları tərəfindən göstərilir. Biz bir çox ölkələrdən humanitar yardımlar alırıq. Azərbaycana, respublikamızda yaşayan qaçqınlara, köçkünlərə, ağır maddi vəziyyətdə olan insanlara kömək edən bütün ölkələrə, beynəlxalq təşkilatlara bu yardımlara görə mən bu gün təşəkkürümü bildirirəm. O cümlədən, Asiya Müsəlmanları Komitəsi, Beynəlxalq İslam "Nicat" Təşkilatı da Azərbaycana humanitar yardım göstərir və bu yardımı davam etdirir.

Bu gün bu konfransın keçirilməsi və bir çox İslam ölkələrinin nümayəndələrinin bu tədbirə təşrif gətirmələri, onun işində iştirak etmələri, hesab edirəm ki, bu ölkələrin, bu təşkilatların bundan sonra Azərbaycana daha da güclü yardım göstərmələri üçün yeni bir mərhələ açır. Mən bu konfransı məhz belə bir əhəmiyyət kəsb edən tədbir kimi qiymətləndirirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, konfransın iştirakçıları, hörmətli qonaqlarımız Azərbaycanın bugünkü reallığı, respublikamızda yerindən-yurdundan didərgin düşmüş qaçqınların, köçkünlərin vəziyyəti ilə tanış olaraq, çadırları ziyarət edərək, orada yaşayan insanlarla bilavasitə görüşüb onların vəziyyəti haqqında məlumat alaraq öz təşkilatlarında və öz ölkələrində,

ümumiyyətlə, bütün İslam ölkələrində Azərbaycan barədə müsbət münasibəti daha da gücləndirəcəklər. Azərbaycanla əlaqələri daha da genişləndirəcəklər, respublikamıza humanitar yardımı daha da artıracaqlar. [411-412]

Bir ölkə prezidenti kimi, mən humanitar yardımlar haqqında danışarkən istərdim biləsiniz ki, bunlar hamısı ölkəmizin düşdüyü ağır vəziyyətlə əlaqədardır. Ancaq ölkəmizdə gedən böyük ictimai-siyasi proseslər, sosial- iqtisadi sahədə aparılan islahatlar, həyata keçirilən tədbirlər yaxın gələcəkdə Azərbaycanın iqtisadiyyatını böyük inkişaf yoluna çıxaracaqdır. Ola bilər ki, onda bizim heç bir humanitar yardıma ehtiyacımız olmayacaq. Ancaq hələ ki, ölkəmiz hərbi təcavüz altında olduğuna, respublikamız blokada şəraitinə düşdüyünə, Azərbaycana xaricdən cürbəcür təzyiqlər göstərildiyinə görə, ölkəmizdə 1 milyondan artıq qaçqın, məcburi köçkün olduğuna görə bizim bu ehtiyaclarımız vardır. Bu ehtiyaclarımızın ödənilməsi üçün də beynəlxalq humanitar təşkilatlar, o cümlədən Asiya Müsəlmanları Komitəsi, Beynəlxalq İslam "Nicat" Təşkilatı və İslam ölkələri, hesab edirəm ki, Azərbaycana humanitar yardımı gücləndirəcəklər və artıracaqlar.

Mən bu gün bu konfransda bir çox ölkələrin nümayəndələrinin iştirak etməsini həmin ölkələrlə respublikamız arasındakı əlaqələrin daha da inkişaf etməsi üçün mühüm amil hesab edirəm. Ümidvaram ki, hörmətli qonaqlarımız öz ölkələrində respublikamız haqqında geniş məlumatlar verəcəklər, Azərbaycana yardım edilməsi, öz ölkələrinin respublikamıza daha yaxın olması üçün görüləcək işlərin təşkilatçıları olacaqlar.

Mən sizi bir daha salamlayıram. Sizə cansağlığı, səadət arzulayıram. Konfransın işinə uğurlar diləyirəm. Sağ olun. [412-413]

## AZƏRBAYCANIN DÖVLƏT MÜSTƏQİLLİYİ GÜNÜ MÜNASİBƏTİLƏ XALQA MÜRACİƏT

*18 oktyabr 1996-cı il*

Əziz həmvətənlər, bacılar və qardaşlar!
Azərbaycan Respublikasının vətəndaşları!

Sizi Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi günü münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan xalqı dövlət müstəqilliyini əsrimizin əvvəlində əldə edibdir. 1918-ci ildə ölkəmizdə ilk demokratik respublika yaranıb, Azərbaycan müstəqil dövlət olubdur. Sonra baş vermiş ictimai-siyasi dəyişikliklər nəticəsində Azərbaycan xalqı milli azadlığından, dövlət müstəqilliyindən, milli-mənəvi ənənələrindən məhrum olmuşdur. Ancaq sonrakı dövr Azərbaycan xalqının böyük inkişaf dövrü olmuşdur. Xalqımız maariflənmiş, Azərbaycan elmi, mədəniyyəti, təhsili yüksək sürətlə inkişaf etmiş, respublikamızda güclü iqtisadi potensial yaranmışdır.

1991-ci ildə Sovetlər İttifaqının dağılması ilə əlaqədar Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa etmişdir. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul etmiş, Konstitusiya Aktı 1991-ci il dekabrın 30-da ümumxalq səsverməsi, referendum vasitəsilə bəyənilmişdir. Bu aktla Azərbaycan Respublikasının dövlət müstəqilliyinin təmin olunması üçün hüquqi əsaslar yaranmış, ölkəmiz öz dövlət müstəqilliyini bütün dünyaya bəyan etmişdir.

Respublikamızın dövlət müstəqilliyini dünyanın bütün ölkələri tanımış, Azərbaycan Birləşmiş Millətlər Təşkilatına daxil olmuş və dünyanın böyük beynəlxalq təşkilatlarının hamısının üzvüdür, iştirakçısıdır. Ötən beş il ərzində Azərbaycan Respublikasının dövlət müstəqilliyi daha da inkişaf etmiş, möhkəmlənmişdir. Ancaq bu dövr ölkəmizin həyatında çox gərgin və mürəkkəb proseslər dövrü olmuşdur.

Azərbaycan öz dövlət müstəqilliyini elan edərkən artıq Er[413-414]mənistan tərəfindən başlanmış hərbi təcavüz nəticəsində torpaqlarının silahla müdafiəsi ilə məşğul idi, Azərbaycan Respublikasının ərazi bütövlüyü pozulmuşdu, torpaqlarının bir hissəsi işğal olunmuşdu. Bu proses sonra da davam etmiş, biz Ermənistan silahlı qüvvələrinin Azərbaycana etdiyi hərbi təcavüzdən indi də xilas olmamışıq. Bununla yanaşı, Azərbaycanın daxilində də çox gərgin ictimai-siyasi proseslər getmiş, ayrı-ayrı silahlı dəstələr, ayrı-ayrı siyasi qruplar, dəstələr hakimiyyət uğrunda mübarizə aparmış, onlar respublikada daxili ictimai-siyasi vəziyyəti pozmuş, gərginləşdirmiş və şübhəsiz ki, bu, Ermənistanın Azərbaycana təcavüzünün güclənməsinə səbəb olmuşdur. Məhz bu səbəbdən də Azərbaycan Ermənistanın hərbi təcavüzünün qarşısının alınmasında çətinliklərlə üzləşmiş və torpaqlarımızın bir hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

Müstəqil Azərbaycan Respublikası ötən beş il ərzində böyük sınaqlardan keçmişdir. Müstəqilliyimizin möhkəmlənməsinə mane olan qüvvələr həm xaricdə, həm də daxildə mövcud olmuşdur. Onların qarşısını almaq, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək ən əsas vəzifə olmuşdur. Daxildə gedən proseslər Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə maneçilik törətmişdir. Hakimiyyət mübarizəsi, hakimiyyətin güclə dəyişdirilməsi halları Azərbaycandakı daxili vəziyyəti çox gərginləşdirmişdi. Xüsusən, 1993-cü ilin iyun ayında Azərbaycanda çox ağır bir vəziyyət yaranmış, respublikada vətəndaş müharibəsi baş vermiş, Azərbaycan parçalanmaq təhlükəsi qarşısında olmuşdur. Bunun qarşısı alınmış, ancaq ondan sonrakı dövrdə də Azərbaycanın müstəqilliyini pozmaq cəhdləri davam etmiş və respublikamızda dövlət çevrilişinə iki dəfə cəhd göstərilmişdir.

Xalqımızın iradəsi və müstəqil Azərbaycan dövlətinə sadiqlik bütün bu sınaqlardan çıxmağa imkan yaratmışdır. Biz bütün bu çətinliklərin qarşısını ala bilmişik və Azərbaycanın dövlət müstəqilliyi qorunub saxlanmışdır.

Biz bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, ötən beş il ərzində, xüsusən son illərdə respublikamızın dövlət müstəqilliyi gündən-günə güclənmiş, Azərbaycan dünyanın bir çox dövlətləri ilə qarşılıqlı faydalı əlaqələr qurmuş, sazişlər imzalamış, beynəlxalq təşkilatlarda öz sözünü, mövqeyini daim açıq-aydın bildirmişdir. Dövlət Müstəqilliyinin qorunub saxlanılması, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması [414-415] üçün beynəlxalq təşkilatların imkanlarından səmərəli istifadə edilmişdir.

Bu illərdə Azərbaycan xalqının böyük itkiləri olmuş, torpaqlarımızın müdafiəsində ölkəmizin suverenliyini, ərazi bütövlüyünün müdafiəsində insanlar qəhrəmancasına vuruşmuş, həlak olmuşlar. Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü yolunda canlarını qurban vermiş insanların xatirəsi xalqımızın qəlbində daim yaşayacaqdır.

Eyni zamanda, ötən bu dövrdə Azərbaycan xalqının çox böyük nailiyyətləri vardır. Ən böyük nailiyyətimiz ondan ibarətdir ki, müstəqilliyi qoruyub saxlamışıq və onu bu gün dönməz etmişik. Böyük nailiyyət ondan ibarətdir ki, keçən ilin noyabr ayında müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmişdir. Bu Konstitusiya respublikamızda hüquqi, demokratik, dünyəvi dövlətin bundan sonra da

qurulması, inkişaf etdirilməsi üçün hüquqi əsaslar yaratmışdır. Keçən ilin noyabrında demokratik seçkilər, çoxpartiyalı sistem əsasında müstəqil Azərbaycan Respublikasının ilk parlamenti seçilmişdir.

Azərbaycan iqtisadi islahatlar aparır, respublikamızda bazar iqtisadiyyatı inkişaf etdirilir. Ölkəmiz öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlamaq, dünya iqtisadi məkanında olmaq üçün lazımi tədbirlər görür. Dünyanın böyük şirkətlərinin, xüsusən, dünyanın böyük neft şirkətlərinin Azərbaycana marağı gündən-günə artır. Xalqımızın bu günü, gələcəyi üçün əhəmiyyətli olan müqavilələr imzalanmışdır, iqtisadi əməkdaşlıq gündən-günə inkişaf edir.

Bütün bu tədbirlərin, həyata keçirilən iqtisadi islahatların hamısı Azərbaycanın iqtisadiyyatını tədricən dirçəldir və mən əminəm ki, bundan sonra onun inkişaf etməsinə imkan yaradacaqdır. Bunlar hamısı Azərbaycanın müstəqil dövlət kimi yaşaması, xalqımızın rifah halının yaxşılaşması üçün əsas zəmin yaradır.

Bu gün biz dövlət müstəqilliyimizin beşinci ildönümünü qeyd edərkən yaxşı dərk edirik ki, qarşıda çox böyük vəzifələr durur. Ən böyük vəzifə ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü təmin edilsin, ölkəmizin işğal olunmuş torpaqları azad edilsin, işğal olunmuş torpaqlardan didərgin düşmüş vətəndaşlarımız öz yerlərinə-yurdlarına qayıtsınlar. Bu yolda aparılan işlər öz səmərəsini verir. Əminəm ki, biz tutduğumuz yolla, bu məsələnin sülhlə həll olunması yolu ilə bundan [415-416] sonra da gedəcəyik və qarşıda qoyulan məqsədə nail olacağıq. Azərbaycanın ərazi bütövlüyü, suverenliyi təmin olunacaqdır. Ölkəmizdə demokratik proseslər bundan sonra daha da sürətlə inkişaf etdiriləcəkdir. Azərbaycanda demokratik cəmiyyət formalaşır, demokratik hüquqi dövlət quruculuğu davam edir və mən əminəm ki, biz gələcəkdə bu sahədə də böyük nailiyyət əldə edəcəyik.

Ən böyük nailiyyətlərdən biri də ondan ibarətdir ki, artıq Azərbaycanda, onun daxilində ictimai-siyasi sabitlik yaranıbdır. İnsanlarımız rahat yaşayır və onların rahat yaşaması üçün hər cür şərait yaranıbdır. Bu da müstəqilliyimizin bəhrəsidir. Bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, biz artıq öz taleyimizin, öz ölkəmizin sahibiyik və Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir.

Bizim vəzifəmiz Azərbaycanın dövlət müstəqilliyini, milli azadlığını qoruyub saxlamaq və onu gələcək nəsillərə çatdırmaqdan ibarətdir. Biz bu yolla gedirik və bu yolla gedib yeni uğurlar əldə edəcəyik.

Mən bu bayram günü bütün Azərbaycan xalqına səadət, xoşbəxtlik arzu edirəm, xalqımızı bir daha birliyə, həmrəyliyə dəvət edirəm. Xalqımızı bir daha Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığımız mübarizəyə qoşulmağa dəvət edirəm. Xalqımızı bir daha Azərbaycanda demokratik hüquqi dövlət quruculuğunda iştirak etməyə dəvət edirəm. Xalqımızı bir daha Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək və inkişaf etdirmək yolunda aparılan işlərdə fəal iştirak etməyə dəvət edirəm.

Bu bayram münasibətilə sizi bir daha təbrik edirəm, sizə cansağlığı və səadət arzulayıram. [416-417]

## AZƏRBAYCAN, RUSİYA VƏ XARİCİ ÖLKƏ JURNALİSTLƏRİ ÜÇÜN MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Prezident Sarayı*

*19 oktyabr 1996-cı il*

Hörmətli jurnalistlər, Rusiyanın "LUKoyl" neft şirkətinin prezidenti cənab Vahid Ələkbərov onunla birlikdə Bakıya gəlmiş və müxtəlif kütləvi informasiya vasitələrini təmsil edən Rusiya və digər xarici ölkə jurnalistləri ilə görüşməyi məndən xahiş etmişdir. Mən Azərbaycan Respublikasına göstərdikləri marağa görə kütləvi informasiya vasitələri nümayəndələrinə təşəkkürümü bildirirəm və sizin suallarınıza cavab verməyə hazıram. Buyurun suallarınızı verin.

**Sual: Azərbaycanda böyük neft və digər faydalı qazıntı yataqları var. Cənab prezident, Siz ehtiyat etmirsinizmi ki, ölkəniz Şimal ilə Cənub arasında, Rusiya ilə ABŞ və Sizin neftinizdən mənfəət götürmək istəyən başqa dövlətlər arasında qarşıdurmalar meydanına çevrilə bilər ?**

**Heydər Əliyev:** Həqiqətən, ölkəmiz böyük təbii ehtiyatlara, o cümlədən quruda və dənizdə neft və qaz ehtiyatlarına malikdir. Siz bilirsiniz ki, Azərbaycan qədim neft məmləkətidir, burada 150 ildən çoxdur sənaye üsulu ilə neft çıxarılır. Keçmiş vaxtlarda biz nefti xarici şirkətlərlə birlikdə hasil edirdik. Bu, təxminən əsrimizin 20-ci ilinədək davam etmişdir. Azərbaycan Sovet İttifaqının tərkibinə daxil olduqdan sonra isə neftimiz bütün SSRİ-nin ehtiyacları üçün çıxarılırdı. Lakin Azərbaycan müstəqil dövlət olduğu vaxtdan bəri öz təbii ehtiyatlarının sahibi olmuşdur. İndi neft-qaz yataqlarımızın ARDNŞ tərəfindən xarici şirkətlərlə birgə işlənməsi sahəsində fəal iş gedir. Yeri gəlmişkən, Rusiyanın "LUKoyl" şirkəti bütün bu proseslərdə yaxından iştirak edir və 1994-cü ildən başlayaraq ARDNŞ-nin müqavilələr imzaladığı bütün konsorsiumların üzvüdür.

Azərbaycanın Şimal ilə Cənub və müxtəlif ölkələr arasında qarşıdurmalar meydanına çevrilə bilməsi sarıdan təhlükə, [417-418] zənnimcə, real deyildir. Mən buna inanmıram. Bununla yanaşı, təsadüflərdən, hər hansı gözlənilməz hallardan heç nə sığortalanmayıbdır. Ancaq bu, əsla o demək deyildir ki, biz öz ehtiyatlarımızın işlənməsi və istifadə edilməsi ilə məşğul olmamalıyıq.

O ki qaldı qarşıdurmaya, görünür, bütün bunlar müxtəlif regionların problemlərinə qeyri-sivilizasiyalı münasibətin nəticəsidir. Ona görə ki, biz, məsələn, bir çox xarici şirkətlərin "Azəri", "Çıraq", "Günəşli" yataqlarını birgə işlətmək təklifləri ilə razılaşmışıq, 1994-cü ildə ilk müqavilə Rusiya, ABŞ, Böyük Britaniya, Norveç, Türkiyə və Səudiyyə Ərəbistanından olan 11 neft şirkətinin daxil olduğu konsorsiumla imzalanmışdır. Biz digər müqaviləni Rusiyanın həmin "LUKoyl" şirkəti ilə, İtaliyanın "Acip", Amerikanın "Pennzoyl" və başqa neft şirkətləri ilə bağlamışıq. "Şahdəniz" yatağına dair müqavilədə Britaniyanın "Bi-Pi", Norveçin "Statoyl", yenə də Rusiyanın "LUKoyl" şirkətləri, Türkiyə şirkəti və digər şirkətlər iştirak edirlər. Yəni iri şirkətlərə yataqların bizimlə birgə işlənməsində iştirak etməyə imkan veririk. Belə isə qarşıdurma nəyə gərəkdir ? Diqqət yetirin, burada nə qədər ölkə iştirak edir. Həm də hər bir iştirakçı öz vəsait qoyuluşuna, öz işinə müvafiq surətdə mənfəət götürəcəkdir. Bax məhz bu, bir ölkənin təbii sərvətlərindən, ehtiyatlarından digər ölkələrin imkanları ilə birgə istifadə edilməsinin sivilizasiyalı metodudur. Mən bir əsas görmürəm ki, bütün bunlar nəticə etibarilə qarşıdurma obyektinə çevrilsin. Qarşıdurma istisna edilmir, amma bu, bizim üçün hər hansı prinsipial əhəmiyyətə malik deyildir.

**Sual: Xəzərə dair layihələrdə "LUKoyl"un və digər Rusiya şirkətlərinin rolunu Sizin necə təsəvvür etdiyinizi daha ətraflı öyrənmək istərdik. Rusiya şirkətlərinəmi üstünlük vermək və ya başqa ölkələrin əhəmiyyətini artırmaq lazımdır ?**

**Heydər Əliyev:** Bilirsinizmi, bizim istər indiki, istərsə də gələcək müqavilələrimizin hamısı hər şeydən əvvəl iqtisadi xarakter daşıyır. İqtisadi mənfəət, iqtisadi səmərə baxımından hər hansı ölkə, hər hansı şirkət Azərbaycanın neft və qaz yataqlarında aparılan işlərdə bizimlə birlikdə iştirak edə bilər. Ona görə də, görünür, burada hər hansı şirkətə hər hansı əlamət üzrə üstünlük vermək məqsədəuyğun deyildir. Kim daha sərfəli iqtisadi şərtlər təklif edirsə, biz onunla [418-419] əməkdaşlıq edir, birlikdə işləyirik. "LUKoyl" Rusiyanın çox iri neft şirkətidir. O, layihələrimizdə başqa şirkətlərlə, indiki halda, Qərb şirkətləri ilə bərabər hüquqlarla iştirak edir. Biz hər hansı şirkət üçün hər hansı imtiyazlar yaratmırıq.

Bununla yanaşı, Azərbaycan Rusiya ilə bir çox əsrlər boyu bağlıdır. Biz keçmişdə də birlikdə olmuşuq, – mən 19-cu əsri nəzərdə tuturam, – 20-ci əsrdə isə Sovet İttifaqının tərkibində olmuşuq. Azərbaycan ilə Rusiya arasında çox sıx iqtisadi əlaqələr var. Bir vaxtlar Azərbaycan neftçiləri Rusiya vilayətlərində neft və qaz yataqlarının kəşfiyyatı sahəsində çox böyük iş görmüşlər. Siz bilirsiniz ki, keçmişdə "İkinci Bakı", "Üçüncü Bakı", "Dördüncü Bakı" kimi anlayışlar olmuşdur – bunlar Tatarıstan, Başqırdıstan, Tümen, Orenburq, Rusiyanın digər iri neft rayonlarıdır və orada neft yataqlarının işlənməsi bu sahədə böyük iş təcrübəsi olan Azərbaycan neftçilərinin fəal iştirakı ilə başlanmışdır. Odur ki, bütün bunlar həm dövlət xətti ilə, həm elm,

texnika və mədəniyyət, həm də insani əlaqələr xətti ilə çox sıx əlaqələrimizə səbəb olur. Təbiidir ki, Azərbaycanın neft sənayesi Rusiyanın neft sənayesi ilə sıx bağlıdır, çünki biz lap bu yaxınlaradək vahid bir tam idik. Buna görə də bizim üçün çox mühümdür ki, Rusiyanın "LUKoyl" şirkəti Azərbaycana gəlmişdir, Azərbaycanda yaradılmış bütün konsorsiumların üzvüdür və bizimlə fəal əməkdaşlıq edir. Bu, bizim üçün hər cəhətdən çox mühüm amildir.

**Sual: Cənab prezident, neft sahəsindən savayı, daha hansı sahələr ölkələrimiz arasında, habelə onların digər MDB ölkələri ilə əməkdaşlıq obyekti ola bilər ? Sizcə, böyük neftin nəql edilməsi üçün hansı variant daha məqbul olacaqdır ?**

**Heydər Əliyev:** Bilirsinizmi, bizim çox böyük neft maşınqayırma kompleksimiz var. Biz Sovet İttifaqının tərkibində olanda bütün SSRİ-nin neft-mədən avadanlığının 70 faizindən çoxu Azərbaycanın zavodlarında hazırlanırdı. Ənənəvi surətdə belə olmuşdur. Azərbaycanda neft sənayesi, dediyim kimi, ötən əsrin ikinci yarısından inkişaf etmişdir. Sonra, 20-ci illərdən, Sovet İttifaqı yaranan vaxtdan bəri neft sənayesi əsasən Azərbaycanda olmuşdur və təbii ki, neft-mədən avadanlığı istehsal edən iri müəssisələr də məhz burada yaradılmışdır. Əgər ilk vaxtlar bu avadanlıq yalnız Azərbaycanın neft sənayesi üçün nəzərdə tutulurdusa, Sovet İttifaqının digər [419-420] regionlarında, əsasən Rusiyada yeni-yeni neft yataqları aşkara çıxarıldıqca oraya da göndərilməyə başlanmışdır. Sovet İttifaqının süqutundan, müstəqil dövlətlər yarandıqdan sonra təəssüf ki, bu iqtisadi inteqrasiya əlaqələri çox kəskin şəkildə qırılmışdır.

İndi zavodlarımız əsasən Azərbaycan üçün avadanlıq istehsal edir, bəzən İranın, Ərəb ölkələrinin, başqa dövlətlərin sifarişlərini yerinə yetirir. Rusiya isə mövcud olmuş inteqrasiyadan əslində imtina etmişdir. Nahaq yerə. Çünki Azərbaycanda sahmana salınmış istehsal var, bizdə yüksək keyfiyyətli avadanlıq buraxılır. Bu avadanlıqdan hər yerdə istifadə olunurdu. Lakin əməkdaşlıq üçün çox mühüm olan bu əlaqələr son illərdə itirilmişdir.

Kimya sənayesi əməkdaşlıq üçün çox mühüm sahədir. Bizim kimya sənayemiz çox böyükdür və o da Rusiya sənayesi ilə çox sıx inteqrasiyada olmuşdur. O vaxtlar sənaye istehsalının Ümumittifaq bölgüsü var idi. Təəssüf ki, o vaxtlar iqtisadi siyasət, görünür, heç də tamamilə düzgün deyildi. Azərbaycanda kimya sənayesi əsasən yarımfabrikatlar istehsal edirdi, son məhsulun əksəriyyəti isə Rusiyada buraxılırdı. Lakin müəssisələrimiz indi də qalmaqdadır. Odur ki, biz bu sahədə sıx əməkdaşlıq edə bilərik.

Yaxud götürək, kənd təsərrüfatı məhsulunu. Bir vaxtlar Azərbaycan Sovet İttifaqının, xüsusən Rusiya və Ukraynanın bazarına olduqca böyük miqdarda şərab materialları göndərirdi. O vaxtlar Azərbaycanda ildə təxminən 2 milyon ton üzüm istehsal edildiyi halda, bütün Sovet İttifaqında 6 milyon ton üzüm yetişdirilirdi. Rusiya şərab materiallarına, şərab məhsuluna ehtiyac duyurdu. Azərbaycan isə onların, əslinə qalsa, başlıca təchizatçısı idi. İndi bu əlaqə də əsasən kəsilmişdir.

Doğrudur, üzümlüklərimizin bır hissəsi vaxtilə – Mixail Qorbaçovun və Yeqor Kuzmiç Liqaçovun yeritdikləri çox səhv və zərərli antialkoqol siyasəti dövründə məhv edilmişdir. Əlbəttə, alkoqolizmə qarşı mübarizə aparmaq lazımdır. Buna görə də mən Sovet İttifaqının siyasi rəhbərliyi tərkibində olarkən buna tamamilə tərəfdar idim. Amma alkoqolizmə qarşı bu yolla mübarizə aparmaq olmazdı axı. Yeri gəlmişkən, bu mübarizə üsulu böyük iqtisadi zərərə gətirib çıxardı, bütün ölkəyə, o cümlədən də Azərbaycana olduqca böyük ziyan vurdu. Buna baxmayaraq, bizdə üzüm plantasiyaları qorunub saxlanmışdır və biz çoxlu üzüm istehsal edirik, çoxlu yüksək keyfiy[420-421]yətli, özü də başqa ölkələrdən gətirilən xeyli ucuz şərab materialları göndərə bilərik. Bu, Rusiya üçün iqtisadi cəhətdən sərfəlidir. Amma nədənsə bu əlaqə də qırılmışdır.

Yadımdadır, o illərdə, – onda mən burada işləyirdim, – biz Azərbaycanda üzüm bağları salmağa başladıqda mən Sovet İttifaqının rəhbərliyi ilə, o cümlədən Nazirlər Sovetinin sədri, mərhum Aleksey Nikolayeviç Kosıginin öz təşəbbüsünə əsasən onunla bu mövzuda tez-tez söhbət edirdim. O vaxtlar şərab materialları tankerlərlə Əlcəzairdən, digər ölkələrdən gətirilir, çox keyfiyyətsiz şərab şüşələrə doldurulur və satılırdı. Biz burada üzümçülüyü inkişaf etdirdikdən sonra çox yüksək keyfiyyətli üzüm, şərab materialları əldə etməyə və onları Rusiyaya, Sovet İttifaqının digər regionlarına göndərməyə başladıq. İndi bu da dayandırılmışdır. Yeri gəlmişkən, bu da Rusiya ilə Azərbaycan arasında əməkdaşlıq sahəsi ola bilər.

Yaxud məsələn, o illərdə Azərbaycanın cənub zonası "Ümumittifaq bostanı" adlandırılırdı. Bəs bu nə deməkdir ? Bizim bəzi Cənub regionlarında tərəvəz, o cümlədən kələm, pomidor, xiyar çox faraş yetişir. Biz ildə təxminən 700 min ton bu cür məhsul istehsal edir və Moskvaya, Leninqrada, bütün Rusiya şəhərlərinə, xüsusən Şimal şəhərlərinə göndərirdik, onlar artıq aprel-may aylarında faraş tərəvəz almağa başlayırdılar (bildiyiniz kimi, Rusiyanın Şimal zonalarında bu tərəvəz yalnız iyul-avqustda yetişir). Bu, hər iki tərəf üçün çox faydalı idi. Amma bu da dayandırıldı. Bilmirəm, indi Rusiya faraş tərəvəzi haradan alır. Biz burada bununla daha məşğul olmuruq və həmin sahələrdən respublikamıza gərəkli digər məhsul yetişdirmək üçün istifadə edirik.

Kənd təsərrüfatının başqa sahələrində də fəal iqtisadi əməkdaşlıq etmək olar. Dediyim kimi, təəssüf ki, bu əlaqələr çox tezliklə qırıldı. Zənnimcə, zaman bizi hər halda ona gətirib çıxaracaqdır ki, biz bu əlaqələri bərpa edəcəyik, lakin başqa əsasda, prinsipcə yeni, Azərbaycan və Rusiya üçün iqtisadi cəhətdən faydalı əsasda bərpa edəcəyik.

İkinci sualınıza gəlincə bildiyiniz kimi, biz iki neft kəməri – Şimal və Qərb istiqamətlərində Rusiya və Gürcüstan ərazilərindən keçəcək boru kəmərləri haqqında saziş imzalamışıq. Onların inşası sahəsində işlər görülür. Mənə rəsmən təqdim edilmiş məlumata görə, Şimal neft kəmərinin Azərbaycandan keçən hissəsi bu ilin sonuna yaxın hazır olacaqdır. Bu gün mən "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərovla danış[421-422]dım və ondan Moskvada xüsusən "Transneft"ə və Rusiya hökumətinin rəhbərliyinə belə bir arzumuzu çatdırmağı xahiş etdim ki, neft kəmərinin Rusiya ərazisindən keçən hissəsi də həmin vaxtadək – 1997-ci ilin yanvarınadək hazır olsun. Sizə xəbər verə bilərəm ki, konsorsium ilkin neft hasilatına hələ başlamazdan əvvəl biz Azərbaycan neftini beynəlxalq bazara həmin neft kəməri ilə ixrac etmək niyyətindəyik. Odur ki, bizim buna böyük marağımız var.

Qərb boru kəməri çəkilir və bizə qəti vəd edirlər ki, onu 1998-ci ilin sonuna yaxın təhvil verəcəklər. Konsorsium ilə müqaviləyə əsasən ilkin neft isə 1997-ci il avqustun axırlarında çıxarılacaqdır.

O ki qaldı böyük boru kəmərinə, oktyabrın 10-da mən neft hasilatı sahəsində işlərin təşkili ilə məşğul olan Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin indiyədək gördüyü işlərin yekunlarının çox ətraflı müzakirəsini keçirdim. ABƏŞ-in nümayəndələri mənə məlumat verdilər ki, böyük neft kəməri çəkilməsinə dair təkliflər hazırlamaqla məşğuldurlar. Mən bu müzakirədən sonra sərəncam imzaladım, ARDNŞ və ABƏŞ qarşısında vəzifə qoydum ki, böyük neft kəmərinin inşasına dair konkret təkliflər barəsində mənə yaxın vaxtlarda məlumat versinlər və onun marşrutu haqqında qəti təklif təqdim etsinlər. Çünki marşrutun bir neçə variantı var və konsorsium onu qəti şəkildə müəyyənləşdirməlidir. Bəlkə onlar marşrutun bir yox, bir neçə variantını təqdim edəcəklər. Ehtimal ki, biz marağı olan ölkələrin iştirakı ilə bütün variantları nəzərdən keçirəcək və marşrutu qəti şəkildə müəyyənləşdirəcəyik. Həmin məsələ hələlik bu mərhələdədir.

**Sual: Heydər Əliyeviç, Siz Xəzərin statusu məsələsinin nə vaxt həll ediləcəyini gözləyirsiniz?**

**Heydər Əliyev:** Bilirsiniz ki, Xəzərin statusu məsələsi 1994-cü ildə ARDNŞ ilə beynəlxalq konsorsium arasında ilk müqavilə imzaladıqdan sonra yaranmışdır. O vaxtadək heç kəs bu məsələni qaldırmamışdır. Yeri gəlmişkən, Xəzər neçə min ildir mövcuddur və onun statusu barədə heç kim heç vaxt düşünməmişdir. Məsələn, Sovet İttifaqının mövcudluğu dövründə Xəzər təbii olaraq, onun sahillərini və İran sahillərini əhatə edirdi. Lakin bu məsələ heç vaxt nə Sovet İttifaqında qaldırılmışdı, nə də İranda.

Əlbəttə, hesab edirəm ki, Xəzərin statusunu, nəhayət, müəyyənləşdirmək lazımdır. Amma bu barədə danışdıqda [422-423] ortaya çoxlu məsələ, ən əvvəl ekologiya, gəmiçilik, balıq ovu, Xəzərin ehtiyatlarının mühafizəsi, onun təkindən istifadə olunması ilə bağlı məsələlər çıxır. Xəzəryanı dövlətlərin təhlükəsizliyi məsələsi də yaranır. Odur ki, bu, kompleks məsələdir. Xəzərin statusunun müəyyənləşdirilməsinin təşəbbüsçüləri isə əsasən bunu rəhbər tuturlar ki, Xəzərdə nefti kim, harada və necə çıxarmalıdır. Prinsipcə, mənə elə gəlir ki, bu, kifayət qədər mürəkkəb məsələdir. Çünki bəziləri deyir, Xəzər dənizdir, başqaları onu daxili sututar, üçüncülər sərhəd gölü adlandırır, dördüncülər daha nəsə deyirlər. Lakin təkrar edirəm, Xəzər həmişə statussuz mövcud olduğuna görə statusu beynəlxalq hüququn tələblərinə müvafiq surətdə müəyyənləşdirmək zərurəti bir çox mürəkkəb məsələlər doğurur. Hesab edirəm ki, beynəlxalq praktikanı, beynəlxalq qaydaları əsas tutaraq, bütün bu məsələləri tədricən öyrənmək və müəyyən bir ümumi rəyə gəlmək lazımdır. Amma bu elə təxirəsalınmaz məsələ deyil ki, onu, bəzilərinin hesab etdiyi kimi, günü bu gün həll etmək lazım olsun. Daha mühüm dünya məsələləri var və hesab edirəm ki, onlarla məşğul olmaq gərəkdir.

**Sual: Cənab prezident, Sizin fikrinizcə, Rusiyanın daha hansı neft şirkətləri və nə vaxt Azərbaycana gələ bilərlər ?**

**Heydər Əliyev:** Əlbəttə, başqa şirkətlər də gələ bilərlər, lakin axı biz özümüz heç kimi xüsusi olaraq dəvət etmirik. Xəzərin Azərbaycan sektorunda, ümumiyyətlə, Azərbaycan ərazisində böyük neft və qaz yataqlarının olması hamıya məlumdur. Üstəlik, imzaladığımız müqavilələr beynəlxalq mətbuatda geniş təbliğ edilir. Ona görə də Rusiya şirkətləri bunu bilirlər, bəziləri buna maraq göstərirlər. Əgər "LUKoyl"-dan başqa daha hər hansı Rusiya şirkətləri bizə müraciət etsələr, təbii ki, biz onlarla da əməkdaşlıq edə bilərik.

**Sual: Sizin cənab Ələkbərovla çox uzun çəkmiş görüşünüzün təfsilatını və əməli nəticələrini öyrənmək olarmı ?**

**Heydər Əliyev:** Biz cənab Ələkbərovla hər dəfə görüşdükdə buna kifayət qədər çox vaxt sərf edirik. Əvvəla, "LUKoyl" burada geniş işə başlamışdır. Bu şirkət nəinki neft hasilatı məsələləri ilə məşğul olur, həm də Bakıda nümunəvi yanacaqdoldurma stansiyası tikmişdir. Yeri gəlmişkən, biz bunun üçün onlara çox əlverişli yer ayırmışıq. Mənə deyirlər ki, avtomobil sahiblərinin əksəriyyəti xüsusi olaraq bu stansiya[423-424]ya gedir, çünki orada haqq-hesabda aldatmır, benzinə isə heç nə qatmır və dəqiq miqdarda buraxırlar. Ona görə də bu stansiya fəal işləyir, orada yaxşı xidmət göstərirlər. "LUKoyl" daha iki yanacaqdoldurma stansiyası tikdirir və bundan ötrü biz ona şəhərdə iki yaxşı yer ayırmışıq.

Bir sözlə, şirkət öz işini genişləndirir, onun başqa planları da var. "LUKoyl" bizim konsorsiumların iştirakçısıdır. O, "Qarabağ" yatağına dair müqavilədə əsas operatordur, bu konsorsiumda aparıcı mövqe tutur. "LUKoyl"un bizim sektordakı digər neft yataqlarına dair təklifləri, ümumiyyətlə, başqa təklifləri də var və biz onları reallaşdıracağıq. Bundan əlavə, "LUKoyl" burada rabitə sistemini təkmilləşdirmək məsələləri ilə də məşğul olur, o, burada yaxşı telefon stansiyası tikmişdir. Bu stansiya işləyir və şirkət onu genişləndirməyi

planlaşdırır. Bir sözlə, mənim fikrimcə, "LUKoyl" burada fəaliyyətini genişləndirir. Biz bundan razıyıq, bunun üçün lazımi şərait yaradırıq.

**Sual: Siz bir vaxtlar bildirmişdiniz ki, "LUKoyl"un strategiyası bütün Azərbaycan layihələrində iştirak etməkdən ibarətdir. "Dan ulduzu" və "Əşrəfi" yataqlarına dair imzalanmağa hazırlanan ən yaxın layihə barəsində həmin bəyanatla əlaqədar nə kimi planlarınız var.**

**Heydər Əliyev:** Bilirsinizmi, "Dan ulduzu" və "Əşrəfi" yataqları bir çox şirkətlərin diqqətini cəlb edir. Bu iş hələlik ARDNŞ və həmin yataqlara maraq göstərən şirkətlər səviyyəsində gedir. Buna görə də mən sizə bundan artıq heç nə deyə bilmərəm. Bu məsələlər prezidentə o vaxt çatdırılır ki, artıq şirkətlər müəyyən qəti qərar hazırlamışlar və onlara müqaviləni imzalamaq hüququ verən fərman və ya sərəncam verməyi məndən xahiş edirlər. Həmin yataqlar barəsində isə şirkətlər bu səviyyəyə hələlik gəlib çıxmamışlar. Bu iş görüldükdən sonra mən biləcəyəm ki, hansı şirkətlər iştirak edəcəklər...

Daha sual yoxdur? Onda sizə iki sualım var – özünüzü Azərbaycanda necə hiss edirsiniz? Buradakı şərait xoşunuza gəlirmi? Təəssüratınız necədir?

Deyəsən siz suallara cavab verməyə yox, suallar verməyə öyrəşmisiniz. Ümumiyyətlə, cavab vermək vacib deyil. Mən sualları fürsətdən istifadə edib verdim. [424-425]

Vahid Ələkbərov mənə dedi ki, sizlərdən bəziləri "Çıraq" yatağında olmuşdur. Yəqin ki, şəhəri də gəzib dolandınız ?

**Yerdən:** Şəhər çox xoşumuza gəldi, xüsusən onun qədim hissəsi.

**Heydər Əliyev:** Biz öz şəhərimizi sevirik. O, gözəldir. Təəssüf ki, Azərbaycanda mürəkkəb proseslər gedən illərdə keçmişdə yaxşı nə vardısa, onların bir çoxu müəyyən dərəcədə dağıdılmış və qarət olunmuşdur. Lakin indi biz bunları bərpa edirik.

Fürsətdən istifadə edərək demək istəyirəm, – indi başlıcası budur ki, Azərbaycanda sabit, sakit və normal ictimai-siyasi vəziyyət hökm sürür. Bunu ona görə deyirəm ki, hələ iki il əvvəl belə deyildi. Üç il əvvəl, 1993-cü ilin iyununda isə Azərbaycanda vətəndaş. müharibəsi başlanmışdı, ölkə böyük fəlakət qarşısında idi. Ölkənin daxilində isə qanlar axıdılırdı. Bildiyiniz kimi, 1988-ci ildən bəri Ermənistan tərəfindən təcavüzlə əlaqədar olaraq ərazimizdə hərbi əməliyyatlar aparılırdı. Bir tərəfdən, Ermənistanla Azərbaycan arasında döyüşlər gedir, silahlı münaqişə davam edirdi, respublikamızın ərazisinin bir hissəsi işğal edilmişdi. Bütün bu illərdə təxminən 1989-90-cı illərdən başlayaraq 1993-cü ilədək Azərbaycanın daxilində çox mürəkkəb proseslər gedirdi. Əgər onlar normal proseslər olsaydı, bu, başqa məsələ. Amma müxtəlif qanunsuz silahlı qruplar hakimiyyət uğrunda mübarizə aparırdılar. Azərbaycanda hakimiyyət üç ildə üç dəfə dəyişmişdir. Mən 1990-cı, 1992-ci və 1993-cü illəri nəzərdə tuturam.

1993-cü ilin yayında vətəndaş müharibəsi başlandı, hakimiyyət yenidən dəyişdi. Azərbaycanın bəzi bölgələrində böyük separatçılıq təzahürləri müşahidə edilirdi. Biz bütün bunları dəf etməyə müvəffəq olduq. 1989-cu ildən başlayaraq 1993-cü ilin sonunadək Azərbaycan kiçik fasilələrlə daim fövqəladə vəziyyət şəraitində yaşamışdır. Bu, bütün şəhərlərdə qadağan saatı, hərbi keşikçilər, nəzarət, axşam saat 8-dən sonra yoxlamalar deməkdir. Axşam saat 11-dən sonra xüsusi buraxılış vərəqələri olmadan küçəyə çıxmaq mümkün deyildi. Bir çox qanunsuz silahlı dəstələrin olduğunu da əlavə etsək, o dövrdə bizdə vəziyyətin necə olduğunu təsəvvürə gətirmək mümkündür. 1993-cü ilin iyun ayında mən xalqın dəvəti ilə Bakıya gəldikdə burada axşamlar şəhərə çıxmaq olmurdu, hər yerdə zirehli transportyorlar, tanklar dururdu.

Biz bütün bunları dəf edə bildik. Hərçənd bu, asan olma[425-426]mışdır. 1993-cü ildə biz çox çətin proseslər keçirdik. Sonra 1994-cü ildə silahlı yolla yenidən dövlət çevrilişinə cəhd göstərildi. Biz onun qarşısını aldıq. Yəqin mətbuatdan sizə məlumdur ki, 1995-ci ildə Daxili İşlər Nazirliyinin tərkibindəki Xüsusi Təyinatlı Polis Dəstəsi dövlətin tabeliyindən çıxaraq və öz əməllərini ölkənin daxilindəki və onun hüdudlarından kənardakı müxtəlif siyasi qrupların rəhbərliyi ilə həyata keçirərək hakimiyyəti silahlı yolla devirməyə can atmışdı. Biz bunun da qarşısını aldıq. Bundan sonra terror hərəkətləri törətmək cəhdləri oldu. Təəssüf ki, buna qarşı bu gün də təminatımız yoxdur, Lakin buna baxmayaraq, indi Azərbaycanda vəziyyət sakit və sabitdir.

O ki qaldı Ermənistanla müharibəyə, 1994-cü ilin mayında biz onunla atəşkəs haqqında saziş bağladıq, buraya hər hansı araşdırıcı qüvvələr, sülhyaratma qüvvələri yeridilmədən hərbi əməliyyatları dayandırdıq. Şükürlər olsun ki, təxminən iki il yarımdır biz atəşkəs rejimini saxlayırıq. Ermənistan tərəfi də, Azərbaycan tərəfi də imzalanmış sazişə, atəşkəs prinsiplərinə sadiq qalırlar. Bununla əlaqədar biz Dağlıq Qarabağ münaqişəsinin dincliklə aradan qaldırılmasına dair fəal danışıqlar aparırıq. Siz bilirsiniz ki, bu təcavüz nəticəsində Ermənistan silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizindən çoxunu işğal etmişlər, oradan bir milyondan artıq sakin zor gücünə qovulub didərgin salınmışdır. İndi onlar Azərbaycanın müxtəlif bölgələrində, əksəriyyəti də çadır şəhərciklərində yaşayırlar. Biz hərbi toqquşmalar zamanı çox böyük insan təlefatı vermişik. İşğal olunmuş ərazilərdə hər şey – şəhərlər, qəsəbələr, yaşayış məntəqələri, kəndlər, sənaye və kənd təsərrüfatı müəssisələri, yollar, elektrik stansiyaları, uşaq bağçaları, xəstəxanalar, yaşayış evləri, mədəniyyət sarayları və başqa obyektlər dağıdılmış, qarət edilmişdir. Orada vəhşilik halları geniş yayılmışdır.

Lakin buna baxmayaraq, biz hesab edirik ki, hərbi əməliyyatlara heç bir halda yenidən başlamaq olmaz. Biz buna öz tərəfimizdən yol verməyəcəyik. Məsələni sülh yolu ilə həll etmək lazımdır. Biz bir çox

istiqamətlərdə, habelə ATƏT-in Minsk qrupunun köməyi ilə, Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələri arasında birbaşa danışıqlar yolu ilə, Rusiyanın, ABŞ-ın, Türkiyənin, digər ölkələrin vasitəçiliyi ilə sülh danışıqları aparırıq. Amma bu danışıqlar çox ağır gedir, çünki Ermənistan tərəfi inadkarlıq edir, qeyri-[426-427]konstruktiv mövqe tutur. O, ərazimizi ələ keçirməsindən istifadə edərək belə düşünür ki, üstün mövqedədir və öz şərtlərini yeritməyə çalışır. Onların şərtləri isə Dağlıq Qarabağın müstəqilliyinə nail olmaqdan, onu Ermənistana birləşdirməkdən ibarətdir. Dağlıq Qarabağda erməni millətindən 100 minədək adam yaşayır. Azərbaycan millətindən olan bütün sakinlər, – onlar isə təxminən 50 min nəfər idi, – oradan zorla qovulub çıxarılmışlar.

Danışıqlarda biz konstruktiv mövqe tuturuq, çox variantlar, o cümlədən Ermənistan tərəfi üçün ən məqbul variant təklif etmişik. Bu variantda Dağlıq Qarabağa Azərbaycan dövləti tərkibində yüksək muxtariyyət statusu verilməsi, Dağlıq Qarabağda erməni əhalisinin təhlükəsizliyinin təmin olunması, Ermənistanla tam sülhün bərqərar edilməsi, Dağlıq Qarabağ sakinlərinin bütün Azərbaycan, habelə Ermənistan ərazisində sərbəst hərəkəti üçün hər cür şərait yaradılması nəzərdə tutulur. Amma bir şərtlə ki, bütün erməni silahlı birləşmələri işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılsın, ölkəmizin ərazi bütövlüyü, beynəlxalq aləmdə tanınmış sərhədləri bərpa edilsin. Başqa yol ola bilməz. Ermənistan tərəfi bunu başa düşməlidir. Biz Azərbaycan ərazisinin bir hissəsinin qoparılmasına heç vaxt yol verməyəcəyik. Bununla dünyanın heç bir ölkəsi heç vaxt razılaşmaz. Azərbaycanın mərkəzində kiçik bir bölgə olan Dağlıq Qarabağa müstəqillik statusu heç cür verilə bilməz. Bu, Azərbaycanın milli mənafeyinə də, bütün beynəlxalq hüquq normalarına da ziddir. Ona görə də Ermənistan tərəfi öz iddialarının perspektivsizliyini anlamalı və razılaşmalıdır ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində ən yüksək muxtariyyət statusuna malik ola bilər və normal şəraitdə yaşaya bilər.

Münaqişə ilə əlaqədar məsələ təxminən belədir. Lakin atəşkəs bütün hallarda istər Ermənistan üçün, istərsə də Azərbaycan üçün böyük əhəmiyyətə malikdir. Atəşkəs bizim üçün daxili siyasi sabitliyi təmin etməyin mühüm amilidir. Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurulur. Biz iqtisadi islahatları fəal surətdə həyata keçiririk. İslahatların əsas strateji istiqaməti bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsidir. Özəlləşdirmə geniş səpkidə gedir. Biz çox inqilabi xarakterli qanun qəbul etmişik. Bu qanunda torpağın başqa şəxslərə vermək-satmaq hüququ ilə vətəndaşların xüsusi mülkiyyətinə verilməsi nəzərdə tutulur. Hesab edirəm ki, bu [427-428] qanun Azərbaycanda kənd təsərrüfatının inkişafı üçün və təbii olaraq, ölkəmizin əhalisinin kənd təsərrüfatı məhsullarına ehtiyacının ödənilməsi üçün böyük fayda gətirəcəkdir. Aqrar sektorda özəlləşdirmə bu qanundan da əvvəl başlanmışdır və heyvandarlıqda əslində başa çatdırılmışdır. Buna görə də indi bizdə ət, süd sarıdan problem yoxdur. Sovet hakimiyyəti illərində bu məhsullar Rusiya və Ukraynadan gətirilirdi. Yadımdadır, 70-ci illərin axırlarında – 80-ci illərin əvvəllərində biz şəhərlərin sakinlərinə ət, yağ talonları verirdik. İndi bizdə talon yoxdur, amma ət var. Bəlkə də bahadır. Sovet dövründə ətin qiyməti 2 rubl idi, indi isə 8 min manatdır. Deyilənlərə görə, Rusiyada ət bundan da bahadır. Bir sözlə, biz bəzi ərzaq problemlərini məhz özəlləşdirmənin və bazar iqtisadiyyatının köməyi ilə həll edirik.

Siz yəqin diqqət yetirmisiniz ki, Bakıda xarici şirkətlərin, firmaların olduqca çox nümayəndəlikləri var. Hətta Norveç kimi kiçik bir ölkə burada öz firmalarının 50 nümayəndəliyini açmışdır. Bu, yaxşı haldır, çünki bütün bu şirkətlər bizimlə işləyirlər. Biz xarici sərmayələrin cəlb olunmasına fəal stimul yaradırıq. İlk neft müqaviləsinə əsasən Azərbaycanın neft sənayesinə yarım milyard dollar sərmayə qoyulmuşdur. 1997-ci ilin sonunadək isə həmin müqavilə üzrə kapital qoyuluşu bir milyard dollara çatacaqdır. Bəli, sərmayələr, istədiyimiz kimi olmasa da, hər halda gəlir. Belə düşünürəm ki, şəhər və kəndlərdə iqtisadi islahatların, özəlləşdirmənin fəal həyata keçiriləcəyi iki-üç il iqtisadi vəziyyəti və əhalinin həyat səviyyəsini xeyli yaxşılaşdıracaqdır.

Bu gün Bakının küçələrində gündüz də, gecə də arxayınca gəzmək olar. İki il əvvəl bunun böyük bir problem olduğunu nəzərə alsaq, bu, bizim üçün böyük nailiyyətdir.

Həyatımız bax belədir. Siz mənə sual verməmk istəmədiniz, mən isə sualsız sizə məlumat verdim. Bu, ondan ötrüdür ki, siz bugünkü Azərbaycanı daha dolğun şəkildə təsəvvür edəsiniz. Ona görə ki, müxtəlif ölkələrin, o cümlədən də Rusiyanın bəzi kütləvi informasiya vasitələrində Azərbaycandakı vəziyyət barədə, təəssüflər olsun, hərdən yalan məlumat verilir. Əlbəttə, siyasi plüralizm, mətbuat azadlığı şəraitində hər kəs istədiyini yaza bilər. Amma hesab edirəm ki, bütün bunlar etika, beynəlxalq aləmdə tanınmış normalar daxilində olmalıdır. Bununla yanaşı, biz bu cür faktlarla rastlaşırıq. Ona görə də fürsətdən istifadə edərək və informasiya orqanlarının, müxtə[428-429]lif agentliklərin nümayəndələrinin belə böyük bir dəstəsinin Azərbaycana gəldiyini nəzərə alaraq mən bu məlumatı verdim.

Vahid Ələkbərova təşəkkür edirəm ki, bu dəfə o, informasiya orqanlarının belə böyük bir qrupunun müşayiəti ilə gəlmişdir. Mən jurnalistlərə, mətbuat orqanlarına böyük hörmətlə yanaşıram. Sizin əməyinizi çox ağır, mürəkkəb əmək hesab edirəm, özünü bu peşəyə həsr edənlər isə hünər göstərirlər. Bəzi jurnalistlərin həddindən artıq yalan yazmasına baxmayaraq, ümumən hesab edirəm ki, jurnalist korpusu hər bir cəmiyyətin mühüm tərkib hissəsidir. Mən Azərbaycanda informasiya orqanlarının nümayəndələrinə belə münasibət göstərirəm. Bizdə müxalifət qəzetləri var, onların jurnalistləri ifrat müxalif mövqelərdə dayanmış, öz

qəzetlərində tez-tez böhtan yazırlar. Neyləməli, bu, bizim üçün daha problem deyildir. Çünki indi xalq əsl həqiqəti əsasən başa düşür.

Yenə suallar varmı ? Sizə cansağlığı, firavanlıq, yaxşı yol arzulayıram. [429-430]

## TÜRKDİLLİ DÖVLƏTLƏR BAŞÇILARININ IV FORUMUNDA VƏ GÖRKƏMLİ DÖVLƏT XADİMİ ƏMİR TEYMURUN 660 İLLİK YUBİLEYİ MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN DAŞKƏNDƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ BƏYANAT

*21 oktyabr 1996-cı il*

Sizə də yəqin məlumdur, 1992-ci ildən türkdilli dövlətlər başçılarının görüşləri başlanıbdır və ardıcıl surətdə keçirilir. Bu görüşlərdə türkdilli dövlətlərin həm tarixi keçmişi, ənənələri ilə bağlı, həm mədəni, elmi, təhsil, tarixi məsələlər, eyni zamanda dövlətlərin müasir dövrdə əməkdaşlığı, hamımız bir regionda yerləşdiyimizə görə regional məsələlər və şübhəsiz ki, beynəlxalq aləmdə gedən proseslər müzakirə olunur, fikir mübadiləsi aparılır.

Bu, növbəti görüşdür, Daşkənddə keçirilir və türkdilli dövlətlərin başçıları oraya bu münasibətlə dəvət olunmuşlar. Eyni zamanda Özbəkistan Əmir Teymurun 660 illik yubileyini keçirir və yubiley mərasimlərində də iştirak edəcəyik.

Hesab edirəm ki, belə görüşlər əhəmiyyətlidir. Keçmişdə olan görüşlər öz səmərəsini göstəribdir. Güman edirəm ki, bu görüş də əhəmiyyətli olacaqdır. [430-431]

## TÜRKDİLLİ DÖVLƏTLƏR BAŞÇILARININ IV FORUMUNDA NİTQ

*Daşkənd*

*21 oktyabr 1996-cı il*

Hörmətli dövlət başçıları!
Xanımlar və cənablar!

Qonaqpərvərlik və görüşümüzün əla təşkili üçün Özbəkistan Respublikasının prezidenti İslam Kərimova ürəkdən təşəkkür edirəm. Daşkənd forumunun ali iştirakçılarını, hörmətli qardaşlarımı – Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəli, Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayevi, Qırğızıstan Respublikasının prezidenti Əskər Akayevi, Türkmənistan Respublikasının prezidenti Saparmurad Niyazovu, Özbəkistan Respublikasının prezidenti İslam Kərimovu salamlayıram, sizə və xalqlarınıza səadət və firavanlıq arzulayıram.

Dərin razılıq hissi ilə qeyd edirəm ki, əsası 1992-ci ildə Ankarada qoyulmuş məclisimizin nəcib ənənələri davam edir, qardaşlığımız və əməkdaşlığımız möhkəmlənir və müvəffəqiyyətlə inkişaf edir. Türkdilli dövlətlərin başçılarının Zirvə görüşlərini keçirməyin zəruri və faydalı olduğunu həyatın özü təsdiq etmişdir və mən forumumuzun təşəbbüsçüsü olmuş və onun ideyasının həyata keçməsi üçün böyük səylər göstərmiş qardaş Türkiyəyə, onun prezidenti, bizim dostumuz Süleyman Dəmirələ xüsusi minnətdarlığımı bildirirəm.

Ötən illərə qiymət verərkən cəsarətlə demək olar ki, keçid dövrünün məlum çətinliklərinə baxmayaraq, ölkələrimiz və xalqlarımız çox ağır sınaqlardan müvəffəqiyyətlə çıxmış və tarixi əhəmiyyətə malik nəticələrə nail olmuşlar. Ölkələrimizin dövlət müstəqilliyinin möhkəmlənməsi, demokratik hüquqi dövlət yaradılması, siyasi və iqtisadi islahatların həyata keçirilməsi, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi keçdiyimiz yolun real yekunlarıdır.

Məqsəd və vəzifələrimizin, həll etdiyimiz problemlərin oxşarlığı ölkələrimizi və xalqlarımızı birləşdirən güclü amildir. [431-432] Bizim xalqlarımızın ümumi tarixi, mədəni kökləri və ənənələri, eyni dilə və dinə mənsub olmağımız bizi daha da birləşdirir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Ankarada keçirilmiş birinci görüşümüzdən sonrakı dövr ərzində türkdilli dövlətlərin ikitərəfli münasibətləri daha da inkişaf etmiş, aramızda yüksək səviyyədə çoxlu səfərlər, beynəlxalq məclislərdə görüşlər və danışıqlar olmuşdur. Türkdilli dövlətlərin başçıları arasında sıx şəxsi ünsiyyət, mehriban, etibarlı münasibətlər yaranmışdır.

Bu görüşlər və danışıqlar zamanı mühüm dövlətlərarası sazişlər imzalanmışdır. Onların həyata keçirilməsi ölkələrimiz arasında əməkdaşlığın inkişafına, mənəvi və mədəni əlaqələrimizin genişlənməsinə, dövlətlərimizin müstəqilliyinin möhkəmlənməsinə kömək edir. Bizim şəxsi dostluğumuz, tez-tez görüşməyimiz qarşılıqlı anlaşmaya, ən çətin məsələlərin əlbir səylərlə həll olunmasına kömək edir. Ona görə də biz məmnuniyyətlə deyə bilərik ki, forumumuz tamamilə formalaşmış və bərqərar olmuş, beynəlxalq status almışdır, onun yaxşı perspektivi vardır.

Ölkələrimizin mühüm coğrafi-siyasi məkanda yerləşməsi, çox zəngin təbii sərvətləri, xalqlarımızın yüksək intellekti və əməksevərliyi, müstəqillik və suverenlik, həyata keçirdiyimiz demokratik bazar islahatları regionumuzu dünyanın ən inkişaf etmiş və çiçəklənən regionlarından birinə çevirməyə imkan verir!

Əziz dostlar!

Bu gün cəsarətlə demək olar ki, əməkdaşlığımız öz bəhrəsini verməyə başlayır. Biz kommunikasiya sistemlərinin tikintisinə dair layihələri əməli surətdə həyata keçirməyə başlamışıq. Bu sistemlər ölkələrimizi bir-birinə sıx bağlayacaq, qarşımızda Avropaya, Asiyaya, Yaxın və Orta Şərqə, bütün dünyaya yollar açacaqdır. Avropa İttifaqının iştirakı ilə həyata keçirilən, vaxtilə Avropanı Asiya ilə bağlamış məşhur İpək yolunun mücəssəməsi olan TRASEKA layihəsi məhz belə layihədir. Mərkəzi Asiyanı ən qısa və etibarlı yol ilə Avropa ilə birləşdirəcək Transqafqaz dəhlizindən istifadə etmək barədə Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan arasında bağlanmış dördtərəfli Sərəxs sazişləri də bu məqsədə xidmət edir. Mən Özbəkistanın bu sazişə qoşulmasını alqışlayıram.

Biz ABŞ-ın, Rusiyanın, Böyük Britaniyanın, Türkiyənin, İra[432-433]nın, Fransanın, İtaliyanın, Norveçin, Yaponiyanın, Səudiyyə Ərəbistanının və başqa ölkələrin ən böyük neft şirkətləri ilə birlikdə Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz hasilatına dair iri layihələr həyata keçiririk.

Məlum olduğu kimi, Qazaxıstan və Türkmənistan sektorlarında bu cür layihələr həyata keçirirlər. Bununla əlaqədar olaraq Qazaxıstandan, Türkmənistandan, Özbəkistandan və Azərbaycandan dünya bazarlarına neft və qaz ixracı üçün boru kəmərləri çəkilişi məsələsi qarşıya çıxır. Belə hesab edirəm ki, ölkələrimiz çox vacib olan bu məsələnin müvəffəqiyyətli həlli üçün daha sıx əməkdaşlıq edə bilərdilər. Zənnimcə, boru kəmərlərinin

Mərkəzi Asiya – Xəzər – Azərbaycan – Gürcüstan – Türkiyə – Qara dəniz – Aralıq dənizi marşrutu ilə çəkilməsi ən məqbul, təhlükəsiz variantlardan biri ola bilərdi.

Bizim əlbir səylərimiz sayəsində mili mədəniyyətlərimizin və mənəvi irsimizin inkişafı sahəsində yaranmış gözəl əməkdaşlıq razılıq hissi doğurur. Dahi mütəfəkkirlərimizin yaradıcılığı, "Dədə Qorqud", "Manas", "Alpamış" kimi minillik tarixə malik eposlarımız bizim ümumi mədəni sərvətimizdir, xalqlarımızın yüksək mənəviyyatının və əxlaqının təməlidir, bizi xeyirxahlıq və humanizm ruhunda yetişdirmiş ümumi qaynaqlardır. Mən Almatıda böyük qazax mütəfəkkiri və şairi Abayın 150 illiyinə, Bişkekdə qırğızların diqqətəlayiq "Manas" eposunun min illiyinə həsr olunmuş mərasimlərdə böyük hörmət hissi ilə iştirak etmişəm. Düşünürəm ki, bizim mədəniyyət və elm orqanlarımız gələcəkdə də öz əlaqələrini möhkəmlədəcəklər, mənəvi mədəniyyətimizi birlikdə öyrənib təbliğ edəcəklər.

Sevindirici haldır ki, bizim Daşkənd görüşümüz özbək xalqının böyük oğlu Əmir Teymurun 660 illiyi ilə bir vaxta düşür. Onun xatirəsinə həsr olunmuş yubiley mərasimlərində müstəqil türkdilli dövlətlərin prezidentlərinin iştirakı əlamətdar tarixi hadisədir, ümumi səcdəgahlarımıza dərin hörmətin ifadəsidir, getdikcə möhkəmlənən birliyimizin sübutudur. [433-434]

Məlum olduğu kimi, YUNESKO-nun qərarı ilə Şərqin görkəmli maarifçisi, Azərbaycan şairi Füzulinin 500 illik yubileyi bütün dünyada geniş qeyd edilir. Ankarada, Tehranda, Bağdadda və Kərbəlada, Moskvada, Parisdə YUNESKO-nun iqamətgahında təntənəli yubiley tədbirləri keçirilmişdir. Bu il noyabrın 6-dan Bakı şəhərində bütün türkdilli xalqların böyük oğlu Füzulinin xatirəsinə həsr edilən yekun təntənələri keçiriləcəkdir. Hörmətli dostlar, fürsətdən istifadə edib mən sizin hamınızı Azərbaycanda yubiley təntənələrində iştirak etməyə dəvət edirəm.

Zati-aliləri!

XX əsrin sonu dünyanın coğrafi-siyasi mənzərəsini dəyişdirmiş hadisələrlə əlamətdardır. Totalitar rejimlərin süqutu, yeni ölkələrin dövlət müstəqilliyi əldə etməsi, dünyada demokratik dəyərlərin bərqərar olması – bütün bunlar dərin məmnunluq doğurur.

Lakin bununla yanaşı, dünyada təhlükə heç də azalmamışdır. Separatçılıq, davakar millətçilik və beynəlxalq terrorizm təzahürləri, mövcud dövlət sərhədlərinin dəyişdirilməsi niyyəti ilə zor işlətmək cəhdləri beynəlxalq sabitlik üçün bilavasitə və real təhlükədir və bu təhlükə bizim regionda da mövcuddur. Ona görə də beynəlxalq hüquq normalarını, ərazi bütövlüyü prinsiplərini, ölkələrimizin beynəlxalq aləmdə tanınmış sərhədlərinin və suverenliyinin pozulmazlığını əlbir səylərlə qətiyyətlə müdafiə etməli, bu normalara və prinsiplərə ciddi əməl olunmasına çalışmalıyıq.

Müstəqil Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzü səkkiz ildir davam edir. Bu təcavüz nəticəsində ərazimizin 20 faizi işğal edilmişdir. Bir milyondan çox vətəndaşımız qaçqına çevrilmişdir və çadır şəhərciklərində çox ağır şəraitdə yaşayır.

1994-cü ilin mayında atəşkəs əldə edilmiş, qanlı qırğın dayandırılmışdır. Ancaq istər ATƏT-in Minsk qrupu çərçivəsində, istərsə də birbaşa danışıqlarda göstərdiyimiz bütün səylərə baxmayaraq, sülh sazişi hələ də imzalanmamışdır. Azərbaycanın vəhşicəsinə viran qoyulmuş və talan edilmiş şəhər və kəndləri təcavüzkarın ixtiyarında qalmaqdadır. [434-435]

Sülhə nail olmaq üçün biz öz tərəfimizdən nə lazımsa, edirik. Mən dəfələrlə bəyan etmişəm ki, biz Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağın erməniləri üçün ən yüksək muxtariyyət statusu verməyə hazırıq.

Bununla yanaşı, Dağlıq Qarabağa müstəqillik verilməsi və ya onun Ermənistana birləşdirilməsi haqqında ermənilərin tələbləri ilə biz heç vaxt razılaşa bilmərik. Biz Azərbaycanın mənafeyinə zərər vurulmasına heç vaxt imkan verməyəcəyik. Çünki belə cəhdlər bütün mövcud beynəlxalq normalara və prinsiplərə də ziddir. Bugünkü dünyada ərazi işğallarının qanuniləşdirilməsi yolverilməzdir. Harada baş verməsindən asılı olmayaraq, heç bir ölkə bununla razılaşmamalıdır.

Biz bundan sonra da Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına, işğal olunmuş bütün Azərbaycan ərazilərindən erməni silahlı birləşmələrinin çıxarılmasına, azərbaycanlı qaçqınların doğma yerlərinə qaytarılmasına, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə çalışacağıq. Öz ədalətli məqsədlərimizə çatmaqda biz dünya ictimaiyyətinin dəstəyinə və köməyinə, hörmətli dostlar, sizin dəstəyinizə və köməyinizə ümid edirik.

İcazə verin, bir daha əmin olduğumu bildirim ki, bizim Daşkənd görüşümüz, türkdilli dövlətlərin əməkdaşlığını daha da inkişaf etdirmək, regionumuzda sabitliyi və sülhü təmin etmək işində mühüm dönüş mərhələsi olacaqdır. Mən forumumuzun daimi fəaliyyət göstərən katibliyinin yaradılması haqqında prezident İslam Kərimovun təklifini tamamilə dəstəkləyirəm.

Diqqətinizə görə təşəkkür edirəm. [435-436]

## TÜRKDİLLİ DÖVLƏTLƏR BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSINDA JURNALİSTİN SUALINA CAVAB

*Daşkənd*

*21 oktyabr 1996-cı il*

Biz Transqafqaz magistralının bünövrəsini bu il Sərəxsdə, Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan arasında dördtərəfli saziş imzalayarkən qoymuşuq. Transqafqaz dəhlizi adlandırılan bu magistral artıq işləyir. Zənnimcə, hər cəhətdən, eləcə də iqtisadi baxımdan ən etibarlı, təhlükəsiz və faydalı olan bu magistral Mərkəzi Asiyanı Avropa ilə birləşdirir. Belə düşünürəm ki, bu magistralın gələcəyi çox böyük və genişdir. Məlumdur ki, Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayev Azərbaycana, sonra isə Gürcüstana rəsmi səfəri zamanı öz ölkəsinin bu sazişə qoşulduğunu bildirmişdir. Mən bunu alqışlayıram. Əslinə qalsa, biz bunu gözləyirdik. Bu gün Qırğızıstan Respublikasının prezidenti Əsgər Akayev də belə bəyanat vermişdir.

Gördüyünüz kimi, qısa bir müddətdə Transqafqaz magistralına böyük maraq göstərilmişdir. Bu isə təbiidir, çünki bu magistralla Mərkəzi Asiyadan Avropaya və oradan bu regiona yük daşınması daha qısa və dediyim kimi, həm iqtisadi cəhətdən sərfəli, həm də hər cəhətdən etibarlıdır. Buna görə də əminəm ki, ona regionun başqa ölkələri də qoşulacaqlar.

Hesab edirəm ki, bu magistralda Azərbaycanın öz yeri var və biz bu sahədə öz vəzifələrimizi, öhdəliklərimizi layiqincə yerinə yetirmək üçün lazımi tədbirlər görəcəyik. Digər ölkələr kimi, bizim də bu magistralın işləməsində və daha da inkişaf etməsində çox marağımız var. [436-437]

## TÜRKDİLLİ DÖVLƏTLƏR BAŞÇILARININ ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ ZİYAFƏTDƏ NİTQ

*Daşkənd*

*21 oktyabr 1996-cı il*

Hörmətli dövlət başçıları, möhtərəm xanımlar və cənablar!

Bu gün yeddi müstəqil dövlətin bütün nümayəndə heyətlərinin üzvləri və prezidentləri Özbəkistan Respublikasının prezidenti, hörmətli dostumuz İslam Kərimovun qonağıdırlar. Biz tarixi köklərimizlə, mədəniyyətlərimizlə, iqtisadi əlaqələrimizlə və ölkələrimizə aid digər problemlərlə bağlı bir çox məsələləri müzakirə edərək, dostluq gecəsinə toplaşmışıq.

Özbəkistan Respublikasının prezidenti səhərdən bəri öz qonaqlarına özbək xalqına xas olan son dərəcədə yüksək qonaqpərvərlik, mehribanlıq və səmimilik göstərir, buna görə də biz özümüzü evimizdəki kimi hiss edirik. Bu gözəl salonda – yeri gəlmişkən, məlum olduğu kimi, Özbəkistan Respublikasının prezidenti İslam Kərimovun iradəsi ilə qısa müddətdə tikilmiş salonda əyləşmək bizə nə qədər xoş olsa da, görünür, bu gün ayrılmalıyıq, çünki sabah səhər tezdən çox mühüm işlə məşğul olacaq, özbək xalqının və bütün türk xalqlarının görkəmli oğlu Əmir Teymurun 660 illiyi münasibətilə yubiley şənliklərində iştirak edəcəyik. Buraya toplaşmış prezidentlərin, müstəqil dövlətlərin prezidentlərinin tapşırığı ilə mən türkdilli dövlətlərin Zirvə toplantısının işi əla təşkil olunduğuna görə ən əvvəl, Özbəkistan Respublikasının prezidenti İslam Kərimova dərin minnətdarlığımızı ifadə etmək istəyirəm.

Bu gün bu barədə danışıldı, lakin indi, günün belə xoş, mehriban, yaxşı ovqatla başa çatdığı bir vaxtda cəsarətlə demək olar ki, bu Zirvə toplantısının uzun ömrü, böyük perspektivi var və biz yeni nailiyyətlərin şahidi olacağıq. Şübhəsiz ki, bir ildən sonra biz Qazaxıstan paytaxtında toplaşarkən bu pillə ilə daha yüksəyə qalxacağıq. Bu da qanunauyğundur, bu da ədalətlidir. Bu, türkdilli dövlətlərin, türkdilli xalqların tarixi ir[437-438]sinin ləyaqətinə müvafiqdir. Bu, müasir dünyada ölkələrimizin, xalqlarımızın tutduqları mövqeyə uyğundur.

Hesab edirəm ki, biz hamımız bugünkü gündən, işimizdən və türkdilli dövlətlərin Zirvə toplantısının nəticələrindən razı qala bilərik. Özbək torpağına qədəm qoyduğumuz andan əhatə olunduğumuz dostluq mühiti, səmimilik mühiti, xeyirxahlıq mühiti təbii ki, uğurlu iş üçün əlverişli şərait yaradır. Qeyd edirəm, bütün bunlarda Özbəkistan Respublikasının prezidenti İslam Kərimovun böyük xidməti var.

Özbəkistan böyük imkanları, böyük ərazisi, böyük miqdarda əhalisi, böyük təbii ehtiyatları, ən başlıcası isə istedadlı xalqı, əməksevər xalqı, öz dövlət müstəqilliyini qiymətləndirən, bunu möhkəmlətməyə və inkişaf etdirməyə çalışan xalqı olan respublikadır.

Biz özbək torpağında böyük dəyişikliklərin, böyük müsbət dəyişikliklərin şahidiyik. Bu, bizi qardaşlar kimi, dostlar kimi sevindirir. Mən bu gün, 13 ildən sonra yenidən burada olarkən ətrafda gördüklərimə sevinirəm, bu ab-havaya sevinirəm, bu şəraitə sevinirəm, sevinirəm ki, özbək xalqı azaddır, xoşbəxtdir, azad, müstəqil olduğuna görə, öz taleyinin sahibi olduğuna, gözəl gələcək ümidi ilə yaşadığına görə bütün çətinlikləri aradan qaldırır. Heç bir şübhə yoxdur ki, bu gələcək öndədir, bu gələçək tezliklə başlayacaqdır. Biz hamımız Özbəkistan xalqına, Özbəkistan Respublikasına, onun uğurlarına, nailiyyətlərinə çox böyük hörmət hissi bəsləyir və təbii olaraq, gələcəyə böyük ümidlə baxırıq.

Bu illər ərzində prezident İslam Kərimov çox böyük iş görərək, öz xalqını lazımi yüksəkliyə qaldırmış, xalqını öz müstəqil dövləti ətrafında sıx birləşdirə bilmişdir. Bu, onun çox böyük xidmətidir və ona dərin hörmətimizin əsasıdır, bir prezident kimi, bir dövlət xadimi kimi, bir dost kimi və bir yoldaş kimi ona böyük ehtiramımızdır.

Mən Özbəkistanın şərəfinə, özbək xalqının şərəfinə, özbək xalqının gələcək uğurları şərəfinə, özbək xalqının tərəqqisi şərəfinə, dostluğumuz şərəfinə, birliyimiz şərəfinə, türkdilli dövlətlərin daha sıx birləşməsi şərəfinə Daşkənd bəyannaməsinin əməli surətdə həyata keçirilməsi şərəfinə, özbək torpağının, bu müqəddəs torpağın şərəfinə, bu xalqın şərəfinə, özbək xalqının layiqli oğlunun – Özbəkistan Respublikasının prezidenti İslam Kərimovun şərəfinə badə qaldırıram. [438-439]

## ÖZBƏKİSTAN TELEVİZİYASI MÜXBİRİNİN SUALINA CAVAB

*Səmərqənd*

*22 oktyabr 1996-cı il*

Səmərqənd zəngin tarixə, qədim mədəniyyətə, qədim memarlığa malik olan bir şəhərdir. Lakin mən sizə Səmərqəndin tarixindən danışmayacağam, təkcə onu demək istəyirəm ki, Səmərqənd diqqətimi həmişə cəlb etmiş və məndə buraya gəlmək arzusu oyatmışdır. Budur, dostum, prezident İslam Kərimovun köməyi ilə arzum həyata keçmişdir və bu gün mən Səmərqəndə gəlmişəm. Burada gördüklərimin hamısı mənə çox böyük təsir bağışladı.

Əlbəttə, burada daha çox olmaq, daha çox şey görmək istərdim, lakin gördüklərim də birinci dəfə üçün kifayətdir. Əlbəttə, ən əvvəl "Qur-Əmir" məqbərəsini və Əmir Teymurun özünün və yaxın adamlarının sərdabəsini qeyd etmək istəyirəm. Mən bunların hamısına kitablardan bələdəm, təkcə ona görə yox ki, Əmir Teymurun tarixini oxumuşam, həm də ona görə ki, arxitektura tarixini öyrənmişəm. Mən bir vaxtlar institutun arxitektura fakültəsində oxuyarkən bununla məşğul olmuşam. Buna görə də "Qur-Əmir" məqbərəsinə kitablardan yaxşı bələdəm. Amma bu gün məqbərəni gördükdə o, mənə çox böyük təsir bağışladı. "Registan" kompleksi də çox böyük təsir bağışladı.

Ümumdünya əhəmiyyəti olan bu qədim memarlıq abidələrinin belə gözəl təmir və bərpa edilməsi, belə gözəl vəziyyətdə olması onu göstərir ki, Özbəkistan dövləti, Özbəkistan prezidenti dostum İslam Kərimov tarixi dəyərlərə, keçmişə, özbək xalqının dahi adamlarından müasirlərə miras qalmış irsə necə böyük diqqət yetirirlər.

Əmir Teymurun abidəsi də mənə olduqca böyük təsir bağışladı. Bu, gözəl memarlıq və heykəltəraşlıq əsəridir. Zənnimcə, o, qəhrəmanın şəxsiyyətini çox yaxşı əks etdirir. Özbəkistanın tarixi ilə, Əmir Teymurun tarixi və fəaliyyəti ilə, onun nəsillərinin fəaliyyəti ilə bağlı olan nə varsa, hamısı burada, Səmərqənddə cəmlənmişdir. [439-440]

Əlbəttə, bu qədim memarlıq abidələri ilə tanışlıqla yanaşı, Səmərqəndin müasir mehmanxanasında da olmaq mənim üçün xoş idi. Beynəlxalq standartlara cavab verən bu müasir mehmanxana onu göstərir ki, özbəklərin indiki nəsli öz əcdadlarının vəsiyyətlərinə çox ciddi əməl edir. Bugünkü nəslin nümayəndələri qurub-yaradırlar. Özbəkistanda həyata keçirilən bütün tədbirlər olduqca böyük təsir bağışlayır. Mən bu barədə dünən Daşkənddə dedim, orada gördüyümüz muzey heyrətamiz bir binadır. Teymurun əzəmətli muzeyi arxitektura əsəridir, sənət əsəridir. O heç də sadəcə bir qurğu deyildir. Bir baxın, necə klassik iş görülüb – istər qədim memarlığın, istərsə də müasir arxitekturanın necə gözəl elementləri var. Bu naxışlara, bu rəsmlərə baxdıqca heyran qalırsan! Bunlar mənə çox güclü təsir bağışladı.

Daşkəndə və Səmərqəndə səfərim bax, bu böyük təəssürat altında keçir. Nəzərə alsaq ki, Səmərqənd prezidentin – dostum İslam Kərimovun vətənidir, bu, məndə daha böyük marağa səbəb olur. Bu yer tarixən görkəmli adamlar yetişdirmişdir. Zəmanəmizin görkəmli adamlarından biri də prezident İslam Kərimovdur. Mən ona xüsusi hörmət və rəğbət hissləri bəsləyirəm.

### "TEYMURİLƏR TARİXİ" DÖVLƏT MUZEYİ İLƏ TANIŞLIQDAN SONRA FƏXRİ QONAQLAR KİTABINA YAZILMIŞ ÜRƏK SÖZLƏRİ:

*"Böyük Əmir Teymurun muzeyi ilə dərin həyəcan və hörmət hissi ilə tanış oldum. Eksponatlar görkəmli dövlət xadimi, sərkərdə, özbək xalqının böyük oğlu Əmir Teymur haqqında dolğun, dinamik təsəvvür yaradır. Əmir Teymurun xidmətlərinə, qəhrəmanlıq irsinə qayğı və hörmətlə yanaşan, yüksək mənəviyyat və müdriklik nümayiş etdirən Özbəkistan xalqına dərin təşəkkürümü bildirirəm.*

**Azərbaycan Respublikasının Prezidenti**
**HEYDƏR ƏLİYEV**

*22 oktyabr 1996-cı il"* [440-441]

## TÜRKDİLLİ ÖLKƏLƏRİN VƏ TACİKİSTANIN DÖVLƏT BAŞÇILARI ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*Səmərqənd*

*22 oktyabr 1996-cı il*

Hörmətli prezidentlər, əziz qardaş və bacılar, xanımlar və cənablar!

Bu gözəl fürsətdən istifadə edərək, mən sizə öz dərin hörmətimi, Azərbaycan xalqının ehtiramını, qardaşlıq hisslərini çatdırıram. Özbək torpağında olduğumuz iki gündə biz böyük və faydalı iş gördük. Ən əvvəl onu demək istəyirəm ki, Özbəkistanda, dostlarımızın və qardaşlarımızın arasında yenidən olmaq, özbək xalqının bütün sərvət və dəyərlərini yenidən görmək bizim hamımıza xoş idi, işimizin faydalılığı bundan ibarətdir ki, türkdilli dövlətlərin başçılarının IV görüşü münasibətlərimizin daha da möhkəmlənməsi və inkişaf etməsi ilə əlamətdar oldu. Şübhə yoxdur ki, türkdilli dövlətlərin Zirvə toplantısı çərçivəsində görüş və özbək xalqının görkəmli oğlu Əmir Teymurun 660 illiyi münasibətilə keçirilən görüşlər əməkdaşlığımızı, dostluğumuzu daha da möhkəmlədəcəkdir. Mən prezident İslam Kərimovla tam razıyam ki, dostluğumuza bundan sonra heç nə xələl gətirməyəcək, onu heç kim poza bilməyəcəkdir.

Bəli, həqiqətən, onilliklər ərzində xalqlarımızın tarixi saxtalaşdırılmış, təhrif olunmuşdur. İndi müstəqilliyə malikik, indi biz öz strukturlarımızı inkişaf etdiririk, nəyimiz varsa, hamısı öz ixtiyarımızdadır. Lakin bizi tarixi keçmişimiz, tarixi və etnik köklərə, qaynaqlara, bir dil qrupuna, bir dinə, milli ənənələrə mənsubiyyətimiz birləşdirir. Bu, dostluğumuzu, əməkdaşlığımızı möhkəmlədən və inkişaf etdirən zəmin və əsasdır.

Bu iki gündə biz qədim tarixi, özbək xalqının, bütün türk[441-442]dilli xalqların zəngin, çox şan-şöhrətli tarixini yaddaşımızda bir daha canlandırdıq. Biz Əmir Teymurun məqbərəsini ziyarət etdik, Əmir Teymurun, onun kimi şəxsiyyətlərin gələcək nəsillərə, bizə miras qoyduqları görkəmli tarixi memarlıq abidələri ilə tanış olduq. Biz gözəl "Registan" kompleksinə, ən dəyərli, yüksək memarlıq abidələri çox yüksək qrupa mənsub arxitektura abidələrinə baxdıq.

Sizə deyə bilərəm ki, 50 il bundan əvvəl, Sənaye İnstitutunun arxitektura fakültəsində oxuyarkən mən "Registan" məqbərəsini və Şərqin, özbək xalqının digər qədim memarlıq abidələrini dərsliklərdən öyrənirdim. Lakin biz bu səcdəgahlarla bilavasitə tanış olduqda yeni bir qüvvə ilə hiss etdik ki, necə dərin köklərimiz, necə zəngin tariximiz var və bu tarix bizə, övladlarımıza miras qalmışdır. Bununla əlaqədar biz böyük Əmir Teymurun görkəmli tarixi xidmətlərini bir daha, dönə-dönə hiss etdik.

Lakin bununla bərabər, Özbəkistana indiki səfərimiz zamanı biz özbəklərin müasir nəsli tərəfindən Əmir Teymurun xatirəsi şərəfinə ucaldılmış gözəl, valehedici, əzəmətli muzeydə olduq. Biz bu abidənin, özbək qardaşlarımızın əlləri və ağıl-zəkası ilə, yaradılmış görkəmli memarlıq və heykəltəraşlıq əsərinin önünə gül-çiçək dəstələri qoyduq.

Biz Daşkəndin və Səmərqəndin digər görkəmli yerlərinə də baxdıq, "Registan"ın necə incə zövqlə və gözəl bərpa olunduğunu və bu tarixi abidələrin daha bir çox yüzilliklər, bir çox minilliklər ərzində qalması üçün nə qədər işlər həyata keçirildiyini gördük. Bunlar bu gün özbək xalqının yaratdıqlarıdır, bu gün Özbəkistanın dövlət xadimlərinin etdikləridir. Bunlar dövlətlərimizin müstəqilliyinin, o cümlədən də Özbəkistanın müstəqilliyinin konkret bəhrələridir.

Əlbəttə, bütün bunlarda müstəqil Özbəkistan dövlətinin, onun layiqli prezidenti, dostumuz İslam Kərimovun böyük xidməti var. Bu gün evə, – biz tezliklə təyyarə ilə yola düşəcəyik, – Özbəkistanın tarixinə, onun xalqına dərin hörmət və ehtiram hissi ilə qayıdırıq.

Əmir Teymurun xatirəsi qarşısında, görkəmli tarix abidələri [442-443] yaradanların, ucaldanların və indiki nəsillərə miras qoyub gedənlərin xatirəsi qarşısında mən baş əyirəm, biz hamımız baş əyirik.

Biz bu gün yaradılmış abidələri də çox böyük məmnunluq hissi ilə qarşıladıq.

Mən bu uğurlar münasibətilə, bu nailiyyətlər münasibətilə Özbəkistan xalqını, müstəqil özbək dövlətini, dostumuz prezident İslam Kərimovu ürəkdən təbrik edirəm. Şübhə yoxdur ki, müstəqillik şəraitində özbək xalqının tarixinin bütün səhifələri bərpa olunacaqdır, Özbəkistan xalqı öz nurlu gələcəyinə doğru irəliləyəcəkdir.

Özbəkistan xalqına səadət və firavanlıq arzulayıram.

Özbəkistanın zəngin tarixi şərəfinə, Özbəkistanın qədim sivilizasiyası şərəfinə, dünya sivilizasiyasına yeni töhfələr şərəfinə, bugünkü müstəqil Özbəkistanın şərəfinə, Özbəkistan prezidenti, dostumuz İslam Kərimovun şərəfinə badə qaldırıram. Sağ olun. [443-444]

## MDB VƏ BALTİYA ÖLKƏLƏRİNİN "FİLMFEST-96" FESTİVALLAR FESTİVALININ AÇILIŞ MƏRASİMİNDƏN SONRA FESTİVAL İŞTİRAKÇILARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Respublika Sarayı*

*23 oktyabr 1996-cı il*

Mən sizi ən əvvəl bu hadisə – festivallar festivalı münasibətilə təbrik edirəm. Şad və məmnunam ki, festival Bakıda keçirilir. Siz bu hadisənin şəhərimizin, respublikamızın mədəni, mənəvi həyatına necə təsir göstərdiyini yəqin hiss edirsiniz.

Sizin bir çoxunuz keçmişdə Azərbaycanda olubdur, respublikamızı tanıyırsınız, onunla əlaqə saxlamısınız və saxlayırsınız. Yaxşı bilirsiniz ki, ötən dövrlərdə biz hamımız mədəniyyətə, incəsənətə, xüsusən də kinematoqrafa çox böyük diqqət yetirirdik. Amma indi belə imkan yoxdur. Bu gün siz çıxışlarınızda kino çəkməyə imkan olmadığından, pul çatmadığından danışdınız. İndi çox şey yoxdur, nə etmək olar. Lakin başlıcası budur ki, incəsənətə, kinoya, insana, ülvi hisslər aşılayan sənətə məhəbbət var.

Mən sizi salamlayıram, şadam ki, Bakıya gəlmisiniz. Hesab edirəm ki, festivala gələnlər yaxşı iş görmüşlər. Çünki bu gün bir şəhərdən başqa şəhərə getmək çox çətindir. Buna baxmayaraq, özünüzün də hiss etdiyiniz kimi, Azərbaycanda həyat normal məcraya yönəlmişdir, xalq yaşayır və incəsənətlə maraqlanır, filmlərin qəhrəmanlarını, sizi – kino artistlərini, kino xadimlərini əvvəlki tək sevir. Özünüz gördünüz ki, sizi necə gözəl qarşıladılar. Təkcə adınızın çəkilməsi sürəkli alqışlara səbəb oldu. Sizi bu hadisə münasibətilə təbrik edirəm və düşünürəm ki, festival irəliyə doğru hərəkətdir. Ola bilsin ki, indi [444-445] bu hərəkət o qədər də yüksək sürətli olmayacaqdır, amma bununla belə, hər halda irəliyə doğru hərəkətdir. Bu günədək yaratmış olduğunuz və indi yaratdığınız nə varsa, hamısı kino sənətinin inkişafına yeni mərhələ açır.

Əlbəttə, çox şey dəyişmişdir. Hamımızın cavan olduğumuz illərdə kino bizim üçün böyük xoşbəxtlik idi. İndi nəinki Azərbaycanda, Rusiyada, Gürcüstanda, digər ölkələrdə, həm də dünyada hər şey dəyişmişdir. Lakin hər şey necə dəyişsə də, kino hər bir insan üçün çox mühüm incəsənət növü, mənəvi həyatın mühüm sahəsi olaraq qalır. Siz narahat olmayın qüssələnməyin. Biz ağır keçid dövrünü yaşayırıq, iqtisadiyyatda, sosial sahədə, siyasətdə çətinliklər var, lakin biz onları dəf edəcəyik. Münaqişələr, qan tökülməsi, müharibə – bunlar indi ötən dövrlərdəki kimi filmlər yaratmağın mümkün olmamasından da dəhşətli hallardır. Bütün bunlar keçmiş Sovet İttifaqı respublikalarının hamısında, o cümlədən də Azərbaycanda hazırda kino sənətinin məruz qaldığı çətinliklərə səbəb olmuşdu.

Buna baxmayaraq, mən görürəm ki, siz yaxşı əhval-ruhiyyədəsiniz, əla görünürsünüz, hamınız əvvəlkitək gözəl və qəşəngsiniz. Buna görə də sizinlə görüşməyimə şadam.

Mən əvvəllər Azərbaycanda da, Moskvada da bir çox incəsənət xadimləri ilə görüşürdüm. Bu gün göstərilən tamaşada personajlarınız soruşurdular – bu şəxs o vaxtlar kinoya çoxlu pul verən həmin Əliyevdirmi? Bilmirəm, siz bu yolla məni tənqid etməyi, yoxsa diqqətimi cəlb etməyi qərara almısınız. Amma bilin ki, mən sizə onsuz da diqqət yetirmişəm və yetirirəm. Hər halda şadam ki, Azərbaycanda işlədiyim dövrdə, – mən respublikaya 14 il rəhbərlik etmişəm, – gözəl, əla filmlər yaradılmışdır. Həm tarixi filmlər, həm də müasir həyatı əks etdirən filmlər. Bunlar həyatımızın mənfi halları ilə bağlı kəskin mənəviyyat məsələlərini çox cəsarətlə qaldıran filmlərdir.

Bilirsinizmi, əvvəllər biz mənfi təzahürlərdən danışarkən bəziləri təsdiq edirdilər ki, onlar bizdə var, başqaları deyirdilər ki, yoxdur. Məsələn, mən öz siyasi çıxışlarımda rüşvətxorluğu, bütün digər mənfi təzahürləri ifşa edəndə çoxları mənə [445-446] əyri-əyri baxır və məndən soruşurdular ki, nə üçün bunu deyirəm. Onlar hesab edirdilər ki, sosializm cəmiyyətində belə şeylər ola bilməz. Mən isə nəinki deyir, həm də bu hallara qarşı mübarizə aparırdım. Əvvəllər həyatımızın eybəcər halları adlandırılan belə təzahürləri ifşa edən filmlər meydana gəldikdə bu, hay-küy doğurdu. Xatirimdədir, mən hələ 1969-cu ildə respublikaya başçılıq etməyə başlamazdan əvvəl bizim gənc kinematoqrafçılarımız Rüstəm İbrahimbəyov və Eldar Quliyev "Bir cənub şəhərində" adlı film çəkmişdilər. Lakin bu filmi Azərbaycanda da qadağan etdilər, Moskvada da. Özü də bunu çox yüksək instansiyalar etmişdilər: Azərbaycanda – respublika rəhbərliyi, Moskvada isə ölkə rəhbərliyi səviyyəsində, o cümlədən o vaxtkı daxili işlər naziri Şelokov. Demə, o, filmdə milis nəfərinin rüşvət aldığı kadrlar görübmüş. O, belə hesab edirdi ki, bu, milisi nüfuzdan salır, əslində isə orada milis nəfərinə bir manat rüşvət verildiyini göstərmişdilər. Filmi də bax, buna görə qadağan etmişdilər. Mən işə qarışdım, kinostudiyaya gedib filmə baxdım və dedim ki, gözəl filmdir və onu ekrana buraxmaq lazımdır. Film bütün Sovet İttifaqında göstərildi və böyük nüfuz qazandı.

Yaxud, götürək "İstintaq" filmini. Onu da Rüstəm İbrahimbəyov yaratmışdır. Bu filmə burada bir neçə dəfə baxılmışdı və hər dəfə o, narazılıq doğurmuşdu. Sonra mən ona kollektiv baxış təşkil etdim və həmkarlarımın hamısı bu fikirdə oldu ki, film respublikamızı nüfuzdan salır, rüsvay edir. Halbuki bu film respublikada mənim gördüyüm işin, korrupsiyaya qarşı apardığım mübarizənin bədii təcəssümü idi. Sağ olsunlar ki, onlar bu mövzuya girişmişdilər. Yeri gəlmişkən, o vaxt mən onlara dedim: bu mövzudan əl çəkməyin. Onlar belə də etdilər. Film yaradılıb qurtardıqdan sonra əngəllər, qadağalar başlandı. Belə olduqda mən də tədbirlər gördüm və bu film böyük şöhrət qazandı. Yadımdadır, o, Düşənbə festivalında mükafata, sonra da dövlət mükafatına layiq görüldü.

Daha bir hadisə olub. Rüstəm İbrahimbəyovla Yuli Qusman "Bir ailə üçün bağ evi" adlı film çəkmişdilər. Sözün düzü, bilmirdim ki, onlar belə bir film yaradıblar. Sonra mənə [446-447] MK-nın şö'bə müdiri Şərifov barədə giley-güzar dolu, onun ünvanına ciddi ittihamlarla dolu kəskin teleqramlar gəldi. Mən onu çağırıb məsələni aydınlaşdırmağa başladım. O dedi ki, filmi ekranlara buraxmaq olmaz, çünki əxlaqa ziddir. Onda mən özüm filmə baxmağı qərara aldım. Bazar günlərindən birində axşam bağda filmə baxdım. Yeri gəlmişkən, ona həyat yoldaşımla və ailə üzvlərimlə birlikdə baxdıq. Filmdə narahatlıq doğuran elə bir şey görmədik. Yaxşı film idi. Ertəsi gün soruşdum ki, bəs bu filmin mənəviyyatsızlığı nədən ibarətdir? Mən Rüstəm İbrahimbəyovu, Yuli Qusmanı və bizim o işçimizi çağırtdırdım. Çox gərgin halda idilər. Rüstəm dedi ki, ssenarini o yazmışdır, Yuli Qusman isə sualıma cavab verib dedi ki, bu, onun birinci, bəlkə də axırıncı filmidir. Mən bu film barəsində onlarla söhbət etməyə başladım, bir qərara gəlmək üçün onların dəlil-sübutlarını dinlədim, sonra isə dedim ki, filmi necə var, eləcə də, heç bir dəyişiklik edilmədən ekrana buraxsınlar.

Belə faktlardan çox gətirmək olar. Bütün bunları xatırlatmaqda məqsədim kino sənətinə hörmətimi nəzərə çarpdırmaqdır.

Bizdə yaxşı tarixi filmlər yaradılmışdır. Rəhmətlik Həsən Seyidbəyli "Nəsimi" kimi gözəl bir film çəkmişdir. Eldar Quliyev "Babək" kimi əla film çəkmişdir. Bizdə "Dədə Qorqud" kimi yüksək səviyyəli tarixi film yaradılmışdır. Bizdə yaxşı müasir filmlər, məsələn, Rüstəm İbrahimbəyovla Rasim Ocaqovun "Ad günü" filmi var. Bu film çox xoşuma gəlir. Söz düşmüşkən, onu mənə heç kəs təqdim etməmişdi. Filmə baxdıqdan bir neçə gün sonra mən mötəbər yığıncaqlardan birində onun barəsində danışdım. Yeri gəlmişkən, bu filmdən heç kəsin xəbəri yox idi, hamı gedib ona baxmağa tələsdi.

Mən Moskvada işləyərkən, Nazirlər Soveti sədrinin birinci müavini, Siyasi Büronun üzvü olarkən incəsənət məsələlərinə baxırdım. Ola bilsin, sizin bir çoxunuz bilmir, bəziləri isə bilir ki, o vaxtlar MK-nın baş katibi olmuş mərhum Yuri Andropovun tapşırığı ilə mən tam bir il Sovet İttifaqında kinematoqrafiyanın inkişafı haqqında xüsusi qərar hazırlanması ilə məşğul [447-448] oldum. Kino sənətinin ən görkəmli xadimləri ilə bir neçə görüşümüz oldu, onlardan bəziləri indi dünyasını dəyişib. Mən həmin xadimlərlə Kremldə, Dövlət Televiziya və Radio Verilişləri Komitəsində görüşüb 4-5 saat ərzində onların hamısını dinlədim. O vaxt onların hamısı məəttəl qalmışdı ki, Siyasi Büro üzvü hər bir kəsi belə diqqətlə, təmkinlə dinləyir. Halbuki sizin hər biriniz həyəcanla, çox qeyri-adi və necə deyərlər, partiya üslubuna uyğun olmayan tərzdə danışırdınız. Biz kino sənətinin inkişafı üçün bu çox mühüm sənədi necə də çətinliklə yaratdıq. Yadımdadır, sonra mən "Oktyabr" kinoteatrına gəlib, kino sənətinin inkişafı haqqında məruzə etdim. Məruzə mətbuatda dərc olundu. Hesab edirəm ki, bu qərar kino sənəti, kinematoqrafiya haqqında yarada bildiyimiz mühüm sənədlərdən biri idi və onun müəllifi mən olmuşam. Bir sözlə, mən kinematoqrafiya, kino sənəti ilə, necə deyərlər, qaçıb kinoya bilet tapıb aldığım vaxtdan bəri və Sovet İttifaqı kimi bir dövlətin rəhbərliyində olduğum, bu işlə məşğul olduğum vaxta qədər bağlıyam.

Təkrar edirəm, kino ağır dövr keçirir. Düşünürəm ki, bunların hamısı müvəqqətidir. Azərbaycanda biz incəsənətə yardım göstərmək üçün tədbirlər görürük və görəcəyik. Bəlkə də bunların hamısı birdən-birə mümkün olmayacaq, amma 2-3 ildən sonra, iqtisadi vəziyyətimizi düzəltdikdən sonra, indi həyata keçirdiyimiz islahatların, bağladığımız müqavilələrin nəticələrindən yeni gəlir götürməyə başlayarkən, zənnimcə, onda biz kinematoqrafa lazım olan hər şeyi verəcəyik. Siz isə, öz tərəfinizdən, azadlıq, sahibkarlıq, bazar iqtisadiyyatı, demokratiya prinsiplərindən istifadə edərək öz məsələlərinizin həllinə çalışın.

İndi mən sizinlə suallarınıza cavab vermək, nəyəsə söz vermək üçün görüşmürəm. Sadəcə olaraq incəsənət adamları ilə görüşməyə həmişə şadam. Bilirsinizmi, incəsənət hər bir insanın qəlbindədir. Görünür, insan incəsənət sahəsində müəyyən istedadla bu dünyaya gəlir. Bu istedad bəzilərində çox, digərlərində azdır. Bu istedad bəzilərində inkişaf edir, başqalarında isə yox. Lakin yüksək sənətə mənsub olan adamlar, təbii [448-449] olaraq, ilahi vergisinə məxsus adamlardır və cəmiyyətin, o cümlədən də bizim cəmiyyətin ən gözəl və hörmətli üzvləridir. Mən teatra, kinoya, incəsənətin bütün növlərinə həmişə maraq göstərmişəm. Çünki mən bunları sevirəm, çünki özünü sənətə həsr etmiş adamların əməyinə həmişə hörmət bəsləmişəm və bəsləyirəm. Özünü sənətə həsr etmiş adamların əməyi əsl hünərdir. Siz fədakar və əməksevər insanlarsınız. Siz bütün digər adamlara zövq vermək, sevinc bəxş etmək üçün fədakarlığa hazır olan insanlarsınız. Bir baxın, bir filmdə 10-20 aktyor çəkilir, amma bu və ya digər kino xadimlərinin yaratdıqları filmlərdən milyonlarla adam zövq alır, sevinir və ya ağlayır, müxtəlif hisslər keçirir. Ona görə də mən sizinlə görüşdən olduqca məmnun qalıram.

Mən sizi Azərbaycanda salamlayıram. Düşünürəm ki, elə bir vaxt gələcək, burada daha genişmiqyaslı festivallar keçiriləcəkdir. Mən 1974-cü ildə burada, Bakıda keçirdiyimiz kinofestivalı xatırlayıram. O vaxtlar bizə necə parlaq ulduzlar qonaq gəlmişdi! Bakıda televiziya filmləri festivalını yada salıram. Xatirimdədir, 1972-ci ildə Bakıda Rusiya mədəniyyət günləri keçirilərkən buraya 1500 adam, o cümlədən Lyudmila Alekseyevna gəlmişdi. Gəmi ilə "Neft Daşlarına səfərimiz yadınızdadırmı? Xatirimdədir, o vaxt siz Azərbaycan rəqslərini əla oynayırdınız. Gözəl günlər idi. O günlər indiyədək yadımdadır. Halbuki aradan 24 il keçmişdir!

Kino sənətinin şərəfinə, mədəniyyət xadimlərinin şərəfinə, incəsənətin şərəfinə, sizin sağlığınıza badə qaldırıram! Sizə xoşbəxtlik, firavanlıq, tərəqqi arzulayıram. Kino yaşayacaq, daha da inkişaf edəcəkdir. Siz, kino sənəti adamları da hələ çox işlər görəcəksiniz. Belə düşünürəm ki, xalq sizdən çox şey gözləyir. Mən də. Sağ olun! [449-450]

**QAZAXISTAN RESPUBLİKASININ MÜSTƏQİLLİK GÜNÜ MÜNASİBƏTİLƏ QAZAXISTANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**

*"Gülüstan" Sarayı*

*23 oktyabr 1996-cı il*

Hörmətli səfir, xanımlar və cənablar!

Bu gün biz Qazaxıstan Respublikasının müstəqilliyinin 5-ci ildönümünü qazax xalqı ilə birlikdə qeyd edirik. Bu, qazax xalqı üçün, habelə keçmişdə bir ailədə olmuş, Sovet İttifaqının tərkibində olmuş xalqlar üçün çox böyük tarixi hadisədir.

Ölkələrimizin müstəqillik əldə etməsi tarixi hadisədir, xalqlarımızın xoşbəxtliyi və gözəl gələcəyi deməkdir. Buna görə də biz Azərbaycanda öz müstəqilliyimizin beşillik dövrünə yekun vurarkən, Qazaxıstan xalqının da əldə olunmuş nailiyyətlərə görə keçirdiyi məmnunluq və sevinc hisslərini yaxşı başa düşürük. Biz buna qazax xalqı ilə birlikdə ürəkdən sevinirik.

Beş ildə Qazaxıstan həqiqətən böyük yol, keçmiş zamanlarda onilliklərə bərabər yol keçmişdir. Bunun mənası isə ondan ibarətdir ki, qazax xalqı azaddır, öz taleyinin, öz torpağının, öz ölkəsinin, öz sərhədlərinin və sərvətlərinin sahibidir. Əlbəttə, bizim yolumuzda – müstəqilliyin təşəkkül tapması və möhkəmlənməsi yolunda çoxlu çətinlik – haradasa çox, haradasa az çətinliklər var. Lakin bizim üçün labüd olan bu keçid dövrünü hamımız eyni dərəcədə yaşayırıq. Əminəm ki, biz hamımız onu uğurla dəf edəcəyik və xalqlarımızın müstəqilliyinin və gözəl gələcəyinin hamar yoluna çıxacağıq.

Qazaxıstan və Azərbaycan bir-biri ilə qonşu dövlətlərdir. Bizim sərhədimiz Xəzər dənizidir. O, bizi birləşdirir, bizim üçün sərhəddir. Xəzər çox böyük sərvətlərə malikdir və onlardan bütün Xəzəryanı ölkələrin, o cümlədən də Qazaxıstanın və Azərbaycanın bəhrələnməsinin, birgə istifadə etməsinin son dərəcə böyük əhəmiyyəti var. [450-451]

Lakin biz təkcə qonşu deyilik. Tarixi talelərimizdə, tarixi köklərimizdə, tarixi keçmişimizdə bizi birləşdirən ümumi cəhətlər çoxdur. Dünən axşam mən Daşkənddən qayıtdım. Orada oktyabrın 21-22-də türkdilli ölkələrin dövlət başçıları növbəti görüş keçirdilər. Biz bir çox məsələlər barəsində, ən əvvəl iqtisadiyyat, mədəniyyət, təhsil, elm, bizi birləşdirmiş və birləşdirən tarixi dəyərlər barəsində fikir mübadiləsi apardıq. Təkrar edirəm, mədəniyyətin, dil qaynaqlarının ümumiliyi, ənənələrimizin oxşarlığı və bizi birləşdirən bir çox digər cəhətlər qarşımızda duran mürəkkəb vəzifələrin birlikdə həyata keçirilməsi üçün bu gün də güclü amildir. Türkdilli ölkələrin yüksək səviyyədə Daşkənd görüşündə bax, bu barədə ətraflı, mühüm və gərəkli söhbət getdi.

Bununla yanaşı, biz özbək xalqının böyük oğlu Əmir Teymurun 660 illiyinə həsr olunmuş mərasimlərdə də iştirak etdik. Biz Səmərqənd şəhərinə getdik, Əmir Teymurun xatirəsini və Özbəkistanın başqa görkəmli oğullarının xatirəsini ehtiramla yad etdik.

Bu yeni görüş bir daha təsdiqlədi ki, Qazaxıstanla Azərbaycan arasında dostluq və əməkdaşlıq etibarlı zəminə, yaxşı perspektivə malikdir. Biz Azərbaycanda hər şey edəcəyik ki, əməkdaşlığımız uğurlu olsun.

Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayevin bu ilin sentyabrında Azərbaycana rəsmi səfəri həyatımızda, Qazaxıstan-Azərbaycan münasibətlərində əlamətdar hadisəyə çevrildi. Bir çox mühüm dövlətlərarası sənədlər imzalandı. Biz onların əməli surətdə həyata keçirilməsinə fəal başlamışıq. Şübhə yoxdur ki, bu sazişlər Qazaxıstana da, Azərbaycana da fayda gətirəcək, birgə işimiz isə yolumuzda duran çətinlikləri müvəffəqiyyətlə aradan qaldırmaqda bizə kömək edəcəkdir.

Bizim bir çox digər problemlərimiz də var, onlarla birlikdə məşğul oluruq. Bir-birimizi dəstəkləyir, qarşılıqlı surətdə həmrəy olduğumuzu bildiririk. Çünki dövlətlərimizin müstəqilliyini qoruyub saxlamaq və möhkəmlətmək üçün həlledici əhəmiyyətə malik olan prinsiplər Qazaxıstana da, Azərbaycana da eyni dərəcədə əzizdir. Ərazi bütövlüyü, dövlət suverenliyi, bir-birinin işlərinə qarışmamaq, beynəlxalq aləmdə tanınmış dövlət sərhədlərinin dəyişdirilməsi üçün güc tətbiq olunmasının yolverilməzliyi prinsipləri beynəlxalq hüquq normalarıdır və [451-452] bu prinsiplər həm indiki, həm də gələcək Qazaxıstan və Azərbaycan üçün son dərəcə həlledici əhəmiyyətə malikdir. Biz öhdəmizə götürmüşük ki, bu prinsiplərə həmişə sadiq qalacaq, onları nəinki öz ölkələrimiz barəsində, həm də Yer kürəsinin hansı hissəsində yerləşməsindən asılı olmayaraq, bütün digər ölkələr barəsində müdafiə edəcəyik.

Biz beynəlxalq siyasətin bir çox məsələlərində Qazaxıstanla yekdilik, təcavüzə, separatçılığa, digər ölkə tərəfindən dövlət sərhədimizi pozmaq cəhdlərinə qarşı, təcavüzkar millətçiliyə, terrorizmə qarşı eyni mövqedən çıxış edirik. Belə mənfi hallar bütün dünyada getdikcə daha böyük narahatlığa səbəb olur və Yer kürəsinin

müxtəlif bölgələrində gərginlik yaradır. Bundan Qafqaz da, Zaqafqaziya da əzab-əziyyət çəkir. Belə halların baş verməsi təhlükəsi Mərkəzi Asiyada, Qazaxıstanın bilavasitə yaxınlığında da var. Ona görə də həmin prinsiplərə ciddi əməl olunmasının, onların qorunmasının dövlətlərimiz, xalqlarımız üçün başlıca əhəmiyyəti var. Təkrar edirəm, biz bütün bunlar barəsində çox ətraflı fikir mübadiləsi apardıq.

Mən razılıq hissi keçirirəm ki, Qazaxıstan respublikamıza böyük diqqət yetirir, onun bizdə səfirliyi fəaliyyət göstərir. Yeri gəlmişkən, Qazaxıstan Mərkəzi Asiyanın hələlik yeganə ölkəsidir ki, Azərbaycanda öz səfirliyinə malikdir. Bu, başqaları üçün layiqli nümunədir. Düşünürəm ki, münasibətlərimizi möhkəmlətmək və inkişaf etdirmək üçün biz də bu nümunəyə qoşulmalıyıq.

Bütün bunlar belə deməyə əsas verir ki, Qazaxıstanın müstəqilliyinin beşinci ildönümü bayramı bizim ümumi bayramımızdır. Qazax xalqmı bu gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik edir, ona səadət və firavanlıq arzulayıram.

Qazaxıstan Respublikasının şərəfinə, qazax xalqının şərəfinə, onun layiqli oğlu, Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayevin şərəfinə badə qaldırıram! Sizi təbrik edirəm! [452-453]

## TÜRKİYƏ RESPUBLİKASININ ÖLKƏMİZDƏ YENİ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ OSMAN FARUQ LOĞOĞLUNUN ETİMADNAMƏSİNİN TƏQDİMATINDA ÇIXIŞ

*Prezident Sarayı*

*24 oktyabr 1996-cı il*

Hörmətli cənab Osman Faruq Loğoğlu! Sizi Türkiyə Respublikasının Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri təyin olunmağınız münasibətilə təbrik edirəm.

Türkiyə Respublikası ilə Azərbaycan arasında olan dövlətlərarası əlaqələr xüsusi xarakter daşıyır. Bu əlaqələrin xüsusiliyi ondan ibarətdir ki, xalqlarımızın birgə tarixi keçmişi var, xalqlarımız bir kökə, eyni ənənələrə malikdir. Dilimiz, milli-mənəvi ənənələrimiz əsrlərdən-əsrlərə xalqlarımızı birləşdirmişdir və bunların üzərində Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələr indi çox uğurla qurulmaqdadır.

Azərbaycan öz dövlət müstəqilliyini əldə edən zaman onun istiqlaliyyətini dünyada tanıyan ilk dövlət Türkiyə Respublikası olmuşdur. Bu, təbiidir, çünki Türkiyə ilə Azərbaycan arasında bir-birinə qovuşmaq, yaxınlaşmaq, daha sıx əlaqələr qurmaq arzusu daim yaşamışdır və Azərbaycan öz müstəqilliyini elan edən kimi, Türkiyə, türk xalqı buna səs vermiş, Azərbaycanın müstəqilliyini birinci olaraq tanımışdır.

Keçən beş il ərzində Türkiyə ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf etmişdir. Bu əlaqələr dostluq, qardaşlıq əlaqələridir, həyatımızın bütün sahələrini – həm iqtisadi, həm də elmi, mədəni, mənəvi sahələri əhatə edir. Əlaqələrimizin bütün istiqamətlərdə inkişaf etməsi bizi çox sevindirir və bizim üçün çox böyük əhəmiyyətə malikdir. Biz ölkəmizdə dövlət quruculuğunda olan dəyişikliklərdə Türkiyə Respublika[453-454]sının keçdiyi böyük yoldan və təcrübədən daim istifadə edir, onlardan çox bəhrələnirik.

Bir neçə gün sonra biz Türkiyə Respublikasının yaranmasının 73-cü ilini birlikdə qeyd edəcək, bayram edəcəyik. 73 il ərzində respublika Türkiyə torpağına, Türkiyə xalqına böyük nailiyyətlər gətiribdir. Demokratiyanın inkişafı, insan hüquqlarının qorunması söz, mətbuat azadlığı, bəşəri dəyərlərdən istifadə olunması Türkiyə Respublikasını demokratik, mütərəqqi, dünyəvi dövlətlərdən biri kimi tanıdıb və Türkiyənin dünya birliyində özünə layiq yer tutmasına imkan yaradıbdır. Türkiyə xalqı, Türkiyə Respublikası böyük öndər Mustafa Kamal Atatürkün qoyduğu yolla gedərək bütün sahələrdə böyük nailiyyətlər əldə etmişdir. Bizim xalqımız buna sevinir, bunları özünün nailiyyətləri hesab edir və qeyd etdiyim kimi, həm də bu müvəffəqiyyətlərdən, təcrübədən istifadə etməyə çalışır və bundan sonra da çalışacaqdır.

Bu müddətdə dövlətlərimiz arasında yaranmış əlaqələr həm Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, həm də ölkəmizin dünya birliyində, beynəlxalq təşkilatlarda özünə layiq yer tutmasına kömək edibdir. Böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bütün beynəlxalq təşkilatlarda bütün beynəlxalq məsələlərin Türkiyəyə və Azərbaycana, bizim regiona aid olan məsələlərin həllində Türkiyə Respublikası ilə Azərbaycanın səsi, sözü, fikri eyni olubdur. Şübhəsiz ki, bu da beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda mövqeyimizin həm möhkəmlənməsinə, həm də bizim üçün maraqlı olan qərarların qəbuluna çox kömək edibdir.

Azərbaycanın həyatını ağırlaşdıran, çətinləşdirən problem Ermənistanın hərbi təcavüzüdür. Bu təcavüz səkkiz il öncə başlanıb. Ermənistan işğalçı qüvvələrinin Azərbaycana soxulması və bir neçə böyük dövlətin dəstəyi nəticəsində və bəzi başqa tarixi səbəblərə görə Azərbaycanın ərazisinin 20 faizi işğal olunub, işğal edilmiş torpaqlardan bir milyondan artıq vətəndaşımız didərgin düşüb, yerlərindən-yurdlarından məhrum olub və qaçqın vəziyyətində yaşayır. Biz bu problemin həll olunmasına çalışırıq. Bizim məqsədimiz Azərbaycanın [454-455] ərazi bütövlüyünü, müstəqilliyini, suverenliyini tam təmin etmək, sərhədlərinin toxunulmazlığını bərpa etməkdir. Bu məsələnin həllində Türkiyə həmişə Azərbaycanla bərabər olub, onu dəstəkləyib, Azərbaycanın mövqeyini öz mövqeyi kimi bilibdir. Bu, bizim üçün çox böyük köməkdir və buna görə Azərbaycan xalqı, dövləti Türkiyə xalqına və dövlətinə daim minnətdardır.

Biz bütün sahələrdə əməkdaşlıq edirik. Türkdilli dövlətlərin başçılarının görüşlərinin – əsası ilk dəfə 1992-ci ildə Ankarada qoyulmuş görüşlərin böyük nəticəsini biz hiss edirik. Oktyabrın 21-də Özbəkistanda – Daşkənddə türkdilli dövlətlərin başçılarının IV Zirvə görüşü olmuşdur. Bu görüş çox əhəmiyyətli və nəticəli olmuş, sübut etmişdir ki, belə bir forumun yaşaması çox zəruridir, bu günümüz və gələcəyimiz üçün böyük əhəmiyyəti var. Dövlətlərimizə, regionumuza aid olan məsələlərin belə görüşlərdə müzakirə edilməsi, fikir mübadiləsi aparılması, birgə mövqelərin müəyyənləşdirilməsi və bir çox qərarların qəbul edilməsi bizim dövlətlər üçün çox əhəmiyyətlidir. Azərbaycan Respublikası türkdilli dövlətlərin forumunda iştirakını çox əhəmiyyətli hesab edir və bu forumun inkişafı üçün səylərini bundan sonra da əsirgəməyəcəkdir.

Oktyabrın 21-22-də Türkiyənin prezidenti, əziz dostum və qardaşım Süleyman Dəmirəl ilə, Türkiyə nümayəndə heyəti ilə biz bərabər olmuşuq, Daşkənddə, Səmərqənddə birlikdə çox danışıqlar aparmış, görüşlər keçirmiş, həm türkdilli dövlətlərin başçılarının Zirvə görüşündə gündəlikdə duran məsələləri müzakirə etmişik, həm də özbək xalqının, bütün türkdilli xalqların böyük oğlu Əmir Teymurun anadan olmasının 660-cı ildönümünü birlikdə bayram etmişik, qeyd etmişik. Daşkənddə və Səmərqənddə keçirilən bu tədbirlər xalqlarımızın öz tarixi köklərinə, keçmişinə, ənənələrinə olan hörmət və ehtiramım bir daha nümayiş etdirib tarixi köklərimizin nə qədər dərin, bu günümüz, gələcəyimiz üçün nə qədər əhəmiyyətli olduğunu sübut edibdir.

Mən bu görüşlərdən çox böyük məmnunluq hissi keçirmişəm, xüsusən əziz dostum, qardaşım, Türkiyənin prezidenti Sü[455-456]leyman Dəmirəl ilə xüsusi söhbətlərimdə və görüşlərimdə Türkiyə üçün, Azərbaycan üçün mühüm olan məsələlərin müzakirə edilməsindən çox razıyam. Eyni zamanda biz hörmətli prezident Süleyman Dəmirəl ilə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması və Lissabonda ATƏT-in qarşıdakı Zirvə görüşündə bu məsələnin həllinə dair lazımi tədbirlər hazırlanması məsələsini də müzakirə etmiş və fikir mübadiləsi aparmışıq. Bunlar və indiyədək gördüyümüz işlər ölkələrimizin bir-birinə nə qədər yaxın, dost və qardaş olduğunu bütün dünyaya nümayiş etdirir.

Əmin olduğumu bildirmək istəyirəm ki, siz Türkiyə Respublikasının Azərbaycanda səfiri kimi bizim bu əlaqələrimizin bundan sonra da inkişafına xidmət göstərəcək və öz fəaliyyətinizi buna həsr edəcəksiniz. Siz Azərbaycanda özünüzü öz evinizdəki kimi hiss edə bilərsiniz, burada bütün qapılar sizin üçün açıqdır. Uğurlu fəaliyyətiniz üçün bütün imkanlar mövcuddur və heç bir məsələ barəsində çətinliyə, nə də başqa bir maneəyə rast gəlməyəcəksiniz. Yenə deyirəm, özünüzü burada evinizdəki kimi hiss edə bilərsiniz və əməkdaşlığımızı bundan sonra da bu şəkildə aparacağıq. Sizi təbrik edir, böyük, şərəfli işinizdə uğurlar arzulayıram. [456-457]

## QARA DƏNİZ HÖVZƏSİ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*24 oktyabr 1996-cı il*

Qara Dəniz Hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatı artıq öz müsbət nəticələrini verir və göstərir ki, bu çərçivədə yaxşı əməkdaşlıq etmək olar. Bu təşkilat yarananda bəlkə də onun haqqında fikirlər müxtəlif idi. Bu iqtisadi təşkilat artıq özünün çox zəruri, lazımlı və gələcəyi olduğunu sübut edibdir. Biz bu təşkilatla əməkdaşlıq edərkən şübhəsiz ki, bir çox problemlərimizi həll edəcəyik. Qara dəniz hövzəsində olan ölkələrin hamısı ilə bizim sıx əlaqələrimiz, iqtisadi əməkdaşlığımız var. Ancaq bu çərçivədə əməkdaşlığı daha da genişləndirmək olar. Odur ki, biz, şəxsən mən bu təşkilatın fəaliyyətinə yüksək qiymət verirəm və ona görə də Zirvə görüşünə gedirəm. Bu təşkilatın üzvü olan dövlətlərin başçılarının hamısı orada olacaqlar. Biz qarşıda duran məsələləri müzakirə edəcəyik. Hesab edirəm ki, belə bir müzakirə təşkilatın işinin fəallaşmasına, canlanmasına kömək edəcəkdir.

**Sual: Cənab prezident, ATƏT-in Lissabon Zirvə görüşünə az vaxt qalır. Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün bu ərəfədə konkret təklif üzərində iş gedirmi və qarşıdakı danışıqlarda Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması barədə məsələ müzakirə olunacaqmı?**

**Cavab:** Biz çalışırıq ki, Ermənistan da, bütün ölkələr də Azərbaycanın ərazi bütövlüyünü tanısınlar. Bütün ölkələr [457-458] Azərbaycanın ərazi bütövlüyünü tanıyırlar, təkcə Ermənistan tanımır. Güman edirəm ki, tanımağa məcbur olacaqlar.

Bəlkə də Ermənistan prezidenti Ter-Petrosyan ilə mənim Moskvada görüşüm, müzakirələrimiz olacaqdır. Çünki qarşıda duran müddət bizim üçün çox əhəmiyyətlidir. Dekabrın əvvəlində Lissabonda ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının Zirvə görüşü olacaqdır. Həmin görüşə qədər biz gərək Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması ilə əlaqədar yeni bir addım ataq. Yenə də deyirəm, bəlkə də bununla əlaqədar mənim Ter-Petrosyanla görüşüm oldu.

**Sual: Cənab prezident, Moskvada Rusiya Federasiyasının rəhbərləri ilə Sizin ikitərəfli görüşləriniz olacaqdırmı?**

**Cavab:** Bilirsiniz, vaxt azdır, amma bu görüşlərə həm imkan, həm də istək çoxdur. Hansının mümkün olacağını deyə bilmərəm, baxarıq.

**Sual: Cənab prezident, Orta Asiya dövlətlərinin Qara Dəniz Hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatına qoşulması barədə təklif vermisiniz. Bu barədə nə deyə bilərsiniz?**

**Cavab:** Bəli, mən Daşkənddə belə bir təklif verdim. Qazaxıstan və Özbəkistan respublikalarının rəhbərləri buna çox maraq göstərirlər. Yəqin ki, sabah Moskvada da mən bu təklifi irəli sürəcəyəm. Ola bilər ki, onlar gələcəkdə bu işə qoşulsunlar. [458-459]

## QARA DƏNİZ HÖVZƏSİ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

*Moskva*

*25 oktyabr 1996-cı il*

Hörmətli cənab sədr!
Hörmətli dövlət və hökumət başçıları!
Xanımlar və cənablar!

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində ənənəvi görüşümüzdə iştirak edən hörmətli dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin üzvlərini, beynəlxalq təşkilatların nümayəndələrini böyük məmnuniyyətlə salamlayıram.

Zirvə görüşümüzün sədri seçilməsi münasibətilə Rusiya Federasiyasının baş naziri hörmətli Viktor Stepanoviç Çernomırdini ürəkdən təbrik edirəm, diqqətə, mehribanlığa və qonaqpərvərliyə, Rusiyanın paytaxtı gözəl Moskva şəhərində işləməyimiz üçün əla şərait yaratdıqlarına görə Rusiya hökumətinə və bütün rusiyalılara minnətdarlığımı bildirirəm.

Rusiyanın prezidenti Boris Nikolayeviç Yeltsinin bizim Zirvə görüşümüzə göndərdiyi təbrik məktubunu böyük rəğbətlə dinlədim, ona öz dərin hörmət və ehtiramımı bildirirəm, tezliklə sağalmasını, Rusiyada demokratiya və tərəqqi naminə səmərəli işləməsini arzulayıram.

Biz Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının işində iştirak etməyimizə böyük əhəmiyyət veririk. Bu təşkilat yaşamağa qabil olduğunu, zəruri və perspektivli olduğunu getdikcə daha artıq dərəcədə nümayiş etdirir.

Razılıq hissi ilə demək olar ki, 1992-ci ildə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının dövlət başçılarının birinci Zirvə [459-460] görüşündən sonra keçən dövr ərzində xeyli iş görülmüş, xüsusən energetika, nəqliyyat, rabitə, ticarət sahəsində əməkdaşlığımız genişlənmiş və dərinləşmişdir.

Qara dəniz regionunda çox mühüm nəqliyyat arteriyaları sistemi vardır və hər hansı birgə layihənin müvəffəqiyyətlə həyata keçirilməsi kommunikasiyaları inkişaf etdirmək sahəsində əməkdaşlıqdan asılıdır. Bu baxımdan «Şərq-Qərb» və «Şimal-Cənub» dəhlizlərini yaratmaq yolu ilə müasir tranzit Avrasiya nəqliyyat şəbəkəsinin formalaşdırılması fəaliyyətimizin perspektivli istiqamətlərindən biridir. Həmin dəhlizlər nəticə etibarilə Qara dəniz regionunun bütün ölkələrinin nəqliyyat infrastrukturunu birləşdirməli və milli infrastrukturların Transavropa nəqliyyat sisteminin müvafiq qovşaqlarına inteqrasiya edilməsi perspektivini açmalıdır.

Qara dəniz hövzəsini Qafqazla, Xəzər hövzəsi ilə bağlayan amillər çoxdur. Buna görə də, zənnimcə, başqa Xəzəryanı ölkələrin də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının işinə cəlb edilməsi təşkilatımızın potensialını və imkanlarını əhəmiyyətli dərəcədə genişləndirə bilər.

Azərbaycan Respublikası öz coğrafi mövqeyinə görə Avropa ilə Asiya arasında nəqliyyat və telekommunikasiya əlaqəsini təşkil etmək imkanlarına malikdir və biz bu istiqamətdə bütün əlaqədar ölkələrlə sıx əməkdaşlıq etmək niyyətindəyik.

Biz Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ölkələrinin elektroenergetika sistemlərini birləşdirmək layihəsinə böyük əhəmiyyət veririk. Sevindirici haldır ki, Sofiyadakı Qara Dəniz Energetika Mərkəzi Avropa İttifaqı, beynəlxalq banklar və maliyyə strukturları bu layihənin həyata keçirilməsinə qoşulmuşlar.

Mən Qara Dəniz Ticarət və İnkişaf Bankının yaradılması haqqında sazişin təşkilatımızın iştirakçıları olan dövlətlər tərəfindən ratifikasiya edilməsini alqışlayıram və ümidvaram ki, gələn ilin əvvəllərindən həmin bank işləməyə başlayacaq, iri regional layihələrin investisiyalaşdırılmasını təmin edəcəkdir.

Ötən illər ərzindəki fəaliyyətimizin uğurlarını lazımınca qiymətləndirməklə yanaşı, qeyd etmək istəyirəm ki, Qara Də[460-461]niz İqtisadi Əməkdaşlıq Təşkilatı, zənnimcə, hələ də kifayət qədər çevik təşkilata çevrilməmişdir. Birgə layihələrin müvəffəqiyyətlə həyata keçirilməsi üçün əməkdaşlığın hüquqi bazasını daha dəqiq müəyyənləşdirmək, elə güclü təşkilat mexanizmi yaratmaq lazımdır ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının bütün strukturlarının işini əlaqələndirə bilsin.

Biz birgə səylərlə Qara Dəniz İqtisadi Əməkdaşlıq regionunda özəl sahibkarlıq üçün əlverişli şərait yaratmalıyıq və bundan ötrü təşkilatın işgüzar şurasının işini gücləndirməliyik.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının açıqlığı, Avropa İttifaqı, MDB, İqtisadi Əməkdaşlıq Təşkilatı ilə, digər belə regional birliklər və təşkilatlarla səmərəli əməkdaşlığı onun ən mühüm vəzifəsi və müvəffəqiyyətinin rəhnidir. Bu cür əlaqələr həm iqtisadiyyat sahəsində birgə layihələrin müvəffəqiyyətlə həyata keçirilməsinə, həm də təşkilatımızın beynəlxalq nüfuzunun artmasına kömək edərdi.

Hörmətli xanımlar və cənablar!

XXI əsrin, yeni minilliyin başlanğıcını bəşəriyyət böyük ümidlə gözləyir, sülhün, sabitliyin və əmin-amanlığın bərqərar olacağına ümid bəsləyir. Bizim borcumuz bu tarixi məqsədin həyata keçməsinə öz töhfəmizi verməkdən ibarətdir. Bu isə bizdən sülhün əleyhinə, müharibələrin, hərbi münaqişələrin qızışdırılmasına yönəldilən hər hansı niyyətin qarşısını qətiyyətlə almağı tələb edir.

Bir çox müharibələrin ağır nəticələrini öz üzərində hiss etmiş Qara dəniz hövzəsi regionunun buna xüsusi ehtiyacı vardır. Son vaxtlar genişlənmiş separatçılıq, davakar millətçilik, beynəlxalq terrorizm təzahürlərini biz əzm və qətiyyətlə dəf etməliyik. Biz beynəlxalq hüquqi prinsipləri, yəni hər bir ölkənin ərazi bütövlüyü, suverenliyi prinsiplərini qətiyyətlə müdafiə etməliyik.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının proqramlarının həyata keçirilməsi üçün Qafqazın necə böyük əhəmiyyətə malik olduğu məlumdur. Bununla yanaşı Qafqaz hərbi münaqişələrdən çox əzab-əziyyət çəkir, Qafqazın bütün ölkələri, bütün xalqları əzab-əziyyət çəkirlər. Ona görə də Qafqazda [461-462] hərbi münaqişələrə son qoyulması Qara dəniz hövzəsində uğurlu iqtisadi əməkdaşlıq üçün ən mühüm şərtdir.

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunu ələ keçirmək məqsədi ilə Ermənistan Respublikasının törətdiyi təcavüz ölkəmizə çox böyük ziyan vurmuşdur. Respublikamızın ərazisinin iyirmi faizi işğal edilmiş, bir milyondan çox soydaşımız öz yaşayış yerlərindən qovulmuş, qaçqına çevrilmişdir və çadır şəhərciklərində çox ağır şəraitdə yaşayır.

1994-cü ilin may ayında atəşkəs haqqında saziş əldə edilmişdir. Ona indiyədək əməl olunur. Lakin tam mənada sülh yoxdur. Biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına ardıcıl surətdə çalışırıq. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, qaçqınların öz yaşayış yerlərinə qaytarılması, Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət verilməsi münaqişənin həll edilməsi üçün əsas prinsiplərdir. Məncə, belə universal prinsip Qafqazda bütün hərbi münaqişələrə sülh yolu ilə son qoyulmasının əsasını təşkil edə bilərdi.

Zati-aliləri!

Şübhə etmirəm ki, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında bizim birgə işimiz regionumuzda sülhün və sabitliyin möhkəmlənməsinə, xalqlarımızın rifahının və tərəqqisinin yüksəlişinə kömək edəcəkdir.

Buna görə də mən bir daha bəyan edirəm ki, Azərbaycan Respublikası həmin nəcib məqsədlərə nail olmaq naminə təşkilatımız çərçivəsində ən sıx əməkdaşlığa hazırdır.

Diqqətinizə görə təşəkkür edirəm. [462-463]

## BAKIDA DÖVLƏTLƏRARASI "MİR" TELERADİO ŞİRKƏTİNİN AZƏRBAYCAN MİLLİ NÜMAYƏNDƏLİYİNİN OFİSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*28 oktyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar, möhtərəm qonaqlar!

Bu gün biz əlamətdar bir hadisənin – "Mir" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan şöbəsi ofisinin açılış mərasiminin şahidiyik.

Azərbaycan şöbəsi artıq çoxdan fəaliyyət göstərir. Lakin onun üçün lazımi şərait yaradılması bütün "Mir" şirkətinin, o cümlədən onun Azərbaycan nümayəndəliyinin həyat fəaliyyətində mühüm mərhələdir. Mən sizi bu əlamətdar hadisə münasibəti ilə təbrik edirəm. Ümidvaram ki, "Mir" Teleradio Şirkətinin Azərbaycan şöbəsinə səmərəli iş üçün belə əlverişli şərait yaradılması onun fəaliyyətində yeni mərhələ olacaq, "Mir" Teleradio Şirkətinin, o cümlədən Azərbaycanın bütün tamaşaçılarına müstəqil Azərbaycan Respublikasının, onun xalqının həyat və fəaliyyəti haqqında yeni, yaxşı verilişlər, yeni süjetlər, daha geniş informasiya verəcəkdir.

"Mir" Dövlətlərarası Teleradio Şirkəti Müstəqil Dövlətlər Birliyinin ölkələri üçün, habelə MDB ölkələrinin informasiya teleradio sistemlərinin dünya sistemi ilə inteqrasiyası üçün müstəsna əhəmiyyətə malikdir. Azərbaycan "Mir" Beynəlxalq Teleradio Şirkətinin fəaliyyətinə böyük əhəmiyyət verir, buna görə də 1993-cü ildə biz bu təşkilata daxil olduq və burada öz fəaliyyətimizi mühüm və gərəkli hesab edirik.

Müstəqil Dövlətlər Birliyi nisbətən yeni birlikdir, yaxın keçmişdə Sovet İttifaqına daxil olmuş indiki müstəqil ölkələr tərəfindən yaradılmışdır. Onlar həm öz böyük tarixinə, həm də Sovet İttifaqının tərkibində birgə həyat sahəsində böyük tarixə malikdirlər. Biz Müstəqil Dövlətlər Birliyində Azərbaycanın iştirakına böyük əhəmiyyət veririk. Təbiidir ki, burada iştirak etmək birliyin hər bir ölkəsinin çoxsahəli fəaliyyəti ilə, bunun[463-464]la yanaşı isə, əməkdaşlığımızın daha da genişlənməsinə xidmət etməli olan dövlətlərarası təşkilatlar tərəfindən təmin olunmalıdır. "Mir" Dövlətlərarası Teleradio Şirkəti də belə mühüm təşkilatdır. Düşünürəm ki, Müstəqil Dövlətlər Birliyinin yaratdığı bir çox digər təşkilatlarla yanaşı, məhz bu şirkət ölkələrimizin yaxınlaşması, onların iqtisadi inteqrasiyası prosesinin təmin olunması, elm, mədəniyyət, təhsil, insani əlaqələr sahəsində münasibətlərin möhkəmlənməsi üzrə tədbirlər görülməsi üçün çox şey edə bilər.

Heç bir şübhə yoxdur ki, MDB-yə daxil olan ölkələr öz dövlət müstəqilliyini möhkəmlədərkən, öz aralarında əlaqələri itirmək istəmirlər. Bu isə həm tarixi keçmişimizdən, həm də bugünkü günün tələblərindən, habelə əməkdaşlığımızı daha da möhkəmlətmək zəruriliyindən irəli gəlir. Ona görə də indiki halda məhz televiziya və radio əvəzsiz rol oynayır.

Azərbaycanda biz birlik ölkələri haqqında informasiya çatışmazlığına məruz qalmışıq. Ola bilsin ki, bunu digər MDB ölkələri də hiss edirlər. Doğrudur, ictimai Rusiya televiziyasının və Rusiya televiziyasının proqramları MDB-nin, demək olar, bütün ölkələrinə yayılır. Lakin onlar birliyin ayrı-ayrı ölkələrinin, o cümlədən də Azərbaycanın həyatında hər hansı çox böyük və əlamətdar hadisələr barəsində materialları təsadüfdən-təsadüfə verirlər. Belə çıxır ki, Rusiya televiziyası proqramlarının MDB ölkələrinə yayılması, məsələn, Azərbaycanda vətəndaşlara Rusiyada gedən bütün hadisələr barəsində kifayət qədər geniş informasiya verir, amma onlar Ukrayna, Qazaxıstan, Özbəkistan, Gürcüstan barəsində də bu cür informasiya almırlar. Biz bundan narahatıq ki, Azərbaycanda həyat haqqında, proseslər haqqında informasiya Rusiyanın və digər birlik ölkələrinin kütləvi informasiya vasitələrində lazımınca işıqlandırılmır.

Bunu nəzərə alaraq, "Mir" Beynəlxalq Teleradio Şirkəti misilsiz əhəmiyyətə malikdir. Hesab edirəm ki, bu şirkət öz fəaliyyət diapazonunu, yəni öz proqramlarının yayılması vaxtını xeyli genişləndirməlidir. Biz Azərbaycan haqqında, Qazaxıstan haqqında, Ukrayna haqqında, Belarus və başqa ölkələr haqqında informasiyanı müəyyən müddətdən sonra, deyəsən, hər 20 dəqiqədən bir alırıq. Bu, başlanğıc üçün yaxşıdır. Lakin nəyə çalışdığımızdan danışmalı olsaq, onda görərik ki, azdır. Buna görə də Azərbaycanda "Mir" Teleradio Şirkətinin fəaliyyətinə belə böyük əhəmiyyət verərək və onun Azərbaycan fili[464-465]alının sərəncamına belə böyük, geniş, çox yaxşı bina verərək ümid edirik ki, o öz fəaliyyətini genişləndirəcək və bütün respublikalar üçün verilişlərin vaxtını artıracaqdır. Bizim heç birimiz başqaları ilə müqayisədə daha çox efir vaxtına malik olmaq iddiasında ola bilmərik. Lakin efir vaxtı indiyədək olduğundan artıq olmalıdır. Biz bunu əsas tuturuq.

Müstəqil Dövlətlər Birliyinin gələcək inkişafına böyük ehtiyac var. Bir də deyirəm, biz başlıca beynəlxalq prinsipləri əsas tutaraq MDB-də iştirakımıza böyük əhəmiyyət veririk. Bunu bilmək lazımdır ki, MDB keçmiş Sovet İttifaqının, hansısa konfederasiyanın surəti deyildir. Müstəqil Dövlətlər Birliyi hər bir ölkənin bərabərhüquqlu üzv olduğu beynəlxalq təşkilatdır. Ona görə də beynəlxalq hüquq normaları

prinsiplərinə, hər bir dövlətin ərazi bütövlüyünə və tam müstəqilliyinə, suverenliyinə əməl edilməsi, bir-birinin işlərinə qarışmamaq MDB-nin bundan sonra möhkəmləndirilməsi və inkişafının əsasıdır. Biz bu prinsipləri əsas tutaraq Müstəqil Dövlətlər Birliyinə daxil olmuşuq, onun fəaliyyətində iştirak edirik. Hesab edirəm ki, məhz bu prinsiplərə əməl olunması bizim birliyin müvəffəqiyyətlə inkişafını, möhkəmlənməsini və genişlənməsini təmin edə bilər.

Bir də deyirəm, MDB-nin çoxlu müxtəlif təşkilatları var, biz onlarda iştirak edirik. Lakin ümumən birliyimizin və ona daxil olan hər bir ölkənin fəaliyyətini işıqlandıra biləcək, iqtisadi, elmi, mədəni, insani əlaqələrimizin möhkəmlənməsinə kömək edə biləcək ən təsirli, səmərəli təşkilat "Mir" Teleradio Şirkətidir. Şübhə yoxdur ki, bizim zəmanəmizdə televiziya və radio digər kütləvi informasiya vasitələri ilə müqayisədə misilsiz, müstəsna əhəmiyyətə malikdir. Televiziya və radionun rolu artır və artacaqdır. Dünyada çox iri şirkətlər var, onlar təkcə ayrı-ayrı ölkələrdə deyil, həm də bütün dünyada ictimai ovqat yaradırlar. "Mir" şirkəti də bu cür teleradio şirkəti olmaq imkanına malikdir.

Hesab edirəm ki, "Mir" şirkəti tam bərabərlik, qarşılıqlı anlaşma və təbii olaraq, hər bir respublikanın hüquqlarına hörmət edilməsi və onların mənafelərinin gözlənilməsi prinsipləri əsasında fəaliyyət göstərməlidir. Zənnimcə, Davud İmanov öz çıxışında heç bir qərəz güdmədən dedi ki, "Mir" Teleradio Şirkəti "imperiya" olacaqdır. Yox, bizə daha imperiyalar lazım deyildir. Bizə demokratik təşkilatlar gərəkdir. Elə təşkilatlar ki, [465-466] burada hamı bərabər hüquqlarla iştirak edir, hər bir respublikanın, hər bir xalqın, dövlətin suveren hüquqlarını təmin edirlər.

Ölkələrimizdə demokratikləşdirmə prosesləri gedir, biz yeni dövlətlər qurulması yolu ilə irəliləyirik. Məsələn, biz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlətin bərqərar olunması yolu ilə gedirik, bazar iqtisadiyyatının, sahibkarlığın, özəl təşəbbüsün, özəl mülkiyyətin, dünyanın bütün ölkələri ilə inteqrasiya xarakterli iqtisadi əlaqələrin inkişaf etdirilməsinə, xarici sərmayələrin ölkəmizə axınının təmin olunmasına yönəldilmiş iqtisadi islahatlar aparırıq. Bunların hamısı ümumiyyətlə, bütün sahələrin demokratikləşdirilməsi deməkdir. Buna görə də hesab edirəm ki, bu istiqamət, bu fəaliyyət "Mir" Teleradio Şirkətinin, o cümlədən onun Azərbaycan filialının proqramlarında xüsusi yer tutmalıdır. Bu proseslər birliyimizin ölkələrindən hər birində gedir, onların hər birinin öz təcrübəsi, maraqlı nailiyyətləri, uğurları, bununla bərabər, nöqsanları və çatışmazlıqları da var. Odur ki, təcrübə mübadiləsi, ondan istifadə etməyimiz, demokratik islahatların aparılmasında, bir-birimizə kömək göstərmək sahəsində, ölkələrimizin həyatını demokratikləşdirmək işində "Mir" Teleradio Şirkəti olduqca böyük əhəmiyyətə malikdir və çox şey edə bilər.

Qısası, bu gün biz "Mir" Beynəlxalq Teleradio Şirkətini üç il bundan əvvəl olduğuna nisbətən daha genişmiqyaslı təşkilat kimi təsəvvür edirik. Məsələn, Azərbaycana bu təşkilata qoşulmaq təklif edildikdə mən, sözün düzü, düşünürdüm ki, bu, nə verəcək, bütün bunlar necə olacaq, nə kimi müsbət və mənfi hallar olacaqdır? Müəyyən dərəcədə imperiya təzyiqi təhlükəsi var idi. Şükürlər olsun, ötən illər göstərdi ki, bu təşkilat zəmanəmizin demokratik prinsiplərini əks etdirən, MDB-yə daxil olan bütün ölkələrin və ümumiyyətlə, birliyimizin rəhbər tutmalı olduqları həqiqi demokratik prinsiplərə əsaslanan əsl demokratik təşkilatdır.

Ona görə də mən indi bu mərasimdə məmnuniyyətlə iştirak edirəm. "Mir" Teleradio Şirkətinin sədri, qonağımız Şalahmetovu, onun müavini, çoxdan tanış olduğum Belikovu, MDB [466-467] ölkələrinin buraya gəlmiş bütün nümayəndələrini salamlayıram. Birliyin, demək olar, bütün ölkələrinin nümayəndələrinin Azərbaycana gəlməsi tədbirinin özü də mühüm hadisədir. Ümidvaram ki, sizin Bakıda birgə işiniz, Azərbaycanın bugünkü həyatı ilə tanışlıq ümumi işə fayda gətirəcək, qarşılıqlı fəaliyyətimizi, birliyimizi, habelə "Mir" Dövlətlərarası Teleradio Şirkətini möhkəmləndirəcəkdir.

Sizə uğurlar arzulayıram, sizi bu hadisə münasibətilə təbrik edirəm. Müstəqil Dövlətlər Birliyinin bütün xalqlarına, bütün dövlətlərə qarşılarında duran vəzifələrin həyata keçirilməsini, uğurlar və firavanlıq arzulayıram! Sağ olun. [467-468]

## AZƏRBAYCAN ŞAİRİ VƏ DRAMATURQU, BÖYÜK ƏDİB HÜSEYN CAVİDİN MƏQBƏRƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

*Naxçıvan*

*29 oktyabr 1996-cı il*

Əziz bacılar, qardaşlar!
Əziz həmvətənlər, naxçıvanlılar!
Hörmətli qonaqlar, dostlar!

Mən sizin hamınızı respublikamızın, xalqımızın həyatında olan bu əlamətdar hadisə münasibətilə – Azərbaycan xalqının böyük şairi, yazıçısı, dramaturqu, filosofu, alimi Hüseyn Cavidin xatirəsinə həsr edilmiş bu məqbərənin açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Əziz naxçıvanlılar, əziz bacılarım, qardaşlarım!

Mən sizi ürəkdən salamlayıram. Sizə öz hörmət və ehtiramımı, sevgi və məhəbbətimi bildirirəm.

Üç il yarımdır ki, mən sizdən ayrı düşmüşəm, Naxçıvan torpağını tərk edib Bakıya getmək məcburiyyətində olmuşam. Üç il yarım ərzində mənim Bakıda, Azərbaycan Respublikasının rəhbərliyində gördüyüm işləri siz bilirsiniz. Ancaq bilin, inanın, mən həmişə sizinlə bir yerdə olmaq arzusunda olmuşam, sizin həsrətinizi çəkmişəm, həmişə yenidən Naxçıvana qayıdıb bu doğma torpaqda yaşamaq istəmişəm.

Bu gün siz – Naxçıvan Muxtar Respublikasının vətəndaşları, sakinləri, əziz bacılarım, qardaşlarım məni böyük məhəbbət hissi ilə qarşılayırsınız. Küçələrdə, meydanlarda .hamınızın xoş sifətini, hissiyyatlarınızı və sevincinizi görürəm. İnanın ki, mənim sevincim, daxildə keçirdiyim hissiyyatlar sizin hamınızınkından üstündür. Çünki sizinlə məni bağlayan təkcə bu torpaqda doğulmağım, böyüyüb həyata atılmağım deyil. Sizinlə məni bağlayan Azərbaycan Respublikası, o cümlədən muxtar respublika üçün çox ağır bir dövrdə – 1990-cı ildən sizinlə bir yerdə yaşamağım, Naxçıvanı sizinlə birgə qorumağımdır. Ona [468-469] görə də mən bu gün buraya gəlməyimdən çox məmnunam, sevinirəm. Buraya çox böyük sevinclə gəlmişəm. Sizinlə görüş mənim üçün böyük bayramdır, sevincdir. Bu gün mən bu görüşə, həm də bir yerdə keçirdiyimiz ağır, ancaq şərəfli günlərə görə sizə təşəkkürümü bildirirəm.

1990-cı ilin qanlı yanvar hadisəsini xatırlayıram. Azərbaycan xalqına qarşı böyük cinayət, təcavüz edilmişdi. Azərbaycan xalqı ayağa qalxdı. Xalqımız öz milli azadlığı, müstəqilliyi uğrunda mübarizəyə qalxdı. Naxçıvanlılar ön sırada idilər.

Mən Moskvada olarkən Azərbaycana qarşı edilən bu cinayətə etiraz səsimi qaldırdım, xalqımla, millətimlə həmrəy olduğumu bildirdim və orada olan imkanlarla Azərbaycan xalqının müdafiəsinə çalışdım. Orada eşitdim ki, naxçıvanlılar bu dəhşətli faciə ilə əlaqədar ayağa qalxıblar, hətta o vaxt cəsarətli bir qərar qəbul ediblər: Azərbaycana qarşı edilən cinayətə, təcavüzə görə Naxçıvan Muxtar Respublikasının Sovetlər İttifaqının tərkibindən çıxması haqqında qərar qəbul ediblər.

İndi Sovetlər İttifaqı dağılıb. O vaxtdan çox illər keçib, çox şeylər unudulub. Sovetlər İttifaqına mənsub olmuş ölkələr öz müstəqilliyini əldə ediblər. Ancaq naxçıvanlıların bu cəsarətli addımı o vaxt Sovet İttifaqında yeganə bir addım idi. Bu xəbər bütün dünyaya yayıldı ki, Naxçıvan Muxtar Respublikası Sovetlər İttifaqından çıxmaq barədə qərar qəbul edibdir. Bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi, nümayiş etdirdi.

O il Azərbaycan xalqı üçün ağır il idi. Ona görə də mən xalqımla, millətimlə, ölkəmlə bir yerdə olmaq üçün iyun ayında Azərbaycana qayıtmağı qərara aldım. Azərbaycana, Bakıya gəldim. Ancaq o vaxtkı mürtəce qüvvələr, Azərbaycan xalqının milli mənafeyinə zidd olan qüvvələr mənə Bakıda yaşamağa imkan vermədilər. Mən Naxçıvana gəldim.

Naxçıvan məni qucaqladı, bağrına basdı. Xatirimdədir, Naxçıvan Muxtar Respublikası əhalisinin əksər hissəsi o axşam buradan, Cavidin məzarından Azadlıq meydanınadək olan ərazidə toplaşmışdı. Dünya ölkələrinin mətbuatı o vaxt xəbər verirdi ki, Azadlıq meydanına 80-90 min adam toplaşmışdır. Naxçıvanlılar mənimlə görüşə gəlmişdilər. Mən isə Naxçıvana demək olar ki, gizli gəldim. Heç kəsə xəbər vermədim. Gizli olaraq gəlib öz bacımın evində yerləşdim. Ancaq bir saatdan sonra naxçıvanlılar bunu bildilər, mənimlə görüşə gəldilər və [469-470] nəhayət, Azadlıq meydanına toplaşıb məni buraya dəvət etdilər. Mən isə dedim ki, ilk addımımı Hüseyn Cavidin məzarının üzərinə doğru atacağam. Belə də oldu. Buraya gəldim, Hüseyn Cavidin qəbrini ziyarət etdim. Ancaq pərişan oldum. Çünki mən 1982-ci ilin sonunda Moskvaya gedərkən qərar vermişdim ki, Hüseyn Cavidin qəbri üzərində məqbərə tikilməli, yaradılmalıdır.

Qəbri çox bərbad vəziyyətdə gördüm, Ürəyim sıxıldı. Onsuz da böyük sıxıntılar içərisində yaşayırdım. Ancaq buraya – Azadlıq meydanına, Hüseyn Cavidin məzarının ətrafına toplaşmış naxçıvanlıların əhval-ruhiyyəsi, mənə olan sevgisi, məhəbbəti – onlar hamısı məni bu vəziyyətdən çıxartdı.

O gündən 1993-cü il iyunun 9-dək biz sizinlə burada bir yerdə yaşadıq. Bəlkə də tale belə etməli idi ki, mən Naxçıvana gəlməli idim. Bildiyiniz kimi, o illər Naxçıvanda bizim həyatımız çox ağır, çətin idi. Naxçıvan blokadada idi. Ermənistan ərazisi vasitəsilə respublikamızdan ayrı düşən Naxçıvanın Azərbaycanın mərkəzi hissəsi ilə bütün əlaqələri kəsilmişdi. Burada insanların yaşayışı çox ağır, çətin idi. Mən də sizinlə bir yerdə eyni şəraitdə, vəziyyətdə yaşamağa başladım. Bir yerdə yaşadıq. Ağır günlərimiz oldu. Naxçıvanda qışda şaxta 40 dərəcəyə qalxırdı. Ağır illər, çətin dövr idi. Su, elektrik enerjisi çatışmırdı, qaz, istilik yox idi, yemək yox idi, ərzaq sarıdan çətinlik çəkirdik. Xatirinizdədir, mən sizə dəfələrlə dedim, – bərabər yaşayacağıq, bu vəziyyətdən bərabər çıxacağıq. Əgər burada şaxtadan donsaq, bir yerdə donacağıq. Əgər ac qalsaq da, hamımız bir yerdə ac qalacağıq. Ancaq nə qədər çətin olsa da donmadıq, ac da qalmadıq. Şaxta olsa da yaşadıq, bu çətin dövrdən çıxdıq.

Ancaq bizim çətinliyimiz təkcə həyat şəraiti ilə bağlı deyildi. Ermənistan ilə Azərbaycan arasında gedən müharibədə Ermənistan silahlı qüvvələri Naxçıvan ərazisinə daim hücum etməyə çalışırdılar. Bir neçə belə hücum oldu. Sədərəyə, Şadaya, Buzqova, Gərməçatağa, Ordubadın bir neçə kəndinə hücumlar oldu. Naxçıvanlılar şəhidlər verdilər, qəhrəmancasına döyüşdülər. Sədərək bölgəsində 40 gündən artıq döyüş getdi. Biz çoxlu şəhidlər, itkilər verdik. Amma naxçıvanlılar sınmadılar, onların iradəsi möhkəm oldu. Torpağımızı, Azərbaycan ərazisini birgə qoruyub saxladıq və bu gün də qoruyub saxlayırıq.

O illər mənim üçün əziz, çox şərəfli illər olubdur. Mən bu [470-471] illəri sizinlə bir yerdə keçirmişəm. Ona görə də mən buraya, bu torpağa daha da bağlı olmuşam. 1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi baş verərkən, respublikamız böyük təhlükə qarşısında olarkən, məni dəfələrlə Bakıya dəvət edərkən bundan imtina edirdim. Onda mən Naxçıvandan getmək istəmirdim. Mən Naxçıvanda yaşayıb naxçıvanlılarla bir yerdə Naxçıvanı daha da inkişaf etdirməyə çalışırdım. Ancaq Azərbaycanın vəziyyəti və mənə olan bir çox müraciətlər məni getməyə məcbur etdi.

Mən gedərkən təsəvvür etmirdim ki, qayıtmayacağam. Xatirinizdədir, mən sizə dedim ki, bir neçə gündən sonra geriyə dönəcəyəm. Bu, həqiqət idi, mən belə fikirlə getdim. Ancaq o vaxt Bakı, Azərbaycan elə bir ağır vəziyyətdə oldu ki, mən orada daimi qalmalı oldum. Üç il yarımdır ki, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, respublikamızı Ermənistan təcavüzündən qurtarmaq üçün əlimdən gələni əsirgəmirəm və bu yolda gecə-gündüz çalışıram.

Respublikamız bu illərdə müstəqillik yolunda çox nailiyyətlər əldə edibdir. Ən böyük nailiyyət odur ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi möhkəmlənib, müstəqil Azərbaycan Respublikası bütün dünyada tanınır, dünya birliyində özünə layiq yerini tutubdur. Ermənistan-Azərbaycan münaqişəsinin qarşısını almaq üçün 1994-cü ilin may ayında atəşkəs haqqında saziş əldə olunubdur. İki il yarımdır ki, döyüşlər yoxdur, qan tökülmür. Ancaq eyni zamanda, hələ böyük sülh də yoxdur. Bu müddətdə biz məsələnin sülh yolu ilə həll olunması üçün bütün tədbirləri görürük. Demək olar, elə bir gün yoxdur ki, biz bu məsələ ilə məşğul olmayaq. O gün yoxdur ki, bu barədə yeni bir addım atmayaq, yeni bir tədbir görməyək.

Siz bunları bilirsiniz. Mən sizi əmin edirəm ki, Azərbaycan Respublikasını bu vəziyyətdən çıxarmaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün, işğal olunmuş torpaqları azad etmək, işğal olunmuş torpaqlarımızdan didərgin düşmüş vətəndaşlarımızı öz yerlərinə-yurdlarına qaytarmaq üçün bundan sonra da əlimizdən gələni edəcəyik. Ümidvaram ki, biz buna nail olacağıq, Azərbaycan bu vəziyyətdən çıxacaq, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, qaçqınlar öz yerlərinə-yurdlarına qayıdacaqlar. Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, inkişaf edəcəkdir.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın ayrılmaz bir [471-472] hissəsi kimi milli azadlıq uğrunda, dövlət müstəqilliyimiz uğrunda gedən mübarizələrdə həmişə ön sırada olmuş, təşəbbüskar olmuşdur. Azərbaycan dövlət müstəqilliyi, milli azadlıq yolunda gedən mübarizənin dayağı olmuşdur və bu gün də dayağıdır, gələcəkdə də belə olacaqdır. Ona görə də Naxçıvana, Naxçıvan Muxtar Respublikasına Azərbaycanın hər yerində böyük hörmət və ehtiram hissi var.

Bu gün biz buraya böyük yazıçı, şair, dramaturq Hüseyn Cavidin xatirəsi ilə əlaqədar toplaşmışıq. Burada çıxış edən şəxslər Hüseyn Cavidin yaradıcılığı haqqında, Azərbaycan xalqı qarşısında onun xidmətləri haqqında ətraflı danışdılar.

Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır.

Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır. O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq

olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə, həddindən artıq xidmət edən bir insan olmuşdur.

Hüseyn Cavid Azərbaycan xalqının tarixində görkəmli yer tutub. Məhz bunlara görə də biz 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illik yubileyi haqqında böyük bir qərar qəbul etdik. Bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, mən bu qərarın həm təşəbbüskarıyam, həm də onun müəllifiyəm. Bu gün mən xoşbəxtəm ki, həmin o vaxt nəzərdə tutduğum arzularım, istəklərim 15 ildən sonra yerinə yetirilir.

Burada deyildi, 1982-ci ildə Hüseyn Cavidin cənazəsini Uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu, böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim. O vaxt Hüseyn Cavidin cənazəsini Azərbaycana gətirərkən onu Bakıda, yaxud doğulduğu yerdə torpağa vermək barədə müxtəlif fikirlər var idi. Bu məsələ müzakirə[472-473] olundu. Yazıçılarımız, alimlərimiz, ziyalılarımız böyük fikir mübadiləsi apardılar. Onlar qərar qəbul etdilər. Bu, mənim də qərarım idi ki, cənazə Naxçıvana gətirilsin. Naxçıvan böyük şəxsiyyətlər yetişdirmiş bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Ona görə də Hüseyn Cavidin cənazəsinin Naxçıvanda torpağa verilməsi həm Hüseyn Cavidin ruhuna olan hörmət idi, həm də Azərbaycanın ayrılmaz hissəsi, müqəddəs guşəsi olan Naxçıvana hörmət və ehtiramın əlaməti idi.

O vaxt biz bu işi etdik. Mən bu işi edərkən ziyalılarımıza, yazıçılarımıza, alimlərimizə bildirdik ki, Hüseyn Cavidin cənazəsi adi qəbiristanda yox, Naxçıvan şəhərinin mərkəzində, onun doğulduğu evin yanında, görkəmli bir yerdə torpağa veriləcək. O məqsədlə ki, bu, adi qəbir olmayacaq. Qəbirin üzərində böyük məqbərə tikiləcək və bu, böyük bir abidəyə, ibadətgaha çevriləcəkdir.

Belə fikirlərlə, duyğularla, arzularla o vaxt biz bu qərarı .qəbul etdik. Təəssüflər olsun ki, bunu sonrakı illərdə həyata keçirmək mümkün olmadı. Bilirsiniz ki, mən 1982-ci ilin sonunda Azərbaycandan Moskvaya işə keçdim. Doğrudur, orada işləyərkən də mən bu məsələyə maraq göstərirdim və müəyyən addımlar atırdım. Ancaq Moskvada çox böyük işlərlə məşğul olmağım, eyni zamanda, təəssüf ki, o vaxt Azərbaycana rəhbərlik edən şəxslərin bunun mahiyyətini, əhəmiyyətini dərk edə bilməməsi məsələnin belə uzanmasına gətirib çıxardı.

1990-cı ildə mən Naxçıvana gələndən bir neçə gün sonra sakit bir vaxtda təkcə, yenə də Hüseyn Cavidin qəbrinin yanına gəldim, düşündüm: Bəs o məqbərəni biz nə vaxt tikə biləcəyik? Bir neçə təşəbbüs etdim. Mənim əziz həmvətənlərim, ancaq siz də bilirsiniz ki, o vaxt mənim bu imkanlarım yox idi. Mən bu təklifi verə bilərdim, verirdim, həm burada, həm də Bakıda çoxlarına deyirdim. Ancaq bu işi həyata keçirməyə onları sövq etmək, yaxud məcbur etmək imkanım olmadı.

Görünür, Allah hər bir şeyi ədalətlə edir. Nəhayət, mən Azərbaycanın prezidenti seçiləndən sonra dərhal bu məsələ ilə məşğul oldum. Turan xanım bilir, onu bir neçə dəfə yanıma dəvət etdim. Layihələr hazırlamaq barədə memarlara sifarişlər verdim. Bir çox layihələr hazırlandı. O layihələrə mən Turan xanımla, bir çox memarlarla birlikdə bir neçə dəfə baxmışam. Nəhayət, memar Rasim Əliyevin təklif etdiyi [473-474] layihə əsasən qəbul olundu. Ancaq əsasən. Onun üzərində çox işləmək lazım oldu. Düşünməyin ki, mən bu gün təvazökarsızlıq edirəm, ancaq bu həqiqətdir, onu demək istəyirəm ki, bu məqbərənin necə olması, hansı memarlıq üslubunda olması haqqında çox düşünmüşdüm. Ona görə də öz tövsiyələrimi, mülahizələrimi verdim, fikirlərimi söylədim. Memar Rasim Əliyev onları həyata keçirə bildi. Son layihə təsdiq olunandan sonra məqbərənin inşasına başladıq.

İnşaat işləri qısa müddətdə getdi. Böyük məmnuniyyət hissi ilə deyə bilərəm ki, Naxçıvan Muxtar Respublikasının rəhbərliyi – Ali Məclisin sədri Vasif Talıbov, baş nazir Şəmsəddin Xanbabayev çox səylər göstəriblər. Respublika baş nazirinin müavini Abid Şərifovu mən bu işə təhkim etmişdim, onu dəfələrlə buraya göndərmişdim. Türkiyənin "Star" şirkəti bu inşaatla məşğul olub. Nəhayət, biz böyük bir abidənin önündə durmuşuq, bayram edirik. Bu gün böyük iftixar hissi ilə bu abidəni birlikdə açmağa gəlmişik.

Mən çox məmnunam, sevinirəm ki, 15 il bundan əvvəl qəbul etdiyim qərar həyata keçir. Mənim arzularım həyata keçir. Mən sizi də, özümü də bu münasibətlə təbrik edirəm.

Mən çox məmnunam ki, bu gün bu bayram mərasiminə qonşu Türkiyədən, İrandan da nümayəndələr, qonaqlarımız gəliblər. Bu təbiidir. Türkiyə və İran Azərbaycanın yaxın qonşularıdır, dostlarıdır. Ölkələrimiz arasında dostluq, qardaşlıq əlaqələri var. Bu əlaqələr gündən-günə möhkəmlənir, inkişaf edir. Naxçıvan ağır vəziyyətdə, blokada şəraitində olduğu bir zaman muxtar respublikanın başçısı kimi o vaxt mən Türkiyəyə, İrana müraciət etdim. O ağır dövrdə onların dövlət, hökumət başçılarının yardımı ilə biz lazımi kömək alırdıq. Biz Türkiyə Cümhuriyyəti ilə birlikdə həsrət, ümid körpüsü deyilən körpünü tikdik. Naxçıvan Muxtar Respublikasının ərazisindən Türkiyə ilə Azərbaycanı bağlayan yol açılıbdır. Bu yol indi böyük dostluq, qardaşlıq yolu olubdur, ölkələrimizi bir-birinə bağlayan yol olubdur. O həm Türkiyə üçün, həm də Azərbaycan, Naxçıvan üçün çox böyük əhəmiyyət kəsb edir.

Bu gün Türkiyənin milli bayramıdır, Türkiyə Cümhuriyyəti yaranmasının 73-cü ildönümüdür. Türkiyə Cümhuriyyətindən millət vəkili, İqdır vilayətinin valisi və başqa nümayəndələr burada iştirak edirlər. Bu gün mən Türkiyə xalqını, dövlətini, qardaş Türkiyə Cümhuriyyətini bayram münasibətilə təbrik [474-475] edirəm. Azərbaycan xalqının, dövlətimizin Türkiyə xalqına hörmət və ehtiramını bildirirəm.

İki gün bundan əvvəl Moskvada Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə, ondan bir neçə gün əvvəl Daşkənddə türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşündə olarkən Türkiyənin prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəl ilə çox ətraflı söhbətlər apardıq. Türkiyə-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi və Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması haqqında dəyərli söhbətlərimiz olubdur.

İran prezidentinin birinci müavini, baş nazir, hörmətli cənab Həbibi dünən Azərbaycana rəsmi səfərə gəlmişdir. Dünən Bakıda bizim çox əhəmiyyətli danışıqlarımız, görüşlərimiz olubdur. O, bu gün də Azərbaycanda ziyarətdədir, sabah da Azərbaycanda olacaqdır. Oktyabrın 31-də cənab Həbibi Naxçıvana ziyarətə gələcəkdir.

Bunlar hamısı Azərbaycan Respublikasının qonşu dövlətlərlə, birinci növbədə Türkiyə və İran ilə dostluq, qardaşlıq əlaqələrinin rəmzidir, təzahürüdür. Mən çox məmnunam ki, bu bayram günündə biz hamımız bir yerdəyik, qonşu ölkələrin nümayəndələri burada iştirak edirlər. Mən buna görə təşəkkür edirəm və öz qardaş-bacılarımıza hörmət və ehtiramımı bildirirəm.

Hüseyn Cavidin məqbərəsi Naxçıvanın memarlıq tarixinə yeni bir səhifədir. Naxçıvanda böyük memarlıq, milli, mədəni abidələrimiz var. Bu abidə də həmin ənənələrin davamıdır. Ümidvaram ki, "Möminəs xatun" abidəsi kimi, bu abidə də əsrlər boyu yaşayacaqdır. Güman edirəm ki, gələcək nəsillər bu günü xatırlayacaq və bu abidəni yaradanları unutmayacaqlar.

Bu abidəni yaradanlara, yəni onun inşası ilə məşğul olanlara təşəkkür edirəm. Memar Rasim Əliyevə, heykəltəraş Ömər Eldarova, "Star" şirkətinə təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, memarlarımız, rəssamlarımız, heykəltəraşlarımız, mədəniyyət xadimlərimiz Azərbaycan mədəniyyətini, memarlığını bundan sonra da inkişaf etdirəcəklər.

Mən sizin hamınızı bu bayram münasibətilə bir daha təbrik edirəm. Hüseyn Cavid məqbərəsini təntənəli surətdə açıq elan edirəm. [475-476]

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*30 oktyabr 1996-cı il*

Əziz həmvətənlər, əziz bacılar, qardaşlar, əziz dostlar,
əziz xanımlar və cənablar!

Mən sizi və sizin simanızda Naxçıvan Muxtar Respublikasının bütün vətəndaşlarını, sakinlərini səmimi qəlbdən salamlayıram və mənim üçün əziz, doğma olan Naxçıvan torpağında bu günlər yenidən olmağımdan çox məmnun qaldığımı bildirirəm.

Dünən də, bu gün də bizim çox səmərəli, eyni zamanda çox ehtiraslı, qızğın, çox sevincli görüşlərimiz olubdur. Mən sevinirəm ki, böyük bir fasilədən sonra yenə də Naxçıvandayam. Görürəm, siz də sevinirsiniz ki, mən Naxçıvana gəlmişəm, sizinlə birlikdəyəm. Siz mənim üçün doğmasınız və şübhə etmirəm ki, mən də sizin üçün doğmayam. Öz hədsiz sevincimi sizə çatdırmaq istəyirəm. Sizə olan sevgimi, məhəbbətimi sizə çatdırmaq istəyirəm. Sizi və bütün Naxçıvan camaatını qucaqlayıram, öpürəm, sizə öz təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Dünən biz Azərbaycan xalqının böyük yazıçısı, şairi, dramaturqu, alimi, filosofu Hüseyn Cavidin xatirəsini yad etdik, onun məzarı üzərində tikilmiş məqbərənin təntənəli açılışı mərasimində iştirak etdik. Böyük bir mədəniyyət, elm bayramı keçirdik. Bu, tək bizim, yəni buraya toplaşanların deyil, bütün Azərbaycan xalqının, vətəndaşlarının bayramıdır. Dünən bu bayram Naxçıvan Muxtar Respublikası əhalisinin, demək olar ki, hamısını ayağa qaldırmışdı. Küçələrdə, meydanlarda, Hüseyn Cavidin məqbərəsinin ətrafında on minlərlə, yüz minlərlə insan toplaşmışdı. Hamısı bayram əhval-ruhiyyəsində, sevinc içində, iftixar hissi ilə bir-birini təbrik edirdi.

Bu, mənim üçün böyük bayram idi, çünki, dünən də dedim, bu gün də deyirəm, vaxtilə, on dörd il bundan öncə qəbul etdiyim qərarın həyata keçirilməsinə nail ola bildim. Bu, mənim üçün böyük təsəlli, böyük mənəvi bayramdır.

Bu gün siz mənim haqqımda, sizinlə bərabər Naxçıvanda [476-477] yaşadığım dövr haqqında, birlikdə işlədiyimiz, çalışdığımız dövr haqqında çox xoş sözlər dediniz və mənə olan hisslərinizi bildirdiniz. 1990-1993-cü illərdə Naxçıvanda keçirdiyim dövr mənim böyük həyatımda həqiqətən xüsusi yer tutur. Deyə bilərəm ki, bu, mənim üçün ən əziz və ən hörmətli illərdəndir.

Mən bu torpaqda doğulmuşam, burada təhsil almışam, buradan həyata addımlamışam, daim bu torpaqla bağlı olmuşam. Bütün dövrlərdə bu doğma torpağıma xidmət etmək üçün əlimdən gələni etmişəm. Ancaq 1990-cı ildə mən yenidən Naxçıvana gəldiyim zaman və üç il müddətində bir yerdə yaşadığımız, işlədiyimiz zaman bu torpağa olan minnətdarlığım qat-qat artdı.

Şübhəsiz ki, o illər biz sizinlə birlikdə Naxçıvanın ağır dövrünü yaşadıq və Naxçıvanı böyük təhlükələrdən, bəlkə də böyük faciələrdən birlikdə xilas etdik. Bu, hamımızın birlikdə tarixi nailiyyətimizdir. Mən sizinlə bir idim, siz də mənimlə bir idiniz və bizim bu birliyimiz, dəyanətimiz, dözümlüyümüz, fədakarlığımız Naxçıvan Muxtar Respublikasının əhalisini o ağır dövrdən, demək olar ki, müvəffəqiyyətlə keçirdi. O dövr böyük sınaq dövrü oldu, naxçıvanlıların böyük bir sınaqdan keçməsi dövrü oldu, insanların öz torpağına, vətəninə sədaqətinin sınaqdan keçməsi oldu. Mənim üçün sınaq dövrü oldu və sizin üçün də sınaq dövrü oldu. Biz bu sınaqdan çox böyük şərəflə çıxdıq.

Naxçıvan Muxtar Respublikasının həyatında bu gün də böyük problemlər, çətinliklər var. Ancaq o illərə nisbətən indi demək olar ki, vəziyyət tamamilə dəyişibdir. Sadəcə, bir məsələni yada salmaq istəyirəm. Bu gözəl sarayı biz 70-ci illərdə böyük həvəslə tikdik. Naxçıvanda çox binalar – həm istehsal müəssisələri, həm də mədəniyyət, elm, təhsil ocaqları, yaşayış binaları tikilirdi və biz buna böyük qayğı göstərirdik. Ancaq mən çox istəyirdim ki, Naxçıvanda yaraşıqlı, ona layiq bir mədəniyyət sarayı olsun. Bunu da etdik. 1990-cı ildə Naxçıvana qayıdanda maraqlandım ki, bu saray nə vəziyyətdədir. Dedilər ki, sarayın qapısı bağlıdır, oraya getmək də, gəlmək də mümkün deyildir, indi saraya kim gedəcək? İndi elə vaxt deyil ki, saraya getsinlər, tamaşalar, konsertlər, başqa mərasimlər olsun. Xatirimdədir, buna baxmayaraq, o vaxtlar Bakıdan iki-üç dəfə mədəniyyət xadimləri, artistlər gəldilər və sarayın qapıları açıldı. Mən çox böyük həvəslə gəlib tamaşalara baxdım. Ancaq saray əvvəlki vəziyyətində deyildi, soyuq idi, [477-478] biz burada paltoda otururduq. Şübhəsiz ki, gələnlər də o qədər çox deyildi.

Amma indi baxıram, saray nə qədər gözəlləşibdir, əvvəlki şəklini alıbdır. Bir tək saray yox. Buraya toplaşanların sifətinə, əhval-ruhiyyəsinə baxıram, burada olan şəraiti görürəm nə qədər dəyişibdir. Buna görə də bu gün problemlər nə qədər çox olsa da, o illərə nisbətən, ağır bir dövrdən, demək olar ki, çıxmışıq, ağır bir dövr arxada qalıbdır. Biz bunların hamısını bir yerdə etmişik.

Mənim 1990-cı ildə Naxçıvana gəlməyim, görünür, taleyin işi imiş. Moskvada tutduğum vəzifədən istefa verəndən sonra, Azərbaycana qarşı Ermənistanın hərbi təcavüzü başlayandan sonra mən Azərbaycan üçün çox narahat idim. Ancaq eyni zamanda mənə qarşı edilən ədalətsizlik və cürbəcür təxribat aksiyaları da məni çox incidirdi. Məndə Vətənə qayıtmaq, xalqla bir yerdə olmaq, bir yerdə yaşamaq arzusu gündən-günə artırdı. O ağır dövrdə bütün Azərbaycan xalqının qərarını, mənə olan münasibətini, qayğısını hiss edirdim.

Ancaq 1990-cı ilin yanvar faciəsindən sonra Azərbaycana gəlmək haqqında qərar qəbul edərkən təsəvvür etmirdim ki, gəlib Naxçıvana düşəcəyəm. Çünki bilirsiniz ki, gənc vaxtlarımdan sonra bütün fəaliyyətim Azərbaycanın paytaxtı Bakıda olmuşdur. Ona görə yenə də Bakıda yaşamaq və orada Azərbaycan xalqına xidmət etmək arzusunda idim. Ancaq vəziyyət elə oldu ki, məni Bakıda yaşamağa qoymadılar və Naxçıvana gəlməyə məcbur oldum. Amma buraya gələndən sonra hiss etdim və belə qərara gəldim ki, bu, taleyin işi imiş, mən buraya gəlməli idim – yenidən öz torpağımdan güc almaq üçün, öz həmvətənlərimlə doğma torpağımda yaşayan insanlarla bir yerdə olmaq, onların dərdlərinə şərik olmaq üçün.

1990-cı ilin yayı idi. Bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da vəziyyət çox ağır idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda özümü çox rahat hiss etdim. Əgər Moskvada məni təqib edirdilərsə, hətta Yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdısa və onları həyata keçirmək istəyirdilərsə, Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olunduğu halda, hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı. Naxçıvan məni qucaqladı, bağrına basdı. Son il[478-479]lərdə çəkdiyim bütün əzab-əziyyəti unutdum. Bilirsiniz ki, bir il sadə həyat keçirdim, yəni burada qohumlarımın kiçik evində yaşayıb adi insanlarla söhbət, danışıq aparır, görüşlər keçirirdim.

Ondan sonra isə Naxçıvan xalqının tələbi ilə və Naxçıvan Ali Məclisinin qarşısındakı o böyük meydanda davamlı keçirilən mitinqlərin təzyiqi nəticəsində mən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə sədr seçildim. O vaxt mən çox böyük ziddiyyətlər içində idim. Hesab edirdim ki, mən çox böyük həyat yolu keçəndən sonra yenidən bir vəzifə tutmamalıyam, sadəcə olaraq öz imkanlarımla Naxçıvana kömək etməliyəm. Ancaq siz bunu tələb etdiniz, xalq bunu tələb etdi, mən də sizin tələbinizə görə buna razı oldum.

Bu gün burada o illər haqqında çox danışıldı. Hətta daha da çox danışmaq olar. O üç il, demək olar ki, tarixə bərabərdir. Ancaq məni ən çox sevindirən və xatirimdə ən çox qalan mən Moskvadan gələn gün, iyul ayının 22-də Azadlıq meydanındakı mitinqin iştirakçıları ilə görüşümdür. Ondan sonra Naxçıvanda, Şərurda, Sədərəkdə, Ordubadda, Culfada, Bənənyarda, Paizdə, Nehrəmdə insanlarla nə qədər görüşlərim oldu.

Mən hesab edirəm ki, Naxçıvan xalqı, Naxçıvan Muxtar Respublikası Azərbaycan üçün böyük xidmətlər göstərdi. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının yeni seçilmiş Ali Sovetinin sessiyası keçirildi. Xahiş etdilər ki, mən o sessiyaya sədrlik edim, çünki vəziyyət çox mürəkkəb idi. Mən də bir neçə təklif vermişdim, onlar da, şübhəsiz ki, birmənalı qəbul olunmurdu. Hesab edirəm, o gün təkcə Naxçıvan Muxtar Respublikası üçün yox, bütün Azərbaycan üçün tarixi bir gün oldu. Biz o gün qərar qəbul etdik və hesab edirəm ki, bütün Azərbaycana nümunə göstərdik və Azərbaycanın o vaxtkı rəhbərlərini də sonra belə qərarlar qəbul etməyə məcbur etdik. Qərar qəbul etdik ki, Naxçıvan Muxtar Respublikasının adından "sovet sosialist" sözləri çıxarılsın. İlk Azərbaycan Demokratik Respublikasının 1918-ci ildə qəbul olunmuş dövlət bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı qəbul edilməsi haqqında qərar qəbul etdik və Azərbaycan Respublikasının da bu bayrağı dövlət bayrağı qəbul etməsi haqqında qanunvericilik təşəbbüsü ilə çıxış etdik.

Bir neçə başqa qərar – Dağlıq Qarabağda vəziyyət haqqında, Bakıda fövqəladə vəziyyətin aradan götürülməsi haqqında, 90-cı ilin yanvar hadisələrinə siyasi qiymət verilməsi haq[479-480]qında və bir çox başqa qərarlar da qəbul etdik. Yəni biz öz işimizi Naxçıvanın problemlərinə qapanıb qalmaqla, Naxçıvanın işləri ilə məşğul olmaqla tamamlamadıq. Biz o vaxt, 1990-cı il noyabrın 17-də Azərbaycanın problemləri haqqında çox tutarlı qərarlar qəbul etdik.

Ondan bir neçə ay sonra, təxminən 1991-ci ilin fevral mart aylarında Azərbaycan Respublikasının o vaxtkı rəhbərləri xalqın təzyiqi nəticəsində və şübhəsiz ki, Naxçıvan Muxtar Respublikasında qəbul olunmuş bu qərarların təsiri nəticəsində belə qərarlar qəbul etməyə məcbur olmuşdular.

Biz o vaxt da Azərbaycanın müstəqilliyi haqqında təkliflər verdik və qərarlar qəbul etdik. Ancaq o vaxt Azərbaycanın rəhbərliyi Azərbaycanın müstəqilliyini istəmirdi və təəssüf ki, öz imkanlarından istifadə edərək xalqın azadlıq və müstəqilliklə əlaqədar hərəkatının qarşısını alırdılar.

Nəhayət, Sovetlər İttifaqı dağılmağa, parçalanmağa başladı. Mən vaxtilə Sovetlər İttifaqının ən yüksək mərtəbəsində duran, Sovetlər İttifaqı dövlətinin başında duran şəxslərdən biriyəm. Ancaq o İttifaqın, o dövlətin ədalətsiz hərəkətlərini görərək, xüsusən Azərbaycana qarşı ədalətsizliyini – Dağlıq Qarabağ probleminin ortaya atılmasının və Azərbaycana qarşı hərbi təcavüzün məhz Sovetlər İttifaqı rəhbərliyinin günahından baş verdiyini görərək, 1990-cı ilin yanvarında Azərbaycana hərbi təcavüz edildiyini görərək və bunlara etiraz əlaməti olaraq Sovetlər İttifaqının artıq dağılması haqqında mən hələ Moskvada bəyanatlar verirdim.

Buraya gəldim, bütün görüşlərdə bu fikirləri irəli sürürdüm. İnsanlar məni eşidirdilər, fikirlərimlə hesablaşırdılar, çox yerlərdə suallar verirdilər. Mən deyirdim ki, Sovetlər İttifaqı artıq dağılır və dağılmalıdır. Ancaq təəssüflər olsun ki, o vaxt Azərbaycanın rəhbərliyində olan bir çox şəxslər əksinə hərəkət edirdilər.

Belə bir vaxtda Naxçıvan Muxtar Respublikasının Ali Məclisində biz Sovetlər İttifaqının saxlanması haqqında referendum barədə Moskvada qəbul olunmuş qərarın əksinə çıxdıq. Doğrudur, o vaxt bizim Ali Məclisdə də hamı bir fikirdə deyildi. Bəziləri, – onlardan bu salonda oturanlar da var, – o vaxtlar mühafizəkar mövqe tuturdular, bəziləri Azərbaycanın o vaxtkı rəhbərlərinin iradəsinə tabe olub onların iradəsini burada həyata keçirməyə çalışırdılar. Ancaq bunlara baxmayaraq, Sovetlər İttifaqının saxlanması haqqında referendumun keçi[480-481]rilməsi barədə qərar hələ Bakıda müzakirə olunmadan biz Naxçıvanda bu məsələni müzakirə etdik. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Sovetlər İttifaqının saxlanması ilə əlaqədar keçiriləcək referendumun əleyhinə çıxdı.

Məsələn, xatirimdədir, Azərbaycan Ali Sovetinin sessiyasında bu məsələ müzakirə olunarkən Naxçıvanın nümayəndələri bunun əleyhinə çıxış etdilər. Bilirsiniz ki, mən referendumun keçirilməsinin kəskin əleyhinə çıxdım. Lakin Azərbaycanın o vaxtkı rəhbərliyi Sovetlər İttifaqının saxlanması haqqında referendum keçirilməsi barədə qərar qəbul etdi. Amma Naxçıvan Muxtar Respublikasının əhalisi bu referendumda iştirak etmədi, onu boykot etdi. Bu, naxçıvanlıların nə qədər müstəqil fikirli olduğunu, müstəqilliyə nə qədər can atdıqlarını və Azərbaycanın müstəqil olmasını istədiklərini bütün dünyaya nümayiş etdirdi. Doğrudur, ondan sonra Naxçıvana qarşı təzyiqlər artdı. O vaxt Naxçıvanın rəhbərliyi dəyişildi. Bəzi şəxslər Naxçıvanda Azərbaycan rəhbərliyinin iradəsini yerinə yetirmək üçün cəhdlər göstərdilər. Güman edirəm, indi onlar da öz səhvlərini, günahlarını dərk ediblər, bilirlər. Ancaq Naxçıvan əhalisinin əksəriyyəti sınmadı, dönmədi. 1991-ci ilin martında həmin referendum Naxçıvan Muxtar Respublikasında boykot olundu.

Yenə deyirəm, bizim aramızda nadürüst adamlar da vardı. Hətta, xatirimdədir, Bakıda yaşayan naxçıvanlı alimlərdən bir neçəsi qəzetdə bəyanat verdi ki, guya Naxçıvanı Azərbaycandan ayırırlar. Belələri də oldu. Ancaq Naxçıvan Muxtar Respublikası əhalisinin əksəriyyəti müstəqillik, milli azadlıq yolunda Azərbaycanın milli azadlıq hərəkatının, demək olar ki, ön sıralarında gedirdi.

Naxçıvan Muxtar Respublikası tərəfindən qəbul olunmuş ikinci cəsarətli qərar ondan ibarət idi ki, 1991-ci il avqustun 19-da o vaxt Sovetlər İttifaqı hələ var idi, – Moskvada qiyam cəhdi zamanı burada, Naxçıvanda azadlıqsevən insanlar kommunist hakimiyyətinin əleyhinə qalxdılar. Bu, yenə də deyirəm, naxçıvanlıların azadlıq və müstəqillik yolunda mübarizəsini bir daha nümayiş etdirir.

Mən Naxçıvana gəldim. Burada artıq deyildi ki, 1991-ci il sentyabrın 3-də Naxçıvanın Ali Məclisi məni sədr seçdi. Bir neçə çox kəskin qərar qəbul etdik. O qərarlardan biri də bu idi ki, Azərbaycanda keçirilən prezident seçkiləri Naxçıvanda [481-482] ləğv olundu. O zaman Naxçıvana qarşı böyük hücumlar oldu, hətta Azərbaycan rəhbərliyi buraya böyük bir silahlı qüvvə göndərdi. Daxili İşlər Nazirliyindən böyük bir qrup zabit gəldi, Azərbaycanın deputatlarından ibarət böyük qrup, o cümlədən bir neçə general gəldi, Naxçıvanda vəziyyəti dəyişdirməyə çalışdılar. Ancaq biz öz qətiyyətimizi nümayiş etdirdik. Xatirinizdədir ki, o vaxt mən televiziya vasitəsilə bəyanat verdim və xəbərdarlıq etdim ki, Naxçıvanın qəbul etdiyi qərarı pozmaq, yaxud Naxçıvanda güc işlədib təzyiq göstərmək üçün gələn qüvvələr dərhal Naxçıvanı tərk etməlidirlər. Əgər tərk etməsələr, Naxçıvan Respublikasının əhalisi, vətəndaşları öz qətiyyətini, gücünü göstərəcəklər. Bununla da biz Naxçıvanda müstəqillik prinsiplərini bərqərar etdik. Düzdür, o vaxt Azərbaycanın başqa bölgələrinə də müstəqillik, azadlıq əhval-ruhiyyəsini yayırdıq, amma eyni zamanda Naxçıvana qarşı təzyiqlər, Naxçıvan haqqında böhtançı fikirlər də çox yayılırdı.

Naxçıvandan olan bir neçə adamı yenə də Azərbaycan televiziyasına, qəzetlərə çıxardılar, bəyanatlar verdilər ki, guya burada biz Konstitusiyanı, qanunu pozuruq. Ancaq biz düz yolla gedirdik və sonrakı dövr, sonrakı illər göstərdi ki, tutduğumuz yol düz yoldur.

Mən bu gün qeyd etmək istəyirəm ki, o illərdə, xüsusən 1990-1991-ci illərdə Naxçıvanda xalq hərəkatı çox güclü idi. Müstəqillik yolunda mübarizə aparan adamlar Naxçıvan əhalisinin, demək olar, əksəriyyətini təşkil edirdi. Naxçıvanın müstəqillik, milli azadlıq əhval-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi. Məhz bunların nəticəsində Naxçıvan bir çox ciddi addımlar atdı və nəhayət, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsində Naxçıvan Muxtar Respublikası öz xidmətlərini göstərdi.

Ancaq bununla yanaşı, yəni Naxçıvan əhalisinin hamısının bütün bu məsələlərdə həmrəy olması ilə yanaşı, burada bəzi təxribatçı, Naxçıvanın sabitliyini pozmağa cəhd göstərən qüvvələr də vardı. Təəssüflər olsun ki, onların arasında vaxtilə Naxçıvanda xalq hərəkatında fəal iştirak etmiş adamlar da oldu. Yəni vaxtilə Naxçıvanda milli azadlıq, müstəqillik uğrunda mübarizə edən şəxslər sonralar yollarından çıxdılar. Görünür, onlar tam iradəli adamlar olmamışdılar, ayrı-ayrı şəxsi məqsədlər güdmüşdülər. Ona görə də sonrakı dövrdə gəlib pis yollara düşdülər.

Burada artıq xatırlatdılar, məhz buna görə də 1992-ci il ok[482-483]tyabrın 24-də Naxçıvanda Xalq Cəbhəsinə mənsub olan silahlı dəstələr Naxçıvanın qanuni dövlət. hakimiyyətini devirməyə cəhd göstərdilər, Naxçıvanın Daxili İşlər Nazirliyini, televiziyasını zəbt etdilər, televiziya ilə çıxış etdilər, bəyanat verdilər. Ancaq onlar çox böyük səhvə yol verdilər. Başa düşmədilər ki, xalq onları artıq müdafiə edə bilməz. Onlar başa

düşmədilər ki, xalq artıq kimin kim olduğunu müəyyən etmişdi. Bu gün mən bunu deməliyəm. Oktyabr ayının 24-ü Naxçıvan üçün ağır, faciəli gün idi. Dünən bizim yazıçılar yada saldılar ki, Hüseyn Cavidin anadan olmasının məhz 110-cu ildönümü günü Naxçıvana qarşı təxribat xarakterli belə hərəkət baş verdi.

O vaxt Azərbaycanda Xalq Cəbhəsi hakimiyyətdə idi. Kökü Naxçıvandan olan, indi də Naxçıvanın dağ kəndində – Kələkidə yaşayan Əbülfəz Elçibəy Azərbaycan prezidenti idi. Onun ətrafında da çoxlu naxçıvanlı vardı. Ancaq onlar nə Azərbaycan haqqında həqiqətən doğru-düzgün düşünə bildilər, nə də Naxçıvan haqqında. Öz şəxsi mənafelərini, məqsədlərini hər şeydən üstün tuturdular.

Həmin o Xalq Cəbhəsi Naxçıvanın iki böyük siyasi idarəsini zəbt edəndən sonra mən Əbülfəz Elçibəyə telefon etdim. Bir-iki saat içərisində onunla, ola bilər, yeddi-səkkiz dəfə telefonla danışdım. Ancaq gördüm ki, o, nəinki bu məsələnin qarşısını almaq istəmir, özü məsələnin iştirakçısıdır. O vaxt Azərbaycan Ali Sovetinin sədri olan İsa Qəmbərov ilə iki-üç dəfə danışdım, o da özünü belə göstərdi. Ancaq eyni zamanda, – indi mən bunu artıq deyə bilərəm, çünki o vaxt Naxçıvana rəhbərlik edirdim və imkanlarım var idi, eyni zamanda onlar mənə söz verdilər ki, bu işdən xəbərləri yoxdur və Xalq Cəbhəsinin bu cinayətkar hərəkətlərdən əl çəkməsi üçün ölçü götürəcəklər, eyni zamanda Əbülfəz Elçibəy də, İsa Qəmbərov da və başqaları da Xalq Cəbhəsi ilə telefon əlaqəsi saxlayır və deyirdilər bərk dayanın, dönməyin və hakimiyyəti ələ keçirin.

Görürsünüz, Naxçıvanda sağlam qüvvələr müstəqillik, azadlıq uğrunda mübarizə apardılar, Naxçıvanın müstəqilliyini də dünyaya nümayiş etdirdilər. Naxçıvanda baş vermiş siyasi hadisələr Azərbaycanın müstəqilliyi üçün yol açdı. Amma eyni zamanda Naxçıvandan olan adamlar Naxçıvanı dağıtmağa, parçalamağa, bərbad etməyə də çalışdılar. O da həqiqətdir, bu da həqiqətdir, bunlar hamısı bizim tariximizdir. Ancaq ən xoş[483-484]bəxt cəhət ondan ibarətdir ki, biz onların hamısının öhdəsindən gəldik, bütün bu çətinliklərdən keçdik. Naxçıvan yaşadı, blokadaya, şaxtalı aylara, günlərə dözdü, elektrik enerjisindən, qazdan olan məhrumiyyətlərə, çətinliklərə dözdü. Naxçıvan xalqı yaşadı və artıq bugünkü sabitlik gününə gəlib çıxdı.

Burada siz mənim xidmətlərim haqqında dediniz, çox sağ olun. Ancaq qeyd etmək istəyirəm ki, əgər siz olmasaydınız, qeyrətli, namuslu, vətənpərvər Naxçıvan camaatı, naxçıvanlılar olmasaydı, Heydər Əliyev tək heç bir şey edə bilməzdi. Siz mənə dayaq oldunuz, mən də sizə dayaq oldum. Bizim həmrəyliyimiz, birliyimiz Naxçıvanı o ağır dövrdən çıxardı.

Burada çox sözlər deyildi. Doğrudan da Naxçıvan işğal oluna, dağıla, parçalana bilərdi, Naxçıvanda qardaş qırğını ola bilərdi, hər şey ola bilərdi. Azərbaycanın bütün başqa bölgələrinə nisbətən Naxçıvanın vəziyyəti həddindən artıq çətin idi coğrafi vəziyyətinə, blokada şəraitində olduğuna görə. Ancaq naxçıvanlıların, Naxçıvan əhalisinin tam əksəriyyətinin sağlam düşüncəsi, sağlam əhval-ruhiyyəsi, sağlam fikirləri, amalları bizim bu birliyimizi təmin etdi və Naxçıvan ağır vəziyyətdən çıxdı. Mən buna görə sizə təşəkkür edirəm. Bəli, günlər vardı ki, biz həftələrlə elektrik enerjisindən məhrum olurduq. Gecə saat ikiyə-üçə qədər iş otağımda az işıq verən neft lampası ilə oturub işləyirdim, bunu hamı bilirdi. Evlərə elektrik, istilik vermək üçün heç bir imkan yox idi. İnsanlar həqiqətən donurdular. Bizim bir çox müşavirələrimiz, hətta Ali Məclisin sessiyaları qış vaxtı keçiriləndə insanlar paltoda, papaqda otururdular, çünki vəziyyət həqiqətən çox ağır idi. Amma, yenə də deyirəm, naxçıvanlıların dözümlülüyü hamımızı bu vəziyyətdən çıxardı.

O illər biz bir-birimizə sədaqətimizi sübut etdik. Siz sübut etdiniz ki, öz torpağınıza, xalqınıza, millətinizə, müqəddəs, müstəqil Azərbaycana sədaqətlisiniz və mənim də həm Azərbaycan xalqına, həm də Azərbaycan torpağına, o cümlədən öz doğma yurdum Naxçıvana sədaqətimin şahidi oldunuz.

Üç il yarımdır ki, mən artıq Bakıdayam, Azərbaycanın rəhbərliyindəyəm. Xalq mənə etimad göstərdi, Azərbaycanın prezidenti seçdi. Mən bu etimadı çox yüksək qiymətləndirirəm. Bilirsiniz və bütün Azərbaycana bəyan etmişəm ki, Azərbaycana yenidən rəhbərlik etmək, prezident seçilmək niyyətində olmamışam. Ancaq şərait və yaranmış vəziyyət bunu məndən tələb etdi və mən də bununla razı oldum. Bir halda ki, bu və[484-485]zifəni öz üzərimə götürmüşəm, sizə də deyirəm, bir daha bütün Azərbaycan vətəndaşlarına bildirirəm ki, bu vəzifəni, bu etimadı daim doğrultmağa çalışacağam və əmin ola bilərsiniz, Azərbaycan xalqının etimadını həmişə doğruldacağam.

Son üç il yarım müddətində Azərbaycanda görülən işlər göz qabağındadır. Azərbaycanın ağır problemləri var. Amma eyni zamanda bu üç il müddətində Azərbaycan çox böyük yol keçibdir. Doğrudur bu yol böyük maneələrlə, çətinliklərlə dolu olubdur. Yaxşı bilirsiniz ki, əgər 1993-cü ilin iyununda biz Azərbaycanı vətəndaş müharibəsindən, parçalanmadan xilas etdiksə, 1994-cü ilin oktyabrında Azərbaycanda yenidən dövlət çevrilişi cəhdi meydana çıxdı. Bunun qarşısı alındı. 1995-ci ilin martında Azərbaycanda yenidən dövlət çevrilişi etmək istədilər, bunun da qarşısı alındı. Ondan sonra cürbəcür təxribatlar, terror aktları həyata keçirməyə çalışdılar. Bunların da qarşısı alındı. Şübhəsiz ki, indi də Azərbaycanı dağıtmaq, respublikamıza zərbə vurmaq istəyən qüvvələr çoxdur. Bunlar xaricdə də çoxdur, təəssüflər olsun ki, daxildə də çoxdur. Təəssüf olsun. O cümlədən terror aktları həyata keçirmək cəhdləri də müşahidə olunur.

Terror haqqında deyəndə, bilirsiniz, mən ürək ağrısı ilə xatırlayıram ki, bir tərəfdən 1990-cı ildə mən Naxçıvana gələrkən Naxçıvan məni bağrına basdı, qucaqladı və mən burada özümə, demək olar, sığınacaq tapdım, sizinlə bir yerdə yaşadım. Amma ikinci tərəfdən xalq məni Azərbaycana dəvət edəndən sonra, Azərbaycanda vəziyyəti düzəltmək prosesi gedən zaman mənə qarşı terror aktı həyata keçirmək cəhdi aşkara

çıxdı. Təəssüflər olsun ki, bu terror aktını hazırlayanlar və həyata keçirmək istəyənlər bizim əziz Naxçıvan torpağından olan insanlar olublar. (**Yerdən səs:** İki nəfər idilər). Burada dedilər, onlar iki nəfər deyildi, beş, yaxud altı nəfər idi. Onların hamısı həbs olunubdur. Türkiyədən çağırılmış bir nəfər – Ərzurum Universitetinin tələbəsi də həbs olunub, cəzalanıbdır. Ancaq onu çağıranlar da bizim naxçıvanlılar olublar.

Ancaq təkcə bir bu deyil. Təəssüflər olsun ki, Naxçıvan torpağından çıxmış ayrı-ayrı adamlar bizim işlərimizə maneçilik etməyə, qanun pozuntularına əl atmağa çalışırlar. Bu, təbiidir, çünki hər yerdə yaxşı insanlar da, pis insanlar da var. Heç də demək olmaz ki, Naxçıvanda olan insanların hamısı yaxşıdır, yox. Bu, düzgün olmazdı. Yaxud da demək olmaz ki, Azər[485-486]baycanın hansısa bölgəsindən olan insanlar pis insanlardır, bu da düzgün olmazdı, Azərbaycanın hər yerində çox dəyərli, qeyrətli, namuslu, vətənpərvər, Azərbaycanın müstəqilliyi uğrunda çalışan, vuruşan, mübarizə aparan insanlar var. Amma eyni zamanda, Azərbaycanın hər yerində, o cümlədən Naxçıvanda da nadanlar, nadürüstlər, öz şəxsi məqsədlərinə görə xalqın, millətin mənafeyini tapdalamağa və qurban verməyə hazır olan adamlar da var. Təəssüf ki, bunlar da var. Onlar bu gün də var və bilmək lazımdır ki, sabah da olacaqlar. Biz heç vaxt onlardan xilas ola bilməyəcəyik, bu insanlar var. Ona görə də bu gün nailiyyətimiz ondan ibarətdir ki, Azərbaycan xalqının tam əksəriyyəti Azərbaycan dövlətinin siyasətini müdafiə edir, Azərbaycan prezidentinin fəaliyyətini müdafiə edir və onu dəstəkləyir. Bu bizim ən böyük nailiyyətimizdir.

Ancaq o şəxslər ki, müxalifətdə olmaqdan savayı düşmənçilik, terrorçuluq hərəkətlərinə əl atırlar, onlar cinayətkardırlar. Bizim cəmiyyətimiz demokratik cəmiyyətdir. Şübhəsiz ki, bu cəmiyyətdə iqtidara müxalif qüvvələrin olması təbii haldır və biz bunu qeyri-təbii hesab etmirik. Azərbaycanda otuzdan çox siyasi partiya qeydə alınıbdır, onların bir çoxu indiki iqtidara müxalifətdədir, qəzetlər çıxarırlar, cürbəcür siyasi fəaliyyət göstərirlər. Qanun çərçivəsində bunların heç birisinə etiraz yoxdur. Ancaq özlərini müxalifət hesab edən adamlar terrora, təxribata əl atırlarsa, dövlət çevrilişinə cəhd göstərmək istəyirlərsə, artıq bunlar müxalifət deyil, cinayətkarlardır. Cinayətkarlara qarşı mübarizəmiz indiyə qədər olduğu kimi, bundan sonra da kəskin olacaqdır. Fərqi yoxdur, o, Naxçıvandandır, Gəncədəndir, Bakıdandır, Şəkidəndir, Qubadandır, yaxud başqa bir yerdəndir – cinayətkar cinayətkardır, qanun əleyhinə çıxan qanun əleyhinə çıxandır və burada heç kəsə fərq qoymaq olmaz.

Bir də qeyd edirəm, bu müddətdə görülən işlər sizə məlumdur. Bu barədə geniş məlumat verməyə ehtiyac yoxdur. Ancaq onu qeyd etmək istəyirəm ki, Azərbaycanın dövlət müstəqilliyi gündən-günə möhkəmlənibdir. Azərbaycan dünya miqyasında, dünya birliyində özünə layiq yer tutubdur. Azərbaycanın ən ağır problemi olan Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün lazımi tədbirlər görülür və bundan sonra da görüləcəkdir. Bu barədə Azərbaycanın mövqeyi prinsipialdır, qətidir. Azərbaycanın işğal edilmiş [486-487] torpaqlarından Ermənistan silahlı qüvvələri çıxarılmalı, Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa edilməli, sərhədlərinin toxunulmazlığı təmin olunmalı, yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları öz elinə-obasına qayıtmalıdırlar. Dağlıq Qarabağ Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin tərkibində yüksək muxtariyyət statusuna malik ola bilər. Biz bu prinsiplər əsasında danışıqlar aparırıq və bundan sonra da danışıqları bu prinsiplər əsasında davam etdirəcəyik. Bildirmək istəyirəm ki, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, dünyanın böyük dövlətləri bu prinsipləri qəbul edirlər və bizim prinsiplərimiz gündən-günə müdafiə olunur və bu məsələnin həll edilməsi üçün sülh yolundan başqa yol olmaması dərk edilibdir.

Azərbaycanda demokratik hüquqi dövlət qurulur. Biz konstitusiyamızı qəbul etmişik, demokratik prinsiplər əsasında parlament seçmişik. Azərbaycanda demokratik proseslər inkişaf edir, bazar iqtisadiyyatı bərqərar olur, iqtisadi islahatlar keçirilir və bunlar artıq öz bəhrəsini verir. İqtisadi islahatların nəticələrini artıq siz Naxçıvan Muxtar Respublikasının həyatında da hiss edirsiniz.

Qəbul olunmuş qanunlar, özəlləşdirmə proqramı, torpaq islahatı haqqında qanun, başqa qanunlar yaxın müddətdə – iki-üç il içərisində Azərbaycanın iqtisadiyyatında böyük dəyişikliklər meydana çıxaracaqdır. Yolumuz bu yoldur, biz bu yolla gedirik və hesab edirəm ki, bu yolda da böyük nailiyyətlər əldə edəcəyik. Bir sözlə, müstəqil Azərbaycan dövlətinin möhkəmlənməsi, inkişaf etməsi yolunda görülən tədbirlər öz nəticəsini verir və biz bu yolla da dövlətimizi, ölkəmizi, respublikamızı inkişaf etdirəcəyik. İqtisadi çətinliklər, iqtisadi problemlər tədricən aradan götürüləcəkdir. Siz artıq bunun şahidisiniz və güman edirəm ki, həyata keçirilən tədbirlər öz nəticəsini verəcəkdir.

Bu baxımdan Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən tədbirlərin nəticəsini mən yüksək qiymətləndirirəm. Burada qeyd olundu, Azərbaycanda bu məsələlər, necə deyərlər, hələ baxılmamış vəziyyətdə olduğu halda, biz 1992-ci ildə burada özəlləşdirmə haqqında qanun qəbul etdik. Kolxozlarda, sovxozlarda olan mal-qaranın əhaliyə satılması, torpaqların əhaliyə verilməsi haqqında qanunlar qəbul etdik. Artıq onlar öz nəticələrini veribdir.

Naxçıvanın Türkiyə ilə, İranla əlaqələrinin genişlənməsi [487-488] onun iqtisadiyyatına çox kömək edirdi. Siz bunların da nəticələrini artıq görürsünüz.

Hesab edirəm ki, islahatlar Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da bundan sonra sürətlə həyata keçiriləcək və mən tam əminəm ki, öz müsbət nəticəsini verəcək, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı da tədricən inkişaf edəcək və insanların rifah halı da yaxşılaşacaqdır.

Naxçıvan Muxtar Respublikasının rəhbərliyi, Ali Məclis, Nazirlər Kabineti tərəfindən, yerli hakimiyyət orqanları tərəfindən son vaxtlar həyata keçirilən tədbirlər şəxsən məni sevindirir. Onların müsbət nəticəsi sizin gözünüz qarşısındadır. Mən bu barədə mütəmadi olaraq məlumatlar alıram və bu işlərə nəzarət edirəm. Amma eyni zamanda dünən də, bu gün də Naxçıvan şəhərində artıq baş vermiş böyük müsbət dəyişiklikləri və burada yaranmış mühiti, əhval-ruhiyyəni görərkən daha da çox sevinirəm. Bu işlərə görə sizi təbrik edirəm. Hesab edirəm ki, Naxçıvan Muxtar Respublikasının dövlət rəhbərliyi düzgün yoldadır. Siz birlikdə bu yolla böyük nailiyyətlər əldə edə biləcəksiniz.

Müstəqil Azərbaycan Respublikasının yeni qəbul olunmuş ilk Konstitusiyasında Naxçıvan Muxtar Respublikasının statusu müəyyən olunubdur. Bilirsiniz ki, Naxçıvan Muxtar Respublikasının statusu vaxtilə beynəlxalq müqavilələr əsasında müəyyən edilmişdir: Naxçıvan muxtar respublikadır, Azərbaycanın tərkibindədir. Bu, beynəlxalq müqavilələr nəticəsində yaranmış statusdur, onu heç kəs dəyişdirə bilməz. Təəssüflər olsun ki, Naxçıvan Muxtar Respublikasından çıxmış insanlar Xalq Cəbhəsinin hakimiyyəti dövründə muxtar respublikanı qoruyub saxlamaq, onun statusunu möhkəmləndirmək əvəzinə, yalnız və yalnız öz şəxsi məqsədlərinə nail olmaq üçün bir muxtar respublika kimi onu ləğv etmək cəhdləri göstərməyə başladılar.

Xatırlayırsınız, 1992-ci ilin oktyabrında Naxçıvanda dövlət çevrilişinə cəhd göstəriləndən sonra biz Ali Məclisin sessiyasını keçirdik. O vaxt Azərbaycandan nümayəndələr gəlmişdi, onların əksəriyyəti naxçıvanlılar, Xalq Cəbhəsinin hakimiyyəti vaxtı böyük vəzifələr tutan adamlar idi. Ancaq gənc, təcrübəsiz, necə deyərlər, burnu yelli adamlar idilər. Onlar açıq-aşkar belə bir fikir irəli sürürdülər ki, guya Azərbaycan unitar dövlətdir, unitar dövlət daxilində heç bir muxtariyyət hüququ ola [488-489] bilməz, ona görə də Naxçıvan Muxtar Respublikası ləğv olunmalıdır.

Amma Naxçıvan Muxtar Respublikası nə olacaqdır – Azərbaycanın bütün digər ərazisindən ayrılmış, blokada şəraitində olan bir yer. Siz Naxçıvanı blokadadan çıxarmağa, vəziyyətini düzəltməyə çalışın. Naxçıvanlılar şaxtadan donurlar, ərzaq çətinliklərindən acından ölmək vəziyyətinə gəlib düşüblər, siz gəlibsiniz ki, Naxçıvan Muxtar Respublikasının statusunu dəyişmək, muxtar respublikanı ləğv etmək lazımdır. Görürsünüz, belə nankorlar var. Bunu ancaq naxçıvanlılar edirdilər, bilin.

Şübhəsiz ki, mən bunun qarşısını aldım. Həm qarşısını aldım, həm də onların cavablarını verdim. Xatirimdədir, o vaxt Ali Məclisin sessiyalarında bu danışıqlar getdi, mənimlə bərabər Naxçıvan Muxtar Respublikasının qeyrətli, namuslu insanları, Ali Məclisin deputatları da öz sözlərini dedilər. Ancaq təsəvvür edin, o hakimiyyət davam etsəydi, o insanlar vəzifələrində qalmış olsaydılar, Naxçıvan Muxtar Respublikasının statusunu saxlamaq üçün nə qədər mübarizə aparmaq lazım olacaqdı. Mən əminəm ki, onlar heç bir şeyə nail ola bilməzdilər. Əminəm ki, biz naxçıvanlılar muxtar respublikanın statusunu qoruyub saxlayacaqdıq. Ancaq xalqına, torpağına, doğma anasına bu qədər xəyanət edən insanlar insan hesab oluna bilərlərmi? Onların naxçıvanlı adı daşımağa haqqı varmı? Onların Naxçıvan torpağına ayaq basmağa haqqı varmı? Yoxdur! Biz də bu işlərdə prinsipial olmalıyıq, siz də o adamların, necə deyərlər, basıb göz-qaşını çıxartmalısınız.

Bütün bunlara görə də keçən ilin noyabrında qəbul edilmiş Konstitusiyada Naxçıvan Muxtar Respublikasının statusu müəyyən edilibdir. Əbədi müəyyən olunubdur – Naxçıvan Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Bu Konstitusiya ümumxalq referendumu vasitəsilə qəbul olunubdur və onu bundan sonra heç kəs poza, dəyişə bilməz.

Mən bu gün dedim ki, naxçıvanlıların 1989-1990-cı illərdən sonra atdıqları bir çox addımlara, xüsusən müstəqillik, milli azadlıq yolunda atdıqları addımlara, qəbul etdikləri qərarlara görə fəxr etməyə haqları var. Eyni zamanda bu heç bir naxçıvanlıya müstəsna hüquq vermir. Ancaq bəzən eşidirəm, mənə siqnallar gəlir, – ayrı-ayrı adamlar, xüsusən Bakıda yaşayan ayrı-ayrı naxçıvanlılar guya özlərinə xüsusi, müstəsna hüquqi şəxs kimi baxır, qanunu pozurlar, beləliklə də naxçıvanlıların adını ləkələyirlər. Belə hallar var. Təəssüf olsun ki, o insanlar [489-490] Naxçıvana heç bir xidmət etməyiblər, Naxçıvanın ağır, əziyyətli dövründə Naxçıvana heç baş çəkməyiblər, gəlməyiblər. İndi Naxçıvan Muxtar Respublikasının Azərbaycan miqyasında göstərdiyi bu xidmətlərdən və o cümlədən Azərbaycan prezidentinin vəzifəsindən sui-istifadə etməyə çalışır, beləliklə, bizim torpağımızın, Naxçıvanın adını ləkələyirlər, Azərbaycan prezidentinin adını ləkələyirlər.

**(Yerdən səslər:** Ar olsun, ar olsun!)

Mən bu sözü burada deyirəm, ona görə ki, bu məni narahat edir. Azərbaycan Respublikasında hər bir vətəndaş eyni hüquqa malikdir. Heç kəs keçmiş xidmətlərinə, vəzifəsinə, doğulduğu yerə görə, yaxud başqa səbəblərə görə müstəsna hüquqa malik deyil, ola da bilməz. Biz demokratiya qururuq, hamı eyni hüquqa malikdir, hamı qanuna tabe olmalı, qanun çərçivəsində işləməlidir. Əgər kim isə hansısa bir vəzifəsindən, yaxud da ki, başqa bir mövqeyindən sui-istifadə edirsə, şübhəsiz ki, o, özü-özünə, valideynlərinə, xalqına, doğulduğu yerə xəyanət edir. Bunlara yol vermək olmaz.

Ona görə mən istərdim ki, siz də, o cümlədən Naxçıvandan kənarda yaşayan naxçıvanlılar da naxçıvanlı adını şərəflə daşıyasınız. Şərəflə daşımaq o deməkdir ki, gərək hər bir kəs qanun çərçivəsində hərəkət etsin,

qanuna tabe olsun, qanunu möhkəmləndirsin, müstəqilliyimizi möhkəmləndirsin. Heç vaxt, heç bir vəchlə öz vəzifəsindən, imkanlarından sui-istifadə etməsin. Mən sizdən rica edirəm, bu halların qarşısını alasınız. Çünki bu siqnallar vaxtaşırı mənə gəlir. Amma sizin isə imkanlarınız var ki, belə şeylərin qarşısını yerində alasınız.

Mən doğma torpağıma, Naxçıvana, Naxçıvan Muxtar Respublikasına hədsiz məhəbbətimi bir daha bildirmək istəyirəm. Bilin ki, mən sizə həmişə sadiq olmuşam, bundan sonra da sadiq olacağam. Mən Azərbaycan xalqına həyatım boyu sadiq olmuşam, ömrümün son dəqiqəsinə qədər də sadiq olacağam. Azərbaycanın dövlət müstəqilliyi yolunda bundan sonra da fədakarcasına çalışmaq mənim həyatımın mənasıdır.

Sizi, bütün Azərbaycan xalqını Azərbaycanın dövlət müstəqilliyini qoruyub saxlamaq uğrunda, onu möhkəmləndirmək, inkişaf etdirmək üçün, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, işğal olunmuş torpaqlarımızı azad etmək, Azərbaycanı daha da yüksəklərə qaldırmaq üçün birliyə, həmrəyliyə dəvət edirəm.

Qədim Naxçıvan torpağına eşq olsun!

Yaşasın müstəqil Azərbaycan! [490-491]

## NAXÇIVAN HƏRBİ QARNİZONUNUN ƏSGƏR VƏ ZABİTLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*30 oktyabr 1996-cı il*

Əziz əsgərlər, zabitlər, Azərbaycan Respublikası
Milli Ordusunun döyüşçüləri!

Mən sizi səmimi qəlbdən salamlayıram. Sizin simanızda, Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən Azərbaycan ordusunun bütün hərbi hissələrini, hər bir əsgəri, hər bir zabiti salamlayıram. Sizin simanızda Azərbaycan Milli Ordusunun bütün əsgərlərini, zabitlərini, döyüşçülərini salamlayıram. Hamınıza cansağlığı, səadət və bu şərəfli işinizdə uğurlar arzulayıram.

Azərbaycan Milli Ordusu özünün yaranmasının beşinci ilini bu ay qeyd etdi. Bu beş ildə Azərbaycan Milli Ordusu böyük, şərəfli, eyni zamanda çox əzab-əziyyətli yol keçmişdir. Milli ordunun yaranması prosesi nə qədər çətin, mürəkkəb olmuşdusa, onun yaranması haqqında qanun qəbul edildikdən sonra ordunun həqiqətən yaradılması, təşkili, ordu şəklinə salınması bir o qədər çətin olmuşdur. O illərdə Azərbaycanın milli ordusunu yaratmaq üçün lazımi səylər qoyulmamasının nəticəsində olmuş, eyni zamanda Azərbaycana rəhbərlik edənlərin müstəqillikdən imtina etmək, yaxud ona xor baxmaq, Ümumittifaq asılılığından ayrılmamaq əhval-ruhiyyəsindən irəli gəlmişdir. Məhz bunlara görə də Azərbaycanın milli ordusu onun haqqında qanun qəbul olunandan sonra xeyli müddət təşkil edilməmiş, bu da o dövrdə Azərbaycana qarşı hərbi təcavüz edən və çox güclü əməliyyatlar aparan Ermənistan silahlı qüvvələrinin qarşısının alınmasını təmin etməmişdir.

Bunlar o illərin həqiqətidir. İndi isə biz böyük iftixar hissi ilə qeyd edə bilərik ki, Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, torpaqlarını, dövlətçiliyini müdafiə etmək üçün yararlı ordusu var. Bu ordu gündən-günə güclənir, öz hərbi peşə səviyyəsini artırır.

Azərbaycan Respublikasının dövlət müstəqilliyi artıq tarixi həqiqətə çevrilibdir, əbədidir, dönməzdir, yenilməzdir. Müstə[491-492]qil Azərbaycan Respublikasını, Azərbaycan dövlətini qoruyub saxlamaq üçün bizim güclü silahlı qüvvələrimiz, güclü milli ordumuz olmalıdır. Bu, dövlətimizin, müstəqilliyimizin dayağıdır. Əmin ola bilərsiniz ki, bu sahədə lazımi işlər görülür, lazımi tədbirlər həyata keçirilir və Azərbaycan Ordusu öz gücünü, qüdrətini, əsgəri məharətini gündən-günə təkmilləşdirir.

Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının coğrafi vəziyyəti bu diyarda ölkəmizin torpaqlarının, sərhədlərinin qorunması üçün xüsusi əhəmiyyət kəsb edir. Məhz buna görə də Ermənistanın Azərbaycana qarşı 1988-ci ildən başlanmış təcavüzünə cavab vermək, onun qarşısını almaq üçün, bu təcavüzə cavab olaraq Azərbaycanın torpaqlarını qorumaq, müdafiə etmək üçün burada, Naxçıvanda da ordunun, silahlı qüvvələrin yaranması o dövrün zərurəti idi.

Məlumdur ki, Ermənistan qondarma "Dağlıq Qarabağ problemi" ilə əlaqədar Azərbaycana qarşı hərbi təcavüzə başlayarkən Ermənistan ilə Azərbaycanın sərhədlərində vaxtaşırı hərbi münaqişələr baş verirdi. Belə hərbi münaqişələr burada, Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhədində də olurdu. Məhz bu münaqişələr nəticəsində, xüsusən Ermənistanın hərbi təcavüzü nəticəsində 1990-cı ildə sərhədlərin bir qismi pozulmuş, döyüşlər getmiş, atışmalar olmuş və təəssüflər olsun ki, Azərbaycan Respublikasının, Naxçıvanın böyük bir kəndi – Kərki kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Burada Ermənistan-Azərbaycan sərhədinin başqa yerlərində də faciəli hallar olmuş, Azərbaycanın, Naxçıvan Muxtar Respublikasının igid, mərd oğulları torpaqlarımızı müdafiə edərkən özlərini qurban vermişlər, şəhid olmuşlar. Naxçıvanlılar öz torpağını qorumaq üçün ayağa qalxmış və böyük qəhrəmanlıq nümunələri göstərmişlər.

Bunlar xalqın iradəsindən, vətənpərvərlik hisslərindən irəli gələn hallar idi. Ancaq o vaxt, hələ 1988-1990-cı illərdə Ermənistanda böyük silahlı qüvvələr yaranan zaman, təəssüf ki, bunun müqabilində Azərbaycanda lazımi tədbirlər görülməmişdir. Bu da Ermənistan silahlı qüvvələrinə üstünlük vermiş, o dövrdə Azərbaycan Respublikası ərazisinin bir qisminin işğal edilməsinə səbəb olmuşdur.

1990-1991-ci illərdə burada çox gərgin vəziyyət vardı. Bir tərəfdən Ermənistan ərazisindən Naxçıvana, Azərbaycana vaxtaşırı hücumlar baş verir, ikinci tərəfdən də Naxçıvanda [492-493] daxili ictimai-siyasi vəziyyət həddən artıq gərgin idi. O illərdə naxçıvanlılar çox gərgin bir dövr yaşadılar.

O zaman Naxçıvanın torpaqlarını qorumaq, Ermənistanın hərbi təcavüzünə cavab vermək üçün sentyabrın əvvəlində, artıq Sovetlər İttifaqının dağılması ilə əlaqədar Naxçıvan müstəqil hərəkət edərək, – bilirsiniz ki, bu proseslər Naxçıvanda Azərbaycanın paytaxtından da və başqa bölgələrindən də qabaq inkişaf etdi, – hakimiyyəti özü idarə etdi. Bizim ilk addımlarımızdan biri Naxçıvanda Müdafiə Komitəsi yaratmaq oldu. Bununla da biz Naxçıvanda mütəşəkkil silahlı qüvvələr yaratmaq prosesinə başladıq. O vaxt Azərbaycan Silahlı Qüvvələrinin bir hissəsi olan Naxçıvan silahlı qüvvələri yaranmağa başladı.

Amma xatirinizdədir ki, o vaxt burada, dayandığımız bu yerdə – bu meydanda, bu. binalarda, ətrafda, Naxçıvanın ərazisində keçmiş Sovetlər İttifaqının böyük hərbi hissələri, o cümlədən böyük bir diviziyası – 75-ci

motoatıcı diviziya yerləşirdi. O illər biz çox gərgin iş apardıq və bütün bunların nəticəsində nəhayət, sonra Rusiyanın sərəncamına keçmiş həmin diviziyanın buradan köçməsinə nail olduq. Ola bilər, Azərbaycanın ərazisində yeganə yerdir ki, biz burada keçmiş Sovetlər İttifaqının ordusuna məxsus olan bütün əmlakı, silah-sursatı sağ-salamat təhvil aldıq və Rusiya diviziyasını sakitcə, xoşluqla yola saldıq. Bu, keçmiş ittifaqdan Azərbaycanın payına düşən silah-sursatın, əmlakın alınmasının ilk addımı idi. Bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, biz bu işi çox səriştəli gördük və burada nə vardısa, nə yaranmışdısa, onun Azərbaycana məxsus əmlak olduğunu sübut etdik və hamısını Azərbaycanın sərəncamına keçirdik. Təəssüflər olsun ki, Azərbaycanın. başqa bölgələrində, o cümlədən paytaxtında keçmiş Sovetlər İttifaqına mənsub olan ordu hissələrinin əmlakının bir çoxu o vaxt çıxarıldı, bu da Azərbaycanı lazımi səviyyədə ordu yaratmaq üçün maddi-texniki bazadan çox məhrum etdi.

Beləliklə, biz burada Azərbaycanın milli ordusunu yaratdıq. Ancaq təəssüflər olsun ki, o vaxt Naxçıvanda bizə maneçilik göstərən qüvvələr çox idi. Sonra isə hakimiyyətə gələn səriştəsiz insanlar, o cümlədən Azərbaycanın o vaxtkı müdafiə naziri Rəhim Qazıyev və onun nümayəndələri görülmüş bu işlərə çox qısqanclıqla yanaşaraq, gəlib bunları dağıtmağa çalışdılar. Biz burada nə qədər çətin proseslərlə üzləşdik. Bu binaları, bu [493-494] varidatı ayrı-ayrı nadanların ixtiyarına verməyə çalışdılar və bəzən də buna nail oldular.

Təsəvvür edin, Naxçıvan Muxtar Respublikasında o vaxt Sovetlər İttifaqı miqyasında ən güclü diviziyalardan biri yerləşirdi. İş o yerə gəlib çatdı ki, bu diviziyaya 1993-cü ildə uzun müddət "KamAZ" sürücüsü olmuş, guya Xalq Cəbhəsinin fəallarından olan yaramaz bir adamın Azərbaycanın o vaxtkı rəhbərliyi tərəfindən komandir təyin edilməsi təhlükəsi qarşısında qaldıq. Mən bunların qarşısını almağa çalışdım, müəyyən qədər də aldım. Ancaq biz burada nə qədər çətinliklər çəkirdik. O adamlar, nadanlar, – hansılar ki, Azərbaycanın o vaxtkı rəhbərlərinin əmrləri, göstərişləri ilə bu əmlakı əllərinə keçirdilər, – burada olan şeyləri qoruyub saxlamaqla yox, yalnız dağıtmaqla məşğul olmuşlar.

1993-cü ildə Azərbaycanda baş vermiş hadisələr – vətəndaş müharibəsi və başqa proseslər ağır, çətin oldu. Biz onların qarşısını aldıq. Eyni zamanda cəmiyyətimiz də bu yaramaz ünsürlərdən təmizləndi. Naxçıvan da təmizləndi.

Buraya, bu binaya, bu meydana mən dəfələrlə gəlmişəm. Rusiyanın diviziyası burada olanda da gəlmişəm – çox yüksək səviyyədə qayda-qanun vardı. Ancaq sonra, biz bunu Azərbaycanın əmlakı etsək də, ayrı-ayrı nadanlar gətirilib buraya qoyulandan sonra da gəldim və buraları bərbad vəziyyətdə gördüm. Ürəyim ağrıyırdı, əziyyət çəkirdik.

Belə çətin proseslərdən keçib, indi artıq Naxçıvan Muxtar Respublikasının ərazisini qorumaq üçün yararlı bir ordunun təşkilinə nail olmuşuq. Mən bu gün buranı, burada olan qanun-qaydanı, mühiti görürəm və deyə bilərəm ki, keçmiş sovet ordusunun vaxtındakından heç də əskik, ondan aşağı səviyyədə deyil, hesab edirəm ki, ondan da yuxarı səviyyədədir.

Beləliklə, burada – Naxçıvanda Azərbaycan Milli Ordusunun böyük bir hissəsi yaranıb və yaranır. Mən Azərbaycan Milli Ordusunun vəziyyəti ilə daim maraqlanır, ona qayğı göstərir, sizin işləriniz, vəziyyətiniz haqqında məlumat alıram. Məmnunam ki, burada işlər normal səviyyədə gedir, Naxçıvanın blokada şəraitində olmasına, Azərbaycanın əsas torpağından ayrı düşməsinə, bir çox çətinliklərin, problemlərin olmasına baxmayaraq, Naxçıvanda yerləşən hərbi hissələr çox yaxşı vəziyyətdədir. Bu, bizim borcumuzdur, bunu edirik və mən məmnunam ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, onun sədri və Naxçıvanda yerləşən bu hərbi hissəsinin koman[494-495]danlığı bizim göstərdiyimiz qayğı və diqqətdən səmərəli istifadə edirlər və artıq burada lazımi qanun-qayda yaranır.

Əziz övladlarımız, Azərbaycan Ordusunun əsgərləri, zabitləri, siz şərəfli xidmətdəsiniz. Orduda xidmət etmək Azərbaycanın hər bir vətəndaşının şərəfli borcudur. Müstəqil Azərbaycan Respublikasının Milli Ordusuna xidmət etmək hər bir azərbaycanlı üçün böyük iftixardır, fəxr edə bilərsiniz. Fəxr etməlisiniz ki, xalqımız sizə bu şərəfli vəzifəni etibar edibdir. Xalqımız sizə ümid bəsləyir, arxalanır və sizə etibar edərək, ümid bəsləyərək rahat yaşaya bilir, respublikamızın işğal edilmiş torpaqlarının azad olunmasına böyük ümidlərlə yaşayır və Azərbaycanın ərazi bütövlüyünün təmin olunacağına heç də şübhə etmir.

Azərbaycan Ordusu gəncdir. Siz əsgərlər də ilk günlərdən Azərbaycan Ordusunun əsasını qoyanlardansınız. Ona görə də öz məsuliyyətinizi dərk etməlisiniz, bunu daim düşünməlisiniz və Vətən, millət, müstəqil Azərbaycan qarşısında borcunuzu şərəflə yerinə yetirməyə çalışmalısınız. Heç şübhə yoxdur ki, Azərbaycan Ordusu gündən-günə güclənəcəkdir. Ona görə ki, müstəqil Azərbaycan dövləti özünə layiq güclü orduya malik olmalıdır. Eyni zamanda Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüzlə əlaqədar ordumuz daha da güclü olmalıdır.

Biz Ermənistan ilə Azərbaycan arasındakı hərbi münaqişəni sülh yolu ilə həll etməyə çalışırıq. Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz respublikamıza, xalqımıza böyük maddi-mənəvi zərbələr vurubdur. Ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal edilmiş torpaqlardan bir milyondan artıq vətəndaşımız qaçqın düşmüşdür. Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası xüsusən ağır vəziyyətə düşüb, çünki Naxçıvanı Azərbaycanın paytaxtı və başqa bölgələri

ilə bağlayan bütün xətlər – nəqliyyat, rabitə hamısı kəsilib, Naxçıvan blokada vəziyyətindədir. Bunlar da Azərbaycana vurulan maddi-mənəvi zərbələrdir.

Buna baxmayaraq, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Məhz buna görə də 1994-cü ilin mayında atəşkəs haqqında saziş əldə etmişik. Bu sazişə riayət edir, mütəmadi olaraq cürbəcür istiqamətlərdə fəaliyyət göstərir, danışıqlar aparır, beynəlxalq təşkilatların, böyük dövlətlərin imkanlarından istifadə edir, Ermənistanla bilavasitə danışıqlar aparırıq və bunların hamısını məsələnin sülh yolu ilə həll olunmasına yö[495-496]nəldirik. Mən inanıram ki, biz buna nail olacağıq. Çünki artıq hiss olunur ki, Ermənistanda da anlayıblar, başa düşüblər ki, onlar istədiklərinə zor ilə, güc ilə nail ola bilməyəcəklər. Yəni Azərbaycan torpaqlarının bir hissəsini – Dağlıq Qarabağı əllərinə keçirə bilməyəcəklər. Biz heç vaxt Azərbaycan torpaqlarının bir qarışını, bir metrini də əlimizdən verməyəcəyik. Xalqımız buna əmin ola bilər. Yaranmış vəziyyət müvəqqətidir, biz Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına, torpaqlarımızın etibarlı müdafiəsinə, sərhədlərimizin bərpa edilməsinə nail olacağıq.

Ermənistanın bəzi təcavüzkar qüvvələri güman edirlər ki, keçmişdə əldə etdikləri müəyyən hərbi üstünlüyə görə istədiklərinə nail ola bilərlər. Yox! Dəfələrlə elan etmişik ki, müharibəyə son qoyulmalıdır, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxmalı və Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsi kimi bundan sonra da Azərbaycanda olmalıdır. Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət statusu verilə bilər. Biz Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına heç vaxt yol verməyəcəyik. Dağlıq Qarabağın hər hansı bir şəkildə olur-olsun müstəqilliyinə yol verməyəcəyik.

Doğrudur, Dağlıq Qarabağda və Ermənistanda olan mürtəce, təcavüzkar, qəsbkar qüvvələr öz niyyətlərini həyata keçirməyə çalışırlar, hətta noyabrın axırında Dağlıq Qarabağda "parlament", "prezident" seçkiləri elan ediblər. Ancaq məlumdur ki, Rusiya, Amerika Birləşmiş Ştatları hökumətləri bəyanat veriblər ki, bu addımı pisləyirlər, sülh prosesinə vurulan zərbə kimi qiymətləndirirlər və Azərbaycanın ərazi bütövlüyünü daim tanıdıqları kimi, indi də tanıyırlar, bu seçkilərin yolverilməz olduğunu bildirirlər. Şübhəsiz ki, təkcə bu deyil, bütün beynəlxalq hüquq normaları belə hallara imkan vermir. Belə separatçı hərəkətlər heç vaxt bir nəticə verə bilməz.

Yenə də deyirəm, biz bütün beynəlxalq təşkilatların imkanlarından, beynəlxalq hüquq normalarından istifadə edərək Azərbaycanın ərazi bütövlüyünü bərpa edəcək və işğal olunmuş torpaqların azad edilməsinə nail olacağıq.

Məhz buna görə də bizim güclü ordumuz olmalıdır. Məhz buna görə də ordumuz öz qüdrəti ilə sülhə nail olmaq işinə kömək etməlidir. Bizim güclü ordumuz olmalıdır ki, Azərbaycana qarşı hər hansı bir yeni təcavüzün, hərbi əməliyyatın qarşısı alınsın. Əminəm ki, ordumuz indi belə qüdrətə malikdir. Biz atəşkəs rejiminin pozulmasına heç vaxt yol ver[496-497]məyəcəyik. Ancaq atəşkəs rejimi pozularsa, Azərbaycan Ordusu, Azərbaycan xalqı onun qarşısını almağa da və layiqli cavab verməyə də qadirdir. Buna görə də Naxçıvan Muxtar Respublikasının ərazisində olan hərbi hissələr döyüş qabiliyyətini gündən-günə artırmalı, siz əsgərlər və zabitlər hərbi peşəni daha çox mənimsəməli, fiziki hazırlığınızı, səriştənizi artırmalı, orduda nizam-intizamı möhkəmləndirməli, silahdan, sərəncamınızda olan bütün vasitələrdən istifadə etməyə qadir olmalı, biliyinizi, bacarığınızı, qabiliyyətinizi daha da yüksəltməlisiniz. Bu, sizin borcunuzdur və əmin olduğumu bildirmək istəyirəm ki, bunu layiqincə yerinə yetirəcəksiniz. Bir daha qeyd edirəm, Naxçıvan Muxtar Respublikasının coğrafi vəziyyəti burada Azərbaycanın ərazisinin daha etibarlı qorunmasını tələb edir. Bu, sizdən daha yüksək sayıqlıq hər dəqiqə, hər saniyə hərbi əməliyyata başlamaq qabiliyyətində olmağı tələb edir. Əminəm ki, siz işinizi bu tələblərin hamısına uyğun quracaq və bunların hamısına cavab verməyə qabil olacaqsınız.

Ordu xalqın bir hissəsidir. Xalqla ordunun birliyi həmişə dövlətin də qüdrətini təmin edir, orduya da daha çox güc verir, xalqın da öz ordusuna daha çox etibar etməsinə əsas verir. Mən əminəm ki, Naxçıvan Muxtar Respublikasının ərazisində Naxçıvanın sakinləri, dövlət orqanları ilə burada olan ordu hissələri arasındakı sıx əlaqə bundan sonra da möhkəmlənəcək və siz hamınız birlikdə Azərbaycanın bu qədim diyarında, gözəl guşəsində respublikamızın dövlət müstəqilliyini bundan sonra da ləyaqətlə qoruyacaqsınız, Azərbaycan torpaqlarını müdafiə etməyə daim hazır olacaqsınız.

Eşq olsun Azərbaycan Ordusuna!

Yaşasın müstəqil Azərbaycan Respublikası! [497-498]

## NAXÇIVANIN SƏRHƏD DƏSTƏSİNİN ƏSGƏR VƏ ZABİTLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*30 oktyabr 1996-cı il*

Əziz sərhədçilər, əziz əsgərlər, zabitlər, müstəqil Azərbaycan Respublikasının sərhədlərini qoruyan, keşiyində duran döyüşçülər!

Sizi səmimi qəlbdən salamlayıram. Sizin simanızda Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının şəxsi heyətini, əsgərlərini, zabitlərini salamlayır, bu şərəfli işinizdə sizə uğurlar arzulayıram.

Müstəqil Azərbaycan Respublikası öz ərazisinin, sərhədlərinin sahibidir, müstəqil dövlət kimi öz sərhədlərini qorumalıdır və bunun üçün də sərhəd dəstələri, sərhəd qoşunları yaradılmışdır. Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının böyük sərhədi var. Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası bir tərəfdən Ermənistan ərazisi ilə böyük sərhədə malikdir. Eyni zamanda burada Naxçıvan Muxtar Respublikasının qonşu və dost ölkələrlə – İran və Türkiyə ilə böyük sərhədi var. Bu sərhədləri qorumaq üçün sərhəd dəstələri yaradılıb və bunlardan biri də Naxçıvan sərhəd dəstəsidir. Bu sərhəd dəstəsi hələ 1920-ci ildən fəaliyyət göstərən, keçmiş Sovetlər İttifaqına mənsub olan 41 nömrəli Naxçıvan sərhəd dəstəsinin maddi-texniki bazası əsasında yaranmışdır.

Mən bu sərhəd dəstəsini yaxşı tanıyıram. Gənc ikən, Naxçıvanda oxuyarkən sərhədçilərə çox maraq göstərər və bəzən bu sərhəd dəstəsinin ayrı-ayrı hissələrinə gedərdim. Sonra, Azərbaycanın rəhbəri işləyərkən respublikanın sərhədlərində olanda mütləq sərhəd dəstələrinə baş çəkərdim. Naxçıvan sərhəd dəstəsində də dəfələrlə olmuşdum. Sərhəd dəstəsinin, onun qərargahının məhz burda yerləşməsi və bu binaların tikilməsi, böyük bir şəhərciyin yaranması da o vaxt mənim bilavasitə iştirakımla olmuşdur. Hətta, bu şəhərciyi yaratmaq üçün Azərbaycan Respublikasının büdcəsindən böyük vəsait ayırmışdıq və bu binaların, kompleksin yaranmasına nəinki kömək etmişdik, demək olar, onu özümüz yaratmışdıq. [498-499]

Ancaq burada yerləşən sərhəd dəstəsi Sovetlər İttifaqının Sərhəd Qoşunlarının dəstəsi idi. Şübhəsiz ki, o, birbaşa Moskvaya tabe idi və biz də onlarla əməkdaşlıq edirdik.

Azərbaycan öz müstəqil yolu ilə getməyə başlayanda respublikamızda sərhəd dəstələri yaratmaq zərurəti meydana çıxdı. O cümlədən, burada Azərbaycanın ərazisindən ayrı düşmüş və o illərdə, elə indi də blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasında da bu problemi həll etmək lazım idi. Biz bu problemi həll etdik. Sovetlər İttifaqına mənsub olan sərhəd dəstələri o vaxt, 1992-ci ildə Rusiyanın sərəncamına keçmişdi. Azərbaycanın payını almaq üçün, bu əmlakın müstəqil Azərbaycanın ixtiyarına verilməsi üçün çox cəhdlər göstərilirdi. O vaxt Azərbaycan prezidenti fərman vermişdi ki, sərhəd dəstələrinin əmlakı bölünsün; 50 faizi Rusiya Federasiyasının, 50 faizi isə Azərbaycan Respublikasının sərəncamına verilsin.

Ancaq mən burada bununla razı olmadım. Bilirsiniz ki, o vaxt Naxçıvan Muxtar Respublikası müstəqil siyasət aparırdı və bu da ona görə idi ki, Azərbaycan Respublikasının o zamankı rəhbərliyi ölkənin mənafelərini qorumağa qadir deyildi, ona görə də burada Naxçıvanda Azərbaycanın mənafelərini qorumaq üçün, müstəqil siyasət aparmaq, təşəbbüslər etmək, müstəqil qərarlar qəbul etmək məcburiyyətində idim. Mən Azərbaycan prezidentinin verdiyi fərmanla razı olmadım, Rusiya Federasiyası ilə danışıqlar apardım və nəhayət, o vaxt burada yerləşmiş, keçmiş Sovetlər İttifaqına mənsub olmuş, sonra Rusiya Federasiyasının sərəncamında olan 41 nömrəli sərhəd dəstəsinin bütün əmlakı – həm bu qərargahda yerləşən, həm də sərhəd boyu zastavalarda, komendaturalarda olan bütün qurğular, silahlar, sursatlar, ləvazimatlar, texnika Naxçıvan Muxtar Respublikasının sərəncamına keçdi.

Böyük danışıqlardan, gərgin mübarizədən sonra buna nail olmaq mümkün oldu. Xatirimdədir, burada, bax bu meydanda, həmin o ağ binada qərargah rəisinin otağında biz sərhəd dəstəsinin Naxçıvan Muxtar Respublikasına təhvil verilməsi haqqında sənədlər imzaladıq. Beləliklə, bu dəstə son tüfənginə, tapançasına, avtomobilinə qədər Naxçıvan Muxtar Respublikasının, demək, Azərbaycan Respublikasının sərəncamına keçdi. Bu, bizim tariximizdə çox mühüm hadisədir və bu gün fürsətdən istifadə edib bunu yada salıram.

Ancaq ondan sonra bu dəstənin başına bəlalar da gətirdi[499-500]lər. Azərbaycanın o vaxtkı rəhbərliyi bizim iradəmizə zidd olaraq, bu dəstənin başına yaramaz bir adamı qoydu. Burada olan əmlakın çoxunu dağıtdılar, satdılar, pozdular və quruculuq işi əvəzinə, müstəqil Azərbaycanın sərhəd dəstələrinin yaradılması əvəzinə dağıdıcılıq işi getdi, sözün əsl mənasında quldurluq işi getdi. Bu gün etiraf etməliyəm ki, o vaxt mən burada Naxçıvan Muxtar Respublikasının başçısı olmağıma, şübhəsiz ki, həm burada, həm də bütün Azərbaycanda müəyyən qədər tanınmağıma baxmayaraq, onlar o qədər azğın, yaramaz mövqelər tuturdular ki, mənə də tabe olmur, quldurluqla, cürbəcür yaramaz işlərlə məşğul olurdular. Sağ-salamat, necə deyərlər, son iynəsinə, çöpünə qədər Rusiya Federasiyasının əlindən aldığımız əmlakın, sursatın bir hissəsi, təəssüflər olsun ki, sonra dağıdıldı.

Ancaq bu da çox çəkmədi. 1993-cü ildə Azərbaycanda vəziyyət dəyişiləndən, xalq məni Azərbaycanın prezidenti seçəndən sonra mən burada vəziyyəti normallaşdırmaq üçün dərhal sərəncamlar, göstərişlər verdim. Daim bura ilə maraqlanıram, vəziyyəti bilirəm, mənə məlumdur. Bu gün də görürəm ki, Azərbaycanın Naxçıvanda yerləşən sərhəd dəstəsi keçmişdə olduğu səviyyədən də bəlkə yüksəklərə qalxıbdır. Çünki, yenə deyirəm, buralarda çox olmuşam. Keçmişdə Sovetlər İttifaqı vaxtında bax, indi durduğum bu yerdə də dayanmışam. O vaxtlar Sovetlər İttifaqının əsgərləri, zabitləri ilə görüşmüşəm, bu binaları, zastavaları, komendaturaları gəzmişəm, sərhədi qarış-qarış keçmişəm, hamısını bilirəm. Ona görə də burada nə olmuşdu, biz nəyi aldıq, yəni Azərbaycanın sərəncamına keçirdik, nəyi dağıtdılar, sonra da nəyi bərpa etdik, – hamısını bilirəm.

Şübhəsiz ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov burada çox işlər görübdür. Sərhəd dəstəsinin komandiri çox iş görübdür, layiqli, gənc komandirdir. Sizin hamınız – zabit heyəti, şəxsi heyət çox iş görmüş, burada yararlı sərhəd dəstəsi yaratmısınız. Gördüyünüz bu işlərə görə sizə təşəkkür edir və əmin olduğumu bildirmək istəyirəm ki, əldə etdiyiniz nailiyyətləri daha da artıracaq, burada Azərbaycanın sərhəd qoşunlarının böyük bir dəstəsini nümunəvi dəstəyə çevirəcək və respublikamızın sərhədlərini etibarlı müdafiə edəcək, qoruyacaqsınız. Mən buna əminəm. Çünki əminəm ki, hər bir Azərbaycan vətəndaşı yaxşı bilir – Vətənini, torpağını, dövlətini, öz müstəqil Azərbaycanını qorumaq öz ata-anasını [500-501] qorumaq deməkdir, evini qorumaq deməkdir. Siz şərəfli xidmətdəsiniz və əmin olduğumu bildirmək istəyirəm ki, bunu layiqincə həyata keçirəcəksiniz.

Sizin hamınıza cansağlığı, işlərinizdə uğurlar arzu edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, təcrübənizi, biliyinizi gündən-günə artıracaq, sərhədləri möhkəmləndirəcəksiniz. Sərhədi qorumaq peşədir. Bunun xüsusi metodları, üsulu var və əmin olduğumu bildirmək istəyirəm ki, buna nail olacaqsınız. Sizin burada son vaxtlar gördüyünüz işdən məmnun qaldığımı bildirmək istəyir və bu işlərinizdə gələcəkdə də uğurlar diləyirəm.

Naxçıvan Muxtar Respublikasında sərhəd dəstəsinin komandiri daim yüksək rütbəli, polkovnik rütbəsində olubdur. İndi sizin sərhəd dəstəsinin komandiri gəncdir, ancaq qısa müddətdə çox işlər görüb, rütbəsi də mayordur. Sərhəd dəstəsinin komandiri bu dəqiqədən polkovnik leytenant rütbəsi alır. Ümidvaram ki, o, bu mükafata öz layiqli işi ilə cavab verəcəkdir. Sizə bir daha cansağlığı, işinizdə uğurlar arzulayıram. Sağ olun. [501-502]

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*Naxçıvan*

*31 oktyabr 1996-cı il*

Hörmətli deputatlar!

Oktyabrın 29-da Hüseyn Cavidin məqbərəsinin təntənəli açılışı mərasimində, oktyabrın 30-da Naxçıvan ictimaiyyəti ilə görüşdə və digər görüşlərdə biz ətraflı söhbət etmişik. Şübhəsiz ki, mənim sizə deməyə ürəyimdə çox sözlərim var. Ancaq çoxunu da demişəm. Hesab edirəm ki, indi əlavə müzakirəyə ehtiyac yoxdur. Mən bu gün günün birinci yarısında getməli idim, çünki Bakıda da işlər çoxdur. Ancaq İranın baş naziri buraya gəldi. Nəzərdə tutulmuşdu ki, bizim qısa görüşümüz olacaq. Lakin mənim onunla görüşüm dörd saat yarım çəkdi. Əvvəlcə nümayəndə heyətlərimizin görüşü, sonra isə bizim təkbətək görüşümüz oldu. Vasif Talıbov yəqin bu görüş barədə sizə ətraflı məlumat verəcəkdir.

İran hökuməti Naxçıvanın vəziyyətini nəzərə alaraq bir çox tədbirlər barədə qərar qəbul edibdir. Bu qərar sizə məlumdur. Güman edirəm ki, bu tədbirlər Naxçıvan Muxtar Respublikasının iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün bir çox imtiyazlar yaradır. Biz Naxçıvanın problemləri – qaz kəmərinin çəkilməsi, sement zavodunun tikilməsi, Naxçıvanın İran ərazisi vasitəsilə Bakı ilə əlaqələrinin sadələşdirilməsi, avtobusların gedib-gəlməsi, Naxçıvandan Təbrizə, Təbrizdən Naxçıvana qatarın işləməsi və digər bir çox məsələlər barədə danışıqlar apardıq. Bunların əksəriyyəti müsbət istiqamətdə həll olundu.

İran hökumətinin Naxçıvana aid qəbul etdiyi qərar böyük əhəmiyyətə malikdir. Yadımdadır, əvvəllər nə qədər çətinliklə razılıq verirdilər, hər rayondan qruplar üçün norma qoyulmuşdu ki, nə qədər adam gedib-gələ bilər. İndi burada muxtar respublikanın əhalisinə pasportlar verdilər. Bu pasportlardan mənə və Vasif Talıbova da verdilər. Naxçıvan Muxtar Respublikasının əhalisi həmin pasportlarla İran İslam Respublika[502-503]sının istənilən yerinə gedə bilər. Bu, Naxçıvan əhalisi üçün imtiyazdır və digər imtiyazlar da vardır.

Şübhəsiz ki, danışıqlarımız təkcə Naxçıvanla əlaqədar deyildi. Azərbaycan-İran əlaqələrinin yaxşılaşdırılması ilə əlaqədar danışıqlarımız oldu və ona görə də görüş, çox vaxt apardı. İndi mən artıq getməliyəm.

Sizə nə demək istəyirəm? Mən sizə son günlər burada dediyim sözləri bir daha bildirmək istəyirəm. Birincisi, mən üç il Naxçıvanda yaşamağımı və sizinlə, muxtar respublikanın əhalisi ilə birlikdə işləməyimi həyatımın, deyə bilərəm ki, ən parlaq, ən şərəfli bir dövrü hesab edirəm. Ona görə də mən nə doğulduğum yeri heç vaxt unuda bilərəm, nə də ki, üç il müddətində burada Naxçıvanın problemlərinin həll ilə əlaqədar sizinlə birlikdə gördüyümüz işləri, eyni zamanda Azərbaycanın həyatına təsir etdiyimiz işləri unuda bilərəm. Odur ki, mən sizə təşəkkür edirəm.

Biz sizinlə bir yerdə işləmişik, çalışmışıq. Çətinliklərimiz olubdur, bu salonda, o biri salonda müxtəlif danışıqlarımız olub. Bəzi insanlar anlamayıblar, başa düşməyiblər. Bəziləri bizim apardığımız tədbirlərə maneçilik törədiblər. Bilirsiniz ki, Naxçıvanda o vaxt dövlət çevrilişinə cəhd də göstərildi. İndi onun dörd ili tamam oldu. O vaxt, oktyabrın 24-də bu binanın ətrafındakı hadisələr xatirinizdədir. Burada başqa hadisələr də olub. Kim ki, düz yolla gedə bildi, – o, bu gün də bizimlədir, bizimlə bir yerdə gedir. Amma kim ki, anlamadı, başa düşmədi, şübhəsiz ki, onlar özləri məğlub oldular və həyatda da müvəffəqiyyət qazanmadılar.

Bilirsiniz ki, o vaxt mən burada işləyəndə Ali Məclisin tərkibində cürbəcür adamlar var idi. Gənc adamlar var idi ki, həqiqətən, bəlkə də vaxtilə milli azadlıq uğrunda, Azərbaycanın müstəqilliyi uğrunda çalışmışdılar. Ancaq onlar yollarını azdılar. Belə çıxdı ki, onlar təkcə milli mənafeyə görə yox, əksəriyyəti özlərinin şəxsi mənafeləri, məqsədləri üçün, sərvət yığmaqdan ötrü çalışırmışlar. Şübhəsiz ki, belələri cəmiyyətdə qala bilməzdilər. Ona görə də itdilər, dağıldılar. Mən buna çox təəssüf edirəm.

Siz bilirsiniz ki, bəziləri ilə mən burada saatlarla söhbət aparırdım. Bəlkə də bunu demək mənim üçün yaxşı deyil, amma bu qədər böyük həyat yolu keçmiş, dünya siyasətini dərk etmiş adam, dünyanın ən böyük fövqəldövləti olan Sovetlər İttifaqı kimi böyük bir dövlətin rəhbərlərindən biri olmuş [503-504] adam gəlib düşmüşdü Naxçıvana. Ondan istifadə etmək, öyrənmək, təcrübə almaq lazım idi. Ancaq bəziləri burada iddia irəli sürürdülər, hətta gəlib bizə necə yaşamağı, işləməyi öyrətmək istəyirdilər, cürbəcür cılız hərəkətlər edirdilər. Mən bunlara çox heyfsilənirəm.

Bir çoxlarına dəfələrlə demişdim ki, sənin yaşın mənim oğlumun, qızımın yaşındadır. Gəl öyrən, bəlkə sən doğrudan da siyasətçi olacaqsan. Dövlətə xidmət etmək istəyirsənsə, xidmət edə bilərsən, başqa iş görə bilərsən. Ancaq yox, məlum oldu ki, onların hamısı yalnız özlərini düşünürdü. Mən çox heyfsilənirəm. Mən heç kəsin həyatda puç olmasına, yaxud da itib-batmasına razı deyiləm. Yaranan hər bir insan həyatda yaşamalıdır,

inkişaf etməlidir, öz yerini tapmalıdır. Amma öz yerini, özünə məxsus olan yerini tapmalıdır. Kim ki, öz biliyindən, bacarığından artıq iddialar edir, o həmişə məğlub olur. Belələri də məğlub oldular.

Ancaq bunlar üç il burada sizinlə birlikdə yaşadığımız dövrün xarakterik cəhəti deyil. Xarakterik cəhəti odur ki, biz sizinlə üç il bir yerdə yaşadıq, Naxçıvanı yaşatdıq, muxtar respublikanı bu günə çıxarmışıq və hesab edirəm ki, bundan da yaxşı günlərə çıxaracağıq. Ötən günləri xatırlayanda, indi Naxçıvan demək olar ki, çox gözəl bir vəziyyətdə yaşayır. Yenə də deyirəm, bundan sonra yəqin ki, daha da yaxşı olacaqdır.

Mən Naxçıvandan gedəndən sonra, təəssüf ki, burada vəziyyət bir az hamar getmədi. Çox təəssüf edirəm ki, mən buradan gedəndən sonra Ali Məclisin sədri seçdiyimiz Namiq Həsənov göstərilən etimadı doğrulda bilmədi. Onu heç kim yox, şəxsən mən özüm təqdim etdim, özüm məsləhət bildim və hesab etdim ki, o, təcrübəli, müəyyən qədər dünyagörmüş adamdır. Ancaq görürsünüz, vəzifə insanları necə korlayır, xarab edir. Bax, insanlar gərək bu xəstəlikdən özlərini qorusunlar. Bu adam gəlib burada Ali Məclisin sədri olandan sonra tamamilə dəyişdi, Naxçıvanda özünün əvvəlki hörmətimi itirdi. Şübhəsiz ki, mənim də yanımda olan hörmətini itirdi. Amma buna baxmayaraq, mən yenə ona qayğı göstərdim, Bakıya apardım, nazir müavini təyin etdim. İşləsin, əgər öz səhvlərini başa düşüb işləyə bilərsə, yenə də qabaqda yol böyükdür, gedə bilər. Mən hər bir kəsə də tövsiyə edirəm ki, göstərilən etimadı qiymətləndirsin, etimada sədaqətlə xidmət etsin.

Sonrakı dövrdə, xüsusən Azərbaycanın Konstitusiyası qəbul [504-505] ediləndən, Naxçıvanda seçkilər keçiriləndən, Ali Məclis təşkil olunandan sonra muxtar respublikada işlər normal vəziyyətdədir. Görürəm ki, artıq siz birləşmisiniz, bir yolla gedirsiniz və qısa müddətdə Naxçıvanda çox işlər görülübdür. Gənc olmağına baxmayaraq, Vasif Talıbov, görünür, o gənclərdən oldu ki, başqalarına nisbətən təcrübədən istifadə etməyi bacardı, çalışdı, müəyyən təcrübə topladı və indi muxtar respublikaya rəhbərlik edir. Ali Məclisin sədri kimi bir vəzifəni aparır. Amma təkcə Vasif Talıbov deyil, sizin hamınız keçən günlərdən nəticə çıxarmısınız və yenə də nəticə çıxarmaq lazımdır. 70-ci illərdən də, 80-ci illərdən də, xüsusən 90-cı ildən bəri olan dövrdən də nəticə çıxarmaq lazımdır.

Azərbaycanda gedən proseslər və vəziyyət, apardığımız siyasət və əməli işlər sizə məlumdur. Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan dayaqdır. Azərbaycanda dövlət çevrilişi etmək, müstəqilliyimizə xəyanət etmək cəhdləri zamanı mən xalqa müraciət edərkən Naxçıvan camaatı yenə də ayağa qalxdı, Azərbaycanın müstəqilliyini yenə də qorudular, mənə dayaq oldular. Əminəm ki, bundan sonra da dayaq olacaqlar.

Dünən mən sarayda bir neçə söz də dedim: təəssüf ki, bəzi naxçıvanlılar belə vəziyyətdən sui-istifadə etdilər. Bilirsiniz ki, mən üç il burada olduğum dövrdə Bakıda yaşayan naxçıvanlıların bəzilərinin buraya ayağı da dəyməmişdi, gəlməmişdilər. Vaxtilə gedib Mütəllibova, Vəzirova və digər adamlara qoşulmuşdular, öz şəxsi məqsədlərinə nail olmaq üçün Naxçıvana qarşı xəyanətkar mövqe tuturdular. Xatırlayırsınız, 1991-ci ildə vilayət partiya komitəsini bağlayanda bir qrup deputatı buraya çağırdılar. Bakıya apardılar, orada müşavirə keçirdilər və Naxçıvanı dağıtmaq istədilər. Xatirinizdədir ki, Mütəllibovun apardığı o iclasın protokolunu o vaxt mən ələ keçirdim. Biz onu burada müzakirə etdik, qəzetlərdə dərc etdirdik. Bunları edənlər kimlər idi? Naxçıvanlılar idi.

Sentyabrın 3-də, biz burada Naxçıvanı xilas etdiyimiz bir zaman onlar gedib Mütəllibovun iclasında iştirak etmişdilər və Mütəllibovun səsinə səs vermişdilər. Biz Mütəllibovun prezident seçilməsinin qarşısını alarkən, burada Ali Məclisdə neçə nəfər adam durub bunun əleyhinə çıxdı və hətta buradan teleqram göndərdilər ki, biz Mütəllibova səs veririk. Onlar bəyanat verdilər ki, guya biz düz etmirik. İndi kim düz oldu? Mü[505-506]təllibova səs verənlər kimlər idi? Buradan, ayrı-ayrı yerlərdən teleqram göndərib səs verənlər (bunlar hamısı qəzetdə dərc olunub) – o yaltaqlar, pozğun adamlar kimlər idi?

Onların bəziləri o vaxt Mütəllibova yaltaqlıq edirdilər, Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra gedib onlara yaltaqlıq etdilər. Nəyə görə? Ona görə ki, vəzifə almaq istəyirdilər. Vəzifədən ötrü yaşayan adamlar bədbəxt adamlardır. Belə adamlar naxçıvanlıların nifrətini həmişə qazanıblar və bundan sonra da qazanacaqlar. Ancaq öz əqidəsi, saf amalı, mənəviyyatı ilə yaşayan adamlar bütün çətinliklərdən çıxıblar və çıxacaqlar.

O vaxt bəzilərini televiziyaya çıxardılar, bəziləri gedib bəyanat verdilər ki, Naxçıvan Azərbaycandan ayrıldı. Burada Mütəllibovun seçkisi keçirilməyəndə gedib yazdılar ki, Naxçıvanı Azərbaycandan ayırırlar. Naxçıvanı Azərbaycandan kim ayıra bilər? Bu heç vaxt ola bilməz. Heç kəs belə fikirdə ola bilməz. Amma ayrı-ayrı adamlar bunu etdilər. Təəssüf ki, indi belə adamlar və onlara bənzər adamlar Bakıda özlərini çox azğıncasına aparırlar. Orda-burda "mən naxçıvanlıyam" deyib bildirirlər ki, "mənə heç nə etmək olmaz". Deyirlər ki, "mən naxçıvanlıyam və qanunu poza bilərəm. Naxçıvanlıyam, onu edə bilərəm, bunu edə bilərəm".

Bilirsiniz, saf mənəviyyatlı, qeyrətli, namuslu naxçıvanlıların qarşısında mən həmişə baş əymişəm və baş əyirəm. Bu müqəddəs Naxçıvan torpağı mənim üçün əziz bir yerdir. Mən bu torpağın qarşısında baş əyirəm, Mən xüsusən 1990-cı ildəki o ağır dövrdə buraya gələndən sonra mənə dayaq duran adamlara, mənə kömək edənlərin – bu, naxçıvanlıların tam əksəriyyəti idi – hamısına təşəkkür edirəm və onlara minnətdaram. Ancaq o vaxt mənə də, öz analarına, atalarına da, öz torpaqlarına da, Naxçıvana da xəyanət edənlərə nifrət edirəm. İndi onların bəziləri naxçıvanlılar adından gedib cürbəcür qanunsuz işlər görürlər, Naxçıvanın da , naxçıvanlıların da adını ləkələyirlər və prezident kimi mənə də ləkə gətirirlər. Mən xahiş edirəm ki, belələrinə yol verməyin.

Bilirsiniz, onsuz da naxçıvanlılar özlərinə məxsus ad qazanıblar. Eyni zamanda, nə qədər böyük hörmət qazansan da, gərək başını o qədər aşağı tutasan, o qədər təvazökar olasan, qanun çərçivəsində işləyəsən, yüksək mənəviyyata malik olasan. Haralı olur-olsun – naxçıvanlı, bakılı, şəkili, gəncəli, qarabağlı olsun, – qanunu pozan, vəzifəsindən sui-istifadə edən [506-507] adamlara mən heç vaxt bəraət qazandırmamışam. Keçmişdə də, 1970-1980-ci illərdə də mənim yolum belə adamlarla bir ola bilməyib. Amma o insanlar ki, sədaqətlidirlər, saf mənəviyyatla, amallarla yaşayırlar, xalqına, millətinə, torpağına xidmət edirlər, dövlətin qanun-qaydalarına tabe olurlar, bu qanun-qaydaları qoruyurlar və onların həyata keçirilməsinə çalışırlar – belə adamlar həmişə mənim silahdaşlarımdır, mənimlə birdirlər və mən də bu adamlarla birlikdəyəm. Ona görə də mən sizdən rica edirəm ki, Azərbaycanın başqa yerlərində, xüsusən Bakıda Naxçıvan torpağına ləkə gətirən adamlara yol verməyin. Mən bunu dünən də burada dedim, sizə də deyirəm. Çünki bu, bizim üçün, Azərbaycan üçün çox vacib və lazımlı məsələdir.

Mən əminəm ki, siz bundan sonra daha da yaxşı işləyəcəksiniz. Yaxşı işləmək üçün şərait yaranıbdır. Naxçıvanda iqtisadi vəziyyət get-gedə düzəlir. İqtisadi islahatları həyata keçirirsiniz və keçirməlisiniz. Xüsusən, aqrar sahədə olan islahatlar, özəlləşdirmə və Azərbaycanın qanunları əsasında yerinə yetirilən bütün islahatların həyata keçirilməsi Naxçıvan Muxtar Respublikasının iqtisadi vəziyyətini gündən-günə yaxşılaşdıracaqdır.

Baxın, 1992-ci ildə bizim burada – Ali Məclisdə qəbul etdiyimiz qərar Azərbaycanın çox yerində indi həyata keçirilir. O vaxt biz bu qərarları qəbul etdik. İndi Naxçıvanda heyvandarlıq məhsulları sahəsində problem yoxdur. Elədirmi? Ət, süd problemi yoxdur. Burada qısa müddətdə şəkər çuğunduru əkilməyə başlanıbdır. İndi mənə dedilər ki, bu il 20 min ton şəkər çuğunduru istehsal ediləcəkdir. Bu məhsuldan Türkiyədə şəkər istehsal olunub gətiriləcəkdir. İndi sərbəstlik verilib, burada özəl çörəkbişirmə sexləri yaradılıb, çörək problemi aradan götürülübdür. Mənim yadımdadır, vaxtilə çörək mağazaları qarşısında nə qədər növbələr, davalar, qalmaqal olurdu, indi özəl sektorda çörək bişirilir və Naxçıvan çörəklə təmin. edilir, qış üçün bütün ehtiyat var, belə bir ehtiyat yaranıbdır. İndi çörək problemi yoxdur. Zavodda bişirilən çörəyin miqdarı nisbətən azalıb. İndi rəqabətdir, – əgər özəl sexlərdə yaxşı çörək bişirilirsə, gedib çörəyi oradan alacaqlar. Əgər onlar bişirə bilməsələr bir müddətdən sonra müflisləşəcəklər. Mən bunu açıq deyirəm. Bu, aydın bir işdir.

Bəli, iqtisadi islahatlar ilk addımdır. Bunlar artıq öz nəticəsini verir və verəcəkdir. Mən əminəm və sizi əmin edirəm ki, [507-508] Azərbaycanın iqtisadi problemləri iki-üç il içərisində həll olunacaqdır.

Bizim əsas problemimiz Ermənistanın Azərbaycana təcavüzünü aradan qaldırmaq, işğal olunmuş torpaqlarımızı azad etmək, respublikanın ərazi bütövlüyünü təmin etməkdir. Bu sahədə nə kimi işlər görüldüyü sizə məlumdur. Naxçıvanda artıq televiziya xətti də bərpa edildi. İndi siz Azərbaycan televiziyasının bütün verilişlərinə birbaşa baxa bilirsiniz. Bu, peyk antenası vasitəsilə edildi. İndi siz telefonla Bakı və başqa yerlərlə rahat danışa bilirsiniz. Elektrik enerjisi məsələlərini həll etmişik. Bakıda və bu gün burada keçirilən danışıqlarda bu məsələlər ətraflı müzakirə edilib həll olundu. Başqa problemlər də həll ediləcəkdir. Yəni Naxçıvan artıq 1991-1992-1993-cü illərdə olan Naxçıvan deyil, Naxçıvan indi tamamilə başqadır. Naxçıvanlılar buna layiqdirlər, Naxçıvanlılar bu haqqı qazanıblar. Naxçıvanlılar özlərinin dəyanəti, dözümlüyü, qüdrəti, cəsarəti və mənəvi saflığı ilə bu haqqı qazanıblar. Ona görə də Naxçıvan bundan sonra da günü-gündən yaxşılaşacaq və çiçəklənəcəkdir.

Əlbəttə, mən istəyirdim ki, burada sizinlə daim yaşayam. Ancaq həyat buna imkan vermədi. Mən getdim, amma ürəyim buradadır.

Hamınıza cansağlığı arzulayıram, işlərinizdə müvəffəqiyyətlər diləyirəm. Naxçıvan Muxtar Respublikasının rəhbərliyi ətrafında sıx birləşin və işi gündən-günə yaxşılaşdırın.

Sağ olun, salamat qalın. [508-509]

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ BORİS YELTSİN CƏNABLARINA**

Əziz Boris Nikolayeviç!

Bu gün səhər səhhətinizlə əlaqədar cərrahiyyə əməliyyatı başlandığından xəbər tutdum. Sizə dostluq hisslərimi bildirirəm, səmimi qəlbdən əməliyyatın müvəffəqiyyətlə başa çatmasını və tezliklə sağalmağınızı arzulayıram.

Naina İosifovnaya, ailənizin bütün üzvlərinə dözüm və mətanət arzulayıram.

İnanıram ki, həyatında çətin sınaqlardan keçmiş bir insan kimi Siz xəstəliyə müvəffəqiyyətlə tab gətirəcək, ona qalib gələcəksiniz və Rusiyanın əmin-amanlığı, çiçəklənməsi naminə fəal işə qayıdacaqsınız.

Sizi bağrıma basıram.

Dərin hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 noyabr 1996-cı il* [509-510]

Kitabın hazırlanmasında iştirak edənlər: Tofiq Babayev, Müzəffər Maşayev, Arif Məmmədov, Kamil Muxtarov, Azər Fərzəliyev.

Rəssamı *Fuad Fərəcov*

Redaktorları *Tofiq Babayev, Kamil Muxtarov*

Texniki redaktoru *Zoya Nəcəfova*

"Tayms" qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı № 1. Şərti çap vərəqi 32.3. Uçot nəşr vərəqi 32,0. Tirajı 5000. Sifariş 147. Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi.

Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, – 370005, Hüsü Hacıyev küç. 4.

Yığılmışdır "Şərq-Qərb" mətbəəsində. Bakı, Aşıq Ələsgər küç. 17.

"Qismət" Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.